# İLHAM ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

# İLHAM ƏLİYEV

# ƏLLİ DOQQUZUNCU KİTAB

## SENTYABR 2013 - OKTYABR 2013

**AZƏRNƏŞR**
**BAKI - 2018**

# İLHAM ƏLİYEV

## ÇIXIŞLAR * NİTQLƏR

## BƏYANATLAR * MÜSAHİBƏLƏR

## MƏKTUBLAR * MƏRUZƏLƏR

## MÜRACİƏTLƏR

**AZƏRNƏŞR**
**BAKI – 2018**

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56 İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2018, 400 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf–məqsədimizdir» çoxcildliyinin bu cildində də respublikamızın sürətli iqtisadi tərəqqisi və yüksəlişi, xalqımızın rifahının yaxşılaşdırılması üçün aparılan islahatlara həsr olunmuş materiallar toplanmışdır.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilmiş İlham Əliyevin andiçmə mərasimində dövlətinə və xalqına sədaqətlə ximət edəcəyinə dair nitqi, həmçinin dövlət başçısının xarici dövlət və hökumət rəhbərləri, siyasi xadimlər, nümayəndə heyətləri ilə görüşləri, söhbətləri, nitq və çıxışları, nüfuzlu mətbuat orqanlarına və televiziya kanallarına verdiyi bəyanat və müsahibələri, müraciət və məktubları da kitabda geniş yer tutmuşdur.

Eyni zamanda dövlət başçısının regionlara səfəri və səfər çərçivəsində mədəniyyət mərkəzlərinin, müəssisə və zavodların, digər iaşə obyektlərinin açılışında nitqləri, bölgə ictimaiyyətinin nümayəndələri ilə görüş və çıxışları daxil edilmişdir.

**ISBN 978-9952-8100-7-3**

**Я $\frac{0801000000}{М – 651(07) – 2018}$**

**ББК - 32**

© Azərnəşr, 2018

# CƏNUB BÖLGƏSİNİN GƏNCLƏRİ İLƏ GÖRÜŞ

*5 sentyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 5-də Lənkəranda Gənclər Mərkəzinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı yeni mərkəzdə cənub bölgəsinin ali məktəblərə builki qəbul imtahanlarında yüksək bal toplamış gəncləri ilə görüşdü.*

*Azərbaycan Prezidenti görüşdə çıxış etdi.*

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Bu gün biz Lənkəranda yeni Gənclər Mərkəzində toplaşmışıq. İlk növbədə, Lənkəran gənclərini və bütün Azərbaycan gənclərini bu mərkəzin açılışı münasibətilə təbrik etmək istəyirəm. Gözəl mərkəzdir və ümumiyyətlə, gözəl təşəbbüsdür ki, artıq ölkəmizin müxtəlif yerlərində, demək olar, hər bir şəhərdə gözəl gənclər mərkəzləri tikilir, gənclərin sərəncamına verilir. Bu mərkəzlər həm memarlıq baxımından göz oxşayır, eyni zamanda, onların funksional mahiyyəti də çox önəmlidir. Burada müxtəlif tədbirlər keçirilə bilər, gənclər öz problemlərini müzakirə edə bilərlər. Əyləncə üçün burada imkanlar vardır – kinozal, tir. Əminəm ki, Lənkəran gəncləri bu mərkəzdən səmərəli şəkildə istifadə edəcəklər. Qeyd etdiyim kimi, hər bir şəhərdə müasir Gənclər evi, yaxud Gənclər Mərkəzi tikilir. Bir çox yerlərdə artıq tikilmişdir.

Azərbaycanda, ümumiyyətlə, çox düşünülmüş və məqsədyönlü gənclər siyasəti aparılır. Bu siyasətin təməlində ulu öndər Heydər Əliyevin tövsiyələri dayanır. 1993-cü ildən başlayaraq bütün sahələrdə olduğu kimi, gənclər siyasəti istiqamətində də

çox vacib addımlar atılmışdır. Görülən işlərin nəticəsidir ki, bu gün Azərbaycan gəncləri çox böyük işlərə imza atırlar, cəmiyyətdə çox mühüm rol oynayırlar. Gənclərin fəallığı, onların bilikləri bu gün ölkəmizi gücləndirir.

Bu gün Azərbaycanda gənclər siyasəti uğurla aparılır. Müxtəlif layihələr, proqramlar icra edilir. Mən xüsusilə Azərbaycan Gəncliyi Dövlət Proqramını qeyd etmək istərdim. Bu proqram qəbul olunarkən cəmiyyətdə, xüsusilə gənclər arasında geniş müzakirələr aparılmışdı. Gənclər tərəfindən irəli sürülmüş təkliflərin bir çoxu bu proqrama daxil edilmişdir. Proqram konkretdir, orada konkret məsələlər öz əksini tapmışdır və uğurla icra edilir.

Ondan sonra yenə də gənclərin təklifini nəzərə alaraq mənim sərəncamımla Azərbaycan Gənclər fondu yaradılmışdır. Fondun əsas vəsaiti Prezidentin ehtiyat fondundan təmin edilir. Bu da gənclər siyasətinə olan münasibətin təzahürüdür. Çünki ehtiyat fondundan ancaq ölkə üçün ən əhəmiyyətli layihələrə vəsait ayrılır. Gənclər fondu artıq uğurla fəaliyyət göstərir, müxtəlif layihələr icra edilir. Gənclər bu işlərə cəlb olunur və ölkəmizin gələcəyi, ölkədə gedən proseslərlə bağlı müxtəlif layihələrin icra edilməsi üçün Gənclər fondu öz vəsaitindən istifadə edir.

Gənclərin məişət problemləri həll edilir. Hesab edirəm ki, gələcəkdə bu işlərə daha da böyük diqqət göstərilməlidir. Bilirəm ki, gəncləri maraqlandıran, narahat edən məsələlərdən biri də mənzil problemidir. Azərbaycanda artıq ipoteka kreditləşməsi tətbiq olunur. Hesab edirəm ki, gənclər bu işlərə daha da fəal cəlb edilməlidir. Müvafiq göstərişlər verilmişdir. Gənclər və İdman Nazirliyi təkliflər hazırlayır ki, biz gəncləri ipoteka layihəsi ilə əhatə edə bilək.

Bir sözlə, Azərbaycan dövləti bu istiqamətdəki siyasətini daim gücləndirir. Bunun nəticəsidir ki, bu gün Azərbaycan gəncləri yenə də demək istəyirəm ki, cəmiyyətin fəal üzvləridir və cəmiyyətdə çox müsbət rol oynayırlar.

Siz bu bölgəni təmsil edən gənclərsiniz. Siz qəbul imtahanlarında ən yüksək bal toplamış gənclərsiniz. Mən bu

münasibətlə sizi ürəkdən təbrik edirəm. Prezident kimi, sizə öz minnətdarlığımı bildirmək istəyirəm ki, siz məktəbdə yaxşı oxumusunuz.

Bunun nəticəsidir ki, siz bu gün ən yüksək bal toplaya bilmisiniz. Bu onu göstərir ki, oxumaq istəyən, öz gələcəyi haqqında düşünən, istedadlı, bilikli gənclər təhsil sahəsində öz yolunu seçə bilərlər. Əminəm ki, siz ali məktəblərdə də yaxşı oxuyacaqsınız, əlaçı olacaqsınız. Çünki məktəb illərində göstərdiyiniz nəticələr bunu deməyə əsas verir. Nəticədə bir neçə ildən sonra artıq cəmiyyətdə peşəkar kadrlar kimi, öz sözünüzü deyəcəksiniz.

Sizin fəaliyyətiniz gələcəyinizi müəyyən edəcəkdir. Çünki bu gün Azərbaycanda yüksək biliklərə malik olan insanlar özləri üçün yaxşı yer tapa bilərlər. Bu gün cəmiyyətdə artıq bir fikir formalaşıb ki, yaxşı oxuyan, böyük biliklərə malik olan insanlar həyatda özləri üçün yaxşı şərait də yarada biləcəklər. Çünki Azərbaycan cəmiyyəti açıq cəmiyyətdir. Azərbaycan cəmiyyəti demokratik cəmiyyətdir. Azərbaycanda bazar iqtisadiyyatı prinsipləri tam şəkildə tətbiq olunur. Ona görə gözəl mütəxəssislər, peşə sahibləri cəmiyyətdə öz yerlərini mütləq tapacaqlar və xoşbəxt gələcəklərini təmin edəcəklər. Sizin bilikləriniz ölkəmizin inkişafına töhfə olmalıdır, əminəm ki, olacaqdır. Çünki bu gün Azərbaycan çox sürətlə, dinamik şəkildə inkişaf edir. Hər bir ölkənin inkişafını vətəndaşların bilikləri müəyyən edir. İndi siz istedadlı gənclərsiniz, dünyada gedən prosesləri izləyirsiniz, təhlil etmək imkanlarınız vardır. Görürsünüz ki, qabaqcıl ölkələr ona görə inkişaf edir ki, orada biliyin, təhsilin, elmin səviyyəsi yüksəkdir. Hər bir ölkənin inkişafını bilik müəyyən edir. Əvvəllər də belə olub. Tarixdə də belə olub. Ən önəmli ixtiralar ölkələri inkişaf etdirib. Hərbi sahədə ixtiralar ölkələrin hərbi gücünü formalaşdırıb. Elm sahəsində ixtiralar ölkələrə əlavə gəlir gətirmişdir. Bu gün inkişaf daha çox bilikdən asılıdır. Çünki bu gün biz informasiya-kommunikasiya texnologiyaları dövründə yaşayırıq. İnformasiya-kommunikasiya texnologiyaları çox

sürətlə inkişaf edir. Bu gün hər bir ölkənin gələcəyini cəmiyyətdə olan biliyin səviyyəsi müəyyən edir. Bu aksiomadır. Biz hamımız, əlbəttə, dövlət və vətəndaşlar çalışmalıyıq ki, Azərbaycanda ümumi səviyyə yüksək olsun və istedadlı gənclər, insanlar ön plana çıxsınlar.

Əminəm ki, sizin gələcək fəaliyyətiniz də sizin üçün, ölkəmiz üçün uğurlu olacaq. Beləliklə, gələcəkdə siz hərəniz öz yerinizdə ölkəmizin inkişafına töhfənizi verəcəksiniz.

Ölkəmizin inkişafı isə çox dinamikdir, uğurludur. Son illərdə Azərbaycan dünya miqyasında ən sürətlə inkişaf edən ölkədir. Gələcək planlarımız da çox böyükdür. Görüləcək işlər Azərbaycanı inkişaf etmiş ölkələrin sırasına daxil etməlidir. Hər halda, qarşıya belə vəzifə qoyulubdur. Hesab edirəm ki, buna nail olmaq üçün imkanlarımız vardır. Müstəqilliyimizin son 20 ili bunu təsdiqləyib. Son 20 il ərzində Azərbaycan yalnız inkişaf yolu ilə getmişdir.

Siz gəncsiniz. Müstəqilliyimizin ilk illərini xatırlamırsınız. Ancaq yəqin ki, tarixdən oxumusunuz, görmüsünüz, eşitmisiniz. Müstəqilliyimizin ilk illəri ölkəmiz üçün çox ağır keçib. Ölkə idarəolunmaz vəziyyətdə idi, böhran içində idi. Hərbi, iqtisadi, siyasi böhran ölkəmizi uçuruma aparırdı. 1991–1993-cü illər bizim qara səhifəmizdir. Əfsuslar olsun ki, o vaxtkı rəhbərlik müstəqillik şansından istifadə edə bilmədi və biz 2 il itirdik. Bu itkilər çox ağır itkilər olmuşdur. Torpaqlarımızın bir hissəsi işğal altına düşdü. Ölkədə xoşagəlməz proseslər baş verdi. İqtisadiyyat tamamilə iflic vəziyyətdə idi. Ancaq 1993-cü ildə ulu öndər Heydər Əliyevin rəhbərliyə qayıdışından sonra bütün xoşagəlməz halların qarşısı alındı və Azərbaycan sürətlə inkişaf etməyə başladı. Bu gün bu siyasi xətt davam etdirilir. Əminəm ki, bundan sonra da davam etdiriləcəkdir. Çünki son 20 ilin təcrübəsi onu göstərir ki, bu xətdən başqa, Azərbaycana xeyir gətirə biləcək heç bir siyasət ola bilməz. Ölkəmizin dinamik və dayanıqlı inkişafını təmin etmək üçün gələcəkdə sizin kimi gənclər öz sözünü deyəcəklər.

Əlbəttə, siz gənc mütəxəssislər kimi, artıq 5-6 ildən sonra cəmiyyətin işinə, ölkədə gedən proseslərə fəal qatılacaqsınız. Gələcəkdə ancaq sizin kimi gənclər ölkəmizi idarə edəcəklər. Azərbaycanda idarəçilik təcrübəsi nəsildən-nəslə ötürülməlidir. Azərbaycanda bütün ənənələr yaşamalıdır. Biz öz milli- mənəvi dəyərlərimizə çox bağlıyıq. Xüsusilə indiki dövrdə, qloballaşan dünyada milli ruhda tərbiyə almaq xüsusi əhəmiyyətə malikdir. Qloballaşmanın müsbət tərəfləri də, mənfi tərəfləri də vardır. Biz o mənfi təsirdən özümüzü sığortalamalıyıq. Bunun yeganə yolu ondan ibarətdir ki, gənclər vətənpərvərlik ruhunda tərbiyə alsınlar, öz Vətəninə bağlı olsunlar, öz Vətənini sevsinlər və dövlət müstəqilliyini hər şeydən üstün tutsunlar. Bu gün Azərbaycan, sözün əsl mənasında, müstəqil dövlətdir, müstəqil siyasət aparır, öz hesabına yaşayır, iqtisadi cəhətdən müstəqildir, siyasi cəhətdən müstəqildir. Məhz müstəqil siyasət apardığı üçün dünyada daha çox böyük nüfuza malik olan bir ölkədir. Bu meyillər gələcəkdə davam etməlidir və möhkəmlənməlidir.

Bugünkü hakimiyyət, bugünkü iqtidar bu müsbət dinamikanı təmin edəcəkdir. Ancaq bizdən sonra gələn nəsil bizim kimi vətənpərvər və Vətənə bağlı olmalıdır ki, gələcəkdə Azərbaycan daha da qüdrətli dövlətə çevrilsin. Bunu etmək üçün bu gün biz möhkəm təməl qoyuruq. Bu gün başlanan, icra edilən layihələrin bir çoxu gələcəyə hesablanıb. Bu gün Azərbaycanın gələcək inkişafı müəyyən edilir. İqtisadi islahatlar, ondan sonra siyasi proseslərin müsbət məcrada getməsi, sosial sahədə aparılan işlər, hərbi gücümüzün artırılması, energetika, xüsusilə neft-qaz sahəsində atılan addımlar ən azı 50, 60 il bundan sonra ölkəmizin gücünü təmin edəcəkdir. Belə olan halda Azərbaycana mümkün ola biləcək təzyiq, təsir cəhdləri artacaqdır. Biz nə qədər inkişaf edirik, bir o qədər də diqqəti özümüzə cəlb edirik.

Biz – bu gün Azərbaycana rəhbərlik edən şəxslər artıq hesab edirəm, sübut etmişik ki, heç bir kənar təsir bizi yolumuzdan döndərə bilməz. Mən çox istəyirəm ki, gənc nəsil də, bax, bu

ruhda – müstəqillik ruhunda böyüsün, tərbiyə alsın. Çünki Azərbaycan bu gün müstəqildir. Azərbaycan xalqı bu gün azaddır. Bizim taleyimiz öz əlimizdədir və bu, tarixi şansdır. Tarixdə heç vaxt – siz də yaxşı oxuyan gənclər kimi, Azərbaycan tarixini yaxşı bilirsiniz – heç bir dövrdə Azərbaycan bu qədər güclü olmamışdır. Heç vaxt müstəqilliyimiz bu qədər möhkəm olmamışdır.

Müxtəlif dövrlərdə dövlətçilik ənənələri olmuşdur. Azərbaycan xalqı müxtəlif dairələr çərçivəsində yaşamışdır. Amma Azərbaycan heç vaxt bu qədər azad, müstəqil və güclü olmamışdır. Bu, böyük dəyərdir, böyük sərvətdir. Biz bunu qoruyuruq. Siz də gələcəkdə bunu qorumalısınız ki, ondan sonra heç vaxt Azərbaycan heç bir kənar təsirin altına düşməsin. Bunu etmək üçün iqtisadi əsaslar olmalıdır. Təbii, əgər bu gün Azərbaycanın güclü iqtisadiyyatı olmasaydı, istər-istəməz bu bizim siyasi kursumuza da təsir edə bilərdi. Ancaq iqtisadi amillərdən daha önəmlisi məhz milli-mənəvi dəyərlərdir, milli ruhdur, müstəqillik amilidir. Əminəm ki, bugünkü Azərbaycanın reallıqları, ölkəmizin dinamik inkişafı hər bir gənci ruhlandırır, sevindirir və hər bir Azərbaycan vətəndaşı fəxr edir ki, Azərbaycan vətəndaşıdır. Bu gün doğrudan da müxtəlif sahələrdə ölkəmizin uğurları dünyada artıq təqdir edilir, qiymətləndirilir. İqtisadi, beynəlxalq, bütün başqa sahələrdə Azərbaycan kimi inkişaf edən ölkə yoxdur. Bunun təməlində bir daha demək istəyirəm ki, öz Vətəninə, xalqına olan bağlılıqdır, məhəbbətdir. Budur əsas və biz bunu mütləq qorumalıyıq, gələcək nəsil də qorumalıdır.

Bizim nəslimiz sovet dövründə doğulmuşdur, dünyaya gəlmişdir. Sovet İttifaqı dağılanda mənim 30 yaşım var idi. Əlbəttə ki, mən bu dövrü yaxşı xatırlayıram. Mənim həyatımın böyük hissəsi o dövrdə keçmişdir. Ona görə bəlkə də bizim nəsil müstəqil həyatı daha da çox dəyərləndirir. Çünki siz artıq müstəqillik dövründə dünyaya gəlmisiniz. İndi gənclərlə söhbət əsnasında keçmişdən bəzi hadisələri diqqətə gətirəndə bəzən inanmırlar ki, bu necə olar bilər?! Misal üçün, orada məhdudiyyət, burada məhdudiyyət, oraya getmək olmaz, buraya

getmək olmaz, ideoloji çərçivələr. Gənclər üçün qəribə gəlir, sanki başqa bir reallıqdır. Amma bizim nəsil o dövrdə böyüyüb, ona görə təbii ki, müstəqillik duyğuları və müstəqilliyin üstünlükləri bizim üçün daha da yaxındır. Ona görə ki, biz daha yaşlıyıq, təcrübəliyik. Amma siz də – müstəqillik dövründə dünyaya göz açan uşaqlar, gənclər bunu bilməlisiniz ki, bu müstəqillik elə-belə göydən düşməyib. Azərbaycan xalqı əsrlər boyu müstəqilliyə doğru getmişdir. Bizdən əvvəlki nəsillər müstəqillik arzuları ilə yaşamışlar. Ancaq onların arzuları reallaşmadı. Bizdən əvvəlki nəslin nümayəndələri həsrətlə, nisgillə yaşamışlar, öz dövlətini, xalqını azad görmək istəmişlər, buna nail ola bilməmişlər.

Biz xoşbəxtik ki, müstəqil, güclü, özünü təmin edə bilən və inkişafda olan dövlətdə yaşayırıq. Biz azad, rahat, təhlükəsizlik şəraitində yaşayırıq. Bu da böyük nailiyyətdir. Bu da siyasətimizin nəticəsidir ki, bu gün Azərbaycan bu bölgədə sabitlik, təhlükəsizlik məkanıdır, nəinki ölkə daxilində, eyni zamanda, regionda sabitləşdirici rol oynayır. Bunu beynəlxalq müşahidəçilər də qeyd edirlər ki, Azərbaycan sabitləşdirici rol oynayır.

Bu gün Azərbaycanın inkişafı və müxtəlif istiqamətlər üzrə aparılan dövlət siyasəti çox düşünülmüşdür, ardıcıldır və milli maraqlara söykənir. Azərbaycan dövlətinin və xalqının milli maraqları hər şeydən üstün olmalıdır. Siz bunu bilin və yadda saxlayın. Bu aksiomadır. Heç bir başqa amil milli maraqlardan üstün ola bilməz. Milli maraqları müdafiə etmək üçün biz hər bir yola getməliyik, hazır olmalıyıq. Hesab edirəm yaxın tarix bunu göstərir ki, bəzən bizim milli maraqlarımız bəzi ölkələr tərəfindən nəzərə alınmadığı halda Azərbaycan öz sözünü demişdir, milli maraqlarını müdafiə edə bilmişdir və öz gücünü göstərmişdir. Ona görə bir daha demək istəyirəm, mənim sizə tövsiyəm ondan ibarətdir ki, orta məktəbdə necə oxumusunuz, elə də davam edin. Növbəti illər ərzində gözəl mütəxəssis olun, cəmiyyətdə öz yerinizi tapın, öz gələcəyinizi müəyyən edin və ölkəmizin inkişafına töhfə verin. Dövlət isə hər bir istedadlı

gəncə öz dəstəyini, diqqətini əsirgəməyəcəkdir. Gələcəkdə – 10 ildən, 20 ildən sonra daim xalq, Vətən, dövlət haqqında düşünün, fikirləşin. Çalışın ki, siz öz əməyinizlə dövlətin gücünü artırasınız. Azərbaycan dövləti bu gün ölkə daxilində və xaricdə öz vətəndaşlarını müdafiə etməyə qadirdir. Yenə də deyirəm, yaxın tarix bunu göstərmişdir. Biz heç vaxt öz soydaşlarımızı darda qoymarıq. Bütün imkanlardan istifadə edib onları çətin vəziyyətdən xilas edə bilərik və bunu sübut etmişik. Ona görə hər bir Azərbaycan vətəndaşının arxasında güclü dövlət dayanır. Ancaq eyni zamanda, hər bir vətəndaş öz işi ilə bu dövləti gücləndirib və gücləndirməlidir. Yəni bu proseslər bir-biri ilə bağlı olan məsələlərdir. Əminəm ki, siz bütün bu məsələləri yaxşı dərk edirsiniz, orta məktəbdə yaxşı oxumağınız sizin məsuliyyətinizi göstərir. Əminəm ki, gələcəkdə siz ölkəmizin dəyərli vətəndaşlarına çevriləcəksiniz, artıq siz dəyərli vətəndaşlarsınız. Ancaq peşəkar kimi, gənc kadr kimi, siz öz sözünüzü deyəcəksiniz. Mən sizi bir daha salamlayıram, təbrik edirəm. Arzu edirəm ki, sizin həyatınızda hər şey yaxşı olsun.

**M i r h a d ı S ə m i d z a d ə** (*tələbə*): Cənab Prezident, bu il qəbul imtahanında 659 bal toplayaraq Bakı Dövlət Universitetinin Hüquq fakültəsinə qəbul olmuşam. Burada olan gənclərin adından, ümumiyyətlə, regionumuzun bütün gəncləri adından Sizə təşəkkürümüzü bildiririk ki, bizim bölgəyə səfər etmisiniz.

Dünən Dünya İqtisadi Forumu belə bir məlumat yayıb ki, Azərbaycan rəqabət gücünə görə dünyada bir sıra ölkələri qabaqlayaraq 39-cu yerə çıxmışdır. Bu, böyük nailiyyətdir. Nailiyyətin qazanılmasında Sizin apardığınız iqtisadi islahatların rolu böyükdür. Ölkəmizi inkişaf etdirmək üçün həyata keçirilən islahatlardan biri də tələbələrə verilən tələbə kartlarıdır ki, bunun da sayəsində artıq 100 mindən artıq tələbə kart almışdır. Orada da tələbələr üçün bir sıra güzəştlər öz əksini tapmışdır. Bizim xahişimiz ondan ibarətdir ki, bu güzəştlərə

ictimai nəqliyyatda və tibbi müayinə zamanı olan güzəştlər də daxil edilsin.

Diqqətinizə görə minnətdaram.

**İ l h a m Ə l i y e v:** Yaxşı, biz bunu nəzərə alarıq. Tələbə kartları, necə deyərlər, nisbətən yeni bir təşəbbüsdür. Biz çalışmalıyıq ki, tələbələrin bütün problemlərini, məişət problemlərini həll edək. Yataqxanalarla bağlı olan problemlər öz həllini tapır. Bilirsiniz ki, erməni işğalından əziyyət çəkən vətəndaşlarımızın bir çoxu yataqxanalarda, çadır şəhərciklərində yerləşmişdir. Çadır şəhərcikləri artıq ləğv edilib. Artıq 6 ildir ki, yoxdur. Yataqxanalarda da indi bu proses gedir. Yeni yataqxanalar tikiləcək. Tələbələrin təqaüdləri artırılır. Hesab edirəm ki, bu da çox müsbət haldır. Ona görə, əlbəttə, bu məsələ də öz həllini tapacaqdır.

Qeyd etdiyiniz kimi, Azərbaycan iqtisadiyyatı güclü iqtisadiyyatdır. Bunu təsdiqləyən beynəlxalq qurumların hesablamalarıdır. Dünya İqtisadi Forumu dünya miqyasında 1 nömrəli İqtisadi Forumdur. Hər il Davosda forum keçirilir. Artıq son 7 il ərzində mən də Azərbaycan Prezidenti kimi, foruma dəvət alıram və iştirak edirəm. Bu il ilk dəfə olaraq Davos Forumu Bakıda keçirildi. Bu doğrudan da böyük nailiyyətdir. Çünki Davos Forumu bütün başqa iqtisadi qurumlardan, iqtisadi forumlardan qat-qat üstün olan bir formatdır. Onun adı iqtisadi forumdur, amma əslində bu, siyasi forumdur. Çünki dünyanın aparıcı ölkələrinin dövlət və hökumət başçıları forumda iştirak edirlər. Forumun iştirakçıları çox məhduddur. Yəni oraya ancaq dünyanın siyasi və iqtisadi elitasının nümayəndələri dəvət olunur. Əlbəttə, bu qiymətləndirmə böyük diqqətə malikdir və bir daha onu göstərir ki, Azərbaycan son illər ərzində rəqabətqabiliyyətliliyinə görə də ön plana çıxıb.

Mən xatırlayıram, 10 il bundan əvvəl prezident kimi, təzə işə başlayanda xaricdən gələn qonaqların bəziləri deyirdilər ki, Azərbaycanın gələcək inkişafı birtərəfli olacaq, Azərbaycan neft-qaz amilinə bağlıdır, iqtisadiyyat çoxşaxəli olmayacaqdır. Azərbaycan üçün belə bir gələcək proqnozlaşdırılırdı. Ancaq həyat

onu göstərdi ki, bu gün Azərbaycan iqtisadiyyatı neft-qaz amilindən o qədər də asılı deyil. Əgər ümumi daxili məhsulun strukturuna baxsaq görərik ki, əsas hissə qeyri-neft sektorunda formalaşıb. Bu ilin 7 ayında qeyri-neft sektorumuz 10 faizdən çox artmışdır. Bölgələrin inkişafı da qeyri-neft sektorunun inkişafıdır.

Mən bu zonaya dəfələrlə səfər etmişəm. Son 10 il ərzində bu mənim Lənkərana 9-cu səfərimdir. Masallıda 8 dəfə, Astarada 6 dəfə olmuşam. Bu zonada mən dəfələrlə olmuşam. Dünən və bu gün 7 rayonda olmuşam. Səfərlərimin məqsədi vəziyyətlə tanış olmaqdır. Verilən tapşırıqların necə yerinə yetirildiyinə nəzarət etməkdir. İndi o qədər açılışlar vardır ki, bu açılışlarda iştirak etmək üçün adam vaxt tapa bilmir. Bu gün Lənkəranda içməli su layihəsi açılmışdır. Bir azdan mən Mərkəzi Xəstəxananın, kənd yolunun açılışında iştirak edəcəyəm. Dünən Cəlilabadda böyük xəstəxana, Biləsuvarda, Yardımlıda su xətləri, Astarada xəstəxana açıldı. Nəinki bu zonada, ölkəmizin hər bir yerində quruculuq, inkişaf, abadlıq gedir.

Bir də mən tövsiyə etmək istərdim ki, bizim vətəndaşlar, yəni müxtəlif bölgələrdə yaşayan vətəndaşlar vaxt tapıb digər bölgələrə də getsinlər. Turist kimi gedib şənbə, bazar günlərini orada keçirsinlər. İndi müxtəlif yerlərdə gözəl imkanlar – kempinqlər, motellər vardır. Əlbəttə, gənclər üçün bahalı hotellərdə qalmaq yəqin ki, o qədər də məqbul olmaz. Amma indi qalmaq üçün yerlər var. Təyyarə uçuşları var. Yəni cənub zonasının uşaqları getsinlər şimal zonasına, şimaldan gəlsinlər cənuba. Bu olarsa, onda hər bir yerdə yaşayan vətəndaş ölkənin ümumi inkişafını daha da əyani şəkildə görər. Mən bunu görürəm, çünki son 10 il ərzində bölgələrdə bəlkə min dəfə olmuşam. Yəqin ki, mindən çox tədbir olubdur. Ancaq bölgələrdə yaşayan əhalinin böyük əksəriyyəti öz bölgəsinin inkişafını görür. Ona görə arzu edirəm ki, tələbəlik illərində çalışın Azərbaycanın hər bir yerində olun və görün ki, doğrudan da Azərbaycan gözəl ölkədir. Həm təbiət müxtəlifliyi, eyni

zamanda, mədəniyyət müxtəlifliyi vardır. Bu bizim böyük üstünlüyümüzdür, böyük sərvətimizdir.

**G ü l a y  S e y f u l l a y e v a** (*tələbə)*: Hörmətli cənab Prezident, bu il qəbul imtahanında 683 bal toplayaraq Azərbaycan Tibb Universitetinin Müalicə işi fakültəsinə qəbul olunmuşam. Sizi salamlayıram və bizimlə bu görüşü keçirdiyiniz üçün Sizə təşəkkür edirəm. Bu gün ölkə gənclərinin xarici universitetlərdə təhsil almaları Sizin imzaladığınız 2007–2015-ci illərdə xaricdə təhsil üzrə Dövlət Proqramının icrası nəticəsində mümkün olmuşdur. Mənim bununla bağlı bir xahişim vardır. Qəbul imtahanlarında yüksək bal toplayan abituriyentlərə ali məktəblərə ixtisas seçimi məsələsində yerli universitetlərlə yanaşı, xarici ölkələrin universitetlərinin də adının qeyd olunmasına imkan verilməsini istərdim. Bir də bunu qeyd etmək istərdim ki, bildiyiniz kimi, 2015-ci ildə xaricdə təhsil üzrə Dövlət Proqramının müddəti bitir. Mən çox istərdim ki, bu proqramın müddəti artırılsın. Diqqətinizə görə sağ olun!

**İ l h a m  Ə l i y e v:** Sağ ol. Əlbəttə, sənin bu təkliflərin nəzərə alınacaq. Biz buna baxacağıq. 2015-ci ildən sonra bu proqram davam etdiriləcək. Burada heç bir məhdudiyyət ola bilməz. Yüksək bal toplamış tələbələr, əlbəttə ki, xaricə getmək istəyirlərsə, Təhsil Nazirliyi onların istəklərini nəzərə almalıdır.

Bu sahədə müəyyən işlər görülüb. Xaricdə tələbələrin təhsil almaları məsələsi öz həllini tapır. Bu məsələ vacib olduğu üçün burada maliyyələşmə Dövlət Neft Fondundan təşkil edilir. Bilirsiniz ki, Dövlət Neft Fondunun xətti ilə ancaq ölkəmiz üçün ən strateji layihələr maliyyələşdirilir. Məsələn, köçkünlər üçün şəhərciklər Fondun hesabına tikilir, sonra böyük su anbarları, məsələn, Taxtakörpü Su Anbarı bu yaxınlarda açılacaqdır. O da Neft Fondunun xətti ilə həll edilir. O cümlədən xaricdə gənclərin oxumaları da Neft Fondunun xətti ilə təşkil edilir. Hər il 10 milyonlarla manat vəsait ayrılır. Minlərlə gəncimiz xarici ali məktəblərdə oxuyur. Bu proqramm, əlbəttə, davam etdiriləcək. Yəqin bilirsiniz ki, dövlət hesabına xaricdə

oxuyan gənclər qarşısında heç bir şərt qoyulmur. Biz bu proqrama başlayanda müxtəlif fikirlər var idi ki, gəlin şərt qoyaq, onlar mütləq Azərbaycana qayıtsınlar. Yaxud, onlar girov qoysunlar, sabah gedib dövlət hesabına oxuyacaqlar, sonra o ölkələrdə qalacaqlar. Yəni pulumuz batacaq. Mən qətiyyən buna imkan vermədim. Çünki biz gənclər qarşısında heç bir şərt qoya bilmərik. Biz proqramı ona görə başlamışıq ki, gənclərimizin dünyanın aparıcı ali məktəblərində oxumağa imkanları olsun. O vaxt demişəm ki, biz Azərbaycanda elə bir şərait yaratmalıyıq ki, gənclərimiz qayıtsınlar. Çünki bizim gənclərimiz öz doğma elinə, obasına bağlı olan gənclərdir. Əgər burada şərait yaxşı olsa, iş yerləri olsa, gözəl imkanlar olsa, niyə də onlar qayıtmasınlar?! Onların heç biri başqa ölkələrdə qalmayacaqdır.

Çox şadam ki, mənim bu proqnozlarım reallaşır. Xaricdə təhsil alan gənclərin böyük əksəriyyəti Vətənə qayıdır. Müxtəlif dövlət qurumlarında, dövlət şirkətlərində xüsusi proqramlar vardır. Gənc mütəxəssislərin işə qəbul edilməsi proqramları vardır. Ümumiyyətlə, dövlət strukturlarında çalışanların arasında gənclərin sayını artırmaq üçün mütəmadi qaydada işlər görülür. Yəqin bilirsiniz ki, bu məsələ ilə bilavasitə bağlı olan pensiyaya getmək məsələsidir. Çünki bir çox hallarda pensiya yaşına çatmış vətəndaşlar pensiyaya getmək istəmirlər və getməməklə, demək olar ki, onlardan sonra gələn nəslin qarşısını alırlar. Ona görə pensiya təminatı elə olmalıdır ki, pensiyaya getmək faciəyə çevrilməsin.

İnkişaf etmiş ölkələrdə insanlar gözləyirlər ki, nə vaxt pensiyaya çıxacaqlar. O günü gözləyirlər ki, mən pensiyaya çıxacağam, çünki təminat yaxşıdır. Düzdür, indi böhrana görə orada da problemlər yaranıb. İndi onlar pensiya yaşını da artırmaq istəyirlər. Pensiya xərclərini də ixtisar edirlər. Amma bütövlükdə inkişaf etmiş ölkələrdə pensiyaya çıxmaq hər bir vətəndaşın böyük arzusudur. Ona görə bu məsələlər bir-biri ilə bağlı olan məsələlərdir. İnsanlar pensiyaya vaxtında getməlidir ki, onlardan sonrakı nəslin nümayəndələri bu vəzifələrə gəlsinlər, işləsinlər. Beləliklə, gənclərə yol açılacaq.

Ancaq mən bir məsələni də qeyd etmək istəyirəm. Hesab edirəm, biz Azərbaycanda təhsil sahəsində elə bir vəziyyət yaratmalıyıq ki, heç xaricə getməyə ehtiyac olmasın. Ona görə gənclərin xaricə göndərilməsi təşəbbüsü bir zərurət nəticəsində mənim tərəfimdən irəli sürülmüşdür. Çünki buna böyük ehtiyac var idi. Ancaq bu gün təhsil sahəsində aparılan islahatlar güman edirəm ki, yaxın zamanlarda Azərbaycanda da ali təhsilin səviyyəsini qaldıracaq. Belə olan halda xaricə getməyə böyük ehtiyac olmayacaq. Ancaq bu, bu günün məsələsi deyil. 2015-ci ildən sonra da bu proqram davam etdiriləcək.

Qeyd etmək istəyirəm ki, Azərbaycan Dövlət Tibb Universiteti üçün son illərdə 2 gözəl tədris korpusu tikilib. Terapevtik korpus istifadəyə verilib. Cərrahiyyə korpusu isə bu il istifadəyə veriləcək. Ona görə sən indi Bakıda gözəl şəraitdə oxuyacaqsan. Sən gələcək peşə haqqında indidən fikirləşirsən? Hansı sahəni istəyirsən?

**Gülay Seyfullayeva:** Cərrah olmaq istəyirəm.

**Fərhad Həsənli** (*tələbə*): Hörmətli cənab Prezident, mən 15 yaşımda bu il ali məktəblərə keçirilən qəbul imtahanında 650 bal toplayaraq Azərbaycan Tibb Universitetinin Müalicə işi fakültəsinə daxil olmuşam.

Cənab Prezident, müxtəlif bölgələri təmsil edən biz gənclər ölkəmizdə yaradılan mövcud şəraitdən yararlanaraq yüksək təhsil hüququ qazanmışıq. Gələcəkdə ali təhsil ocaqlarını bitirdikdən sonra yenidən bölgələrimizə qayıdıb işlə təmin olunmağımız da vacib məsələlərdəndir. Bu sahədə işlərin sistemləşdirilməsi üçün müəyyən tədbirlərin görülməsini çox istərdim.

Diqqətinizə görə təşəkkür edirəm.

**İlham Əliyev:** Sən hansı rayondansan?

**Fərhad Həsənli:** Astara rayonundan.

**İlham Əliyev:** Dünən biz Astarada gözəl xəstəxananın açılışını etdik. Onu da qeyd etmək istəyirəm ki, keçən il xəstəxananın əsas korpusunun açılışında olarkən mən gördüm ki, orada bir bina da var, o bina yararsız vəziyyətdədir. Getdim

tanış oldum, gördüm ki, əsas korpus təmir olunub. Amma poliklinika, diaqnostika korpusu bərbad vəziyyətdədir. Bakıya qayıdan kimi sərəncam imzaladım və Prezidentin ehtiyat fondundan vəsait ayırdım ki, Astara Rayon Mərkəzi Xəstəxanası tam şəkildə əsaslı təmir edilsin. Dünən axşam Astara xəstəxanasının 2-ci korpusunun açılışını da qeyd etdik. Astarada həkim işləmək üçün bütün imkanlar vardır. Sən təxminən 5-6 il oxuyacaqsan. O vaxta qədər Astarada yeni tibb ocaqları tikiləcək. Yerlərdə, əlbəttə ki, iş yerlərinin açılması prosesi gedir. Son 10 ildə təxminən 1 milyon 200 min iş yeri açılmışdır. Onların böyük əksəriyyəti bölgələrdə açılıb. Bölgələrdə işsizliyin aradan qaldırılması üçün bu proqramın çox böyük əhəmiyyəti olmuşdur.

Ona görə sən gərək yaxşı oxuyasan, yaxşı mütəxəssis olasan. Əlbəttə, əgər sən hesab edirsənsə ki, Astaraya qayıtmalısan, mən buna çox şadam. Çünki bu gün bölgələrdə tikilən xəstəxanalar inkişaf etmiş ölkələrdə olan xəstəxanalardan geri qalmır.

Cəlilabadda əvvəllər Diaqnostika Mərkəzi, indi isə böyük xəstəxana açıldı. Xəstəxana bir memarlıq əsəridir. Orada işləmək hər bir həkim üçün, necə deyərlər, çox böyük xoşbəxtlik olar. Keçən həftə Ağcabədidə böyük xəstəxananın açılışını etdik. Yəni belə xəstəxanalar, adətən, inkişaf etmiş ölkələrin əsas şəhərlərində tikilir, bizdə isə rayonlarımızda tikilib. Yalnız hələ ki, Biləsuvar Rayon Mərkəzi Xəstəxanası yaxşı vəziyyətdə deyil. İndi mən Bakıya qayıdan kimi göstəriş verəcəyəm ki, Biləsuvar Mərkəzi Xəstəxanası da əsaslı şəkildə təmir edilsin. Belə olan halda, Salyandan Astaraya qədər bütün bu zonada bir dənə də təmirsiz Mərkəzi Xəstəxanası qalmayacaqdır.

**Sona Əsgərova** (*tələbə)*: Hörmətli Prezident, builki imtahanda 652 bal toplayaraq Azərbaycan Tibb Universitetinin Müalicə işi fakültəsinə daxil olmuşam.

Sizi bölgəmizdə görmək çox xoşdur. Buradakı hər bir gənc kimi, mən də çox qürur hissi keçirirəm ki, bu görüşdə varam. Biz bölgəmizin gənclərini təmsil edirik və Sizinlə fikirlərimizi

bölüşmək istəyirik. Bilirik ki, ölkəmizdə şagirdlər və tələbələr arasında bir çox olimpiadalar keçirilir. Hazırda belə bir qanun vardır ki, beynəlxalq olimpiadaların qalibləri imtahansız ali təhsil almaq hüququna malikdirlər. Biz çox istərdik ki, gələcəkdə ölkəmizdəki ali təhsil müəssisələrinin şəhərcikləri, yataqxanaları daha da müasirləşdirilsin və artırılsın.

Diqqətinizə görə çox sağ olun!

**İ l h a m Ə l i y e v:** Sağ ol. Bu məsələyə baxmaq olar. Əlbəttə, bizdə imtahanlar test üsulu ilə keçirilir. Hesab edirəm ki, bu düzgün yoldur. İmtahanlar ədalətli keçirilir. Test üsulu dünyada qəbul edilmiş praktikadır. Amma, əlbəttə ki, beynəlxalq olimpiadalarda yüksək nailiyyət göstərmiş gənclər üçün xüsusi bir imtiyaz olmalıdır. Buna baxmaq olar. O ki qaldı yataqxanalara, mən artıq bu məsələyə toxundum. Buna böyük ehtiyac vardır. Tələbə şəhərciklərinin tikilməsi ideyası vardır, müzakirə edilir. Yəqin ki, reallaşacaq.

İndi Azərbaycanda yeni ali təhsil ocaqları yaradılır. İnformasiya Texnologiyaları Universiteti yaradılmalıdır. Azərbaycan Diplomatik Akademiyasının binası tikilib. Moskva Dövlət Universitetinin filialı üçün bina tikilib. Tibb Universiteti üçün 2 böyük xəstəxana tikilib. Görəcəksiniz, ən yüksək səviyyədə tikilmiş binalardır. Digər ali məktəblərin binaları təmir edilir. Texniki Universitetin binası təmir edilir. Əlbəttə, yataqxanaların tikilməsi olacaqdır.

Bakı Dövlət Universitetinin yataqxanalarında məcburi köçkünlər məskunlaşmışdılar. Onları biz artıq köçürdük. Bu yataqxanalarda qalmaq mümkün deyil. Təmir etmək də mümkün deyildir, onlar sökülür. Yeni yataqxanalar tikiləcək. Bu məsələ diqqət mərkəzindədir. Yəqin bilirsiniz ki, erməni işğalından əziyyət çəkən soydaşlarımızın bir çoxu məhz yataqxanalarda, uşaq bağçalarında, məktəblərdə yerləşmişlər. Bakı şəhərinin bir neçə uşaq bağçasında hələ də məcburi köçkünlər yaşayır. Məktəblərin bir hissəsində məcburi köçkünlər yaşayır. Bağçanın bir hissəsi bağçadır, bir hissəsi isə köçkünlər üçün evdir.

Biz hər il 20 min köçkünü yeni mənzillərlə, evlərlə təmin edirik. Demək olar ki, hər il bir kiçik şəhər tikilir. Ancaq hələ ki, biz təxminən 200 minə qədər köçkünü yerləşdirə bilmişik. Ona görə təbii ki, bu yataqxanalarda, məktəblərdə, uşaq bağçalarında, bəzi hallarda hərbi hissələrin ərazilərində məskunlaşan köçkünlərimiz köçürüldükcə, əlbəttə, yataqxanalarımızın tikintisi daha da sürətlə gedəcək. Bu gün təhsillə bağlı olan məsələlər bilirəm ki, uğurla həll edilir, uğurla həll edilməlidir. Çünki bu tez-tez təkrarlanan bir fikirdir. Ancaq həqiqətdir ki, təhsil hər bir ölkənin gələcəyidir. Hər bir cəmiyyətin inkişafı təhsildən, ondan sonra elmi-texniki tərəqqidən asılıdır.

Biz çalışmalıyıq ki, gənclərimiz hazırlıqlı, peşəkar olsunlar. Biz dünyada gedən bütün yenilikləri Azərbaycanda tətbiq etməliyik. Biz dünyada mövcud olan bütün müsbət meyilləri Azərbaycanda tətbiq etməliyik ki, ölkəmiz daim inkişafda olsun, sürətlə inkişaf etsin, vətəndaşlar rahat yaşasınlar, Azərbaycan öz müstəqil yolu ilə getsin, böyük uğurlara imza atsın.

Mən sizi bir daha təbrik edirəm. Sizin üçün yeni dövr, yeni həyat başlayır. Ali məktəblərdə oxumağa başlayırsınız. Çox maraqlı dövrdür. Arzu edirəm ki, həyatınızda hər şey yaxşı olsun, gələcəkdə ölkəmizin inkişafına öz töhfənizi verəsiniz. Sağ olun.

## Lənkəran–Vilvan–Osaküçə–Türkəncil avtomobil yolunun açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 5-də Lənkəran–Vilvan–Osaküçə–Türkəncil avtomobil yolunun açılışında iştirak etmişdir.*

*Avtomobil yolunun sxematik planı ilə tanış olan dövlətimizin başçısına məlumat verildi ki, uzun illər təmir edilməyən bu yol yararsız vəziyyətə düşmüşdü. Qısa müddətdə tamamilə yenidən qurulan yol əhalinin gediş-gəlişini xeyli asanlaşdıracaqdır.*

*Yolun yenidən qurulmasına Azərbaycan Prezidentinin 2012-ci il 8 iyun tarixli Sərəncamına əsasən dövlət büdcəsindən ilkin olaraq 4 milyon manat ayrılıb. 40 min əhalinin yaşadığı 20 yaşayış məntəqəsini birləşdirən Lənkəran–Vilvan–Osakücə–Türkəncil avtomobil yolunun 27 kilometrlik hissəsi yenidən qurulub. Yolun 23 kilometrlik hissəsinə asfalt örtüyü döşənmiş, 4 kilometrində isə torpaq bərkidilmiş və üstünə çınqıl qatı salınmışdır.*

*Bildirildi ki, tikintisi «Lənkəranyol tikinti» ASC tərəfindən aparılan yolun inşası 2012-ci ilin may ayında başlanılmış, 2013-cü ilin avqustunda başa çatdırılmışdır. Üçüncü texniki dərəcəli yolun yenidən qurulması zamanı 6 körpü təmir olunub, 2 suötürücü boru quraşdırılıb.*

*Prezident İlham Əliyev görülən işlərdən razılığını bildirdi.*

## Lənkəran Şəhər Mərkəzi Xəstəxanasında aparılan yenidənqurma işləri ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 5-də Lənkəran Şəhər Mərkəzi Xəstəxanasında aparılan yenidənqurma işləri ilə tanış olmuşdur.*

*Səhiyyə naziri Oqtay Şirəliyev dövlətimizin başçısına aparılan yenidənqurma işləri barədə ətraflı məlumat verdi. Bildirildi ki, xəstəxananın binası 1983-cü ildə inşa olunub. O vaxtdan binada əsaslı təmir aparılmayıb. Prezidentin ehtiyat fondundan Lənkəran Şəhər Mərkəzi Xəstəxanasının yenidən qurulması üçün 2012-ci ildə 3 milyon manat, 2013-cü ildə 8 milyon manat ayrılmışdır. Ümumi ərazisi 5 hektar olan xəstəxananın yenidən qurulması 2012-ci ilin avqustunda başlanılmış və bu ilin avqustunda başa çatdırılmışdır. Bu tibb müəssisəsi möhtəşəmliyi və xidmətinin müxtəlifliyi ilə fərqlənir.*

*Kompleksə cərrahiyyə, poliklinika, narkologiya, terapiya, yoluxucu xəstəliklər korpusları, inzibati bina və mətbəx daxildir. Xəstəxananın 13 şöbəsində müxtəlif xəstəliklərin müayinəsi və müalicəsi mümkün olacaqdır. Cərrahiyyə, terapiya, pediatriya,*

*ginekologiya, yoluxucu xəstəliklər, anesteziologiya, reanimatologiya, şüa-diaqnostika, fizioterapiya, qəbul şöbələri, konsultativ poliklinika, perinatal mərkəz, klinik laboratoriya, təcili tibbi yardım stansiyası tibbin ən son nailiyyətləri olan avadanlıq və cihazlarla təmin edilmişdir.*

*Diqqətə çatdırıldı ki, xəstəxananın bütün infrastrukturu tamamilə yenilənib. Xidmətdə fasilələr yaranmaması üçün 10 kilovoltluq transformator stansiyası və dizel generatoru quraşdırılıb. Yeni qazanxana, su anbarı, nasos stansiyası tikilmiş, avtomobil dayanacağı salınmışdır. Xəstəxanada çalışacaq 1900 tibb işçisinin 327-si həkim, 964-ü orta tibb işçisidir. Bu böyük tibb heyəti özlüyündə şəhər xəstəxanasının nə qədər geniş funksiyanı yerinə yetirəcəyini göstərən amildir. Bütün bunlar həm də onu göstərir ki, son illər səhiyyə sahəsində yaşanan ən böyük dəyişiklik tibb ocaqlarının ən müasir tibbi texnika və avadanlıqlarla təmin olunmasıdır.*

*Müasir Azərbaycanı modern texnologiyaların tətbiq olunduğu məkana çevirmək məqsədini qarşıya qoyan prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində ölkəmizdə yenidən qurulan səhiyyə müəssisələri regionda ilk dəfə açıq ürək əməliyyatı və qara ciyərin köçürülməsi kimi mühüm nailiyyətlərə imza atmışdır. Bu illər ərzində yüzlərlə tibb ocağının, müalicə-diaqnostika mərkəzlərinin inşa edilməsi səhiyyə sisteminin inkişafından xəbər verir.*

*Yeni tibb ocaqları və müasir tibbi avadanlıqlar ilk növbədə, bir məqsədə – Azərbaycan əhalisinin sağlamlığının qorunması kimi mühüm missiyanın yerinə yetirilməsinə xidmət edir. Azərbaycan səhiyyəsi son illərdə böyük və şərəfli yol keçmişdir. Bu dövr səhiyyəmizin tarixində geniş islahatlar dövrü kimi yadda qalacaqdır.*

*Xəstəxanada yaradılmış şəraitlə tanışlıqdan sonra prezident İlham Əliyev xidmətin yüksək səviyyədə təşkili ilə bağlı tapşırıq və tövsiyələrini verdi.*

**TACİKİSTAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB EMOMƏLİ RƏHMONA**

Hörmətli Emoməli Şərifoviç!

Sizi və Sizin şəxsinizdə bütün Tacikistan xalqını milli bayram – Müstəqillik Günü münasibətilə ürəkdən təbrik edirəm.

Bu gün Tacikistan dövlət müstəqilliyinin möhkəmlənməsi, iqtisadi mexanizmlərin təkmilləşdirilməsi, xalqın rifahının yüksəldilməsi yolu ilə inamla irəliləyir.

Əminəm ki, xalqlarımız və ölkələrimiz arasında ənənəvi dostluq münasibətləri bundan sonra da Azərbaycan–Tacikistan əməkdaşlığının genişlənməsinə şərait yaradacaqdır.

Hörmətli Emoməli Şərifoviç, Sizə möhkəm cansağlığı, xoşbəxtlik və uğurlar, Tacikistan xalqına isə sülh və firavanlıq arzu edirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *6 sentyabr 2013-cü il*

## NƏSİMİ RAYONUNDAKI 19 VƏ 240 SAYLI TAM ORTA MƏKTƏBLƏRİN ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMA İŞLƏRİNDƏN SONRAKI VƏZİYYƏTİ İLƏ TANIŞLIQ

*6 sentyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 6-da Bakının Nəsimi rayonundakı 19 və 240 saylı tam orta məktəblərin əsaslı təmir və yenidənqurma işlərindən sonrakı vəziyyəti ilə tanış olmuşdur.*

*Paytaxtın orta ümumtəhsil məktəblərinin əsaslı təmir və yenidənqurma işləri Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlər planına uyğun olaraq həyata keçirilir. Təmir işləri ilə yanaşı, ehtiyacı olan mövcud məktəblər üçün əlavə sinif otaqlarının, yeni tədris korpuslarının, idman və akt zallarının, yeməkxana binalarının inşası və lazımi avadanlıqlarla təchiz edilməsi də həyata keçirilir. Yeni dərs ilinin başlanması ərəfəsində dövlətimizin başçısı əsaslı şəkildə yenidən qurulmuş məktəblərə gedir, yaradılan şəraitlə maraqlanır.*

*Əvvəlcə prezident İlham Əliyev 19 saylı tam orta məktəbdə həyata keçirilən təmir və yenidənqurma işləri ilə tanış oldu. Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov görülən işlərlə bağlı dövlətimizin başçısına məlumat verdi. Bildirildi ki, 1964-cü ildə istismara verilən məktəbin birinci korpusu 3, ikinci korpusu isə 1 mərtəbədən ibarətdir. 2006-cı ildə şagird sıxlığını aradan qaldırmaq məqsədi ilə 400 yerlik əlavə sinif otaqlarından ibarət yeni korpus inşa olunub. 1600 şagird yerlik məktəbdə hazırda 1417 şagird təhsil alır. Məktəbdə bütün sinif otaqları, 4 informatika, kimya, fizika, biologiya*

kabinetləri, iclas zalı, açıq və örtülü idman meydançaları əsaslı şəkildə yenidən qurulub. Ən müasir avadanlıqlarla təchiz edilmiş məktəbin 8 hektar ərazisində də abadlıq və quruculuq işləri həyata keçirilib.

Sonra prezident İlham Əliyev 240 saylı tam orta məktəbdə yaradılmış şəraitlə tanış oldu. Burada dövlətimizin başçısına görülən əsaslı təmir və yenidənqurma işləri ilə bağlı məlumat verildi. Bildirildi ki, məktəbin binası 1967-ci ildə istifadəyə verilib. Məktəbdə şagird sıxlığını aradan qaldırmaq məqsədi ilə 2008-ci ildə əlavə sinif otaqları inşa edilib. 1200 şagird yerlik məktəbdə dərslər birnövbəlidir. Dövlət Proqramına uyğun olaraq məktəbin bütün sinif otaqları, fənn kabinetləri, iclas və idman zalları əsaslı şəkildə yenidən qurulmuş və lazımi avadanlıqla təchiz edilmişdir. Ən müasir işıq və istilik sistemləri quraşdırılmış məktəbin 2 hektarlıq ərazisində də abadlıq işləri həyata keçirilib.

**DAĞISTAN RESPUBLİKASININ PREZİDENTİ CƏNAB RAMAZAN ƏBDÜLƏTİPOVA**

Hörmətli Ramazan Hacımuradoviç!

Sizi Dağıstan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Əminəm ki, xalqlarımız arasında tarixən yaranmış dostluq və mehriban qonşuluq münasibətlərinin inkişafı və möhkəmlənməsi bundan sonra da Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında çoxtərəfli əməkdaşlığa, Qafqazda sülhün, sabitliyin və tərəqqinin təmin olunmasına şərait yaradacaqdır.

Hörmətli Ramazan Hacımuradoviç, Sizə möhkəm cansağlığı və dost Dağıstanın firavanlığı naminə fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *9 sentyabr 2013-cü il*

## ATƏT-in MİNSK QRUPUNUN YENİ TƏYİN OLUNMUŞ AMERİKALI HƏMSƏDRİ CEYMS UORLİK İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*9 sentyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 9-da ATƏT-in Minsk qrupunun yeni təyin olunmuş amerikalı həmsədri Ceyms Uorliki qəbul etmişdir.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivlərinə dair məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*ATƏT-in Minsk qrupunun yeni təyin olunmuş amerikalı həmsədri Ceyms Uorlik Amerika Birləşmiş Ştatlarının Prezidenti Barak Obamanın məktubunu dövlətimizin başçısına təqdim etdi.*

## MDB SƏRHƏD QOŞUNLARI KOMANDANLAR ŞURASININ 70-ci İCLASININ NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*
*9 sentyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 9-da MDB Sərhəd Qoşunları Komandanlar Şurasının 70-ci iclasının nümayəndələrini qəbul etmişdir.*

**İ l h a m Ə l i y e v:** Sizi Azərbaycanda salamlayıram. Xoş gəlmisiniz! Şadam ki, sizin iclasınız ölkəmizdə keçirilir. Əminəm ki, MDB ölkələri sərhəd xidmətlərinin qarşılıqlı fəaliyyətinin mühüm məsələləri müzakirə olunacaqdır. Həmçinin Azərbaycan ilə daha yaxından tanışlıq, tarixi yerləri görmək imkanınız olacaq. Yəqin ki, tədbirə ev sahibliyi edənlər son illər ölkəmizdə sərhəd xidmətinin inkişafı üçün görülən işlər barədə ətraflı məlumat verəcəklər. Bütövlükdə Azərbaycan MDB çərçivəsində əksər formatlarda fəal iştirak edir. Biz bu təşkilatda iştirakımıza böyük əhəmiyyət veririk, bir çox istiqamətlərdə, o cümlədən hüquq-mühafizə qurumlarının fəaliyyətində, eləcə də sərhədlərimizin təhlükəsizliyinin təmin olunmasında iştirak edən xidmətin işində fəal iştirak edirik.

Ölkələrimizin sərhəd xidmətlərinin qarşılıqlı fəaliyyəti bütövlükdə MDB çərçivəsində əməkdaşlığın inkişafında və konkret olaraq sizin rəhbərlik etdiyiniz sahədə böyük əhəmiyyət kəsb edir. Təbii ki, sərhəd xidmətlərinin işi digər qurumların qarşılıqlı fəaliyyəti ilə əsasən regionla əlaqədar olur. Çünki qonşu dövlətlərin sərhədləri ikitərəfli formatda fəal əməkdaşlığı nəzərdə tutur. Şadam ki, belə çoxtərəfli formatda da ölkələrimizin sərhəd xidmətləri arasında yaxşı qarşılıqlı anlaşma mövcuddur. Hiss etdiniz, zəlzələ oldu. Gözlənilməzdir. Güman ki, haradasa dənizdə azacıq təkanlar olub. Hə, bir az silkələnir. Düşünürəm ki, bu bizim diqqətimizi işdən yayın-

dırmamalıdır. Hərdən olur. Buna görə də çoxtərəfli formatda qarşılıqlı fəaliyyət böyük əhəmiyyətə malikdir. Çünki təcrübə mübadiləsi, müxtəlif proqramlar, müasir dünyada əhəmiyyət kəsb edən informasiya mübadiləsi vardır. Bizim ölkələrimizdə bütövlükdə daxili proseslərin inkişafının müsbət dinamikası mövcuddur, amma kənardan təhlükələr də vardır. Əlbəttə ki, istənilən ölkənin təhlükəsizliyi, o cümlədən onun sərhədlərinin təhlükəsizliyi ilə də təmin olunur. Həmin sərhədlər nə qədər etibarlı qorunsa, vətəndaşlarımız da o qədər sülh və əmin-amanlıq şəraitində yaşayacaqlar. Buna görə də biz, əlbəttə ki, Azərbaycanda sərhəd xidmətinin inkişafına böyük diqqət yetirmişik və yetirəcəyik. Əslində bu xidmət MDB-nin əksər ölkələrində olduğu kimi, bizdə də sıfırdan yaranmağa başlayıb. Həm maddi-texniki bazanın çox mühüm məsələlərini, həm peşəkarlığın yüksəldilməsini, kadrların hazırlanmasını həll etmək lazım gəlirdi. Bu istiqamətdə böyük işlər görülüb. Sərhəd Xidməti Akademiyası yaradılıb, maddi-texniki baza möhkəmləndirilir, ölkəmizin və qonşularımızın təhlükəsizliyini təmin etmək üçün ən çətin keçilən yerlərdə, dağların zirvəsində, meşələrdə müasir bazalar, şəhərciklər, zastavalar tikilir. Əlbəttə ki, qonşu ölkələrlə qarşılıqlı fəaliyyət mövcuddur, birgə tədbirlər, bəzən birgə əməliyyatlar keçirilir. Bütün bunlar regionda təhlükəsizliyin möhkəmləndirilməsi işinə xidmət edir.

Sözsüz, belə formatda əməkdaşlıq yəqin ki, müəyyən mənada nadirdir, çünki beynəlxalq qurumlar, sərhəd xidmətləri çərçivəsində əməkdaşlığın daha geniş beynəlxalq formatı mövcuddur. Amma MDB çərçivəsində belə format xüsusi əhəmiyyət kəsb edir. Bir tərəfdən, bu, bütövlükdə təşkilatımızın möhkəmləndirilməsi və xalqlarımız arasında mövcud olan dostluq və qarşılıqlı fəaliyyət ənənələrinin davamı deməkdir, digər tərəfdən, ölkələrə təhlükələrin artdığı, müxtəlif regionlarda ağır proseslərin getdiyi bir zamanda şübhəsiz ki, əlaqələndirməyə, qarşılıqlı dəstəyə, informasiya mübadiləsinə və əlbəttə, fəal, açıq əməkdaşlığa zərurət vardır. Biz buna istiqamətlənmişik və düşünürəm ki, sizin Şuranın iclasının

Bakıda keçirilməsi bizim bu məsələlərə münasibətimizi sübut edir. Öz tərəfimizdən biz Azərbaycanın sərhəd xidmətini gücləndirməyi, həmçinin əməkdaşlığın ikitərəfli və çoxtərəfli formatını möhkəmləndirməyi davam etdirəcəyik.Təhlükələr əslində eynidir, real və potensial təhlükələrin mənbələri də əslində eynidir. Bizi böyük coğrafi məkan, böyük region birləşdirir. Bu region tarixi, mədəni, iqtisadi münasibətlər, nəqliyyat vasitələri ilə qarşılıqlı əlaqədədir. Buna görə də şübhəsiz ki, bizim təhlükəsizliyimiz fəal əməkdaşlıqla tam təmin olunacaqdır.Bir daha sizi salamlayıram. Əminəm ki, iclasınız çərçivəsində müzakirə ediləcək məsələlər məhsuldar olacaq, MDB ölkələrinin sərhəd xidmətlərinin gələcək qarşılıqlı fəaliyyətinə öz töhfələrini verəcək, eləcə də sərhəd xidməti rəhbərləri arasında daha möhkəm dostluq münasibətlərinin olması üçün sizi daha da yaxınlaşdıracaq. Bir daha xoş gəlmisiniz!

**Vladimir Kulişov:** *(Rusiya Federal Təhlükəsizlik Xidməti Direktorunun birinci müavini və Sərhəd Xidmətinin rəhbəri, Sərhəd Qoşunları Komandanlar Şurasının sədri):* Çox sağ olun, hörmətli cənab Prezident!

Əvvəlcə MDB ölkələri sərhəd xidmətlərinin rəhbərliyi, Sərhəd Qoşunları Komandanlığı Şurasının adından Sərhəd Qoşunları Komandanlığı Şurasının 70-ci iclasının dost Azərbaycan Respublikasının ərazisində keçirilməsi üçün imkan yaratdığınıza və çox yaxşı təşkilatçılığa görə Sizə səmimi minnətdarlığımı bildirmək istərdim. Mən həmçinin qeyd etmək istərdim ki, bu, artıq Azərbaycan Respublikasında keçiriləcək 3-cü iclas olacaqdır. Buna görə də Sizə ayrıca minnətdarlığımı bildirirəm. Çox sağ olun.

Şuranın bugünkü iclasında MDB-nin sərhəd qurumlarının 10 nümayəndə heyəti, həmçinin MDB-nin İcraiyyə Komitəsinin, Avrasiya İqtisadi Birliyi İnteqrasiya Komitəsi katibliyinin nümayəndələri, komandanlığın fəxri üzvləri iştirak edirlər. Bu ənənə bizdə qorunur. Biz bir sıra aktual məsələləri nəzərdən keçirməyi planlaşdırırıq, o cümlədən şübhəsiz ki, ötən dövr ərzində

ölkələrimizin sərhədlərinin təhlükəsizliyi sahəsində, eləcə də Birliyin digər ölkələri ilə sərhədində təhlükəsizliyin təminatında fəaliyyətini təhlil edəcəyik. 2013-cü ildə komandanların fəaliyyətinin yekununa xüsusi diqqət yetirəcəyik və Sizin dediyiniz kimi, birgə operativ-profilaktik tədbirləri qiymətləndirəcəyik.

*Vladimir Kulişov MDB ölkələrinin sərhəd xidmətləri arasında əlaqələrin genişləndirilməsi ilə bağlı həyata keçiriləcək digər tədbirlər barədə prezident İlham Əliyevə məlumat verdi. O, qeyd etdi ki, tədbirlər planında Böyük Vətən müharibəsində Qələbənin 70 illiyinin geniş qeyd edilməsi nəzərdə tutulur.*

– Bugünkü iclas çərçivəsində biz sovet xalqının Böyük Vətən müharibəsində Qələbəsinin 70 illiyinə həsr olunmuş xarici sərhədlər üzrə xatirə estafetinin keçirilməsi reqlamentini təsdiq etməyi nəzərdə tuturuq. Mən sadəcə olaraq, bugünkü əməkdaşlara bu ənənələri gələcək üçün qorumağı tövsiyə edirəm. Hörmətli cənab Prezident! Mən yekunda qeyd etmək istərdim ki, MDB Sərhəd Qoşunları Komandanları Şurası sərhəd siyasəti məsələləri üzrə Dövlət Başçılarının Şurasında ali qurum kimi, sərhəd təhlükəsizliyinin təminatı sahəsində qarşılıqlı faydalılıq və səmərəli əməkdaşlıq xəttini həmişə inkişaf etdirmək üçün əlindən gələni edib və edəcək. Yekunda bir daha bizə yaradılan imkana görə Sizə minnətdarlığımı bildirmək və MDB Sərhəd Qoşunları Komandanları Şurası üzvlərinin adından xatirə hədiyyəsini təqdim etmək istərdim.

*Vladimir Kulişov xatirə hədiyyəsini prezident İlham Əliyevə təqdim etdi.*

**İ l h a m Ə l i y e v:** Çox sağ olun. Belə diqqətə görə mütəəssirəm.

**V l a d i m i r K u l i ş o v:** Burada Komandanlıq Şurasının rəmzləri əks olunub. Biz çox gözəl bilirik ki, 1 aydan sonra sizdə seçkilər keçiriləcəkdir. Bəli, Siz əhalinin əksər hissəsinin dəstəklədiyi ən tanınmış namizədlərdən birisiniz. Buna görə də icazə verin, Sizə uğurlar arzulayaq. Çox sağ olun!

*Prezident İlham Əliyev MDB ölkələrinin sərhəd xidmətləri qarşısında duran vəzifələrin səmərəli şəkildə yerinə yetirilməsi baxımından görüşdə qaldırılan məsələlərin önəminə toxundu. Böyük Vətən müharibəsində Qələbənin 70 illiyinə hazırlıqla bağlı söylənilən fikirləri və bununla əlaqədar xatirə estafetinin keçirilməsini təqdirəlayiq hesab etdiyini bildirdi.*

**İ l h a m Ə l i y e v:** 10 milyonlarla sovet vətəndaşı həyatını itirmişdir. Müharibədə iştirak edən hər 2 azərbaycanlıdan biri geri qayıtmadı, yəni 600 mindən 300 mini Vətənini müdafiə edərkən həlak oldu. Müharibədə həlak olanların xatirəsi Azərbaycanda ehtiramla yad edilir, həmçinin veteranlara dəstək göstəririk. Hər il mayın 9-da biz veteranlarla görüşürük. Onlar fəaliyyətdədirlər. Bu insanlar gənc nəslin tərbiyəsi, öz Vətənlərinə sədaqət, vətənpərvərlik və qəhrəmanlıq ruhunda böyüməsi üçün parlaq nümunədirlər. Buna görə həm prezident, həm vətəndaş kimi, bu mövzunu daim gündəlikdə saxlamaq niyyətlərini səmimi-qəlbdən dəstəkləyirəm. Həm də təkcə yubileydən-yubileyə yox, daim. Çünki sərhədçi döyüşçülər də qələbədə böyük rol oynayıblar.

*Prezident İlham Əliyev dünyanın bəzi bölgələrində faşizmə bəraət qazandırılması, faşizmlə mübarizə aparmış xalqların rolunun kiçildilməsi kimi tarixi saxtalaşdırılmaların yolverilməzliyindən danışdı.Sərhəd xidmətləri arasında qarşılıqlı fəaliyyət məsələlərinə bir daha toxunan prezident İlham Əliyev dedi:*

– Qarşılıqlı səylərin əlaqələndirilməsi və informasiya mübadiləsi bizim ölkələrimiz üçün böyük əhəmiyyət kəsb edir. Buna görə əminəm ki, sizin Şurada mövcud olan əməkdaşlıq ruhu davam edəcəkdir. Dediyiniz kimi, artıq 70-ci dəfədir ki, belə iclaslar keçirirsiniz, deməli, ildə bir neçə dəfə toplaşırsınız. MDB özü cəmi 20 ildən bir az çoxdur ki, mövcuddur. Buna görə bu çox intensiv, səmərəli bir işdir və şadam ki, iclasınız artıq 3-cü dəfədir ki, Bakıda keçirilir. Düşünürəm ki, Bakıda hələ bundan sonra da dəfələrlə görüşəcəksiniz. Bir daha sizi salamlayıram. Yaxşı işləməyi arzulayıram.

## PREZİDENT SEÇKİLƏRİNİN MÜŞAHİDƏSİ ÜZRƏ MDB-dən OLAN MÜŞAHİDƏ MİSSİYASININ BAŞÇISI LEONİD SLUTSKİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*9 sentyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 9-da Azərbaycanda prezident seçkilərinin müşahidəsi üzrə MDB-dən Müşahidə Missiyasının başçısı, Rusiya Dövlət Dumasının MDB və Həmvətənlərin İşləri üzrə Komitəsinin rəhbəri Leonid Slutskini qəbul etmişdir.*

*Cənab Leonid Slutski Azərbaycanda prezident seçkilərinə hazırlıqla bağlı başçılıq etdiyi missiyanın ölkəmizdəki fəaliyyəti barədə prezident İlham Əliyevə məlumat verdi. O, respublikamızın ayrı-ayrı bölgələrinə səfərlər etdiklərini və seçkiyə hazırlıq işlərinin yüksək səviyyədə təşkil edildiyinin şahidi olduqlarını dedi. Azərbaycan Mərkəzi Seçki Komissiyasının bu istiqamətdəki fəaliyyətini yüksək qiymətləndirən Leonid Slutski hazırlıq işlərinin demokratik standartlara uyğun şəkildə aparıldığını vurğuladı. O, başçılıq etdiyi missiyanın yerli və digər beynəlxalq təşkilatlarla əlaqəli şəkildə fəaliyyət göstərməsinin önəmini qeyd etdi.*

*Dövlətimizin başçısı MDB Parlamentlərarası Assambleyasının Müşahidə Missiyasının prezident seçkilərində müşahidəçi kimi iştirakından məmnunluğunu ifadə etdi. Prezident İlham Əliyev MDB Müşahidə Missiyasının ötən dövrlərdə keçirilən seçkilərdə obyektiv və uğurla fəaliyyət göstərdiyini, seçkilərin nəticələri ilə əlaqədar Parlament Assambleyasında Azərbaycan xalqının iradəsi ilə bağlı verdikləri ədalətli qiyməti yüksək*

*dəyərləndirdi. Builki prezident seçkilərinə hazırlıq məsələlərinə toxunan prezident İlham Əliyev müşahidəçi missiyaların seçkiyə hazırlıqla bağlı bütün proseslərdə yaxından iştirak etdiklərini və hazırlıq işlərinin beynəlxalq standartlara uyğun şəkildə aparıldığını dedi. Seçkinin hər bir ölkənin həyatında mühüm mərhələ olduğunu qeyd edən dövlətimizin başçısı qarşıdan gələn prezident seçkilərinin demokratik və şəffaf keçirilməsi üçün lazım olan bütün şəraitin yaradıldığını dedi və seçkilərin yüksək standartlara uyğun şəkildə keçiriləcəyinə ümidvar olduğunu bildirdi.*

*Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli əlaqələrin bütün istiqamətlərdə, o cümlədən parlamentlərarası əməkdaşlıq sahəsində uğurla inkişaf etdiyinin vurğulandığı görüşdə ölkələrimizin MDB Parlamentlərarası Assambleyasında fəal əməkdaşlığının önəmi qeyd olundu.*

*Görüşdə MDB Parlamentlərarası Assambleyası Şurasının baş katibi Aleksey Sergeyev də iştirak etmişdir.*

## YEVLAX RAYONUNA SƏFƏR

*10 sentyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 10-da Yevlax rayonuna gəlmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə Yevlax şəhərinin mərkəzində ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

*Azərbaycan Prezidentinə parkda və rayonda görülmüş abadlıq-quruculuq işləri barədə məlumat verildi.*

## YEVLAX AEROPORTUNUN AÇILIŞINDA ŞƏHƏR İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*10 sentyabr 2013-cü il*

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 10-da Yevlax Aeroportunun açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə şəhər ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

**İ l h a m  Ə l i y e v:** Yenidən Yevlaxda olmağımdan çox məmnunam. Mən son illər ərzində dəfələrlə Yevlax rayonunda olmuşam, müxtəlif tədbirlərdə, açılışlarda bərabər iştirak etmişik. Bu gün isə yeni aeroportun açılışını edirik. Çox gözəl hadisədir, böyük rəmzi məna daşıyır. Çünki Yevlax aeroportunun yenidən fəaliyyətə başlaması çox əlamətdar hadisədir, ölkəmizin inkişafını, gücünü göstərir. Onu göstərir ki, vaxtilə yaradılmış bütün vacib infrastruktur obyektləri bu gün yenidən qurulur, bərpa edilir və daha da müasir görkəm alır.

Bildiyiniz kimi, Yevlax aeroportu sovet dövründə fəaliyyət göstərirdi. O vaxt uçuş-enmə zolağı o qədər böyük deyildi, ancaq kiçik təyyarələri qəbul edə bilirdi. Bu gün isə yeni zolaq tikilmişdir. İstənilən təyyarə enə bilər – «Boeing», «Aerobus», digər təyyarələr. Bütün beynəlxalq standartlara cavab verən bir aeroportdur və Azərbaycanın nəqliyyat infrastrukturunun yenidən qurulmasında bu aeroportun çox böyük rolu olacaq.

Son illər ərzində Azərbaycanda nəqliyyat sektoruna çox böyük sərmayələr qoyulmuşdur, investisiyalar cəlb edilmişdir – həm xaricdən, həm daxildən. Bu investisiyalar daha çox dövlət büdcəsi hesabına qoyulur və beləliklə, Azərbaycan artıq dünya miqyasında bir nəqliyyat mərkəzinə çevrilmişdir. Bizim çox əlverişli coğrafi mövqemiz vardır. Ancaq nəqliyyat infrastrukturu olmasa, bu coğrafi yerləşmə böyük əhəmiyyət

kəsb etməz. Məhz son illərdə bu sahəyə qoyulan investisiyalar Azərbaycanı artıq bir logistika-nəqliyyat mərkəzinə çevirmişdir. Bizim nəqliyyatımızın bütün növləri bu gün ən yüksək standartlara cavab verir, o cümlədən hava nəqliyyatı. Bu sahəyə xüsusi diqqət verilir və son illərdə Azərbaycanda tikilmiş aeroportlar, alınan yeni müasir təyyarələr və sərnişinlərə göstərilən xidmət bizim inkişafımızı əyani şəkildə göstərir.

Son 10 il ərzində Azərbaycanda bir neçə aeroport yenidən quruldu – Naxçıvan, Gəncə və Lənkəranda. Bu aeroportlardan beynəlxalq uçuşlar başlamışdır. 3 yeni aeroport tikilmişdir ki, heç vaxt olmamışdır – Zaqatala, Qəbələ və Heydər Əliyev Aeroportunun yeni aerovağzal kompleksi və yeni infrastrukturu. Bu gün açılışa hazırlanan Heydər Əliyev Beynəlxalq Aeroportu dünya miqyasında ən gözəl, ən müasir aeroportlardan biridir və yaxın zamanlarda fəaliyyətə başlayacaqdır. Yevlax aeroportunun da nəqliyyat sahəsində öz yeri var və şadam ki, bu layihə də qısa müddət ərzində icra edilmişdir. Bu mənim bilavasitə göstərişimlə icra edilən layihədir. Əminəm ki, bu aeroportun fəaliyyəti Azərbaycan iqtisadiyyatına bir töhfə olacaqdır.

Bütövlükdə nəqliyyatla bağlı bütün məsələlər uğurla icra edilir – yollar çəkilir, o cümlədən kənd yolları. Yevlax rayonunda da kənd yolları çəkilir, dəmir yolu yenidən qurulur. Bakıda ən böyük dəniz limanı tikilir. Xəzər dənizində ən böyük dəniz limanı Bakıda olacaqdır. Gəmiqayırma zavodu tikilir, gəmilər alınır. Biz bu məsələlərə kompleks şəkildə yanaşırıq, bu gün nəqliyyat infrastrukturunun mövcudluğu bizə yeni imkanlar verir. Əlbəttə, biz Bakı–Tbilisi–Qars dəmir yolunun fəaliyyətini səbirsizliklə gözləyirik. Bu layihə də Azərbaycan tərəfindən bir təşəbbüs kimi irəli sürülmüşdür. Bizim tərəfdaşlar, qonşularımız bu layihəyə böyük dəstək vermişlər. Bakı–Tbilisi–Qars dəmir yolu birgə səylərlə tikilir və tikiləndən sonra dünya miqyasında yeni bir dəhliz olacaqdır. Həm məsafə baxımından, həm iqtisadi səmərə nöqteyi-nəzərindən bu layihənin çox böyük iqtisadi və siyasi mənası vardır. Nəzərə alsaq ki, Şimal–Cənub dəhlizi də

Azərbaycan ərazisindən keçir, biz bu dəhlizin inkişafında da maraqlıyıq və öz səylərimizi qoyuruq.

Beləliklə, hesab edirəm ki, son 10 ildə nəqliyyatla bağlı qarşıda duran bütün vəzifələr artıqlaması ilə icra edildi və bu gün açdığımız aeroport bunun növbəti sübutudur.

Yevlax rayonunun inkişafına gəldikdə, çox şadam ki, son illərdə inkişaf çox sürətli olmuşdur. Böyük quruculuq işləri aparılmışdır, Yevlax müasir şəhərə çevrilmişdir. Böyük infrastruktur obyektləri tikilmiş, abadlıq işləri görülmüş, parklar, xiyabanlar, bulvar salınmışdır. Keçən dəfə burada olarkən bulvarda da oldum. Çox şadam ki, bu müsbət təcrübə artıq burada da tətbiq olunur. Bakı bulvarı bildiyiniz kimi, genişlənir və artıq yaxın zamanlarda 14 kilometrə çatacaq. Yevlax bulvarı salınıb. Kür çayı üzərində yerləşən digər şəhərlərdə bulvarlar yaradılır. Bu, gözəl bir təşəbbüsdür və istirahət yeridir, insanların rahatlığı üçün yaradılan yerlərdir. Yevlaxda digər istirahət zonaları parklar, bağçalar, iş yerləri yaradılmışdır.

Bu mənim Yevlaxa 6-cı səfərimdir və son müddət ərzində dəfələrlə burada müxtəlif açılışlarda iştirak etmişəm. Çox şadam ki, Yevlax çox sürətlə inkişaf edir və rayonun gələcək inkişafı ilə bağlı əlavə tədbirlər görüləcəkdir. Burada qazlaşdırma uğurla gedir. Şəhər tam qazlaşdırılıbdır və hesab edirəm ki, yaxın aylarda bütün kəndlər də qazlaşdırılacaqdır. Yəni qazlaşdırma 100 faizə çatacaqdır. İçməli su-kanalizasiya layihəsinin icrası gözlənilir və hesab edirəm ki, 1 il ərzində, yaxud da il yarım ərzində bu məsələ də öz həllini tapacaq. Çünki bu çox ciddi məsələdir. Bildiyiniz kimi, indi ölkə üzrə hər bir yerdə içməli su, kanalizasiya layihələri icra edilir, o cümlədən Yevlaxda da bu, icra ediləcəkdir. Kənd yollarının tikintisi gedir. Bu gün biz 1 kənd yolunun açılışını qeyd edəcəyik. Yəni bütün infrastruktur layihələrinin icrası müsbət istiqamətdə gedir. Bu layihələrin mütləq əksəriyyəti Azərbaycanın dövlət büdcəsi hesabına reallaşır və büdcəmiz də son 10 il ərzində 20 dəfə artmışdır. Hesab edirəm ki, dünya miqyasında belə artım heç bir yerdə müşahidə olunmur. İqtisadi artım, əlbəttə ki, büdcə xərclərinin artımına gətirib çıxarmışdır və bütün iqtisadi uğurlar

məqsədyönlü şəkildə ölkəmizin, regionların inkişafına yönəldilir. Şadam ki, 2-ci regional inkişaf proqramı uğurla başa çatır. Növbəti proqram hazırlanır və növbəti 5 il ərzində hər bir rayon üzrə, o cümlədən Yevlax rayonu üzrə əlavə tədbirlərin görülməsi nəzərdə tutulur.

Mən bir daha sizi bu gözəl hadisə münasibətilə ürəkdən təbrik edirəm. Əminəm ki, gələcəkdə biz sizinlə hələ çox görüşəcəyik. Çünki burada açılışlar çox olacaqdır və gözəl tədbirlərdə bir-birimizi təbrik edəcəyik. Sağ olun.

**Ş a h i n  K ə r i m o v** *(rayon sakini):* Möhtərəm cənab Prezident, icazə verin, yevlaxlılar adından Sizi salamlayım, şəhərimizə «Xoş gəlmisiniz!» – deyim. Son 10 ildə ölkəmiz böyük nailiyyətlər əldə etmişdir. Artıq indi bizim güclü dövlətimiz vardır. Biz öz güclü dövlətimizlə fəxr edirik! Hər bir azərbaycanlı fəxr edir ki, Azərbaycanın vətəndaşıdır, güclü Azərbaycan dövlətinin vətəndaşıdır. Bu güclü dövləti Siz bizə bəxş etmisiniz, cənab Prezident.

Bu gün açılışına toplaşdığımız bu aeroport Azərbaycanın yeni bir nailiyyətidir. Bu hava limanından təkcə yevlaxlılar deyil, ətraf rayonların əhalisi də istifadə edəcək, sərbəst uçuşlar edəcəkdir. Bu aeroport Yevlaxın iqtisadiyyatına böyük uğur gətirəcək. Möhtərəm cənab Prezident, belə aeroportlar, Sizin dediyiniz kimi, Azərbaycanın müxtəlif bölgələrində açılmışdır. Bunlar hamısı Vətənimizə, xalqımıza xidmət edəcək. Bütün bunlara görə Sizə yevlaxlılar adından öz dərin minnətdarlığımı bildirirəm.

**Ə l i  Q u l i y e v** (*rayon sakini):* Möhtərəm cənab Prezident, bu gün hər bir yevlaxlı, hər bir gənc fəxr edir, öz doğma şəhəri ilə qürur hissi keçirir. Qürur hissi ilə demək istəyirəm ki, son 10 ildə şəhərimiz tamamilə dəyişib, yeni görkəm alıb, gözəl, abad bir şəhərə çevrilibdir. Bu hər birimizi qəlbən sevindirir.

Cənab Prezident, Sizin hər dəfə Yevlaxa səfərinizdən sonra şəhərimizdə daha böyük layihələr həyata keçirilir. Buna görə biz Sizi həmişə gözləyirik, həmişə Sizi görmək arzusundayıq.

Şəhərimizdə gördüyünüz bütün gözəlliyi, bütün yeniliyi yevlaxlılar məhz Sizin qayğı və diqqətinizdən aldıqları enerji ilə qurub yaradırlar. Şəhərimiz haqqında söylədiyiniz çox dəyərli sözlər yevlaxlıların zəhmətinə verilən ən böyük mükafatdır. Mən inanmıram ki, dünyanın hər hansı bir ölkəsində 10 il ərzində bu qədər yeniliyə, bu qədər tərəqqiyə nail olunsun. Bu, yalnız Azərbaycana və yalnız Sizə məxsusdur, cənab Prezident. Bizim üçün hər cür şərait yaradılıbdır. Belə bir şəraitdə isə gənclərimiz yüksək vətənpərvərlik ruhunda formalaşır. Siz bizim üçün Vətəni sevmək nümunəsisiniz. Vətənini sevən, prezidentini dəstəkləyən bir gənc olaraq bildirmək istəyirəm ki, biz hər an Sizinləyik. Siz də bizə güvənə bilərsiniz.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun.

* * *

*Sonra Azərbaycan Prezidenti aeroportun rəmzi açılışını bildirən lenti kəsdi. Dövlət başçısı Yevlax aeroportunun planını əks etdirən stendə baxdı.*

*«Azərbaycan Hava Yolları» Qapalı Səhmdar Cəmiyyətinin prezidenti Cahangir Əsgərov məlumat verdi ki, Yevlax aeroportu istismar olunduğu dövrdə öz inkişafının 2 böyük mərhələsini yaşayıb. Birinci mərhələ 1978–1980-ci illərdə ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə aeroportun fəaliyyəti təkmilləşdirilmiş, kənd təsərrüfatı aviasiyasının təmin edilməsi üçün baza yaradılmışdı. Bu çərçivədə uzunluğu 1600, eni 35 metr olan uçuş-enmə zolağı yenidən qurulmuşdu. Uçuş-enmə zolağı işıq-siqnal sistemi ilə təchiz edilmiş, uzaq və yaxın ötürücülər, radiomayak, pelenqator və dispetçer radiolokatoru quraşdırılmışdı. Bu, «Yak-40» reaktiv təyyarələrinin gecə-gündüz qəbulunu təmin etməyə və hava gəmilərində Bakı–Yevlax–Bakı, Yevlax–Naxçıvan–Yevlax, Yevlax–Minvod–Yevlax istiqamətlərində uçuşların açılmasına imkan vermişdi. Sərnişinlərə xidmət göstərilməsi üçün saatda 100 sərnişin buraxılış qabiliyyəti olan aerovağzal binası da inşa olunmuşdu. Həmin vaxtlar perronda eyni zamanda 4 «Yak-40»*

təyyarəsi yerləşə bilirdi. O dövrdə yanacaq-sürtkü materialları anbarı və «AN-2» təyyarələri üçün 60 dayanacaq inşa edilərək aeroport genişləndirilmişdi. Uçuş və texniki-mühəndis heyətləri, onların ailələri üçün istirahət və yaşayış şəraiti yaradılmışdı. Aviaşəhərciyin ərazisi abadlaşdırılmış, buradakı klub və digər sosial təyinatlı obyektlər təmir edilmişdi.

Prezident İlham Əliyevin diqqət və qayğısı Yevlax aeroportunun inkişafında mühüm mərhələ olmuşdur. Məhz bu diqqət və qayğı nəticəsində qısa müddətdə yeni uçuş-enmə zolağı, perron, yönəldici yol inşa edilib, aerovağzal müasirləşdirilib, yardımçı bina və tikililər yenidən bərpa olunub.

Bildirildi ki, milli aviasiyamızın tarixində mühüm yer tutan Yevlax aepotortu bu ilin martından başlayan tikinti-quraşdırma işləri nəticəsində ən müasir standartlara uyğun yenidən qurulub. Burada həyata keçirilən işlər ölkəmizdə gedən inkişaf proseslərinin əyani sübutudur.

Aeroportun texniki-iqtisadi göstəriciləri barədə məlumat verilərkən diqqətə çatdırıldı ki, yenidənqurma işləri nəticəsində 2520 metr uzunluğunda, 40 metr enində, ümumi sahəsi 105 min kvadratmetr olan asfalt-beton örtüklü yeni uçuş-enmə zolağı salınıb. Əvvəllər isə uçuş-enmə zolağının uzunluğu cəmi 1200 metr idi. Bununla yanaşı, 345 metr uzunluğunda, 25 metr enində, ümumi sahəsi 10,7 min kvadratmetr olan yeni asfalt-beton örtüklü yönəldici yolun tikintisi, sahəsi 30,8 min kvadratmetr olan yeni asfalt-beton örtüklü perronun, sahəsi 1200 kvadratmetr olan aerovağzalın yenidən qurulması da görülən işlər sırasına daxildir. Uçuş-enmə zolağı, yönəldici yol və perron xaricdə istehsal olunan işıq-siqnal sistemləri ilə təchiz edilib. Burada sərnişinlərin uçuşa gediş və gəliş zonaları, qeydiyyat masaları, kafe, brifinq və aeroport işçiləri üçün ofis otaqları yaradılıb. Ümumi sahəsi 1300 kvadratmetr olan və dispetçer məntəqəsinin yerləşdiyi dördmərtəbəli bina da tamamilə yenidən qurulub.

Qeyd olundu ki, vağzalyanı meydan abadlaşdırılmış, 60 avtomobil tutumlu dayanacaq tikilmişdir. Aeroportun fasiləsiz elektrik enerjisi ilə təmin edilməsi üçün transformator yarım-

*stansiyası inşa olunmuş, 1300 metr uzunluğunda 10 kilovoltluq 2 elektrik xətti çəkilmişdir. Bundan əlavə, radionaviqasiya sistemlərinin və işıq-siqnal avadanlığının elektrik enerjisi ilə təmin olunması üçün transformator yarımstansiyası tikilmiş və 250 kilovolt gücündə dizel generatoru quraşdırılmışdır. Burada təhlükəsizliyin təmin olunması üçün aeroport boyu 9 kilometr uzunluğunda mühafizə hasarı çəkilib. Uçuşların təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə Yevlax aeroportunda Beynəlxalq Mülki Aviasiya Təşkilatının tələb və normalarına cavab verən, Avropa istehsalı olan radio və meteoavadanlıq – enmə sistemi, meteosistem, hava hərəkətini idarəetmə sistemi və rabitə sistemi quraşdırılıb. Bir çox iritutumlu təyyarələri qəbul etmək gücündə olan Yevlax aeroportu sərnişin daşımaları ilə yanaşı, ölkəmizdə kənd təsərrüfatının inkişafında da mühüm rol oynayacaqdır. Aeroporta yeni yol salınmış, böyük abadlıq işləri görülmüşdür.*

* * *

*Dövlətimizin başçısı sakinlərlə söhbət etdi.*

**İ l h a m Ə l i y e v:** Yevlaxda da aeroportu bərpa etdik.

**S a k i n:** Hər şeyimiz var idi, bir aeroportumuz yox idi. İndi dünyada nələrin baş verdiyini yaxşı görürük. Ölkələrdə müharibələr gedir, insanlar bir-birini qırır, aclıq, səfalət dünyanı başına götürüb gedir, şəhərlər dağılır. Ancaq Azərbaycan dinamik şəkildə inkişaf edir. Buna görə Sizə dərin təşəkkürümüzü bildiririk. Ölkəmiz dinamik, hərtərəfli, əhatəli inkişaf edir. Mən bu sahədə az-çox təcrübəli insan kimi, görürəm ki, Siz infrastrukturdan başladınız. Bunlar çox yerində atılan addımlar idi. İndi ölkəmizdə bütün sahələr inkişaf edir, özü də inkişaf çox sürətlə gedir. Dünyanın super dövlətləri vardır ki, onları iğtişaşlar bürüyüb. Onlar ixtisarlar edirlər, maaşları azaldırlar, kəsirlər. Ancaq şükürlər olsun ki, Sizin rəhbərliyiniz sayəsində ölkəmiz sürətlə inkişaf edir. Hər gün televizorda görürük, Siz içməli su, kanalizasiya xətlərinin açılışını edirsiniz. Bunlardan savab, bunlardan önəmli heç nə ola bilməz.

Siz bununla insanların qəlbini fəth edirsiniz, inamını qazanırsınız. Sağ olun, var olun! Tanrı Sizi qorusun, cənab Prezident!

**İ l h a m  Ə l i y e v:** Azərbaycan doğrudan da inkişaf edir.

**S a k i n:** Respublika gözəlləşdikcə, rayonlarımız gözəlləşdikcə biz ağsaqqallar və ağbirçəklər də gözəlləşirik.

**İ l h a m  Ə l i y e v:** Əlbəttə.

**S a k i n:** Sizinlə fəxr edirik. Bütün Yevlax rayonu, hamı Sizinlə fəxr edir.

**İ l h a m  Ə l i y e v:** Sağ olun. Biz Yevlax rayonunun timsalında Azərbaycanın dinamik inkişafını görürük. Siz də qeyd etdiyiniz kimi, indi dünyada böhran davam edir. İqtisadi böhran bir neçə il bundan əvvəl başlamışdır, sonra maliyyə böhranına çevrilmişdir. Bundan başqa, dediyiniz kimi, müxtəlif yerlərdə siyasi böhran, müharibələr, qarşıdurmalar, vətəndaş müharibələri yaşanır. Azərbaycan isə öz yolu ilə gedir. Azərbaycan dinamik şəkildə, təhlükəsizlik, əmin-amanlıq, sabitlik şəraitində inkişaf edir. Sabitlik əsas idi. Biz ötən əsrin 90-cı illərinin əvvəllərini yaxşı xatırlayırıq. O vaxt sabitlik yox idi. Müstəqillik əldə edən gənc dövlət, demək olar ki, müstəqilliyini əldən verirdi. Ancaq Heydər Əliyevin rəhbərliyi altında sabitlik yarandı. Azərbaycan inkişafa qədəm qoydu və bu gün də bu yolla gedir.

Son illər ərzində Azərbaycan regional inkişaf proqramlarının icrası nəticəsində böyük bir yol keçmişdir. Siz də qeyd etdiyiniz kimi, infrastruktur layihələrindən, ilk növbədə elektrik enerjisindən başladıq. Çünki bunsuz inkişaf mümkün deyil. Sonra yollar, qaz, su xətləri, nəqliyyat infrastrukturu. Özəl sektora dəstək verildi. Fermerlərə 100 milyonlarla manat kredit verildi. İldən-ilə artan pensiyalar, maaşlar, sosial ödəmələr bu gün Azərbaycan reallıqlarını təşkil edir. Deyə bilərəm ki, dünya miqyasında iqtisadi və sosial məsələlərin həlli işində son illər ərzində Azərbaycan qədər inkişaf edən ikinci ölkə yoxdur. Bu yaxınlarda dünyanın ən mötəbər iqtisadi qurumu olan Dünya İqtisadi Forumu yeni bir hesablama dərc etmişdir ki, orada da rəqabətqabiliyyətliliyinə görə Azərbaycan dünyada 39-cu yerdədir. Bax, budur reallıq, budur

bizim inkişafımız. Biz bir çox inkişaf etmiş ölkələri geridə qoyduq. Mən bir neçə il bundan əvvəl demişdim ki, biz də inkişaf etmiş ölkəyə çevrilməliyik. Biz buna nail olacağıq.

Növbəti illərdə görüləcək işlər hesabına Azərbaycan daha da sürətlə inkişaf edəcəkdir. Biz yalnız qabağa gedəcəyik, yalnız inkişaf edəcəyik. Bütün regionlar, həmçinin Yevlax daha da gözəlləşəcəkdir. Halbuki indi də çox gözəl şəhərdir, müasir şəhərdir. Mən də hər dəfə gələndə görürəm ki, şəhər gözəlləşib, abadlaşıb. Siz – burada yaşayan insanlar həm bunu görürsünüz, həm də ki, bunu təmin edirsiniz. Yəni bu sizin zəhmətinizin hesabına baş verir.

Sizi təbrik edirəm, sizə uğurlar, cansağlığı arzu edirəm. Gələcəkdə görüşlərimiz hələ çox olacaqdır.

**S a k i n l ə r:** Çox sağ olun. Sizin rəhbərliyinizlə.

**S a k i n:** Xahiş edirəm bizim salamlarımızı Mehriban xanıma çatdırın. Deyin ki, biz hamımız onu çox istəyirik. O ki o zərif çiyinlərini Sizin daşıdığınız ağır yükün altına verir, həmişə var olsun, həmişə beləcə bir yerdə olun!

**İ l h a m Ə l i y e v:** Çox sağ olun.

**S a k i n:** Allah Sizə cansağlığı versin, xoşbəxt olun! Səmimi sözümdür, Siz yaxşı prezidentlərin ən yaxşısısınız. Biz sizinləyik. Allah Sizi qorusun ki, Siz bu respublikanı daha da gözəlləşdirəsiniz.

**İ l h a m Ə l i y e v:** Sağ olun.

**S a k i n:** Mən Bakıda oldum. Aman Allah, Bakı necə gözəldir!

**İ l h a m Ə l i y e v:** Yevlax da geri qalmır.

**S a k i n:** Geri qalmır. İndi bütün rayonlar gözəldir. Amma Bakı, ümumiyyətlə, çox gözəldir. Allah Sizi saxlasın.

**İ l h a m Ə l i y e v:** Bütün rayonlar bir-biri ilə yarışır. Mən də deyirəm ki, bu, yaxşı yarışdır, sağlam rəqabətdir.

**S a k i n l ə r:** Çox sağ olun.

## Yevlax Şəhər Mərkəzi Xəstəxanasının açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 10-da Yevlax Şəhər Mərkəzi Xəstəxanasının açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı xəstəxananın rəmzi açılışını bildirən lenti kəsdi. Səhiyyə naziri Oqtay Şirəliyev məlumat verdi ki, inşasına 2012-ci ilin martında başlanılan xəstəxananın ərazisi 4,3 hektar, tikinti sahəsi 18,6 min kvadratmetrdir. Buradakı 6 blokun 3-ü dördmərtəbəli, digər 3 blok isə üçmərtəbəlidir.*

*Prezident İlham Əliyev xəstəxanada yaradılan şəraitlə tanış oldu.*

*Tibb ocağında poliklinika, yoluxucu xəstəliklər, şüa-diaqnostika, qadın məsləhətxanası və ailə planlaşdırma, doğum, qəbul, laboratoriya, urologiya, cərrahiyyə, travmatologiya, hemodializ şöbələri fəaliyyət göstərir. Bundan əlavə, xəstələr ginekologiya, sterilizasiya, anesteziologiya, reanimasiya, lor, oftalmologiya, daxili xəstəliklər şöbələrinin xidmətlərindən də istifadə edə biləcəklər. Burada müxtəlif cərrahiyyə əməliyyatlarının aparılması üçün hər cür şərait yaradılıb. Ən müasir avadanlığın quraşdırıldığı bu tibb ocağında kompüter tomoqrafiyası, rəqəmsal rentgen, flüoroqraf, 4D və 3D ultrasəs müayinə aparatları, oftalmoloji kombayn və digər müasir qurğular vasitəsilə xəstələrə keyfiyyətli tibbi xidmət göstəriləcəkdir. Bütün bunlar 2003-cü ildən sonrakı dövrün Azərbaycan səhiyyəsində yeni inkişaf mərhələsi kimi yadda qaldığını təsdiqləyir. Bu dövr ölkədə daha çox səhiyyə infrastrukturunun yaradılması, yeni xəstəxanaların tikintisi, mövcud tibb ocaqlarının yenidən qurulması ilə xarakterizə olunur. Səhiyyə islahatlarının mühüm istiqaməti olan tibb müəssisələri şəbəkəsinin və strukturunun təkmilləşdirilməsi sahəsində də məqsədyönlü tədbirlər həyata keçirilir. Əhalinin sağlamlığının qorunmasında və tibbi xidmətin keyfiyyətinin yaxşılaşdırılmasında səhiyyənin prioritet sahələri üzrə qəbul olunan dövlət proqramları müstəsna rol oynayır. Bu proqramlar dövlət tərəfindən maliyyələşdirilir. Azərbaycan səhiyyəsinin son illərdə keçdiyi*

*böyük və şərəfli yol, ilk növbədə, geniş islahatlarla xarakterizə olunur. Həyata keçirilən bu islahatlar isə ölkədə səhiyyə infrastrukturunun tamamilə yenidən qurulmasına xidmət edir.*

*Dövlətimizin başçısı xəstəxanada yaradılmış şəraitdən razılığını bildirdi.*

## Bakı–Qazax magistralı–Səmədabad–Qaraməmmədli–Qaramanlı–Göyük avtomobil yolunun açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 10-da Bakı–Qazax magistralı–Səmədabad–Qaraməmmədli–Qaramanlı–Göyük avtomobil yolunun açılışında iştirak etmişdir.*

*Azərbaycan Prezidenti avtomobil yolunun texniki göstəricilərini əks etdirən stendə baxdı. Məlumat verildi ki, ümumi uzunluğu 25 kilometr olan yolun çəkilişinə bu ilin iyulunda başlanılıb. Azərbaycan Prezidentinin müvafiq sərəncamı ilə yolun tikintisinə ilkin olaraq 3 milyon manat vəsait ayrılıb. Artıq bu yolun 5,5 kilometrlik hissəsinin tikintisi başa çatdırılıb. Böyük iqtisadi əhəmiyyəti olan bu avtomobil yolu 8300 nəfərin yaşadığı 11 kəndi əhatə edir. Artıq Qaramanlı və digər kəndlərə məsafə 23 kilometr qısalıb.*

*Sonra dövlətimizin başçısı yolun rəmzi açılışını bildirən lenti kəsdi və tikinti işlərinin vaxtında və keyfiyyətlə başa çatdırılması ilə bağlı tapşırıqlarını verdi.*

## BƏRDƏ RAYONUNA SƏFƏR

*10 sentyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 10-da Bərdəyə gəlmiş və 866 məcburi köçkün ailəsi üçün yeni salınan beşmərtəbəli 15 yaşayış binasından ibarət məhəllə ilə tanış olmuşdur.*

*Məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması üçün görülən işlər bu kateqoriyadan olan soydaşlarımızın hər zaman prezident İlham Əliyevin diqqət və qayğısı ilə əhatə olunduğunu göstərir. Məcburi köçkünlərin müvəqqəti yaşayış yerləri və çadırlardan müasir tələblər səviyyəsində inşa edilən qəsəbələrə köçürülməsi dövlətin bu insanlara göstərdiyi diqqətin təzahürüdür. Prezident İlham Əliyevin yürütdüyü siyasətin təməl prinsiplərindən olan məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması ilə bağlı tədbirlərin nəticəsidir ki, ölkədə çadır şəhərcikləri ləğv edilmiş, bu insanların hamısı müasir tipli qəsəbələrə köçürülmüşdür. Onların maddi rifahının yaxşılaşdırılması üçün dövlət proqramları qəbul edilib, sosial müavinətlərin artırılması istiqamətində mühüm tədbirlər görülüb. Respublikanın bir çox yerlərində salınan bu qəsəbələr bir reallığı da ortaya qoyur ki, Azərbaycan dövləti hər zaman vətəndaşlarının qayğısına qalır, onların problemlərinin həlli dövlət siyasətinin mühüm istiqamətini təşkil edir. Bunu prezident İlham Əliyevin müvafiq sərəncamı ilə 866 məcburi köçkün ailəsi üçün Bərdədə salınan yeni məhəllədə yaradılan şərait də təsdiqləyir.*

*Bu kateqoriyadan olan insanlara göstərilən diqqət və qayğının təzahürüdür ki, son 10 ildə 1,5 milyon kvadratmetr sahəsi olan, bütün sosial-texniki infrastruktura malik 61 müasir qəsəbə salınıb, 25,5 min ailə və ya 129 min nəfərdən çox məcburi köçkünün mənzil-məişət şəraiti yaxşılaşdırılıb. Bu da indiyədək*

*yeni salınan qəsəbələrə köçürülənlərin 81 faizini təşkil edir. Yeni qəsəbələrin salınmasına Dövlət Neft Fondundan və digər mənbələrdən 1 milyard 547 milyon manat ayrılmışdır ki, bu da ümumilikdə bu məqsədlərə ayrılan vəsaitin 97,6 faizini təşkil edir. Yeni yaşayış komplekslərində 120 məktəb, 6 musiqi məktəbi, 33 uşaq bağçası, 37 tibb müəssisəsi, 34 klub-icma mərkəzi, 28 rabitə evi tikilib. Minlərlə kilometr uzunluğunda su, elektrik və qaz xətləri çəkilib. Ümumiyyətlə, 2001–2013-cü illər ərzində Dövlət Neft Fondundan və digər mənbələrdən ayrılan vəsait hesabına 82 müasir qəsəbə salınıb. 33 min ailə və ya 159 min nəfərin mənzil-məişət şəraiti yaxşılaşdırılıb. Ümumilikdə 1993–2013-cü illərdə qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həllinə 4,3 milyard manat vəsait sərf olunub. Bu vəsaitin 2 milyard manatı dövlət büdcəsinin, 1,5 milyard manatı Dövlət Neft Fondunun və 800 milyon manatı isə ölkəmizdə fəaliyyət göstərən beynəlxalq təşkilatların vəsaitidir. Həmin vəsaitin 83 faizi, yaxud 3,6 milyard manatı son 10 ildə istifadə olunub. Məcburi köçkünlər arasında yoxsulluq həddi son 10 ildə 75 faizdən 15 faizədək azalmışdır. 2013-cü ildə bir nəfər məcburi köçkünə xərclənən vəsaitin həcmi təxminən 1100 manat təşkil edir ki, bu da dünyanın digər münaqişə zonaları ilə müqayisədə ən yüksək göstərici olmaqla, 2003-cü ildəkinə nisbətən 9 dəfə çoxdur.*

*Dövlətimizin başçısı məhəllədə tikilən 280 yerlik uşaq bağçası ilə tanış oldu.*

*Prezident İlham Əliyevə məlumat verən Baş nazirin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov bildirdi ki, zəruri avadanlıqlarla təchiz olunan bağçada balacaların təlim-tərbiyəsi üçün bütün tələblər nəzərə alınıb.*

*Azərbaycan Prezidenti bağçanın binasında görülən işlərlə, ayrı-ayrı otaqlarda yaradılan şəraitlə yaxından tanış oldu.*

*Uşaqların keyfiyyətli təhsil və dünya standartlarına cavab verən tibbi xidmətlərlə təmin edilməsi, qayğı ilə əhatə olunması, onlar üçün zəruri şəraitin yaradılması, böyüməkdə olan nəslin layiqli vətəndaş kimi formalaşması Azərbaycanda dövlət uşaq*

siyasətinin başlıca prinsiplərindəndir. Dövlətin uşaq siyasətinə hər zaman dəstək verən Heydər Əliyev Fondu da bu istiqamətdə vacib layihələr həyata keçirir.

Bağça ilə tanışlıq zamanı dövlətimizin başçısına məlumat verildi ki, binada tikinti işləri yüksək səviyyədə həyata keçirilib. Bağçada uşaqların istirahəti üçün də hər cür şəraitin yaradıldığı qeyd olundu. Həyətyanı sahədə abadlıq tədbirləri görülüb, uşaqlar üçün xüsusi guşələr yaradılıb, müasir işıqlandırma sistemi qurulub.

Sonra prezident İlham Əliyev 540 yerlik Ağdam rayon 1 saylı məcburi köçkün tam orta məktəbində yaradılmış şəraitlə tanış oldu.

Məktəbin foyesində ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin təhsilə qayğılarını və Ağdamdan olan məcburi köçkünlərlə görüşlərini əks etdirən fotostendlər quraşdırılıb. Burada, həmçinin indiyədək istifadəyə verilən yeni qəsəbələrin fotostendləri də qurulub.

Dövlətimizin başçısı məhəllənin baş planı ilə tanış oldu.

Bildirildi ki, bu məhəllə prezident İlham Əliyevin 2004-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş «Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı»na Azərbaycan Prezidentinin 2007-ci il tarixli Sərəncamı ilə təsdiq edilən əlavələrin müvafiq bəndlərinə əsasən inşa olunmuşdur. Buraya 866 ailə və ya 3900 məcburi köçkün köçürüləcəkdir. Həmin ailələrin 700-ü Ağdam, qalanları isə digər rayonlardan olan məcburi köçkünlərdir. Məhəllənin ərazisi 16 hektardır. Mənzillərin 70-i birotaqlı, 430-u ikiotaqlı, 325-i üçotaqlı, 25-i isə dördotaqlıdır. Burada klub-icma mərkəzi, tibb məntəqəsi və ATS tikilib. Su, elektrik və qaz təchizatı şəbəkələri Bərdə rayonunun kommunikasiyalarına qoşulub. Yeni məhəllə Məcburi Köçkünlərin Sosial İnkişaf Fondunun sifarişi ilə inşa olunub. Məhəllənin tikintisi 2013-cü ilin fevralında başlanılmış və cari ilin sentyabrında başa çatdırılmışdır.

Məktəblə tanışlıq zamanı qeyd olundu ki, yüksək şəraiti ilə seçilən, müasir təlim avadanlığı ilə diqqəti çəkən bu təhsil

*ocağında təlim-tədris üçün hər cür şərait yaradılıb. Prezident İlham Əliyevin təhsilin inkişafına göstərdiyi diqqət və qayğı təsdiqləyir ki, bu sahə dövlət siyasətinin mühüm prinsipləri sırasına daxil edilib. Bu proses təkcə paytaxtla məhdudlaşmır, bölgələri də əhatə edir, doğma yurdlarından didərgin düşən soydaşlarımızın təhsilinin yüksək səviyyədə qurulmasına xidmət edir. Heydər Əliyev Fondunun dövlət səviyyəsində həyata keçirilən bu fəaliyyət proqramına verdiyi dəstək isə özünəməxsusluğu ilə diqqəti çəkir.*

*Dövlətimizin başçısı daha sonra Ağdam rayonundan məcburi köçkün, şəhid ailəsi Səfurə Hüseynovanın mənzilində oldu.*

*Ailə üzvlərinin sayı 5 nəfərdən ibarət olan Səfurə Hüseynovanın mənzili üçotaqlıdır. Mənzildə hər cür şərait yaradılıb.*

*Prezident İlham Əliyev çay süfrəsi ətrafında ailə üzvləri ilə söhbət etdi.*

**Səfurə Hüseynova** (*ev sahibi*): Xoş gəlmisiniz, cənab Prezident! Sizə çox minnətdarıq. Siz bizə yenidən həyat vermisiniz.

**İlham Əliyev:** Çox sağ olun. Sizi təbrik edirəm. Burada gözəl şərait yaradılıbdır, böyük şəhərcik tikilibdir. 4 min köçkün belə gözəl şəraitdə yaşayacaqdır. 4 min köçkünün vəziyyəti yaxşılaşır. Dövlət siyasəti aparılır. Dövlət öz hesabına köçkünləri yerləşdirir, yeni binalar, məktəblər tikilir. Burada indi tanış oldum, gözəl məktəb, uşaq bağçası, yaraşıqlı evlər, geniş otaqlar – bütün şərait yaradılıb.

Bildiyiniz kimi, hər il Azərbaycanda 20 min köçkün yeni evlərə, mənzillərə köçürülür. Hər il Azərbaycanda köçkünlər üçün ortahəcmli şəhərcik tikilir. Bu, əlbəttə ki, böyük vəsait tələb edən layihədir. Ancaq Azərbaycan dövləti bunu edir. Hər il Dövlət Neft Fondundan sırf tikinti məqsədləri üçün 300 milyon manat vəsait ayrılır. İl ərzində Prezidentin ehtiyat fondundan da müəyyən vəsait ayrılır ki, köçkünləri daha gözəl şəraitlə təmin edək. Əminəm ki, bu proses gələcək illərdə də

davam etdiriləcək. Hələ öz növbəsini gözləyən köçkünlər çoxdur, o cümlədən Bərdə rayonunda. Burada 4 min köçkün yaşayacaq. Amma təkcə Bərdə rayonunda mənzil şəraiti yaxşı olmayan köçkünlərin sayı 30 mindən çoxdur. Onların da şəraiti yaxşılaşdırılacaq. İndi biz əlimizdən gələni edirik ki, tezliklə köçkünləri gözəl şəraitlə təmin edək, Bakıda da, rayonlarda da. Evlərə, mənzillərə təxminən 180 min köçkün köçürülüb. Ancaq hələ də məktəblərdə yaşayanlar vardır. Bax, burada yaşayan insanlar əvvəllər məktəbdə yaşayıblar. İndi Bərdə rayonunun bütün məktəbləri boşalır, köçkünlər köçürülür, amma digər rayonlarda hələ məktəblərdə yaşayanlar vardır. Bakının özündə, Sumqayıtda uşaq bağçalarında yaşayanlar vardır. Tədricən bu məsələlər də öz həllini tapacaq və müvəqqəti də olsa, sizin məişət probleminiz həll olunacaqdır.

Ancaq əsas məsələ ondadır ki, biz köçkünlərimizi öz dədə-baba torpaqlarına köçürək. Əminəm ki, biz onu da həll edəcəyik, çünki başqa yol ola bilməz. Azərbaycan öz ərazi bütövlüyünü bərpa etməlidir və edəcəkdir. Bu məsələ ölkəmiz, xalqımız üçün ən vacib məsələdir. Bu ədalətsizliyə son qoyulmalıdır. Ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Haqq-ədalət bərpa edilməlidir. Əminəm ki, biz buna da nail olacağıq. Bu gün artan iqtisadi, hərbi gücümüz bunu təmin edəcəkdir. Mənim heç bir şübhəm yoxdur ki, Azərbaycan öz ərazi bütövlüyünü tam şəkildə bərpa edəcək, köçkünlər Dağlıq Qarabağa, digər torpaqlara qayıdacaqlar. Ondan sonra Dağlıq Qarabağda, Xankəndidə, Şuşada, Ağdamda, digər şəhərlərdə bundan da gözəl binalar tikiləcəkdir.

**Səfurə Hüseynova:** Ancaq Sizin sayənizdə bu arzumuza çata bilərik, cənab Prezident. Çox sağ olun. Sizə minnətdaram. Allah ulu öndər Heydər Əliyevə rəhmət etsin. Sizin ayağınız çox ruzilidir. Mən inanıram ki, Sizin ayağınız bu evə dəyibsə, biz daha da firavan həyat sürəcəyik. Fürsətdən istifadə edib balanızın – o bizim də balamızdır – Heydərin ali məktəbə daxil olması münasibətilə Sizi təbrik edirəm. Arzu edirəm ki, o, babasının və Sizin davamçınız olsun. Biz Sizi çox

sevirik. Siz öz balanızın məhz Azərbaycanda təhsil almasını istədiniz. Sizə bu sadəliyinizə, səmimiyyətinizə görə minnətdarıq.

**İ l h a m Ə l i y e v:** Sağ olun, bu doğrudan da vacib məsələdir. Mən çox istəyirəm ki, Azərbaycan gəncləri Azərbaycanda təhsil alsınlar. Mənim oğlum da məktəbi Bakıda oxuyub, ali məktəbi də Azərbaycanda oxuyacaq. Düzdür, mənim bir neçə il bundan əvvəlki təşəbbüsümlə biz gəncləri oxumaq üçün xaricə göndəririk, vəsait də ayrılır. Bu binaların tikintisi üçün vəsait ayıran Dövlət Neft Fondu xaricdə təhsil almaq üçün hər il təxminən 30 milyon manat vəsait ayırır. Gənclər də gedib xaricdə oxuyurlar. Mən bunu alqışlayıram. Ancaq o vaxt da demişəm, bu gün də demək istəyirəm və öz nümunəmlə bunu təsdiq edirəm ki, elə şərait yaratmalıyıq ki, uşaqlar Azərbaycanda təhsil alsınlar. Azərbaycanda təhsilin səviyyəsi elə yüksək olmalıdır ki, heç kim daha xaricə getməsin, buna ehtiyac olmasın. Tədricən biz bu məqsədlərə də çatırıq. Əlbəttə, mən şadam ki, Prezident kimi, bu sahədə də hesab edirəm, bir yol göstərirəm. Xaricdə oxumağın müsbət tərəfləri kimi, mənfi tərəfləri də vardır. Uşaqlar Vətəndən, ailələrindən ayrılırlar, başqa mühitdə yaşayırlar. Biz isə çalışmalıyıq təhsilin səviyyəsi elə yüksək olsun ki, bu uşaqlar, tələbələr Azərbaycanda oxusunlar, necə deyərlər, öz milli köklərindən ayrılmasınlar, milli ruhda böyüsünlər, tərbiyə alsınlar. Bax, sizin balalarınız da indi bu gözəl məktəbdə oxuyacaqlar. Yaxşı oxusalar, ali məktəbə qəbul olunacaqlar. Bizə vətənpərvər gənclər lazımdır.

**S ə f u r ə H ü s e y n o v a:** Balaca Heydərimiz bütün gənclərə sübut etdi ki, Azərbaycanda təhsil almaq lazımdır. Bəzən bu gənclər Bakıya gedirlər, mən təəccüb edirəm ki, nəyə görə?! Prezidentimiz bütün rayonları abadlaşdırıb. O cümlədən Ağdamımızın kiçik bir kəndini böyük bir şəhərə çevirib. Allah atanıza rəhmət etsin. Sizə uzun ömür, cansağlığı arzulayıram. Həmişə dua edirəm ki, Allah, Prezidentimizi qoru!

**İ l h a m Ə l i y e v:** Sağ olun. Mən Ağdam rayonunda da dəfələrlə olmuşam. Orada da quruculuq, abadlıq işləri aparılır. Quzanlı kəndi indi şəhər olub. Orada infrastruktur layihələri həyata

keçirilib, sosial obyektlər, xəstəxana, idman qurğuları, yollar tikilib, qaz xətləri çəkilib. Ağdam rayonunun işğaldan azad olunan yerlərində qəsəbələr tikilib Ağdam rayonunun sakinlərinin təxminən yarısı, bəlkə də yarıdan çoxu yeni qəsəbələrdə yaşayır. Ağdam şəhəri azad olunandan sonra biz onu yenidən quracağıq. Çünki vəhşi, mənfur düşmənlər Ağdamı yerlə yeksan ediblər. Ağdamın indiki görüntüləri, şəkillər, videogörüntülər var. Şəhəri yerlə yeksan etmək görünməmiş bir vəhşilikdir. Bizim tarixi abidələrimiz, məscidlərimiz, tarixi yerlərimiz dağıdılıb, talan edilib. Bunu kim edib? Ermənilər – vəhşilər ediblər.

Əlbəttə, bu vəhşilik cavabsız qalmayacaq. Biz ərazi bütövlüyümüzü bərpa edəcəyik. Çünki müxtəlif amillər vardır. Birincisi, inkişaf edən Azərbaycandır, tənəzzülə gedən Ermənistan. Bu, artıq reallıqdır. Azərbaycan getdikcə güclənir, Ermənistan getdikcə zəifləyir. Azərbaycanın iqtisadi, hərbi gücü artır, Ermənistan isə artıq etiraf edib ki, öz gücünə öz təhlükəsizliyini təmin edə bilmir və son hadisələr bunun əyani sübutudur. Dünya mətbuatı da bunu qeyd edir ki, Ermənistan öz təhlükəsizliyini təmin edə bilmədiyi üçün müxtəlif addımlara əl atır. Ancaq biz tam şəkildə özümüz öz hesabımıza yaşayırıq, öz inkişafımızı da, təhlükəsizliyimizi də özümüz təmin edirik. Ondan sonra demoqrafiya məsələləri vardır. Mən bu məsələni dəfələrlə vurğulamışam. Bizim əhalimiz müharibə dövründən bəri nə qədər artıb?! Azərbaycanda 9 milyon 400 mindən artıq vətəndaş vardır. Ermənistanda isə azalıbdır. İndi 2 milyondan azdır. İndiki Ermənistan rəhbərliyi və onların rəhbəri Sarkisyan nə qədər hakimiyyətdə qalsa, bizim torpaqlarımız o qədər də tez azad olar. Çünki o adam və onun ətrafındakılar Ermənistanı uçuruma aparıblar. Artıq uçurumdadırlar. Çünki iqtisadiyyat çöküb, əhali qaçır. Elə onların özlərinin rəsmi statistikasına görə hər il 80 min erməni bu ölkəni birdəfəlik tərk edir. Belə getsə, 5-6 ildən sonra orada 1 milyondan az adam qalacaqdır. İndi təmas xəttində bizim mövqelərimiz qorunur, əsgərlər orada dayanıblar, amma Ermənistan tərəfinin təmas xəttini qorumaq üçün canlı qüvvə yoxdur. Boşluqlar vardır. Bu proses tədricən daha da sürətlə

gedəcəkdir. Çünki gücümüz artır, biz Ermənistanı müəyyən qədər təcrid vəziyyətində saxlayırıq. Tam təcrid deyil, çünki onların digər qonşularla sərhədləri açıqdır. Ancaq Azərbaycan və Türkiyə sərhədləri bağlı olduğu üçün bu, müəyyən mənada onlara ciddi iqtisadi zərbədir. Əlbəttə, torpaqlar işğaldan azad olunana qədər bu vəziyyət belə olacaqdır, belə də olmalıdır.

**S ə f u r ə  H ü s e y n o v a:** Bizim Sizin kimi Prezidentimiz vardır. Prezidentlərdən ən birincisi Sizsiniz.

**İ l h a m  Ə l i y e v:** Sağ olun. Mən çalışıram ki, xalqın etimadını doğruldum.

**S ə f u r ə  H ü s e y n o v a:** Cənab Prezident, Siz ailəliklə Azərbaycan üçün işləyirsiniz. Biz Leyla Əliyeva ilə, Mehriban xanımla fəxr edirik ki, bütün ailə üzvləriniz ancaq Azərbaycan xalqı üçün, Azərbaycanın inkişafı üçün çalışır. Azərbaycan artıq Avropa dövlətlərini keçibdir.

**İ l h a m  Ə l i y e v:** Bu yaxınlarda Dünya İqtisadi Forumu yeni bir hesabat dərc edib. Orada ölkələrin rəqabətqabiliyyətliliyi əks olunur. Azərbaycan dünya miqyasında 39-cu yerdədir, bu gün çox inkişaf etmiş ölkələri geridə buraxıb. MDB məkanında birincidir, dünya miqyasında 39-dur. Bax, budur bugünkü reallıq. Hər bir vətəndaş, hər bir ailə üzvü, mən dəfələrlə deyirəm, bir məqsədə qulluq etməlidir ki, ölkə daha da güclü olsun, müstəqillik daha da möhkəm olsun, iqtisadiyyat daha da artsın və biz tezliklə işğala son qoyaq. Mən çox şadam və fəxr edirəm ki, mənim ailə üzvlərim bu işdə fəal iştirak edirlər. Leylanı qeyd etdiniz. Onun təşəbbüsü ilə «Xocalıya ədalət!» kampaniyası bütün dünyada nəyə gətirib çıxardı?!

Artıq 5 ölkə Xocalı soyqırımını rəsmən soyqırımı kimi tanıyır. Bu «Xocalıya ədalət!» kampaniyasının nəticəsidir. Çünki bu bir ictimai hərəkat idi. Ondan sonra, mən açığını deməliyəm, dövlət qurumları – nazirliklər, diaspor təşkilatları da bu ictimai hərəkata qoşuldu və böyük bir hərəkat yarandı.

Müxtəlif ölkələrə məktublar, təqdimatlar göndərildi. Bu gün artıq bu proses gedir. Xocalı qırğınını soyqırımı kimi tanıyan ölkələrin sayı getdikcə artacaqdır. Biz düşmənə hər tərəfdən təzyiq

etməliyik, iqtisadi, siyasi, hərbi, ictimai, bütün istiqamətlərdən öz siyasətimizi aparacağıq. Çünki bizim bir əsas məqsədimiz vardır: ərazi bütövlüyümüzün bərpası, köçkünlərin öz doğma torpaqlarına qayıtması və tarixi ədalətin bərpası.

Hər bir vəzifəli şəxs vəzifəsindən asılı olmayaraq, öz davranışı, addımları ilə yol göstərməlidir. Əgər dövlət o məsuliyyəti onun üzərinə qoyursa, yaxud da ki, Prezident öz qərarı ilə onu bir vəzifəyə təyin edirsə, o, cəmiyyət üçün bir nümunə olmalıdır. Yəni rəhbər kadrlar nümunə olmalıdırlar. Hər kəs bütün sahələrdə öz işi, bacarığı, insanlara olan münasibəti, şəxsi nümunəsi ilə yol göstərməlidir. Belə olmalıdır. Belə olmasa, onda onlar o yerlərdə olmamalıdırlar.

Bir daha demək istəyirəm, mən elə özüm dövlət başçısı kimi, təşəbbüs irəli sürdüm ki, xaricdə oxumaq üçün belə bir proqram icra edilsin. Ancaq indiki mərhələdə hesab edirəm ki, yeni bir yol, yanaşma olmalıdır. Əminəm ki, vəzifəli şəxslər bundan ibrət götürəcəklər.

**Səfurə Hüseynova:** Cənab Prezident, biz Sizin çıxışınıza həmişə baxırıq. Sizinlə fəxr edirik. Sizi televizorda görəndə elə bilirik ki, bütün dünyanı bizə bəxş edirsiniz. Sizin öz ad günlərinizi xalq içində keçirməyiniz hamıya nümunədir. Hamı nümunə götürsün. Dəbdəbəli toylar edirlər. Onun da haqqında danışmısınız. Sizin bu addımlarınız o qədər ürəyimizcədir ki!

**İlham Əliyev:** Belə də olmalıdır. Bilirsiniz, bəzi vəzifəli şəxslər əvvəllər özləri üçün təmtəraqlı yubileylər, bir neçə gün ad günləri keçirirdilər. Xaricdən müğənnilər dəvət edirdilər. Bunlar yolverilməz şeylərdir, bu qudurğanlıqdır. Buna başqa ad vermək olmaz. Dözülməzdir. Ona görə onlara kəskin sözümü dedim ki, vəzifədən azad edəcəyəm. Hesab edirəm ki, bu da dərs oldu. Cəmiyyətdə normal davranış qaydaları olmalıdır. Qanun öz yerində. Qanunun aliliyi hər şeydən üstündür. Ancaq cəmiyyətimizin əsasları, ənənələri, milli dəyərləri vardır. Böyük-kiçik, davranış qaydaları vardır. Biz bunu poza bilmərik. Bizi əsrlər boyu bir millət kimi saxlayan

milli dəyərlərimiz olubdur. Böyük-kiçik münasibətləri, normal davranış qaydaları – bizim milli xüsusiyyətlərimizi təsdiqləyən və göstərən amillər bunlardır. Ona görə də yersiz hərəkətlər, təmtəraqlı tədbirlər olmamalıdır. Vəzifəli şəxslər təvazökar, xalqa xidmət edən, dövlətə, dövlətçiliyə sədaqət göstərən şəxslər olmalıdırlar.

Mən sizə minnətdarlığımı bildirirəm. Siz böyük qəhrəmanlıq göstərmisiniz. Siz təkbaşına övladlar böyütmüsünüz. Buna görə sizə minnətdaram. Burada rahat yaşayın və əminəm ki, gün gələcək biz sizinlə Ağdamda görüşəcəyik.

**Səfurə Hüseynova:** İnşallah. Bircə arzumuz budur. Ulu Tanrı Sizi qorusun!

**İlham Əliyev:** Çox sağ olun.

## NAFTALAN ŞƏHƏRİNƏ SƏFƏR

*10 sentyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 10-da Naftalan şəhərinə gəlmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə Naftalan şəhərinin mərkəzində ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

*Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Natiq Aslanov prezident İlham Əliyevə abidənin yerləşdiyi Heydər Əliyev parkında, eləcə də Naftalanda aparılan abadlıq-quruculuq işləri, habelə inşası davam edən və layihəsi planlaşdırılan tikinti kompleksləri barədə məlumat verdi. Bildirildi ki, ümumi ərazisi 4 hektar olan bu istirahət məkanında fəvvarə, müasir işıq dirəkləri və oturacaqlar qoyulmuş, yaşıllıq zolağı salınmışdır. Son illərdə bu park sakinlərin istirahət üçün ən çox üz tutduqları məkanlardan birinə çevrilib.*

### Heydər Əliyev Mərkəzinin açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 10-da Naftalanda Heydər Əliyev Mərkəzinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı Mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi. Məlumat verildi ki, bu Mərkəzin yaradılması Azərbaycanın bütün bölgələri kimi, Naftalanın da inkişafına daim diqqət və qayğı göstərən ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətinin, zəngin dövlətçilik irsinin öyrənilməsi məqsədinə xidmət edir. Şəhərin Heydər Əliyev parkında yerləşən Mərkəzin inşası ötən ilin avqustunda başlanılmış, bu ilin sentyabrında başa çatdırılmışdır. Mərkəzin ikimərtəbəli binasının tikinti sahəsi 722 kvadratmetrdir.*

*Heydər Əliyev Mərkəzində* ulu *öndərin həyat və fəaliyyətinin müxtəlif məqamlarını əks etdirən* fotostendlər yaradılib. Bu *stendlərdə ümummilli* liderin Naftalana *səfərlərini, eləcə də mədəniyyət və* idmana *göstərdiyi diqqət və qayğını əks etdirən* fotolar yer alıb. *Dahi siyasət* xadiminin 1969–1982-ci *illərdə Azərbaycana rəhbərlik* etdiyi *dövrü, həmçinin* SSRİ *Nazirlər* Soveti *Sədrinin* Birinci *müavini işlədiyi illəri əks etdirən* fotolar da *böyük* maraq *doğurur.* Bu fotolardan *məlum* olur ki, *Azərbaycanı ən çətin sınaqlardan şərəflə çıxararaq* onun *müstəqillik dayaqlarını* daha da *möhkəmləndirən Heydər Əliyevin* qoyduğu miras bu *gün etibarlı əllərdədir. Xalqımız* da *böyük* oğlunun bu misilsiz *xidmətlərini* unutmur. Onun *ölkə və xalq qarşısındakı xidmətləri hər* zaman ehtiramla yad olunur. Naftalan da daxil olmaqla, *ölkəmizin bütün bölgələrində yaradılan Heydər Əliyev mərkəzləri də* bu amala *xidmət* edir. Ümummilli liderin *xatirəsinin əbədiləşdirilməsi istiqamətində həyata* keçirilən bu *layihə nəticəsində gənc nəsil* ulu *öndərin* irsini daha *dərindən öyrənir və bütün* bunlar da *Heydər Əliyev siyasətinin Azərbaycanda* uğurla davam etdirildiyini *göstərir.*

*Mərkəzdə müxtəlif tədbirlərin keçirilməsi üçün* 120 *nəfərlik* konfrans *zalı,* elektron kitabxana, xarici dil *kursları,* internet *otağı, rəsm qalereyası və* kiçik konfrans *zalı* da *yaradılıb.*

*Azərbaycan* Prezidenti *Mərkəzdə yaradılmış şəraitdən razılığını* bildirdi.

# NAFTALANA İÇMƏLİ SUYUN VERİLMƏSİ MƏRASİMİNDƏ ŞƏHƏR İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*10 sentyabr 2013-cü il*

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 10-da Naftalan şəhərinə içməli suyun verilməsi mərasimində iştirak etmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə Naftalan şəhər ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

**İ l h a m Ə l i y e v:** Sizi ürəkdən salamlayıram. Bu gün Naftalan şəhərində əlamətdar hadisə baş verir – içməli su layihəsinin açılışını qeyd edirik. Bu gözəl hadisə münasibətilə sizi ürəkdən təbrik edirəm. Əminəm ki, bu layihə Naftalan sakinləri üçün çox önəmli olacaqdır.

Azərbaycanda hər bir yerdə içməli su layihələri icra edilir. Müxtəlif şəhərlərdə biz artıq içməli suyun verilməsinə nail ola bilmişik. Bəzi yerlərdə icra edilir, bəzi yerlərdə isə hazırlıq işləri gedir. Ancaq bu önəmli layihələrin icra edilməsi tam şəkildə təmin ediləcək. İçməli su insanın sağlamlığı üçün əsas amildir. Dövlət hesabına icra edilən bu layihələr insanların sağlamlığına böyük bir töhfədir, güclü sosial siyasətin əlamətidir. Bildiyiniz kimi, mən son aylar, həftələr ərzində ölkəmizin müxtəlif yerlərində içməli su, kanalizasiya layihələrinin açılışlarında iştirak edirəm. Bu gün Naftalanda da bu gözəl hadisə baş verir. Əminəm ki, biz yaxın zamanlarda bütün şəhərlərimizdə təmiz içməli suyun verilməsinə nail olacağıq. Bir daha demək istəyirəm ki, bu, sırf insanların sağlamlığına verilən töhfədir. Ancaq yəqin bilirsiniz ki, bu layihələr böyük vəsait tələb edir. Azərbaycan dövləti dövlət büdcəsi hesabına bu vəsaiti ayırır ki, insanlar sağlam olsunlar, xəstələnməsinlər və təmiz içməli su ilə təmin edilsinlər. Standartlar da ən yüksək

səviyyədədir. Bütün işlər Ümumdünya Səhiyyə Təşkilatının standartlarına uyğun şəkildə görülür. Beləliklə, bu vacib infrastruktur layihəsi Naftalanda icra edilmiş olur.

Şəhərdə digər infrastruktur layihələri uğurla icra edilir, yollar çəkilir. Naftalanda qazlaşdırma 100 faiz təmin edilmişdir. Bir dənə də olsun qazlaşdırılmayan yer yoxdur. Bu da önəmli hadisədir. Növbəti illərdə şəhərin inkişafı üçün əlavə tədbirlərin görülməsi də nəzərdə tutulur.

Bu mənim Naftalana 3-cü səfərimdir. Çox şadam ki, şəhərdə böyük abadlıq işləri aparılır. Bu meydan tamamilə yeni görkəm almışdır. Gözəl Heydər Əliyev Mərkəzi tikilmişdir. Şəhərin abadlaşması, küçələrin salınması, parkların yaradılması məni sevindirir, xüsusilə gözəl təbiəti olan Naftalan kimi bir yerdə. Vaxtilə burada şəhər planlaşdırılanda şəhərsalma işləri çox böyük məharətlə aparılmışdır. Ona görə sadəcə olaraq, indiki dövrdə biz vaxtilə yararsız vəziyyətə düşmüş binaları bərpa etməliyik. Bütün xiyabanları, yolları abadlaşdırmalıyıq və şəhəri dünya səviyyəli, ən müasir şəhərlər sırasına daxil etməliyik.

Bildiyiniz kimi, vaxtilə Naftalan ümumittifaq kurortu olmuşdu. Burada fəaliyyət göstərən sanatoriyalar 10 minlərlə insana xidmət edirdi. Sovet İttifaqının müxtəlif yerlərindən buraya böyük bir axın var idi. Naftalan məhz buna görə vaxtilə şəhər statusu almışdı. Ondan sonra bildiyiniz kimi, bu sahə bir qədər geridə qalmışdı. Erməni işğalından əziyyət çəkən köçkünlər buraya köçmüşlər. Bütün sanatoriyalarda onlar məskunlaşmışlar. Bu da təbiidir. Çünki ilk növbədə, ən ağır vəziyyətdə olan soydaşlarımızın problemləri həll olunmalı idi. Ancaq bu gün bu problem də həll olunmuşdur. Vaxtilə Naftalanda məskunlaşmış köçkünləri biz yeni evlərlə, mənzillərlə təmin etdik və boşaldılan sanatoriyalarda indi yeni hotellər yaradılır.

Yeni istirahət mərkəzləri açılır. Keçən dəfə burada olarkən biz «Çinar» və «Qaşaltı» sanatoriyalarının açılışını qeyd etdik. Bu gün isə «Qarabağ» sanatoriyasının təmiri ilə tanış olacağam. Çox şadam ki, mənim vaxtilə dediyim sözlər, təkliflər reallaşır. Mən

demişdim ki, vaxtilə fəaliyyət göstərmiş bütün sanatoriyalar yenidən qurulmalıdır, bərpa edilməlidir. Harada bərpa işləri mümkün deyil, yenidən tikilməlidir və biz Naftalanı artıq dünya səviyyəli beynəlxalq kurort şəhərinə çevirməliyik. Buna tədricən nail oluruq. Çünki artıq «Qarabağ» sanatoriyası, daha doğrusu, yeni «Qarabağ» hoteli işə düşəndən sonra burada artıq 3 böyük istirahət mərkəzi olacaqdır ki, onların 3-ü də ən yüksək dünya standartlarına cavab verir. Beləliklə, biz Naftalanın keçmiş şöhrətini daha da yüksək səviyyədə, daha da müasir və keyfiyyətli səviyyədə bərpa edəcəyik. Bununla yanaşı, şəhərin bütün başqa infrastruktur layihələri də öz həllini tapmalıdır və tapır. Dediyim kimi, qazlaşdırma 100 faiz, içməli su da öz növbəsində təmin edilir. Burada çoxlu yaşayış binası vardır. Onların hamısı təmir ediləcəkdir. Bir neçəsi artıq təmir edilib. Burada bir dənə də olsun təmirsiz bina olmayacaqdır.

Naftalan böyük şəhər deyildir. Əhalinin sayı təxminən 9 mindir. Ona görə burada bütün strategiyamız 100 faiz reallaşacaqdır və reallaşır, özü də qısa müddət ərzində. Burada sosial infrastrukturun yaradılması istiqamətində işlər görülür. Uşaq bağçası tikilmişdir. Məktəblər təmir olunmalıdır, şəhər xəstəxanasının da təmirə ehtiyacı vardır. Yəqin ki, bu məsələ də yaxın zamanlarda öz həllini tapacaqdır. Bir sözlə, şəhərin inkişafı üçün bundan sonra da bütün lazımi tədbirlər görüləcəkdir, dövlət vəsaiti ayrılacaqdır.

Bir daha demək istəyirəm ki, Naftalan Azərbaycanda artıq turizm mərkəzlərindən birinə çevrilir. Ümumiyyətlə, ölkəmizdə turizmin inkişafı üçün böyük potensial var. Ölkəmiz çox gözəl ölkədir, gözəl təbiəti, iqlimi vardır. Görməli yerlər çoxdur. Artıq Azərbaycanda bir neçə turizm mərkəzi formalaşır. Əlbəttə ki, birinci mərkəz Bakı şəhəridir. Bakı şəhərində son 2 il ərzində beşulduzlu 6 hotel istifadəyə verilib. Heç bir başqa şəhərdə 2 il ərzində beşulduzlu 6 hotel açılmır. Naftalanda artıq 3-cü hotel təmir edilir. «Şahdağ» kurort zonasında 6 hotel fəaliyyət göstərəcəkdir. 3 beşulduzlu hotel bu mövsüm üçün hazır olacaq.

Qəbələ turizm mərkəzinə çevrilib. Şəki, Lənkəran, Qalaaltı – vaxtilə o da məşhur bir turizm yeri idi. Orada müalicəvi su böyük əhəmiyyətə malikdir. Ora da bərpa edilir. Yəni ölkəmizin müxtəlif yerlərində istənilən müalicəni almaq üçün imkanlar vardır. Yeni infrastruktur yarandıqda, əlbəttə ki, turistlərin sayı daha da artacaq.

Bildiyimə görə, fəaliyyət göstərən yeni hotellərə turistlərin gəlişi artır. Daha da artacaq. Yəni burada daha çox reklam işi düzgün qurulmalıdır. Çünki indi dünyada turistləri cəlb etmək üçün ölkələr arasında rəqabət gedir. Yəni turistlərin gəlişi hər bir ölkənin iqtisadiyyatına bir töhfə olur. Mən inanıram ki, yaxın gələcəkdə Naftalan haqqında dünyada çox geniş məlumat olacaqdır. Əlbəttə ki, burada xidmətin səviyyəsi yüksək və bütün infrastruktur gözəl olmalıdır. Hər şey gözəl olmalıdır. Müasir, yüksək səviyyədə, necə ki, Azərbaycanın hər bir yerində biz buna nail oluruq. Bu layihə isə bir daha demək istəyirəm ki, sırf sosial məna daşıyır, insanların sağlamlığı, rahatlığı və xoşbəxt gələcəyi üçün. Bir daha sizi ürəkdən salamlayıram, bu gözəl hadisə münasibətilə təbrik edirəm.

**H a t ə m Q o c a y e v** *(Naftalan Sanatoriya-Kurort Birliyinin baş həkimi):* Cənab Prezident, şəhərimizə xoş gəlmisiniz! Bizim şəhərə növbəti səfərinizdir. İnfrastrukturumuz nə qədər dəyişibdir.

**İ l h a m Ə l i y e v:** Çox dəyişib. Bu meydanı tanımaq mümkün deyil. Mən birinci dəfə gələndə tam başqa cür idi. Burada balaca bir muzey var idi. Bax, meydan bu cür deyildi. İndi ən gözəl meydanlardan biridir. O tərəfə də getmişdik. Orada küçələr o vaxt salınmışdı.

**H a t ə m Q o c a y e v:** Bəli. İndi şəhərdə hər şey dəyişib. Çox gözəldir. Yeni sanatoriyalar tikilib istifadəyə verilmişdir. Çox yaxşı haldır ki, biz bu gün ən mötəbər qonaqları qəbul edə bilirik, cənab Prezident. Müalicəyə gələnlərin sayı gündən-günə artır.

**İ l h a m Ə l i y e v:** Daha çox haradan gəlirlər? Xaricdən, yoxsa Azərbaycandan?

**H a t ə m  Q o c a y e v:** Xaricdən də gələnlər vardır. Keçən il 6 ayda 3 mindən çox adam müalicəyə gəlmişdi. Bu ilin 6 ayında artıq 6 mini keçib.

**İ l h a m  Ə l i y e v:** 6 ayda – 6 min.

**H a t ə m  Q o c a y e v:** Bəli, bunların 1500 nəfərə yaxını xarici vətəndaşlardır.

**İ l h a m  Ə l i y e v:** Sovet dövründə təxminən 50–60 min nəfər gəlirdi.

**H a t ə m  Q o c a y e v:** Bəli, 75 minə qədər gəlirdi.

**İ l h a m  Ə l i y e v:** O vaxt yollayışlar var idi. İnsanlar yollayışlara pul ödəmədən gəlirdilər. İndi gələnlər pul ödəyirlər.

**H a t ə m  Q o c a y e v:** Pul ödəyirlər, əlbəttə. Bu çox böyük işdir, cənab Prezident. Allah Sizə cansağlığı versin. Bunlar Sizin sayənizdə, Sizin göstərişinizlə olur. Yeni «Qarabağ» sanatoriyası da tikilir.

**İ l h a m  Ə l i y e v:** Bu həm də burada yaşayanlar üçün iş yerləridir.

**H a t ə m  Q o c a y e v:** Bəli. Əlbəttə, iş yerləridir. İnsanların rifah halı artıb. Naftalanda, demək olar ki, işsizlik yoxdur.

**İ l h a m  Ə l i y e v:** Mənim yadımdadır ki, birinci dəfə buraya gələndə vəziyyət o qədər də ürəkaçan deyildi. Şəhər yarıdağılmış vəziyyətdə idi. Bütün binalar, küçələr bərbad idi, işıq yox idi. Elə bil ki, dağılmış bir şəhərə gəlmişdim.

**H a t ə m  Q o c a y e v:** İndi heç bir problemimiz yoxdur.

**İ l h a m  Ə l i y e v:** Amma indi gördüm ki, nə qədər gözəl şəhər olubdur. Necə düzgün planlaşdırılıbdır. Mən özüm də çıxışımda dedim ki, burada şəhərsalma düzgün aparılmışdır. Sadəcə olaraq, biz onları bərpa etməli, yeni infrastrukturla müasir səviyyəyə gətirməli idik. Bu gün hələ bir neçə bina vardır ki, şəhərin ümumi inkişafına uyğun gəlmir. Amma yəqin ki, investorlar bu binaları da təmir edəcəklər. Çünki burada bir dənə də yararsız bina olmamalıdır.

**H a t ə m  Q o c a y e v:** Çox sağ olun, cənab Prezident. Sizə minnətdarıq. Sizin diqqətiniz sayəsində. Bu göstərir ki, Siz

xalqımıza nə qədər diqqət göstərirsiniz. Allah Sizə cansağlığı versin.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun.

**Ş a h i n B a b a y e v** *(«Qaşaltı» sanatoriyasının həkimi):* Möhtərəm cənab Prezident! Bir az öncə söylədiyiniz kimi, bu gün gözəl bir layihə həyata keçirilir. Şəhərimiz hər zaman içməli sudan çox əziyyət çəkirdi. Gün ərzində 3-4 saat fasilələrlə içməli su verilirdi. Sizin diqqət və qayğınız nəticəsində çox qısa bir zamanda şəhərimizə içməli bulaq suyu çəkildi. Artıq şəhər əhalisi 24 saat ərzində daimi olaraq içməli su ilə təmin olunur.

Bir daha bütün naftalanlılar adından Sizə dərin təşəkkürümüzü bildirirəm.

Naftalan durmadan inkişaf edir, bütün bölgəmizdə gedən inkişaf kimi. Bu bir reallıqdır, bizi sevindirir. Sevindirir ona görə ki, ölkəmizin taleyi Sizinlə bağlıdır. Bir daha Sizə təşəkkür edirik. Allah Sizi qorusun!

**İ l h a m Ə l i y e v:** Çox sağ olun.

* * *

*Sonra prezident İlham Əliyev «Naftalan şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması» layihəsini əks etdirən stendlərə baxdı.*

*«Azərsu» ASC-nin prezidenti Qorxmaz Hüseynov bildirdi ki, burada su təchizatı və kanalizasiya sistemləri keçən əsrin 70-ci illərində yaradılıb. Şəhərə içməli su Çəkil kəhrizindən və subartezian quyularından verilir. Naftalanda su şəbəkəsinin uzunluğu 47 kilometrdir. 16 kilometrlik kanalizasiya şəbəkəsi şəhərin kiçik bir hissəsini əhatə edir və istismara yararsızdır. Naftalan şəhərinin əhalisinin sayı 9 min nəfərdir və onların 81 faizi mərkəzləşmiş qaydada içməli su ilə təmin olunur. Şəhər əhalisinə içməli su sutkada 4-5 saatlıq qrafik əsasında verilir. «Naftalan şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması» layihəsi isə Azərbaycan hökuməti ilə Yaponiya Beynəlxalq Əməkdaşlıq*

*Agentliyinin birgə maliyyələşdirdiyi «Kiçik şəhərlərdə su təchizatı və kanalizasiya layihəsi» çərçivəsində həyata keçirilir.*

*Qeyd olundu ki, layihə 2035-ci ilə – perspektiv inkişaf nəzərə alınmaqla, Naftalan şəhərində 9,8 min, Qasımbəyli və Qaşaltı–Qaraqoyunlu kəndlərində isə 3200 nəfər olmaqla, ümumilikdə 13 min sakinin su təchizatı və kanalizasiya xidmətlərinin əsaslı şəkildə yaxşılaşmasına hesablanıb. Layihəyə uyğun olaraq Naftalan şəhərinə və ətraf kəndlərə içməli su yeni mənbədən – Ballıqayadan verilir. Şəhərin dayanıqlı su təchizatı üçün Ballıqaya–Goranboy kəmərindən 8 kilometr uzunluğunda magistral su xətti çəkilib, hər birinin həcmi 3 min kubmetr olan 2 anbar tikilib. Layihəyə əsasən, şəhərə saniyədə 54 litr su gətirilir ki, bu da istehlakçıların tələbatını tam ödəməyə imkan verir. Şəhərdə toplanan çirkab suların axıdılması məqsədi ilə 33 kilometr uzunluğunda kanalizasiya şəbəkəsi də yaradılacaqdır. İndiyə qədər kanalizasiya şəbəkəsinin 10 kilometrlik hissəsində işlər başa çatdırılmışdır. Tullantı sularının təmizlənməsi məqsədilə məhsuldarlığı sutkada 10 min kubmetr olan çirkab sutəmizləyici qurğu inşa olunacaqdır. Layihə üzrə işlərin 2015-ci ilin əvvəllərində başa çatdırılması nəzərdə tutulur.*

*Prezident İlham Əliyev Naftalan şəhərinə içməli suyun verilməsini bildirən düyməni basdı.*

## «Qarabağ» sanatoriyasında tikinti işlərinin gedişi ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 10-da Naftalanda «Qarabağ» sanatoriyasında tikinti işlərinin gedişi ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısının diqqətinə çatdırıldı ki, sanatoriyanın ümumi sahəsi 5 hektardır. Tikintisinə 2012-ci ildə başlanılan sanatoriyanın binası beşmərtəbəli olacaqdır. Burada 264 yerlik 132 nömrənin yaradılması nəzərdə tutulur. Tikintialtı sahəsi 9500 kvadratmetr olan sanatoriyada inşaat işlərinin yaxın gələcəkdə başa çatdırılması planlaşdırılır. İnşaat işləri başa çatdıqdan sonra burada həm yerli, həm də xaricdən gələn*

*qonaqların istirahəti üçün hər cür şərait yaradılacaq. Bu layihənin icrası nəticəsində təbii ki, Naftalana istirahətə və müalicə olunmağa gələnlərin sayı daha da artacaqdır. Ölkəmizdə turizm infrastrukturunun yaradılmasına böyük diqqət göstərən prezident İlham Əliyevin qayğısı nəticəsində artıq Naftalanın da nəhəng turizm mərkəzinə çevrilməsi prosesi uğurla davam etdirilir.*

*Azərbaycan Prezidenti tikinti işlərinin vaxtında və keyfiyyətlə aparılması ilə bağlı tapşırıqlarını verdi.*

## ŞƏMKİR RAYONUNA SƏFƏR

*10 sentyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 10-da Şəmkir rayonuna gəlmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə Şəmkir şəhərində ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

*Prezident İlham Əliyevə abidənin ətrafında və rayonda son illərdə görülən abadlıq işləri barədə məlumat verildi.*

### Bayraq Meydanı və Bayraq Muzeyi ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 10-da Şəmkirə səfəri çərçivəsində Bayraq Meydanı və Bayraq Muzeyi ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısına məlumat verildi ki, Şəmkir rayonunun girişində yerləşən meydan 4,5 hektar ərazini əhatə edir. Meydanda 98 metr hündürlüyündə bayraq dirəyi ucaldılmış, uzunluğu 40, eni 20 metr olan Dövlət bayrağı asılmışdır.*

*Prezident İlham Əliyev Bayraq Muzeyi ilə də tanış oldu.*

*Bildirildi ki, muzeyin xarici vitrajları şüşə paketdən hazırlanıb. İkimərtəbəli binada Azərbaycanın qədim və müasir tarixinə dair maraqlı eksponatlar toplanıb. Səkkizguşəli ulduz formasında yaradılan muzeydə müxtəlif dövrlərdə Azərbaycan ərazisində mövcud olmuş dövlətlərin, xanlıqların, o cümlədən İrəvan xanlığının bərpa edilmiş bayraqları, həmçinin bayraqların uc elementləri, gerblər sərgilənir. Bundan əlavə, burada orden və medallar, ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə müstəqil Azərbaycan dövlətinin yaranmasını, formalaşmasını və inkişafını, prezident İlham Əliyevin ölkəmizin*

*tərəqqisi ilə bağlı fəaliyyətini əks etdirən çoxsaylı fotolar və sənədlər, Silahlı Qüvvələrin Ali Baş Komandanının bayrağı, Silahlı Qüvvələrin qoşun növlərinin döyüş bayraqları və mərasim geyimləri də nümayiş olunur.*

*Diqqətə çatdırıldı ki, muzeydə Ginnes dünya rekordları kitabının Azərbaycanın Dövlət bayrağı dirəyinin dünyada ən hündür bayraq dirəyi olduğunu təsdiq edən sertifikatının surəti, müxtəlif kitablar, fotoşəkillər də yer alıb. Burada vətənpərvərlikyönümlü müxtəlif tədbirlərin keçirilməsi üçün 800 yerlik amfiteatrı olan xüsusi meydan da inşa edilib. Ətrafdakı ərazi abadlaşdırılıb və səmərəli istirahət üçün hər cür şərait yaradılıb. Şəmkir şəhərinin əsas rəmzlərindən biri olan Bayraq Meydanı Azərbaycanın gücünü, qüdrətini təcəssüm etdirir və gələcək nəsillər üçün tarixi əhəmiyyətə malikdir.*

## Heydər Əliyev Mərkəzinin açılışı mərasimi

*Prezident İlham Əliyev sentyabrın 10-da Şəmkirdə Heydər Əliyev Mərkəzinin açılışında iştirak etmişdir.*

*Heydər Əliyev Mərkəzinin ətrafında yaradılan parkla tanış olan dövlətimizin başçısına məlumat verildi ki, parkın ümumi sahəsi 14 hektardır. Ərazidə müasir tipli 7 fəvvarə, uzunluğu 742 metr olan açıq su kanalları və onların üzərində tunel tipli 10 keçid-körpü yaradılıb. Burada, həmçinin süni göl inşa edilib.*

*Bildirildi ki, parkda 20 minədək müxtəlif növ dekorativ ağaclar, güllər əkilmiş, yaşıllıq salınmışdır. Parkın ərazisi əhalinin istirahətinin səmərəli təşkili üçün yüksək səviyyədə hazırlanmışdır.*

*Parkla tanışlıqdan sonra prezident İlham Əliyev Mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Məlumat verildi ki, Mərkəzin inşasına 2012-ci ilin mayında başlanılıb. Qeyri-adi, müasir orijinal layihə əsasında inşa olunan Mərkəz dördmərtəbəlidir. Binanın foyesində ümummilli lider Heydər Əliyevin abidəsi qoyulub. Mərkəzdə quraşdırılan monitorlarda 6 dildə ulu öndərin həyat və fəaliyyətinin ayrı-ayrı məqamlarını əks etdirən videoçarxlar, eləcə də dahi rəhbərin*

*həyata keçirdiyi irimiqyaslı layihələr haqqında məlumatlar nümayiş etdirilir.*

*Azərbaycan Prezidenti Mərkəzdə yaradılmış şəraitlə tanış oldu.*

*Qeyd edildi ki, Mərkəzdə qalereya, 3D kinozalı, kitabxana, bar, tərcümə otağı və mühazirə zalı fəaliyyət göstərir. Kitabxanada ümummilli lider Heydər Əliyev və prezident İlham Əliyev haqqında kitablar, elektron vəsaitlər yer alıb. Mərkəzə gələnlər elektron kitabxananın virtual otağının xidmətlərindən də istifadə edəcəklər. Mərkəzin ikinci mərtəbəsində ulu öndərin müxtəlif illərdə rəhbər vəzifələrdə çalışdığı zaman kabinetlərini sərgiləyən muzey fəaliyyət göstərir. Burada ümummilli lider Heydər Əliyevin şəxsi arxivindən götürülmüş eksponatlar da nümayiş etdirilir. Mərkəzdə, həmçinin ulu öndərin həyat və fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən fotolar sərgilənir. Burada böyük akt zalı da vardır.*

*Prezident İlham Əliyev Mərkəzdən ərazini seyr etdi.*

*Diqqətə çatdırıldı ki, ölkəmizin hər yerində olduğu kimi, ulu öndər Heydər Əliyevin xatirəsini Şəmkir sakinləri də daim əziz tuturlar. Şəhərdə yeni tikilən Heydər Əliyev Mərkəzi ümummilli liderin xatirəsinə dərin ehtiramın nümunəsidir. Dünyanın nüfuzlu siyasi xadimlərindən biri olan Heydər Əliyevin Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun möhkəmləndirilməsi, böyük şəxsiyyətin həyata keçirdiyi məqsədyönlü siyasət nəticəsində müstəqilliyimizin ilk illərində ölkəmizdə vətəndaş müharibəsinin qarşısının alınması, iqtisadiyyatın ağır böhran vəziyyətindən çıxarılaraq inkişaf yoluna qədəm qoyması, qüdrətli ordu quruculuğu istiqamətində həyata keçirilən mühüm tədbirləri əks etdirən fotolara, kitablara və digər vəsaitlərə geniş yer verilib. Ümummilli liderin azərbaycançılıq fəlsəfəsinin təbliği, gələcəkdə vətəndaşlarımızın dünyada cərəyan edən müasir proseslər çərçivəsində öz vətəninin, millətinin və xalqının taleyi ilə bağlı genişmiqyaslı layihələrdə iştirakının təmin olunması, onların arzu və niyyətlərinin gerçəkləşdirilməsi baxımından mühüm əhəmiyyət*

*daşıyan Heydər Əliyev Mərkəzinin inşası Azərbaycanın müasir reallıqlarını əks etdirir.*

*Mərkəzdə yaradılmış şəraiti yüksək qiymətləndirən prezident İlham Əliyev tövsiyə və tapşırıqlarını verdi.*

## Bakı Oksford məktəbinin Şəmkir filialı üçün 80 yerlik Uşaq Akademiyasının açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 10-da Bakı Oksford məktəbinin Şəmkir filialı üçün 80 yerlik Uşaq Akademiyasının açılışı mərasimində iştirak etmişdir.*

*Uşaqların keyfiyyətli təhsil və dünya standartlarına cavab verən tibbi xidmətlərlə təmin edilməsi, qayğı ilə əhatə olunması, onlar üçün zəruri şəraitin yaradılması, böyüməkdə olan nəslin layiqli vətəndaş kimi formalaşması Azərbaycanda dövlət uşaq siyasətinin başlıca prinsiplərindəndir. Dövlətin uşaq siyasətinə hər zaman dəstək verən Heydər Əliyev Fondu da bu istiqamətdə mühüm layihələr həyata keçirir. Bu istiqamətdə müvafiq dövlət proqramlarının qəbul edilməsi və həyata keçirilməsi davamlı xarakter alıb. Bakıda və regionlarda körpələr evləri, uşaq bağçaları, əyləncə mərkəzləri tikilir, internat və orta məktəblər əsaslı şəkildə yenidən qurulur. Şəmkir şəhərində də yeni inşa olunan Uşaq Akademiyası bu sırada uğurla davam etdirilən islahatların məntiqi nəticəsidir.*

*Dövlətimizin başçısı binanın rəmzi açılışını bildirən lenti kəsdi. Bildirildi ki, Uşaq Akademiyası Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunub. Binanın tikintisi ötən ilin mayında başlanılıb, bu ilin iyununda başa çatdırılıb. Akademiyada uşaqların asudə vaxtlarının səmərəli təşkili üçün hər cür şərait yaradılıb. Xüsusi tədris proqramları əsasında fəaliyyət göstərəcək akademiyaya uşaqlar 2 yaşından qəbul ediləcəklər. Burada uşaqlarla dünyada məşhur olan «Kiddie Academy» tədris proqramı əsasında hazırlıq prosesi keçiriləcəkdir. Dünyanın 65-dən çox ölkəsində tədris olunan bu proqram aparıcı məktəbəqədər təhsil proqramlarından biridir.*

*Azərbaycan Prezidenti akademiyada yaradılan şəraitlə tanış oldu. Binanın foyesində və otaqlarda ümummilli lider Heydər Əliyevin, prezident İlham Əliyevin və Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın uşaqlara göstərdikləri qayğını əks etdirən fotolar sərgilənir. Burada balacaların istirahəti üçün xüsusi guşələr yaradılıb. Uşaqların keyfiyyətli tədrisi üçün sinif otaqları, eləcə də mətbəx və yeməkxana da balacaların zövqünə uyğun qurulub. Bundan başqa, akademiyada 4 yataq otağı, incəsənətə maraq göstərən uşaqlar üçün isə art-studiya vardır.*

## Bakı Oksford məktəbinin Şəmkir filialı ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 10-da Bakı Oksford məktəbinin Şəmkir filialı ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısının gənc nəslin intellektual və mənəvi inkişafının təmin edilməsi, vətənpərvərlik ruhunda tərbiyə olunması, onların innovativ ideyalarının və yaradıcı təşəbbüslərinin reallaşdırılması haqqında verdiyi sərəncamlara əsasən, həmçinin Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə həyata keçirilən «Təhsilə dəstək» layihəsi çərçivəsində 2010-cu ilin noyabrında Bakı Oksford məktəbinin Şəmkir filialı fəaliyyətə başlayıb. Hazırda məktəbdə 231 şagird təhsil alır. Məktəbdə tədris ingilis dilində aparılır. Burada təhsil məktəbəqədər hazırlıq, ibtidai siniflər, orta məktəb və yuxarı məktəb mərhələləri üzrə keçirilir. Bununla yanaşı, təhsil ocağında beynəlxalq ikiillik «A-level» proqramları keçirilir. Bu proqramları bitirən şagirdlər beynəlxalq imtahanlarda müsbət qiymətlər aldıqda Britaniyanın müxtəlif universitetlərinə daxil ola bilərlər.*

*Dövlətimizin başçısı Bakı Oksford məktəbinin Şəmkir filialının yataqxanasına da baxdı. Məlumat verildi ki, bu yataqxanada Şəmkirlə yanaşı, Gəncə, Gədəbəy, Ağstafa, Tovuz, Qazax rayonlarından olan uşaqlar da qalacaqlar. Bundan başqa, şagirdlərin məktəbə rahat gediş-gəlişi üçün 5 nəqliyyat vasitəsi vardır. Yataqxana binasının sahəsi 4 min*

*kvadratmetrdir. Burada 90 şagird və 9 müəllimin qalması üçün lazımi şərait yaradılıb. Yataqxananın birinci və ikinci mərtəbələri oğlanlar, üçüncü mərtəbəsi isə qızlar üçün nəzərdə tutulub. Burada elektron kitabxana, idmanla məşğul olmaq üçün müxtəlif qurğular, art-studiya, kino zalı vardır. Uşaqlar gün ərzində 3 dəfə yeməklə təmin olunacaqlar. Yataqxanada xüsusi təlim almış işçi heyət çalışacaqdır.*

*Prezident İlham Əliyev yaradılmış şəraitdən razılığını bildirdi.*

# ŞƏMKİRƏ İÇMƏLİ SUYUN VERİLMƏSİ MƏRASİMİNDƏ RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*10 sentyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 10-da Şəmkir şəhərinə içməli suyun verilməsi mərasimində iştirak etmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

**İ l h a m  Ə l i y e v:** Bu gün Şəmkir rayonunda bir neçə tədbir keçirilir. Onların içərisində içməli suyun verilməsi, əlbəttə ki, xüsusi yer tutur. Bu layihənin icrası böyük əhəmiyyət kəsb edir. İçməli su insanlar üçün əsas məsələdir. Mən çox şadam ki, artıq Şəmkirdə də bu vacib infrastruktur layihəsi uğurla icra edilir. Bu münasibətlə sizi ürəkdən təbrik edirəm.

İçməli su layihələri, kanalizasiya xətlərinin çəkilişi ölkəmizdə geniş vüsət almışdır. Ölkəmizin müxtəlif yerlərində, demək olar ki, hər yerdə, hər şəhərdə bu layihələr icra edilir. Bəzi yerlərdə biz artıq açılışlarda iştirak etmişik, bəzi yerlərdə isə işlər hələ ki, davam etdirilir. Ancaq qarşıya vəzifə qoyulmuşdur ki, 2015-ci ilin sonuna qədər, bəlkə ondan da tez bütün şəhərlərdə və əksər kəndlərdə təmiz içməli su təminatı təşkil edilsin. Bu layihələr təbii ki, böyük vəsait, böyük zəhmət tələb edir. Azərbaycan dövləti bu gün güclü dövlətdir. Ulu öndərin dediyi kimi, iqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir. Bu gün Azərbaycan reallıqları bunu bir daha sübut edir.

İçməli su problemi ölkəmiz üçün həmişə böyük məsələ idi, həmişə insanları narahat edən böyük bir məsələ idi. Bildiyiniz kimi, bizim əsas su mənbələrimiz ölkəmizdən kənarda

formalaşır. Su xətləri çəkilməli idi və çəkilib, su anbarları tikilməli idi və tikilib. Onlardan biri – Şəmkirdə Şəmkirçay dəryaçasının tikintisi davam edir. Bu dəryaçanın böyük əhəmiyyəti var. Çünki həm Şəmkiri və qonşu şəhərləri içməli su ilə təmin edəcək, eyni zamanda, 75 min hektar torpaq sahəsi suvarılacaqdır. Azərbaycanda su ilə bağlı məsələlər bütün dövrlərdə çox ciddi problem olmuşdur. Ötən əsrin 70–80-ci illərində ulu öndər Heydər Əliyevin göstərişi ilə su xətləri çəkilmişdir. Ancaq bu gün biz bu məsələlərin tam şəkildə həllinə nail oluruq və nail olacağıq. İnsanların sağlamlığı üçün əsas məsələ olan təmiz içməli su artıq hər bir şəhərə veriləcəkdir. Şəmkirdə də biz bu gün bunu qeyd edirik. Artıq sakinlərin bir hissəsi içməli suyu 24 saat ərzində alır. Yaxın zamanlarda şəhər su ilə tam təmin ediləcəkdir. Bununla bərabər, Şəmkirdə digər infrastruktur layihələri icra edilir. Qazlaşdırma məsələlərinə xüsusi diqqət göstərilir və bildiyimə görə, qazlaşdırma təxminən 90 faiz səviyyəsindədir. İndi kəndlərdə – bu günə qədər qazlaşdırılmamış kəndlərdə qazlaşdırma gedir. Şəmkirin bütün yaşayış məntəqələri təbii qazla təmin edilməlidir. Biz bu məsələni də həll edəcəyik. Demək olar ki, məsələnin əsas hissəsi öz həllini tapmışdır. Hər bir rayonda olduğu kimi, digər sosial infrastruktur layihələrinin icrası da böyük əhəmiyyət kəsb edir.

Əvvəllər Şəmkirdə olarkən bir neçə açılışda iştirak etmişəm. Bu gün də bir neçə açılışda iştirakım nəzərdə tutulur. Bütün bunlar rayonun dinamik inkişafını göstərir. Burada tarixi abidələr, binalar bərpa edilir, küçələr salınır, abadlıq işləri gedir, gözəl mehmanxana tikilib. Şəmkir tamamilə yeni bir görkəm alıb. Şəhər doğrudan da ölkəmizin ən gözəl şəhərlərindən birinə çevrilib. Şəmkir ölkəmizdə ən sürətlə inkişaf edən rayonlardan biridir. Bu məni çox sevindirir. Çünki hər dəfə yenilikləri, abadlıq-quruculuq işlərini görəndə mən də sizin qədər sevinirəm. Şəmkirdə bütün bu işlər böyük zövqlə və rayona olan böyük məhəbbətlə icra edilir.

Mən artıq 4-cü dəfədir ki Şəmkirdəyəm. Son dəfə 4 il bundan əvvəl gəlmişəm. Deyə bilərəm ki, şəhəri tanımaq çox

çətindir. Şəhər tamamilə yeniləşir, gözəlləşir, öz tarixi simasını saxlamaqla ən müasir şəhərə çevrilir. Əldə edilmiş bütün bu uğurlar münasibətilə sizi ürəkdən təbrik edirəm.

Şəmkir doğrudan da sürətlə inkişaf edir. Şəmkir rayonunun inkişafı Azərbaycanda ümumi dinamik inkişafın təzahürüdür. Sizin rayonunuzun sürətli inkişafı onu göstərir ki, vaxtilə qəbul edilmiş və uğurla icra olunan regional inkişaf proqramları çox böyük əhəmiyyətə malik olan təşəbbüs idi. Əgər biz o proqramları 2004-cü ildə qəbul etməsəydik və 2009-cu ildə ikinci proqram qəbul edilməsəydi, bütün bu işlərin görülməsi mümkün olmazdı. Məhz proqramların mövcudluğu və orada nəzərdə tutulan məsələlərin həlli bugünkü reallığı təmin edir. Bütün bu işlər düşünülmüş, ardıcıl şəkildə görülmüşdür. İnfrastruktur: qaz, işıq, su, yollar. İnvestorlar cəlb edilmişdir, bölgələrə dövlət vəsaiti ayrılmışdır. Regional inkişaf proqramı hər il 100 milyonlarla manat vəsaitin qoyuluşu deməkdir. Son 10 ildə isə bütövlükdə ölkə iqtisadiyyatına 150 milyard dollar vəsait qoyulmuşdur. Əgər illərə bölsək, hər il orta hesabla 15 milyard dollar. Azərbaycan kimi ölkə üçün bu çox böyük bir rəqəmdir. Bütün bu vəsaiti biz düşünülmüş siyasət və ardıcıl, məqsədyönlü fəaliyyət nəticəsində əldə etmişik. Azərbaycan xalqının zəhməti, istedadı hesabına və düzgün siyasət hesabına biz buna nail ola bilmişik. Bu gün Azərbaycanda olan dinamik inkişaf heç bir yerdə yoxdur. Mən bunu tam əminliklə və qətiyyətlə deyirəm. Ona görə yox ki, biz burada özümüzü tərifləyək. Amma bu reallıqdır. Heç bir ölkə son 10 il ərzində Azərbaycan qədər inkişaf etməyib və inkişaf etmir. Bu il də dinamik inkişaf təmin edilib, 6 ayın yekunları da onu göstərir. Qeyri-neft sektoru sürətlə inkişaf edir, iş yerləri açılır, yoxsulluq azalır və abadlaşan şəhərlərimiz dediyim sözlərin ən gözəl təsdiqidir. Bir daha demək istəyirəm ki, bu reallıq özünü Şəmkir rayonunun timsalında çox gözəl şəkildə göstərir. Ancaq bu o demək deyil ki, bütün məsələlər həllini tapıb. Yox, hələ ki, həllini gözləyən məsələlər var, o cümlədən Şəmkirdə. Onların içində Mərkəzi Xəstəxananın vəziyyətini xüsusi qeyd etmək istərdim. Mənə verilən məlumata

görə, xəstəxananın vəziyyəti o qədər də yaxşı deyil. Hesab edirəm ki, biz yaxın zamanlarda yeni xəstəxananın tikintisinə başlamalıyıq. Bu çox vacib məsələdir. İnsanların sağlamlığı üçün vacib olan içməli su, tibbi xidmət, gözəl təbiət, təmiz hava – bütün bunlara biz nail olacağıq.

Son vaxtlar mən müxtəlif şəhərlərdə gözəl xəstəxanaların açılışlarında iştirak etmişəm. Bu gün Yevlaxda, bundan 1 həftə əvvəl Cəlilabadda, ondan 1 həftə əvvəl Ağcabədidə. Yəni bu gün Azərbaycanın əksər şəhərlərində müasir tibbi xidmət vardır. Şəmkir kimi böyük rayonda mütləq müasir, böyük xəstəxana tikilməlidir. Biz bunu da edəcəyik. Lazım olan digər tədbirlər mütləq görüləcəkdir. Bir daha demək istəyirəm ki, bu tədbirlərin görülməsi üçün həm iqtisadi gücümüz, həm siyasi iradə vardır. Artıq görülən işlər ictimaiyyəti daha da ruhlandırır, böyük işlərə sövq edir ki, biz ölkəmizi daha da gücləndirək, daha da zənginləşdirək, insanlar rifah, sülh, təhlükəsizlik içərisində daha da yaxşı yaşasınlar və bundan sonra da dinamik inkişaf təmin edilsin. Bir daha sizi bu gözəl hadisə münasibətilə və bütövlükdə Şəmkir rayonunda görülən işlərlə bağlı ürəkdən təbrik edirəm. Bu işlərdə əməyi olan hər bir insana öz minnətdarlığımı bildirmək istəyirəm. Sizi bir daha əmin etmək istəyirəm ki, rayonun inkişafı daim diqqət mərkəzində olacaqdır.

**M ə m m ə d  Ə m i r o v** *(Rayon Ağsaqqallar Şurasının sədri):* Möhtərəm Prezident, Sizi şəmkirlilər adından, xüsusən ağsaqqallar adından səmimi salamlayıram. Qədim Şəmkir diyarına xoş gəlmisiniz!

Bu gün respublikada gedən tikinti-quruculuq işləri bizi çox sevindirir. Bu, obyektiv gerçəklikdir. Bunu görməyənlərin görmə qabiliyyətində yəqin ki, qüsur vardır. Bunu hər kəs görməlidir, normal adamlar bunu mütləq görməlidir. Bu gün açılışında iştirak etdiyiniz bir neçə obyekt vardır, o cümlədən yəqin parkın açılışını edəcəksiniz. O parkı dünən bir az gəzdik və bir daha şahidi olduq ki, belə şeylər mümkün imiş. Həm gözəl dizayn, həm gözəl arxitektura, həm gözəl keyfiyyət

vardır, hər şey öz yerində. Bir şeyi nəzərinizə çatdırmaq istəyirəm, özünün ixtiyar çağını yaşayan ahıllar, ağsaqqallar üçün belə parkdan dəyərli heç nə yoxdur. İndi onların asudə vaxtlarını keçirmələri üçün tam şərait yaradılmışdır. O parkda hər şey zövq oxşayır. Ahılların, ağsaqqalların o parkda istirahəti onların gümrahlığına da təsir edəcək, ömürləri də artacaqdır. Bunun üçün Sizə sadəcə, təşəkkür etmək, ya minnətdarlıq bildirmək həqiqətən, çox azdır.

**İ l h a m Ə l i y e v:** Sağ olun.

**N ü ş a b ə S e y i d o v a** *(rayon poliklinikasının həkimi):* Cənab Prezident, Şəmkir rayonuna xoş gəlmisiniz! Biz Sizi həmişə sevmişik. Bu gün şəmkirlilərin sevincinin həddi-hüdudu yoxdur. Siz öz sərəncamınızla qurulan bu təmiz içməli su xəttinin və kanalizasiya sisteminin açılışında iştirak edirsiniz. Uzun müddət idi ki, şəmkirlilər içməli sudan əziyyət çəkirdilər. Çox sağ olun. Şəmkirlilər üçün belə bir şərait yaratmısınız. Təşəkkür edirik. Ömrünüz uzun olsun. Ömrünüz həmişə su kimi aydın olsun. Canınız sağ olsun. Biz həmişə Sizinləyik.

**İ l h a m ə İ b r a h i m o v a** *(Düyərli kənd 2 saylı orta məktəbin müəllimi):* Cənab Prezident, mən də Şəmkirin bütün təhsil işçiləri adından Sizi salamlayıram. Şəmkir torpağına «Xoş gəlmisiniz!» – deyirəm. «Təhsil millətin gələcəyidir» – deyən ulu öndər Heydər Əliyevin davamçısı kimi, Siz də hər zaman Azərbaycan təhsilinə diqqət və qayğı göstərmisiniz. Son illər bütün Azərbaycanda olduğu kimi, Şəmkirdə də çoxlu yeni məktəb binaları tikilib istifadəyə verilib. Yeni təhsil ocaqları, Oksford məktəbi, uşaq bağçası tikilib. Bu bizi, şəxsən məni bir müəllim kimi çox sevindirir.

Cənab Prezident, bu gün bu yenilikləri, bu inkişafı gördükdə və Sizin gəlişinizlə bütün şəmkirlilər kimi, mənim də ürəyim qürurla döyünür. Bu qüruru bizə yaşatdığınıza görə çox sağ olun.

**İ l h a m Ə l i y e v:** Bu məsələlər çox böyük əhəmiyyət daşıyır, xüsusilə təhsillə bağlı olan məsələlər. Bilirəm ki, Şəmkir rayonunda məktəb tikintisi sürətlə gedir. Demək olar ki,

məktəblərin əksəriyyəti yaxşı vəziyyətdədir. Hələ təmirə ehtiyacı olan məktəblər vardır. Onlar da təmir olunacaqdır. Yaxın zamanlarda bir dənə də təmirsiz məktəb qalmayacaqdır.

Təhsil, əlbəttə, hər şeyin təməlində dayanır. Çünki biz gəncləri necə yetişdirəcəyik, onlar hansı ruhda böyüyəcəklər, hansı biliklərə malik olacaqlar – ölkəmizin gələcəyi bundan asılı olacaqdır. Ona görə təhsil, səhiyyə məsələlərinə xüsusi diqqət göstərilir. Bu bir daha onu göstərir ki, Azərbaycan sosial dövlətdir. Bu statusa malik olmaq o qədər də asan məsələ deyil, xüsusilə hələ də davam edən iqtisadi və maliyyə böhranı illərində. Çünki bu böhran istər-istəməz əksər ölkələrə təsir etmişdir. Ancaq Azərbaycanda aparılan düşünülmüş siyasət, iqtisadi islahatlar və ölçülüb-biçilmiş addımlar bizi bu böhrandan böyük dərəcədə sığortalaya bilib. Bizim investisiyalarımız – infrastruktura, bölgələrin inkişafına, qeyri-neft sektoruna qoyulan investisiyalar bu gün imkan verir ki, biz artıq neft amilindən az asılı olaq. Ümumi daxili məhsulumuzun əksər hissəsi qeyri-neft sektorunda formalaşır. Ona görə biz gəncləri elə yetişdirməliyik ki, onlar bu dinamikanı saxlaya, gələcəkdə Azərbaycanı qoruya, müstəqilliyi daha da möhkəmləndirə bilsinlər. Bunu etmək üçün bilik və vətənpərvərlik hissləri çox güclü olmalıdır. Vətənpərvərlik hisslərini gücləndirmək üçün ən gözəl amil görülən işlərdir. Çünki əminəm ki, gənclər, yaşlı nəsil, biz hamımız fəxr edirik ki, bu gün müstəqil, inkişafda olan dövlətdə yaşayırıq, öz hesabımıza yaşayırıq və nəhayət, taleyimiz öz əlimizdədir. Bugünkü reallıq, bugünkü müstəqil Azərbaycan bir daha onu göstərir ki, müstəqilliyin üstünlükləri nə qədər əhəmiyyətlidir. Çünki biz buna ancaq müstəqillik dövründə nail ola bilmişik. Ancaq taleyimiz öz əlimizdə olduğu halda biz bu inkişafa nail ola bilmişik.

Tam qətiyyətlə deyə bilərəm ki, bundan sonra Azərbaycan yalnız inkişaf yolu ilə gedəcək. Heç bir böhran, dünyada yaşanan heç bir digər xoşagəlməz məsələ bizi bu yoldan döndərə bilməz. Çünki bu, quruculuq, inkişaf, haqq-ədalət

yoludur. Belə gözəl layihələrin icrası həm dövlətimizin gücünü, həm də dövlət siyasətini göstərir. Bir də onu göstərir ki, dövlət siyasətimizin mərkəzində Azərbaycan vətəndaşıdır. Ona görə sizi bir daha bu gözəl hadisə münasibətilə təbrik edirəm, sizə cansağlığı arzulayıram.

**H i d a y ə t M ə m m ə d o v** *(«AtaHoldinq» ASC-nin qərb filialının əməkdaşı):* Cənab Prezident, mən də bütün şəmkirlilər adından Sizi salamlayıram. Tamamilə yeniləşən Şəmkirə «Xoş gəlmisiniz!» – deyirəm. Sizin rəhbərliyiniz altında son illərdə Şəmkir rayonu Azərbaycanın bütün bölgələri kimi, çox böyük, sürətli inkişaf yolu keçib. Gördüyünüz bu ağacların arxası, böyük ərazilər bu yaxınlara qədər boz torpaqlar idi. Son illərdə yüksək inkişaf nəticəsində ulu öndərimizin adını daşıyan Mərkəzə, Abidələr parkına, göz oxşayan parklara baxdıqca fəxr edirik. Dünən biz bu parkda gəzərkən bir daha fəxr etdik ki, belə bir möcüzəli yerdə yaşayırıq. Buna görə şəmkirlilər Sizə çox minnətdardırlar. Siz özünüz demişkən, qarşıda çox böyük işlər vardır. Bu işlərin də Sizin rəhbərliyiniz altında davam etməsini sidqi-ürəkdən arzu edirəm.

* * *

*Sonra prezident İlham Əliyev «Şəmkir şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması» layihəsini əks etdirən stendlərə baxdı.*

*«Azərsu» ASC-nin sədri Qorxmaz Hüseynov məlumat verdi ki, Şəmkir şəhərinin su təchizatı sistemi ötən əsrin 60-cı illərində yaradılmışdır. Şəhər içməli su ilə Cəyir çayı yatağında yaradılmış drenaj sistemi, subartezian quyuları və kəhrizlər vasitəsilə təmin olunsa da, bu, mövcud tələbatı ödəmirdi. Şəhərdə 2,2 min kubmetr tutuma malik 2 su anbarı mövcud idi. Magistral və paylayıcı su xətləri istismara yararsız vəziyyətə düşmüşdü. Şəmkir şəhərinin 37 min əhalisinin 12 mini mərkəzləşmiş qaydada 2-3 saatlıq cədvəl əsasında içməli su alırdı. Şəhərdə kanalizasiya sistemi mövcud deyildi. «Şəmkir şəhərinin su təchizatı və kanalizasiya*

*sistemlərinin yenidən qurulması layihəsi» 2035-ci ilə – perspektiv inkişaf nəzərə alınmaqla, 47 min nəfərin içməli su təchizatı və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılmasına hesablanmışdır. Layihəyə uyğun olaraq Cəyir çayının hövzəsində yeni drenaj sistemi yaradılmış, magistral, anbarlararası su xətləri çəkilmişdir. İçməli suyun şəhərə özüaxımlı rejimdə verilməsi üçün relyef baxımından yüksək nöqtələrdə ümumi həcmi 7 min kubmetr olan 4 su anbarı inşa edilmiş, mövcud 2 anbar əsaslı təmir olunmuşdur. Layihə çərçivəsində yeni xlorlayıcı qurğu və laboratoriya binası tikilmişdir. Yeni layihəyə əsasən, şəhərə saniyədə 200 litr su veriləcəkdir ki, bu da istehlakçıların tələbatını tam ödəyəcəkdir.*

*Dövlətimizin başçısı layihə ilə bağlı görülən işləri əks etdirən videoçarxa və Şəmkir rayonunun çirkab sutəmizləyici qurğusunun maketinə baxdı.*

*Qeyd edildi ki, Şəmkir şəhərində inşası nəzərdə tutulmuş 235 kilometr uzunluğundakı şəhərdaxili su şəbəkəsinin 100 kilometrlik hissəsinin tikintisi yekunlaşmış, 6900 ünvandan 2800-ü şəbəkəyə qoşulmuş, smart-kart tipli 2500 sayğac quraşdırılmışdır. Şəhərdaxili şəbəkənin hazır olan hissəsinə yeni mənbədən içməli suyun verilməsinə başlanılıb. Şəmkir şəhərində inşası nəzərdə tutulan 203 kilometr kanalizasiya şəbəkəsinin 115 kilometrlik hissəsində işlər başa çatmışdır. Tullantı suları şəhərin kənarında inşa edilən təmizləyici qurğuya ötürüləcəkdir. İcrasına 2011-ci ilin oktyabrında başlanılan layihə 2014-cü ildə başa çatdırılacaqdır.*

*Layihələrlə tanışlıqdan sonra prezident İlham Əliyev Şəmkir şəhərinə içməli suyun verilməsini bildirən düyməni basdı.*

## «Zəka» İntellektual Gənclər Mərkəzinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 10-da Şəmkirdə «Zəka» İntellektual Gənclər Mərkəzinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi. Məlumat verildi ki, mərkəzdə tikinti işlərinə ötən ilin mayında başlanılmış, 1 il sonra başa çatdırılmışdır. Bayraq Meydanının yanında inşa edilən mərkəz fərqli dizayna malikdir. Ümumi sahəsi 3355 kvadratmetr olan mərkəz 2 mərtəbədən ibarətdir. Mərkəzin foyesində ulu öndər Heydər Əliyevin büstü qoyulub. Burada ümummilli liderin və prezident İlham Əliyevin Şəmkir rayonuna səfərlərini və respublikamızın müxtəlif bölgələrində gənclərlə keçirdikləri görüşləri əks etdirən fotoguşələr yaradılmışdır.*

*Prezident İlham Əliyev «Zəka» İntellektual Gənclər Mərkəzinin çəkiliş pavilyonu ilə tanış oldu.*

*Diqqətə çatdırıldı ki, müasir studiya avadanlığı və işıqlandırma sistemi ilə təchiz edilən pavilyondan media-yayım imkanı yaradan resurs kimi istifadə olunacaq, gənclərə internet-televiziya və radio, yeni formatlı intellektual verilişlər, eləcə də media layihələrinin hazırlanması üçün şərait yaradılacaqdır.*

*Dövlətimizin başçısı mərkəzin 3 min kitab fonduna malik kitabxanası ilə tanış oldu. Bildirildi ki, mərkəzin binasında gənclərin intellektual inkişafına şərait yaratmaq və istedadlı gənclərin yaradıcılıq potensialının inkişafını dəstəkləmək məqsədi ilə müxtəlif təyinatlı funksional otaqlar fəaliyyət göstərir. Burada gənclərin bilik və bacarıqlarının daha da artırılması üçün lazımi şərait yaradılıb. Mərkəz şəmkirli gənclərin asudə vaxtlarının daha səmərəli keçməsində müsbət rol oynayacaqdır.*

*Prezident İlham Əliyev mərkəzdə yaradılmış şəraitdən razılığını bildirdi, tapşırıq və tövsiyələrini verdi.*

## «Excelsior Hotel Shamkir» mehmanxanasının açılışı mərasimi

*Prezident İlham Əliyev sentyabrın 10-da «Excelsior Hotel Shamkir» mehmanxanasının açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı mehmanxananın rəmzi açılışını bildirən lenti kəsdi. Məlumat verildi ki, mehmanxana standart, qoşa çarpayılı və böyük çarpayılı 63 otaqdan ibarətdir. Bütün nömrələrdə ən yüksək səviyyədə istirahət üçün hər cür şərait yaradılıb. Ən son informasiya-kommunikasiya texnologiyaları ilə təmin olunan otaqların dizaynında Şəmkirin qədim xalçalarının ornamentlərindən istifadə olunub. Müasir havalandırma sistemi ilə təchiz edilmiş mehmanxana binasında restoran, bar, iclas zalı, SPA, masaj otaqları, Türk hamamı, sauna və hovuz vardır. Burada Avstriya avadanlığı ilə 3 növ pivə istehsal olunur, şərab evində isə 750 şüşə yerli və xarici şərab saxlanılır. Mehmanxananın beşmərtəbəli binasının ümumi sahəsi 9 min kvadratmetrdir. Bütövlükdə kompleks 10 min 200 kvadratmetr sahəni əhatə edir.*

*Mehmanxananın istifadəyə verilməsi həm də çoxlu yeni iş yerlərinin açılması deməkdir. Yeni mehmanxana Şəmkirin turizm potensialının göstəricisi olmaqla, bu bölgənin imkanlarını nümayiş etdirir. Azərbaycanda turizmin ölkə iqtisadiyyatının mühüm hissəsinə çevrilməsi, bu sahədə kiçik və orta sahibkarlıq üçün möhkəm bazanın yaradılması regionların infrastruktur cəhətdən inkişafını da təmin edir. Bölgənin geniş turizm imkanları nəzərə alınsa, bu cür obyektlərin daha çox əhəmiyyət daşıdığını aydın hiss etmək olar. Belə layihələr həm də bölgələrə daha çox turist axınına səbəb olacaq, regionların turizm potensialını nümayiş etdirməyə imkan yaradacaqdır.*

*Mehmanxanadakı şəraitdən razılığını bildirən prezident İlham Əliyev tapşırıq və tövsiyələrini verdi.*

## Alman Lüteran kilsəsi ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 10-da Şəmkirdə əsaslı bərpa edilən alman Lüteran kilsəsi ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısına məlumat verildi ki, kilsədə bərpa işləri 2012-ci ilin mayında başlanılmış, bu ilin iyulunda sona çatdırılmışdır. 1909-cu ildə almanlar tərəfindən inşa edilən kilsə uzun illərdən sonra yenidən bərpa olunmuş, ərazisi abadlaşdırılmış və park salınmışdır. Parkda rayon sakinlərinin asudə vaxtlarının səmərəli təşkili üçün lazımi şərait yaradılmış, uşaq attraksionları quraşdırılmışdır. Binada müxtəlif dini ayinlərin təşkili üçün zal da vardır. Lüteran kilsəsinin bərpası və əsaslı təmiri Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşəbbüsü ilə həyata keçirilib. Kilsənin ərazisi 10 hektardır.*

*Diqqətə çatdırıldı ki, Heydər Əliyev Fondunun həyata keçirdiyi «Tolerantlığın ünvanı – Azərbaycan» layihəsi çərçivəsində aparılan yenidənqurma işləri tarixi keçmişimizə və dini-mənəvi dəyərlərimizə himayədarlıq missiyasının daha bir əyani nümunəsidir. Şəmkirdə əsaslı bərpa olunan Alman Lüteran kilsəsi bu amala xidmət edir.*

*Kilsə ilə tanış olan prezident İlham Əliyev burada quraşdırılan orqanın müşayiəti ilə xor kollektivinin çıxışını dinlədi.*

*Dövlətimizin başçısı kilsədə yaradılmış şəraitdən razılığını bildirdi.*

## Şəmkir hərbi birləşməsinin hərbi şəhərciyində aparılan abadlıq-quruculuq işləri ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Şəmkir hərbi birləşməsinin hərbi şəhərciyində aparılan abadlıq-quruculuq işləri ilə tanış olmuşdur.*

*Şəmkir hərbi birləşməsinin komandiri, general-leytenant Rövşən Əkbərov Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə raport verdi.*

*Ali Baş Komandan İlham Əliyev Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin hərbi hissənin ərazisindəki büstü önünə gül dəstəsi qoydu.*

*Dövlətimizin başçısı hərbi hissənin ərazisində yeni inşa edilən əsgər klubu ilə tanış oldu.*

*Məlumat verildi ki, əsgər klubunun girişində Heydər Əliyev Muzeyi yaradılıb. Burada, həmçinin müasir standartlara cavab verən 500 nəfərlik tamaşaçı zalı, kitabxana, oxu zalı, kompüter otağı, müxtəlif dərnəklər fəaliyyət göstərir.*

*Ali Baş Komandan 3 binadan ibarət əsgər yataqxanası ilə tanış oldu.*

*Bildirildi ki, burada şəxsi heyətin asudə vaxtının səmərəli təşkili üçün idman guşələri, istirahət otaqları vardır. Şəxsi heyətin məişət şəraitinin yaxşılaşdırılması məqsədi ilə yaradılmış otaqlar bütün növ avadanlıqlarla təchiz olunub. Yataqxanalardakı ideoloji otaqlarda şəxsi heyətin hərbi tərbiyəsinin və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi üçün tədbirlər həyata keçirilir. Hərbi şəhərcikdə sıra meydanı, idman şəhərciyi və hovuz yenidən qurulmuşdur. Burada tribuna, futbol, basketbol, voleybol, tennis meydançaları, maneələr zolağı, şəxsi heyətin güc çalışmaları üçün müxtəlif idman alətləri, əlbəyaxa döyüş meydançası və üzgüçülük idmanı ilə məşğul olmaq üçün hovuz fəaliyyət göstərir. Hərbi hissədə hamam, camaşırxana və qazanxana binaları tikilmişdir.*

*Ali Baş Komandan hərbi hissənin tibb məntəqəsi ilə də tanış oldu.Diqqətə çatdırıldı ki, burada tibb elminin ən son nailiyyətləri əsasında yaradılmış avadanlıqlar quraşdırılıb.*

*Prezident İlham Əliyev 1500 nəfərlik əsgər yeməkxanasına baxdı. Qeyd edildi ki, burada nəzarət-buraxılış məntəqəsi, valideynlərlə görüş otağı da yenidən inşa olunub.Ali Baş Komandan İlham Əliyev hərbi hissənin ərazisində aparılan abadlıq-quruculuq işlərinin davam etdirilməsi barədə müvafiq göstərişlərini verdi.*

## GƏDƏBƏY RAYONUNA SƏFƏR

*10 sentyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Gədəbəy rayonuna səfərə gəlmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin Gədəbəy şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

*Azərbaycan Prezidentinə abidənin yerləşdiyi parkda aparılan abadlıq işləri barədə məlumat verildi.*

## GƏDƏBƏY AŞIQ MUSİQİSİ MƏKTƏBİNİN AÇILIŞINDA RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*10 sentyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 10-da Gədəbəy Aşıq Musiqisi Məktəbinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

*Azərbaycan Prezidentini Gədəbəy aşıqları öz ifaları ilə salamladılar.*

**İlham Əliyev:** Salam. Xoş gördük. Nə var, nə yox? Necəsiniz?

**Aşıq İsfəndiyar Rüstəmov:** Boyuna qurban olum, xoş gəlmisən! Bu saz müqəddəs olduğuna görə mən bu sazı Gədəbəy aşıqları adından Sizə bağışlayıram.

**İlham Əliyev:** Çox sağ olun. Təşəkkür edirəm.

**Aşıq İsfəndiyar Rüstəmov:** Möhtərəm Prezidentimiz! Bu binanı Siz tikdirdiniz. Sizin verdiyiniz hər tapşırıq, sərəncam qəlbimizdədir. Allah Sizi qorusun!

Bizim Gədəbəy artıq dəyişib. Şəhərə oxşayır. Bulaqlar, sular çəkilir, körpülər tikilir. Qadan alım, bunların hamısı Sizin hünərinizin bəhrəsidir. Sizə minnətdaram.

**İlham Əliyev:** Çox sağ olun. Şadam ki, yenidən görüşürük. Bax, bu məktəbin açılışında bərabər toplaşmışıq. Xatırlayırsınızsa, bu məktəbin təməl daşını biz birlikdə qoyduq.

Çox şadam ki, artıq gözəl, göz oxşayan bir məktəb tikilmişdir. Bu məktəbin tikintisi o deməkdir ki, aşıq sənəti yaşayır və yaşayacaqdır.

Əlbəttə, burada oxuyan şagirdlər, uşaqlar, gənclər bu sənəti gərək yaşatsınlar. Sizdən nümunə götürüb bu sənəti yaşatsınlar. Çünki aşıq sənəti bizim milli sərvətimizdir, milli sənətimizdir. Azərbaycanda aşıq sənətinin çox dərin kökləri vardır. Azərbaycan aşıq sənətinin vətənidir. Sizin kimi istedadlı aşıqların fəaliyyəti, sizin əməyiniz gələcək nəsillər üçün də örnək olmalıdır. Çünki gənc nəsil vətənpərvərlik ruhunda və milli ruhda tərbiyə almalıdır. Həmişə gənclərlə görüşlər zamanı bunu qeyd edirəm ki, gənclər bilikli, Vətənə bağlı olmalıdırlar, vətənpərvər və milli ruhda böyüməlidirlər. Milli ruh da aşıq sənətidir. Milli ruh bizim musiqimizdir, muğam sənətidir, ədəbiyyatımızdır, xalçaçılıq sənətidir. Azərbaycanın bu sənəti bizim böyük sərvətimizdir, dünyanın sərvətidir.

Xalçaçılıq sənəti – onun vətəni Azərbaycandır. Aşıq sənətinin vətəni Azərbaycandır. Muğamın vətəni Azərbaycandır. Azərbaycan xalqı çox istedadlı xalqdır. Bu sənəti Siz yaşadırsınız və gənc nəsillərə əmanət edirsiniz. Ona görə bu məktəbin tikintisi çox böyük məna daşıyır. Təsadüfi deyil, mən ikinci dəfə burada olarkən məsələ qaldırıldı ki, belə məktəbin tikintisinə ehtiyac vardır. Məktəbin təməl daşını bərabər qoyduq. Bu gün isə məktəbin açılışında bərabər iştirak edirik. Yəni Azərbaycan dövləti gücləndikcə məktəblərin tikintisi, musiqimizin, mədəniyyətimizin inkişafı ilə bağlı daha da ciddi addımlar atılacaqdır. Çünki bu bizim gələcəyimizdir. Azərbaycan dövləti güclü, müasir dövlətdir. O dövlətdir ki, milli köklər üzərində qurulubdur. Ulu öndər Heydər Əliyevin dünyagörüşü bundan ibarət idi ki, müasir Azərbaycan dövlətçiliyinin əsasları ancaq milli-mənəvi dəyərlər üzərində qurulmalı idi və quruldu da.

Belə olan halda xalqımızın gələcəyi çox parlaq olacaqdır. Çünki bizim dövlətçiliyimizin əsasları milli əsaslardır. Bu gün bizim ideoloji əsaslarımız milli əsaslar, milli dəyərlər üzərində qurulubdur. Bu dəyərlər arasında bizim musiqimiz, ədəbiyyatımız, aşıq sənətimiz xüsusi yer tutur. Aşıq sənəti sadəcə olaraq, xalq yaradıcılığı deyildir. Bu, Azərbaycan

xalqının ürəyində yaşayan çox böyük dəyərdir. Siz də dəyərli insanlarsınız ki, bu sənəti yaşadırsınız. Ölkəmizin hər bir yerində milli musiqi, ədəbiyyat inkişaf edir. Bizim musiqimiz çox gözəldir və dünya miqyasında tanınır. Ədəbiyyatımız, kitablarımız, tarixi abidələrimiz – bizim dövlətimiz nə qədər zəngindir, xalqımız nə qədər istedadlıdır! Bütün bunlar xalqımızın istedadının məhsuludur. Ona görə bu gün təkcə Gədəbəy üçün deyil, ölkəmiz üçün əlamətdardır. Çünki gözəl, yaraşıqlı məktəb açılır və bu məktəbdə oxuyacaq uşaqlar, gənclər bu sənəti yaşadacaqlar.

Bir məsələni vurğulamaq istəyirəm ki, hər yerdə olduğu kimi, Gədəbəy rayonunda da inkişaf gedir, quruculuq vardır, abadlıq işləri aparılır. Mən xatırlayıram ki, bu küçə tamamilə başqa görkəmdə idi. İndi binalar bərpa edilir, küçələr salınır. Bu gün buraya gələrkən körpünün açılışında iştirak etmişəm. Kənd yolu çəkilir. Təqdimatda göstərildiyi kimi, heç vaxt yol olmayan yerlərdə 56 kilometr uzunluğunda kənd yolları tikilir. Torpaq yol olmuşdur, insanlar əziyyət çəkirdilər. İndi kənd yolu çəkilir. İçməli su layihəsi icra ediləcəkdir. Biz mütləq Gədəbəy şəhərini təmiz içməli su ilə təmin edəcəyik. Hesab edirəm ki, gələn ilin sonuna qədər bu layihənin əsas hissəsi başa çatmalıdır. Bir müddət bundan əvvəl kəndlərə qazın verilməsi başlanılmışdır. Onu da qeyd etməliyəm ki, bir qədər ləng gedir. Daha da sürətli getməlidir ki, əksər kəndlər qazlaşdırılsın. Məktəblər, binalar tikilir. Şəmkir–Gədəbəy yolu yaxşı vəziyyətdədir, rahat yoldur. Növbəti illərdə yeni kənd yollarının tikintisi də nəzərdə tutulub. Bu gün mənə bu məsələ təqdim olundu. Göstəriş veriləcəkdir ki, bütün kəndlərə gedən yollar yenidən qurulsun, Gədəbəy rayonu daha da sürətlə inkişaf etsin, burada insanlar daha da rahat, xoşbəxt, rifah, əmin-amanlıq içində yaşasınlar. Necə ki, bu gün bütün Azərbaycan vətəndaşları rifah, sülh, əmin-amanlıq içində yaşayırlar. Bizim inkişafımızın əsas səbəbi məhz budur. Sabitlik, əmin-amanlıq, cəmiyyətdə mövcud olan xoş əhval-ruhiyyə bu gün Azərbaycanı bir çox ölkələrdən fərqləndirən cəhətlərdir.

Sizi bir daha alqışlayıram, salamlayıram, aşıqlara öz dərin hörmətimi bildirmək istəyirəm, sizə cansağlığı və yeni yaradıcılıq uğurları arzulayıram.

**Məhərrəm Qasımlı** *(professor):* Cənab Prezident, Gədəbəyimizə xoş gəlmisiniz! Biz bu gün çox böyük bir mədəni-tarixi hadisənin iştirakçısıyıq. Əlbəttə, belə bir möhtəşəm sarayın qurulması, sözün həqiqi mənasında, çox əzəmətli bir tarixi hadisədir. Bildiyimiz kimi, ozan-aşıq mədəniyyəti, bayaq siz də çox gözəl dediniz, bizim milli-mənəvi varlığımızın əsas göstəricilərindən biridir. Ulu öndərimiz Heydər Əliyev ozan-aşıq mədəniyyətini milli varlığımızın mötəbər qaynağı olduğunu xüsusi qeyd etmişdir. Bu söz «Dədə Qorqud» ensiklopediyasında qızıl hərflərlə yazılır.

Bu gün o ideya, o düşüncə bu sarayın simasında öz əyaniliyini bir daha tapır. Biz Sizə təşəkkür edirik ki, Sizin dövrünüzdə Azərbaycanın milli sərvətləri qeyri-maddi irs olaraq YUNESKO səviyyəsində öz təsdiqini tapdı. Allah Mehriban xanımın canını sağ etsin ki, bu fədakarlığı çox səylə həyata keçirdi və doğrudan da bu gün Azərbaycanımızda təkcə iqtisadi sahədə deyil, mədəni-mənəvi sahədə də çox böyük quruculuq işləri gedir. Bizim sazımız, sözümüz, muğamımız, xalça sənətimiz, Novruz bayramı ilə bağlı olan proseslər bunun hamısının ifadəsidir. Biz bəlkə də hadisələrin içərisində olduğumuz üçün bunun möhtəşəmliyini o qədər də görə bilmirik, amma kənardan gələnlər, xarici qonaqlarımız Azərbaycanı heyrət içərisində seyr edirlər. Bu çox böyük uğurdur. Bu Sizin ulu Öndər Heydər Əliyev siyasətini, onun strateji hədəflərə yönəlmiş siyasətini gerçəkləşdirməkdə əldə etdiyiniz uğurların nəticəsidir. Biz Sizə çox təşəkkür edirik. İnşallah, sazımız-sözümüz hər zaman Sizinlə bir yerdə olacaqdır. Əlbəttə, ustadımızın da dediyi kimi, saz çox müqəddəs alətdir. Qoy sazın ruhu, sazı qoruyan ruh, ulu ozanların ruhu hər zaman sizə yardımçı olsun, onun işığı, xeyiri, bərəkəti Sizinlə bir yerdə olsun. Biz Sizə dərin təşəkkür edirik ki, sazımıza, sözümüzə, aşıq sənətinə belə gözəl, əzəmətli sarayı bəxş etdiniz. İnanırıq ki, Siz Bakımızda da aşıqlar üçün belə gözəl bir saray tikdirəcəksiniz.

Buna da şübhəmiz yoxdur. Çünki Siz sazın, sözün, mənəviyyatımızın dostusunuz. Biz Sizinlə fəxr edirik. Siz burada qeyd etdiniz ki, aşıq məktəbi gənclər üçündür, gələcəyimiz üçündür. Burada gənclərimiz dayanıblar. Sizin sözünüzə qüvvət olaraq indi onlar ifa edəcəklər. Siz gənclərin dostu olan bir Prezidentsiniz. O mənada gəncləri də dinləməyinizi xahiş edirik.

*Sonra prezident İlham Əliyev gənc aşıqların ifasını dinlədi.*

* * *

*Prezident İlham Əliyev Gədəbəy Aşıq Musiqisi Məktəbinin rəmzi açılışını bildirən lenti kəsdi, burada yaradılan şəraitlə tanış oldu.*

*Bu musiqi ocağının təməli 2009-cu ildə prezident İlham Əliyev tərəfindən qoyulub. Binanın həyatində Aşıq Ələsgərin heykəli ucaldılıb. Foyedə ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin mədəniyyətin inkişafına və Gədəbəyə səfərlərini əks etdirən fotolardan ibarət guşə yaradılıb.*

*Bildirildi ki, bu ilin iyununda başa çatdırılan tikinti işləri çərçivəsində ikimərtəbəli binada bütün şərait yaradılıb. Musiqi məktəbində inşaat işləri «Lider Monolit» şirkəti tərəfindən həyata keçirilib. Burada kitabxana və qiraət zalı yaradılıb, musiqi xəzinəsini özündə əks etdirən kitab və nəşrlərlə zənginləşdirilib. Sahəsi 194 kvadratmetr olan 121 yerlik akt zalı, həmçinin səhnə zəruri avadanlıqlarla təchiz olunub. Burada səsyazma studiyası da qurulub. Məktəbdə köməkçi otaqlarla yanaşı, qrim otağı, yeməkxana da fəaliyyət göstərir. Sinif otaqlarında tədrisin yüksək səviyyədə aparılması üçün hər cür şərait vardır. Bu musiqi məktəbinin özəlliyini artıran mühüm amillərdən biri də burada aşıq musiqi sənəti ilə bağlı muzeyin yaradılmasıdır. Muzeydə Gədəbəy aşıqları, o cümlədən ölkəmizin tanınmış saz ustadları haqqında məlumatlar toplanılıb. Bundan əlavə, aşıq sənətinə dair müxtəlif eksponatların nümayiş etdirildiyi muzey zənginliyi ilə diqqəti cəlb edir. Hazırda rayonda 150-dən çox aşıq vardır. Binanın ikinci mərtəbəsində divarda Azərbaycanın tanınmış aşıqlarının fotoları, ulu öndər Heydər Əliyevin*

*və prezident İlham Əliyevin ölkəmizdə aşıq sənətinin inkişafı ilə bağlı sərəncamlarının surətləri asılıb.*

*Dövlətimizin başçısı Aşıq Musiqisi Məktəbində yaradılmış şəraiti yüksək qiymətləndirdi.*

**Çolpan çayı üzərindəki körpünün açılışı mərasimi**

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 10-da Gədəbəydə Çolpan çayı üzərindəki körpünün açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı körpünün yerləşdiyi avtomobil yolunun sxematik planı ilə tanış oldu.*

*Məlumat verildi ki, körpü Gədəbəy şəhərinin girişində, Şəmkir–Gədəbəy magistral avtomobil yolunun 42-ci kilometrliyində yerləşir. Çolpan çayı üzərində 1988-ci ildə tikilən üçaşırımlı, 60 metr uzunluğunda olan körpü uzunmüddətli istismardan və təbii aşınmalardan sonra qəzalı vəziyyətə düşmüşdü. Gədəbəy şəhərinə giriş üçün alternativ yol olmadığından yeni körpünün tikilməsinə zərurət yaranmışdı. Körpünün tikintisi 2012-ci ilin noyabrında başlanılıb, bu ilin sentyabrında başa çatdırılıb. Yenidən qurulan körpü əhalinin gediş-gəlişini xeyli asanlaşdıracaqdır. Körpünün uzunluğu 95 metr, eni isə 14 metrdir. Dördaşırımlı körpü Gədəbəy şəhərinin kəndlərlə nəqliyyat əlaqəsinin yaxşılaşdırılmasında, həmçinin rayonun iqtisadiyyatının və turizmin inkişafında mühüm rol oynayacaqdır.*

*Azərbaycan Prezidenti Gədəbəydə aparılan abadlıq-quruculuq işlərindən bəhs edən videoçarxa baxdı.*

*Qeyd edildi ki, körpü ilə yanaşı, Gədəbəy–Novosaratovka–Qaravəlilər avtomobil yolu da yenidən qurulub. Yoldakı hərəkət zolaqlarının eni 11,5, piyadalar üçün nəzərdə tutulmuş səkilərin eni 2,5 metrdir. Birinci mərhələdə yolun Gədəbəy–Novosaratovka hissəsi yenidən qurulub. Yeni yol yatağı tikilərək üzərinə asfalt-beton örtük salınıb. Sel sularının təsirindən uçmuş yol kənarları bərpa edilib. Yolun bu hissəsinin uzunluğu 27 kilometrdir. 2 hərəkət zolaqlı yolun eni 7 metrdir. Hazırda yolun bu hissəsində tikinti işləri tamamlanıb. İkinci mərhələdə yolun Novosaratovka–*

*Qaravəlilər hissəsi çəkiləcəkdir. Bu hissənin uzunluğu 29 kilometrdir. Layihəyə uyğun olaraq 10 metr enində torpaq yatağının üzərində eni 6 metr olan ikizolaqlı yol çəkiləcəkdir. Bundan əlavə, bəzi hissələrdə beton suaxıdıcı novların, yol çiyinlərinin, bəzi hissələrdə isə metal sədlərin tikilməsi nəzərdə tutulub. Yolun bu hissəsində hazırda tikinti işləri davam etdirilir. Hər 2 layihə «Gəncəkörpütikinti-2» ASC tərəfindən uğurla icra olunub.*

*Dövlətimizin başçısı görülmüş işləri yüksək qiymətləndirdi.*

### «Azerbaijan International Mining Company Limited» şirkətinin yeni zavodunun açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 10-da Gədəbəydə «Azerbaijan International Mining Company Limited» şirkətinin yeni zavodunun açılışında iştirak etmişdir.*

*Bildirildi ki, yeni zavodun tikintisi ötən il başlanılıb, bu ilin iyununda başa çatdırılıb. Zavodda saatda 100–150 ton filiz emal olunur. Köhnə zavodda filizin tərkibindən 70 faiz qızıl alınırdısa, yeni müəssisədə bu göstərici 85 faiz təşkil edir. Bu zavodda sulfidli filiz emal olunacaqdır ki, köhnə müəssisədə bu proses həyata keçirilə bilmirdi. Yeni müəssisənin fəaliyyəti nəticəsində ətraf mühitə kimyəvi maddələrin yayılmasının təsiri azalacaqdır. Bu məqsədlə anbar tikilmiş və tullantıların oraya axıdılması üçün xüsusi mühafizə olunan boru xətti çəkilmişdir.*

*İstehsal prosesini izləyən dövlətimizin başçısına məlumat verildi ki, zavodda istifadə olunan texnologiyalar xaricdən gətirilib. Emal prosesində istifadə olunan aşındırma sistemi Avstraliya, çökdürmə sistemi isə Cənubi Afrika Respublikasının istehsalıdır. Köhnə zavodda çökdürmə prosesi açıq havada aparılırdısa, yeni müəssisədə bu əməliyyat qapalı çənlərdə həyata keçirilir. Yeni müəssisənin tikinti sahəsi 14,4 min kvadratmetrdir. Burada 32 min unsiya qızıl istehsalı nəzərdə tutulub.*

*Bildirildi ki, Gədəbəy yatağı hələ qədim dövrlərdən məlum olmuş, dəfələrlə mis və nəcib metalların çıxarılması məqsədilə istismar edilmişdi. 1864–1917-ci illərdə yataqda müvafiq qaydada dağ-mədən işləri aparılmışdı. Həmin dövrdə Almaniyanın*

*«Siemens» şirkəti yataqda mis hasilatı ilə məşğul olmuş, təxminən 2 milyon ton filiz çıxarılmışdı. 1997-ci ildə Azərbaycanın «Azərqızıl» Dövlət Şirkəti ilə ABŞ-ın «R.V. İnvestment Group Services LLC» şirkəti arasında Gədəbəy, Qoşa, Ordubad qrupu, Söyüdlü, Qızılbulaq və Vecnəli perspektiv qızıl filizi yataqlarının kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Saziş imzalanmışdır. Gədəbəy qızıl-mis layihəsi gəlirdə payı 51 faiz olmaqla, Azərbaycan hökuməti ilə birlikdə həyata keçirilir. Payı 49 faiz olan Azərbaycan Beynəlxalq Mədən Əməliyyat Şirkəti layihəyə rəhbərlik edir. Layihə çərçivəsində ilk zavod 2009-cu ildə prezident İlham Əliyevin iştirakı ilə fəaliyyətə başlayıb.*

*Prezident İlham Əliyev zavodu işə saldı və müəssisədə yaradılmış şəraiti yüksək qiymətləndirdi, tapşırıq və tövsiyələrini verdi.*

**«Halal Qida» süd emalı zavodu və tərəvəz məhsullarının tədarükü, saxlanılması və satışı kompleksi ilə tanışlıq**

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 10-da Gədəbəydə «Halal Qida» süd emalı zavodu və tərəvəz məhsullarının tədarükü, saxlanılması və satışı kompleksi ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısına məlumat verildi ki, kompleksin ümumi dəyəri 4,1 milyon manatdır və bu layihəyə İqtisadi İnkişaf Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 2,8 milyon manat güzəştli kredit verilib. Tutumu 10 min ton olan soyuducu anbar kompleksi xaricdə istehsal olunan avadanlıqlarla təchiz edilib. Soyuducu anbar kompleksi Gədəbəy və ətraf rayonlarda fəaliyyət göstərən sahibkarların yetişdirdiyi tərəvəz məhsullarının uzun müddət itkisiz saxlanmasına və digər mövsümlərdə daxili bazarın təmin olunmasına imkan yaradacaq. Gündəlik istehsal gücü 5 ton olan kartof emalı sahəsi Hollandiya texnologiyası əsasında qurulub. Burada Gədəbəy və ətraf rayonlardan tədarük olunacaq kartofun yuyulması, çeşidlənməsi və son zamanlarda istehlakçıların yarımfabrikat məhsullara tələbatını nəzərə alaraq, kartofun qabıqdan çıxarılaraq doğranmış formalarda vakuum*

*qablaşdırılması həyata keçiriləcəkdir. Bildirildi ki, istehsal olunacaq süd və kartof məhsulları daxili bazarla yanaşı, xarici ölkələrə də ixrac ediləcəkdir. Müəssisənin xammal bazası yerli fermerlərdən tədarük olunacaq məhsullar hesabına təmin ediləcəkdir. Bu layihələrin icrası nəticəsində 74 nəfər yeni iş yeri ilə təmin olunub.*

*İqtisadi İnkişaf Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondunun icraçı direktoru Şirzad Abdullayev prezident İlham Əliyevə kompleksin tərkibində fəaliyyət göstərən və regionun digər rayonlarında olan istehsal və emal müəssisələri barədə məlumat verdi. Bildirildi ki, Gəncədə «Elba» və «Halal Qida» brendi ilə 5 növdə, 30-a yaxın çeşiddə kolbasa və sosiska, 2 çeşiddə yarımfabrikat – çiy və bişməmiş dönər istehsal edən, illik istehsal gücü 5 min ton olan Ət emalı fabriki, Daşkəsəndə illik istehsal gücü 1000 ton olan Ət kəsimi fabriki və 1000 tonluq soyuducu anbar, Samuxda illik istehsal gücü 1,6 min ton olan Broyler fabriki fəaliyyət göstərir. Hazırda Gəncədə illik 12 min ton ət kəsimi və 3,2 min ton ət emalı gücünə malik olan, Almaniya və Türkiyə texnologiyası əsasında müasir Ət kəsimi və emalı fabriki də inşa olunur. İstehsal olunan ət məhsullarının Gəncə–Qazax iqtisadi rayonu ilə yanaşı, respublikanın digər şəhər və rayonlarında da satışı həyata keçirilir. Bu layihələrin həyata keçirilməsində İqtisadi İnkişaf Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən ayrılmış dövlət güzəştli kredit vəsaitləri mühüm rol oynayır.*

*Dövlətimizin başçısı gündəlik istehsal gücü 10 ton olan Süd emalı zavodunda yaradılan şəraitlə də tanış oldu. Bildirildi ki, müasir texnologiyalar əsasında qurulan süd emalı müəssisəsində ilkin olaraq pendir, qatıq, xama və digər süd məhsullarının istehsalı nəzərdə tutulur. Gələcəkdə İsveçrənin «Tetra Pak» şirkətinin müasir avadanlığı ilə təchiz edilməklə, süd məhsullarının ekoloji təmiz qablaşdırılması və daha uzunmüddətli saxlanılması məqsədilə istehsal sahəsinin genişləndirilməsi planlaşdırılır.*

*Prezident İlham Əliyev yaradılmış şəraitdən razılığını bildirdi, tapşırıq və tövsiyələrini verdi.*

**BEYNƏLXALQ OLİMPİYA KOMİTƏSİNİN PREZİDENTİ**
**CƏNAB TOMAS BAXA**

Hörmətli cənab Bax!

Beynəlxalq Olimpiya Komitəsinin prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizə ən səmimi təbriklərimi yetirirəm.

Bu məsul vəzifəyə seçkilərdə qazandığınız dəstək beynəlxalq idman ictimaiyyəti tərəfindən Sizə böyük etimadın ifadəsi, olimpiya hərəkatının inkişafı sahəsində xidmətlərinizə verilən yüksək qiymətdir.

Bu gün Azərbaycan ilə Beynəlxalq Olimpiya Komitəsi arasında əməkdaşlığın yüksək səviyyədə olduğunu məmnunluq hissi ilə qeyd etmək istərdim. İnanıram ki, olimpiya ideallarının təntənəsi naminə əməkdaşlığımızı bundan sonra da uğurla davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *11 sentyabr 2013-cü il*

**İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HƏSƏN RUHANİYƏ**

Hörmətli cənab Prezident!

Tehran–Qum yolunda baş vermiş ağır nəqliyyat qəzası nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni son dərəcə kədərləndirdi.

Bu hadisə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *11 sentyabr 2013-cü il*

## PREZİDENT SEÇKİLƏRİNİN MÜŞAHİDƏSİ ÜZRƏ AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ XÜSUSİ KOMİTƏSİNİN SEÇKİQABAĞI MİSSİYASININ ÜZVLƏRİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*11 sentyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycanda prezident seçkilərinin müşahidəsi üzrə Robert Uolterin başçılıq etdiyi Avropa Şurası Parlament Assambleyasının Xüsusi Komitəsinin Seçkiqabağı Missiyasının üzvlərini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Avropa Şurası arasında əməkdaşlığın perspektivləri, ölkəmizdə prezident seçkilərinə hazırlıq və təbliğat kampaniyasının aparılması məsələləri müzakirə edildi.*

# YASAMAL RAYONUNDAKI 53 VƏ 21 SAYLI TAM ORTA ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNİN ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMADAN SONRAKI VƏZİYYƏTİ İLƏ TANIŞLIQ

*11 sentyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 11-də Bakının Yasamal rayonundakı 53 və 21 saylı tam orta ümumtəhsil məktəblərinin əsaslı təmir və yenidənqurmadan sonrakı vəziyyəti ilə tanış olmuşdur.*

*Paytaxtın* orta *ümumtəhsil məktəblərinin əsaslı təmir və yenidənqurma işləri 2011–2013-cü illərdə Bakı şəhərinin və* onun *qəsəbələrinin* sosial-iqtisadi *inkişafı Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlər planına uyğun* olaraq *həyata keçirilir. Əsaslı təmir və yenidənqurma işləri ilə yanaşı, ehtiyacı* olan *məktəblər üçün əlavə* sinif *otaqlarının, yeni tədris korpuslarının,* idman *və* akt *zallarının, yeməkxana binalarının inşası və lazımi* avadanlıqlarla *təchiz edilməsi ardıcıl surətdə* davam etdirilir.

*Əvvəlcə* prezident *İlham Əliyev 53 saylı* tam orta *məktəbin əsaslı təmir və yenidənqurmadan sonrakı vəziyyəti ilə tanış* oldu. *Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala* Abutalıbov *görülən işlərlə bağlı dövlətimizin başçısına məlumat* verdi. Bildirildi *ki, məktəbin* birinci korpusu *1961-ci ildə inşa* olunub. *2008-ci ildə 360 şagird* yerlik ikinci korpus *inşa* edilib. *Hazırda məktəbdə 1780 şagird təhsil alır. Yeni dərs ili ərəfəsində məktəbdə əsaslı təmir və yenidənqurma işləri yüksək* standartlara *uyğun şəkildə həyata keçirilib. Məktəbin bütün* sinif *otaqları, fənn* kabinetləri, *şahmat və* musiqi *otaqları müasir şəkildə yenidən qurulmuş və lazımi* avadanlıqlarla *təchiz edilmişdir.*

*Daha sonra prezident İlham Əliyev 21 saylı tam orta məktəbdə yaradılmış şəraitlə tanış* oldu.

*Dövlətimizin başçısına* burada *görülən işlərlə bağlı məlumat* verildi. Bildirildi ki, *məktəbin binası 1953-cü ildə inşa edilmiş, ilk* vaxtlar *gecə məktəbi, 1958-ci ildən 8 illik, 1976-cı ildən isə* tam orta *məktəb* kimi *fəaliyyət göstərmişdir. Azərbaycan* Prezidenti *ötən il sentyabrın 5-də 21 saylı məktəbdə olarkən şagird sıxlığının* aradan *qaldırılması məqsədi ilə* yeni korpusun *inşa olunması ilə bağlı yerindəcə göstərişlər vermişdi. Dövlətimizin başçısının tapşırıqlarına uyğun* olaraq *17* sinif *otağından ibarət 340 şagird* yerlik *üçmərtəbəli* yeni korpus *ən müasir* standartlara *uyğun şəkildə inşa* olunub. Bundan *əlavə, məktəbin bütün* sinif *otaqları,* ayrı-*ayrı fənn kabinetləri, açıq və qapalı* idman *meydançaları,* iclas *zalı, kitabxanası, yeməkxanası,* tibb *otağı əsaslı şəkildə yenidən qurulmuş və müasir avadanlıqlarla təchiz edilmişdir.*

*Prezident İlham Əliyev yaradılan şəraitlə tanış* oldu.

## «QARA DƏNİZ – XƏZƏR DİALOQU» ÖLKƏLƏRİNİN KƏŞFİYYAT XİDMƏTLƏRİ RƏHBƏRLƏRİNİN MÜŞAVİRƏSİNİN X İCLASININ İŞTİRAKÇILARINA

Hörmətli iclas iştirakçıları!

«Qara dəniz – Xəzər dialoqu» ölkələrinin kəşfiyyat xidmətləri rəhbərlərinin Müşavirəsinin X iclasının keçirilməsi münasibətilə sizi təbrik edir və işinizdə uğurlar arzulayıram.

Dövlət orqanları sırasında xüsusi yer tutan kəşfiyyat xidmətləri milli maraqların qorunmasını təmin etməklə, dövlətin sabit və davamlı inkişafı üçün şərait yaradır.

Son 20 ildə yeni müstəqil dövlətlərin yaranması beynəlxalq münasibətlərə öz mühüm təsirini göstərmişdir. «Qara Dəniz – Xəzər dialoqu» ölkələrinin region yaxınlığı, qarşılaşdığı problemlərin və çağırışların oxşarlığı bizim ümumi maraqlardan çıxış etməyimizi gündəmə gətirir.

Terrorçuluq, separatizm, silah və narkotiklərin qanunsuz dövriyyəsi, insan alveri, qanunsuz miqrasiya kimi cinayətlər dövlətlərin sülh şəraitində yaşamasına ciddi təhlükə yaradır. Ona görə də xalqlarımızın ümumi rifahına və inkişafına nail olmaq, təhlükəsizliyi təmin etmək məqsədi ilə sosial-iqtisadi, siyasi tədbirlərlə yanaşı, transmilli mütəşəkkil cinayətkarlığa qarşı mübarizənin səmərəli şəkildə həyata keçirilməsi də zəruridir.

Azərbaycan Respublikasının Ermənistan tərəfindən işğal edilmiş ərazilərində narkotiklərin və silahların qanunsuz dövriyyəsi, habelə digər cinayətlərin vüsət alması bütövlükdə region üçün təhlükə doğurur. Bu baxımdan, transmilli mütəşəkkil cinayətkarlığa qarşı mübarizə ölkələrimizin xüsusi xidmət orqanlarının fəaliyyətinin əlaqələndirilməsini şərtləndirir.

Əminəm ki, ölkələrimizin kəşfiyyat orqanları arasında əməkdaşlığın təşviqi və dərinləşdirilməsi qlobal və regional təhlükəsizliyə qarşı təhdidlərə, müasir dövrün çağırışlarına qarşı mübarizənin səmərəsini artıracaq, bu sahədə qarşılıqlı razılaşdırılmış siyasətin yürüdülməsinə imkan yaradacaqdır.

Sizi bir daha sülh, sabitlik, əmin-amanlıq və təhlükəsizlik naminə səylərimizi birləşdirməyə çağırıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *12 sentyabr 2013-cü il*

**HONDURAS RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB PORFİRİO LOBO SOSAYA**

Hörmətli cənab Prezident!

Honduras Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza Azərbaycan xalqı adından və öz adımdan ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, Azərbaycan ilə Honduras arasında əlaqələrin möhkəmlənməsi istiqamətində səylərimiz ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımız üçün yaxşı imkanlar açacaqdır.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Honduras xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *12 sentyabr 2013-cü il*

## SABUNÇU RAYONUNDAKI 252 VƏ 80 SAYLI TAM ORTA MƏKTƏBLƏRİN ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMADAN SONRAKI VƏZİYYƏTİ İLƏ TANIŞLIQ

*12 sentyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 12-də Bakının Sabunçu rayonundakı 252 və 80 saylı tam orta məktəblərin əsaslı təmir və yenidənqurmadan sonrakı vəziyyəti ilə tanış olmuşdur.*

*Bakı və Bakıətrafı qəsəbələrin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlər planına uyğun olaraq ayrı-ayrı təhsil müəssisələrinin əsaslı surətdə təmiri və yenidən qurulması işləri ardıcıl olaraq həyata keçirilir. Təmir edilən məktəblər, inşa olunan yeni tədris korpusları, idman meydançaları, iclas zalları ən müasir avadanlıqlarla təchiz edilərək, yeni tədris ili ərəfəsində məktəblilərin istifadəsinə verilir.*

*Prezident İlham Əliyev əvvəlcə Sabunçu rayonundakı 252 saylı məktəbin əsaslı təmir və yenidənqurmadan sonrakı vəziyyəti ilə tanış oldu.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov məktəbdə aparılan yenidənqurma işləri və yaradılan şərait barədə dövlətimizin başçısına məlumat verdi. Bildirildi ki, bu məktəbin binası 1972-ci ildə inşa olunub. Məktəbdə əvvəllər 1100 şagird təhsil alırdı. Dövlət Proqramına uyğun 40 sinif otağından ibarət 800 şagird yerlik əlavə korpus inşa olunub. 1900 şagird yerlik məktəbdə hazırda 1176 şagird təhsil alır. Məktəbin bütün sinif otaqlarında, ayrı-ayrı fənn kabinetlərində əsaslı təmir və yenidənqurma işləri həyata keçirilib. Açıq və qapalı idman meydançaları yenidən qurulub, müasir istilik sistemi quraşdırılıb.*

*Prezident İlham Əliyev sonra Sabunçu rayonundakı 80 saylı tam orta məktəbə gəldi.*

*Burada da görülən işlərlə bağlı dövlətimizin başçısına məlumat verildi. Bildirildi ki, bu orta məktəbin binası 1969-cu ildə xalqımızın ümummilli lideri Heydər Əliyevin birbaşa təşəbbüsü ilə inşa olunub. Ulu öndər 1975-ci ildə məktəbdə olmuş, müəllim və şagirdlərlə görüşmüşdür. 860 yerlik məktəbdə 1110 şagird təhsil alır. Gələn il üçün 30 sinif otağından ibarət 600 şagird yerlik yeni korpusun inşa olunacağı gözlənilir. 80 saylı məktəbdə də bütün sinif otaqları, fənn kabinetləri, iclas və idman zalları əsaslı şəkildə yenidən qurulmuş və lazımi avadanlıqlarla təchiz edilmişdir. Burada da ən müasir istilik sistemi qurulub.*

*Yaradılan şəraitlə yaxından tanış olan dövlətimizin başçısı görüləcək işlərlə bağlı müvafiq tapşırıqlarını verdi.*

## AZƏRBAYCAN TİBB UNİVERSİTETİNİN TƏDRİS-CƏRRAHİYYƏ KLİNİKASININ AÇILIŞI MƏRASİMİ

*12 sentyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva sentyabrın 12-də Azərbaycan Tibb Universitetinin Tədris-Cərrahiyyə Klinikasının açılışı mərasimində iştirak etmişlər.*

*Dövlətimizin başçısı klinikanın rəmzi açılışını bildirən lenti kəsdi. Prezident İlham Əliyevin sərəncamı əsasında Azərbaycan Tibb Universitetinin 500 çarpayılıq Tədris-Cərrahiyyə Klinikasının müasir səviyyədə inşası dövlətimizin bu nüfuzlu ali təhsil ocağının inkişafına, onun maddi-texniki bazasının möhkəmləndirilməsinə diqqət və qayğısının əyani göstəricisidir. Klinikada tədrislə yanaşı, əhaliyə yüksək diaqnostik və cərrahi müalicə-tibbi yardım da göstəriləcəkdir. Klinikada ümumi cərrahiyyə, uşaq cərrahiyyəsi, döş qəfəsi cərrahiyyəsi, oftalmologiya, travmatologiya, neyrocərrahiyyə və digər şöbələr fəaliyyət göstərəcəkdir. Tibb müəssisəsində müxtəlif cərrahi əməliyyatlar aparmaq da mümkün olacaqdır. Tibb ocağı ən müasir avadanlıqlarla təchiz edilib.*

*Azərbaycan Tibb Universitetinin rektoru, akademik Əhliman Əmiraslanov dövlətimizin başçısına klinika barədə məlumat verdi. Bildirildi ki, tibb ocağının inşaat işləri «Azərinşaat Qranit» MMC tərəfindən həyata keçirilib. Ümumi ərazisi 45 min kvadratmetr olan klinikanın binası orijinal memarlıq üslubunda inşa edilib. 13 mərtəbəli binanın həyətində geniş abadlıq işləri görülüb.*

*Azərbaycan Prezidentinə klinikadakı kafedralar və şöbələr haqqında məlumat verildi. Bildirildi ki, burada cərrahi və diaqnostik istiqamətlərdə 18 kafedra, 20 şöbə fəaliyyət göstərir. İl*

*ərzində burada 2 800 tələbənin, 400-dən çox rezidentin, 20-dən artıq doktorantın cərrahi ixtisaslı fənlər üzrə təhsili ilə 40 professor, 80 dosent, 120 tibb üzrə fəlsəfə doktoru məşğul olacaqdır.*

*Diqqətə çatdırıldı ki, klinikada kursların və dövlət imtahanlarının keçirilməsi üçün müasir avadanlıqlarla təchiz edilmiş kompüter zalları da vardır.*

*Yüksək zövqlə inşa edilən binanın foyesində Heydər Əliyev guşəsi yaradılıb. Guşədə ümummilli liderin Azərbaycan səhiyyəsinin inkişafı və universitetin həyatında əvəzedilməz rolu barədə məlumat verilir. Burada prezident İlham Əliyevin və Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın bu tibb ocağında keçirilən tədbirlərdə iştiraklarını əks etdirən fotostend vardır.*

*Qeyd edildi ki, klinikanın şöbələrində ən müasir tibbi avadanlıqlar quraşdırılıb. Bu cihazlar müayinə və müalicə işini ən yüksək səviyyədə həyata keçirməyə tam imkan verir. Klinikanın həkim, dərs və kompüter otaqları bütün zəruri avadanlıqla təchiz olunub. Burada, həmçinin ictimai tədbirlərin keçirilməsi üçün xüsusi akustika və müasir multimedia sistemlərinin quraşdırıldığı 250 yerlik konfrans zalı da vardır. Ümumilikdə klinikada hər biri 100 nəfərlik olmaqla, 9 mühazirə zalı, 50-dən çox praktik məşğələ üçün treninq otağı yaradılıb. Klinikanın şöbələrində quraşdırılan avadanlıqlar dünyanın aparıcı şirkətlərinin istehsalıdır. Bu cihazlar vasitəsilə qısa müddətə müayinələrin nəticələrini daha dəqiq əldə etmək mümkündür.*

*Məlumat verildi ki, klinikanın mərkəzi laboratoriyası yüksək səviyyədə qurulub. Ölkənin yeganə universitet klinikası olan bu bölmədə biokimya, mikrobiologiya, immunologiya, molekulyar genetika və digər bölmələr fəaliyyət göstərir. Laboratoriyada dünya universitetlərinin referens laboratoriyalarında istifadə olunan tam avtomatlaşdırılmış, ən müasir biokimyəvi, mikrobioloji, immunoloji, genetik və digər analizatorlar vardır. Bu isə istənilən laborator müayinələri maksimum az vaxtda və dəqiq yerinə yetirməyə imkan verir. Laboratoriyada ölkəmizdə ilk*

*dəfə* olaraq *Ümumdünya Səhiyyə Təşkilatının qəbul* etdiyi *«CLSI» standartlarına uyğun biokimyəvi və immunoloji analizlər aparılacaqdır. Pasiyentlər dünyanın istənilən ölkəsindən şəxsi kodları ilə klinikanın saytına* daxil olaraq laborator *analizlərin nəticələrini əldə edə biləcəklər.*

*Diqqətə çatdırıldı ki, buradakı avadanlıq tibbi müayinələrin görüntülərini də yüksək səviyyədə əldə etməyə imkan verir. Klinikada, həmçinin «Tesla» maqnit-rezonans tomoqrafı, 128 kəsikli kompüter tomoqrafı, 2 yüksəktezlikli rəqəmsal* rentgen *qurğusu,* universal tipli angeoqraf, 4D *rejimli ultrasəs müayinəsi aparatı quraşdırılıb.*

*Üçüncü mərtəbədə 20 çarpayılıq 5* reanimasiya *zalı, 18 əməliyyat otağı yaradılıb.* Reanimasiya *zallarında* Avropa *istehsalı* olan *çoxfunksiyalı* elektrik yataqlar, *mərkəzləşdirilmiş* qaz *sistemləri,* monitorlar, *süni tənəffüs cihazları quraşdırılıb. Burada çətinliyindən asılı* olmayaraq, *reanimasion-intensiv terapiya xidmətləri xaricdə təhsil almış təcrübəli* reanimatoloqlar *tərəfindən* icra edilir. *Quraşdırılan xüsusi çoxfunksiyalı işıqlandırma* sistemi *və* kamera *vasitəsilə əməliyyat prosesləri dərs otaqlarına, tədris və* konfrans *zallarına, həmçinin xaricdəki yüksək ixtisaslı mütəxəssislərə ötürülə* bilir *və* tibb *müəssisəsinin arxivinə yüklənir.*

*Klinikanın hər cür lazımi avadanlıq,* o *cümlədən yumşaq və bərk* inventarla *təchiz edilmiş palataları müasir səviyyədədir. Binanın müxtəlif mərtəbələrində* palatalar *fəaliyyət göstərəcəkdir.*

Bu tibbi *mərkəzdə tələbələrin, rezidentlərin və* doktorantların *təhsili və biliklərini artırmaları üçün mühazirə zalı, müxtəlif sahələrə* aid *bacarıq* laboratoriyası *vardır. Gənc mütəxəssis hazırlığını dünya standartları səviyyəsində* aparmaq *üçün* MDB *məkanında* analoqu olmayan bacarıq laboratoriyalarında annatomik, funksional *və* mulyaj *simulyantlar quraşdırılıb. Buradakı bir çox avadanlığın üstünlüyü ondadır ki,* bu cihazlara kompüterə *yüklənmiş məlumatlarla yanaşı, xəstənin də* maqnit-rezonans, rentgen, *kompüter* tomoqrafiyasından *alınan görüntülərini yüklə-*

*mək olur. Dünyanın yalnız bəzi aparıcı ölkələrinin tibb müəssisələrində olan bu avadanlıqlar tələbələrin nəzəri və praktiki biliklərini təkmilləşdirməkdə müstəsna əhəmiyyətə malikdir. Klinikanın bütün avadanlığı tibb elminin ən son nailiyyətlərinə cavab verir və yerli «ARASH Medical» şirkəti tərəfindən quraşdırılıb.*

*Klinikada yaradılan şəraitlə tanış olan prezident İlham Əliyev Azərbaycan Tibb Universitetinin müəllim-tələbə kollektivi ilə görüşdü.*

* * *

**İ l h a m  Ə l i y e v:** Bu gün çox əlamətdar bir gündür. Biz Bakı şəhərində Azərbaycan Tibb Universitetinin Tədris-Cərrahiyyə Klinikasının açılışına toplaşmışıq. Bu gözəl hadisə münasibətilə sizi ürəkdən təbrik edirəm. Azərbaycan Tibb Universitetinin bütün professor-müəllim heyətini, bütün tələbələri təbrik edirəm.

Gözəl mərkəzdir, gözəl tibb ocağıdır. İndi mərkəzin müxtəlif bölmələri ilə tanış oldum. Bir daha görürəm ki, Azərbaycanda artıq səhiyyə sahəsində işlər ən yüksək səviyyədə görülür.

Xatırlayıram, 3 il əvvəl bu klinikanın təməl daşını qoyduq və Tədris-Terapevtik Klinikanın açılışını da qeyd etdik. O vaxt rektor və professor-müəllim heyətinin nümayəndələri müraciət etmişdilər ki, cərrahiyyə klinikasının tikintisinə də ehtiyac vardır. İlkin olaraq Prezidentin ehtiyat fondundan vəsait ayrılmışdır. Ondan sonra dövlət büdcəsi hesabına bir neçə il ərzində bu gözəl tibb mərkəzi yaradılmışdır.

Deyə bilərəm ki, Azərbaycanda son illər ərzində yaradılmış tibbi mərkəzlər arasında bu gün bu mərkəzin xüsusi yeri vardır. Öz gözəlliyi, memarlığı və funksional cəhətləri ilə seçilən bir klinikadır.

O vaxt belə bir klinikanın yaradılması 2 məqsədi güdürdü. İlk növbədə, qarşıda Azərbaycan Tibb Universitetində tədris prosesini daha da yüksək səviyyəyə qaldırmaq məsələsi dayanmışdı. Bütün cərrahiyyəyönümlü kafedraları bir yerə

yığmaq məsələsi qarşıya qoyulmuşdu. Biz buna nail olduq. Azərbaycanda yeni, müasir tibb mərkəzinin yaradılması da təmin edilmişdir. Yəni burada həm təhsil, həm də səhiyyə – ölkəmiz üçün vacib olan 2 sahə birləşir. Burada bütün işlər ən yüksək səviyyədə təşkil edilmişdir. Ən müasir avadanlıqlar quraşdırılıb, çox gözəl şərait vardır, çox gözəl binadır. Həkimlər, tələbələr üçün burada çox yaxşı şərait yaradılmışdır. Belə də olmalıdır. Çünki Azərbaycan uğurla və sürətlə inkişaf edir. Ölkə qarşısında duran bütün vəzifələr icra edilir. O cümlədən, səhiyyə, təhsil sahələrində qarşıda duran vəzifələr icra edilir. Son illər ərzində Azərbaycanda 500-ə yaxın tibb mərkəzi tikilmişdir. Bu mərkəzlər ölkəmizin bütün bölgələrini əhatə edir. 15 şəhərdə Diaqnostika Mərkəzi yaradılmışdır. Bu gün, demək olar ki, ölkəmizin hər bir yerində keyfiyyətli tibbi xidmət almaq üçün gözəl imkanlar vardır. Səhiyyənin maddi-texniki bazası möhkəmlənir, güclənir. Əminəm ki, yaxın 1-2 il ərzində artıq bütün şəhərlərimizdə ən gözəl klinikalar yaradılacaqdır.

Təkcə son 2 həftə ərzində ölkəmizin bir neçə şəhərində müasir xəstəxanalar açılmışdır. Deyə bilərəm ki, bölgələrdə, rayonlarda istifadəyə verilmiş xəstəxanalar da ən müasir avadanlıqlarla təchiz edilir və ən yüksək standartlara malikdir.

Azərbaycan Tibb Universiteti ölkəmizdə həkim kadrların hazırlanmasında xüsusi rol oynayan ali məktəbdir. Bu ali məktəbin böyük tarixi, gözəl ənənələri və əminəm ki, gözəl gələcəyi vardır. Çünki bu gün müstəqil Azərbaycanda səhiyyə sahəsinə ayrılan xərclər artır, səhiyyənin maddi-texniki bazası möhkəmlənir. Belə olan halda, əlbəttə ki, tibbi xidmətin səviyyəsi də artmalıdır.

Universitetdə çox böyük təcrübəyə, biliklərə malik olan professor-müəllim heyəti vardır. Əlbəttə, sizin bilikləriniz gənc nəslə ötürülür. Elə etməliyik ki, gənc nəsil, gənc həkimlər dünyada səhiyyə sahəsində gedən bütün prosesləri yaxından izləyə bilsinlər. Bunu etmək üçün burada imkanlar, kompüter otaqları vardır. Əminəm ki, müxtəlif ali məktəblərlə canlı

bağlantı da yaradıla bilər. Əməliyyatların izlənməsi üçün gözəl şərait vardır.

Beləliklə, bizim gənc həkimlərimiz dünyada səhiyyə sahəsində gedən bütün mütərəqqi yenilikləri bilməlidirlər. Çünki bu gün dünyada səhiyyə çox sürətlə inkişaf edir. Siz həkimlər bunu hamıdan yaxşı bilirsiniz. Bu gün vaxtilə müalicəsi mümkün olmayan bir çox xəstəliklər əgər vaxtında aşkarlanarsa, müalicə edilir. Diaqnostika cihazları, o cümlədən burada quraşdırılan kompüter tomoqrafları, MRT, müasir rentgenlər imkan verir ki, istənilən xəstəlik ilkin mərhələdə aşkarlansın və düzgün diaqnoz qoyulsun. Artıq bu cihazların mövcudluğu düzgün diaqnozun qoyulmasında da mühüm addımdır və müalicə də düzgün aparılmalıdır.

Dünya səhiyyə elminin uğurlu inkişafı insanların sağlamlığına bilavasitə bir töhfədir. Biz çalışmalıyıq ki, dünyada bu sahədə gedən ən son yeniliklər, ixtiralar Azərbaycanda da tətbiq olunsun. Biz buna hazır olmalıyıq. Yaradılan maddi-texniki baza, müasir avadanlıq belə imkanları verir. Həkimlərin peşəkarlığı, bilikləri artmalıdır. Həkimlər daim öz fəaliyyətləri, işləri ilə elə etməlidirlər ki, daha da bilikli olsunlar. Elə edək ki, Azərbaycanda istənilən ən ağır əməliyyat aparıla bilsin. Son illərdə deyə bilərəm ki, biz buna nail ola bilmişik. Çünki bu gün Azərbaycanda ən ağır ürək-damar əməliyyatları, orqan transplantasiyaları aparılır. Ancaq sirr deyil ki, bəzi insanlar, xüsusilə imkanlı insanlar müalicə üçün hələ də daha çox xaricə üz tuturlar. Biz elə bir vəziyyət yaratmalıyıq ki, buna ehtiyac olmasın. Azərbaycanda ən yüksək tibbi xidmət, ən yüksək peşəkarlıq olmalıdır. Mən əminəm ki, birgə səylər, həm dövlət tərəfindən aparılan siyasət, yeni tibb ocaqlarının yaradılması, müasir avadanlığın mövcudluğu və həm də həkimlərin peşəkarlığı, təkmilləşməsi bizi bu məqsədə nail olmağa gətirib çıxaracaqdır.

Bu yaxınlarda mən təhsillə bağlı fikirlərimi bildirdim. Bir daha demək istəyirəm, elə etməliyik ki, bizim gənclər xaricdə təhsil almağa ehtiyac duymasınlar. Azərbaycanda təhsilin

səviyyəsi elə olmalıdır ki, burada ən yüksək təhsil almaq üçün imkan olsun. Səhiyyə sahəsində də o səviyyəni, əlbəttə ki, təmin etməliyik. Əminəm ki, biz buna nail olacağıq. Çünki son illərdə səhiyyə sahəsində aparılan islahatlar uğurludur, bununla bərabər, hələ çox iş görülməlidir. Ancaq beynəlxalq təşkilatlar, o cümlədən Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanın bu sahədəki fəaliyyətini yüksək qiymətləndirir. Bir müddət əvvəl Ümumdünya Səhiyyə Təşkilatının Avropa bölməsi Azərbaycanda gedən islahatları vurğulamışdır.

Bir daha demək istəyirəm ki, son illərdə hər bir rayonda müasir xəstəxanalar, tibb mərkəzləri tikilir. O ki qaldı Bakıya, son illərdə Bakıda, demək olar ki, əsas elmi-tədqiqat səhiyyə müəssisələrimiz yenidən qurulmuşdur, əsaslı təmir edilmişdir, bir neçə böyük xəstəxana tikilmişdir. Yəni bu sahədə biz öz ardıcıl siyasətimizi davam etdirəcəyik.

İnsanların sağlamlığı dövlətimiz üçün prioritet məsələdir. Mənim bölgələrə səfərlərim zamanı açılan xəstəxanalar, su xətləri, ekologiya ilə bağlı digər tədbirlər bir məqsədi güdür – Azərbaycanda insan sağlamlığı qorunsun, keyfiyyətli müalicə almaq üçün imkan, şərait olsun. İndi bütün bölgələrdə və yaxın zamanlarda hər bir şəhərdə dializ mərkəzləri tam şəkildə fəaliyyətə başlayacaqdır. Əksər şəhərlərdə biz artıq buna nail olmuşuq. Biz bunun müsbət tərəfini görürük. Vaxtilə xəstələr 100 kilometrlərlə məsafəni qət etməli olurdular, böyük şəhərlərdə müalicə alırdılar. İndi hər bir bölgədə, deyə bilərəm ki, təxminən hər bir şəhərdə müasir dializ mərkəzləri vardır. Ona görə insanların sağlamlığını təmin edən tibbi xidmət bu gün, əlbəttə ki, daha da yüksək səviyyədədir. İnsan sağlamlığını şərtləndirən digər amillər Azərbaycanda, əlbəttə ki, vardır. Bu sahəyə diqqət yetirilir. Statistik göstəricilər – yəqin ki, həkimlər bunu hamıdan yaxşı bilirlər – onu göstərir ki, Azərbaycanda uzunömürlü insanların sayı artır, uşaq ölümü azalır. Bu, səhiyyənin səviyyəsini göstərən əsas amillərdən biridir.

Bir daha demək istəyirəm ki, Azərbaycan Tibb Universitetinin böyük tarixi, ənənələri, gözəl bu günü, gözəl gələcəyi

vardır. Deyə bilərəm ki, biz həkimlərin bütün xahişlərini çalışırıq ki, yerinə yetirək. Belə gözəl klinikalar həm tədris, tibb mərkəzləridir, eyni zamanda, həkimlərin iş yeridir. Hər yerdə, hər şəhərdə, hər rayonda həkimlərin iş yeri də, bax, belə olmalıdır.

Bir daha qeyd etmək istəyirəm ki, bu gözəl klinikanın açılışı böyük əlamətdar hadisədir. Mən çox şadam ki, son illərdə biz sizinlə bərabər bu gözəl hadisələri qeyd etmişik. Tibb Universitetinin ardıcıllıqla klinikaları yaradılır. 2002-ci ildə stomatoloji, 2007-ci ildə onkoloji, 2010-cu ildə terapevtik klinikaları açılmışdır və indi cərrahiyyə klinikası artıq fəaliyyətə başlayır. Bir daha sizi bu gözəl hadisə münasibətilə ürəkdən təbrik edirəm.

**Əhliman Əmiraslanov** (*Tibb Universitetinin rektoru)*: Möhtərəm cənab Prezident! Çox hörmətli Mehriban xanım!

İcazə verin, Tibb Universitetinin professor-müəllim heyəti, tələbə kollektivi adından Sizi ürəkdən salamlayım və Tibb Universitetinin bu möhtəşəm, böyük klinikasına «Xoş gəlmisiniz!» – deyim.

Bu gün yeni tədris ilinin başlanması ərəfəsində, möhtərəm Prezident, Sizinlə bir yerdə olmaq bizim üçün çox böyük qürur mənbəyi və sevincdir. Siz son illərdə artıq 3-cü dəfədir ki, universitetimizə gəlirsiniz. Bu, universitetimizə olan hörmətin, etimadın, qayğının nəticəsidir. İcazə verin, bu etimada, bu qayğıya görə bir daha Sizə dərin təşəkkürümü və səmimi minnətdarlığımı bildirim.

Mən ayrıca olaraq qeyd etmək istərdim ki, Azərbaycanda elmin, səhiyyənin, təhsilin, mədəniyyətin, incəsənətin böyük hamisi olan, vaxtilə universitetimizdə təhsil almış Heydər Əliyev Fondunun prezidenti, birinci xanım Mehriban Əliyeva da bu 3 görüşün üçündə də iştirak edibdir. Mən ona da bütün kollektiv adından dərin təşəkkürümü və minnətdarlığımı bildirirəm. Tibb Universiteti fəxr edir ki, – düzdür, uni-

versitetimizi bitirməyibdir – vaxtilə Mehriban xanım bizim universitetdə təhsil alıbdır.

Möhtərəm cənab Prezident, ulu öndər Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə Tibb Universitetinə böyük qayğı və diqqətlə yanaşmışdır. Təkcə ikinci dəfə Azərbaycanda hakimiyyətə gələndən sonra ulu öndər 2 dəfə bizim universitetdə oldu. O ağır, çətin dövrdə universitetin 11 mərtəbəli möhtəşəm tədris binası və stomatoloji klinikası ulu öndərin Tibb Universitetinə çox sanballı bir töhfəsi kimi, yaddaşlara həkk olunubdur. Universitet klinikalarının yaranması ideyası da ulu öndərə məxsusdur. Ancaq bu ideyanı, bu universitet klinikalarının yaranmasını Siz reallaşdırdınız və Sizin sərəncamlarınızla bu gün Tibb Universitetinin 3 klinikası fəaliyyət göstərir. Bayaq mən Sizə məruzə etdiyim kimi, 2007-ci ildə onkoloji klinika istifadəyə verildikdən bir qədər sonra Sizə tədris-terapevtik klinikanın yaradılması ilə bağlı müraciət etdik. Bu gün burada qeyd etdiyiniz kimi, çox çəkmədi ki, Siz sərəncam imzaladınız. Onun həm təməl daşının qoyulması, həm də açılışı mərasimlərində Mehriban xanımla bir yerdə iştirak etdiniz. Universitet kollektivinə töhfələrinizi verərkən elə oradaca qeyd etdiniz ki, Tibb Universitetinin daha bir klinikaya böyük ehtiyacı vardır – cərrahi klinikaya. Siz cərrahi klinikanın tikilməsi ilə bağlı qərar verdikdən düz 5 il sonra biz bu klinikanın açılışına toplaşmışıq.

Hesab edirəm ki, Tibb Universiteti 83 illik şərəfli tarixinin bu gün ən yaddaqalan, bəlkə də o tarixə qızıl hərflərlə həkk oluna biləcək bir gününü, hadisəsini yaşayır. Çünki bu klinika doğrudan da istər tədris, istər elmi, istər müalicə-profilaktika, müalicə-diaqnostika nöqteyi-nəzərindən son dərəcə geniş imkanlara malik olan, dünyanın bir çox universitetlərinin klinikaları ilə bir səviyyədə dayana biləcək bir klinikadır.

Möhtərəm Prezident, böyük məmnuniyyətlə istərdim Sizə məruzə edim ki, son illər Tibb Universitetində bu klinikalarda uğurla çalışa biləcək kadr potensialı yetişibdir və yetişməkdədir. Ona görə Sizi əmin edirəm ki, bu klinikanın kadr potensialı ilə

bağlı da heç bir problemimiz olmayacaqdır. Bu gün tədris-terapevtik klinikasında dünyanın müxtəlif aparıcı klinikalarından dəvət olunmuş 10 nəfər yüksək səviyyəli mütəxəssis çalışır. Bu mütəxəssislər həm tədrislə, həm müalicə işləri ilə məşğul olurlar, bu və ya digər sahənin inkişaf etdirilməsi üçün bizə son dərəcə kömək edirlər. Bu da Sizin göstərdiyiniz qayğının nəticəsidir.

Möhtərəm cənab Prezident, bu gün bu klinikanın müxtəlif şöbələrini gəzərkən, mən bütün bunların hamısını Sizə məruzə etdikcə, digər klinikalar barəsində danışdıqca dedim ki, bunların hamısının səbəbi son 10 ildə baş vermiş hadisələrdir, ulu öndər Heydər Əliyev siyasətinin ölkəmizdə uğurlu davamı və bu uğurlu davamın aparıcısı kimi, Sizin xidmətlərinizdir. Bu gün Tibb Universitetindəki bu möhtəşəm işlər Azərbaycanda görülən işlərin cüzi bir hissəsidir. Budur Heydər Əliyev siyasətinin Azərbaycana verdiyi töhfələr! Buna görə bizim əsasımız vardır bu gün deyək, bir daha vurğulayaq ki, ulu öndərin siyasəti Azərbaycan xalqını xoşbəxt günlərə aparan, yeganə və alternativi olmayan bir siyasətdir. Azərbaycan xalqının mütləq əksəriyyəti kimi, Tibb Universitetinin professor-müəllim heyəti, tələbələri Heydər Əliyev siyasətini dəstəkləyir və bu siyasətin davamlı və daimi olması üçün əlindən gələn bütün işləri edəcəkdir.

Möhtərəm Prezident, son olaraq icazə verin, bu möhtəşəm klinikanı Tibb Universitetinə hədiyyə etdiyiniz üçün professor-müəllim heyəti, tələbə kollektivi adından bir daha Sizə dərin təşəkkürümü, səmimi minnətdarlığımı bildirim. Sizi əmin edirik ki, bu klinika Azərbaycan xalqının sağlamlığının keşiyində möhkəm duracaq, Sizin qarşıya qoyduğunuz bütün məsələləri yerinə yetirəcəkdir.

Ayrıca olaraq, mən Mehriban xanıma da kollektiv adından bir daha dərin təşəkkürümü bildirirəm. Sağ olun. Təşəkkür edirəm.

**İlham Əliyev:** Çox sağ olun!

**A d i l ə  N a m a z o v a** *(Pediatr-kardioloq, professor):* Həyatda ən çox sevdiyimiz insan İlham müəllim! Bu dördüncü klinikadır ki, Siz bizə bəxş edirsiniz. Siz bununla bizi xoşbəxt etmisiniz. Doğrudan da çox gözəl binadır. Mənim xəstəxanada əyləşdiyim otağın pəncərəsi bu binaya baxır. Bu binanın bünövrəsi qoyulandan axırıncı daşının rənglənməsinə qədər bütün prosesi izləmişəm. Biz bu klinikalara və bunların ən müasir avadanlıqlarla təmin olunmasına görə Sizə minnətdarıq. Siz bizə çox gözəl şərait yaratmısınız. Biz hamımız – burada əyləşənlər və burada olmayanlar təsdiq edə bilərik ki, həm özümüz gözəl, komfort şəraitdə işləyirik, həm də tələbələri, gələcək həkimləri hazırlayırıq. Onlar nəinki Bakıda, müxtəlif rayonlarda – indi rayon demək düzgün deyil, çünki rayon mərkəzlərinin hamısı indi şəhərdir – müxtəlif şəhərlərimizdə işləyirlər. Bu şəraitə görə Sizə minnətdarıq. Burada oturan və burada olmayan əməkdaşlarımız, tələbələrimiz adından Sizə böyük təşəkkürümü bildirirəm. Sizə möhkəm cansağlığı, uzun ömür arzulayıram. Ulu öndərimizin qarşıya qoyduğu məsələlər həyatda öz reallığını tapır. Buna görə biz Sizə minnətdarıq.

Möhtərəm Prezident, Siz bizə çox qayğı göstərmisiniz, bizim həyatımızı çox dəyişdirmisiniz. Mən Sizdən bir xahiş etmək istəyirəm. Bizim Tibb Universitetində 10 pediatrik kafedramız, 16 tibb elmləri doktoru, professor çalışır. Pediatriya üzrə 50-yə yaxın dosentimiz, 200-dən çox tibb üzrə fəlsəfə doktoru çalışır. Burada doktorantların, dissertantların sayını deyib vaxtınızı almaq istəmirəm. Üçüncü ildir ki, biz rezidentlərlə məşğuluq. Yəni onları qəbul edib 4 il müddətində biz Sizin köməkliyinizlə xalqa gözəl, yüksək səviyyəli həkimlər verəcəyik. Bizim bu kafedralar, bu işçilər, demək olar ki, Bakı şəhərinin bütün rayonlarına səpələnibdir.

**İ l h a m  Ə l i y e v:** Mən başa düşürəm siz söhbəti nəyə aparırsınız.

**A d i l ə  N a m a z o v a:** Siz bizə belə bir Pediatrik Klinika bəxş etsəniz, bizi də, respublikanın uşaqlarını da çox xoşbəxt etmiş olarsınız. Bilirsiniz ki, respublikamızda əhalinin sayı

artıb, bu gün 9 milyon 400 mindir. İnşallah, gələn payıza 10 milyon olacaqdır. Deməli, respublikada doğum çoxalıb. Tək-tək yox, əkiz, üçəm uşaqlar doğulur. Beləliklə, respublikamızda uşaqların sayı 43-44 faizə çatıb. Onların keşiyində durmaq üçün bizə savadlı pediatrlar lazımdır.

Siz bilirsiniz ki, atalar, analar, babalar, nənələr uşaqları nə dərəcədə çox istəyirlər. Biz istəyirik ki, Sizin köməyinizlə onların qayğısına daha yaxından qalaq, onları sağlam böyüdək. Mən Sizə söz verirəm ki, respublikamız üçün çox yaxşı pediatrlar yetişdirəcəyik. Çünki belə şəraitdə işləmək özü böyük xoşbəxtlikdir. Allah Sizə cansağlığı versin, ömrünüz uzun olsun və bu işləri daha da yeniləşdirəsiniz – çünki Siz novatorsunuz – bizə də kömək edəsiniz.

**İ l h a m Ə l i y e v:** Sağ olun. Adilə xanım çox gözəl təklif verdi və sonra o təklifi də gözəl əsaslandırdı. Mən hesab edirəm ki, biz bu təklifə baxmalıyıq. Hesab edirəm ki, bu təklifə müsbət cavab verilə bilər. Xahiş edirəm ki, siz yeri seçin, təklifi rəsmi qaydada göndərin. Pediatrik Klinikanın tikintisinə də müsbət münasibət ola bilər.

Doğrudan da bu gün Azərbaycanın imkanları böyük dərəcədə artmışdır. Hətta o vaxt imkanlarımız məhdud olanda da ulu öndər Heydər Əliyev məhz Tibb Universitetinin maddi-texniki bazasının möhkəmləndirilməsi üçün çox vacib addımlar atmışdır, qərarlar vermişdir. O vaxt dövlət büdcəmiz indikindən 20 dəfə az idi. O vaxt hələ bizim əsas energetika, neft-qaz layihələrimiz icra edilmirdi. Ona görə büdcədə kifayət qədər problemlər var idi. Gəlir mənbələrimiz o qədər də çox deyildi. Ancaq buna baxmayaraq, hətta o vaxt səhiyyə məsələlərinin həllinə, Tibb Universitetinin fəaliyyətinə böyük diqqət verilirdi. Əlbəttə ki, bu gün Azərbaycan güclü dövlətə çevrilibdir. Son illər ərzində ulu öndərin siyasətinə sadiq qalaraq biz ölkəmizi xeyli inkişaf etdirə bilmişik. Bu gün dünyada yaşanan böhranlara baxmayaraq, Azərbaycan öz yolu ilə gedir. Bölgələrdə olarkən mən bir fikri tez-tez vurğulayıram ki, bu gün bir çox inkişaf etmiş ölkələrdə tibbi mərkəzlər tikilmir. Çünki maliyyə böhranı yaşanır. Azərbaycanda tikilir, özü də təkcə Bakıda

deyil, hər yerdə. Bax, təkcə son 2-3 həftə ərzində Cəlilabadda, Lənkəranda, Astarada, Yevlaxda, Ağcabədidə, digər şəhərlərdə yeni gözəl xəstəxanalar açılmışdır. Ona görə biz düşünülmüş iqtisadi siyasətimizlə özümüzü siyasi və iqtisadi cəhətdən dünyada gedən bütün mənfi meyillərdən qoruya bildik. Bizim büdcəmiz ildən-ilə artır. Büdcəmiz həm investisiya, həm sosialyönümlüdür. Büdcədə sosial məsələlərin həlli üçün xüsusi yer vardır. Bu il səhiyyə məsələlərinin həlli üçün 1 milyard manata yaxın vəsait ayrılmışdır və hazırda maliyyə vəziyyətimiz imkan verir ki, biz bundan sonra da səhiyyə infrastrukturunun yaradılmasına vəsait ayıraq. Pediatrik Klinikanın tikintisi də güman edirəm ki, gələn ilin investisiya proqramına salına bilər.

**X a t ı n M ə m m ə d o v a** *(Prezident təqaüdçüsü):* Möhtərəm cənab Prezident, Siz daim elmə, təhsilə, səhiyyəyə və biz gənclərə xüsusi diqqət və qayğı göstərirsiniz. Elə həmin diqqət və qayğının nəticəsidir ki, respublikamızda hər il keçirilən qəbul imtahanlarında mükəmməl təhsil almış yüzlərlə Azərbaycan gənci yüksək nəticələr göstərir və Prezident təqaüdünə layiq görülür. Bu gün mən Azərbaycan Tibb Universitetinin Prezident təqaüdünə layiq görülmüş bir tələbəsi kimi, əminliklə deyə bilərəm ki, universitetimizdə təhsil alan hər bir tələbə daim Sizin biz tələbələrə, təhsilə və səhiyyəyə göstərdiyiniz diqqət və qayğının şahidi oluruq. Belə ki, universitetimizin ayrı-ayrı korpuslarında, eləcə də hər cür müasir tibbi avadanlıqlarla təchiz olunmuş klinikalarında yaradılmış mükəmməl şərait və professor-müəllim heyətinin səyi nəticəsində biz təbabətin ən müxtəlif sahələrində gələcəyin savadlı kadrları kimi yetişirik. Buna görə də həm öz adımdan, universitetimizin bütün tələbələri adından, həm də digər təhsil ocaqlarında gələcəyin savadlı kadrı kimi yetişən hər bir tələbə adından Sizə öz təşəkkürümü və minnətdarlığımı bildirirəm.

Hörmətli Mehriban xanım, Siz həm Heydər Əliyev Fondunun rəhbəri, YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, həm də respublikamızın birinci xanımı kimi, daim biz gənclərə, elmə, təhsilə, səhiyyəyə qayğı göstərirsiniz. Azərbaycan

xalqının milli-mədəni irsinin, incəsənətinin, milli musiqisinin dünya səviyyəsində tanınması üçün əlinizdən gələni əsirgəmirsiniz və bunun üçün çox böyük işlər görürsünüz. Buna görə də Sizə, hörmətli Mehriban xanım və Sizə, cənab Prezident, öz dərin təşəkkürümü və minnətdarlığımı bildirirəm.

**İ l h a m  Ə l i y e v:** Sağ olun, biz hələ gələcəkdə çox görüşəcəyik. Çünki hələ görüləcək işlər çoxdur, açılışlar da olacaqdır. Bir daha fürsətdən istifadə edərək, sizi ürəkdən təbrik etmək istəyirəm. Bir daha Azərbaycanın bütün həkimlərinə öz salamlarımı, hörmətimi bildirmək istəyirəm. Bildiyiniz kimi, mən həkim ailəsində böyümüşəm. Xoşbəxtlikdən bizim uşaqlarımız da həkim ailəsində böyüyüblər. Ona görə həkim peşəsi bizim üçün çox əzizdir, doğmadır. Sizi bir daha salamlayıram, öz hörmətimi və məhəbbətimi bildirirəm. Sizi əmin etmək istəyirəm ki, mən bundan sonra da səhiyyə məsələlərinin həllinə diqqətimi əsirgəməyəcəyəm.

**MEKSİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ENRİKE PENYA NİETOYA**

Hörmətli cənab Prezident!

Meksika Birləşmiş Ştatlarının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı Azərbaycan xalqı adından və öz adımdan ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Meksika arasında dostluq və əməkdaşlıq münasibətləri birgə səylərimizlə daha da inkişaf edərək, ölkələrimizin və xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Meksika xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 sentyabr 2013-cü il*

## XƏTAİ RAYONUNDAKI 249 VƏ 138 SAYLI TAM ORTA MƏKTƏB BİNALARININ ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMADAN SONRAKI VƏZİYYƏTİ İLƏ TANIŞLIQ

*13 sentyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 13-də Bakının Xətai rayonundakı 249 və 138 saylı tam orta məktəb binalarının əsaslı təmir və yenidənqurmadan sonrakı vəziyyəti ilə tanış olmuşdur.*

*Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramına uyğun olaraq orta məktəb binalarının əsaslı təmir və yenidənqurma işləri davam etdirilir.*

*Prezident İlham Əliyev əvvəlcə 249 saylı tam orta məktəb binasının əsaslı təmir və yenidənqurmadan sonrakı vəziyyəti ilə tanış oldu.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov görülən işlərlə bağlı dövlətimizin başçısına məlumat verdi. Bildirildi ki, 1972-ci ildə inşa olunan məktəbin binası 2 korpusdan ibarətdir. 1280 şagird yerlik məktəbdə 1400 şagird təhsil alır. Məktəbdə Azərbaycan bölməsi ilə yanaşı, rus bölməsi də fəaliyyət göstərir. Məktəb binasının sahəsi 2252 kvadratmetr, məktəbin ümumi ərazisi isə 19272 kvadratmetrdir. Yeni dərs ili ərəfəsində məktəbin binası əsaslı şəkildə təmir edilib, sinif otaqları, fənn kabinetləri yenidən qurularaq müasir avadanlıqlarla təchiz olunub. Məktəbin ətraf ərazisində də abadlıq və quruculuq işləri həyata keçirilibdir.*

*Sonra prezident İlham Əliyev 138 saylı məktəbə gəldi. Bu məktəbdə də görülən işlərlə bağlı dövlətimizin başçısına məlumat verildi. Bildirildi ki, 2 korpusdan ibarət 138 saylı tam orta məktəbin binası 1977-ci ildə inşa olunub. 1176 şagird*

*yerlik məktəbdə 1020 şagird təhsil alır. Bundan əlavə, binada Füzuli rayonunun 80 şagird yerlik 30 saylı məcburi köçkün məktəbi yerləşir. 5600 kvadratmetr ərazisi olan məktəbin ümumi sahəsi 17 800 kvadratmetrdir.*

*Məktəbin bütün sinif otaqlarında, fənn kabinetlərində təmir və yenidənqurma işləri yüksək standartlara uyğun şəkildə həyata keçirilmişdir. Bu təhsil ocağının ərazisində abadlıq və quruculuq işləri aparılmış, yaşıllıqlar salınmışdır.*

## XALQ ARTİSTİ ARİF MƏLİKOVA «HEYDƏR ƏLİYEV» ORDENİNİN TƏQDİM EDİLMƏSİ MƏRASİMİ

*13 sentyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 13-də Xalq artisti, Milli Elmlər Akademiyasının müxbir üzvü, professor Arif Məlikova Azərbaycan mədəniyyətinin inkişafında müstəsna xidmətlərinə görə «Heydər Əliyev» ordenini təqdim etmişdir.*

**İ l h a m Ə l i y e v:** Hörmətli Arif müəllim, mən Sizi ad gününüz, yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm. Sizə cansağlığı, uzun ömür arzulayıram. Siz Azərbaycan musiqi mədəniyyətinə böyük töhfə vermisiniz. Siz böyük bəstəkar, gözəl müəllim, gözəl vətəndaşsınız. Sizin əsərləriniz Azərbaycan xalqının qəlbində yaşayır. Əminəm ki, həmişə yaşayacaqdır. Siz bir çox simfoniyaların müəllifisiniz, gözəl mahnıların müəllifisiniz. Əlbəttə, artıq 50 ildən çoxdur müxtəlif ölkələrdə nümayiş etdirilən «Məhəbbət əfsanəsi» baleti hesab edirəm ki, sizin yaradıcılığınızın zirvəsidir.

Siz pedaqoq, müəllim kimi, öz işinizi davam etdirirsiniz. Gənc bəstəkarların hazırlanmasında sizin böyük rolunuz vardır. Siz Azərbaycan xalqının fəxrisiniz. Böyük bəstəkar və Azərbaycan musiqisinin klassikisiniz. Bu həqiqətdir.

Bir məsələni də vurğulamaq istəyirəm ki, sizin həmişə çox açıq-aydın və birmənalı vətəndaşlıq mövqeniz olmuşdur. Siz bütün dövrlərdə həqiqəti, ədaləti müdafiə etmisiniz. Bütün dövrlərdə öz mövqenizi bildirmisiniz. Yəni bu hər bir ziyalı, hər bir vətəndaş üçün örnək olmalıdır. Hər bir insanın, xüsusilə cəmiyyətdə böyük nüfuza malik olan insanların vətəndaşlıq mövqeyi olmalıdır. Xalqımız, millətimiz üçün ən ağır günlərdə

– 20 Yanvar faciəsi baş verdikdə siz Azərbaycan xalqının haqq səsini dünyaya çatdırdınız. O vaxt Azərbaycan müstəqil dövlət deyildi, bizim informasiya çatdırmaq imkanlarımız çox məhdud idi, Sovet İttifaqında azad mətbuat yox idi. Bax, sizin kimi tanınmış insanlar vasitəsilə Azərbaycan xalqının haqq səsi dünyaya çatdırılırdı. Bunu mən xüsusi vurğulamaq istəyirəm ki, əsl ziyalını fərqləndirən cəhətlərdən biri də onun vətəndaşlıq mövqeyidir, öz xalqına bağlılığıdır, öz dövlətinə sədaqətidir.

Sovet dövründə və müstəqillik dövründə sizin fəaliyyətiniz yüksək qiymətləndirilmişdir. 1998-ci ildə siz Azərbaycan dövlətinin o vaxtkı ən böyük ordeni – «İstiqlal» ordeni ilə təltif edilmisiniz. Ulu öndər Heydər Əliyev tərəfindən bu orden sizə verilmişdir.

Ulu öndər Heydər Əliyev ilə sizi şəxsi əlaqələr bağlayırdı. Mən bilirəm ki, hər iki tərəfdən böyük hörmət göstərilirdi. Sizin dostluq münasibətləriniz, hesab edirəm ki, cəmiyyət üçün də çox əhəmiyyətli idi.

Bu gün siz 80 illik yubileyinizi hər zaman olduğu kimi, böyük ruh yüksəkliyi ilə, çox yaxşı fiziki formada qarşılayırsınız. Mən buna çox sevinirəm. Bu gün müstəqil dövlətimizin ən ali ordeni olan «Heydər Əliyev» ordenini sizə təqdim etmək istəyirəm. Bu gün mənim sərəncamımla siz «Heydər Əliyev» ordeni ilə təltif edilirsiniz. İcazə verin, bu ali mükafatı sizə təqdim edim.

*Dövlətimizin başçısı «Heydər Əliyev» ordenini Xalq artisti Arif Məlikova təqdim etdi.*

**A r i f M ə l i k o v** (*Xalq artisti*): Bilirsiniz, deyirlər «Ot kökü üstə bitər». Bu qədər sözlərinizdən sonra mən fəxrlə bir şeyi deyə bilərəm ki, bu gün nə Azərbaycanda, nə də başqa ölkələrdə yaşayan bəstəkarın 60-dan çox premyerası olub, mən bununla fəxr edirəm. Çünki o proqramın üstündə mən mütləq yazıram ki, mən azərbaycanlıyam. «Məhəbbət əfsanəsi» ilə, bütün əsərlərimlə mən öz Vətənimə, öz torpağıma borcluyam. Bu təbiidir. Bunu Sizin sözlərinizdən sonra deyirəm. Əgər Allah

bizim ömrümüzü bir az da uzatsa, hələ qabaqda böyük əsərlər yazmaq üçün düşüncələr var və onların üzərində çalışıram.

Bilirsiniz, o qədər gözəl sözlər dediniz. Mən doğrudan da Sizin atanızla yaxın olmuşam. Sizin dediyiniz kimi, «İstiqlal» ordenini mənim boynuma o asıb. Bu mənim üçün fəxrdir. Amma ən böyüyü də şəxsən onun mənim sənətimə verdiyi qiymət və onun təhlilidir. Mən sözümdə və sənətimdə çalışacağam ki, göstərilən etimalı doğruldum. Sizə təşəkkür edirəm.

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB VLADİMİR PUTİNƏ**

Hörmətli Vladimir Vladimiroviç!

Novqorod vilayətindəki psixonevroloji internatda yanğın nəticəsində insan tələfatı haqqında xəbər məni dərindən kədərləndirdi.

Sizə, həlak olanların doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 sentyabr 2013-cü il*

# BAKININ XƏZƏR RAYONUNDAKI 234, 125 VƏ 121 SAYLI TAM ORTA MƏKTƏBLƏRİN BİNALARININ ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMADAN SONRAKI VƏZİYYƏTİ İLƏ TANIŞLIQ

*14 sentyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva sentyabrın 14-də Bakının Xəzər rayonundakı 234, 125 və 121 saylı tam orta məktəblərin binalarının əsaslı təmir və yenidənqurmadan sonrakı vəziyyəti ilə tanış olmuşlar.*

*Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramına uyğun olaraq orta məktəb binalarının əsaslı təmir və yenidənqurma işləri davam etdirilir.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva əvvəlcə 234 saylı tam orta məktəbin binasında aparılan əsaslı təmir və yenidənqurma işləri ilə tanış oldular.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov görülən işlərlə bağlı prezident İlham Əliyevə məlumat verdi. Bildirildi ki, 234 saylı tam orta məktəb 1980-ci ildə inşa olunub. 1176 yerlik məktəbdə 850 şagird təhsil alır. Məktəbin bütün sinif otaqları, fənn kabinetləri, yeməkxanası, kitabxanası, akt və idman zalları təmir edilib, təhsil ocağında əsaslı yenidənqurma işləri aparılıb, yüksək standartlara uyğun şərait yaradılıb. Tədris müəssisəsində kompüter sinifləri fəaliyyət göstərəcəkdir. Məktəbin işıqlandırma və istilik sistemi də yenidən qurulub. Ərazidə abadlıq və yaşıllaşdırma işləri görülüb.*

*Sonra prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva 125 saylı tam orta məktəbə gəldilər. Burada da görülən işlərlə bağlı dövlətimizin başçısına məlumat verib. Qeyd edildi ki,*

*məktəb 1939-cu ildə inşa olunub. 2011-ci ildə dövlətimizin başçısı bu məktəbdə olarkən yeni binanın inşa edilməsi barədə yerindəcə göstərişlər verib. Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq məktəbin yeni binası yüksək standartlara uyğun şəkildə inşa olunub. 760 yerlik yeni məktəbdə hazırda 560 şagird təhsil alır. Məktəbin akt və idman zalları yüksək tələblər səviyyəsindədir. Bu məktəbdə də müasir kompüter sinifləri yaradılıb. Təhsil müəssisəsi ən müasir avadanlıqlarla, işıqlandırma və istilik sistemləri ilə təchiz edilib, ətraf ərazilərdə abadlıq işləri aparılıb.*

*Daha sonra prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Binə qəsəbəsindəki 121 saylı tam orta məktəbdə yaradılan şəraitlə tanış oldular. Burada görülən əsaslı təmir və yenidənqurma işləri ilə bağlı məlumat verildi. Bildirildi ki, 1934-cü ildə inşa olunan məktəbdə 2006–2007-ci illərdə əlavə korpus inşa edilmişdir. Məktəbin köhnə korpusu yararsız vəziyyətdə olduğuna görə 2012-ci ildə sökülərək müasir standartlara uyğun 400 şagird yerlik yeni korpus inşa olunub. Məktəbin bütün sinif otaqları ən müasir tələblər səviyyəsindədir. 1040 yerlik məktəbdə hazırda 870 şagird təhsil alır.*

*Dövlətimizin başçısı və xanımı yaradılan şəraitlə yaxından tanış oldular. Yeni korpusda yüksək səviyyədə iclas və idman zalları qurulmuş, müasir işıqlandırma və istilik sistemləri yaradılmışdır. Məktəbin ətrafı abadlaşdırılmışdır.*

## YASAMAL RAYONUNDAKI 158 SAYLI TAM ORTA MƏKTƏBİN ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMADAN SONRA AÇILIŞI MƏRASİMİ

*16 sentyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva sentyabrın 16-da Bakının Yasamal rayonundakı 158 saylı tam orta məktəbin əsaslı təmir və yenidənqurmadan sonra açılışı mərasimində iştirak etmişlər.*

*Ölkəmizdə son illər təhsilin inkişafı ilə bağlı ardıcıl tədbirlər həyata keçirilir, müxtəlif proqramlar icra olunur. Birləşmiş Millətlər Təşkilatı da XXI əsri «Təhsil əsri» elan etmişdir. Odur ki, yüksək intellektə malik insan kapitalının formalaşmasında, davamlı inkişafa zəmin yaradan güclü iqtisadiyyatın qurulmasında təhsil mühüm rol oynayır. Azərbaycanda əldə olunan bu uğurların daha da möhkəmləndirilməsi ilə bağlı ardıcıl tədbirlər görülür. Son illərdə ölkədə yüzlərlə məktəb tikilmiş və ya əsaslı təmir edilmişdir. Yasamal rayonundakı 158 saylı tam orta məktəbdə aparılan yenidənqurma işləri də bu tədbirlərin davamıdır.*

*Dövlətimizin başçısı məktəbin təmirdən əvvəlki görüntülərini əks etdirən fotostendə baxdı.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov prezident İlham Əliyevə məlumat verdi ki, 1961-ci ildən fəaliyyət göstərən bu təhsil müəssisəsində əsaslı təmir və yenidənqurma işlərinə may ayında başlanılıb.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva məktəbdə yaradılan şəraitlə tanış oldular. Burada ulu öndər Heydər Əliyevin ölkədə təhsilin inkişafına göstərdiyi diqqət və qayğını əks etdirən fotostend qurulub. 3 tədris və 1 yardımçı*

*korpusdan ibarət olan 1850 şagird yerlik bu məktəbdə 198 müəllim işləyir.*

*Məktəbin idman zalı da yenidən qurulub. Zalda idmanın müxtəlif növləri üzrə yarışların keçirilməsi mümkündür. Təhsil kompleksində ən müasir standartlar səviyyəsində qurulan və yeni avadanlıqlarla təchiz edilən fənn kabinetləri yaradılıb. Bütün siniflər əyani vəsaitlərlə təchiz edilib. Məktəbin zəngin kitabxanasında 40 minə yaxın müxtəlif ədəbiyyat toplanılıb. Təhsil ocağının sinifləri interaktiv lövhələrlə təchiz olunub.*

*Şagirdlərin istifadəsinə 2 informatika kabineti də verilibdir.*

*Dövlətimizin başçısı ayrı-ayrı fənn kabinetləri ilə tanış oldu. Məktəbdə müxtəlif tədbirlərin keçirilməsi üçün 350 nəfərlik geniş akt zalı da yaradılıb.*

**İlham Əliyev:** Sabahınız xeyir olsun. Mən sizin hamınızı yeni dərs ili münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Eyni zamanda, məktəbinizin əsaslı təmirdən sonra açılışı münasibətilə də təbrik edirəm. Çox gözəl məktəb olub. Əvvəlki vəziyyəti ilə də tanış oldum, fotoşəkillərə baxdım. Siz də – burada oxuyanlar, burada işləyənlər daha yaxşı bilirsiniz ki, əvvəlki vəziyyət necə idi. Qısa müddətdə – cəmi 3 ay ərzində məktəb yenidən qurulub, əsaslı təmir olunub. Onilliklər bundan sonra bu məktəbin belə gözəl vəziyyətdə olması təmin ediləcək. Bütün avadanlıqlar var, bütün lazımi işlər görülübdür. Ona görə burada oxumaq da, müəllimlər üçün işləmək də xoş olacaqdır.

Əsas məsələ ondan ibarətdir ki, təhsilin keyfiyyəti daha da yüksəlsin. Çünki məktəb tikintisi ölkədə və Bakı şəhərində geniş vüsət almışdır. Təkcə bu il yay aylarında Bakıda 46 məktəb əsaslı şəkildə təmir edilmişdir. Ölkə üzrə isə 200-dən çox məktəb təmir edilmişdir. Son illər ərzində Azərbaycanda məktəblərin tikintisi, təmiri çox geniş aparılır. Ölkəmizdə cəmi 4500-ə yaxın məktəb vardır. Son 10 ildə 2700-dən çox məktəb tikilib və əsaslı təmir edilibdir. Ancaq buna baxmayaraq, hələ də təmirsiz məktəblər vardır, o cümlədən Bakıda. Son illərdə Bakıda 267 məktəb əsaslı təmir edilib və tikilib. Ancaq hələ 90 məktəbdə təmir işləri aparılmalıdır. Çünki o məktəblərin

vəziyyəti, bax, bu məktəbin əvvəlki vəziyyəti kimidir. Yəni bu o deməkdir ki, hesab edirəm, bizə hələ 1-2 il lazım olacaqdır ki, Bakının bütün məktəbləri, bax, belə gözəl vəziyyətdə olsun.

Təhsilin keyfiyyəti isə elə prosesdir ki, bu prosesin hüdudları yoxdur. Biz daim bu məsələni diqqət mərkəzində saxlamalıyıq, xüsusilə müəllimlər və təhsillə məşğul olan məsul şəxslər. Biz bu məsələyə daim diqqət yetirməliyik. Çünki artıq dəfələrlə bu ifadə işlədilib: «Təhsil hər bir ölkənin gələcəyini təmin edir». Hər bir ölkənin inkişafını onun insanları, insanların bilikləri, istedadı müəyyən edir. Ölkələr vardır ki, orada təbii sərvətlər yoxdur. Ancaq o ölkələr dünyada ən inkişaf etmiş ölkələrdir. Biz də bu yolu getməliyik. Bizim üstünlüyümüz ondan ibarətdir ki, təbii sərvətlərimiz də var və biz təbii sərvətlərin işlənməsindən əldə edilmiş gəlirləri insan kapitalına, o cümlədən təhsil sahəsində aparılan islahatlara yönəldirik.

Ancaq biz elə etməliyik ki, gələcəkdə ölkəmizin uğurlu və uzunmüddətli inkişafını elm, biliklər, texnologiyalar müəyyən etsin. Elmi-texniki tərəqqi hər bir ölkə üçün onun gələcəyini müəyyən edən amildir. Xüsusilə XXI əsrdə ölkələrin gələcəyi bilavasitə təhsilin, biliklərin səviyyəsindən asılı olacaqdır. Ona görə uşaqlarımız bilikli, savadlı olmalıdırlar, dünyada gedən yenilikləri bilməlidirlər. Əlbəttə ki, müəllim heyəti də təhsilin yüksək səviyyəsini təmin etməlidir.

Ümid edirəm ki, hazırda təhsil sahəsində aparılan islahatlar yaxın gələcəkdə müsbət nəticələrə gətirib çıxaracaqdır. Bu günə qədər müəyyən işlər görülübdür. Ancaq hesab edirəm, bugünkü Azərbaycanın inkişaf dinamikası bizə diktə edir ki, təhsil sahəsində səviyyə ən yüksək zirvədə olmalıdır. Əminəm ki, biz buna nail olacağıq. Çünki Azərbaycan xalqının çox böyük potensialı vardır. Bizim insanlarımız istedadlıdır, biliklidir. Hesab edirəm uşaqlar da başa düşürlər ki, əgər məktəblərdə, ali məktəblərdə yaxşı biliklərə malik olmasalar, gələcəkdə onlar üçün həyatda öz yerini tapmaq o qədər də asan olmayacaqdır.

Bu gün bizim cəmiyyətimizdə hər bir insanın gələcəyini daha çox bilik müəyyən edir. Getdikcə, ölkəmiz inkişaf etdikcə

bu amil daha da ciddi rol oynayacaq. Əlbəttə, hər bir dövlətin inkişafını vətənpərvər insanlar müəyyən edir. Vətən sevgisi, Vətənə bağlılıq həmişə xalqımıza xas olan xüsusiyyətlərdən biri olmuşdur. Xüsusilə bu gün Azərbaycan dünya miqyasında böyük nüfuza malik olan bir ölkədir. Azərbaycanda aparılan işlər artıq dünya ictimaiyyətinin diqqətini çəkir. Biz iqtisadi sahədə dünya miqyasında ən sürətli inkişafa nail ola bilmişik. Beynəlxalq mövqelərimiz də möhkəmdir. Ona görə ölkəmizlə fəxr etmək üçün kifayət qədər səbəblər vardır. Bunu nəzərə alaraq, bir daha demək istəyirəm ki, gənclərimiz, uşaqlarımız vətənpərvərlik ruhunda böyüməlidirlər, Vətənə sevgi ilə yaşamalıdırlar.

Əlbəttə ki, bu sahədə həm ailələrin, həm də müəllimlərin çox böyük rolu vardır. Çünki hər bir insanın dünyagörüşü orta məktəbdə formalaşır. Orta məktəbdə yaxşı oxuyan uşaqlar, adətən, ali məktəblərdə də yaxşı oxuyurlar.

Bu gün təhsil qarşısında duran bir neçə əsas vəzifə əminəm ki, yaxın zamanlarda təmin ediləcəkdir. Ali məktəblərdə təhsilin keyfiyyəti artmalıdır. Peşə məktəblərində yeni vəziyyət yaradılmalıdır. Xüsusilə iqtisadi inkişafımızı nəzərə alaraq, peşə məktəblərinin fəaliyyəti iqtisadi inkişafla uzlaşmalıdır ki, ölkəmiz üçün vacib olan sahələrdə peşəkar kadrlar hazırlansın.

Peşəkar kadrların hazırlanması üçün müxtəlif proqramlar icra edilir. Biz gəncləri xaricə oxumağa göndəririk. Ancaq mən artıq bu barədə öz fikirlərimi bildirmişəm. Bir daha deyirəm, istəyirəm Azərbaycanda təhsilin səviyyəsi o qədər yüksək olsun ki, xaricə getməyə ehtiyac qalmasın. Bu da həm müəllimlərdən, həm dövlət rəhbərliyindən, eyni zamanda, təhsil sistemində çalışan bütün insanlardan və əlbəttə ki, uşaqlardan asılıdır. Uşaqlar da məktəbdə yaxşı oxumalıdırlar. Müəllimlərin sözünə baxmalıdırlar. Çünki bu, ilk növbədə onlar üçün, onların gələcəyi üçün lazımdır.

Biz isə çalışacağıq ki, bütün məktəbləri belə gözəl vəziyyətə gətirib çıxaraq, təhsillə bağlı bütün digər məsələləri həll edək.

Bir daha sizi ürəkdən təbrik edirəm. Sizə uğurlar arzulayıram.

**Z e m f i r a  S ə m ə d o v a** *(məktəbin direktoru):* Hörmətli cənab Prezident! Bütün kollektivimiz adından Sizə öz minnətdarlığımızı bildiririk. Bu gün bizim məktəbi tarixə qovuşduran bir gündür. Siz bu qədər işiniz olduğu bir zamanda vaxt tapıb bizimlə görüşə gəlmisiniz, biz bunu bütün kollektivimizə, özümüzə böyük şərəf bilirik, çox sevinirik. Sizin təhsilə olan qayğınızın nəticəsində az bir müddətdə bizə belə bir gözəl məktəb bəxş etmisiniz. Buna görə Sizə bütün kollektiv adından ürəkdən, min dəfələrlə təşəkkür edirik.

Cənab Prezident, həm Sizin, həm də Mehriban xanımın fəaliyyəti həmişə bizi ruhlandırır. Biz müəllimlər bu gün çalışırıq ki, Siz dediyiniz kimi, vətənpərvər vətəndaşlar formalaşdıraq.

Hörmətli cənab Prezident, çalışırıq ki, gənclərimiz Sizin kimi, Vətəni sevən, çalışqan olsunlar. Gənc nəsil gələcəyin qurucularıdır. Onlar gələcəyimizi, Azərbaycanın gələcəyini təmin edən, dövlətçiliyimizin, müstəqilliyimizin əbədiliyini qoruyan nəsildir.

Bir daha Sizə təşəkkür edirik. Çox sağ olun.

**İ l h a m  Ə l i y e v:** Sağ olun.

## «AZƏRSU» AÇIQ SƏHMDAR CƏMİYYƏTİNİN MƏRKƏZİ LABORATORİYASININ YENİ İNZİBATİ BİNASININ AÇILIŞINDA İŞTİRAK VƏ «+ 110 QƏRB» SU ANBARI ƏRAZİSİNDƏ SALINACAQ PARKIN LAYİHƏSİ İLƏ TANIŞLIQ

*16 sentyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva sentyabrın 16-da «Azərsu» Açıq Səhmdar Cəmiyyətinin mərkəzi laboratoriyasının yeni inzibati binasının açılışında iştirak etmiş, «+ 110 qərb» su anbarı ərazisində salınacaq parkın layihəsi ilə tanış olmuşlar.*

*«Azərsu» Açıq Səhmdar Cəmiyyətinin laboratoriyalarında analizləri vahid sistemdə qeydiyyata almaq, tam əhatəli informasiya bazası yaratmaq, uzaq məsafələrdə analizlər aparmaq üçün texniki imkanları genişləndirmək məqsədilə 2011-ci ildə mərkəzi laboratoriyanın yeni inzibati binasının inşasına başlanılıb. Paytaxtın Yasamal rayonu ərazisində yerləşən, ümumi sahəsi 1800 kvadratmetr olan yeni bina yüksək standartlara uyğun şəkildə inşa edilib.*

*Prezident İlham Əliyev laboratoriyanın yeni inzibati binasının rəmzi açılışını bildirən lenti kəsdi.*

*«Azərsu» Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynov layihə əsasında görülən işlər barədə dövlətimizin başçısına məlumat verdi. Bildirildi ki, bina içməli və tullantı su bölmələrindən ibarətdir. Bu bölmələrin hər birində mikrobioloji və fiziki-kimyəvi analiz şöbələri yerləşir. Laboratoriyada beynəlxalq səviyyədə tanınmış şirkətlərin avadanlığı quraşdırılıb. Bu avadanlığın köməyi ilə içməli və tullantı sularının fiziki-kimyəvi və bakterioloji göstəricilərini təyin etmək mümkündür.*

Diqqətə çatdırıldı ki, regionun ən müasir laboratoriyasında quraşdırılmış «ICP-MS» cihazı vasitəsilə insan orqanizmi üçün olduqca təhlükəli sayılan toksik xarakterli ağır və digər metallar dəqiqliklə təyin olunur.

Bildirildi ki, əgər əvvəllər içməli suyun 27, tullantı sularının 26 parametri olmaqla, ümumilikdə 53 parametr üzrə tədqiqatlar aparılırdısa, yeni laboratoriyada 138, o cümlədən içməli suyun 84, tullantı sularının 54 parametri təyin edilir.

Laboratoriyanın mikrobioloji analizlər otağında isə təhlükəli bakteriyalar təyin olunur. Tullantı suları bölməsində həm fiziki, həm də kimyəvi analizlər aparılır. Laboratoriya insan sağlamlığının və ətraf mühitin qorunması baxımından mühüm əhəmiyyət kəsb edir.

Burada Abşeron yarımadasını içməli su ilə təmin edən mənbələr, sutəmizləyici qurğular, su anbarları, həmçinin təhsil, səhiyyə müəssisələri və ictimai iaşə obyektləri daxil olmaqla, 1800-dək ünvandan dövri olaraq, eləcə də istehlakçıların müraciətləri əsasında müəyyən olunmuş yerlərdən götürülmüş nümunələrin təhlil edilməsi nəzərdə tutulub.

Yeni laboratoriya qurularkən respublikanın regionlarında istənilən ərazidə və şəraitdə analizlərin aparılması imkanları da təmin edilib. Bu məqsədlə səyyar laboratoriya kimi fəaliyyət göstərən 2, su nümunələrinin daşınması üçün isə 4 xüsusi təyinatlı nəqliyyat vasitəsi alınıb. Hazırda səyyar laboratoriyalar vasitəsilə rayon mərkəzlərində və kəndlərdə su nümunələrinin analizləri aparılır.

Bildirildi ki, laboratoriyada regionlarda yaradılacaq müasir laboratoriyalar üçün kadrların hazırlanması, eləcə də kimya, biologiya və ekologiya sahələri üzrə tələbələrə təlim və təcrübə kurslarının keçirilməsi üçün də lazımi şərait yaradılıb.

Sonra prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva «+ 110 qərb» su anbarının ərazisində salınacaq yeni parkın layihəsi ilə tanış oldular. Dövlətimizin başçısına salınacaq park barədə məlumat verildi. Bildirildi ki, layihələndirilən parkın sahəsi 62 min kvadratmetrə yaxındır. Bunun yarıdan çox

*hissəsini yaşıllıqlar təşkil edəcəkdir. Park ərazisində müxtəlif növ ağac və dekorativ bitkilər əkiləcək, idman və gimnastika ilə məşğul olmaq üçün meydança yaradılacaqdır. İdman meydançasında müxtəlif trenajorlar quraşdırılacaqdır. Burada uşaqlar üçün əyləncə meydançası da yaradılacaqdır. 10 fəvvarənin quraşdırılacağı parkda avtomobil dayanacağı inşa olunacaq, ən müasir işıqlandırma sistemi və eyni zamanda, gün ərzində 5000 nəfərin istirahəti üçün lazımi şərait yaradılacaqdır.*

## BEYNƏLXALQ ŞAHMAT FEDERASİYASININ PREZİDENTİ KİRSAN İLYUMJİNOV İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*16 sentyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 16-da Beynəlxalq Şahmat Federasiyasının prezidenti Kirsan İlyumjinovu qəbul etmişdir.*

*«Məktəbdə şahmat» proqramının Azərbaycanda fəal şəkildə tətbiq olunmasının əhəmiyyətinə toxunan Kirsan İlyumjinov 2009-cu ildə prezident İlham Əliyevin fərmanı ilə ölkəmizdə şahmatın inkişafına dair Dövlət Proqramının təsdiq olunmasının önəmini qeyd etdi. O, Azərbaycanda şahmatın inkişafına göstərilən dövlət qayğısını yüksək qiymətləndirdi. Beynəlxalq Şahmat Federasiyasının prezidenti Rusiya Federasiyasının Xantı-Mansiysk vilayətində ilk dəfə keçirilən sürətli şahmat üzrə dünya çempionatında Şəhriyar Məmmədyarovun qalib gəlməsini ölkəmizdə şahmatın inkişafının yaxşı göstəricisi kimi dəyərləndirdi.*

*Dövlətimizin başçısı «Məktəbdə şahmat» proqramının Azərbaycanda ardıcıl olaraq davam etdiriləcəyinə əminliyini ifadə etdi. Ölkəmizdə şahmatın uğurla inkişaf etdiyini vurğulayan prezident İlham Əliyev Azərbaycanın bütün şəhərlərində şahmat məktəblərinin bərpa edildiyini dedi. Ölkəmizdə «Baku Open–2013» Beynəlxalq Şahmat Festivalına hazırlıq işlərinin görüldüyünü deyən dövlətimizin başçısı Azərbaycanın təşəbbüslərinə göstərdiyi dəstəyə görə Beynəlxalq Şahmat Federasiyasının prezidenti Kirsan İlyumjinova təşəkkürünü bildirdi.*

## PREZİDENT SEÇKİLƏRİNİN MÜŞAHİDƏSİ ÜZRƏ ATƏT-in FƏALİYYƏTDƏ OLAN SƏDRİ TƏRƏFİNDƏN TƏYİN EDİLMİŞ XÜSUSİ ƏLAQƏLƏNDİRİCİSİNİ VƏ FRANSA MİLLİ ASSAMBLEYASININ FRANSA–AZƏRBAYCAN DOSTLUQ QRUPUNUN RƏHBƏRİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*16 sentyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 16-da Azərbaycanda prezident seçkilərinin müşahidəsi üzrə ATƏT-in fəaliyyətdə olan sədri tərəfindən təyin edilmiş xüsusi əlaqələndiricisi, ATƏT-in Parlament Assambleyasındakı Fransa nümayəndə heyəti rəhbərinin birinci müavini Mişel Vuazeni və Fransa Milli Assambleyasının Fransa–Azərbaycan dostluq qrupunun rəhbəri Tierri Marianini qəbul etmişdir.*

*Görüşdə Azərbaycanda keçiriləcək prezident seçkilərinə hazırlıqla bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## VƏTƏNDAŞLARA XİDMƏT VƏ SOSİAL İNNOVASİYALAR ÜZRƏ DÖVLƏT AGENTLİYİNİN 3 SAYLI BAKI «ASAN XİDMƏT» MƏRKƏZİNİN AÇILIŞI MƏRASİMİ

*17 sentyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 17-də Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin 3 saylı Bakı «ASAN xidmət» mərkəzinin açılışında iştirak etmişdir.*

*Son illər Azərbaycanda dövlət qurumlarının fəaliyyətində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi istiqamətində əhəmiyyətli işlər görülmüş, müvafiq hüquqi baza formalaşdırılmışdır. Əksər dövlət orqanlarında əhaliyə elektron xidmətlərin göstərilməsi təmin edilib. Bu xidmətlər bürokratik əngəlləri və mümkün korrupsiya hallarını aradan qaldırır, vətəndaşları dövlət xidmətlərinə yaxınlaşdırır. 2012-ci il iyulun 13-də isə bu sahədə daha mühüm islahata imza atıldı – Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və onun tabeliyində olan «ASAN xidmət» mərkəzləri yaradıldı. Sentyabrın 5-də Agentliyin əsasnaməsi və strukturu müəyyən olunub. Bu qurumun yaradılmasında məqsəd vətəndaşlara birbaşa xidmət göstərəcək «ASAN xidmət» mərkəzlərinin vahid şəkildə idarə edilməsidir. Buraya xidmət mərkəzlərini əhatə edən dövlət orqanları əməkdaşlarının fəaliyyətinin əlaqələndirilməsi, nəzarət və qiymətləndirmənin aparılması, dövlət orqanlarının informasiya bazalarının qarşılıqlı inteqrasiyası, elektron xidmətlərin təşkili prosesinin sürətləndirilməsi və bu sahədə idarəetmə sisteminin təkmilləş-*

*dirilməsi* daxildir. *Ötən il dekabrın 29-da pilot layihə* olaraq *Bakıda 1 saylı «ASAN xidmət» mərkəzi fəaliyyətə başlayıb. Bu il mayın 3-də Sumqayıt «ASAN xidmət» mərkəzi istifadəyə* verilib. *Mayın 24-dən isə 2 saylı Bakı «ASAN Xidmət» mərkəzi fəaliyyətə başlayıb. Hər 3 mərkəzə şəxsiyyət vəsiqələrinin alınması və dəyişdirilməsi, sürücülük vəsiqələrinin dəyişdirilməsi,* notariat *fəaliyyəti, eləcə də* miqrasiya *və əmlak məsələləri ilə bağlı* daxil olan *müraciətlər üstünlük təşkil etmişdir.*

*«ASAN xidmət» mərkəzində* ilk vaxtlar *23 hüquqi xidmət həyata keçirilirdi. İndi isə əcnəbi və vətəndaşlığı* olmayan *şəxslərə əmək fəaliyyətini həyata keçirmələri üçün fərdi icazələrin, daşınmaz əmlakla bağlı dövlət reyestrindən* arayışların *verilməsi göstərilən xidmətlərə əlavə edilmişdir.* Bununla da *dövlət* orqanları *tərəfindən göstərilən hüquqi xidmətlərin sayı 25-ə çatıb. Artıq* Yasamal rayonunda *yerləşən Bakı şəhər 3 saylı «ASAN xidmət» mərkəzi də istifadəyə hazırdır.*

*Prezident Administrasiyasının hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Fuad Ələsgərov mərkəzdə yaradılan şəraitlə tanış* olan *dövlətimizin başçısına məlumat* verdi ki, burada *tətbiq edilən yeniliklərdən biri «Exit* poll» *rəy sorğusunun fəaliyyət göstərməsidir. Bu, vətəndaşların göstərilən xidmətlərlə bağlı münasibətlərini öyrənməyə* imkan verir. Bu yenilik *həm də göstərilən xidmətlərin keyfiyyətini araşdırır. Sorğunun nəticələri müəyyən məsələlər üzrə lazımi tədbirlərin görülməsinə imkan yaradır.*

*Bildirildi ki, «ASAN xidmət» yaradıcılığa dəstəklə bağlı müxtəlif* sosial aksiyalar *keçirməsi ilə də tanınır. Mərkəzdə «YARAT» müasir incəsənət məkanının guşəsi də* qurulub.

*Dövlətimizin başçısına mərkəzdə tətbiq edilən* daha bir yenilik – elektron *müraciət köşkü barədə məlumat* verildi. *Vətəndaşlar mərkəzdən 108 «Çağrı» mərkəzinə zəng edərək, canlı videobağlantı vasitəsilə xidmətdən yararlanıb razılıqlarını, təkliflərini, müraciətlərini bildirmək imkanı qazanırlar.*

*Prezident İlham Əliyev mərkəzdə işçilər üçün yaradılan şəraitlə də tanış* oldu. Bildirildi ki. *«ASAN xidmət» mərkəzinin*

*fəaliyyətinin məqsədi dövlət orqanlarının hüquqi xidmətlərinin göstərilməsində vətəndaşların razı salınması, şəffaflığın təmin edilməsi, müasir texnologiyaların, dövlət qulluqçusu –vətəndaş münasibətlərində yeni düşüncə tərzinin formalaşdırılmasıdır.*

*Dövlətimizin başçısı «ASAN xidmət» mərkəzlərinin fəaliyyət dairəsini əks etdirən xəritəyə baxdı. Bakı şəhər 1 saylı «ASAN xidmət» mərkəzi paytaxtın Nəsimi, Nərimanov və Binəqədi rayonlarında qeydiyyatda olan vətəndaşlara, Sumqayıt «ASAN xidmət» mərkəzi bu şəhərin sakinlərinə, eyni zamanda, Abşeron, Siyəzən, Şabran və Xızı rayonlarının sakinlərinə, Bakı şəhər 2 saylı «ASAN xidmət» mərkəzi Xətai, Nizami və Suraxanı rayonlarının sakinlərinə xidmət edir. Artıq fəaliyyətə hazır olan Bakı şəhər 3 saylı «ASAN xidmət» mərkəzi isə Yasamal, Səbail və Qaradağ rayonlarının sakinlərinin xidmətində olacaqdır.*

*Qeyd edildi ki, «Çağrı» mərkəzi vasitəsilə vətəndaşlar mərkəzə gəlmədən internet və ya telefonla bütün xidmət növləri, tələb edilən sənədlər barədə məlumat ala və növbə tuta bilərlər. Mərkəzdə şəffaflığın təmin edilməsi məqsədi ilə xidmət proseduru videokamera ilə fasiləsiz qeydiyyata alınacaqdır. Xidmət sistemi müasir İP telefon və İP şəbəkə sistemi ilə təmin edilib. Xidmətlərin tənzimlənməsi məqsədi ilə elektron monitor və elektron elan tabloları qurulub. Mərkəzdə videomüşahidə kameraları və rüsumların məbləğlərini əks etdirən tablo quraşdırılıb.*

*Prezident İlham Əliyevə «ASAN imza» layihəsi təqdim olundu. Bildirildi ki, «ASAN imza» vasitəsilə vətəndaşlar Vergilər Nazirliyinin portalına daxil olacaq və «ASAN DOC» proqramının köməyi ilə sənədlərin imzalanması həyata keçiriləcəkdir. Ümumiyyətlə, bu xidmət sayəsində vətəndaşlar istər mobil telefon, istər kompüter və digər mobil qurğular vasitəsilə bütün elektron xidmətlərdən maneəsiz və təhlükəsiz istifadə edə bilərlər. Bütün dövlət və qeyri-dövlət qurumları, vətəndaşlar bu xidmətdən yararlanaraq bir-birilərinə imzalanan sənədləri göndərə biləcəklər. Bu isə nəticədə nağdsız ödənişlərin artmasına, vətəndaşla dövlət arasında qarşılıqlı etimada əsaslanan münasibətlərin daha da inkişaf etdirilməsinə təkan verəcəkdir.*

Prezident İlham Əliyevə «ASAN imza»nın sertifikatı və «ASAN imza»nın daşıyıcısı olan sim-kartın yerləşdiyi mobil telefon təqdim edildi.

Diqqətə çatdırıldı ki, «ASAN xidmət» mərkəzinin əsas prinsipləri operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət, etik davranış qaydalarına nəzarət və rahatlıqdır. Mərkəz daim internetə açıq olan kompüterlərlə təchiz edilib. Vətəndaşların burada bütün növ elektron xidmətlərdən yararlanmaları üçün hər cür şərait vardır.

«ASAN xidmət» mərkəzində vətəndaşların gözləmələri və vaxtlarını səmərəli keçirmələri üçün funksional yardımçı xidmətlər – bank, sığorta, hüquqi yardım və tərcümə mərkəzləri, laboratoriya, tibbi xidmət, internet-kafe, poçt şöbələri, fotostudiya fəaliyyət göstərir. Mərkəzdə yerləşdirilən xüsusi terminallar vasitəsilə mobil rabitə, internet, işıq, su, qaz və digər kommunal xidmətlərin ödənişi, kredit və sığorta ödənişlərinin həyata keçirilməsi mümkündür. Mərkəzdə vətəndaşın qəbulu elektron növbə əsasında həyata keçiriləcəkdir. Bunun üçün ən müasir avadanlıq quraşdırılmışdır. Xidmətin «asan.gov.az» internet saytı vasitəsi ilə vətəndaşlar üçün onlayn növbəyə yazılma, elektron ərizələr doldurma, sənədləri müxtəlif orqanlara elektron qaydada göndərmə və digər imkanlar yaradılıb. «Elektron məlumat mərkəzi»nə müraciət edən vətəndaş bütün məlumatları öyrənə, elektron ərizəni doldura və eyni vaxtda çap etdirə bilər. Elektron lövhələr və işarələr vətəndaşların məlumat əldə etmələrini asanlaşdırır. Bundan əlavə, mərkəzlərdə vətəndaşlar üçün 22 növ funksional yardımçı xidmət göstərilir.

Məlumat verildi ki, Bakı şəhər 3 saylı «ASAN xidmət» mərkəzində «Biometrik məlumatların toplanması sistemi» də yaradılıb. Sistem biometrik şəkillərin çəkilməsi, barmaq izlərinin götürülməsi, elektron imza və digər xüsusiyyətlərə malikdir. Digərlərində olduğu kimi, bu mərkəzdə də uşaqlar üçün ayrıca oyun guşəsi yaradılıb.

«ASAN xidmət» mərkəzində 9 dövlət orqanı – Ədliyyə, Daxili İşlər, Vergilər nazirlikləri, Dövlət Gömrük Komitəsi, Əmlak Məsələləri Dövlət Komitəsi, Dövlət Miqrasiya Xidməti,

*Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi, Dövlət Sosial Müdafiə Fondu və Milli Arxiv İdarəsi tərəfindən 25 hüquqi xidmət həyata keçirilir.*

*Dövlətimizin başçısı mərkəzdə yaradılmış şəraitdən razılığını bildirdi, tapşırıq və tövsiyələrini verdi.*

**MALTA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB CORC ABELAYA**

Hörmətli cənab Prezident!

Malta Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və bütün xalqınıza Azərbaycan xalqı adından və şəxsən öz adımdan ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, Azərbaycan–Malta dostluğunun daim möhkəmlənməsi və əməkdaşlığımızın əhatə dairəsinin daha da genişlənməsi yolunda qarşılıqlı səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Malta xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 sentyabr 2013-cü il*

## QUBA RAYONUNA SƏFƏR

*18 sentyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 18-də Quba rayonuna səfərə gəlmişdir.*

*Dövlətimizin başçısı və xanımı Mehriban Əliyeva əvvəlcə Quba şəhərinin mərkəzindəki Heydər Əliyev adına Mədəniyyət və istirahət parkında ulu öndərin abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydular.*

*Azərbaycan Prezidentinə məlumat verildi ki, ərazisi 5 hektar olan Heydər Əliyev adına Mədəniyyət və istirahət parkı tamamilə yenidən qurulmuşdur. Ərazidə yol və keçidlərə 2500 kvadratmetr asfalt döşənmiş, geniş yaşıllıq işləri aparılmışdır. İstirahət məkanında 4 kölgəlik quraşdırılmış, 60 oturacaq qoyulmuş, işıqlandırma sistemi və parkın ətrafındakı hasarlar yenilənmişdir. Parkda ulu öndər Heydər Əliyevin portretlərindən ibarət mozaik pannolar yaradılmışdır. Burada müasir işıqlandırma sistemi ilə təchiz edilmiş musiqili fəvvarə tikilmişdir. Quba rayonunun ən gözəl yerlərindən birində salınan bu parkın yenidən və ən müasir standartlar səviyyəsində qurulması əhalinin istirahətinin təşkilində mühüm rol oynayır.*

### Quba Soyqırımı Memorial Kompleksinin açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev Heydər Əliyev Fondunun dəstəyi ilə yaradılan Quba Soyqırımı Memorial Kompleksinin açılışında iştirak etmişdir.*

*Son dövrlərdə Azərbaycan həqiqətlərinin dünyada yayılması istiqamətində görülən işlərin miqyası daha da artıb. Bu işdə Azərbaycan dövləti ilə yanaşı, Heydər Əliyev Fondu da çox*

*mühüm və tarixi işlər görür. Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Fond istər ölkədən kənarda, istərsə də respublikamızda bu istiqamətdə çox vacib layihələr reallaşdırır. Heydər Əliyev Fondunun dəstəyi ilə Quba Soyqırımı Memorial Kompleksinin yaradılması Fondun bu məsələyə nə dərəcədə həssas yanaşdığını nümayiş etdirir. Quba soyqırımı məzarlığı 2007-ci il aprelin 1-də ərazidə torpaq işləri görülərkən aşkar edilmişdir. 2009-cu ildə Nazirlər Kabinetinin sərəncamı ilə «Quba rayonunda kütləvi qətl qurbanlarının xatirəsinin əbədiləşdirilməsinə dair tədbirlər planı» təsdiq edilmiş, aşkar olunmuş kütləvi məzarlığın yerləşdiyi ərazidə Monumental Xatirə Kompleksinin ucaldılması və abadlıq işlərinin aparılması qərara alınmışdır. 2007-ci ilin iyulundan etibarən Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşları tərəfindən kütləvi məzarlıqda geniş tədqiqat işlərinə başlanılmış, 2008-ci ilin sentyabrında isə tədqiqat işləri başa çatdırılmışdır. Tədqiqat nəticəsində məzarlığın 1918-ci ildə ermənilərin yerli dinc əhaliyə qarşı törətdikləri soyqırımı ilə bağlı olduğu müəyyən edilmişdir.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva əvvəlcə kompleksin məlumat mərkəzində yaradılmış şəraitlə tanış oldular.*

*Dövlətimizin başçısı və xanımı burada kompleksin sxemini əks etdirən stendlərə baxdılar.*

*Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov məlumat verdi ki, kompleksdəki bütün bölmələr və eksponatların yanında quraşdırılan xüsusi audio-bələdçi qurğuları vasitəsilə ingilis, rus və Azərbaycan dillərində ətraflı məlumat almaq mümkündür.*

*Kompleksin ekspozisiya zalı ilə tanışlıq zamanı diqqətə çatdırıldı ki, aşkar olunmuş kütləvi məzarlığın ümumi sahəsi 514 kvadratmetrdir. Onun 494 kvadratmetrlik hissəsində tədqiqat işləri aparılsa da, 20 kvadratmetr ərazi beynəlxalq tədqiqat işləri üçün saxlanılıb. Tədqiqat işlərinin nəticəsi olaraq məzarlıqda müxtəlif yaş qruplarına aid 400-dən çox*

insan cəsədinin qalıqları aşkar edilib. Onlardan 50-dən çoxu uşaqlara, 100-dən çoxu qadınlara, qalanları isə əsasən yaşlı kişilərə aiddir. Müəyyən edilmişdir ki, məzarlıqda azərbaycanlılarla bərabər, Qubada yığcam halda yaşayan ləzgi, yəhudi, tat və digər etnik qrupların nümayəndələri də amansızcasına qətlə yetirilərək basdırılmışdır..

Bildirildi ki, kütləvi məzarlığın yerləşdiyi ərazini sel sularından qorumaq məqsədilə Qudyalçayın məcrasında uzunluğu 400 metr olan qoruyucu beton bənd inşa olunub. Ötən əsrin əvvəllərində bolşevik-erməni silahlı dəstələrinin Azərbaycan torpaqlarında həyata keçirdikləri soyqırımı siyasəti nəticəsində Bakı, Quba, Şamaxı, Göyçay, Cavad, Salyan, Qarabağ, Zəngəzur, Naxçıvan, Lənkəran, Gəncə və digər bölgələrdə 10 minlərlə günahsız azərbaycanlı qətlə yetirilib. 1918-ci ilin aprel–may aylarında yalnız Quba qəzasında 167 kənd tamamilə məhv edilib.

Prezident İlham Əliyevin 2009-cu il 30 dekabr tarixli Sərəncamı ilə Quba şəhərində Soyqırımı Memorial Kompleksinin yaradılmasına başlanılmışdır. Kompleksin 3,5 hektarlıq ərazisində geniş quruculuq işləri görülüb. Quba Soyqırımı Memorial Kompleksində rəmzi məzarlıq sahəsi yaradılıb. Qalereyada yaradılan inzibati binanın tikinti sahəsi 320 kvadratmetrdir. Burada zəngin kitab fondu ilə təchiz olunmuş kitabxana, arxiv və digər inzibati otaqlar vardır.

Diqqətə çatdırıldı ki, kompleksin tərtibatı orijinallığı ilə seçilir. Buradakı abidə 3 hissədən – sivri uclu bıçaqları xatırladan 2 konstruksiya, eləcə də ortada xatirə daşı yerləşən əsas zaldan ibarətdir. Abidənin iti ucları ürəkləri parçalayan şiddətli ağrıları təcəssüm etdirir. İti ucların yerin altından çıxması isə həqiqəti gizlətməyin mümkün olmadığını göstərir. Abidə bütövlükdə brutto-betondan hazırlanıb. Memarlar soyqırımı qurbanlarının xatirəsinə ehtiram əlaməti olaraq matəm sükutunu təcəssüm etdirməyə çalışmışlar. Soyqırımı qurbanlarının xatirəsinə matəm sükutunu təcəssüm etdirmək məqsədilə layihədə hər hansı bəzəkdən istifadə olunmamışdır.

Azərbaycan Prezidenti İlham Əliyevə və xanımı Mehriban Əliyevaya memorial kompleksin ikinci mərhələsi barədə də məlumat verildi.

Dövlətimizin başçısı soyqırımı qurbanlarının xatirəsini dərin ehtiramla yad etdi, kompleksin önünə əklil qoydu.

Sonra prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva kompleksin muzeyindəki eksponatlarla tanış oldular.

Kompleksdə XX əsrin əvvəllərində Quba şəhərinin müxtəlif ərazilərinin görüntüləri, o zaman burada aparılan tikinti-quruculuq işləri, əhalinin həyat tərzi haqqında fotolar vardır. Buradakı xüsusi bölmədə Azərbaycan Xalq Cümhuriyyətinin yaranma tarixi, bununla bağlı maraqlı fotolar yer alıb. Kompleksdə quraşdırılmış sensor ekranlı monitordakı xüsusi xəritədə ermənilərin ötən əsrdə xalqımıza qarşı respublikamızın müxtəlif bölgələrində həyata keçirdikləri soyqırımları barədə bir neçə dildə məlumat əldə etmək mümkündür. Burada ümummilli lider Heydər Əliyevin azərbaycanlılara qarşı həyata keçirilən soyqırımı siyasətinin ifşa olunaraq dünya ictimaiyyətinə çatdırılması istiqamətində gördüyü işlər, bunun üçün imzaladığı sərəncamların nümayiş etdirildiyi guşə də yaradılmışdır. Həmçinin Quba, Cavad, Göyçay, Şamaxı və Bakı qəzaları barədə və bu qəzalarda ermənilərin törətdikləri vəhşiliklər haqqında dolğun məlumatlar vardır. Bu guşələrə həm də qəzaların əhalisi, müdafiəçiləri, müsəlman qırğınları üzrə Fövqəladə Təhqiqat Komisssiyasının məlumatları, sənədləri, Paris Sülh Konfransında Azərbaycan nümayəndə heyətinin sənədləri sərgilənir. Kompleksdə kütləvi məzarlığın fotoları, məzarlıq ərazisində tapılan soyuq silah və digər əşyalar da vardır. Burada, həmçinin Azərbaycan, İran, Böyük Britaniya və digər ölkələrin ictimai, siyasi, dövlət və hərbi xadimlərinin ermənilərin azərbaycanlılara qarşı həyata keçirdikləri soyqırımı barədə fikirləri yer alıb. Qafqaz İslam Ordusunun və Azərbaycan hərbçilərinin fotoları da maraq doğurur. Ermənilərin azərbaycanlılara qarşı həyata keçirdikləri soyqırımı zamanı qətlə yetirilənlərin xatirəsinin əbədiləşdirilməsi istiqamətində Heydər Əliyev Fondunun atdığı bu addım tarixi əhəmiyyəti ilə seçilir.

*Kompekslə tanışlıqdan sonra dövlətimizin başçısı burada Quba rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

*Dövlətimizin başçısı mərasimdə çıxış etdi.*

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Bu gün biz Quba Soyqırımı Memorial Kompleksinin açılışına toplaşmışıq. 1918-ci ilin mart–iyul aylarında erməni quldur dəstələri Azərbaycanın, demək olar ki, bütün ərazilərində dinc əhaliyə qarşı soyqırımı törətmişlər. 5 ay ərzində 50 mindən çox soydaşımız erməni faşizminin qurbanı olmuşdur. Bakıda, Quba qəzasında, Şamaxıda, Qusarda, İrəvanda, Naxçıvanda, Zəngəzurda, Qarabağda, Lənkəranda, demək olar ki, bütün Azərbaycan torpaqlarında bizə qarşı soyqırımı törədilmişdir. Bu memorial kompleksin yaradılması hesab edirəm ki, tarixi hadisədir. Bildiyiniz kimi, 2007-ci ildə burada qazıntı işləri aparılarkən kütləvi məzarlıq aşkarlanmışdır. Ondan sonra buraya alimlər, ekspertlər ezam edilmiş və böyük tədqiqat işləri aparılmışdır. Tədqiqat işlərinin aparılması nəticəsində aşkar edilmişdir ki, burada minlərlə soydaşımız erməni quldur dəstələri tərəfindən amansızlıqla, qəddarlıqla öldürülmüşdür. 2009-cu ilin sonunda mənim tərəfimdən Quba Soyqırımı Memorial Kompleksinin yaradılmasına dair sərəncam imzalanmış və 2011-ci ildən işlər başlanmışdır. Bu gün biz memorial kompleksin açılışını edirik.

Deyə bilərəm ki, Azərbaycanda ilk dəfə olaraq belə memorial kompleks yaradılır. Kompleksin tərtibatı çox təsirlidir, memarlığı çox böyük rəmzi məna daşıyır. Bir sözlə, burada nümayiş etdirilən eksponatlar bizim tariximizi göstərir. Eyni zamanda, memorial kompleksdə yaradılmış ekspozisiya çox böyük məna daşıyır. Kompleksin girişində Quba qəzasının dinc vaxtları öz əksini tapır. Ailələr, vətəndaşlar dinc həyat sürürlər. Ondan sonra qanlı günlər, dinc əhaliyə qarşı törədilən vəhşilik əks olunur. Ekspozisiyanın

sonunda hesab edirəm ki, çox düzgün tərtibat nəticəsində insanlar buradan nikbin əhval-ruhiyyə ilə ayrılırlar. Çünki Bakının erməni quldur dəstələrindən azad edilməsi elə bil ki, ekspozisiyanın son nöqtəsidir.

Burada həlak olmuş insanlar müxtəlif dinlərin, müxtəlif millətlərin nümayəndələridir. Onların ermənilər üçün bir günahı var idi ki, erməni millətindən deyildilər.

1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən xüsusi tədqiqat komissiyası yaradılmışdır. Komissiya işə başlamışdır, ancaq 1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti süqut edəndən sonra bu komissiya təbii ki, öz işini dayandırmış və komissiyanın fəaliyyəti natamam olmuşdur. O vaxt, əlbəttə, bu faciə, bu qırğın haqqında dünyaya məlumat çatdırmaq imkanlarımız çox məhdud idi.

Memorial kompleksin ekspozisiyasında ulu öndər Heydər Əliyevin 1998-ci ildə imzaladığı sərəncam da öz əksini tapır. O sərəncamda göstərilir ki, Azərbaycan Xalq Cümhuriyyətinin qərarı ilə komissiya yaradılmışdır və komissiyanın görə bilmədiyi işləri artıq müstəqil Azərbaycan dövləti tamamlayır. İlk dəfə olaraq, 1998-ci ildə bu soyqırımına hüquqi və siyasi qiymət verilmişdir.

Sovet dövründə təbii ki, tarix təhrif edildiyi üçün bu həqiqətlər bizdən gizlədilirdi. Uzun illər Azərbaycan xalqının qanını axıdan quldurların da mənfur adları orada göstərilir, Şaumyan və onun kimiləri bizə qəhrəmanlar kimi təqdim edilirdi. Hesab edirəm ki, bu, böyük faciədir. Çünki uzun illər xalqımıza qarşı amansızlıqla vəhşilik törədən ünsürlər sovet tarixində qəhrəman kimi təqdim edilirdi, onların şərəfinə abidələr ucaldılırdı. Yalnız müstəqillik dövründə biz həqiqi ədaləti bərpa etdik. Gözəl şəhərimizi, Bakımızı o abidələrdən təmizlədik və bu gün o yerlərdə gözəl parklar, o cümlədən Sahil parkı yaradılıb. Yəni tarix, ədalət zəfər çaldı. Biz bu gün öz tariximizə qayıdırıq. Tarixin bütün məqamlarını bilirik, bilməliyik. Gənc nəsil də bilməlidir ki, xalqımız keçmişdə hansı fəlakətlərlə üz-üzə qalmışdır. Erməni faşizminə o vaxt düzgün qiymət verilmədiyi üçün sonra tarixin

müxtəlif dövrlərində erməni faşizmi öz yırtıcı sifətini nümayiş etdirmişdir.

İkinci dünya müharibəsi zamanı Hitlerin sərəncamında olan, ona qulluq edən erməni quldurları Ermənistanda qəhrəman kimi qəbul edilir, onların şərəfinə abidələr ucaldılır. Bu onu göstərir ki, müasir Ermənistan dövlətinin ideologiyası da faşizm üzərində qurulmuşdur. Hesab edirəm ki, erməni faşizmi Azərbaycan alimləri tərəfindən daha geniş şəkildə tədqiq edilməlidir. Hesab edirəm ki, tarixi paralellər əsasında çox böyük əsərlər yaradılmalıdır. Şadam ki, son illərdə, o cümlədən mənim təşəbbüsümlə alimlərimiz İrəvan xanlığı, bizim tarixi torpaqlarımız haqqında kifayət qədər dolğun və məzmunlu əsərlər yaratmışlar. Biz bu tarixi gənc nəsillərə də çatdırırıq. Məsələn, İrəvanın Ermənistanın paytaxtı elan olunmasının tarixi hesab edirəm ki, bir çoxlarına bəlli deyildi. Biz bu məsələni qaldıranda, tarixi faktlar əsasında bu məsələyə diqqət yetirəndə, artıq bunu həm Azərbaycanda, həm də dünyada bilirlər ki, İrəvanın Ermənistan dövlətinin paytaxtı elan edilməsi Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən verilmiş qərar əsasında olmuşdur. Ona görə hesab edirəm ki, tarixi həqiqətləri əks etdirən böyük elmi əsərlər yaradılmalıdır. Onların bir hissəsi artıq yaradılıbdır. Ancaq hesab edirəm ki, bu məsələyə daha da ciddi diqqət verməliyik. Ermənilərin bizim tarixi torpaqlarımıza köçürülməsi məsələləri hesab edirəm ki, Azərbaycan elmində kifayət qədər işıqlandırılmayıb. Biz hamımız yaxşı bilirik ki, Azərbaycanın ayrılmaz torpağı olan Dağlıq Qarabağa ermənilər XIX əsrin birinci yarısında Şərqi Anadoludan və İrandan köçürülmüşlər. Onlar orada məskən salmışlar və ondan sonra dinc Azərbaycan əhalisinə qarşı öz təxribatlarını başlamışlar. Ondan sonra Bakı soyqırımı, Quba soyqırımı, İkinci dünya müharibəsində erməni faşizminin törətdiyi cinayətlər və keçən əsrin sonlarında növbəti dəfə erməni faşizminin təzahürləri Azərbaycan tarix elmində geniş şəkildə tədqiq edilməli və sanballı əsərlər yaradılmalıdır.

Dediyim kimi, erməni faşizmi özünü bir daha keçən əsrin 80-ci illərinin sonlarında – 90-cı illərin əvvəllərində göstərmişdir. Biz o tarixi də yaxşı xatırlayırıq. Çünki ulu öndər Heydər Əliyevin sovet hakimiyyətinin rəhbərliyindən uzaqlaşdırılmasından 2 həftə sonra erməni millətçiləri Dağlıq Qarabağı Azərbaycandan ayırıb Ermənistana birləşdirilməsi haqqında məsələ qaldırmışlar. O vaxtkı sovet rəhbərliyi, ilk növbədə, o vaxtkı rəhbər Qorbaçov və onun ətrafında olan erməni millətçiləri Azərbaycan xalqına qarşı böyük cinayətlər törətmişlər. Qanlı Yanvar hadisələri bilavasitə Qorbaçovun əməlləridir. Ondan əvvəl və ondan sonra xalqımıza qarşı törədilən cinayətlər artıq tarixdə kifayət qədər öyrənilibdir. O vaxt Heydər Əliyev amili ermənilərin əl-qolunu bağlamışdı. Sovet dövründə – 1969-cu ilə qədər ermənilər dəfələrlə Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi ilə əlaqədar sovet hökumətinə müraciətlər etmişlər. Hətta rəsmi səviyyədə müraciətlər etmişlər. Ancaq Heydər Əliyevin qətiyyəti və çox ciddi etirazı buna imkan verməmişdir. Ondan sonra Heydər Əliyevin sovet hakimiyyətində fəaliyyəti dövrü başlamışdır. O vaxt da, əlbəttə, ermənilərin təxribat etmək üçün heç bir imkanları olmamışdır. 1987-ci ilin noyabrında – ulu öndər Heydər Əliyev vəzifədən gedəndən 2 həftə sonra bu məsələ qaldırıldı və demək olar ki, o vaxtdan azərbaycanlılara qarşı növbəti soyqırımı prosesi başlandı. Təxribatlar törədildi, sovet və dünya mətbuatında bu məsələ ilə bağlı yanlış və təhrif edilmiş rəy yaradıldı. Nəticədə 1992-ci ildə Xocalı soyqırımı törədildi. Xocalı soyqırımını törədənlər bu gün Ermənistan rəhbərliyində təmsil olunan adamlardır. Bu faciə dünyanın gözü qabağında baş verdi. Yəni biz bunu «erməni soyqırımı» mifi kimi, heç bir əsası olmayan mifologiya əsasında deyil, real faktlar əsasında görürük. Videomateriallar, fotoşəkillər, canlı şahidlərin ifadələri – bütün bunlar həqiqətdir və reallıqdır. Ancaq nədənsə bəziləri bunu görmək istəmir, bəziləri bu günə qədər də erməniləri qurban kimi təqdim etmək istəyirlər. Əlbəttə ki, bunun səbəbi var. Dünyada fəaliyyət göstərən erməni lobbisi və onun nəzarəti altında olan bəzi

riyakar və rüşvətxor siyasətçilər tarixi tamamilə təhrif edərək, bütün günahı Azərbaycanın üzərinə atmağa çalışırlar. Bu ədalətsizlik bu günə qədər davam edir. Xocalı soyqırımı zamanı 613 günahsız insan ermənilər tərəfindən vəhşicəsinə qətlə yetirilmişdir. Əgər burada uyuyan soydaşlarımız soyuq silahlarla və küt alətlərlə öldürülmüşlərsə, Xocalıda soydaşlarımız avtomatlarla, qumbaralarla öldürülmüşlər. Yüzlərlə insan itkin düşmüşdür. Xocalıda ermənilər tərəfindən 63 uşaq, 106 qadın öldürülmüşdür. Bu, misli görünməmiş vəhşilikdir.

Bu gün Azərbaycan dövləti və Azərbaycanda fəaliyyət göstərən ictimai qurumlar, ilk növbədə, Heydər Əliyev Fondu Xocalı soyqırımının dünyada soyqırımı kimi tanıdılmasında çox böyük işlər görür. Quba Soyqırımı Memorial Kompleksinin yaradılmasında da Heydər Əliyev Fondunun fəaliyyətini xüsusilə vurğulamaq istəyirəm. «Xocalıya ədalət!» kampaniyasının başlanması və uğurla davam etdirilməsində də Heydər Əliyev Fondu, bizim diaspor təşkilatlarımız və əlbəttə, Azərbaycan dövləti bir nöqtəyə vurur və artıq tədricən istədiyimizə nail oluruq. Artıq bir neçə ölkə rəsmi qaydada Xocalı soyqırımını soyqırımı kimi tanıyıb və bu proses davam etdirilir.

Gələcəkdə bu faciələrdən sığortalanmaq üçün erməni faşizminə dünya miqyasında mütləq layiqli qiymət verilməlidir. Ancaq əfsuslar olsun ki, ədalətsizlik bu günə qədər davam edir. Mən xatırlayıram ki, Azərbaycan zabitini – Ramil Səfərovu Vətənə qaytardığıma və azadlığa buraxdığıma görə mənə qarşı nə qədər əsassız ittihamlar səsləndi, nə qədər riyakar xarici siyasətçilər mənə qarşı hücumlar etdilər. Hətta Avropa Parlamenti bu məsələ ilə bağlı qətnamə qəbul etmişdir və mənim addımlarımı pisləmişdir. Mən bu gün də tam qətiyyətlə deyə bilərəm ki, Azərbaycan öz zabitini Vətənə qaytarmışdır, azadlığa buraxmışdır və ədaləti bərpa etmişdir. Ancaq baxın görün, buna görə dünya mətbuatında, müxtəlif beynəlxalq təşkilatlarda Azərbaycana qarşı nə qədər əsassız hücumlar edilmişdi.

Əlbəttə ki, bu hücumların heç bir təsiri ola bilməzdi. Çünki Azərbaycan dövlətinin iradəsinə, qərarlarına heç bir qüvvə təsir edə bilməz. Biz ədaləti bərpa etmişik və bundan sonra da öz siyasətimizdən dönməyəcəyik. Ancaq nə üçün bu məsələ ilə bağlı öz səslərini ucaldanlar bu gün Ermənistanda faşistlərə qoyulan abidələri görmürlər? Nə üçün terror aktları, o cümlədən Avropa ölkələrində bu aktları törədən erməni terrorçuları sərbəst buraxılır və Ermənistana qaytarılır, orada isə onlara qəhrəman kimi münasibət göstərilir? Nə üçün bunu görmürlər? Bu ədalətsizlik nə vaxta qədər davam edəcək? Bu işğal nə vaxta qədər davam edəcək? Beynəlxalq birlik tərəfindən tanınan torpaqlarımız artıq 20 ildir ki, işğal altındadır. Dağlıq Qarabağ Azərbaycanın əzəli, tarixi torpağıdır. Azərbaycan BMT-yə üzv olarkən vahid dövlət kimi üzv olmuşdur. Heç bir dövlət bizim ərazi bütövlüyümüzü şübhə altına almır. Nə üçün BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi icra edilmir? Bütün bu suallar cavabsız qalır. Biz bu suallara cavabları bilirik. Bu məsələnin həll olunmamasının səbəblərini bilirik və bunu açıq ifadə edirik. Ancaq bu suallar havada qalmamalıdır, bu ədalətsizliyə son qoyulmalıdır.

Bizim torpaqlarımız işğal altındadır, tarixi abidələrimiz, məscidlərimiz dağıdılıb, muzeylərimiz talan olunub, bütün şəhərlər yerlə yeksan edilib. Bu memorial kompleksdə Şamaxının görüntüləri əks olunub. Burada Şamaxı məscidinin – qədim müsəlman aləmində ən qədim məscidlərdən biri olan Şamaxı məscidinin yarıdağılmış vəziyyətdə olan şəkilləri göstərilir. Biz bu ilin may ayında Şamaxı Cümə məscidini yenidən bərpa etdik, 743-cü ildə tikilmişdir. Bu məscid bu gün yenidən dindarların üzünə açılmışdır. Soyqırımı törədildi, bütün tarixi abidələr dağıdıldı. Bax, Şamaxının bu memorial kompleksdə əks olunan dağılmış vəziyyətdə olan şəkilləri bu gün yenə də təkrarlanır. Bu gün Ağdam, Füzuli, Şuşa belə vəziyyətdədir və bunu edənlər ermənilərdir. Bunu edənlər bu gün özlərini mədəni millət kimi təqdim etmək istəyirlər. Ancaq bunu edənin bir adı var – vəhşi! Başqa ad ola bilməz.

Əfsuslar olsun ki, beynəlxalq hüquq normaları işləmir. Beynəlxalq təşkilatların qərarları kağızda qalır, ədalətsizlik davam edir. Belə olan halda, əlbəttə ki, güclənən Azərbaycan dövləti yalnız öz gücünə güvənməlidir və öz gücünə güvənir. Necə ki, bu memorial kompleksin son ekspozisiyasında əks olunduğu kimi, 95 il bundan əvvəl Qafqaz İslam Ordusunun fəaliyyəti və yerli qüvvələrlə birlikdə aparılan döyüşlər nəticəsində Bakı ermənilərdən təmizləndi. Gün gələcək, əgər beynəlxalq hüquq normaları bərpa olunmazsa və Ermənistan öz işğalçı siyasətini davam etdirərsə, ordumuz son sözünü deyəcəkdir. Bunu etmək üçün bu gün bizim gücümüz vardır.

Bu gün Azərbaycan Ordusu bu bölgənin – Cənubi Qafqazın ən güclü ordusudur. Bu gün Azərbaycan müstəqillik illərində bizim üçün yaradılan imkandan tam şəkildə istifadə edib. Əgər müstəqillik qazanılanda Ermənistan ilə Azərbaycan arasında iqtisadi və hərbi sahədə paritet var idisə, artıq bu paritetdən çoxdan əsər-əlamət qalmayıbdır. Son 10 il ərzində böyük bir yol keçmişik. 10 il bundan əvvəl Azərbaycanın və Ermənistanın dövlət büdcələri təxminən eyni səviyyədə idi. Bu gün bizim dövlət büdcəmiz Ermənistanınkından təxminən 10 dəfə çoxdur. Bizim təkcə hərbi məsələlərə xərclədiyimiz vəsait Ermənistanın bütün dövlət büdcəsindən təxminən 30–50 faiz artıqdır. Yəni biz bütün başqa parametrlər üzrə böyük üstünlük əldə etmişik – iqtisadi sahədə, siyasi sahədə, dünya birliyində oynadığımız rol baxımından. Bu gün Azərbaycan BMT Təhlükəsizlik Şurasının üzvüdür və dünya tərəfindən böyük dəstəyə malikdir. Bu gün biz artıq fəzaya çıxmışıq. Bizim peykimiz vardır. Bizim iqtisadi inkişafımız çox sürətlidir, o cümlədən, bax, bu zonada – Quba–Qusar zonasında son illərdə çox böyük işlər görülmüşdür. Şəhərlər, kəndlər abadlaşır, investisiya qoyulur. Bizim demoqrafik vəziyyətimiz çox müsbətdir. Artıq 9 milyon yarıma yaxın əhalimiz vardır.

Yəni bütün bu amillər bizim gücümüzü təsdiqləyir və düşünülmüş siyasətin nəticəsidir. Ermənistan isə artıq öz hərəkətləri və bəyanatları ilə açıq şəkildə etiraf edir ki, öz təhlükəsizliyini öz gücünə təmin edə bilmir. Biz bunu çoxdan

bilirdik. Hesab edirəm ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə məşğul olan bütün tərəflər bunu bilir. Ancaq bu gün Ermənistan məcburdur ki, özü bunu etiraf etsin. Bizim qarşımızda nə qədər aciz, nə qədər gücsüz olduğunu, qorxu içində yaşadığını etiraf etsin. Mən bir dəfə demişəm ki, erməni xalqı bizdən qorxmamalıdır, öz rəhbərliyindən qorxmalıdır. Qaniçən, yırtıcı, quldur, cəllad rəhbərliyindən qorxmalıdır ki, bu gün onlar öz xalqına divan tuturlar, öz xalqını gülləbaran edirlər. İndiki Ermənistan rəhbərliyi nə qədər çox hakimiyyətdə qalsa, Ermənistan bir o qədər də tez çökəcək və tarixi ədalət bərpa ediləcəkdir. Mən tam əminəm ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək. Bütün amillər – güclərin nisbəti, beynəlxalq, iqtisadi-hərbi amillər bunu göstərir. Sadəcə olaraq, vaxt gedir. Sadəcə olaraq, biz istəyirik ki, bu, tezliklə olsun. Ancaq bu, hərtərəfli və tam şəkildə olmalıdır. Azərbaycanın ərazi bütövlüyü tam şəkildə bərpa edilməlidir, Şuşada, Xankəndidə Azərbaycanın Dövlət bayrağı qaldırılmalıdır və gələcəkdə azərbaycanlılar bütün tarixi torpaqlarında yaşamalıdırlar. Bizim tarixi torpaqlarımız İrəvan xanlığıdır, Göyçə, Zəngəzur mahallarıdır. Vaxt gələcək biz orada da yaşayacağıq. Mən buna inanıram, buna əminəm. Buna nail olmaq üçün hər birimiz öz səylərimizi qoymalıyıq, hər birimiz öz işimizlə o müqəddəs günü yaxınlaşdırmalıyıq.

Bu gün tarixi gündür. Bir daha demək istəyirəm ki, Quba Soyqırımı Abidə-Memorial Kompleksinin yaradılması tarixi məna daşıyır. İlk dəfə olaraq Azərbaycanda belə memorial kompleks yaradılır və bu yaddaş daim bizim qəlbimizdə yaşayacaqdır.

Allah bütün şəhidlərimizə rəhmət etsin!

**İsa Şirinov** (*rayon sakini*): Möhtərəm cənab Prezident!

Mən Sizi Quba ictimaiyyəti adından salamlayıram, qədim Quba torpağına «Xoş gəlmisiniz!» – deyirəm.

Azərbaycan xalqının gələcək nəsillərinin milli yaddaşının qorunmasına və soyqırımı qurbanlarının xatirəsinin əbədiləşdirilməsinə xidmət edən tarixi bir hadisənin şahidi oluruq. Bu

gün Qubamızda Soyqırımı Memorial Kompleksinin açılışında iştirak edirik. 2007-ci ilin aprelində Quba şəhər stadionunda, bax, bu ərazidə yenidənqurma işləri aparılarkən kütləvi məzarlıq aşkar edilmişdir. Bundan sonra Siz, cənab Prezident, burada soyqırımına aid böyük kompleksin tikilməsi barədə sərəncam imzaladınız. Gördüyümüz bu kompleks qısa bir müddətdə hazır oldu. İnanırıq ki, bu kompleksin xarici vətəndaşlara, xaricdən gələn qonaqlarımıza soyqırımı, ermənilərin başımıza gətirdiyi faciələr barədə mühüm məlumatların çatdırılmasında böyük xidmətləri olacaqdır.

Möhtərəm cənab Prezident, uzun illər yaddaşıma həkk olunmuş bir xatirəni Sizə danışmaq istəyirəm. Hələ mən kiçik yaşlarımda olarkən qonşumuzda yaşlı Adil kişi var idi. O bir gün mənə qorxa-qorxa, pıçıltı ilə dedi ki, bala, ermənilər bizim düşmənimizdir. Xalqımızın başına gələn bütün bu bəlalar onların məkrli siyasətinin nəticəsidir. Mən təəccübləndim, çünki bizə belə bir şey öyrətməmişdilər. Mənim təəccübləndiyimi görən Adil kişi bu hadisələrlə əlaqədar daha böyük başqa faciəli hadisəni danışdı. O dedi ki, Qubaya gələn quldur erməni dəstəsinin başında Hamazasp adında bir qaniçən erməni dururdu. Soyqırımının son günləri idi. O, Qubanın mötəbər adamlarını, din xadimlərini Cümə məscidinin həyətinə toplayaraq dedi: «Mən buraya sovet hakimiyyəti qurmağa gəlməmişəm. Mən buraya Qarabağda öldürülən ermənilərin qisasını almağa gəlmişəm. Mənə tapşırıblar ki, Xəzər dənizindən Şahdağa qədər olan ərazidə müsəlmanları qırım». Adil kişi daha başqa faciəli hadisələri də mənə danışdı. Çox qəribə idi, həm də xahiş etdi ki, bu barədə mən heç kimə heç nə deməyim. Həmin söhbətdən, cənab Prezident, 60 ildən artıq vaxt keçir. İndi mənim 76 yaşım var.

Möhtərəm cənab Prezident, həyəcansız danışmaq olmur. Biz artıq müstəqil dövlətə malikik və bizim Sizin kimi aqil bir Prezidentimiz var. Müstəqilliyimizin bizə bəxş etdiyi töhfələrdən biri də tarixi həqiqətlərimizi, tariximizi obyektiv

şəkildə araşdırmaq və bu faktları insanlara olduğu kimi çatdırmaqdan ibarətdir.

Bu gün Sizin açılışını etdiyiniz bu memorial abidə özündə möhtəşəm acı bir tarixi yaşadır. Belə ki, 1918-ci ildə ermənilər Quba rayonunda, Quba ərazisində minlərlə günahsız uşağı, qadını, qocanı vəhşicəsinə qətlə yetirmiş, daha sonra ölənləri, yaralıları, hətta diriləri belə, kiçik dərələrdə basdırmışlar. O dövrdə qəzanın mərkəzində 2 min, ətraf kəndlərlə birlikdə 16 min insan qətlə yetirilmişdir. Böyük bir faciədir. Azərbaycanlılarla yanaşı, soyqırımına bizimlə qardaşcasına yaşayan yəhudilər, ləzgilər, tatlar və digər xalqlar da məruz qalmışlar. Ermənilər o vaxt insanları kütləvi halda qırıblar.

Cənab Prezident, Siz bu tarixi həqiqətlərin unudulmamasına, daim yaddaşlarda qalmasına çalışırsınız. Bakının Xətai rayonu ərazisində Xocalı soyqırımına həsr edilmiş abidə-kompleksinin inşası barədə göstərişiniz bunun bariz nümunəsidir. Biz bunu alqışlayırıq. Bu Sizin tariximizə olan münasibətinizdir, gənc nəslimizin vətənpərvərlik ruhunda tərbiyə olunması barədə düşüncələrinizin təzahürüdür. Mən də yaşlı nəslin nümayəndəsi kimi, gənclərimizə tövsiyə edirəm ki, xalqımızın başına gələn bu müsibətləri unutmasınlar, ondan ibrət dərsi götürsünlər.

Möhtərəm Prezident, biz əminik ki, xalqımız bir daha nə 1905-ci il, nə 1918-ci il, nə Xocalı, nə də digər soyqırımları ilə rastlaşmayacaqdır. Azərbaycanlıların başına dəhşətlər gətirmiş bu qəddar düşmənlərimizdən torpaqlarımızı, Qarabağımızı azad edəcəksiniz. Çünki bu gün Azərbaycanımız qüdrətli, güclü bir məmləkətə çevrilib. Ölkəmiz tərəqqi yolunu inamla addımlayır, inkişafının zirvəsinə doğru gedir. Biz qubalılar bu tərəqqini, inkişafı daim görmək, bunları Sizinlə birlikdə yaşamaq istəyirik.

Cənab Prezident, mənim ürəyimdə bir fikir var, onu burada demək istəyirəm. Cənab Prezident, Siz «Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam» – deyən ulu öndərin oğlusunuz. Siz «Mən ömrünün qalan hissəsini xalqıma bağışlayıram» – deyən ulu öndərin oğlusunuz.

Sizin fəaliyyətinizdə ulu öndərin bu proqramları öz əksini tapmaqdadır. Siz fəaliyyətə başlayarkən «Mən hər bir azərbaycanlının Prezidenti olacağam» – dediniz. Siz buna nail oldunuz. Bu gün Siz hər bir azərbaycanlının Prezidentisiniz.

Cənab Prezident, Sizə uzun ömür, cansağlığı arzu edirəm. Allah Sizi qorusun!

**B o r i s S i m a n d u y e v** *(Qırmızı Qəsəbə Dağ yəhudiləri dini icmasının sədri):* Möhtərəm cənab Prezident!

İcazə verin, ölkəmizin dilbər guşələrindən biri olan bağlar diyarı Qubada Qırmızı Qəsəbə əhalisi adından Sizi salamlayım və Sizə «Xoş gəlmisiniz!» – deyim.

Bu kütləvi məzarlıq erməni vandalizminin dəhşətlərini əks etdirən mühüm tarixi bir ərazidir. Ermənilər tarixboyu azərbaycanlılara qarşı çoxlu qanlı faciələr törətmişlər. Qısa vaxt ərzində belə bir möhtəşəm abidə-kompleksini ucaltmaqla Siz bütün dünyaya ermənilərin əsl simasını nümayiş etdirirsiniz. Ermənilər hər zaman tarixi saxtalaşdırmağa, bu yollarla öz iç üzlərini gizlətməyə çalışıblar. Hətta onu da deyim ki, XX əsrin əvvəllərində azərbaycanlılara qarşı törədilmiş qırğınlar ermənilər üçün ən əlverişli məqsədə çatmaq üsulu idi. Torpaqlara birbaşa yiyələnmək niyyətinin əməli cəhdləri tarixi, hüquqi əsasa malik olmadığından onlar bu işləri yalnız fiziki müdaxilə ilə həyata keçirməyə başladılar.

Sizin apardığınız müdrik xarici siyasət nəticəsində artıq dünyanın bir sıra ölkələri Azərbaycan həqiqətlərini obyektiv öyrənməyə və ermənilərin mahiyyətini anlamağa başlayıblar. Bir neçə xarici dövlətdə tariximizin ən qanlı səhifələrindən biri olan Xocalı soyqırımı rəsmi olaraq tanınıb. Həmin dövlətlərin xalqları dərdimizə, ağrımıza şərik çıxıblar. Bu kompleks də tariximizin dünyaya çatdırılmasında böyük rol oynayacaqdır. Məhz Azərbaycan tarixi üçün mühüm əhəmiyyət kəsb edən bu böyük abidə-kompleksinin inşasına görə Sizə rayonumuzun bütün əhalisi, Qırmızı Qəsəbə Dağ yəhudiləri dini icması adından dərin təşəkkürümüzü bildirirəm.

Möhtərəm cənab Prezident! 1918-ci ildə ermənilər Azərbaycanın müxtəlif bölgələrində qanlı qırğınlar törətmişlər, soyqırımı siyasəti həyata keçirməyə başlamışlar. Bu soyqırımı Quba qəzasında da xüsusi vəhşiliklə həyata keçirilmişdir. Ermənilər uşaq, qadın, qoca tanımadan minlərlə insanı deyiləsi belə mümkün olmayan qəddar üsullarla qətlə yetirmişlər, yüzlərlə yaşayış məntəqəmizi xarabazara çevirmişlər. Həmin dəhşətli qırğınlar nəticəsində Qubada yaşayan digər xalqların nümayəndələri, o cümlədən biz dağ yəhudiləri də soyqırımına məruz qalmışıq. Biz həmin hadisələr barədə böyüklərimizdən çoxlu söhbətlər eşitmişik. Nə qədər insanlıqdan uzaq olasan ki, belə vəhşiliklərə əl atasan! Bu ancaq ermənilərə xas olan keyfiyyətlərdir.

Fürsətdən istifadə edərək, bir daha dünya xalqlarını ermənilərin xislətini yaxşı öyrənməyə və onların törətdikləri vəhşiliklərə hüquqi qiymət verməyə çağırıram.

Möhtərəm cənab Prezident, Siz ölkəmizdə yaşayan bütün xalqlara olduğu kimi, dağ yəhudilərinə də həmişə yüksək diqqət və qayğı göstərmisiniz. Regionumuza hər səfəriniz zamanı Qırmızı Qəsəbəyə gəlirsiniz, sakinlərlə səmimi söhbətlər aparırsınız, problemlərimizlə maraqlanırsınız, bizə bütün köməyi göstərirsiniz.

Elə bu yaxınlarda Siz 80 illik yubileyim münasibətilə məni ölkəmizin ən yüksək dövlət mükafatlarından biri olan «Şöhrət» ordeni ilə təltif etdiniz. Sizi əmin edirəm ki, göstərdiyiniz böyük etimadı doğrultmaq üçün bundan sonra da var gücümlə çalışacağam.

Təkzibedilməz bir həqiqətdir ki, ölkəmiz gündən-günə tərəqqi edir, dünyada qüdrətimiz getdikcə artır, əhalimizin güzəranı getdikcə yaxşılaşır. Bununla yanaşı, ölkəmizdə bütün xalqlar bərabər şəkildə mehriban bir ailə kimi yaşayırlar. Bunun nəticəsində Azərbaycan bütün dünyada tolerantlıq, xalqlar dostluğu rəmzinə çevrilmişdir.

Möhtərəm cənab Prezident, uzun ömür yaşayan bir insan kimi, xoşbəxtəm ki, həyatım bu dövrə təsadüf edir. Çünki

Azərbaycanın inanılmaz inkişafını gördüm. Qubanın yeni simasını, Qırmızı Qəsəbənin yeni görkəmini gördüm. Bunun davamını görmək istəyirəm. Sizə ölkəmizin yüksəlişi naminə çətin və şərəfli işinizdə yeni-yeni uğurlar arzulayırıq. Ulu Tanrı köməyiniz olsun.

**Q o r x m a z  M u r a d o v** (*Qusar rayon sakini*): Möhtərəm cənab Prezident! Əvvəlcə Sizi bütün qusarlılar adından salamlayır və Sizə «Xoş gəlmisiniz!» – deyirəm. Bədnam erməni daşnaklarının Azərbaycanda soyqırımı aktları təkcə Azərbaycan türklərinə qarşı deyil, həm də Azərbaycanda etnik baxımdan zəngin olan şimal bölgəsinin bütün xalqlarına – ləzgilərə, buduqlara, tatlara, yəhudilərə, qırızlara qarşı da törədilmişdir. 1918-ci ildə erməni daşnaklarının və bolşeviklərin birləşmiş dəstələrinə qarşı şimal bölgəsində gedən döyüşlərdə təbii ki, həmin xalqların nümayəndələri də böyük fədakarlıqlar göstərmişlər. Bizim tariximiz yalnız faciələr tarixi deyil, həm də qəhrəmanlıqlar tarixidir. 1918-ci il mayın 18-də Quba rayonunun Digah kəndi yaxınlığında «Şimi dərəsi» adlanan yerdə ermənilər Azərbaycan xalqına köməyə gəlmiş ləzgilərin müqaviməti ilə rastlaşmışlar. Döyüş bir neçə gün davam etmiş və güclü xalq müqavimətinə rast gələn ermənilər böyük tələfatla məğlub olaraq, geri çəkilmişlər.

Möhtərəm cənab Prezident, igid oğullarımızın qanı ilə suvarılmış həmin ərazi o vaxtdan başlayaraq «Qanlı dərə» adlandırılmışdı. İndiki gənc nəsil ulu əcdadlarımızın, babalarımızın qəhrəmanlıqlarını unutmur, Azərbaycan və ləzgi xalqları arasındakı möhkəm dostluq əlaqələrini yaşadaraq nəsildən-nəslə ötürürlər.

Cənab Prezident, Qusarda 31 mart soyqırımı artıq 4 ildir ki, yeni bir məkanda – 2009-cu ilin sentyabrında açılışında Sizin də iştirak etdiyiniz «İgid atlı» abidəsi önündə qeyd olunur. Bu abidə həmin döyüşlərdə qəhrəmanlıq göstərərək qələbə çalan, eləcə də şəhid olanların xatirəsinə böyük hörmət və ehtiramınızın ifadəsidir və daim bizə babalarımızın qəhrəmanlıqlarla dolu mübarizə yolunu xatırladır. Həmin illərin

hadisələri xalqımız, tariximiz üçün böyük qəhrəmanlıq, igidlik səhifələridir. Biz – ölkənin bütün xalqları və millətləri birlik, ümumi düşmənə qarşı dəyanət nümayiş etdirib qələbə çalmağı bacarmışıq və əminəm ki, bundan sonra da bacaracağıq.

Möhtərəm cənab Prezident, ürəyim doludur. Qusardan da danışmaq istəyirəm. Uzun illər həsrətində olduğumuz arzular həyata keçir. Xəyallarımız gerçəkləşir. Bu gün Qusar özünün ən xoş çağlarını yaşayır, abad bir diyara, möhtəşəm turizm mərkəzinə çevrilir. Son bir neçə ildə salınan park və xiyabanlar, bir-birinin ardınca tikilərək istifadəyə verilən təhsil, səhiyyə və mədəniyyət obyektləri, sadalamaqla bitməyən tikinti və quruculuq işləri Qusarın görkəmini tamamilə dəyişib. Hazırda şəhərimizin küçə və meydanları nura qərq olub. Qabaqlar gediş-gəlişi çox çətin olan ucqar dağ kəndlərimizə rahat asfalt yollar çəkilib, körpülər salınıb. Kənd evlərimizin çoxunda mavi alov şölələnir.

Möhtərəm cənab Prezident, qarşısında durduğumuz bu memorial kompleks görünüşünə görə nadir bir abidədir və hər birimiz üçün həm acı xatirədir, həm də böyük fəxrdir. Mədəniyyətimizin və qəhrəmanlıq tariximizin inkişafına misilsiz töhfə verəcək bu abidə təbii ki, yetişməkdə olan gənc nəslin hərtərəfli və ahəngdar inkişafında, gənclərimizin mənəviyyatca zənginləşməsində, onların milli-mədəni və mənəvi dəyərlər uğrunda tərbiyəsində böyük rol oynayacaqdır. Gələcəyimizə, yetişməkdə olan gənc nəslə göstərdiyiniz diqqət və qayğıya görə Sizə öz minnətdarlığımızı bildiririk. Sizi bütün qusarlılar adından əmin etmək istəyirik ki, göstərilən bu qayğıya cavab olaraq Vətənə bağlılığımızı hər zaman öz əməli işlərimizlə sübuta yetirəcəyik.

Möhtərəm cənab Prezident, biz var gücümüzlə çalışacağıq ki, bu ənənəni – rəşadət, sədaqət, dostluq, qardaşlıq ənənəsini bundan sonra da, gələcəkdə də davam etdirək və ən böyük qələbəmizi Qarabağda qeyd edək. Allah işinizi avand etsin.

* * *

*Sonra prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva soyqırımı qurbanlarının xatirəsinə ağac əkdilər.*

## Qubanın su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsinin başa çatdırılması mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva sentyabrın 18-də Quba şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsinin başa çatdırılması münasibətilə təşkil olunan mərasimdə iştirak etmişlər.*

*«Azərsu» Açıq Səhmdar Cəmiyyətinin prezidenti Qorxmaz Hüseynov dövlətimizin başçısına məlumat verdi ki, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində bölgələrdə əhalinin içməli su təchizatının yaxşılaşdırılması istiqamətində tədbirlər davam etdirilir. Proqram çərçivəsində həyata keçirilən «Quba şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması» layihəsi də 2035-ci ilədək perspektiv inkişaf nəzərə alınmaqla, Quba şəhəri və rayonun Qırmızı Qəsəbə, Mirzəməmmədkənd və Timiryazev kəndlərində 46 min sakinin su təchizatı və kanalizasiya xidmətlərinin əsaslı şəkildə yaxşılaşdırılmasına hesablanmışdır. Layihə çərçivəsində Quba Sukanal İdarəsi üçün müasir tələblərə cavab verən yeni inzibati bina tikilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva idarənin binasında yaradılmış şəraitlə tanış oldular.*

*Məlumat verildi ki, ümumi sahəsi 1150 kvadratmetr olan binada müasir tələblərə cavab verən «SCADA» idarəetmə mərkəzi yaradılıb. Bu istiqamətdə həyata keçirilən tədbirlərdən biri də Coğrafi İnformasiya Sisteminin yaradılmasıdır. Quba şəhərində də tətbiq olunmuş bu sistem sayəsində gələcəkdə bütün şəbəkə infrastrukturu coğrafi məlumatlar bazasına əsaslanan rəqəmsal xəritələrin tətbiqi ilə idarə ediləcəkdir. Bu sistem dünyanın 2 nüfuzlu müsabiqəsinin qalibi olmuşdur.*

*Diqqətə çatdırıldı ki, Quba şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi dövlət büdcəsi*

hesabına maliyyələşdirilmiş və işlər 22 ay müddətində başa çatdırılmışdır. Layihəyə əsasən, Quba şəhərini və ətraf yaşayış məntəqələrini fasiləsiz və keyfiyyətli içməli su ilə təmin etmək üçün su mənbəyi Qudyalçay seçilmişdir. Suyun özüaxımlı nəqli nəzərə alınaraq şəhərin şimal hissəsində Qudyalçayın məcrasında 2435 metr uzunluğunda drenaj tipli suqəbuledici qurğu tikilib. Su mənbəyindən paylayıcı anbara qədər ümumi uzunluğu 6450 metr olan 2 paralel magistral su xətti çəkilib. Əhalini fasiləsiz su ilə təmin etmək üçün Quba şəhərində relyef baxımından ən yüksək ərazidə ümumi tutumu 14 min kubmetr olan 4 anbar tikilib. Layihə çərçivəsində Quba şəhərində ümumi uzunluğu 190 kilometr olan paylayıcı su şəbəkəsi yaradılıb, 9525 ünvana ev birləşmələri verilib, 8900 abunəçi «smart-kart» sayğacı ilə təmin olunubdur. Layihəyə uyğun olaraq Quba şəhərində 216 kilometr uzunluğunda kanalizasiya şəbəkəsi yaradılıb və bütün ünvanlar şəbəkəyə qoşulubdur. Hazırda şəhərdə toplanan tullantı suları mövcud kollektorlar vasitəsilə axıdılır. Gələcəkdə tullantı suları Xaçmaz şəhəri yaxınlığında inşa ediləcək, sutəmizləyici qurğuya ötürüləcəkdir.

Prezident İlham Əliyevə «SCADA» sistemi barədə də məlumat verildi. Bildirildi ki, su təchizatı və kanalizasiya sistemlərinin vahid mərkəzdən idarə edilməsi üçün yaradılmış sistem vasitəsilə suyun mənbədən istehlakçıyadək ötürülməsi onlayn rejimdə tənzimlənir. Bu sistem vasitəsilə anbarlarda suyun həcmi, siyirtmələrin işçi vəziyyəti, anbar çıxışlarında və şəbəkədəki təzyiq, anbarlardakı ehtiyatın həcmi avtomatik idarə olunur. Eyni zamanda, xətlərdə baş verən qəza hallarının koordinatları qeydə alınır, problemin operativ aradan qaldırılması təmin edilir. Yeni sistem qəza aradan qaldırılan müddətdə su təchizatında fasilə verilən əraziləri də dərhal müəyyən edir. «Azərsu» ASC tərəfindən su təchizatı və kanalizasiya sistemlərinin istismarında ən müasir sistem tətbiq edilir. Bu sırada mühüm yer tutan Coğrafi İnformasiya Sistemi coğrafi məlumat bazası rolunu oynayır. Bu sistem «Azərsu» ASC-də istifadə olunan Müştəri Məlumat, «SCADA», Elektron

*Kargüzarlıq, Mühafizə və Təhlükəsizlik Sistemləri kimi, digər məlumat bazaları ilə inteqrasiya olunaraq abonentlərin xəritə üzərində təsviri, «qaynar xətt»ə daxil olan müraciətlərin operativ şəkildə idarə olunması, baş verən qəzalara dərhal müdaxilə edilməsi və aradan qaldırılmasına nəzarət, su və kanalizasiya infrastrukturunda olan hər bir obyekt haqqında ətraflı məlumatın əldə edilməsinə şərait yaradır.*

*Sonra prezident İlham Əliyev şəbəkəyə suyun verilməsini bildirən düyməni basdı.*

*Bununla da Quba şəhərinin 24 saat fasiləsiz su ilə təmin olunması prosesi uğurla yerinə yetirildi.*

*Diqqətə çatdırıldı ki, idarənin binasında müasir tipli yeni laboratoriya da qurulub. Burada içməli suyun vacib 14 parametri öyrəniləcəkdir. Daha geniş və dəqiq analizlərin aparılması zərurəti yarandıqda nümunələr xüsusi təyinatlı maşınlarda Bakıdakı Mərkəzi Laboratoriyaya göndəriləcəkdir. İdarənin maddi-texniki bazasının gücləndirilməsi məqsədilə 11 nəqliyyat vasitəsi və xüsusi texnika alınmışdır.*

## Quba Rayon İcra Hakimiyyətinin yeni inzibati binasının açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva sentyabrın 18-də Quba Rayon İcra Hakimiyyətinin yeni inzibati binasının açılışında iştirak etmişlər.*

*Dövlətimizin başçısına və xanımına məlumat verildi ki, müasir memarlıq üslubunda inşa olunan bina şəhərin gözəlliyini daha da artırır. Üçmərtəbəli bina bütün lazımi avadanlıq və sistemlərlə təchiz edilmişdir.*

*Diqqətə çatdırıldı ki, Quba Rayon İcra Hakimiyyətinin hazırda yerləşdiyi bina 1959-cu ildə inşa olunmuşdur. Bina təmir olunsa da iş şəraiti üçün əlverişli deyildi. Yeni bina Heydər Əliyev adına Mədəniyyət və istirahət parkının ərazisində yerləşir. Binanın inşası ötən ilin avqustunda başlanılmış,*

*bu ilin sentyabrında başa çatdırılmışdır. Tikinti işləri ən yüksək səviyyədə aparılmışdır.*

*Foyedə ölkəmizin inkişafında böyük xidmətləri olmuş ulu öndər Heydər Əliyevin büstü qoyulmuş, ümummilli liderin ictimai-siyasi fəaliyyətini əks etdirən fotolardan ibarət stend quraşdırılmışdır. Burada ulu öndərin müxtəlif illərdə Quba rayonuna səfərlərini əks etdirən fotolar xüsusilə böyük maraq doğurur. Binanın interyeri zövqlə tərtib olunub. Ümumilikdə binada 35 iş otağı vardır. Geniş otaqlarda hər cür şərait yaradılıb. Ən müasir tələblər səviyyəsində qurulan 250 yerlik akt zalı müasir səs sistemi ilə təchiz olunub. Burada rayonun ictimai-siyasi həyatı ilə əlaqədar müxtəlif tədbirlərin keçirilməsi mümkündür. Binada müasir avadanlığın quraşdırıldığı 50 nəfərlik yeməkxana da fəaliyyət göstərir. Eyni zamanda burada vətəndaşların qəbulunu operativ və səmərəli həyata keçirmək üçün geniş imkanları olan ayrıca otaq da yaradılıb.*

*Prezident İlham Əliyev və Mehriban xanım Əliyeva inzibati binanın operativ idarəetmə mərkəzi ilə tanış oldular. Mərkəzdə rayonun icra nümayəndəlikləri ilə birbaşa canlı bağlantı yaratmaq mümkündür.*

*Konfrans zalı ilə tanış olan dövlətimizin başçısına məlumat verildi ki, 25 yerlik zal müasir tələblərə cavab verir.*

*Memarlıq və tikinti şöbəsində yaradılan şəraitlə tanışlıq zamanı prezident İlham Əliyevə Quba şəhərinin baş planı, rayonun elektron xəritəsi və görülən işlərlə bağlı geniş məlumat verildi.*

*Prezident İlham Əliyev görülən işlərdən razılığını bildirdi, tapşırıq və tövsiyələrini verdi.*

## Gənclər Mərkəzinin açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 18-də Quba rayonuna səfəri çərçivəsində Gənclər Mərkəzinin açılışında iştirak etmişdir.*

Ölkəmizdə gənclər siyasətinin formalaşması istiqamətində çoxşaxəli tədbirlər görülür. Ümummilli lider Heydər Əliyevin adı ilə bağlı olan dövlət gənclər siyasəti 2003-cü ildən başlayaraq Azərbaycanda uğurlu nəticələrlə yadda qalmışdır. Gənclərlə bağlı dövlət proqramları bu proseslərdə çox mühüm rol oynamışdır. Hazırda «Azərbaycan gəncliyi 2011–2015-ci illərdə» Dövlət Proqramı uğurla həyata keçirilir. Bu gün ölkəmizdə gənclərin vətənpərvərlik, azərbaycançılıq və dövlətçilik prinsipləri, həmçinin tarixi-mədəni keçmişimizə, milli-mənəvi dəyərlərə rəğbət ruhunda tərbiyə olunması prioritet istiqamətlərdəndir. Əsas məqsəd gənclərin cəmiyyətin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında yaxından iştirakına stimul verməkdir. Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, gənclərin intellektual və yaradıcı potensialının üzə çıxarılması, xüsusilə regionlarda yaşayan gənclərin fəallığının artırılması istiqamətində məqsədyönlü layihə və proqramlar həyata keçirilir. Ölkəmizin bölgələrində müasir tələblərə cavab verən sosial infrastruktur obyektləri və gənclər mərkəzləri yaradılır. Quba rayonunda da Gənclər Mərkəzinin yaradılması bu məqsədə xidmət edir.

Azərbaycanın birinci xanımına gül dəstəsi verildi.

Dövlətimizin başçısı mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi. Məlumat verildi ki, Heydər Əliyev Fondunun təşəbbüsü ilə tikilən binanın inşası bir il ərzində həyata keçirilmişdir. Quba şəhərinin Heydər Əliyev adına Mədəniyyət və istirahət parkında gənclərin asudə vaxtlarının səmərəli təşkili məqsədilə inşa edilən mərkəzin binası üçmərtəbəlidir. Bu bina respublikamızdakı ən böyük gənclər mərkəzlərindən biridir.

Mərkəzin foyesində ulu öndər Heydər Əliyevin ictimai-siyasi fəaliyyətinin müxtəlif məqamlarını, həmçinin gənclərlə görüşlərini əks etdirən fotolardan ibarət guşələr yaradılmışdır. Burada, həmçinin gənclərə daim diqqət göstərən ümummilli lider Heydər Əliyevin büstü qoyulmuşdur.

Prezident İlham Əliyev mərkəzin 250 yerlik akt zalı ilə tanış oldu. Geniş və işıqlı zalda gənclər üçün rayon və respublika

*səviyyəli tədbirlərin, konfransların və iclasların keçirilməsi nəzərdə tutulur. Mərkəzdə gənclər kafesi və karaoke-bar fəaliyyət göstərəcəkdir. Gənclər Mərkəzində kompüter bilikləri və xarici dil üzrə xüsusi kursların təşkili də planlaşdırılır. Əsas məqsəd yeniyetmələr arasında elmi-texniki biliklərin təbliği, onların elmi-yaradıcı təşəbbüslərinin artırılması, bu sahədə istedadlı gənclərin üzə çıxarılmasıdır. Binadakı tennis və bilyard zalları da gənclərin asudə vaxtlarının səmərəli keçməsinə şərait yaradacaqdır. Mərkəzdəki şahmat otağı bütün lazımi avadanlıqla təchiz olunub. Rəsm və xalçaçılıq dərnəklərində gənclər bu sənətlərin sirlərini öyrənəcəklər. Burada, həmçinin onların əl işləri sərgilənəcəkdir. Mərkəzdə gənclərin müasir texnoloji yeniliklərlə yaxından tanış olmalarına, onların bilik və bacarıqlarının inkişaf etdirilməsinə yönələn kurslar təşkil ediləcəkdir. Bir sözlə, mərkəz gənclərin vaxtlarının səmərəli təşkilində, onların ictimai fəallığının yüksəldilməsində mühüm rol oynayacaqdır.*

*Mərkəzlə tanışlıqdan sonra prezident İlham Əliyev tapşırıq və tövsiyələrini verdi.*

## Heydər Əliyev adına Mədəniyyət və istirahət parkında inşa olunmuş «Yaşıl teatr»ın açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva sentyabrın 18-də Qubada Heydər Əliyev adına Mədəniyyət və istirahət parkında inşa olunmuş «Yaşıl teatr»ın açılışında iştirak etmişlər.*

*Mehriban xanım Əliyevaya gül dəstəsi təqdim olundu.*

*Azərbaycan Prezidenti «Yaşıl teatr»ın rəmzi açılışını bildirən lenti kəsdi.*

*Məlumat verildi ki, Heydər Əliyev Fondunun təşəbbüsü ilə həm respublika, həm də rayon səviyyəli mədəni-kütləvi tədbirlərin keçirilməsi məqsədilə yaradılan teatrın tikintisinə bu ilin əvvəlində başlanılmışdır. Teatrın tamaşa zalı 1000 nə-*

*fərlikdir. «Yaşıl teatr»da ən son texnologiyalara əsaslanan səs və işıq sistemləri qurulmuşdur.*

*Azərbaycan Prezidentinə və xanımına Heydər Əliyev adına parkda inşa olunmuş Bayraq kompleksi barədə də məlumat verildi.*

*Bildirildi ki, paytaxt Bakı ilə yanaşı, ölkəmizin bölgələrində yaradılan bayraq meydanları dövlət atributlarımıza olan sevgi və hörmətin göstəricisidir. Quba rayonundakı Bayraq kompleksi də bu baxımdan mühüm əhəmiyyət kəsb edir. Buradakı bayraq dirəyinin hündürlüyü 78 metrdir.*

*Qeyd olundu ki, Heydər Əliyev adına Mədəniyyət və istirahət parkında Uşaq Əyləncə Mərkəzi də inşa edilib. Ümumi sahəsi 480 kvadratmetr olan kafedə yay və qış zalları fəaliyyət göstərəcəkdir.*

## Qırmızı Qəsəbədə yeni salınmış Heydər bağında yaradılan şəraitlə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 18-də Qubanın Qırmızı Qəsəbəsində yeni salınmış Heydər bağında yaradılan şəraitlə tanış olmuşdur.*

*Məlumat verildi ki, Qırmızı Qəsəbədə Heydər bağı Azər baycanda son dövrlərdə aparılan geniş abadlıq-quruculuq işlərinin bütün bölgələri tam əhatə etməsinin əyani göstəricisidir. Belə istirahət guşələrinin respublikanın ən ucqar qəsəbələrində yaradılması sakinlərin asudə vaxtlarının səmərəli təşkilinə xidmət edir. Azərbaycan dövlətinin həyata keçirdiyi uğurlu sosial siyasət bu gün respublikanın istənilən bölgəsində öz bəhrəsini verir.*

*Ən müasir tələblər səviyyəsində salınmış istirahət məkanında xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsi ucaldılmışdır. Mərkəzində fəvvarə quraşdırılmış bağın ərazisi 6400 kvadratmetr olmaqla, gəzinti hissəsindən və yaşıllıq zolağından ibarətdir. Heydər bağında geniş abadlıq-quruculuq işləri görülmüş, yaşıllıq zolaqları salınmış, oturacaqlar qoyul-*

*muşdur. Burada balacaların da istirahəti diqqət mərkəzində saxlanılmış, onlar üçün yaradılan guşədə müxtəlif attraksionlar və qurğular quraşdırılmışdır. Bağın ərazisində üçmərtəbəli qonaq evi, kafe, çayxana, ağsaqqallar klubu mövcuddur. Bağ müasir işıqlandırma sistemi ilə təchiz olunmuşdur.*

*Heydər bağı ilə tanışlıqdan sonra Azərbaycan Prezidenti Qırmızı Qəsəbənin sakinləri ilə görüşdü.*

**İ l h a m Ə l i y e v:** Sizi ürəkdən salamlayıram. Gözəl park yaradılıb. Sizi təbrik edirəm.

**B o r i s S i m a n d u y e v** *(Qırmızı Qəsəbə Dağ yəhudiləri dini icmasının sədri):* Cənab Prezident, çox sağ olun. Sizin yolunuzu səbirsizliklə gözləyən Qırmızı Qəsəbəyə xoş gəlmisiniz, səfa gətirmisiniz! Gələn ayaqlarınız var olsun! Sizin buraya gəlişiniz bizim üçün həmişə toy-bayram olur. Gəlişinizlə bizə sevinc gətirirsiniz. Bu gəlişinizin əks-sədası hələ sonralar eşidiləcəkdir. Siz buraya gələrkən bizə sevinc, xoşbəxtlik bəxş edirsiniz. Başqa ölkələrdə yaşayan dağ yəhudiləri eşidiblər ki, möhtərəm Prezidentimiz Qırmızı Qəsəbəyə gələcək. Onlar təntənəli görüşlər keçirəcəklər. Bu təntənəli görüşlərdə Sizin şərəfinizə çoxlu xoş sözlər deyiləcəkdir. Biz bununla fəxr edirik. Biz xoşbəxt adamlarıq ki, Sizin kimi uzaqgörən, xeyirxah, qayğıkeş, humanist bir insan bizim prezidentimizdir. Siz də xoşbəxtsiniz ki, Sizi sevən xalqınız vardır. Bu iki amil bizim respublikanı inkişafa aparır. Əsas səbəbi də mən bunda görürəm ki, Sizi xalq sevir, Siz xalqa qayğı göstərirsiniz. Allah-Taalanın xoş nəzərləri Sizin üzərinizdən əskik olmasın!

**İ l h a m Ə l i y e v:** Çox sağ olun. Təşəkkür edirəm, minnətdaram. Dediyiniz kimi, Azərbaycanın uğurlu inkişafını təmin edən xalqla iqtidar arasındakı birlikdir. O ölkələrdə ki, bu birlik var, o ölkələr inkişaf edir. Harada bu yoxdursa, orada problemlər yaşanır.

Bu gün Azərbaycanın uğurlu inkişafı artıq reallıqdır. Bunu ölkə əhalisi də, beynəlxalq ictimaiyyət də görür. Çünki son illər ərzində Azərbaycan kimi iqtisadi cəhətdən inkişaf edən ikinci ölkə yoxdur. Bu iqtisadi inkişaf sadəcə olaraq, statistik

rəqəmlərlə deyil, görülən işlərlə də ölçülür. Qubanın, Qırmızı Qəsəbənin inkişafı göz qabağındadır. Hər rayonda, hər bölgədə quruculuq, inkişaf işləri gedir. Deyə bilərəm ki, rayonlar bir-biriləri ilə rəqabətə çıxır. Rayon sakinləri istəyirlər ki, onların rayonları, şəhərləri, qəsəbələri daha da gözəl, abad olsun. Yəni bu, sağlam bir yarışdır. Bu yarışın nəticəsində Azərbaycan güclənir, inkişaf edir, möhkəmlənir və Azərbaycanda yaşayan bütün xalqların nümayəndələri bu ümumi inkişafa öz töhfələrini verirlər.

Dağ yəhudiləri də öz işi, əməyi, Vətənə olan sədaqəti ilə Azərbaycan dövlətçiliyinin möhkəmlənməsində çox böyük işlər görmüşlər. Həm burada, həm başqa ölkələrdə yaşayan, amma qəsəbə ilə əlaqəni qırmayan vətəndaşlarımız Azərbaycanın inkişafına öz dəyərli töhfələrini verirlər. Mən hər dəfə Qubada olarkən çalışıram ki, buraya da gəlim, vətəndaşlarla görüşüm. Çalışıram ki, biz burada çatışmayan işləri düzəldək. Bu gün biz Qubanın içməli su layihəsini də başa vurduq, o cümlədən buraya 24 saat təmiz dağ çayının suyu veriləcəkdir. Qazlaşdırma da gedir, kənd yolları da tikilir, ümumiyyətlə, burada gözəl işlər görülür. Mən görürəm ki, qəsəbənin sakinləri necə böyük sevgi ilə, məhəbbətlə, zövqlə öz qəsəbələrini abadlaşdırırlar. Bu gözəl binalar inkişafın təzahürüdür. Bu qəsəbədən olan vətəndaşlar indi müxtəlif ölkələrdə yaşayırlar, qəsəbəni unutmurlar, gəlib belə gözəl yerlər yaradırlar.

Azərbaycan burada yaşayan bütün xalqların vətənidir. Dağ yəhudiləri burada əsrlərboyu yaşayırlar və Azərbaycanın üstünlüyü o cümlədən bax, bu birlikdədir. Bilirsiniz ki, indi Azərbaycanda vaxtaşırı mötəbər beynəlxalq tədbirlər keçirilir – humanitar forumlar, sivilizasiyalararası dialoq forumları, dünya dinlərinin nümayəndələrinin, rəhbərlərinin zirvə görüşləri. Hamı, necə deyərlər, bir fikirdədir ki, Azərbaycanda bu sahədə olan işlər ən yüksək zirvədədir. Mən isə həmişə deyirəm ki, bu bizim həyat tərzimizdir. Əlbəttə, dövlət siyasəti də vardır və məqsədyönlü şəkildə aparılır. Amma eyni zamanda, cəmiyyətdə də, bax, bu əhval-ruhiyyə yaşanır. Bir-birinə, bir-birinin adət-

ənənələrinə, dininə, yaşayış tərzinə hörmət xalqımızı, millətimizi, dövlətimizi gücləndirir. Ona görə mən hər dəfə burada olarkən görürəm ki, işlər yaxşı gedir. Diaqnostika Mərkəzi tikilib. Hotellər tikilir, turistlərin sayı artır. Bu gün mən baxdım, gözəl Gənclər Mərkəzi tikilib. Bu şəhərin əsas meydanı çox gözəl görkəm alıb. Çox sağ olun. Sizə cansağlığı, uğurlar arzulayıram.

## Qudyalçay üzərindəki tağlı «Qırmızı körpü»nün yenidənqurmadan sonrakı vəziyyəti ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 18-də Qubanın Qırmızı Qəsəbəsi ərazisində, Qudyalçay üzərindəki tağlı «Qırmızı körpü»nün yenidənqurmadan sonrakı vəziyyəti ilə tanış olmuşdur.*

*Azərbaycan dövlətinin həyata keçirdiyi sosial siyasətin əsas istiqamətlərindən biri də ölkəmizdə yol-nəqliyyat infrastrukturunun müasir səviyyəyə çatdırılmasıdır. Son dövrlərdə bu istiqamətdə əsaslı islahatlar həyata keçirilmişdir. Təqdirəlayiq haldır ki, bu islahatlar paytaxt Bakı ilə yanaşı, həm də bölgələri əhatə edir. Qudyalçay üzərindəki tağlı körpünün əsaslı şəkildə yenidən qurulması da bu istiqamətdə görülən işlərdəndir. Bu körpü ilə sakinlər Qırmızı Qəsəbədən qısa yolla Quba şəhərinə gedə bilirlər. «Qırmızı körpü» həm də tarixi memarlıq abidəsi kimi, vacib əhəmiyyətə malikdir. Bu körpünün yenidən qurulması dövlətimizin tarixi-mədəni abidələrimizin qorunması işinə verdiyi diqqəti də nümayiş etdirir.*

*Dövlətimizin başçısı İlham Əliyev və xanımı Mehriban Əliyeva «Qırmızı körpü»nün əvvəlki vəziyyətini əks etdirən fotolardan ibarət stendlərə baxdılar.*

*Bildirildi ki, «Qırmızı körpü» 1851–1854-cü illərdə inşa olunmuşdur. Körpünün yarımdairəvi biçimli tağlar sistemi bişmiş kərpicdən hörülmüş və bir-birindən 11,1 metr məsafədə*

*olan dayaqlara söykənir. Tağ dayaqlarının istinad etdiyi körpünün bünövrələri yonulmuş daşlardan hörülmüşdür.*

*Azərbaycan Prezidentinə tağlı körpünün əsas parametrləri barədə məlumat verildi.*

*Diqqətə çatdırıldı ki, körpünün uzunluğu 160 metr, eni 7,6 metr, bünövrədən hündürlüyü isə 7,39 metrdir. Körpüdəki tağların sayı 14-dür. Təbii aşınmalar nəticəsində tağlarda yaranmış zədələrə görə körpüdə hərəkət xeyli müddət dayandırılmışdı. Lakin 2012-ci ilin əvvəlindən əsaslı təmirə başlanaraq tağlarda, bünövrədə bərpa və bərkitmə işləri aparılmışdır. Körpü memarlıq abidəsi kimi, dövlət tərəfindən qorunur.*

*Burada dövlətimizin başçısına və xanımına Quba–Qusar–Rusiya Federasiyası dövlət sərhədi avtomobil yolu üzərində salınmış körpülər barədə məlumat verildi.*

## Qudyalçay üzərində beşaşırımlı körpünün açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva sentyabrın 18-də Quba–Qusar avtomobil yolunda, Qudyalçay üzərində beşaşırımlı körpünün açılışında iştirak etmişlər.*

*Son dövrlərdə paytaxtla yanaşı, bölgələrdə də yol-nəqliyyat infrastrukturunun yaradılması istiqamətində görülən işlərin miqyası daha da artmışdır. Bu kompleks tədbirlərin nəticəsidir ki, artıq respublika əhəmiyyətli yollarla bərabər, həm də rayon və kənddaxili yollar müasir səviyyədə inşa edilir. Dövlət bu məsələyə daim böyük diqqət və qayğı ilə yanaşır. Yeni yolların və körpülərin salınması, mövcud olanların isə əsaslı şəkildə təmir edilməsi respublikada geniş vüsət almışdır. Belə tədbirlərin həyata keçirilməsi ilk növbədə, sakinlərin rahatlığını və onların sosial məsələlərinin həllinin diqqət mərkəzində saxlandığını nümayiş etdirir. Bu həm də dövlətimizin apardığı məqsədyönlü sosial siyasətin respublikanın kəndlərini belə, geniş əhatə etdiyini göstərir.*

*Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva əvvəlcə körpünün texniki göstəricilərini əks etdirən stendlərə baxdılar. Dövlətimizin başçısına körpünün əsas parametrləri barədə məlumat verildi. Bildirildi ki, Quba–Qusar avtomobil yolunda, Qudyalçay üzərində beşaşırımlı körpünün inşasına 2012-ci ildə başlanılmışdır. Təmir işləri qısa müddətdə, həm də yüksək keyfiyyətlə həyata keçirilmişdir. Uzunluğu 136, eni 14,5 metr olan körpüdə dayaqların sayı 6-dır. Körpüdə piyadalar üçün 2 metr enində keçidlər salınıb. Doqquz ballıq zəlzələyə davamlı olan körpünün orta dayağı dörddirəkli konstruksiya ilə quraşdırılıb. Körpü üzərindən keçən 3,6 kilometr uzunluğunda yeni alternativ yol inşa olunub. Yeni körpünün inşası nəqliyyat vasitələrinin şəhərə daxil olmadan birbaşa Quba–Qusar avtomobil yoluna hərəkəti üçün nəzərdə tutulub. Bu isə nəqliyyat vasitələrinin hərəkətinin təhlükəsizliyini təmin etmək baxımından çox əhəmiyyətlidir.*

*Prezident İlham Əliyev körpünün rəmzi açılışını bildirən lenti kəsdi.*

## Yeni Azərbaycan Partiyası Quba rayon təşkilatının yeni inzibati binasının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva sentyabrın 18-də Yeni Azərbaycan Partiyası Quba rayon təşkilatının yeni inzibati binasının açılışında iştirak etmişlər.*

*Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya gül dəstəsi təqdim olundu.*

*Dövlətimizin başçısı inzibati binanın rəmzi açılışını bildirən lenti kəsdi. Məlumat verildi ki, Yeni Azərbaycan Partiyası Quba rayon təşkilatının yeni inzibati binasında təşkilatın fəaliyyəti üçün hər cür şərait yaradılıb. Binanın tikintisi ötən ilin sonlarında başlanılmış, bu ilin sentyabrında başa çatdırılmışdır. Foyedə ulu öndər Heydər Əliyevin büstü qoyulub. Burada, həmçinin ümummilli liderin ölkəmizin ictimai-siyasi həyatı, o cümlədən Yeni*

*Azərbaycan Partiyasının fəaliyyəti ilə bağlı gördüyü işləri əks etdirən fotoguşə yaradılıb. Ümumilikdə inzibati bina 10 otaq, konfrans və iclas zallarından ibarətdir.*

*Prezident İlham Əliyev otaqlarda yaradılan şəraitlə tanış oldu. Binada informasiya-kommunikasiya texnologiyalarının tətbiqi xüsusən diqqətdə saxlanılıb. Binadakı 80 nəfərlik akt zalında respublika və rayon əhəmiyyətli tədbirlərin keçirilməsi nəzərdə tutulub.*

*Məlumat verildi ki, partiyanın rayon təşkilatının 6 min üzvü vardır. Təşkilatın sıraları əsasən gənclər hesabına ildən-ilə artır. Hazırda partiya üzvlərindən 2200-ü gənclərdir. Qadınların sayı isə 1800-dür.*

*Prezident İlham Əliyev görülən işlərdən razılığını bildirdi, tapşırıq və tövsiyələrini verdi.*

## Bakı Dövlət Universitetinin Tədris-Təcrübə və İstirahət Mərkəzinin açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 18-də Qubaya səfəri çərçivəsində Bakı Dövlət Universitetinin Tədris-Təcrübə və İstirahət Mərkəzinin açılışında iştirak etmişdir.*

*Açılışda iştirak edən Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya gül dəstəsi təqdim olundu.*

*Dövlətimizin başçısı mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi, burada yaradılan şəraitlə tanış oldu.*

*Bakı Dövlət Universitetinin rektoru Abel Məhərrəmov məlumat verdi ki, mərkəzin ərazisi 8 hektardır. Ərazi 1970-ci ildən istifadə olunur. Son 20 ildə isə burada məcburi köçkünlər məskunlaşmışdı. Yeni binanın inşası 2011-ci ilin sentyabrında başlanılmış, bu ilin sentyabrında başa çatdırılmışdır. Tikinti işləri universitetin daxili imkanları hesabına aparılmışdır.*

*Mərkəzin foyesində ümummilli lider Heydər Əliyevin büstü qoyulmuş, ulu öndərin həyat və fəaliyyətini əks etdirən fotostend quraşdırılmışdır. Binada «Bakı Dövlət Universitetinin tarixi» və*

«Tədris-Təcrübə və İstirahət Mərkəzinin tarixi» adlı fotoguşələr də yaradılmışdır.

Dövlətimizin başçısı və xanımı mərkəzin hotelində yaradılan şəraitlə tanış oldular. Bildirildi ki, 400 nəfər üçün nəzərdə tutulan mərkəzdə universitetin müəllim və tələbələrinin istirahətinə hər cür şərait yaradılıb. Burada həm professor-müəllim heyəti, həm də tələbələr üçün nəzərdə tutulmuş otaqlar ən müasir standartlara cavab verir. Müxtəlif müzakirələrin aparılması və tədbirlərin keçirilməsi üçün burada konfrans zalları təşkil olunub. Böyük akt zalında istənilən tədbirin keçirilməsi üçün hər cür şərait vardır. Müəllim-tələbə heyəti 300 nəfərlik yeməkxananın xidmətlərindən də istifadə edə biləcəkdir. İdman zalları müasir avadanlıqla təchiz olunub. Burada idmanın müxtəlif növləri ilə məşğul olmaq, həmçinin bir sıra yarışların keçirilməsi mümkündür. Mərkəzin əsas bölmələrindən biri də kitabxanadır. Elektron formatda təşkil olunan kitabxanada müxtəlif mövzulara aid yüzlərlə ədəbiyyat toplanılıb. Bundan əlavə, mərkəzdə müxtəlif istiqamətlər üzrə laboratoriyalar təşkil olunub. Bütün bunlar müəllim və tələbələrin daha yaxşı istehsalat təcrübəsi aparmalarına, yerli və beynəlxalq tədbirlərin keçirilməsinə yeni imkanlar yaradır.

## Azərbaycan Dövlət İqtisad Universitetinin Tədris, İdman və İstirahət Kompleksinin açılışı mərasimi

Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva sentyabrın 18-də Qubaya səfəri çərçivəsində Azərbaycan Dövlət İqtisad Universitetinin Tədris, İdman və İstirahət Kompleksinin açılışında iştirak etmişlər.

Mehriban xanım Əliyevaya gül dəstəsi təqdim olundu.

Prezident İlham Əliyev kompleksin rəmzi açılışını bildirən lenti kəsdi. Universitetin rektoru Şəmsəddin Hacıyev məlumat verdi ki, kompleks 1969-cu ildə Quba rayonunun İkinci Nügədi kəndində Azərbaycan Dövlət İqtisad Universitetinin balansına verilmiş 7 hektardan artıq ərazidə inşa edilib. Bura universitetin 20 minlik kollektivinin istirahətinin təşkili və sağlamlığının möh-

kəmləndirilməsi üçün nəzərdə tutulub. Kompleksdə tələbələrin yay və qış məktəblərinin, müxtəlif idman yarışlarının və yay düşərgələrinin təşkili üçün bütün şərait yaradılıb. Burada tikilən 87 otaqdan ibarət üçmərtəbəli hotel binasında eyni zamanda 162 nəfərin yerləşməsinə imkan vardır. Hoteldə həm müəllimlərin, həm də tələbələrin istirahətinin təşkili məqsədi ilə bütün meyarlar nəzərə alınıb. Kompleksin 350 tələbə yeri olan və müasir infrastrukturu ilə diqqət çəkən yay məktəbi də yüksək səviyyədə qurulub. Buradakı auditoriyaların hamısı zəruri avadanlıqlarla təchiz olunub. Eyni şərait 100 nəfərlik müasir yeməkxanada da mövcuddur. Müxtəlif tədbirlərin keçirilməsi üçün 205 nəfərlik akt zalında da bütün imkanlar vardır.

Qeyd olundu ki, beynəlxalq standartlara uyğun qurulan idman kompleksində yaradılan şərait diqqət çəkir. Burada voleybol, futbol və basketbol oyunlarının keçirilməsi üçün qapalı idman zalı, saunalar, soyunub-geyinmə, trenajor otaqları, VİP kabinetlər yaradılıb. Bundan əlavə, müasir tipli qapalı hovuzda tələbələrin üzgüçülüklə məşğul olmaları üçün lazımi şərait vardır. Beynəlxalq standartlara cavab verən açıq stadionda futbol, həndbol və digər idman yarışlarının keçirilməsi üçün bütün imkanlar nəzərə alınmışdır.

Bildirildi ki, kompleksin tikinti-quraşdırma işləri çərçivəsində kənd yolları yenidən çəkilib və işıqlandırma sistemi yaradılıb. Burada 5 min kvadratmetrdən çox əraziyə asfalt örtüyü döşənilib.

## Əski-İqriq kəndində beşulduzlu «Rixos Quba Azerbaijan» hotelində görülən işlərlə tanışlıq

Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 18-də Qubaya səfəri çərçivəsində rayonun Əski-İqriq kəndində beşulduzlu «Rixos Quba Azerbaijan» hotelində görülən işlərlə tanış olmuşdur.

Hotelin otaqlarını gəzən prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya məlumat verildi ki, kompleksin tikintialtı

*ərazisi 75, ümumi sahəsi isə 202 hektardır. Ərazidə kanat yolu da çəkilib. Hotel kompleksində restoranlar, hovuz, idman meydançası və digər köməkçi obyektlərin tikilməsi nəzərdə tutulub. Kompleks səkkizmərtəbəli əsas binadan və 16 kottecdən ibarətdir. Burada ümumi sahəsi 27,3 min kvadratmetr olan süni göl yaradılıb. Gölün ətrafında restoran və helikopter meydançası tikilib. Gələcəkdə kompleksdə xizək mərkəzinin və digər binaların da inşası nəzərdə tutulur.*

*Kotteclərdə yaradılan şəraitlə tanışlıq zamanı bildirildi ki, burada mini-kinoteatr, idman zalı və digər otaqlar vardır. Ərazidə, həmçinin tennis kortu, voleybol və futbol meydançaları inşa edilib.*

*Dövlətimizin başçısı tikinti işlərinin yüksək səviyyədə aparılması ilə bağlı tapşırıq və tövsiyələrini verdi.*

## Azərbaycan Milli Qolf Klubunun açılışı mərasimi

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Qubada Azərbaycan Milli Qolf Klubunun açılışında iştirak etmişlər.*

*Son illərdə Azərbaycanda idmanın kütləviliyinin artırılması istiqamətində köklü islahatlar həyata keçirilir. Bu islahatların bölgələri də əhatə etməsi nəticəsində regionlarda idmanla məşğul olanların sayının sürətlə artması müşahidə olunur. İndi regionlarda müasir idman infrastrukturu yaradılır, yenilərinin təməli qoyulur. Azərbaycanda idmanın bütün növlərinin inkişafı diqqət mərkəzindədir. Qubada Milli Qolf Klubunun yaradılması bunun əyani təsdiqidir.*

*Dövlətimizin başçısı klubun rəmzi açılışını bildirən lenti kəsdi.*

*Burada yaradılan şəraitlə tanışlıq zamanı prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya məlumat verildi ki, inşasına ötən il başlanılan klubun 44 qolf avtomobilindən ibarət parkı vardır.*

*Azərbaycan Prezidenti və xanımı elektromobillə klubun ərazisini gəzdilər.*

*Məlumat verildi ki, qolf sahəsinin ümumi ərazisi 92, meydançanın sahəsi isə 75 hektardır. İnzibati bölmədə idman avadanlığı mağazası və kafe vardır. Bu idman obyektinin Cənubi Qafqaz regionunda bənzəri yoxdur. Belə ki, bu idman qurğusu regionda 18 dəlikli ilk qolf meydançasıdır. Kompleksin ərazisində su maneələri üçün 3 süni göl yaradılıb. Burada həm də qolf üzrə müxtəlif treninqlərin keçirilməsi nəzərdə tutulur. Azərbaycan Milli Qolf Klubundakı şərait dünya standartlarına tam cavab verir. Buna görə də gələcəkdə burada müxtəlif beynəlxalq yarışların yüksək səviyyədə keçirilməsi mümkündür. Belə bir obyektin yaradılması nəinki Qubanın, ümumilikdə bölgənin turizm sektorunun inkişafına mühüm töhfə verəcəkdir. Bu, regional kiçik və orta biznesin yeni səviyyəyə çatdırılması baxımından da mühüm əhəmiyyət kəsb edir.*

*Burada prezident İlham Əliyevə və Mehriban Əliyevaya xatirə hədiyyələri təqdim olundu.*

*Azərbaycan Prezidenti yaradılmış şəraitdən razılığını bildirdi, tapşırıqlarını verdi.*

**İKİ MÜQƏDDƏS OCAĞIN XADİMİ, SƏUDİYYƏ ƏRƏBİSTANININ KRALI ƏLAHƏZRƏT ABDULLAH BİN ƏBDÜLƏZİZ AL SƏUDA**

Əlahəzrət!

Əziz Qardaşım!

Səudiyyə Ərəbistanının milli bayramı – Krallıq elan edilməsi Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı Azərbaycan xalqı adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında qarşılıqlı etimad və dəstəyə əsaslanan dövlətlərarası münasibətlərimiz, çoxşaxəli dostluq əlaqələrimiz və əməkdaşlığımız öz davamlı inkişafı ilə bundan sonra da ölkələrimizin və qardaş xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu bayram günündə Sizə ən xoş arzularımı yetirir, möhkəm cansağlığı, işlərinizdə uğurlar, Səudiyyə Ərəbistanının qardaş xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 sentyabr 2013-cü il*

## SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ VƏLİƏHDİ, BAŞ NAZİRİN MÜAVİNİ, MÜDAFİƏ NAZİRİ ƏLAHƏZRƏT SALMAN BİN ƏBDÜLƏZİZ AL SƏUDA

Əlahəzrət!

Əziz Qardaşım!

Ölkənizin milli bayramı – Krallıq elan edilməsi Günü münasibətilə Sizə və xalqınıza ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasındakı mövcud dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı daim xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı və uğurlar, Səudiyyə Ərəbistanının qardaş xalqına sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 sentyabr 2013-cü il*

# QARADAĞ RAYONUNDA MÜASİR STANDARTLARA CAVAB VERƏN GƏMİQAYIRMA ZAVODUNUN AÇILIŞI MƏRASİMİ

*20 sentyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 20-də Bakının Qaradağ rayonunda müasir standartlara cavab verən Bakı Gəmiqayırma zavodunun açılışı mərasimində iştirak etmişdir.*

*Azərbaycanın iqtisadi və sənaye potensialının gücləndirilməsində mühüm rol oynayacaq Bakı Gəmiqayırma zavodunun tikintisi respublikamızda həyata keçirilən iri infrastruktur layihələrindən biridir. Təməli 2010-cu il martın 19-da prezident İlham Əliyev tərəfindən qoyulmuş zavod Xəzər dənizində ən müasir tələblərə cavab verən istənilən növ müxtəlif təyinatlı gəmilərin tikintisi, təmiri və ümumilikdə dəniz mühəndisliyi işlərinin yerinə yetirilməsi istiqamətində fəaliyyət göstərəcəkdir.*

*Müəssisə Azərbaycanın gəmiçilik sahəsində idxaldan asılılığını aradan qaldıracaq, Xəzər donanmasını müasirləşdirməyə imkan verəcəkdir. Məlum olduğu kimi, ölkəmizin kifayət qədər güclü donanması vardır. Bu gəmilər bir çox hallarda xarici ölkələrdə təmir edilir. Digər tərəfdən, Azərbaycan Xəzər donanmasının gücləndirilməsi məqsədilə müxtəlif illərdə xaricdən xeyli sayda tanker, yük gəmisi və bərə almışdır. Bakı Gəmiqayırma zavodunun işə düşməsindən sonra isə Azərbaycanın tələbatını ödəyə biləcək bütün növ gəmilər ölkəmizdə istehsal olunacaq, onların təmiri burada aparılacaqdır. Bu zavod ixrac potensialımızın gücləndirilməsi baxımından da xüsusi əhəmiyyətə malikdir. Bütün bunlar bir daha gəmiqayırma zavodunun Azərbaycanın iqtisadi inkişafının daha da*

*sürətlənməsində nə dərəcədə mühüm rol oynadığını nümayiş etdirir. Digər tərəfdən, son illərdə Azərbaycanda həyata keçirilən iri iqtisadi layihələrdən biri olan bu zavodun inşası ölkəmizin iqtisadi gücünü və bütün sahələrdə öncül mövqelərə malik olmasını göstərir.*

*Prezident İlham Əliyev zavodun fəaliyyətini əks etdirən videoçarxa və müəssisənin maketinə baxdı.*

*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (ARDNŞ) prezidenti Rövnəq Abdullayev dövlətimizin başçısına müəssisənin fəaliyyəti barədə məlumat verdi. Bildirildi ki, zavodun tikintisi və istismarı işlərinin həyata keçirilməsi məqsədilə ARDNŞ, Azərbaycan İnvestisiya Şirkəti (AİŞ) və Sinqapurun «Keppel Offshore & Marine» şirkəti tərəfindən «Bakı Gəmiqayırma zavodu» MMC birgə müəssisəsi yaradılmışdır. Təsisçilər arasında 2010-cu il dekabrın 10-da imzalanmış razılaşmaya əsasən ARDNŞ, AİŞ və «Keppel» zavodun nizamnamə kapitalında müvafiq olaraq 65 faiz, 25 faiz və 10 faiz paya malikdir.*

*Zavod Qaradağ rayonu ərazisində, Bakı–Astara magistral yolunun 25-ci kilometrliyində «Keppel», Böyük Britaniyanın «Royal Haskoning» və Norveçin «TTS Handling System SAS» şirkətlərinin birgə hazırladıqları konseptual layihə əsasında Dövlət Neft Şirkətinin «Neftqaztikinti» Tresti tərəfindən inşa edilmişdir.*

*Diqqətə çatdırıldı ki, zavod Finlandiya, Niderland, Almaniya, Çexiya Respublikası, Böyük Britaniya, Koreya Respublikası və Sinqapurda yüksək standartlar səviyyəsində istehsal olunan avadanlıqlarla təchiz edilmişdir. İstehsal prosesində metalkəsmə, profiləymə, lövhəəymə, 3D borukəsmə rəqəmsal avadanlığı kimi müasir texnoloji vasitələrdən istifadə olunacaqdır. Müəssisə artıq ilk sifarişini də qəbul etmişdir. Yeni layihə «Caspian Drilling Company LTD» tərəfindən verilən yarımqazma qurğusu DSS 38M-dir. Gəmiqayırma zavodunda qurğunun pantonunun göyərtəsi, eyni zamanda, yuxarı göyərtə hazırlanacaqdır.*

*Dövlətimizin başçısı zavodu işə saldı. Burada yarımqazma qurğusunun polad lövhəsinin ilk kəsimi aparıldı.*

*Azərbaycan Prezidentinə zavodun iş prosesi barədə məlumat verildi. Qeyd olundu ki, polad lövhələr və profillər metal anbarından maqnitli kranlar vasitəsilə konveyerə yüklənir, sonra metal təmizləmə və astarlama xəttinə ötürülür. Polad lövhələr və profillər bir neçə mərhələdən ibarət təmizlənmə prosesindən keçir, xüsusi boya ilə astarlanır və kranlar vasitəsilə elektron proqramlı rəqəmsal metalkəsmə maşınlarının platformalarına yüklənir. Maşınlarda polad lövhələr və profillərdən gəminin gövdə konstruksiyasının elementləri işarələnərək kəsilib hazırlanır. Gövdə konstruksiya elementləri blok panellərinin hazırlanması üçün qaynaq xəttinə ötürülür. Birgünlük növbə vaxtı bu qaynaq xətti vasitəsilə hər birinin ağırlığı 25 tona qədər olan 6 müxtəlif panel hazırlana bilir. Sonra panellər digər istehsal sahəsinə ötürülür və onlardan müxtəlif konfiqurasiyalı bloklar hazırlanır. Maksimum ağırlığı 300 tona qədər olan bloklar çoxtəkərli xüsusi hidravlik transportyor vasitəsilə təmizləmə və rəngləmə sahəsinə gətirilir. İri bloklar bu sahədə tam qapalı şəraitdə təmizlənir, astarlanır və rənglənir. Sonra bloklar transportyor vasitəsilə tikinti-quraşdırma sahəsinə daşınır. Burada bloklar birləşdirilərək gəminin gövdəsi tikilir. Baş və köməkçi mühərriklər, mexaniki və elektrik avadanlıqlar, hazırlanmış boru xətləri müvafiq sahələrdən gətirilərək, gəmidə quraşdırılır.*

*Məlumat verildi ki, müəssisənin ümumi ərazisi 62 hektardır. Burada 1630 metr uzunluğunda yanalma körpüsü, beşmərtəbəli inzibati bina, təlim mərkəzi, müxtəlif ofislər və anbarlar, istehsal və təmir-ötürmə sahələri, yeməkxana, tibb məntəqəsi, kompressor, zavodun elektrik təchizatının etibarlı təminatı üçün yarımstansiya binaları tikilmişdir.*

*Bildirildi ki, zavod ildə 25 min ton metal konstruksiya istehsal etmək gücünə malikdir. İstehsal imkanlarına görə Xəzər dənizi hövzəsində analoqu olmayan bu müəssisədə ildə 15 min ton yükgötürmə qabiliyyəti olan 4 və ya 70 min ton yükgötürmə qabiliyyəti olan 2 tanker və 4 özül təchizat gəmisi tikmək, müxtəlif təyinatlı*

*80–100 gəmini təmir etmək mümkün olacaqdır. Müəssisədə 50 ton yükdartma gücünə malik ilk yedək gəmisi inşa edilib.*

*Qeyd edildi ki, tam fəaliyyətə başlayanda zavodda ilkin olaraq 1250 nəfər işçi çalışacaq. Gələcəkdə isə işçilərin sayının 2000 nəfərə çatdırılması nəzərdə tutulur. Müəssisənin idarə edilməsi məqsədilə xüsusi təlim mərkəzi yaradılıb. Test üsulu ilə seçilən bir qrup gənc mütəxəssis «Keppel» şirkətinin Sinqapurda yerləşən zavodlarında 6–8 ay müddətində təlim və peşə hazırlığı kursları keçmişdir. Kadr hazırlığı işi bundan sonra da davam etdiriləcək və gələcəkdə zavodda işləyənlərin ən azı 95–98 faizi yerli mütəxəssislərdən ibarət olacaqdır.*

*Prezident İlham Əliyev zavodun ərazisinin ilkin vəziyyətini və tikinti prosesini əks etdirən fotostendə baxdı.*

*Dövlətimizin başçısı mərasimdə çıxış etdi.*

**Azərbaycan prezidenti İlham Əliyevin çıxışı**

Hörmətli xanımlar və cənablar, əziz dostlar!

Bu gün çox əlamətdar bir gündür. Biz Bakıda yeni Gəmiqayırma zavodunun açılışına toplaşmışıq. Ancaq bundan əvvəl mən bütün Azərbaycan neftçilərini peşə bayramı münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Bu gün neftçilərin peşə bayramıdır. Azərbaycan neftçiləri bütün dövrlərdə Azərbaycanın inkişafında çox mühüm rol oynamışlar. Müstəqil Azərbaycanda neftçilərin fəaliyyəti təqdirəlayiqdir. Neftçilərin zəhməti, istedadı hesabına bu gün Azərbaycan güclü iqtisadiyyata malikdir.

Neft sənayesi bütün dövrlərdə Azərbaycanda aparıcı sahə olmuşdur, o cümlədən bu gün də belədir. Əlbəttə, biz çalışırıq ki, iqtisadiyyatımızı neft amilindən daha da az asılı vəziyyətə gətirək. Ancaq neft sənayesinin inkişafı, Azərbaycanda neft-qaz əməliyyatlarının uğurla aparılması ölkəmizin potensialını xeyli dərəcədə gücləndirir. Ona görə bu fürsətdən istifadə edərək, mən Neft Şirkətinin bütün əməkdaşlarını, bütün Azərbaycan

neftçilərini bu gözəl bayram münasibətilə bir daha təbrik etmək istəyirəm.

Qeyd etmək istəyirəm ki, mənim həyatımın müəyyən hissəsi – 9 ili Dövlət Neft Şirkətində keçmişdir. Böyük qürur hissi ilə deyə bilərəm ki, mən də neftçilərin arasında işləmişəm. Biz Azərbaycanın yeni neft strategiyasının həyata keçirilməsində birgə səylərlə işləmişik və böyük uğurlara imza atmışıq.

Bu gün tarixi gündür. Ona görə ki, 19 il bundan əvvəl «Əsrin kontraktı» imzalanmışdır. «Əsrin kontraktı»nın imzalanması Azərbaycanda yeni neft strategiyasının icra edilməsində atılmış ən önəmli addımdır. Heydər Əliyev neft strategiyasının formalaşmasında «Əsrin kontraktı»nın xüsusi yeri vardır. Bu gün Azərbaycanı müasir neft sənayesiz təsəvvür etmək mümkün deyil. Əgər 1994-cü ildə ulu öndər Heydər Əliyevin qərarı ilə neft strategiyamız başlamasaydı, bu gün ölkəmizin inkişafı tam başqa istiqamətdə ola bilərdi. Bizim xoşbəxtliyimiz ondan ibarətdir ki, ölkəmiz, xalqımız üçün həlledici anlarda Heydər Əliyev xalqın tələbi ilə hakimiyyətə gəlmiş və Azərbaycanı böyük bəlalardan, fəlakətlərdən qurtara bilmişdir. Çünki müstəqilliyimizin ilk illəri çox ağır keçirdi. Ölkədə total böhran hökm sürürdü. O vaxtkı hakimiyyət, demək olar ki, öz vəzifə borcunu yerinə yetirə bilmirdi, ölkəmizi xaosa, anarxiyaya sürükləmişdi. Demək olar ki, Azərbaycan dağılmaq ərəfəsində, vətəndaş müharibəsi ərəfəsində idi. Vətəndaş müharibəsini başlamış antimilli iqtidar qorxub qaçaraq, demək olar ki, Azərbaycanı başsız qoymuşdu. Heydər Əliyevin müdrikliyi, cəsarəti, qətiyyəti, xalqın ona olan inamı o vaxt ən ağır anlarda bizə imkan verdi ki, bütün xoşagəlməz hallara son qoyaq və Azərbaycanı inkişaf yoluna çıxara bilək.

O gündən bu günə qədər Azərbaycan sürətli inkişaf dövrünü yaşayır. Biz bu il Qurtuluş Gününün 20-ci ildönümünü qeyd edərək, bir daha bütün bu tarixi məqamları nəzərdən keçirdik. Bugünkü müstəqil Azərbaycanın uğurlu inkişafının təməli məhz 20 il bundan əvvəl qoyulmuşdur. Ona görə «Əsrin kontraktı»nın ölkəmizdə gedən bütün iqtisadi islahatların sürətləndirilməsi üçün xüsusi yeri olmuşdur. Fürsətdən istifadə edərək, bizimlə

bərabər 19 il ərzində çalışan xarici neft şirkətlərini də buradan salamlamaq istəyirəm. Onların investisiyaları, onların Azərbaycana olan sədaqəti və yaranmış gözəl əməkdaşlıq mühiti, bax, bugünkü reallıqları şərtləndirdi.

Bu gün biz yeni beynəlxalq əməkdaşlıq layihəsinin başlanmasını qeyd edirik. Azərbaycanda Gəmiqayırma zavodunun yaradılması da beynəlxalq əməkdaşlıq nəticəsində mümkün olmuşdur. Burada həm Azərbaycan tərəfi, həm Sinqapurun «Keppel» şirkəti birgə fəaliyyət göstərir. Zavodun tikintisində xarici mütəxəssislər iştirak etmişlər. Burada quraşdırılan avadanlıqlar aparıcı xarici şirkətlərin istehsalıdır və pay bölgüsü də 90 faiz Azərbaycanın, 10 faiz «Keppel» şirkətinin üzərinə düşür. Bütün operatorluq işi Sinqapurun «Keppel» şirkətinə həvalə edilib. Bu da hesab edirəm ki, beynəlxalq əməkdaşlığın gözəl təzahürüdür, yeni formasıdır. Keçən il mənim Sinqapura rəsmi səfərim zamanı Gəmiqayırma zavodunun tikintisi də müzakirə edilmişdir.

Gəmiqayırma zavodunun tikintisi tarixi hadisədir. Çünki Azərbaycanda heç vaxt Gəmiqayırma zavodu olmamışdır. Sovet dövründə bir neçə Gəmi təmiri zavodu olmuşdur. Ancaq biz gəmilərin alınması ilə əlaqədar bütün işləri xarici tərəfdaşlarla həll edirdik, o cümlədən müstəqillik dövründə – son 10 il ərzində deyə bilərəm ki, Azərbaycan xaricdən 19 gəmi almışdır. Onların içində bərələr, tankerlər, yük gəmiləri vardır. Təsəvvür etmək çətin deyildir ki, bu məqsədlər üçün nə qədər böyük vəsait ayrılmışdır. Bundan sonra isə artıq Azərbaycanda işləyəcək bizə lazım olan bütün növ gəmiləri ölkəmizdə istehsal edəcəyik.

Bu, böyük tarixi nailiyyətdir. Bu zavodun tikintisi Azərbaycanda aparılan iqtisadi islahatların nəticəsidir. Çünki buraya qoyulan investisiyalar çox böyük həcmlə ölçülür – 470 milyon dollar investisiya qoyulmuşdur. Bu ancaq birinci mərhələ üçündür. İkinci mərhələdə də 160 milyon dollar əlavə investisiya qoyulacaqdır və investisiyaların 90 faizi Azərbaycanın payına düşür.

Zavodda ən müasir texnologiyalar, ən yüksək standartlar tətbiq edilir. Burada 1250 yeni iş yeri açılmışdır. Orta əmək-haqqı da kifayət qədər yüksəkdir. Bizim tələbatımızı, Azərbaycanda nəqliyyat sektorunda gedən və bundan sonra gedəcək işləri nəzərə alaraq tam qətiyyətlə deyə bilərik ki, zavodun çox gərgin iş rejimi olacaqdır. Çünki Dövlət Neft Şirkəti yaxın illərdə 130 gəminin tikintisini təmin etməlidir. Əlbəttə, bu gəmilərin hamısı, bax, bu zavodda tikiləcəkdir. Xəzər Gəmiçiliyi bundan sonra təqribən 20 gəmini əldə etməlidir. Onların da hamısı artıq Azərbaycanda tikiləcəkdir. Xəzərin Azərbaycan sektorunda çalışan xarici tərəfdaşlarımız da bildiyimə görə, 20-dən çox gəmi sifariş etmək niyyətindədirlər. Yəni artıq mövcud olan bu sifarişlər deyə bilərəm ki, zavodun 24 saat rejimində işləməsini təmin etməlidir. Nəzərə alsaq, Xəzərdə Xəzəryanı ölkələrin də neft-qaz əməliyyatları, nəqliyyatla bağlı məsələləri öz həllini tapır, istisna edilmir ki, qonşularımız da bu zavodun işindən faydalana biləcəklər. Bir sözlə, bu zavodun tikintisi böyük tarixi hadisədir. Burada Azərbaycanın iqtisadi islahatlarının aparılması öz nəticəsini verməkdədir. Burada Azərbaycanın iqtisadi siyasətinin düzgün istiqamətdə aparılması da tam şəkildə təsdiqlənir. Çünki bizim əsas iqtisadi islahatlarımız qeyri-neft sektorunun, sənaye istehsalının inkişafına yönəldilibdir. Əlbəttə, neft sektorunun inkişafı da təmin edilməlidir.

Son illərdə neft-qaz sektorunda tarixi nailiyyətlər əldə edilmişdir. 2006-cı ildə Bakı–Tbilisi–Ceyhan, 2007-ci ildə Bakı–Tbilisi–Ərzurum neft-qaz kəmərlərinin tikintisi, demək olar ki, bölgənin enerji xəritəsini böyük dərəcədə dəyişdirmişdir. Keçən il TANAP layihəsinə start verilməsi, bu il Trans–Adriatik boru kəmərinin tikintisi ilə bağlı əldə edilmiş razılaşmalar bundan sonra onilliklər ərzində Azərbaycanı çox vacib beynəlxalq enerji oyunçusuna çevirəcəkdir.

Enerji təhlükəsizliyi məsələlərinin həllində Azərbaycanın xüsusi rolu vardır. Bu, böyük nailiyyətdir, bizim böyük uğurumuzdur, görülən işlərin nəticəsidir. Bu, böyük məsuliyyətdir.

Çünki artıq Azərbaycan tərəfindən irəli sürülmüş təşəbbüslər hətta regional müstəvidən kənara çıxıbdır və qlobal xarakter daşıyır. Azərbaycanın uğurlu neft-qaz siyasəti artıq nəinki bölgə ölkələrində, eyni zamanda, Avropa qitəsində enerji məsələlərinin həllinə də öz töhfəsini verəcəkdir. Belə olan halda, əlbəttə ki, bizim məsuliyyətimiz böyük dərəcədə artacaqdır. Ancaq biz buna hazırıq. Biz bütün işləri böyük məsuliyyət hissi ilə görmüşük. Bu günə qədər neft-qaz sahəsində bir dənə də olsun səhv addım atılmamışdır. 20 il ərzində Azərbaycanın neft-qaz potensialı xeyli inkişaf etmişdir. Biz son illər ərzində elektrik enerjisini, qazı idxal edən ölkədən ixrac edən ölkəyə çevrilmişik. Biz neft-qaz potensialımızı tam şəkildə realizə edə bilmişik. Bununla bərabər, bu gün iqtisadi siyasətimizin əsas hissəsi qeyri-neft sektorunun inkişafıdır. Bax, bu zavodda Azərbaycanın iqtisadi siyasəti tam şəkildə öz əksini tapır – qeyri-neft sektorunun inkişafı, sənayeləşmə siyasətimizin uğurla davam etdirilməsi.

Mən əvvəlki çıxışlarımda da qeyd etmişəm ki, Azərbaycanın bir neçə əsas sənaye mərkəzi olmalıdır – Bakının Qaradağ rayonu, Gəncə, Sumqayıt və Mingəçevir şəhərləri. Əlbəttə ki, digər şəhər və rayonlarımızda sənaye işləri gedəcəkdir, amma əsas mərkəzlər bunlardır. Bu zavod da Qaradağ rayonunda tikilib. Bu zavodun tikintisində idxaldan asılılığı azaltmaq mexanizmi də əyani şəkildə göstərilir. İdxaldan asılılığı azaltmaq təkcə ərzaq məhsulları ilə məhdudlaşmır. Azərbaycanda tikinti materialları və sənaye istehsalı da maksimum dərəcədə təşkil edilməlidir.

Biz artıq bu zavodun timsalında yeniləşən, müasirləşən, sənayeləşən Azərbaycanı görürük. Zavodun sifarişlər portfeli qeyd etdiyim kimi, kifayət qədər böyükdür. Təkcə sadaladığım, nəzərdə tutulan tikintilərin dəyəri təxminən 4-5 milyard dollardır. Yəni əgər zavod tikilməsəydi, bu vəsait kənara gedəcəkdi. Ancaq indi bu vəsait burada qalacaqdır. Bütün sifarişlər Azərbaycanda həll olunacaqdır. Burada xeyli iş yerləri yaradılıbdır. Qeyd etdiyim kimi, artıq burada 1250 nəfər işləyir

və bu iş yerlərinin sayı getdikcə artacaqdır. Yəni iqtisadi siyasətimizin bütün uğurları burada cəmləşir, öz əksini burada tapır.

Əlbəttə ki, zavodun tikintisi böyük məna daşıyır. Ona görə ki, bu gün belə zavodların tikintisi yalnız uğurla inkişaf edən ölkələrin imkan daxilində ola bilən bir məsələdir. Bu gün dünyanın müxtəlif yerlərində hələ ki, iqtisadi və maliyyə böhranı davam edir. Görün, Azərbaycana nə qədər böyük investisiyalar qoyulur, son həftələr, aylar ərzində iştirak etdiyim açılışlarda nə qədər böyük işlər görülür. İnfrastruktur yeniləşir, qaz xətləri çəkilir, yeni sənaye müəssisələri yaradılır. Bir ay bundan əvvəl mən böyük Sement zavodunun açılışında iştirak etmişəm. Qaradağ rayonunda artıq müasir Sement zavodu fəaliyyət göstərir, ikinci zavod tikilir. Əminəm ki, yaxın vaxtlarda biz sement istehsalında da artıq xarici idxaldan asılı olmayacağıq. Yəni ölkəmiz üçün lazım olan və həlli mümkün olan bütün layihələr Azərbaycanda icra edilməlidir. Bu, yeni iş yerlərinin açılması, ümumi daxili məhsulun artırılması və ölkəmizin güclü sənaye mərkəzinə çevrilməsi deməkdir.

Nəzərə almalıyıq ki, artıq Azərbaycanda mənim təşəbbüsümlə yaranmaqda olan texnoparklar layihəsi də uğurla icra edilir. Yaxın zamanlarda biz texnoparkın birinci nəticəsini görəcəyik. Mən tam əminəm ki, bizim siyasi baxışlar konsepsiyamız – «Azərbaycan – 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyası tam şəkildə öz həllini tapacaq və Azərbaycan güclü sənaye mərkəzi olacaqdır. Bu gün biz güclü iqtisadi mərkəzik. Bu gün biz nəqliyyat-logistika mərkəziyik. Biz güclü sənaye mərkəzi də olmalıyıq. Çünki gələcək sənayenin inkişafı ilə bağlı olmalıdır.

Nəqliyyat sektoruna gəldikdə qeyd etməliyəm ki, neftdən əldə edilmiş gəlirlərin bir hissəsi nəqliyyat infrastrukturunun yaradılmasına yönəldilibdir. Gəmiqayırma zavodunun tikintisi nəqliyyat sektoruna bir töhfədir. Çünki bizim çox əlverişli coğrafi vəziyyətimiz vardır. Azərbaycan təbii dəhlizlər üzərində yerləşir. Şimal–cənub, şərq–qərb dəhlizləri Azərbaycandan keçir. Ancaq əgər müasir logistika və nəqliyyat infrastrukturu olmasa, bu

yerləşmənin heç bir əhəmiyyəti olmayacaqdır. Ona görə bütün başqa sahələrlə yanaşı, nəqliyyat sektorunun inkişafına da böyük investisiyalar qoyulmuşdur, böyük diqqət göstərilmişdir. Son illərdə Azərbaycanda nəqliyyatın bütün növləri inkişaf etmişdir. Son 10 il ərzində 19 yük gəmisi, bərə, tanker, 31 təyyarə alınmışdır, 7 aeroport tikilmişdir.

Bakı–Tbilisi–Qars dəmir yolu tikilir. Bu da strateji əhəmiyyətə malik olan bir layihədir. Avtomobil yolları, bizim əsas avtomagistrallar və kənd yolları yenidən qurulur, çəkilir. Bakıda, bax, belə gözəl Gəmiqayırma zavodu tikilir. Ələt qəsəbəsində yeni Beynəlxalq Dəniz Ticarəti Limanı tikilir ki, o da Xəzər hövzəsində ən böyük ticarət limanı olacaqdır. Onun yükötürmə gücü ilkin mərhələdə 10 milyon, ondan sonra 20 milyon tona bərabər olacaqdır.

Gələcəkdə nəzərdə tutulan yükdaşımalarının artımı yeni infrastrukturun yaradılmasını tələb edir. Biz də bunu yaradırıq – Gəmiqayırma zavodu, yeni dəniz ticarəti limanı, Bakı–Tbilisi–Qars dəmir yolu, yeni aeroportlar. Bu gün artıq Azərbaycan yük təyyarələri üçün bir mərkəzə çevrilmişdir. Yəni biz çalışmalıyıq ki, Azərbaycanı müxtəlif istiqamətlər üzrə mərkəzə çevirək. Biz artıq buna nail oluruq. Azərbaycan Cənubi Qafqazın enerji mərkəzidir, iqtisadi mərkəzidir, dinlərarası münasibətlərin mərkəzidir, tolerantlıq mərkəzidir, sənaye mərkəzidir və nəqliyyat mərkəzidir.

Ancaq bu gün Azərbaycanın potensialı o qədər böyükdür və artım o qədər sürətlidir ki, əlbəttə, biz yalnız regional məsələlər ilə öz işimizi məhdudlaşdıra bilmərik. Bu gün bizim iqtisadi baxışlarımız, iqtisadi siyasətimiz, investisiya planlarımız artıq bölgə hüdudlarından kənara çıxıbdır. Bu gün Azərbaycan beynəlxalq təşkilatlara da öz vəsaitini ayırır, donor kimi öz fəaliyyətini təmin edir. Bu gün müxtəlif iqtisadiyyatların inkişafına Azərbaycan böyük həcmdə investisiya qoyur, kreditlər ayırır. Yəni tamamilə başqa bir vəziyyət yaranmışdır. 20 il bundan əvvəl xarici investisiyalar olmadan ölkəmiz inkişaf edə bilməzdi və Azərbaycanda xarici tərəfdaşlar üçün ən gözəl investisiya iqlimi

yaradılmışdır. Bu gün Azərbaycan öz investisiyalarını başqa bazarlara, başqa iqtisadiyyatlara yatırır ki, gələcəkdə bundan həm iqtisadi, həm siyasi cəhətdən daha da böyük səmərə görsün.

Bu gün bizim iqtisadi siyasətimiz, əlbəttə ki, yeni istiqamətdə inkişaf edir. Beynəlxalq maliyyə qurumlarının hesablamaları, ən mötəbər beynəlxalq təşkilatların reytinqləri Azərbaycanda gedən proseslərə yüksək qiymət verir. Böhranlı illərdə bəzi ölkələrin kredit reytinqləri düşdüyü halda, Azərbaycanın kredit reytinqləri 3 aparıcı reytinq şirkəti – «Fitch», «S&P» və «Moodys» tərəfindən qaldırılıbdır. Dünya İqtisadi Forumu – Davos Forumu ölkələrin rəqabətqabiliyyətliliyinə görə Azərbaycanı dünya miqyasında 39-cu yerə layiq görübdür. Yəni bu nə deməkdir? O deməkdir ki, biz dünyanın 40 aparıcı ölkəsinin iqtisadiyyatlarının rəqabətqabiliyyətliliyinə görə onlarla bərabər səviyyədəyik. Bu, böyük nəticədir, böyük nailiyyətdir. Biz MDB məkanında birinci yerdəyik. Adambaşına düşən birbaşa xarici sərmayələrin həcminə görə MDB məkanında birinci yerdəyik.

Mən bunları ona görə demirəm ki, biz özümüzü tərifləyək. Baxmayaraq ki, buna da imkanlar vardır. Ona görə deyirəm ki, bütün bu uğurlar, nailiyyətlər düşünülmüş siyasət nəticəsində mümkün olmuşdur. Ona görə deyirəm ki, biz bu nailiyyətlərlə kifayətlənməməliyik. Biz gələcəyə baxmalıyıq və baxırıq. Biz ölkəmizin inkişaf strategiyasını 20–30 il bundan qabağa planlaşdırırıq. Azərbaycanın sənaye potensialı, demoqrafik vəziyyət, bazarlara çıxışlarımız – biz bu barədə də düşünməliyik. Bizim bazarımız artıb. Ancaq Azərbaycanda olan potensial bizim mövcud bazarla o qədər də uzlaşmır. Biz yeni bazarlara çıxmalıyıq. Əlbəttə ki, regional bazarlara, dünya bazarlarına hazır məhsulla, rəqabətqabiliyyətli məhsulla çıxmalıyıq. Azərbaycanda yaradılan bütün böyük müəssisələr, bax, bu səviyyədə, dünyanın ən yüksək səviyyəsində olmalıdır.

Əminəm ki, dediyim məsələlər gələcəkdə öz həllini tapacaqdır. Biz həm regional inkişaf proqramımızın üçüncü hissəsini gələn il qəbul edəcəyik, eyni zamanda, sənaye və iqtisadi siyasətimizlə digər təşəbbüslər gələn ildən başlayaraq icra ediləcəkdir. Biz daim

inkişafda olmalıyıq, əldə edilmiş uğurlarla kifayətlənməməliyik. Daim axtarışda olmalıyıq ki, ölkəmizi daha da gücləndirək, Azərbaycan xalqının daha da yaxşı həyatını təmin edək.

Bir daha demək istəyirəm ki, zavodun tikintisi böyük hadisədir, tarixi hadisədir, əlamətdar hadisədir. Zavodun tikintisində iştirak etmiş bütün insanlara minnətdarlığımı bildirmək istəyirəm. Mən şadam və fəxr edirəm ki, Azərbaycanda artıq belə gözəl sənaye müəssisəsi yaradılıbdır. Zavodun işinə uğurlar diləyirəm. Sağ olun.

**L i Y i Ş y a n** *(Sinqapurun Ticarət və Sənaye Nazirliyinin Dövlət naziri):* Zati-aliləri prezident İlham Əliyev!

Nazirlər, hörmətli qonaqlar, xanımlar və cənablar!

Sabahınız xeyir. Bu gün Bakı Gəmiqayırma zavodunun açılışı mərasimində iştirak etməkdən şərəf hissi duyuram. Mən «Keppel Offshore & Marine» şirkətini, Azərbaycan Respublikasının Dövlət Neft Şirkətini və Azərbaycan İnvestisiya Şirkətini uzunmüddətli tərəfdaşlıq sahəsində əldə etdikləri bu cür mühüm nailiyyətə görə təbrik etmək istəyirəm.

Bu mənim Azərbaycana ilk səfərimdir. Mənə göstərilmiş səmimi qonaqpərvərliyə görə Zati-aliləri prezident İlham Əliyevə, Azərbaycan hökumətinə və «Keppel» şirkətinə təşəkkürümü bildirmək istəyirəm.

3 il öncə, 2010-cu ilin mart ayında Sinqapurun sabiq Xarici İşlər naziri Corc Yeo və Zati-aliləri prezident İlham Əliyev Bakı Gəmiqayırma zavodunun təməlqoyma mərasimində iştirak etmişlər. Bu gün mən böyük məmnuniyyət hissi ilə bu zavodun açılışı mərasimində iştirak etməyimdən çox şadam.

Sinqapur ilə Azərbaycan arasında çox səmimi və dost münasibətlər vardır. Mən məmnuniyyətlə qeyd edirəm ki, nazirlərimiz və rəsmilərimiz arasında son illər ərzində təmaslar artmışdır. Ötən ilin noyabr ayında biz böyük şərəf hissi ilə Zati-aliləri prezident İlham Əliyevi və onun nümayəndə heyətini Sinqapurda qəbul etdik. Bu, rəsmilərimiz və iş dairələrimiz üçün yeni münasibətlərin qurulması və yeni əməkdaşlıq sahələrinin müəyyən edilməsi üçün gözəl fürsət oldu.

İqtisadi əməkdaşlığımızın bəlli sahəsi neft və qaz sektorudur. Azərbaycan beynəlxalq neft şirkətləri üçün – hansılar ki, dənizdə neft və qaz yataqlarının işlənilməsi layihələrini həyata keçiriblər, o cümlədən Bakı–Tbilisi–Ceyhan və Bakı–Tbilisi–Ərzurum boru kəmərlərinin çəkilməsini başa çatdırıblar – mühüm imkanlar yaratmışdır. Baxmayaraq ki, Sinqapurda neft və qaz resursları yoxdur, lakin bizim çox güclü kimya və dənizdə əməliyyatlarda dəstəkləyici sənaye obyektlərimiz vardır. Bir çox Sinqapur şirkətləri, o cümlədən «Keppel» şirkəti neft və qaz şirkətlərinin əməliyyatlarına dəstək verir. «Keppel» və Dövlət Neft Şirkəti Xəzər Gəmiqayırma Şirkətinin Bakıda təsis edilməsi ilə öz tərəfdaşlığını başladı. Həmin vaxtdan etibarən onlar bir neçə ilk layihələrə imza atdılar. 2000-ci ildə Xəzər Gəmiqayırma Şirkəti Xəzər dənizinin Azərbaycan sektorunda yerləşdiriləcək ilk qazma qurğusunu – «Transocean» şirkətinin «Qurtuluş» qurğusunun tikintisini başa çatdırdı. 2003-cü ildə bu şirkət Xəzər dənizində qurulacaq ilk yarımdalma qurğusunun inşasını başa çatdırdı. 2009-cu ildə Xəzər Gəmiqayırma Şirkəti Rusiyanın «LUKoyl» şirkətinə Xəzər dənizində bu sinifdən olan ilk üzən yüksaxlama və yükboşaltma gəmisini təhvil verdi. Dəniz əməliyyatlarında öz təcrübəsi və xidmətlərinə görə beynəlxalq səviyyədə tanınan Sinqapurun inkişaf etmiş dəniz dəstəkləyici əməliyyatları sənayesi Azərbaycanın neft və qaz sektorunun inkişafına dəstək verə bilər. Əminəm ki, «Keppel» və Dövlət Neft Şirkəti Bakı Gəmiqayırma zavodundakı yeni tərəfdaşları ilə yeni müvəffəqiyyətlər əldə edəcəklər.

Neft və qazdan başqa, inanıram ki, biz nəqliyyat, şəhər infrastrukturu, tullantıların idarə edilməsi və su təchizatı sahələrində əməkdaşlıq üçün daha böyük potensiala malikik. Bir çox Sinqapur şirkətləri bu sahələrdə təcrübəyə malikdir. Biz şəhərin inkişafı ilə bağlı öz xarici tərəfdaşlarımız üçün müxtəlif variantları təqdim edə bilərik.

Mən həmçinin məmnuniyyətlə qeyd etmək istəyirəm ki, bizim azərbaycanlı dostlarımız Sinqapuru Azərbaycanın Asiyada əməliyyatlarının artımı üçün gözəl məkan hesab edirlər. Bu

baxımdan coğrafi mövqemizi nəzərə alaraq bu, ASEAN (Cənub-Şərqi Asiya Dövlətləri Assosiasiyası) təşkilatı regionuna və dünyaya aparan strateji yoldur. Asiya ilə gözəl münasibətlər, həmçinin biznes üçün əlverişli şəraitlər deməkdir. Bütövlükdə 620 milyonluq əhalinin yaşadığı ASEAN regionu şirkətlər üçün bazara və sərmayəyə yönəlmiş cəlbedici məkandır.

Yekun olaraq, mən azərbaycanlı dostlarımızı həvəsləndirirəm, gəlin Sinqapura səfər edin. Beləliklə, biz bir-birimizi daha yaxşı tanıyacağıq və yeni imkanların açılması üçün yol açacağıq. «Keppel»i, Dövlət Neft Şirkətini və Azərbaycan İnvestisiya Şirkətini Bakı Gəmiqayırma zavodunun tikintisinin başa çatdırılması münasibətilə təbrik edirəm.

Çox sağ olun.

* * *

*Zavodda yaradılan şəraitlə tanışlığı davam etdirən prezident İlham Əliyevə məlumat verildi ki, burada hazır gəmiləri suya salmaq, o cümlədən təmir ediləcək gəmiləri sahildə hazırlanan sahəyə qaldırmaq və təmirdən sonra suya salmaq üçün uzunluğuna görə Xəzər dənizində ən böyük üzən quru dok tikilib.*

*Dövlətimizin başçısı üzən quru doka adqoyma mərasimində iştirak etdi.*

*Qeyd edildi ki, zavodda tikiləcək gəmilər arabacıqlarla ötürmə zonasına gətirilir və xüsusi sistem vasitəsilə sahilə bərkidilən, gəminin qəbulu üçün hazırlanmış üzən doka ötürülür. Bu proses başa çatdıqdan sonra üzən quru dok dənizdə lazımi dərinlik yerinə gəlir və gəmi suya salınır. Bundan sonra tamamlama körpüsündə yoxlama-sınaq işləri aparılır və gəmi sifarişçiyə təhvil verilir. Zavodun tikinti layihəsinin ikinci mərhələsində yeni quru dokun, əlavə istehsal və körpü sahələrinin inşası planlaşdırılır.*

## UEFA-nın PREZİDENTİ MİŞEL PLATİNİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*21 sentyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 21-də UEFA-nın prezidenti Mişel Platinini qəbul etmişdir.*

*Görüşdə Azərbaycanda idmanın müxtəlif növlərinin inkişaf etdirilməsi ilə bağlı görülən işlərin önəmi qeyd olundu, müasir idman infrastrukturunun yaradılması istiqamətində ölkəmizdə həyata keçirilən tədbirlər yüksək qiymətləndirildi. Söhbət zamanı Azərbaycan ilə UEFA arasında uğurlu əməkdaşlığa, ölkəmizdə futbolun inkişafı istiqamətində islahatların aparılmasına dair məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

**ALMANİYA FEDERATİV RESPUBLİKASININ FEDERAL KANSLERİ XANIM ANGELA MERKELƏ**

Hörmətli xanım Federal Kansler!

Başçılıq etdiyiniz siyasi birliyin parlament seçkilərində inamlı qələbəsi münasibətilə Sizi ürəkdən təbrik edirəm. Bu qələbə həyata keçirdiyiniz siyasətin Almaniya cəmiyyəti tərəfindən dəstəklənməsinin, şəxsən Sizə bəslənən inam və etimadın təzahürüdür.

Ümidvaram ki, Azərbaycan Respublikası ilə Almaniya Federativ Respublikası arasındakı dostluq münasibətlərinin daim möhkəmləndirilməsi, qarşılıqlı surətdə faydalı əməkdaşlığımızın daha da genişləndirilməsi, ikitərəfli və çoxtərəfli qaydada birgə işimizin müvəffəqiyyətlə davam etdirilməsi üçün bundan sonra da birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Almaniya xalqının rifahı naminə fəaliyyətinizdə yeni-yeni uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 sentyabr 2013-cü il*

# AVROPA MİLLİ KİTABXANALARI KONFRANSININ PREZİDENTİ BRUNO RASİNE VƏ AVRASİYA KİTABXANALAR ASSAMBLEYASININ VİTSE-PREZİDENTİ QULİSA BALABEKOVA İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*23 sentyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 23-də Avropa Milli Kitabxanaları Konfransının prezidenti Bruno Rasineni və Avrasiya Kitabxanalar Assambleyasının vitse-prezidenti Qulisa Balabekovanı qəbul etmişdir.*

*Avropa Milli Kitabxanaları Konfransının növbəti toplantısının Azərbaycanda keçirilməsinin əhəmiyyətini vurğulayan dövlətimizin başçısı tədbirdə dünyanın müxtəlif ölkələrini təmsil edən nümayəndələrin iştirakının önəmini qeyd etdi. Prezident İlham Əliyev konfransda müzakirə olunacaq məsələlərin kitabxana işinin inkişaf etdirilməsi ilə bağlı beynəlxalq əməkdaşlığın genişləndirilməsinə töhfə verəcəyinə əminliyini ifadə etdi. Dövlətimizin başçısı qonaqların ölkəmizə bu səfərinin Azərbaycan ilə yaxından tanış olmaq üçün yaxşı imkan yaradacağına ümidvar olduğunu bildirdi.*

*Ölkəmizə ilk səfərlərindən məmnunluğunu bildirən Avropa Milli Kitabxanaları Konfransının prezidenti Bruno Rasine Bakının mərkəzində Azərbaycan Milli Kitabxanasının binasının onlarda dərin təəssürat yaratdığını dedi. III Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkasının açılışı mərasimində və Azərbaycan Milli Kitabxanasının 90 illik yubiley tədbirində iştirak edəcəklərini vurğulayan qonaq Avropa Milli Kitabxanaları Konfransının növbəti toplantısının Bakıda keçirilməsinin əhəmiyyətini qeyd etdi.*

## ATƏT-in DEMOKRATİK TƏSİSATLAR VƏ İNSAN HAQLARI BÜROSUNUN SEÇKİLƏRİ MÜŞAHİDƏ MİSSİYASININ RƏHBƏRİ XANIM TANA DE ZULUETA İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*24 sentyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 24-də ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun seçkiləri müşahidə missiyasının rəhbəri xanım Tana de Zuluetanı qəbul etmişdir.*

*Görüşdə Azərbaycanda qarşıdan gələn prezident seçkiləri üzrə görülən hazırlıq işlərinin vəziyyəti və seçkilərin keçirilməsi ilə bağlı məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı.*

**KENİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB UHURU KENİATTAYA**

Hörmətli cənab Prezident!

Nayrobi şəhərindəki ticarət mərkəzində törədilmiş terror aktı nəticəsində çox sayda insanın həlak olması və yaralanması xəbəri bizi olduqca kədərləndirdi.

Biz bu dəhşətli hadisədən son dərəcə hiddətlənir, terrorizmə qarşı mübarizəni qətiyyətlə dəstəkləyirik.

Baş vermiş faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Keniya xalqına Azərbaycan xalqı adından və öz adımdan dərin hüznlə başsağlığı verir, yaralananların və xəsarət alanların tezliklə sağalmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 sentyabr 2013-cü il*

## BAKININ NİZAMİ RAYONUNDA İSTİFADƏYƏ VERİLMİŞ 204 SAYLI ELEKTRİK YARIMSTANSİYASININ AÇILIŞINDA İŞTİRAK

*25 sentyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 25-də Bakının Nizami rayonu ərazisində istifadəyə verilmiş 110/35/6 kV-luq 204 saylı yarımstansiyasının açılışında iştirak etmişdir.*

*Azərbaycanda həyata keçirilən sürətli sosial-iqtisadi inkişaf ölkə həyatının bütün sahələrində, o cümlədən elektrik enerjisi təchizatı ilə bağlı müasir infrastrukturun yaradılması istiqamətində mühüm nailiyyətlərin əldə olunmasına əlverişli şərait yaradıb. «Bakıelektrikşəbəkə»nin fəaliyyəti bərpa olunduqdan sonra paytaxt və ətraf ərazilərin elektrik enerjisi ilə təchizatının yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər görülməyə başlanılıb. Bu sahədə həyata keçirilən uğurlu dövlət siyasəti nəticəsində paytaxtın və Abşeronun fasiləsiz və dayanıqlı elektrik enerjisi ilə təchizatı təmin olunmuş, şəbəkədə itkilər minimuma endirilmiş, ötürücülük qabiliyyəti artırılmış, qəza açılmaları aradan qaldırılmışdır. Göstərilən dövlət qayğısı nəticəsində «Bakıelektrikşəbəkə» keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. Görülən tədbirlər sayəsində paytaxtda dairəvi təchizat sistemi yaradılmış və bu sistemin tətbiq olunması paylayıcı və ötürücü şəbəkələrin dayanıqlılığını artırmaqla bərabər, operativliyi də təmin etmişdir.*

*Bakı şəhərinin Nizami rayonu ərazisində 110/6 kV-luq 204 saylı yarımstansiyanın əsaslı şəkildə yenidən qurulması da bu sahədə həyata keçirilən ardıcıl tədbirlərin davamıdır. Bu yarımstansiya Heydər Əliyev adına Neft Emalı zavodunu və ətrafdakı digər sənaye obyektlərini elektrik enerjisi ilə təchiz etmək üçün 1980-ci*

ildə inşa edilmişdi. Ötən müddət ərzində yarımstansiyadakı avadanlıqlar istismar müddətini başa vurmuşdu. Yarımstansiya artıq müasir tələblərə cavab vermirdi. Son illər respublikada, o cümlədən Bakı şəhərində həyata keçirilən sürətli sosial-iqtisadi inkişaf, ətraf ərazilərdə inşa edilən Milli Gimnastika Arenasının, Olimpiya stadionunun, Olimpiya şəhərciyinin, müxtəlif yol infrastrukturunun, Heydər Əliyev prospekti boyu inşa edilən yeni obyektlərin istifadəyə verilməsi dayanıqlı, fasiləsiz elektrik enerjisinə olan tələbatı artırmışdı. Bu məqsədlə nəzərdə tutulmuş investisiya proqramına uyğun olaraq köhnə 110/6 kV-luq yarımstansiya əsaslı şəkildə yenidən qurularaq müasir qapalı tipli 110/35/6 kV-luq 204 saylı yarımstansiya tikilib istismara verilmişdir. Yuxarıda adıçəkilən obyektləri və çoxsaylı yaşayış binalarını elektrik enerjisi ilə təchiz etmək üçün 110/35/6 kV-luq 204 saylı yarımstansiyadan qidalanan 3 yeni 35/6 kV-luq «Koroğlu», 208 və 217 saylıi yarımstansiyalar da inşa edilmişdir. Bu yarımstansiyalar qapalı tipli olmaqla, eleqaz və vakuum tipli avadanlıqlar, elektron rele mühafizəsi sistemi quraşdırılmaqla SCADA sisteminə qoşulmuşdur.

Dövlətimizin başçısı əsaslı şəkildə yenidən qurulan müasir tipli yarımstansiyada yaradılan şəraitlə tanış oldu.

Prezident İlham Əliyev yarımstansiyada ulu öndər Heydər Əliyevin elektroenergetikanın inkişaf etdirilməsi istiqamətində göstərdiyi fəaliyyəti əks etdirən fotoguşəyə baxdı.

«Bakıelektrikşəbəkə» ASC-nin İdarə Heyətinin sədri Baba Rzayev yarımstansiyada görülən işlərlə bağlı prezident İlham Əliyevə məlumat verdi.

İnşa olunan yarımstansiyaların əvvəlki vəziyyətindən və yenidənqurmadan sonra yarımstansiyaların birləşmə sistemindən bəhs edən görüntülər nümayiş etdirildi.

Dövlətimizin başçısı Dispetçer İdarəetmə Mərkəzindən kompüter vasitəsilə yarımstansiyanı işə saldı.

Bildirildi ki, əgər əvvəllər köhnə yarımstansiya açıq tipli paylayıcı qurğusu və yardımçı binaları ilə birlikdə 5 min kvadratmetrdən artıq ərazini əhatə edirdisə, əsaslı yenidənqurma işlərindən sonra yeni qapalı tipli yarımstansiya 1800 kvad-

*ratmetrdən artıq ərazidə yerləşdirilib. Ümumi sahəsi 3200 kvadratmetrə yaxın olan yarımstansiyanın binası zirzəmisi ilə birlikdə 3 mərtəbədən ibarətdir.*

*Dövlətimizin başçısı yarımstansiyanın ayrı-ayrı sahələrində yaradılan şəraitlə yaxından tanış oldu.*

*Diqqətə çatdırıldı ki, yarımstansiyanın zirzəmi qatında müxtəlif gərginlikli giriş və çıxış kabelləri yerləşdirilib. Birinci mərtəbədə Dispetçer İdarəetmə Mərkəzi, 35 və 6 kV-luq qapalı paylayıcı qurğular, reaktorlar, transformator bölmələri, əməkdaşlar üçün iş otaqları, mətbəx və digər yardımçı otaqlar vardır. Yarımstansiyanın 2-ci mərtəbəsində 110 kV-luq elektrik avadanlıqları quraşdırılmışdır. Yarımstansiya havalandırma və yanğına qarşı xəbərdarlıq sistemləri ilə təmin olunub.*

*Yarımstansiyanın istismara verilməsi ilə şəbəkədə 8 faiz güc artımı yaradılmış, ümumiyyətlə, «Bakıelektrikşəbəkə» ASC-nin fəaliyyətə başladığı 2006-cı ildən indiyədək şəbəkədə güc artımı 90 faizə çatmışdır. İstismara verilən yarımstansiyalar texniki və texnoloji baxımdan ən müasir avadanlıqlarla və idarəetmə sistemi ilə təmin olunub. Yeni yarımstansiyaların ərazilərində abadlıq və yaşıllaşdırma işləri aparılıb.*

*Yarımstansiyada yaradılan şəraitlə tanışlıqdan sonra prezident İlham Əliyev kollektivlə görüşdü.*

*«Bakıelektrikşəbəkə»nin kollektivi adından çıxış edən Baxış Babayev elektrik enerjisi sektorunda əldə olunan böyük uğurlara görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.*

**İ l h a m Ə l i y e v:** Yarımstansiyanın açılışı münasibətilə sizi təbrik edirəm. Mən son illərdə yeni yarımstansiyaların açılışlarında dəfələrlə iştirak etmişəm. Hər dəfə bu yenilikləri görəndə mən də sizin qədər sevinirəm. Çünki bu gün Bakının elektrik təsərrüfatı yeniləşir, müasirləşir.

Son illər ərzində bu sahəyə qoyulan investisiyalar yarımstansiyaların tikintisində də özünü göstərməkdədir. Siz də, mən də yaxşı xatırlayırıq ki, vaxtilə Bakı Elektrik Şəbəkəsi xarici firmaya idarəetməyə verilmişdi. Bu işin nəticəsində, demək olar ki, olan-qalan təsərrüfat da tamamilə dağıdılmışdı. Bakıda

saatlarla fasilələr yaranırdı, elektrik təchizatı çox aşağı səviyyədə idi və bu da əhalinin haqlı narazılığına səbəb olurdu.

Bir neçə il bundan əvvəl mənim göstərişimlə Bakı Elektrik Şəbəkəsi dövlətə qaytarıldı. İdarəetmə artıq dövlət nəzarətinə keçdi və yeni inkişaf dövrü başlandı. Həm şəbəkənin əməkdaşları peşəkarlıq nümayiş etdirmişlər, eyni zamanda, həm də dövlət büdcəsində hər il şəbəkənin inkişafına əsaslı vəsait, kapital qoyuluşu nəzərdə tutulur. Bax, bu 2 istiqamətin inkişafı nəticəsində bu gün Bakıda elektrik təsərrüfatı ən yüksək səviyyədədir. Burada ən müasir avadanlıqlar quraşdırılıbdır, ən gözəl texnoloji şərtlər tətbiq olunubdur. Sevindirici hal ondan ibarətdir ki, burada quraşdırılan avadanlığın böyük əksəriyyəti Azərbaycanda istehsal olunur. Yəni dövlət tərəfindən qoyulan investisiyalar özəl sektorun inkişafına da təkan vermişdir. Beləliklə, biznes mühiti bu imkanlardan istifadə edir. Bildiyiniz kimi, növbəti illər üçün Azərbaycanda istehlak edilən bütün mallar ölkəmizdə istehsal olunmalıdır, istər ərzaq məhsulları olsun, istər tikinti materialları, yaxud da ki, müasir avadanlıq.

Bu istiqamətdə aparılan işlər, əlbəttə ki, hamımızı çox sevindirir. Son 10 il ərzində Azərbaycanda 2800 meqavata qədər yeni enerji gücü yaradılmışdır, 14 elektrik stansiyası tikilmişdir. Demək olar ki, bizim mövcud olan enerji potensialımızın 50 faizi son 10 ildə yaradılmışdır.

Əlbəttə, belə olan halda həm Bakıda, həm bölgələrdə şəbəkələrin inkişafı xüsusi əhəmiyyət daşıyır. Bizim indi kifayət qədər enerji gücümüz, stansiyalarımız var. Bizim bir dənə də olsun elektrik stansiyamız artıq köhnə qayda ilə işləmir. Şərti yanacağın sərfiyyatı da çox aşağı səviyyədədir. Beləliklə, biz Bakıda, bax, bu şəbəkənin yeniləşməsi ilə bağlı olan əsas məsələləri həll etmişik. İndi mənə məlumat verildi ki, hələ 12 yarımstansiyanın təmirinə ehtiyac vardır, eyni zamanda, bölgələrdə.

Mən indi bölgələrdə tez-tez oluram. Bizdə elə yerlər vardır ki, orada şəbəkələr yaxşı vəziyyətdə deyildir. Bu gün «Azərenerji»yə tapşırıq verilmişdir ki, bölgələrdə də şəbəkələri

normal səviyyəyə çatdıraq ki, heç bir fasilə olmasın. Əslində fasilə olmamalıdır. Çünki kifayət qədər enerji gücümüz var. Fasilə ondan olur ki, bəzi şəbəkələr, xətlər nasaz vəziyyətdədir. O köhnə dirəklər, ağac dirəklər hələ də vardır. Onlar tədricən aradan götürüləcək və Bakıda yüksəkgərginlikli xətlər yerin altına salınacaqdır, necə ki, bax, burada mənə göstərildi.

Ona görə biz gələcəyə nikbinliklə baxırıq. Mən əminəm ki, növbəti illərdə Bakı Elektrik Şəbəkəsinin sərəncamında olan bütün təsərrüfat ən yüksək səviyyədə – bu səviyyədə olacaqdır.

Nəzərə alsaq ki, ölkəmiz və Bakı inkişaf edir, biz tələbatı qabaqlamalıyıq. Bu zonada tikilən Olimpiya stadionu, Milli Gimnastika Arenası, Neft Şirkətinin ofisi, Dövlət Neft Fondunun ofisi, digər ofis binaları və sənaye müəssisələri tələb edir ki, bizdə enerji güclərimiz tələbatı daim üstələsin. Biz bu yolla gedəcəyik. Əminəm ki, gələcəkdə yeni yarımstansiyaların tikintisinə ehtiyac olacaq. Çünki Azərbaycanın inkişafı o qədər güclüdür ki, 5–10 ildən sonra indiki güclər bizə kifayət etməyəcəkdir.

Mən çox şadam ki, Bakı Elektrik Şəbəkəsi uğurla fəaliyyət göstərir. Qeyd etməliyəm ki, şəbəkənin tam şəkildə dövlətə qayıtması barədə vaxtilə qəbul etdiyim qərar öz səmərəsini verməkdədir. Siz – şəbəkənin əməkdaşları bunu bilirsiniz, bu fərqi görürsünüz. Görürsünüz ki, strateji obyekt dövlətin əlində olanda burada nəzarət də, investisiya da və inkişaf da olacaqdır.

Biz indi bazar iqtisadiyyatı şəraitində yaşayırıq. İqtisadiyyatımızın 85 faizi özəl sektorda formalaşır. Demək olar ki, iqtisadiyyatımızın əsas hissəsi özəl sektora məxsusdur. Ancaq strateji obyektlər mütləq dövlətin sərəncamında olmalıdır. Bu obyektlər insanlara qulluq edir. Bu obyektlərə qoyulan vəsait kommersiya xarakteri daşımır. «Barmek» olanda bu şəbəkəyə yalnız gəlir mənbəyi kimi baxırdılar. Baxırdılar ki, harada daha nə oğurlasınlar. Ancaq bu obyektlərə dövlət sərmayəsinin qoyuluşu sırf sosial xarakter daşıyır.

Ona görə strateji obyektlər dövlətin sərəncamında olmalıdır. Postsovet məkanında, hesab edirəm ki, Azərbaycanın təcrübəsi

özünü doğrultdu. Bizdə bütün strateji obyektlər dövlətin əlindədir. Dövlət bu obyektləri saxlamaqla inkişaf etdirir, insanlara xidmət göstərir.

Mən bir daha sizi bu gözəl hadisə münasibətilə təbrik edirəm.

**PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏMNUN HÜSEYNƏ**

Hörmətli cənab Prezident!

Bəlucistan vilayətində baş vermiş güclü zəlzələ nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar barədə xəbər bizi son dərəcə kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Pakistan xalqına Azərbaycan xalqı adından və şəxsən öz adımdan dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyir, zəlzələnin nəticələrinin tezliklə aradan qaldırılmasını arzulayıram.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *26 sentyabr 2013-cü il*

## BÖYÜK BRİTANİYA BAŞ NAZİRİNİN TİCARƏT ÜZRƏ ELÇİSİ, LORDLAR PALATASININ ÜZVÜ LORD RİSBİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*26 sentyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 26-da Böyük Britaniya Baş nazirinin ticarət üzrə elçisi, Lordlar Palatasının üzvü Lord Risbinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə son illər Azərbaycanın əldə etdiyi sürətli iqtisadi inkişafdan məmnunluq ifadə olundu, Azərbaycan Dövlət Neft Şirkəti ilə bp arasında uzunmüddətli uğurlu əməkdaşlığın önəmi qeyd olundu, ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif istiqamətlərdə, o cümlədən iqtisadi, enerji, ticarət, qarşılıqlı sərmayə qoyuluşu, informasiya-kommunikasiya texnologiyaları, kənd təsərrüfatı, təhsil, səhiyyə, turizm, regional təhlükəsizlik və digər sahələrdə daha da inkişaf etdirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## BAKI–2017 IV İSLAM HƏMRƏYLİYİ OYUNLARININ TƏŞKİLAT KOMİTƏSİ TƏRƏFİNDƏN «İSLAMİADA»YA HƏSR OLUNMUŞ «AZƏRBAYCAN GÜNÜ» MƏRASİMİNƏ VİDEOMÜRACİƏT

*26 sentyabr 2013-cü il*

*Sentyabrın 25-də İndoneziyanın Palembanq şəhərində Bakı–2017 IV İslam Həmrəyliyi oyunlarının Təşkilat Komitəsi tərəfindən ölkəmizin paytaxtında keçiriləcək «İslamiada»ya həsr olunan «Azərbaycan günü» təşkil edilmişdir.*

*Mərasimdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin videomüraciəti səsləndirildi.*

*Bu il iyulun 21-dən 25-dək Səudiyyə Ərəbistanının Ciddə şəhərində İslam Həmrəyliyi İdman Federasiyasının 8-ci hesabat-seçki Baş Assambleyası keçirilib. Assambleyada səsvermə zamanı tam yekdilliklə Azərbaycanın 2017-ci ildə IV İslam Həmrəyliyi oyunlarına ev sahibliyi etməsi haqqında qərar qəbul edilib.*

*Bu qərar iqtisadi qüdrətini getdikcə artıran Azərbaycanda son illərdə idmanın inkişafı istiqamətində həyata keçirilən tədbirlərin əhəmiyyətini bir daha nümayiş etdirir. Ölkəmizin dünyada olimpiya məkanı kimi tanınması, geniş idman infrastrukturuna malik Azərbaycanın dünya miqyaslı yarışlara ev sahibliyi etməsi və idmançılarımızın beynəlxalq turnirlərdə qazandığı uğurlar IV İslam Həmrəyliyi oyunlarının Bakıda keçirilməsi ilə bağlı qərarın qəbul olunmasına təsir edən mühüm amillər sırasındadır.*

*Hazırda III İslam Həmrəyliyi oyunlarının keçirildiyi İndoneziyanın Palembanq şəhərində təşkil olunmuş «Azərbaycan günü»ndə dövlətimizin başçısı İlham Əliyevin videomüraciəti səsləndirilmişdir. Videomüraciətdə deyilir:*

– «Zati-aliləri, Milli Olimpiya komitələrinin üzvləri, əziz dostlar!

Mən sizi növbəti İslam Həmrəyliyi oyunlarına ev sahibliyi edəcək Azərbaycanın paytaxtı Bakıdan salamlayıram. Fürsətdən istifadə edərək, mən bizim namizədliyimizi dəstəkləyən və Azərbaycana etimad göstərənlərə minnətdarlığımı bildirmək istərdim. Biz idmançıların və turistlərin ölkəmizdə özlərini evlərindəki kimi hiss etmələri üçün bu oyunların tarixində ən yaxşılarından birini təşkil etmək üçün əlimizdən gələni əsirgəməyəcəyik.

Azərbaycan İslam Həmrəyliyi oyunlarına güclü dəstək verən ölkədir. Ümumilikdə, biz müsəlman dünyasında əməkdaşlıq, tərəfdaşlıq və həmrəyliyin gücləndirilməsi kimi, müsbət meyilləri tam şəkildə dəstəkləyirik. Biz fəxr edirik ki, Bakı 2009-cu il üçün «İslam mədəniyyətinin paytaxtı» seçilmiş və Azərbaycanın digər qədim şəhəri olan Naxçıvan isə 2018-ci ildə «İslam mədəniyyətinin paytaxtı» olacaqdır.

Azərbaycan sürətlə inkişaf edən ölkədir. Azərbaycanın iqtisadiyyatı son 10 ildə dünyada ən sürətlə inkişaf edən iqtisadiyyat olmuşdur. Əminəm ki, bu fakt da Bakının İslam Həmrəyliyi oyunlarına ev sahibi seçilməsində öz rolunu oynamışdır.

Son 10 il ərzində iqtisadiyyatımız 3 dəfədən çox artmışdır və biz infrastruktura, o cümlədən idman infrastrukturuna böyük sərmayələr yatırmışıq. Beləliklə, biz oyunlara yaxşı hazırlaşmaq və qonaqlarımızı ən yaxşı şərait və xidmətlərlə təmin etmək üçün əlimizdən gələni edəcəyik. Bizim artıq mühüm beynəlxalq tədbirlərin, o cümlədən dünya və Avropa çempionatlarının keçirilməsində təcrübəmiz vardır. Eyni zamanda, Bakı 2015-ci ildə keçiriləcək Avropa oyunlarının ilk paytaxtı seçilmişdir. Daha sonra isə 2017-ci ildə biz İslam Həmrəyliyi oyunlarına ev sahibliyi edəcəyik.

Azərbaycan böyük tarixə, ənənələrə və mədəniyyətə malik bir ölkədir, sivilizasiyaların kəsişməsində yerləşir. Əsrlər boyu müxtəlif etnik qrupların və dinlərin nümayəndələri Azər-

baycanda sülh və əmin-amanlıq şəraitində yaşamışlar. Biz fəxr edirik ki, Azərbaycan dünyanın multikulturalizm və sivilizasiyalararası dialoq paytaxtlarından biridir. Biz tarixi və dini abidələrimizi qoruyur, təmir və bərpa edirik. Dünyanın ən qədim məscidlərindən biri olan Şamaxı Cümə məscidi tamamilə bərpa və təmir edilərək, bu il istifadəyə verilmişdir. Bu məscid 743-cü ildə tikilmişdir. Biz ölkəmizi təqdim etmək üçün səylərimizi əsirgəməyəcəyik. Əminəm ki, idmançılarla yanaşı, çoxlu sayda turistlər və bir çox başqa insanlar – qardaşlarımız Azərbaycan haqqında daha çox öyrənəcəklər.

Əminəm ki, bu oyunlar xalqlarımız arasında birlik və həmrəyliyin gücləndirilməsində çox əhəmiyyətli addım olacaqdır. Əminəm ki, Bakıda keçiriləcək İslam Həmrəyliyi oyunları birlik, qardaşlıq və dostluq oyunları olacaqdır. Mən sizin hamınızı 2017-ci ildə Azərbaycanda salamlamağı səbirsizliklə gözləyirəm. Bakıda görüşənədək».

* * *

*Prezident İlham Əliyevin müraciəti yerli və xarici media tərəfindən geniş işıqlandırılmışdır. Bütövlükdə bu tədbirdə 46 iştirakçı dövləti təmsil edən Milli Olimpiya komitələrinin prezidentləri və baş katibləri, İslam Həmrəyliyi İdman Federasiyasının rəhbərliyi, hazırkı oyunların Təşkilat Komitəsinin və İndoneziya hökumətinin səlahiyyətli nümayəndələri və digər rəsmi şəxslər iştirak etmişlər.*

*Mərasim iştirakçıları Azərbaycanın idman uğurlarını yüksək qiymətləndirmiş və ölkəmizin IV İslam Həmrəyliyi oyunlarının 2017-ci ildə Bakıda yüksək səviyyədə təşkil ediləcəyinə əminliklərini bildirmişlər.*

*Tədbirdə Azərbaycan mədəniyyəti və idman tarixi ilə bağlı videoçarx göstərilib, ölkəmizdə mövcud olan möhtəşəm idman qurğuları ilə bağlı fotostendlər nümayiş etdirilib.*

*Onu da deyək ki, İndoneziyada keçirilən III İslam Həmrəyliyi oyunlarında indiyə qədər Azərbaycan atletləri 9 medal qazanıblar. Bunlardan 3-ü qızıl, 4-ü gümüş, 2-si isə bürünc medallardır.*

## ŞABRAN RAYONU ƏRAZİSİNDƏ İNŞA OLUNAN TAXTAKÖRPÜ SU ANBARI, TAXTAKÖRPÜ SU-ELEKTRİK STANSİYASI VƏ TAXTAKÖRPÜ–CEYRANBATAN SU KANALININ AÇILIŞI MƏRASİMİ

*28 sentyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva sentyabrın 28-də Samur–Abşeron suvarma sisteminin yenidən qurulması layihəsi çərçivəsində Şabran rayonu ərazisində inşa edilən Taxtakörpü su anbarı, 25 meqavatlıq Taxtakörpü Su-Elektrik Stansiyası və Taxtakörpü–Ceyranbatan su kanalının açılışı mərasimində iştirak etmişlər.*

*Azərbaycanın müstəqilliyinin ilk illərində meliorasiya və irriqasiya sistemi bərbad vəziyyətə düşmüşdü. Ulu öndər Heydər Əliyev ilk xarici sərmayəni bu sahəyə yönəltməklə həmin kompleksin beynəlxalq standartlar səviyyəsində yenidən qurulmasına start vermişdi. Samur–Abşeron suvarma sisteminin yenidən qurulmasına da kəskin ehtiyac duyulurdu. Tezliklə bu layihə çərçivəsində Azərbaycan–Rusiya sərhədində yerləşən, Samur çayı üzərindəki baş hidroqovşaq, baş suqəbuledici və Samur–Abşeron kanalının ilk 50 kilometrlik hissəsi əsaslı təmir edilmiş, həmçinin ən müasir standartlara cavab verən Xanarx kanalı, baş sudurulducu qurğu və 188 kilometr uzunluğunda təsərrüfatlararası beton kanallar inşa olunmuşdur.*

*2007-ci ildə isə Taxtakörpü su anbarı, Taxtakörpü Su-Elektrik Stansiyası, Vəlvələçay–Taxtakörpü və Taxtakörpü–Ceyranbatan kanallarının inşasına başlanılıb. «Meliorasiya və Su Təsərrüfatı» ASC-nin sifarişçisi olduğu həmin layihəni «Azərkörpü» – indi Avropa–Asiya İnşaat Korporasiyası «Evraskon» Açıq Səhmdar Cəmiyyəti adlanan iqtisadi qurumun*

rəhbərlik etdiyi konsorsium həyata keçirib. Cəmi bir neçə il ərzində Vəlvələçaydan Ceyranbatan gölünə qədər uzanan və mürəkkəb relyefi ilə seçilən ərazidə böyük həcmdə işlər görülüb. İlk növbədə, Vəlvələçay–Taxtakörpü kanalının təxminən 11 kilometrlik hissəsi istismara hazır olmuş, 2011-ci il avqustun 15-də rəsmi açılışı mərasimi keçirilmişdir. Vəlvələçay–Taxtakörpü kanalının tikintisinin ilk mərhələsi İslam İnkişaf Bankının vəsaiti hesabına aparılıb. Ən müasir inşaat işlərində olduğu kimi, burada da kanalın beton üzlüyü xüsusi betondöşəyən maşınlar vasitəsilə qoyulmuşdur.

2013-cü il iyulun 19-da isə 34 kilometr uzunluğunda Vəlvələçay–Taxtakörpü kanalının ikinci hissəsinin istismara buraxılması və Taxtakörpü su anbarına suyun verilməsinə başlanılması münasibətilə növbəti rəsmi mərasim keçirildi. Vəlvələçay–Taxtakörpü kanalının ikinci hissəsi və onun sutullayıcı qurğusu Azərbaycan Respublikası Dövlət Neft Fondunun vəsaiti hesabına inşa edilib. Olduqca çətin və mürəkkəb relyefli ərazilərdən keçən bu kanal üzərində 57 mükəmməl hidrotexniki qurğu quraşdırılıb. Samur çayından götürülən su öz axarı ilə Vəlvələçay–Taxtakörpü kanalı ilə Taxtakörpü su anbarına ötürülür.

«Meliorasiya və Su Təsərrüfatı» Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadə Azərbaycan Prezidentinə və xanımına bu irimiqyaslı layihə üzrə aparılan işlər və mühüm hidrotexniki qurğular barədə ətraflı məlumat verdi.

Qeyd edildi ki, dövlətimizin başçısının tapşırığına uyğun olaraq su anbarı və su-elektrik stansiyası Azərbaycan Respublikası Dövlət Neft Fondundan ayrılan vəsait hesabına tikilib. Taxtakörpü su anbarının sahəsi 8,71 kvadratkilometrdir. Bu qurğunun ümumi su tutumu isə 270 milyon kubmetrdir. Gölün faydalı su həcmi 238,4 milyon kubmetrdir. Gil nüvəli torpaq bənd olan bu hidrotexniki qurğunun dibdən eni 754, hündürlüyü 142,5 metrdir. Bu nəinki regionda, o cümlədən Avropada ən hündür torpaq bəndlərdən biridir. Buradakı qəza sutullayıcının uzunluğu 891, suqəbuledici qurğunun uzunluğu

43,6, enerji tunelinin uzunluğu isə 543 metrdir. Qapı şaxtası 56 metr dərinlikdədir. Burada müasir işıqlandırma sistemi quraşdırılıb, ərazidəki yollara asfalt döşənilib. Bakı–Rusiya Federasiyası dövlət sərhədi magistral avtomobil yolundan Taxtakörpü su anbarına ayrılan yol boyunca, həmçinin bütün ərazidə böyük həcmdə abadlıq və yaşıllaşdırma işləri həyata keçirilib. Təkcə Taxtakörpü su anbarının bəndinin gövdəsində 23 milyon kubmetrdən çox torpaq işi görülüb. Ümumilikdə Taxtakörpü su anbarı, Vəlvələçay–Taxtakörpü və Taxtakörpü–Ceyranbatan kanallarının inşasında 86 milyon kubmetrdən çox torpaq, 817 min kubmetr dəmir-beton, eləcə də 62,7 min ton metal və armatur işləri yerinə yetirilib. Tikintinin gur vaxtında burada 1000-dən çox fəhlə və mütəxəssis çalışmışdır.

Bildirildi ki, Samur–Abşeron suvarma sistemi üzrə nəzərdə tutulan digər tədbirlərin də reallaşdırılması nəticəsində şimal bölgəsi rayonlarında 150 min hektara qədər torpaq sahəsinin su təminatı yaxşılaşdırılacaq və 31 min hektar sahədə yeni suvarılan torpaqlar istismara veriləcəkdir. Bu layihə respublikanın şimal zonasında ekoloji tarazlığın təmin edilməsinə də böyük töhfədir. Bütövlükdə Samur–Abşeron suvarma sisteminin yenidən qurulması layihəsi 14 il ərzində 4 mərhələdə reallaşdırılacaqdır.

Taxtakörpü su anbarında görülən işlərlə tanışlıqdan sonra dövlətimizin başçısı və xanımı Taxtakörpü Su-Elektrik Stansiyası və Taxtakörpü–Ceyranbatan su kanalının açılışında iştirak etdilər.

Taxtakörpü Su-Elektrik Stansiyasının da ərazisində geniş abadlıq və yaşıllaşdırma işləri aparılıb.

Dövlətimizin başçısı İlham Əliyevə energetika qurğusu barədə məlumat verildi. Qeyd olundu ki, ən müasir standartlara cavab verən su-elektrik stansiyasında ümumi gücü 25 meqavat olan 3 hidroaqreqat quraşdırılıb. Stansiyada sərfiyyata nəzarət hovuzu yaradılıb. Buraya su xüsusi ötürücü vasitəsilə verilir. Hovuzdakı 4 qapıdan 3-ü elektrik enerjisinin alınması məqsədilə suyun turbinlərə verilməsinə xidmət edir. Həmin hovuzdan dəryaçaya sutullayıcı inşa

edilib. Taxtakörpü–Ceyranbatan kanalında gələcəkdə təmir aparılmasına ehtiyac olarsa və ya digər zəruri hallar yaranarsa, hovuzdakı normadan artıq su sutullayıcı vasitəsilə dəryaçaya yönəldiləcəkdir. Su-elektrik stansiyası və açıq paylayıcı qurğuda əsasən Almaniya, Çexiya və digər xarici ölkələrdən gətirilən avadanlıqlar quraşdırılıb. Tikinti-quraşdırma işlərini əsasən yerli mütəxəssislər yerinə yetirib. Bu prosesin reallaşmasına Almaniya, Çexiya və Türkiyədən dəvət olunan mütəxəssis və quraşdırıcılar da cəlb edilib. Stansiyanın generasiya zalının sahəsi 923 kvadratmetrdir. Dispetçer otağında son elmi-texniki yeniliklərə əsaslanan avadanlıq quraşdırılıb. Stansiyanın daxili sərfiyyatı xüsusi otaqdan qidalanacaqdır. Qapalı paylayıcı qurğu, qəza dizel generatoru, digər qurğu və avadanlıqlar da inkişaf etmiş ölkələrin energetika obyektlərindəki standartlara uyğundur. 110 kilovoltluq açıq paylayıcı qurğu da mükəmməlliyi ilə seçilir. Burada Almaniyanın «Siemens» şirkətinin avadanlığı quraşdırılıb. 3 transformator, ifrat gərginlik boşaldıcısı, gərginlik və cərəyan transformatorları, eleqaz açarları, şin ayırıcıları, 110 kilovoltluq şinlərarası eleqaz açarı ən müasir avadanlıqlardır. Açıq paylayıcı qurğudan elektrik enerjisi 110 kilovoltluq hava xətləri vasitəsilə 110 kilovoltluq 1-ci Xaçmaz hava xəttinə və 110 kilovoltluq 4-cü Siyəzən hava xəttinə ötürülür.

Prezident İlham Əliyev su-elektrik stansiyasını işə saldı.

Bununla da Taxtakörpü–Ceyranbatan kanalına suyun verilməsinə başlanıldı.

Dövlətimizin başçısı Taxtakörpü Su-Elektrik Stansiyasının dispetçer otağı ilə tanış oldu. Stansiyanın iş rejimi barədə məlumat verilərək bildirildi ki, bu energetika qurğusu şimal bölgəsi rayonlarının elektrik enerjisi ilə təchizatında mühüm rol oynayacaqdır.

Bildirildi ki, Taxtakörpü su anbarında toplanan sudan elektrik enerjisinin alınması ilə yanaşı, içməli, texniki və suvarma suyu kimi də istifadə olunur. Taxtakörpü Su-Elektrik Stansiyasından su Taxtakörpü–Ceyranbatan kanalı ilə Ceyranbatan gölünə verilir. Taxtakörpü–Ceyranbatan kanalının 1,3 ki-

*lometrlik hissəsindən sonra su 5,1 kilometr məsafədə təzyiqli boru vasitəsilə ötürülür. Taxtakörpü–Ceyranbatan kanalının uzunluğu 110 kilometr, dərinliyi 4, dibdən eni 2,1 metrdir.*

*Taxtakörpü–Ceyranbatan kanalı da Vəlvələçay–Taxtakörpü kanalı kimi, olduqca çətin relyefə məxsus ərazidən keçir. Bu kanalların orijinallığı ondan ibarətdir ki, Samur–Abşeron kanalından götürülən su Ceyranbatan gölünə qədər dağlar boyunca yalnız öz axını ilə hərəkət edir. Bu da hər il orta hesabla 167 milyon kilovat/saat elektrik enerjisinə və ya 13–15 milyon dollar məbləğində vəsaitə qənaət olunması deməkdir. Taxtakörpü–Ceyranbatan kanalı üzərində mürəkkəbliyinə görə bir-birini üstələyən 238 hidrotexniki qurğu inşa olunub. Dəmir-beton üzlüklü açıq kanalların uzunluğu 84 kilometrdən çoxdur. Dərinliyi 35–45 metrə çatan dərələr və çaylarda dəmir və dəmir-beton dükerlər quraşdırılıb. Dağın altından keçən tunelin hündürlüyü 70, uzunluğu 1454 metrdir. Taxtakörpü–Ceyranbatan kanalı Bakı və ətraf qəsəbələrin sosial-iqtisadi inkişafı çərçivəsində yenidən qurulan Abşeron kanalı ilə paytaxtın qəsəbələrinə suvarma suyunun verilməsinə də imkan yaradır. Ümumilikdə, Samur–Abşeron suvarma sisteminin yenidən qurulması və belə yüksək səviyyəli digər layihələr ölkəmizin durmadan artan iqtisadi qüdrətinin və Azərbaycan insanının intellektual potensialının tükənməzliyinin əyani nümunələridir.*

*Sonra prezident İlham Əliyev melioratorlar, Abşeron, Quba, Qusar, Xaçmaz, Siyəzən, Şabran və Xızı rayonları ictimaiyyətinin nümayəndələri və bu bölgəni təmsil edən sahibkarlarla görüşdü.*

*Dövlətimizin başçısı mərasimdə nitq söylədi.*

## Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Əziz dostlar, bu gün ölkəmizin tarixində çox əlamətdar bir gündür, deyə bilərəm ki, tarixi bir gündür. Çünki Azərbaycanda çox böyük infrastruktur layihəsi icra edilir. Taxtakörpü su

anbarının istifadəyə verilməsi və Samur–Abşeron suvarma sisteminin yenidən qurulması tarixi nailiyyətdir.

Bildiyiniz kimi, Samur–Abşeron suvarma sistemi ötən əsrin 40-cı illərindən fəaliyyətdədir. Keçən əsrin 50-ci illərində Ceyranbatan su anbarına qədər kanal çəkilmişdir. Ancaq təbii ki, vaxt keçdikcə bu infrastruktur köhnəlmiş və Samur–Abşeron suvarma sisteminin yenidən qurulmasına böyük ehtiyac yaranmışdı. Təsadüfi deyil ki, XX əsrin 90-cı illərində ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Samur–Abşeron suvarma sisteminin yenidən qurulması üçün əməli addımlar atılmağa və bu sistemin əsasında yeni sxem hazırlanmağa başlanılmışdı. 2000-ci illərdə isə biz artıq praktiki işlərə başladıq. 2006-cı ildə Xanarx kanalının tikintisi ilə, demək olar ki, bu sistemin bir komponenti istismara verilmişdir. Ondan sonra, 2007-ci ildə Taxtakörpü su anbarının təməli qoyulmuşdur. Mən o günü yaxşı xatırlayıram. Bax, buralarda tam başqa bir mənzərə var idi. Bu gün yuxarıdan, bənddən gölə baxarkən bir daha görürəm ki, iradə, peşəkarlıq olan yerdə biz istənilən layihəni yarada bilərik. Bu layihə bir möcüzədir. Bu dağlar arasında bir göl yaranmışdır. O göl ki, bu gün su tutumuna görə Ceyranbatan gölündən, demək olar ki, 2 dəfə böyükdür. Bu, Azərbaycanın böyük su anbarıdır. Burada 270 milyon kubmetr su yığılır ki, bu sudan Azərbaycan vətəndaşları və sahibkarlar istifadə edəcəklər.

2007-ci ildə bu böyük layihənin təməli qoyuldu və çox şadam ki, bu layihənin icrası üçün lazım olan bütün məsələlər öz həllini tapmışdır. Bildiyiniz kimi, bu layihə bir neçə komponentdən ibarətdir. Xanarx kanalı, Vəlvələçay–Taxtakörpü kanalı ki, suyun yığılmasına yönəlmiş bir layihə idi, Taxtakörpü su anbarı və Taxtakörpü–Ceyranbatan kanalının tikintisi də bu layihənin tərkib hissəsidir. Beləliklə, son illərdə tikilmiş kanalların uzunluğu 150 kilometrdir.

Qeyd etdiyim kimi, böyük su anbarı və eyni zamanda, bax, bu gün istifadəyə verdiyimiz su-elektrik stansiyası da tikilmişdir. Bu da çox vacib məsələdir. Çünki baxmayaraq ki, Azərbaycan öz

enerji təhlükəsizliyini tam şəkildə təmin etmişdir və bir çox ölkələrin enerji təhlükəsizliyinin təmin edilməsində öz rolunu oynayır, biz alternativ enerji mənbələrinin yaradılması ilə bağlı çalışırıq və su-elektrik stansiyalarının tikintisi bu istiqamətdə çox vacib addımlardır. Keçən dövrdə bir neçə su-elektrik stansiyası tikilmişdir – Füzulidə 25 meqavat gücündə, Ordubadda Biləv elektrik stansiyası, təxminən o da o həcmdədir, Arpaçay su-elektrik stansiyasının yenidən qurulması, demək olar ki, başa çatmışdır. Taxtakörpü Su-Elektrik Stansiyasının tikintisi də böyük su-elektrik stansiyaları arasında, əlbəttə ki, önəmli bir addımdır. Kiçik çaylarda 1 meqavat, 4 meqavat, 5 meqavat gücündə su-elektrik stansiyaları tikilir. Hazırda Şəmkirçay su anbarında da – Taxtakörpüdən sonra ikinci böyük su anbarı olacaqdır – 25 meqavat gücündə su-elektrik stansiyası tikilir.

Beləliklə, bu böyük layihəni icra edərkən, biz bununla bərabər, enerji təhlükəsizliyimizi daha da böyük həcmdə təmin edəcəyik. Sadəcə onu demək kifayətdir ki, biz bu stansiyanın gücü ilə bütün şimal zonasını ucuz elektrik enerjisi ilə təmin edə bilərik. Nəzərə alsaq ki, bir neçə il bundan əvvəl «Şahdağ» elektrik stansiyası tikilmişdir, bu bölgənin gələcək inkişafı ilə bağlı daim güclü enerji təminatı da olacaqdır.

Bu zonanın inkişafı da çox sürətlidir. Şimal zonasının turizm potensialı çox böyükdür. Burada yeni turizm infrastrukturu yaradılır. Qusar rayonunda ölkəmizin ən müasir istirahət və idman infrastrukturu yaradılır. Şahdağ xizək kurortu keçən il istismara verilmişdir və artıq minlərlə insan bu imkanlardan istifadə edir. Hazırda orada bir neçə beşulduzlu hotel tikilir. Bu ay Qubada olarkən orada da beşulduzlu hotelin tikintisi ilə tanış oldum. Yəni bu zonanın turizm, kənd təsərrüfatı imkanları kifayət qədər genişdir. Beləliklə, elektrik stansiyalarının tikintisi də lazımdır və biz, demək olar ki, bu məsələni artıq həll etmişik.

O ki qaldı suvarma sisteminin yenidən qurulmasına, bu qeyd etdiyim kimi, tarixi layihədir. Taxtakörpü su anbarının və Vəlvələçay–Taxtakörpü, Taxtakörpü–Ceyranbatan su kanallarının fəaliyyətə başlaması nəticəsində 150 min hektar

torpaqda suvarma yaxşılaşdırılacaq, 30 min hektar isə yenidən əkin üçün yararlı olacaq. Bu torpaqların böyük hissəsi, təqribən 11 min hektarı Şabran rayonunun ərazisinə düşür. Yəni kənd təsərrüfatının inkişafı üçün çox gözəl imkanlar yaradılır.

Şəmkirçay su anbarının tikintisi də paralel olaraq davam etdirilir və ümid edirəm ki, bu nəhəng layihə gələn ilin sonuna qədər də icra ediləcəkdir və orada yeni torpaq sahələrinin dövriyyəyə buraxılması, içməli su ilə təminatı nəticəsində həm sosial, həm iqtisadi məsələlər öz həllini tapacaqdır. Şəmkirçay su anbarının fəaliyyəti nəticəsində 75 min hektar torpaq sahəsində suvarma təmin ediləcəkdir.

Yəni bu layihələr tarixi layihələrdir. Bu layihələr bundan sonra əbədiyyətə qədər Azərbaycan xalqına, Azərbaycan dövlətinə xidmət göstərəcəkdir. Biz Azərbaycan xəritəsində yeni süni göllərin yaradılmasına nail ola bilmişik. Taxtakörpü gölünün uzunluğu təxminən 9 kilometrdir. Bu, Azərbaycan xalqının zəhməti, istedadı hesabına mümkün olan hadisələrdir. Bu bir möcüzədir. Beləliklə, bu layihələrin icrası nəticəsində biz bir neçə əsas məqsədi güdürük. İlk növbədə, Azərbaycanda müasir, ən yüksək standartlara cavab verən yeni infrastruktur yaradılır. Azərbaycan alternativ enerji mənbələrinin yaradılması istiqamətində çox ciddi addım atır. Bir neçə il bundan əvvəl mənim göstərişimlə Azərbaycanın bütün potensial su mənbələri aşkarlanmışdır. Onların xəritəsi tərtib edilmişdir. Bu elektrik stansiyasının yaradılması da, bax, o prosesin tərkib hissəsidir. Azərbaycanda kənd təsərrüfatının inkişafı üçün yeni imkanlar yaradılır. Çünki suvarılan torpaqları fermerlər, sahibkarlar əkəcəklər, becərəcəklər və beləliklə, ölkəmizin ərzaq təhlükəsizliyi tam şəkildə təmin ediləcəkdir.

Bilirsiniz ki, biz bu məsələlərlə bağlı ciddi addımlar atırıq və artıq pilot layihələr də icra edilir. Beyləqan, Ağcabədi rayonlarında 5 min hektara qədər yeni əkin sahələri dövriyyəyə buraxılmışdır. Bütün texniki şərtlər, suvarma təmin edilmişdir və bu ilin nəticəsi onu göstərir ki, bu çox səmərəli, uğurlu bir yoldur. Əgər ölkə üzrə hər hektardan taxıl istehsalında

məhsuldarlıq 26 sentnerdirsə, yeni sahələrdə bu, 55 sentnerə çatmışdır. Yəni əgər yeni texnologiyalar, aqrotexniki xidmət göstərilərsə və əlbəttə ki, texnika lazımi səviyyədə təşkil edilərsə, biz 2 dəfədən çox məhsul götürə bilərik. Yeni əkin sahələrinin dövriyyəyə buraxılması fermerlərə böyük imkanlar verəcəkdir, kənd təsərrüfatımız inkişaf edəcəkdir.

Kənd təsərrüfatının inkişafı böyük dərəcədə infrastruktur layihələrindən asılıdır və əlbəttə, Azərbaycan gələcək illərdə ərzaq məhsullarına olan tələbatı tam şəkildə özü təmin edəcəkdir. Biz artıq buna yaxınlaşmışıq. Bu da tarixi nailiyyət olacaqdır və ondan sonra biz daha çox ixrac haqqında düşünməliyik. Artıq biz düşünürük, yeni bazarlara çıxmaq üçün addımlar atılır və beləliklə, kənd təsərrüfatı Azərbaycanda sürətlə inkişaf edəcəkdir.

Beləliklə, Taxtakörpü su anbarının, Şəmkirçay su anbarının və suvarma sisteminin yaradılması nəticəsində biz 2 ildən sonra 250 min hektar yeni torpaq sahələri əldə edəcəyik. Bu, tarixi bir nailiyyət olacaqdır. Bu layihələrin icrası eyni zamanda, ölkəmizin su təhlükəsizliyini də təmin edir. Bu məsələlərə də biz daim diqqət göstəririk. Çünki ölkəmizi qidalandıran əsas su mənbələri Azərbaycanın hüdudlarından kənarda formalaşır. Ona görə su ehtiyatlarından səmərəli şəkildə istifadə etmək, yeni layihələri icra etmək, yeni kanalları inşa etmək və su anbarlarını yaratmaq strateji əhəmiyyətli bir məsələdir. Taxtakörpü su anbarının yaradılması ilə biz bu strateji hədəfə çatırıq. Bizim sularımız Kür çayından, Araz çayından, Samur çayından gəlir ki, bu çaylar öz mənbəyini başqa ölkələrdən başlayır. Beləliklə, su təhlükəsizliyi bizim üçün strateji əhəmiyyətli məsələdir və gələcəkdə hər bir ölkə üçün su ehtiyatları strateji dəyər olacaqdır.

Bu gün dünyada daha çox neft-qaz resursları uğrunda mübarizə aparılır və xoşbəxtlikdən Azərbaycan bu resurslardan xalqın rifahı, ölkənin inkişafı naminə səmərəli şəkildə istifadə edir. Amma vaxt gələcək, su resursları uğrunda mübarizə daha da kəskinləşəcəkdir. Biz artıq bu mübarizənin təzahürlərini görməkdəyik. Belə olan halda su təhlükəsizliyi Azərbaycanda

tam şəkildə təmin edilməlidir. Taxtakörpü su anbarı və Samur–Abşeron suvarma sistemi, Şəmkirçay su anbarı, ölkədə icra edilən su layihələri bu məqsədə xidmət edir.

İndi hər bir şəhərdə içməli su layihələri icra edilir. Bəzi şəhərlərdə istismara verilmişdir, bəzi şəhərlərdə davam etdirilir. Subartezian quyularının qazılması prosesi gedir. Bir neçə ay bundan əvvəl mənim sərəncamımla bu məqsədlə 6 milyon manat vəsait ayrılmışdır ki, 104 kənd artıq bu layihə ilə əhatə ediləcəkdir. Mənim sərəncamımda kəndlər adbaad göstərilmişdir ki, o kəndlərdə yaşayan soydaşlarımız bilsinlər, onların kəndində bu quyu qazılacaq və beləliklə, onların su problemləri həll ediləcəkdir. Azərbaycanda modul tipli təmizləyici qurğular quraşdırılır. Təxminən 400-ə yaxın kənddə bu qurğular yerləşdirilibdir. O kəndlər ki, çaylar boyu yerləşən kəndlərdir. Yəni su təhlükəsizliyi strateji əhəmiyyətli məsələdir və bu layihənin icrası, o cümlədən bu məsələlərin həllində də bizə kömək göstərir.

Bu layihənin həyata keçirilməsi üçün böyük investisiyalar cəlb edilmişdir. Azərbaycanda investisiya iqlimi çox müsbətdir. Xarici investisiyalar, onların axını davam etdirilir. Ancaq son illərdə yerli investisiyalar xarici investisiyaları üstələyir. Təqribən faiz nisbəti 70/30 daxili investisiyaların xeyrinədir. Bu da çox müsbət haldır. Hələ ki, daxili investisiyaların əsas hissəsi dövlət investisiyaları hesabına formalaşır. Bu da təbiidir. Çünki dövlət bütün iqtisadi və sosial layihələrə güclü təkan verməli idi və verir. İnfrastruktura qoyulan investisiyalar bu gün yeni inkişaf dövrümüzü şərtləndirir. Keçən 10 il ərzində iqtisadiyyatımız 3,4 dəfə artmışdır. Bu da dünyada misli görünməmiş nəticədir. Son 10 il ərzində sosial məsələlər öz həllini tapmışdır – 500-ə yaxın xəstəxana, 3 minə qədər məktəb, 9 dəfə artan pensiya, 6 dəfə artan orta əməkhaqqı, infrastruktur layihələri, investisiyalar. Demək olar ki, ölkəmiz xeyli dərəcədə qabağa getmişdir və güclənmişdir. Ancaq növbəti 10 il ərzində biz öz inkişafımızı daha çox qeyri-neft sektorunun hesabına təmin edəcəyik. Belə olan halda, son illərdə infrastruktura

qoyulan xərclər, dövlət investisiyaları gözəl bir şərait yaradır və növbəti illərdə daxili investisiyalar xarici investisiyalardan daha artıq olacaqdır. Ancaq çox istərdim ki, özəl sektordan gələn investisiyalar üstünlük təşkil etsin. Əminəm ki, biz buna da nail olacağıq. Ancaq dövlət bundan sonra da öz investisiya siyasətini davam etdirəcək, ölkəmiz, xalqımız üçün lazım olan bütün layihələr icra ediləcəkdir. Azərbaycan xalqı yaxşı bilir ki, hətta dünyanı bürümüş maliyyə və iqtisadi böhran bizim investisiya və sosial layihələrimizə heç bir təsir etməmişdir – maaşlar ildən-ilə artırılır, sosial ödəmələr artırılır, investisiya layihələri də icra edilir.

Bu layihəyə qoyulan sərmayə Dövlət Neft Fondunun xətti ilə icra edilmişdir. Bu da hesab edirəm ki, çox gözəl və əlamətdar hadisədir, rəmzi məna daşıyır. Çünki Dövlət Neft Fondunun xətti ilə ölkəmiz üçün yalnız ən prioritet məna daşıyan önəmli layihələr icra edilir. Onların içində köçkünlərin yerləşdirilməsi layihələri əsasdır. Hər il 300 milyon manat ancaq köçkünlər üçün tikilən evlərə sərf olunur və beləliklə, biz hər il 20 min köçkünü yeni evlərlə, mənzillərlə təmin edirik. Demək olar ki, hər il Azərbaycanda köçkünlər üçün bir şəhər tikilir və bu proses davam etdirilir. Dövlət Neft Fondunun xətti ilə təhsil məsələləri, Azərbaycan tələbələrinin xaricdə oxuması məsələləri öz həllini tapır və ölkəmiz üçün strateji layihələr Fondun xətti ilə maliyyələşdirilir.

Belə olan halda, əlbəttə ki, iqtisadi inkişaf daha sürətli olacaq. Çünki düşünülmüş siyasət əsasında qurulan iqtisadi konsepsiyamız öz səmərəsini verir. Son 10 il ərzində Azərbaycanda görülən işlər dediyim sözlərin ən yaxşı göstəricisidir. Son 10 ildə ölkəmiz böyük, şərəfli yol keçmişdir, insanların rifah halı yaxşılaşmışdır, nəhəng investisiya layihələri icra edilmişdir, sosial proqramlar tam şəkildə təmin edilmişdir. Əminəm ki, bu müsbət meyillər növbəti illərdə davam etdiriləcəkdir.

Əlbəttə ki, Taxtakörpü su anbarının yaradılması, Samur–Abşeron suvarma sisteminin yenidən qurulması özəl sektora

yeni təkan verəcəkdir. Özəl sektor Azərbaycan iqtisadiyyatında təxminən 85 faiz təşkil edir. Bu da onu göstərir ki, bazar iqtisadiyyatı prinsipləri Azərbaycanda tam şəkildə tətbiq olunubdur. Bu ilin 8 ayında qeyri-neft sektorumuz 10,3 faiz artmışdır. Bu da dünya miqyasında ən yüksək göstəricidir. Əminəm ki, biz bu yüksək templəri saxlayacağıq və «Azərbaycan–2020: gələcəyə baxış» inkişaf konsepsiyasının bütün müddəalarını təmin edəcəyik.

Necə ki, son 10 il ərzində Azərbaycanda 2 regional inkişaf proqramı artıqlaması ilə icra edilmişdir. 3-cü proqramın qəbul edilməsi gələn ilin əvvəlində nəzərdə tutulur. «Azərbaycan–2020» və növbəti «Azərbaycan–2014–2018» inkişaf proqramları icra ediləcəkdir.

Bu layihənin icrası bir məsələyə də diqqəti çəkir. Belə nəhəng layihələr ancaq müstəqillik dövründə icra edilə bilər, ancaq bizim taleyimiz öz əlimizdə olan bir zamanda biz bu layihələri icra edə bilərik. Bu layihə və ölkəmizdə son illərdə görülən bütün işlər bir daha müstəqilliyimizin üstünlüklərini əks etdirir. Müstəqillik bizim böyük dəyərimizdir, ən böyük sərvətimizdir. Bu gün Azərbaycan xalqının gələcəyi onun öz əlindədir. Bu gün Azərbaycan dünya miqyasında ən sürətlə və uğurla inkişaf edən ölkələrin sırasındadır. Əminəm ki, növbəti illərdə biz öz inkişaf dinamikamızı saxlayacağıq, ölkəmizin uğurlu gələcəyini təmin edəcəyik.

Mən bütün Azərbaycan xalqını bu gözəl layihələrin istismara verilməsi münasibətilə təbrik etmək istəyirəm. Taxtakörpü su anbarında və Samur–Abşeron suvarma sisteminin yenidən qurulmasında iştirak etmiş bütün vətəndaşları salamlayıram, onlara öz təşəkkürümü bildirirəm. Deyə bilərəm ki, gələcəkdə belə böyük infrastruktur layihələri Azərbaycanda icra ediləcəkdir. Artıq gözəl təcrübə də toplanıb. Çox şadam ki, bu layihənin icrasında Azərbaycan şirkətləri iştirak etmişdir. Bir daha sizi ürəkdən təbrik edirəm, sizə yeni uğurlar arzulayıram. Sağ olun!

**ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB Sİ CİNPİNƏ**

Hörmətli cənab Sədr!

Çin Xalq Respublikasının milli bayramı münasibətilə Sizə və bütün xalqınıza Azərbaycan xalqı adından və şəxsən öz adımdan ən səmimi təbriklərimi yetirirəm.

Azərbaycan ilə Çin arasında mövcud olan ənənəvi dostluq münasibətlərinin genişlənməsi və əməkdaşlığımızın hərtərəfli inkişafı məmnunluq doğurur. Biz bu əlaqələrə xüsusi əhəmiyyət veririk.

Ümidvaram ki, qarşılıqlı hörmət və etimada əsaslanan dövlətlərarası münasibətlərimizin möhkəmlənməsi, işgüzar əlaqələrimizin daha da dərinləşməsi yolunda bundan sonra da birgə səylər göstərəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Çin xalqına sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 sentyabr 2013-cü il*

**KOREYA RESPUBLİKASININ PREZİDENTİ
XANIM PAK KIN HEYƏ**

Hörmətli xanım Prezident!

Koreya Respublikasının milli bayramı münasibətilə Sizə və bütün xalqınıza Azərbaycan xalqı adından və öz adımdan ən səmimi təbriklərimi yetirirəm.

Son illərdə ikitərəfli əlaqələrimiz dinamik şəkildə inkişaf etməkdədir. İnanıram ki, dostluq münasibətlərimizin daim möhkəmləndirilməsi, eləcə də bir sıra sahələrdə müvəffəqiyyətlə davam edən qarşılıqlı faydalı əməkdaşlığımızın daha da genişləndirilməsi yolunda addımlarımız bundan sonra da xalqlarımızın rifahına töhfələr verəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *30 sentyabr 2013-cü il*

**ALMANİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB YOAXİM QAUKA**

Hörmətli cənab Prezident!

Almaniya Federativ Respublikasının milli bayramı – Alman Birliyi Günü münasibətilə Sizi və bütün xalqınızı Azərbaycan xalqı adından və öz adımdan ürəkdən təbrik edirəm.

Bu gün Azərbaycan–Almaniya münasibətləri hərtərəfli inkişaf yolundadır. Ölkələrimizi birləşdirən dostluq əlaqələri siyasi, iqtisadi və humanitar sahələrdə səmərəli əməkdaşlığımız üçün möhkəm zəmin yaratmışdır.

İnanıram ki, ikitərəfli qaydada əməkdaşlığımızı, eləcə də Avropa İttifaqının «Şərq Tərəfdaşlığı» proqramı çərçivəsində birgə işimizi bundan sonra da davam etdirəcəyik.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Almaniya xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *30 sentyabr 2013-cü il*

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORU YANINDA KORRUPSİYAYA QARŞI MÜBARİZƏ İDARƏSİNİN YENİ İNZİBATİ BİNASININ AÇILIŞI MƏRASİMİ

*30 sentyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 30-da Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinin yeni inzibati binasının açılışı mərasimində iştirak etmişdir.*

*Bu gün ölkəmizdə gedən uğurlu inkişaf proseslərinə mane olan məsələlərin aradan qaldırılması mühüm əhəmiyyət kəsb edir. Bu sırada korrupsiya və rüşvətxorluq hallarına qarşı mübarizə tədbirlərinin gücləndirilməsi diqqət mərkəzində saxlanılır. Bu məqsədlə son illərdə bir sıra tədbirlər həyata keçirilib, mübarizə metodlarının daha səmərəli olması üçün qanunvericilik bazası gücləndirilib. Ötən dövrdə korrupsiyaya qarşı mübarizə üzrə 2004–2006-cı illəri əhatə edən Dövlət Proqramı qəbul olunub. 2007-ci ildə Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya və onun həyata keçirilməsi ilə bağlı 2007–2011-ci illər üçün Fəaliyyət Planı təsdiq edilib. 2004-cü ildə «Korrupsiyaya qarşı mübarizə haqqında» Qanun qəbul olunmuşdur. Bu dövrdə korrupsiyaya qarşı mübarizə üzrə ixtisaslaşmış qurumlar da fəaliyyətə başlamışdır. Bunlar Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya və Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsidir. Bundan əlavə, 2008-ci ildə qəbul olunan «Azərbaycan Respublikasında korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair tədbirlər haqqında» Fərman dövlətin bu sahədə strateji kursunu müəyyən edib. Həmin kursa əsasən Azərbaycan Respublikası korrupsiyaya qarşı mübarizə ilə bağlı bir neçə*

*beynəlxalq sənədə, o cümlədən Avropa Şurasının «Korrupsiya ilə əlaqədar cinayət məsuliyyəti haqqında», «Korrupsiya ilə əlaqədar mülki-hüquqi məsuliyyət haqqında» və Birləşmiş Millətlər Təşkilatının «Transmilli mütəşəkkil cinayətkarlığa qarşı» konvensiyalarına, həmçinin «Korrupsiyaya qarşı Birləşmiş Millətlər Təşkilatının Konvensiyası»na qoşulub. Bununla yanaşı, prokurorluq orqanlarının maddi-texniki bazasının gücləndirilməsi, iş şəraitinin yaxşılaşdırılması diqqətdə saxlanılıb. 2008-ci ildə təsdiq edilmiş «Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair» Dövlət Proqramı çərçivəsində milli memarlıq üslubunda, müasir standartlar səviyyəsində tikilən Korrupsiyaya qarşı Mübarizə İdarəsinin yeni inzibati binası da bu sırada mühüm yer tutur.*

*Baş prokuror Zakir Qaralov Korrupsiyaya qarşı Mübarizə İdarəsinin yeni inzibati binasının açılışına gələn prezident İlham Əliyevə raport verdi.*

*Dövlətimizin başçısına məlumat verən Baş prokuror Zakir Qaralov bildirdi ki, 5 və 7 mərtəbəli 2 korpusdan, habelə üçmərtəbəli yardımçı bina və yeraltı qarajdan ibarət olan Korrupsiyaya qarşı Mübarizə İdarəsinin yeni inzibati binasının inşasına 2010-cu ilin avqustunda başlanılmış və tikinti işləri uğurla başa çatdırılmışdır. Bununla yanaşı, ərazidəki digər binalarda yenidənqurma işləri aparılıb, ətrafda yaşayan insanların istirahətinin təşkili məqsədi ilə yeni park salınıb, yaşıllıq zolaqları genişləndirilib, fəvvarələr quraşdırılıb.*

*Yeni binada yaradılan şəraitlə tanışlıq zamanı qeyd olundu ki, burada müxtəlif rəssamların əl işlərindən ibarət əsərlər nümayiş olunur. Birinci mərtəbədə müasir Azərbaycanı tərənnüm edən, paytaxtımızın rəmzinə çevrilən memarlıq nümunələrinin əks olunduğu böyük mozaik pannolar vardır. Burada xalqımızın ümummilli lideri Heydər Əliyevin büstü qoyulmuş, korrupsiyaya qarşı mübarizə sahəsində qəbul edilmiş normativ-hüquqi aktlar, bu sahədə ölkəmizin qoşulduğu beynəlxalq*

*konvensiyalar, prokurorluğun inkişafını əks etdirən sənədlərdən ibarət guşələr yaradılmışdır.*

*Dövlətimizin başçısına məlumat verildi ki, ölkəmizdə gedən inkişaf prosesləri məhkəmə-hüquq islahatlarının dərinləşməsinə, hüquq-mühafizə, o cümlədən prokurorluq orqanlarının infrastrukturunun yaxşılaşdırılmasına, müasir binaların inşasına təkan verib. Bu sırada paytaxtın Yasamal və Sabunçu rayon, İsmayıllı, Göygöl, Qusar, Biləsuvar, Gədəbəy, Zərdab və Samux rayon, həmçinin Zaqatala hərbi prokurorluqları üçün yeni inzibati binalar tikilmiş, çoxsaylı rayon prokurorluqlarının binaları əsaslı təmir olunmuşdur.*

*Bildirildi ki, 100 və 250 nəfərlik konfrans zalları müxtəlif treninqlərin, seminarların və beynəlxalq tədbirlərin, mətbuat konfranslarının, vətəndaş cəmiyyəti institutları, o cümlədən qeyri-hökumət təşkilatları ilə görüşlərin, «dəyirmi masa»ların, maarifləndirici tədbirlərin, təqdimatların keçirilməsi üçün nəzərdə tutulub. Müasir hüquq ədəbiyyatı, müxtəlif metodiki tövsiyələr, normativ-hüquqi aktlarla zənginləşdirilmiş kitabxananın digər dövlət qurumlarının elektron kitabxanalarına çıxışı təmin edilib. Burada əməliyyatların idarə edilməsi mərkəzi də yaradılıb. Mərkəzdə Korrupsiyaya qarşı Mübarizə İdarəsi tərəfindən hazırlanaraq həyata keçirilən əməliyyat tədbirlərinin birbaşa rejimdə idarə edilməsi mümkündür.*

*Dövlətimizin başçısı «Qaynar xətt» əlaqə mərkəzi və onun fəaliyyəti ilə tanış oldu. Korrupsiya hüquqpozmaları barədə müraciətlərin təxirə salınmadan çatdırılması və operativ baxılmasının təmin edilməsi məqsədi ilə yaradılan «161» saylı «Qaynar xətt» əlaqə mərkəzinin fəaliyyəti təkmilləşdirilib. Artıq daxil olan zənglərin görmə funksiyasını əks etdirən monitorlar vasitəsilə qəbulu yeni proqram təminatı ilə həyata keçirilir ki, bu da korrupsiyaya daha çox məruz qalan sahələrin müəyyən edilməsi və qabaqlayıcı tədbirlərin həyata keçirilməsi üçün təhlillər aparmağa imkan yaradır.*

*Prezident İlham Əliyev daha sonra korrupsiya cinayətlərinin qarşısının alınması və aşkarlanması istiqamətində əməliyyat-*

axtarış fəaliyyətinin uğurla həyata keçirilməsi məqsədi ilə elmi-texniki tərəqqinin ən müasir nailiyyətlərini özündə birləşdirən zəruri avadanlıqlar, müasir texniki vasitələrlə təchiz edilmiş otaqlarla tanış oldu.

Kriminalistika otağında müxtəlif kateqoriyadan olan korrupsiya cinayətlərinin istintaq metodikasına dair məlumatları əks etdirən lövhələr, əyani vəsaitlər quraşdırılıb.

Dindirmə otaqlarında zərərçəkmiş, şahid və cinayət prosesinin digər iştirakçılarının iştirakı ilə istintaq hərəkətlərinin keçirilməsi üçün müasir tələblərə cavab verən şərait yaradılıb, otaqlar zəruri avadanlıqlarla, texniki vasitələrlə təchiz edilibdir. Bundan əlavə, binada vətəndaşların qəbul otağı yaradılıb və müasir informasiya-kommunikasiya qurğuları quraşdırılıbdır. Burada müraciətlərə baxılması ilə əlaqədar normativ-hüquqi sənədlərdən çıxarışlar, prokurorluq orqanlarında vətəndaşların qəbuluna dair əmr, habelə prokurorluğun rəhbər heyətinin qəbul günü və saatları olan lövhələr vardır. Vətəndaşların məlumatlılığının təmin edilməsi məqsədi ilə müasir elektron məlumat daşıyıcıları, o cümlədən məlumat köşkü qoyulub. BMT-nin Əlillərin Hüquqları Haqqında Konvensiyasına uyğun olaraq binaya əlillərin daxil olmaları üçün qaldırıcı qurğu quraşdırılıb. Təhlükəsizliyin etibarlı təmini məqsədi ilə müasir tipli kamera, metalaşkarlayıcı, çantayoxlayan rentgen qurğuları və turniketlər istifadəyə verilib.

Mühafizə otağı, arxiv, dəftərxana xidməti də müasir tələblər səviyyəsində qurulub. Əməkdaşlar üçün hər cür şəraiti olan yeməkxana istifadəyə verilib.

Binada 80 yerlik avtodayanacaq inşa olunub.

Diqqətə çatdırıldı ki, yardımçı binada idarə tərəfindən korrupsiyaya qarşı mübarizə sahəsində hazırlanmış vətəndaşlar üçün maarifləndirmə bələdçiləri, nəzəri və praktiki məsələlər üzrə araşdırmalar, təhlillər, kitablar, ayrı-ayrı cinayətlərin istintaqına dair metodiki tövsiyələr, beynəlxalq təcrübə və korrupsiyaya qarşı mübarizə sahəsində nailiyyətləri əks etdirən

*bukletlər və digər bu kimi nəşrlərin hazırlanması üçün mətbəə yerləşir.*

*Prezident İlham Əliyev Korrupsiyaya qarşı Mübarizə İdarəsinin istifadəsində olacaq xüsusi avtomobillərə də baxdı. Qeyd olundu ki, xüsusi avadanlıqlarla təchiz olunan kriminalistik avtomobillərdə istintaq və əməliyyat tədbirlərinin həyata keçirilməsi üçün zəruri şərait yaradılıb.*

*Sonra dövlətimizin başçısı Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinin kollektivi ilə görüşdü.*

*Dövlətimizin başçısı mərasim iştirakçılarını təbrik etdi.*

**İ l h a m Ə l i y e v:** Sabah prokurorluq işçilərinin peşə bayramıdır. Bu münasibətlə mən sizi və prokurorluğun bütün şəxsi heyətini təbrik etmək istəyirəm. Bu gün isə biz Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsinin açılışını qeyd edirik.

İndi bina ilə tanış oldum. Prokurorluq işçiləri üçün çox gözəl şərait yaradılıbdır. Ən müasir avadanlıqlar quraşdırılıbdır. Yəni burada səmərəli işləmək üçün bütün imkanlar vardır. Şadam ki, qısa müddət ərzində belə gözəl bina yaradılıb. Həm burada işləyənlər, həm buraya müraciət edəcək şəxslər üçün ən yüksək səviyyədə bütün şərait yaradılıb. Belə də olmalıdır. Mən korrupsiyaya qarşı mübarizə ilə əlaqədar fikirlərimi dəfələrlə bildirmişəm. Bu gün də demək istəyirəm ki, Azərbaycanda bu sahədə də bütün işlər ən yüksək səviyyədə aparılmalıdır.

Azərbaycan özünü xarici risklərdən qoruya bilmişdir. Dünyada, regionda baş verən hadisələr, toqquşmalar, qarşıdurmalar Azərbaycana heç bir təsir etmir. Çünki ölkəmizdə hökm sürən sabitlik, əmin-amanlıq, xalqla iqtidar arasındakı birlik bizi bu risklərdən sığortalayır. İqtisadi sahədə də dünyada gedən xoşagəlməz proseslər Azərbaycana təsir etməmişdir. Dünyada 5 ildən artıqdır ki, maliyyə və iqtisadi böhran hökm sürür. Ancaq Azərbaycanda vətəndaşlar bunu hiss etmirlər. Əksinə, Azərbaycanda maaşlar, pensiyalar artırılır, yeni iş yerləri açılır, investisiyalar artır. Yəni biz dünyada baş verən iqtisadi

çətinliklərdən də özümüzü qoruya bilmişik. Belə olan halda biz, əlbəttə ki, cəmiyyətimizi, dövlətimizi korrupsiyadan da qorumalıyıq və qoruyacağıq.

Bu gün korrupsiyaya qarşı mübarizə prioritet məsələdir. Bu mübarizədə yaxşı nəticələr, uğurlar vardır. Korrupsiyaya Qarşı Mübarizə İdarəsinin işi yüksək qiymətləndirilməlidir. Əminəm ki, gələcək illərdə bu sahədə daha da böyük uğurlar əldə ediləcəkdir. Bu bəla Azərbaycandan tamamilə silinməlidir, olmamalıdır.

O da həqiqətdir ki, hər bir ölkədə, hər bir cəmiyyətdə korrupsiya vardır. Ancaq əsas məsələ onun dərəcəsidir və onun əhatə dairəsidir. Biz korrupsiya üçün meydanı daim daraltmalıyıq. Burada müxtəlif üsullardan istifadə edirik və edəcəyik. İlk növbədə, əlbəttə ki, cəza tədbirləri daha da ciddi olmalıdır. Hər bir vətəndaş bilməlidir ki, onun korrupsiya ilə bağlı əməlləri cəzasız qalmayacaqdır. İnzibati tədbirlər də xüsusi yer tutur. Profilaktik tədbirlər, maarifləndirmə və eyni zamanda, ölkəmizdə bu sahədə aparılan sistem xarakterli islahatlar da öz rolunu oynayır. Onların içində mən «Elektron hökumət» sistemini xüsusilə qeyd etmək istəyirəm. «ASAN xidmət»in fəaliyyətini qeyd etmək istəyirəm. Qısa müddət ərzində «ASAN xidmət»ə 500 mindən artıq vətəndaş müraciət etmişdir. Bu xidmət cəmi 1 ildən az bir vaxtda fəaliyyət göstərir və özü də təkcə Bakını, Sumqayıtı və Abşeron yarımadasını əhatə edir. Ancaq insanlar müraciət edir. Nəyə görə? Çünki orada korrupsiya yoxdur. Orada insanlara mədəni xidmət göstərilir.

Biz bütün sistemimizi şəffaflaşdırmalıyıq. İqtisadi-maliyyə sektorunun şəffaflaşması prosesi uğurla baş verir, davam edir. Şəffaflıq indeksinə görə Azərbaycan dünya miqyasında ön plandadır. Ona görə belə olan halda ölkəmizin uğurlu inkişafını və gözəl perspektivlərimizi nəzərə alaraq korrupsiyaya qarşı mübarizədə də biz dünya miqyasında mütləq ön planda, ön sıralarda olmalıyıq.

Mən şadam ki, son illər ərzində bu sahədə aparılan işlər öz nəticəsini verməkdədir. Beynəlxalq təşkilatlar da Azərbaycanın bu sahədəki fəaliyyətini yüksək qiymətləndirir. İldən-ilə korrupsiya reytinqi – əgər belə demək mümkündürsə – Azərbaycanda yaxşılaşır. Bizim beynəlxalq təşkilatlarla əlaqələrimiz güclənir. İndi mənə verilən məlumata görə, Beynəlxalq Antikorrupsiya Akademiyası ilə, digər beynəlxalq təşkilatlarla sıx əlaqələr vardır. Biz bu sahədə inkişaf etmiş ölkələrin təcrübəsini tam şəkildə tətbiq etməliyik.

Əlbəttə ki, Azərbaycanın öz tarixi, öz xüsusiyyətləri vardır. Biz dünyada mövcud olan ancaq ən müsbət təcrübəni Azərbaycanda tətbiq edirik və bundan sonra da edəcəyik. Hesab edirəm ki, inkişaf etmiş ölkələrdə korrupsiyaya qarşı mübarizədə doğrudan da böyük uğurlar əldə edilibdir. Biz bu təcrübəni Azərbaycanda tətbiq etməliyik. Bir daha demək istəyirəm ki, burada bir neçə amilin cəmləşməsi və bu amillər arasında uzlaşma həlledici rol oynayacaqdır. Güclü siyasi iradə olmalıdır və o da vardır.

Mən dəfələrlə korrupsiyaya qarşı mübarizə ilə bağlı fikirlərimi bildirmişəm və dəfələrlə vətəndaşlara da müraciət etmişəm ki, onlar aidiyyəti orqanlara öz ərizələri, öz təklifləri ilə müraciət etsinlər. Yəni güclü siyasi iradə vardır. Artıq korrupsiyaya qarşı mübarizəni aparmaq üçün cəmiyyətdə də çox müsbət dəyişikliklər vardır. Cəmiyyətdə inam artır. İnam artır ki, biz bu bəlanı Azərbaycandan tamamilə götürəcəyik və Azərbaycan cəmiyyəti bu yaralardan sağalacaqdır. Çünki korrupsiya hər bir cəmiyyəti daxildən sarsıdan bir yaradır, bir xəstəlikdir. Biz bütün imkanlardan istifadə edib çalışmalıyıq ki, Azərbaycanda korrupsiya olmasın, Azərbaycanda tam şəkildə sosial ədalət təmin edilsin. Çünki korrupsiya sosial ədaləti pozan bir amildir.

Güclü siyasi iradə, prokurorluq işçilərinin peşəkarlığı, təmizliyi, dürüstlüyü, cəmiyyətdə korrupsiyaya qarşı olan ciddi mübarizə əhval-ruhiyyəsi – məhz bütün bu amillər əminəm ki,

məqsədə çatmaq üçün bizə kömək edəcək və Azərbaycan korrupsiyaya qarşı mübarizədə də ön planda olmalıdır.

Mən əminəm ki, belə də olacaqdır və gələcək illərdə biz, bir daha demək istəyirəm ki, inkişaf etmiş ölkələrin təcrübəsini Azərbaycanda tətbiq etməliyik. Nəinki öyrənməliyik – biz öyrənmişik – hər bir sahədə tətbiq etməliyik. Şəffaflıq, təmizlik, dürüstlük həyat tərzi olmalıdır. Əminəm ki, belə də olacaqdır.

Siz – gənc prokurorluq işçiləri, əminəm ki, bütün bu tövsiyələrimi və bu prinsipləri öz fəaliyyətinizdə rəhbər tutub dövlətə sədaqətlə xidmət edəcəksiniz.

Bir daha prokurorluğun bütün işçilərini qarşıdan gələn peşə bayramı münasibətilə təbrik edirəm.

**Z a k i r  Q a r a l o v** *(Baş prokuror):* Çox sağ olun, möhtərəm cənab Prezident!

Həqiqətən, Sizin siyasi iradənizə uyğun olaraq ölkədə korrupsiyaya qarşı səmərəli, sistemli və ciddi mübarizə həyata keçirilir.

Mən Sizə məruzə etdim, Parisdə 22–25 sentyabrda Antikorrupsiya Şəbəkəsində son dəyərləndirməni Azərbaycan müvəffəqiyyətlə keçən ilk ölkə oldu. Bu Şəbəkədə təmsil olunan bir çox beynəlxalq qurumlar bir daha təsdiq etdilər ki, həqiqətən, Azərbaycanda çox ciddi mübarizə gedir.

Bu mübarizənin həyata keçirilməsində mən bir daha Sizə öz təşəkkürümü bildirmək istəyirəm ki, Siz prokurorluğa etimad göstərib korrupsiyaya qarşı mübarizə üzrə ixtisaslaşdırılmış qurumun yaradılmasına qərar verdiniz.

Onu da bildirməliyəm ki, Avropada çox nadir ölkələr vardır ki, bu cür ixtisaslaşmış quruma malikdir. Bu quruma kifayət qədər çox ciddi səlahiyyətlər vermisiniz. Bu gün də Sizin iştirakınızla bu qurum üçün ilk dəfə, mən deyərdim ki, nəinki Avropada, dünyada ilk dəfə belə bir möhtəşəm bina tikilib və bu cür güclü maddi-texniki baza yaradılıbdır.

Vətəndaşlar Sizin bu sahədə gördüyünüz işlərə görə – bunu gündəlik «Qaynar xətt» əlaqə mərkəzimizə gələn zənglərdən də bilirik – öz təşəkkürlərini, minnətdarlıqlarını bildirirlər. Sözsüz

ki, cəza tədbirləri də çox ciddi həyata keçirilməlidir. Sizin tövsiyələriniz nəzərə alınaraq bu gündən etibarən biz bu mübarizəni daha da güclü, daha da səmərəli, daha da sərt həyata keçirəcəyik.

Bir daha, möhtərəm cənab Prezident, biz Sizə öz təşəkkürümüzü bildiririk ki, bu açılışı məhz bizim peşə bayramı ərəfəsində edirsiniz. Ulu öndərimiz Heydər Əliyev həmişə prokurorluğun fəaliyyətinə böyük qayğı ilə yanaşmışdır. Siz də bu diqqəti əsirgəmirsiniz, həmişə prokurorluq işçilərinə dövlət səviyyəsində ən yüksək qayğı göstərirsiniz.

Bir daha bizə göstərdiyiniz etimada görə Sizə öz təşəkkürümüzü bildiririk. Sağ olun!

**İlham Əliyev:** Sağ olun!

# BAKININ BİLGƏH QƏSƏBƏSİNDƏ MÜHARİBƏ VƏ ƏMƏK ƏLİLLƏRİ ÜÇÜN PANSİONATDA TİKİLMİŞ YENİ KORPUSUN AÇILIŞI MƏRASİMİ

*1 oktyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva oktyabrın 1-də – Beynəlxalq Ahıllar Günündə Bakının Bilgəh qəsəbəsində müharibə və əmək əlilləri üçün pansionatda tikilmiş yeni korpusun açılışında iştirak etmiş, burada aparılan yenidənqurma işləri ilə tanış olmuşlar.*

*Prezident İlham Əliyevin əhalinin sosial problemlərinin həllinə xüsusi diqqət və qayğı göstərməsi digər sosial qruplar kimi, əlillərin də həyat şəraitinin yaxşılaşmasına, onların ictimai hüquqlarının bərpa olunmasına şərait yaradıb. Əlilliyi olan şəxslərlə bağlı qanunvericilik son illərdə təkmilləşdirilmiş, bu çərçivədə 10-dək yeni hüquqi-normativ akt qəbul edilmişdir. Azərbaycan Respublikası BMT Baş Məclisi tərəfindən 2006-cı ildə qəbul edilmiş «Əlillərin hüquqları haqqında» Konvensiyaya qoşulmuş, bununla da ölkədə əlillərin insan hüquq və azadlıqlarından tam və bərabər imkanlarla yararlanmasına sadiq olduğunu ifadə etmişdir.*

*Əlilliyi olan şəxslərin maddi təminatının gücləndirilməsi dövlət siyasətinin əsas istiqamətlərindən birini təşkil edir. Prezident İlham Əliyev tərəfindən imzalanan müvafiq fərman və sərəncamlara əsasən əlillərə ödənilən pensiya və müavinətlərin məbləği hər il artırılır. Pensiya təminatı sistemində həyata keçirilən islahatlar isə bu kateqoriyadan olan şəxslərin də əmək pensiyalarının ciddi artımına səbəb olub. Dövlət əlil vətəndaşların çoxsaylı sosial proqramlara, o cümlədən reabilitasiya, pulsuz istirahət, texniki-bərpa və nəqliyyat vasitələri ilə*

*təminat proqramlarına cəlb olunmasını həyata keçirir. Əlil vətəndaşlara dövlət qayğısının gücləndirilməsi siyasətinə uyğun* olaraq *Nazirlər* Kabineti *tərəfindən əlillərin* sosial *müdafiəsi ilə bağlı nəzərdə tutulmuş Dövlət* Proqramının *maliyyələşdirilməsi təmin* olunub. *Dövlətin əlil vətəndaşlara qayğısı çərçivəsində* yeni reabilitasiya *mərkəzlərinin* tikintisi *də həyata keçirilib. Ötən illərdə əlil vətəndaşların* sosial *müdafiəsinin gücləndirilməsi və onların* maddi *təminatının yaxşılaşdırılması istiqamətində mühüm irəliləyişlərə* nail olunub. *Qarabağ müharibəsində sağlamlığını itirənlərin və şəhid ailələrinin problemlərinin həlli də diqqət mərkəzində saxlanılır.* Bu kateqoriyadan olan *vətəndaşların mənzillə təmin olunması məqsədilə* son bir *neçə ildə* paytaxt *Bakıda və* region-larda yeni *çoxmənzilli yaşayış binaları,* o *cümlədən fərdi evlər* tikilir. *Ümumilikdə, ötən illərdə 5 mindən çox Qarabağ müharibəsi əlili və şəhid ailəsi mənzillə təmin* olunub. *O cüm-lədən kənd rayonlarında həyətyanı* sahəsi olan 750-*dək fərdi ev inşa edilərək, müharibə əlillərinə* verilib. *Hazırda ildə* orta hesabla *700-dən çox mənzil inşa* olunaraq, *Qarabağ mü-haribəsi əlilləri və şəhid ailələrinin istifadəsinə* verilir. *Bütün* bunlarla *yanaşı, Qarabağ müharibəsi əlillərinin* minik avto-*mobilləri ilə təminatı proqramı* da *həyata keçirilir.* Son *illərdə yüzlərlə Qarabağ müharibəsi əlilinə* avtomobil verilib. *2009-cu ildə müharibə veteranlarına və əlillərinə 500, 2010-cu ildə 350, 2011-ci ildə isə 304* avtomobil *paylanılıb. 2012-ci ildə* Qarabağ *müharibəsi və Böyük Vətən müharibəsi əlillərinə* 325 minik avtomobili *təqdim* olunub.

*Prezident İlham Əliyevin ahıl* insanlara, *aztəminatlı ailələrə göstərdiyi diqqət və qayğının nəticəsidir* ki, *ölkədə* pensiya *islahatları uğurla* davam edir. Pensiya *təminatına* dair yeni *qanunvericilik bazası işlənib hazırlanıb. Hazırda sığorta*-pen-siya sistemi *beynəlxalq təcrübə nəzərə alınmaqla, işlənib hazırlanmış 3* qanunla – «Sosial *sığorta haqqında», «Dövlət* sosial *sığorta sistemində fərdi uçot haqqında», «Əmək* pen-*siyaları haqqında»* qanunlarla *tənzimlənir.* Yeni sistem *bütün*

vətəndaşlar üçün pensiya təminatında bərabər şərtlərin yaradılmasına və qazanılmış pensiya hüquqlarının reallaşdırılmasına təminat verir. 2006-cı ildən etibarən ölkəmizdə yeni, beynəlxalq təcrübədə özünü doğrultmuş üçpilləli struktura əsaslanan əmək pensiyaları sistemi fəaliyyətdədir. Artıq əldə olunmuş ilkin təcrübə yeni sistemin yüksək sosial səmərəliliyini göstərir və bu sistemin fəaliyyəti dövründə əmək pensiyalarının istər minimal məbləği, istərsə də orta aylıq məbləği əhəmiyyətli şəkildə artıb. İslahatların mühüm mərhələsi kimi, 2004-cü ildən etibarən pensiya və müavinətlərin əhaliyə çatdırılmasında müasir texnologiyaların tətbiqinə nail olunmuşdur. Pensiya islahatları çərçivəsində ölkədə sığorta-pensiya sisteminin inkişafına dair 2009–2015-ci illəri əhatə edən Dövlət Proqramı qəbul edilib. Bu proqram ölkədə yoxsulluğun azaldılması və davamlı inkişafa dair müəyyən olunmuş strateji məqsəd, hədəf və göstəricilər nəzərə alınmaqla, sığorta-pensiya sistemində həyata keçirilən islahatların növbəti mərhələsini müəyyənləşdirib. Bununla da sosial ədalət prinsipi üzərində qurulmuş və təkmilləşdirilmiş pensiya sistemi yaradılıbdır.

Xatırladaq ki, 2003-cü ilin əvvəlində Azərbaycanda orta aylıq pensiyanın məbləği 20 manat idi. Uğurlu pensiya islahatları nəticəsində indiyə qədər Prezident tərəfindən yaşa görə əmək pensiyasının baza hissəsinin artırılması ilə bağlı 7, sığorta hissəsinin artırılması ilə bağlı 6 sərəncam verilib. Yeni sistemin tətbiqindən etibarən pensiyaların orta aylıq məbləği hər il yüksələn dinamika ilə artır. 2011-ci ildə həyata keçirilmiş islahat tədbirləri isə 900 minə yaxın pensiyaçını əhatə etmiş və pensiyanın orta hesabla 40 faiz artması ilə nəticələnmişdir. Bütün bunlar da göstərir ki, son illərdə pensiyaçıların sosial müdafiəsi qat-qat güclənib. 2006-cı ildə yeni sistem fəaliyyətə başladığı vaxtdan 2013-cü ilə qədər əmək pensiyalarının minimum məbləği 3,4 dəfə, orta aylıq məbləği isə 5,2 dəfə artıb. 2003-cü ilə nisbətdə orta əmək pensiyalarının məbləğində 8 dəfəyədək artım baş verib. Son illərdə əlilliyə görə əmək

*pensiyalarının orta aylıq məbləği 9,6 dəfə, sosial müavinətlərin məbləği isə 3,7 dəfə artırılıb.*

*Beynəlxalq Pensiya və Sosial Fondlar Assosiasiyasının statistikasına əsasən Azərbaycan hazırda əmək pensiyasının baza hissəsinin məbləğinə görə MDB ölkələri arasında ilk yerlərdən birini tutur. Bütün bunlar da təbii ki, ölkə əhalisinin, xüsusilə də qayğıya daha çox ehtiyacı olan kateqoriyanın – ahıl insanların problemlərinin həllinə imkan yaradır. Paytaxtın Bilgəh qəsəbəsində müharibə və əmək əlilləri üçün pansionatın əsaslı təmir olunması, burada geniş yenidənqurma işlərinin aparılması da bunu göstərir. Burada yaradılan şərait bir daha ahıl insanların dövlətin diqqət və qayğısı ilə əhatə olunduğunu nümayiş etdirir.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, pansionat ötən əsrin 60-cı illərində inşa edilib. Uzun illər burada təmir işlərinin görülməməsi səbəbindən kompleksə daxil olan binalar yaşamaq üçün yararsız vəziyyətə düşmüşdü və yenidənqurma işlərinin aparılması zərurətə çevrilmişdi. Pansionatda aparılan yenidənqurma işləri çərçivəsində 7 hektar ərazi abadlaşdırılmış, ümumi sahəsi 10 min kvadratmetrdən çox olan yeni korpus inşa olunmuşdur.*

*Binada yaradılan şəraitlə tanış olan prezident İlham Əliyevin diqqətinə çatdırıldı ki, yeni korpusda 170 nəfərin yaşaması üçün hər cür şərait yaradılıb. Mövcud korpus isə əsaslı təmirdən sonra 130 nəfərə xidmət göstərəcəkdir. Yenidənqurma işləri tam başa çatdıqdan sonra pansionatda 300 nəfərə xidmət göstərmək mümkün olacaqdır. Qeyd edildi ki, yeni korpusdakı otaqlardan 160-ı birnəfərlik, 5-i ikinəfərlikdir. Ölkədə daha 2 belə müəssisə fəaliyyət göstərir. Onlardan biri Gəncədə, digəri isə Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonundadır.*

*Bildirildi ki, burada yaşayan insanların tibbi problemlərinin həlli daim nəzarətdə saxlanılır, onların sağlamlığına xüsusi diqqət göstərilir.*

*Binada yaradılan şəraitlə tanış olan prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva pansionatda yaşayan ahıl insanlarla görüşdülər.*

**İ l h a m  Ə l i y e v:** Sizi salamlayıram. Bu gün bildiyiniz kimi, dünyada Ahıllar Günü qeyd edilir. Biz bu gün əmək və müharibə veteranları üçün pansionatın yenidən qurulmasını qeyd edirik.

Bu pansionat ötən əsrin 60-cı illərində tikilmişdir. 1998-ci ildə ulu öndər Heydər Əliyev buraya gəlmiş, veteranlarla görüşmüşdür. İndi bu pansionata yeni həyat verilir. Yeni korpus tikilibdir. Əvvəlki korpus əsaslı təmir edilib, çox gözəl şərait yaradılıb. İndi burada 300 veteran yaşaya və dincələ bilər. Hər cür şərait vardır. Pansionatda çox gözəl, müasir standartlar tətbiq edilib, gözəl bir hotelə oxşayır.

Əslində, belə də olmalıdır. Çünki Azərbaycanda veteranlara həmişə böyük hörmət olub. Ümumiyyətlə, cəmiyyətimizin çox möhkəm dayaqları vardır və dövlətimizin də əsasları milli dəyərlərdən ibarətdir. Azərbaycan cəmiyyətində bütün dövrlərdə yaşlı nəslə, ağsaqqallara, ağbirçəklərə böyük hörmət olubdur.

Biz bu ənənələri yaşatmalıyıq. Elə etməliyik ki, gənc nəsil də bu ruhda, milli ruhda böyüsün, milli dəyərlər əsasında öz həyatını qursun və sizdən nümunə götürsün. Siz Azərbaycan üçün, ölkəmiz üçün müxtəlif dövrlərdə böyük xidmətlər göstərmisiniz, işləmisiniz və bu gün ahıl yaşlarınızda dövlət tərəfindən təmin edilmisiniz.

Bu pansionatın yenidən qurulması, bax, belə müasir səviyyədə işlərin görülməsi Azərbaycan dövlətinin güclü sosial dövlət olduğunu təsdiqləyir. Mən bu barədə dəfələrlə fikirlərimi bölüşmüşəm, bir daha demək istəyirəm ki, dövlətimiz sosial dövlətdir. Sosial dövlət o dövlətdir ki, sosial sahəyə, insanlara böyük diqqət göstərilir və siyasətinin mərkəzində vətəndaş dayanır.

Bu gün müstəqil Azərbaycanda sosial dövlət anlayışı tam şəkildə təmin edilir. İldən-ilə artan pensiyalar, maaşlar, ünvanlı

sosial yardım – 120 min ailə sosial yardım alır – son 10 il ərzində yoxsulluq təxminən 10 dəfə aşağı düşmüşdür. Köçkünlərə olan münasibət. Hər il 20 min köçkün yeni evlərə, mənzillərə köçürülür. Yaşlı nəslə olan münasibət Azərbaycanı tam şəkildə sosial dövlət kimi təcəssüm etdirir.

Güclü sosial siyasət bundan sonra da davam etdiriləcəkdir. Xüsusilə yaşlı nəslə, ağsaqqallara, ağbirçəklərə daim diqqət göstərilməlidir və göstəriləcəkdir. Belə gözəl müəssisələrin yenidən qurulması və bütün işlərin müasir səviyyədə təşkili Azərbaycan dövlətinin siyasətini və iradəsini əks etdirir.

Biz bütün sahələrdə nümunəvi ölkə olmalıyıq. Elə etməliyik ki, ölkəmiz hər bir sahədə güclənsin və vətəndaşlar daha da yaxşı yaşasınlar. Əlbəttə, inkişaf etmiş ölkələrdə yaşlı nəsil üçün evlər, pansionatlar, sanatoriyalar tikilir. Ancaq bizdə olan fərq ondan ibarətdir ki, orada bütün xidmətlər pulludur. Kimin pulu var, gedir orada yaşayır, kimin pulu yoxdursa, necə deyərlər, qalır ağır vəziyyətdə.

Burada isə dövlət bütün xərcləri öz üzərinə götürmüşdür. Yəni sizin bütün təminatınız, burada yaradılan bütün şərait və gələcəkdə bu pansionatın istismarı – bütün işlər dövlətin hesabına görüləcəkdir. Bu bir daha göstərir ki, siyasətimizin mərkəzində Azərbaycan vətəndaşıdır, Azərbaycan insanıdır. Vaxtilə neft kapitalını insan kapitalına çevirmək şüarımız bu gün reallaşır.

Mən bu əziz gündə sizi ürəkdən salamlayıram. Çox şadam ki, bu günü biz sizinlə bərabər qeyd edirik. Əminəm ki, bu yeni korpusda və təmirdən çıxmış köhnə korpusda veteranlarımız rahat yaşayacaqlar.

**Mirabutalıb Talıbov** (*pansionatın sakini*): Cənab Prezident! Hörmətli Mehriban xanım!

İcazə verin, mən sizi pansionatın kollektivi adından salamlayım və «Xoş gəlmisiniz!» – deyim.

Bəli, hörmətli Prezident, ataya, anaya rəhmət qazandıran övlad Sizin kimi olar. Allah Sizi saxlasın. Allah Sizin üstünüzdən əskik olmasın, Sizə ömür versin.

Siz Azərbaycan xalqının rifahı üçün nələr etməmisiniz?! İlbəil pensiyalarımız artır. Elə bu yaxın günlərdə pensiyalarımız artdı. Biz xoşbəxt ahıllarıq. Ona görə ki, Sizin kimi Prezidentimiz, dayağımız vardır. Allah Sizi bizim üstümüzdən əskik etməsin. Var olasınız.

**İ l h a m Ə l i y e v:** Mən tanış oldum, otaqlar da rahatdır, genişdir. Bütün şərait vardır. Böyük ərazidir, 7 hektar. Şəhərdə yerləşir, Bilgəh qəsəbəsi də Bakının bir hissəsidir. İndi şəhərə getmək üçün də yaxşı imkanlar vardır, problem yoxdur.

Əsas odur ki, siz rahat yaşayasınız. Siz buna layiqsiniz. Çünki uzun illər ölkəmiz üçün, xalqımız üçün işləmisiniz. Bu gün dövlət sizin bütün qayğılarınızı öz üzərinə götürür və sizin üçün sizə layiq olan şəraiti yaradır.

Azərbaycan nadir ölkələrdəndir ki, bu sahədə çox ciddi praktiki addımlar atılır. Ahıllar üçün evlər tikilir – Bakıda, Gəncədə, Naxçıvanda belə evlər vardır. Ondan sonra uşaq evləri. Demək olar ki, onların tam əksəriyyəti təmir edilibdir. Burada həm dövlət öz sözünü deyir, eyni zamanda, ictimai təşkilatlar da, iş adamları da kömək edirlər. Mən xüsusilə Heydər Əliyev Fondunun fəaliyyətini vurğulamaq istəyirəm. Məhz Fondun xətti ilə bu sahəyə diqqət artırılmışdır. Demək olar ki, bütün uşaq evlərində gözəl təmir işləri aparılmışdır. Xəstə uşaqlar üçün internatlarda da işlər görülür. Sosial cəhətdən aztəminatlı vətəndaşlar üçün dövlət öz köməyini əsirgəməməlidir. Yəni sosial ədalət bu deməkdir.

Əlbəttə, bu gün Azərbaycanda ölkələrin əksəriyyəti kimi, iqtisadiyyatını bazar iqtisadiyyatı əsasında qurmuşdur və böyük uğurlar əldə etmişdir. Ancaq eyni zamanda, sosial siyasət daim diqqət mərkəzindədir. Çünki biz insanlar üçün çalışırıq. Çalışırıq ki, Azərbaycan vətəndaşları daha da yaxşı yaşasınlar. Kimin imkanı var, imkanları daha da artıq olsun, kimin imkanı yoxdursa dövlət öz dəstəyini göstərməlidir. Azərbaycan vətəndaşları və yaşlı nəsil bilir ki, onların arxasında güclü dövlət dayanır. O dövlət ki, onları heç vaxt darda qoymaz və hər bir məsələdə onlara arxa-dayaq olacaqdır.

Çünki belə də olmalıdır. Bu siyasət gələcəkdə davam etdirilməlidir ki, Azərbaycanda sosial ədalət heç vaxt pozulmasın və bizim ənənələrimiz davam etsin. Buna da, ağsaqqalların sözlərinə də böyük ehtiyac vardır. Çünki bu gün dünya dəyişir, qloballaşır, bəzi ənənəvi dəyərlər itib gedir. Buna yol vermək olmaz. Çünki hər bir cəmiyyətin əsası onun dəyərləridir. Dəyərlər üzərində qurulan cəmiyyət sağlam cəmiyyətdir. Biz elə etməliyik ki, gənclərimiz, bax, bu ruhda – milli ruhda böyüsün, milli adət-ənənələrə sadiq olsunlar. Ona görə dövlət tərəfindən yaşlı nəslə göstərilən bu qayğı bilavasitə cəmiyyətdə də bu məsələlərə diqqəti artırır. Sizin üçün isə yeni bir şərait yaradılıbdır və əminəm ki, rahat yaşayacaqsınız.

**İ l y a s İ s g ə n d ə r o v** (*pansionatın sakini*): Cənab Prezident, fəxr edirəm ki, mənim Heydər Əliyev kimi Prezidentim olub. O həmişə mənim ürəyimdə yaşayır. Evdə ulu öndərin böyük bir şəklini asmışam. Həmişə o şəklə baxıb fəxr edirəm.

Mən Sizdən çox razıyam. Mənim bir ayağım yoxdur, bir qolum da şikəstdir. Özüm də 19 ildir ki, bu pansionatda yaşayıram. Mən buranın vəziyyətindən çox razıyam. 2006-cı ildə pensiyalar artandan sonra mən 4 il pensiyamı yığıb özümə 1 avtomobil də almışam.

**İ l h a m Ə l i y e v:** Çox yaxşı.

**K ü b r a İ s l a m o v a** *(pansionatın sakini):* Cənab Prezident, Mehriban xanım, bizim təzə evimizə xoş gəlmisiniz! Gələn ayaqlarınız var olsun. Biz bu evi Sizin sayənizdə əldə etdik. Allah Sizi bizim üzərimizdən əskik etməsin. Sizin sayənizdə Bakı çiçəklənir, işıqlanır, yeni körpülər tikilir. Siz hər şəraiti yaratmısınız. Mehriban xanımın sayəsində də çoxlu məktəblər, uşaq bağçaları tikilmişdir. Allah Sizə cansağlığı versin.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun. Çox işlər görülübdür. Dediyiniz kimi, körpülər, binalar, şəhərlər tikilib. Ancaq bu işlərin içərisində, əlbəttə ki, sosial məsələlər həmişə mənim üçün prioritet olub. Çünki hər şey insanlar üçündür. İnsanlar rahat, təhlükəsizlik, əmin-amanlıq şəraitində yaşasınlar. Yaxşı

dolanışıq olsun, işlə təmin edilsinlər. Pensiyaçı yaxşı pensiya alsın. Kimin imkanı yoxdursa dövlət də onları öz himayəsinə götürsün və onlara qulluq etsin. Belə olan halda cəmiyyətdə də müsbət ab-hava yaşanır. Bu gün bizim cəmiyyətimiz sağlam cəmiyyətdir. Bu çox böyük üstünlükdür. Sakitlik, əmin-amanlıq, sabitlik. Görün bu gün dünyanın müxtəlif yerlərində nələr baş verir?! Toqquşmalar, müharibələr, dava-dalaş, təxribatlar, fəlakətlər. Fəlakətlər burada da oldu. Keçən il zəlzələ, ondan sonra daşqın oldu. Biz bütün bu sınaqlardan şərəflə çıxdıq. Orada minlərlə ev tikildi. Zəlzələdən sonra 1 il ərzində dövlət hesabına 4 mindən çox ev tikildi. Yəni dövlət insanların bütün ehtiyaclarını ödəməlidir. Kim ki ağır vəziyyətə düşür, dövlət mütləq öz əlini uzatmalıdır. Zəlzələ, təbii fəlakət baş verdi, evlər dağıldı. İnkişaf etmiş ölkələrdə belə hadisələr baş verdikdə dövlət deyir ki, get sığorta şirkətindən pulunu al, evin sığortalanıb. Amma bizdə belə deyildir. Burada dövlət bütün yükü öz üzərinə götürür. Ahıllar üçün tikilən ev, uşaq evləri, xəstə uşaqlar üçün internatlar, xəstəxanalar, məktəblər – bütün bunlar böyük vəsait tələb edən layihələrdir.

Bu gün dövlətimiz güclüdür. Bu gün dünyada güclü Azərbaycan dövləti vardır ki, öz sözünü deyir və öz vətəndaşlarını daim müdafiə edir. Sizi bir daha təbrik edirəm.

## «AZƏRBAYCAN HAVA YOLLARI» QSC-nin HAVA HƏRƏKƏTİNİN İDARƏEDİLMƏSİ BAŞ MƏRKƏZİNİN YENİ BİNASININ AÇILIŞI MƏRASİMİ

*2 oktyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva oktyabrın 2-də «Azərbaycan Hava Yolları» Qapalı Səhmdar Cəmiyyətinin «Azəraeronaviqasiya» Hava Hərəkəti İdarəsinin Hava Hərəkətinin İdarəedilməsi Baş Mərkəzinin yeni binasının açılışı mərasimində iştirak etmişlər.*

*Azərbaycanın mülki aviasiyası özünün sürətli inkişaf dövrünü yaşayır. Ölkəmizin hava nəqliyyatının modernləşdirilməsinə xüsusi diqqət göstərilir. Regionun nəhəng aviaşirkətinə çevrilmiş «Azərbaycan Hava Yolları» həm regionda, həm də MDB-də yeni avialaynerlərin sayına görə liderlərdəndir. Heydər Əliyev Beynəlxalq Aeroportunda yeni «Azəraeronaviqasiya» Hava Hərəkəti İdarəsinin Hava Hərəkətinin İdarəedilməsi Baş Mərkəzinin yeni binasının açılışı da bu hava limanının strateji əhəmiyyətini daha da artırır.*

*Dövlətimizin başçısı binanın rəmzi açılışını bildirən lenti kəsdi, burada yaradılan şəraitlə tanış oldu.*

*«Azərbaycan Hava Yolları» QSC-nin prezidenti Cahangir Əsgərov prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya məlumat verdi ki, «Azəraeronaviqasiya» Hava Hərəkəti İdarəsi Azərbaycan Respublikasının hava məkanında və bütün aeroportlarında uçuşların idarəedilməsi ilə məşğuldur. Bu idarə Azərbaycan Respublikasının quru və su sərhədlərinə, ümumilikdə 165,4 min kvadratkilometr ərazidə hava gəmilərinin uçuşlarını idarə edir. Qurum tərəfindən xidmət göstərilən hava dəhlizinin uzunluğu 8 min kilometrdən çoxdur.*

*Diqqətə çatdırıldı ki, dünyanın çoxlu sayda aviaşirkətləri Avropadan Asiyaya və geriyə uçuşlar həyata keçirərkən Azərbaycan Respublikasının hava məkanına daha çox üstünlük verirlər. Bu baxımdan «Azəraeronaviqasiya» Hava Hərəkəti İdarəsinin Hava Hərəkətinin İdarəedilməsi Baş Mərkəzi üçün yeni inşa olunan bina mühüm əhəmiyyət kəsb edir.*

*Qeyd edildi ki, Baş Mərkəzin yeni binasının ümumi sahəsi 5 min kvadratmetrdir. Dispetçer qülləsi daxil olmaqla, binanın hündürlüyü 65 metrdir.*

*Dövlətimizin başçısı foyedəki virtual muzeydə «Azəraeronaviqasiya» Hava Hərəkəti İdarəsinin fəaliyyətindən bəhs edən filmə baxdı.*

*Binada, həmçinin «Azəraeronaviqasiya» Hava Hərəkəti İdarəsinin Administrasiyası, virtual muzey, Aviasiya Meteoroloji və Aeronaviqasiya İnformasiya mərkəzləri, «Azəraeronaviqasiya» İdarəsinin inkişaf və uçuşların təhlükəsizliyi şöbələri, ixtisaslaşdırılmış treninqlərin keçirilməsi üçün müasir avadanlıqlarla təchiz olunmuş otaqlar, konfrans zalları, yeməkxana və digər texniki otaqlar yerləşir.*

*Binada, həmçinin Hava Hərəkətinin İdarəedilməsi dispetçerlərinin həm standart, həm də qəza vəziyyətlərinə hazırlanması və təkmilləşdirilməsi üçün yeni trenajor kompleksi vardır.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva komplekslə tanış oldular. Bildirildi ki, Hava Hərəkəti İdarəsi qülləsində radiolokasiya nəzarəti və vizual müşahidə üçün dispetçer trenajoru quraşdırılıb. Burada dispetçerlər üçün istirahət otaqları da yerləşir.*

*Dövlətimizin başçısı Baş Hava Hərəkəti İdarəsi Mərkəzinin əməliyyat zalı ilə tanış oldu.*

*Qeyd edildi ki, əməliyyat zalından Azərbaycan Respublikasının bütün ərazisində hava hərəkətinin idarə edilməsi və nəzarəti həyata keçirilir. Marşrutda, uçuşda və enmədə hava gəmilərinin hərəkətini avtomatlaşdırmağa imkan verən bu müasir sistem aerodrom ətrafında uçuşların yüksək təhlükəsizliyini təmin edəcək, həm hava limanının, həm də tranzit axınlarının*

*buraxılış qabiliyyətini artıracaqdır. Bu sistem dispetçer radiolokasiya, uçuş məlumatlarını, uçuşun planlarını qonşu ölkələrin əlaqəli Hava Hərəkətinin İdarəetmə Mərkəzləri ilə onlayn rejimdə idarə edir.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva qüllə ilə tanış oldular.*

*Dispetçer İdarəetmə Məntəqəsindən ətraf ərazilər 360 dərəcədə müşahidə edilə bilir. Burada aerodromda uçuşların idarə edilməsi avtomatlaşdırılmış sistemlərlə təchiz edilmiş dispetçer masaları, hava-yer ultraqısadalğalı radiorabitə sistemi, perronda hava gəmisinin hərəkətinə videomüşahidə sistemi quraşdırılıb.*

*Mərkəzdə yaradılmış şəraitlə tanışlıqdan sonra dövlətimizin başçısı idarənin kollektivi ilə görüşdü.*

**İ l h a m Ə l i y e v:** Sabahınız xeyir olsun!

Bu gün biz Aeronaviqasiya İdarə Mərkəzinin yeni binasının açılışını qeyd edirik. Bu münasibətlə sizi təbrik edirəm. Gözəl binadır, xarici görünüşü də gözəldir. Gözəl memarlıq abidəsidir. Burada bütün lazımi təchizat da təmin edilib. Burada işləyənlər üçün gözəl şərait yaradılıb və ən müasir avadanlıqlar quraşdırılıbdır. Əlbəttə ki, yeni mərkəz əvvəlki mərkəzdən xeyli dərəcədə fərqlənir, burada həm də müşahidə aparmaq üçün gözəl imkanlar vardır, hər iki zolaq çox gözəl görünür, bu, artıq müasir standartlar deməkdir.

Ümumiyyətlə, Azərbaycanda hava nəqliyyatının inkişafı üçün çox böyük işlər görülür. Hava nəqliyyatı hər bir ölkə üçün vacib bir sahədir. Azərbaycanda, deyə bilərəm ki, bu sahədə çox gözəl nəticələr vardır.

Son illər ərzində bizim bütün əsas hava limanlarımız əsaslı şəkildə təmir edilib, yaxud da ki, yeniləri tikilibdir. Gəncə, Naxçıvan, Lənkəran, Yevlax aeroportları yenidən qurulubdur. Eyni zamanda, Qəbələ, Zaqatala aeroportları da tikilmişdir. Yəni 6 aeroport tikilmişdir ki, bu gün tam şəkildə bizim tələbatlarımızı ödəyir. Beləliklə, Azərbaycanda uzun illər

bundan sonra da hava nəqliyyatının inkişafı üçün gözəl imkanlar yaranır.

Əvvəlki illərdə bu aeroportların vəziyyəti o qədər də ürəkaçan deyildi. Onlar, demək olar ki, yarıdağılmış vəziyyətdə idi. Bu gün isə onlar ən yüksək standartlara cavab verir və sərnişinlərə çox gözəl xidmət göstərilir.

Bununla bərabər, Heydər Əliyev Beynəlxalq Aeroportunun yeni aerovağzal kompleksinin tikintisi artıq başa çatmaq üzrədir. Burada da çox gözəl işlər görülübdür. Əvvəlki köhnə aerovağzal əsaslı şəkildə təmir edilib, yeni aerovağzal isə hesab edirəm ki, dünyanın ən gözəl aeroportlarından biri olacaqdır. Həm onun xarici görünüşü, həm daxili dizaynı və bütün infrastruktur ən yüksək səviyyədədir. Mən hesab edirəm ki, bu aeroport memarlıq nümunəsi kimi, müxtəlif kataloqlarda öz əksini tapacaqdır. Çünki bunun quruluşu da, dizaynı da, ümumiyyətlə, yanaşması da çox orijinaldır və böyük məna daşıyır. Yuxarıdan baxanda elə bil ki, qanadlarını açmış bir quşu əks etdirir. Yəni bu gün ölkəmiz də yüksəliş dövrünü yaşayır. Azərbaycan da sürətlə inkişaf edir. Bu aeroportun bu formada tikilməsi həm rəmzi məna daşıyır, həm də müasirlikdir və yenilikdir. Bu aeroport dünya miqyasında seçilən aeroportlardan biri olacaqdır.

Hava nəqliyyatının inkişafı üçün bütün lazımi tədbirlər görülür. Son 10 ildə 30-dan çox yeni təyyarə alınmışdır. Demək olar ki, alınan bütün təyyarələr dünyanın aparıcı şirkətlərinin məhsullarıdır. Beləliklə, sərnişinlərin rahatlığı və təhlükəsizliyi üçün bütün imkanlar vardır.

Bununla bərabər, 20-yə yaxın helikopter alınmışdır. Bu da həm biznes, həm neft-qaz əməliyyatlarının aparılması üçün çox lazım olan sahədir. Ümumiyyətlə, gələcəkdə helikopter hava nəqliyyatı hesab edirəm ki, Azərbaycanda daha da geniş şəkildə yayılacaqdır. İnkişaf etmiş ölkələrdə olduğu kimi, bizdə də bu sahə gələcək üçün vacib olan sahə kimi, özünü göstərməlidir.

Digər sahələrdə, nəqliyyat sektoruna aid olan bütün başqa sahələrdə yaxşı nəticələr vardır – hava nəqliyyatı, dəniz

nəqliyyatı, dəmir yolu nəqliyyatı. Biz böyük infrastruktur layihələri icra edirik. Bakı–Tbilisi–Qars dəmir yolunun tikintisi uğurla davam edir. Bu layihə qitələri birləşdirən layihə olacaqdır. Avropanı Asiya ilə birləşdirən layihə olacaqdır. Bu yaxınlarda Bakıda yeni Gəmiqayırma zavodunun tikintisi də nəqliyyat infrastrukturuna verilən böyük bir dəstək olacaqdır. Biz artıq özümüz bütün növ gəmiləri istehsal edəcəyik. Yəni Azərbaycan və Bakı artıq dünyanın logistika və nəqliyyat mərkəzinə çevrilibdir. Azərbaycanda yükdaşımaları artır və Azərbaycan tranzit ölkə kimi, öz imkanlarını genişləndirir. Bu gün beynəlxalq uçuşların sayı artır. Azərbaycanda fəaliyyət göstərən şirkətlər, həmçinin karqo-aviasiyada da ön plandadır. Yəni Azərbaycanda nəqliyyatın bütün sahələri inkişafdadır. Sərnişin nəqliyyatı, yük nəqliyyatı və bütün digər lazım olan məsələlər öz həllini tapır. Bu, ölkəmizin gələcək imkanlarını böyük dərəcədə artıracaq. Azərbaycan artıq tranzit ölkə kimi, əvəzolunmaz ölkəyə çevrilibdir.

Bu bizim üstünlüyümüzdür. Bu sahənin inkişafı gələcəkdə bizə böyük mənfəət gətirəcəkdir. Bu gün investisiyalar böyük ölçülərlə qoyulur. Bu belə də lazımdır. İnfrastruktura qoyulan investisiyalar ölkənin inkişafını şərtləndirir. Ancaq, əlbəttə ki, infrastrukturun yaradılması ilə bərabər, bu investisiyalar qayıdacaqdır. Ölkəmizə uzun müddət ərzində gəlir gətirəcək, bizim qeyri-neft sektorumuzu inkişaf etdirəcək və ölkəmizin uğurlu inkişafını təmin edəcəkdir.

Bu gün mərkəzin açılışı görülən bu işlərin tərkib hissəsidir. Bu münasibətlə sizi bir daha ürəkdən təbrik edirəm. Sizə yeni uğurlar arzulayıram. Sağ olun!

* * *

*Azərbaycanda sərnişin daşımalarının həyata keçirilməsi üçün aerovağzal binası 1933-cü ildə yaradılmışdı. Respublikamızda beynəlxalq standartlar səviyyəsində aerovağzal kompleksi isə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə tikilmiş*

və 1999-cu ildə istismara verilmişdi. Cəmi bir neçə il ərzində Bakı aeroportunda uçuş-enmə zolaqları və yönəldici yollar yenidən qurulmuş, uçuşları idarəetmə sistemləri müasirləşdirilmiş, radionaviqasiya və meteoavadanlıq yenilənmiş, digər silsilə tədbirlər reallaşdırılmışdı.

Son illərdə Azərbaycanın mülki aviasiyası intensiv inkişaf mərhələsinə qədəm qoyub. 2004-cü ildə beynəlxalq standartlara cavab verən Naxçıvan Beynəlxalq Aeroportu işə düşüb. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində 2006–2008-ci illərdə bir-birinin ardınca Gəncə, Zaqatala və Lənkəranda aeroport istismara verilib. Daha sonra Qəbələdə və Yevlaxda aeroport inşa olunub. Bundan əlavə, sərnişin və yükdaşımalarının daha müasir səviyyəyə çatdırılması üçün təyyarə və helikopter parkı yenilənib.

«Azərbaycan Hava Yolları»nın təyyarə parkı dünyanın tanınmış şirkətlərindən alınan yeni və müasir təyyarələrlə zənginləşdirilmişdir. Hazırda «Azərbaycan Hava Yolları» QSC-nin təyyarələri dünyanın onlarla ölkəsinə və şəhərlərinə uçuşlar həyata keçirir. Son illərdə ölkəmizdə mülki aviasiyanın inkişafı istiqamətində görülən tədbirlərdən biri də Heydər Əliyev Beynəlxalq Aeroportunda yeni aerovağzal kompleksinin tikintisinə başlanılmasıdır.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Heydər Əliyev Beynəlxalq Aeroportunun yeni aerovağzal kompleksində aparılan tikinti-quraşdırma işlərinin gedişi ilə də tanış oldular.

«Azərbaycan Hava Yolları» QSC-nin prezidenti Cahangir Əsgərov görülən işlərlə bağlı dövlətimizin başçısına məlumat verdi. Qeyd edildi ki, layihənin həyata keçirilməsində məqsəd sərnişin və yükdaşımaları ilə bağlı xidmətin səviyyəsini daha da yüksəltmək, eləcə də təyyarə uçuşlarının təhlükəsizliyini dünya standartlarına uyğunlaşdırmaqdır. Yeni aerovağzal kompleksi istifadəyə veriləndən sonra ildə 3 milyon sərnişinə xidmət göstərmək mümkün olacaqdır. Ən müasir standartlara cavab verən aerovağzal kompleksinin sahəsi 58 min kvadratmetrdir. Üçbucaq formasında inşa edilən 4 mərtəbəli yeni aerovağzal binası

istifadəyə verildikdən sonra buradan beynəlxalq reyslər yerinə yetiriləcəkdir. Mövcud terminal vasitəsilə isə yerli aviareyslər həyata keçiriləcəkdir.

Yeni terminalın binasında müasir eskalatorlar və sərnişin liftləri quraşdırılıb. Burada beynəlxalq aviasiyada istifadə olunan ən son elmi-texniki yeniliklərin tətbiqi həyata keçiriləcəkdir. Müasir görünüşü ilə də diqqəti cəlb edəcək yeni aerovağzalda sərnişinlərə xidmət ən yüksək tələblər səviyyəsində olacaqdır. Ən son avadanlığın tətbiqi uçuşların təhlükəsizliyinə hərtərəfli imkan yaradacaqdır. Aerovağzal binasının ərazisində eyni vaxtda 8 təyyarəni qəbul edə biləcək teleskopik traplar quraşdırılacaqdır.

Sonra prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva yeni «Airbus-340» təyyarəsinin salonuna baxdılar.

Görülən işlərlə yaxından tanış olan dövlətimizin başçısı müvafiq tapşırıqlarını verdi.

## SUMQAYIT ŞƏHƏRİNƏ SƏFƏR

*3 oktyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Sumqayıt şəhərinə səfərə gəlmişdir.*

*Dövlətimizin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin şəhərin mərkəzindəki abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

*Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov son vaxtlar Sumqayıtda görülən abadlıq və quruculuq işləri barədə prezident İlham Əliyevə məlumat verdi. Bildirildi ki, abidənin ətrafında xeyli abadlıq işləri görülmüş, yaşıllıq sahəsi artırılmışdır.*

### 1 saylı Sumqayıt Şəhər Xəstəxanasında aparılan əsaslı təmir və yenidənqurma işləri ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 3-də 1 saylı Sumqayıt Şəhər Xəstəxanasında aparılan əsaslı təmir və yenidənqurma işləri ilə tanış olmuşdur.*

*Azərbaycanda səhiyyə sektorunun inkişafı ilə bağlı islahatlar dövlətin həyata keçirdiyi sosial siyasətin başlıca istiqamətlərindən birini təşkil edir. Son illərdə səhiyyənin inkişafı ilə bağlı həyata keçirilən məqsədyönlü siyasət bu sahənin keyfiyyət və kəmiyyət göstəriciləri ilə zənginləşməsinə səbəb olub, tibb sektoru yeni inkişaf mərhələsinə qədəm qoyub. Səhiyyə ilə bağlı mühüm dövlət proqramlarının hazırlanaraq həyata keçirilməsi, əhalinin sağlamlığının daha etibarlı şəkildə qorunması, onların ən yüksək səviyyədə tibbi xidmətlərlə təmin olunması bu istiqamətdə gerçəkləşən siyasətin prioritetləridir. Səhiyyə müəssisələrinin təmiri və bərpası, ən müasir avadanlıqlarla təchiz edilməsi, vətəndaşların pulsuz dərman preparatları ilə*

*təmini, müalicəsi, regionlarda diaqnostika mərkəzlərinin tikilərək istifadəyə verilməsi, uşaqların bütün növ tibbi xidmətlərlə ən yüksək səviyyədə əhatə olunması bu sahədə islahatların əsasını təşkil edir. Bu məqsədlə regionlarda yaşayan əhalinin də tibbi xidmətlərlə keyfiyyətli şəkildə təmin olunması üçün bütün növ müayinə və müalicəni, əməliyyatları həyata keçirməyə imkan verən yeni müəssisələr yaradılır.*

*1 saylı Sumqayıt Şəhər Xəstəxanasının binasının yenidən qurulması da bu prosesin ardıcıl xarakter aldığını təcəssüm etdirir. Bu müalicə ocağının yenidənqurmadan sonra istifadəyə verilməsi şəhər sakinlərinin keyfiyyətli səhiyyə xidmətindən rahat istifadəsinə daha çox kömək edəcəkdir.*

*Səhiyyə naziri Oqtay Şirəliyev dövlətimizin başçısına aparılan yenidənqurma işləri barədə məlumat verdi. Nazir dedi ki, çoxprofilli xəstəxananın binası 1967-ci ildə inşa olunub və o vaxtdan burada əsaslı təmir işləri aparılmayıb. 1 saylı xəstəxana Sumqayıtın mərkəzində yerləşir və əhalinin ən çox müraciət etdiyi tibb ocağıdır. Burada əsaslı təmir və yenidənqurma işləri bu ilin oktyabrında başa çatdırılıb.*

*Prezident İlham Əliyev xəstəxananın kollektivi və Sumqayıt ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

**İ l h a m Ə l i y e v**: Mən sizi ürəkdən salamlayıram və 1 saylı Sumqayıt Şəhər Xəstəxanasının əsaslı təmirdən sonra yenidən açılışı münasibətilə təbrik edirəm. Çox gözəl, əlamətdar hadisədir. İndi xəstəxanaya yeni həyat verilir. Burada bütün lazımi şöbələr vardır. Əminəm ki, yaxşı xidmət də göstəriləcəkdir və xəstələr burada sağalıb evlərinə dönəcəklər.

Bu xəstəxananın yenidən qurulmasına böyük ehtiyac var idi. Çünki bildiyiniz kimi, xəstəxananın vəziyyəti o qədər də ürəkaçan deyildi və burada keyfiyyətli tibbi xidmət göstərmək üçün də imkanlar çox məhdud idi. Uzun illərdir ki, tikilmişdi, köhnəlmişdi. Əlbəttə ki, əsaslı təmirə ehtiyac var idi. Ölkəmizin hər bir bölgəsində hazırda müasir xəstəxanalar tikilir. Qarşıya məqsəd qoyulmuşdur ki, ölkəmizin hər bir şəhərində ən azı 1 müasir xəstəxana olmalıdır. Ancaq nəzərə alsaq ki, son illərdə

bölgələrdə 15 diaqnostika-müalicə mərkəzi tikilmişdir, indi bəzi şəhərlərdə ən müasir standartlara cavab verən 2 və ya 3 tibb müəssisəsi vardır.

Beləliklə, səhiyyə sisteminin inkişafı, onun maddi-texniki bazasının möhkəmləndirilməsi üçün çox böyük işlər görülmüşdür. Bütövlükdə, deyə bilərəm ki, son 10 ildə təqribən 500-ə yaxın tibb müəssisəsi tikilmişdir, təmir edilmişdir. Təsəvvür etmək çətindir ki, əgər biz bu işləri görməsəydik, indi səhiyyə sistemimiz hansı vəziyyətdə ola bilərdi.

Bu, işin bir hissəsidir. Əlbəttə ki, xəstəxanaların təmiri, avadanlıqlarla təchizatı səhiyyə sisteminin inkişafı üçün çox vacib amillərdir. Ancaq tibbi xidmətin yüksəlməsinə də böyük ehtiyac var. Əlbəttə, həkimlərin peşəkarlığı və bilikləri burada öz rolunu oynayır, oynayacaqdır. Bilirəm ki, həkimlərin peşəkarlığını artırmaq üçün xüsusi proqramlar tərtib edilir, onların dünyada gedən proseslərdə iştirakı ilə bağlı məsələlər öz həllini tapır, informasiya mübadiləsi aparılır. Yəni həkimlər daim işləməlidirlər ki, biz dünyada sürətlə inkişaf edən tibb sahəsinin bütün yeniliklərini Azərbaycanda tətbiq edə bilək.

Bununla paralel olaraq bundan sonra da Azərbaycanda xəstəxana tikintisi davam etdiriləcəkdir. Çünki mən dəfələrlə qeyd etmişəm, bir daha demək istəyirəm ki, Azərbaycan dövləti sosial dövlətdir. Siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Əlbəttə ki, hər bir insan üçün onun sağlamlığı çox vacibdir. Biz çalışmalıyıq ki, insanlar öz sağlamlıqlarını itirməsinlər və keyfiyyətli yüksək tibbi xidmətlə təmin olunsunlar. Bunu etmək üçün bundan sonra da müvafiq göstərişlər veriləcəkdir, tədbirlər görüləcəkdir.

Ancaq deyə bilərəm ki, Azərbaycanda bu sahədə görülən işlər beynəlxalq təşkilatlar tərəfindən də qiymətləndirilir. Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanda islahatların aparılmasında müsbət meyilləri qeyd edir. Əlbəttə, bu bizi daha da ruhlandırır. Əminəm ki, növbəti illərdə səhiyyə sisteminin təkmilləşdirilməsi üçün əlavə tədbirlər görüləcəkdir.

Azərbaycanda bir dənə də təmirsiz tibb ocağı olmamalıdır, bir dənə də qəzalı vəziyyətdə poliklinika, yaxud da ki, hansısa kənd ambulatoriyası olmamalıdır. Əlbəttə, ilk növbədə, böyük şəhərlərdə, ondan sonra bütün şəhərlərdə və ondan sonra bütün yaşayış məntəqələrində – harada ki, xəstəxanalar, tibb mərkəzləri var, orada bütün işlər görülməlidir.

Hesab edirəm ki, Sumqayıt üçün çox böyük əhəmiyyət daşıyan bu layihəni də biz uğurla icra etdik. Bütövlükdə insanların sağlamlığı üçün bütün lazımi tədbirlər Azərbaycanda görülür. Tibb xidməti, əlbəttə ki, ön plandadır. Ancaq insanların sağlamlığını şərtləndirən başqa amillər də vardır. Biz bu məsələlərə kompleks şəkildə yanaşırıq. Xüsusən də vaxtilə böyük sənaye mərkəzi olan Sumqayıt kimi bir şəhər üçün kompleks tədbirlərin görülməsi mühüm əhəmiyyət daşıyır. Bir neçə gün bundan əvvəl Taxtakörpü su anbarının tikintisi və Taxtakörpü–Ceyranbatan kanalının açılışı nəticəsində Sumqayıtın içməli su ilə təchizatı daha da yaxşılaşacaqdır. Halbuki bu gün şəhər sakinlərinin 83 faizi fasiləsiz təmiz içməli su ilə təmin edilir. Bu məsələlərin bir hissəsi öz həllini tapıbdır. Ancaq şəhər əhalisi artacaq, burada yeni müəssisələr yaradılacaq, ona görə içməli və texniki suya tələbat daha da böyük olacaqdır.

Sumqayıtın ekoloji vəziyyəti daim diqqət mərkəzindədir. Çünki sovet dövründə Sumqayıtın ekoloji vəziyyəti ağır idi. Biz bunu bilirik. Əfsuslar olsun ki, bu köhnə informasiyalar, məlumatlar bu gün də dünya mətbuatında mövcuddur. Ancaq həqiqət elədir ki, bu gün Sumqayıt ən təmiz şəhərlərdən biridir. Çünki vaxtilə havanı çirkləndirən müəssisələr öz fəaliyyətini dayandırmışdır. Yeni müəssisələr isə çox yüksək ekoloji standartlar əsasında tikilir.

Bu gün Sumqayıt yaşıl şəhərdir, gözəl havası, gözəl iqlimi, gözəl təbiəti vardır. Sumqayıt bu gün parklar, bağlar şəhəridir. Parkların sayına görə heç Bakıdan da geri qalmır. Çox şadam ki, Sumqayıtda bu parkların yenidən qurulması prosesi gedir. Mən son 10 ildə Sumqayıta 10 dəfədən çox səfər etmişəm və

Sumqayıtın inkişafı daim diqqət mərkəzindədir. Çox şadam ki, insanlar üçün vacib olan bu sahə də öz həllini tapır. Sumqayıt parklar, bağlar, ağaclar şəhəridir, yaşıl şəhərdir və burada yenidənqurma işləri aparılır. Binaların bir çoxu əsaslı şəkildə təmir edilir. Sumqayıt üçün ənənəvi istirahət zonaları yenidən qurulur. Burada inkişaf, dizayn, quruculuq işləri Bakı şəhərinin səviyyəsində olmalıdır.

İndi Sumqayıt Bakıya yaxınlaşır. Coğrafi nöqteyi-nəzərdən, demək olar ki, birləşib. İndi Bakı ilə Sumqayıt arasında boş yer qalmayıb. Fərdi evlərin, hündürmərtəbəli binaların tikintisi gedir. Ancaq yaşayış səviyyəsinə görə də Sumqayıt Bakıdan geri qalmamalıdır. Çünki böyük şəhərdir, gözəl tarixi, zəhmətkeş insanları vardır. Sumqayıt Bakıdan sonra Cənubi Qafqazın ikinci böyük sənaye mərkəzidir. Bu da hesab edirəm ki, çox əlamətdar hadisədir. Çünki Cənubi Qafqazın ən böyük 2 sənaye şəhəri Azərbaycan şəhərləridir. Sumqayıtın yeni sənaye mərkəzi kimi inkişafı artıq reallaşır. Bu barədə mən hələ 10 il bundan əvvəl demişdim, 2004-cü ildə burada böyük elektrik stansiyasının açılışı zamanı demişdim ki, bu stansiyanın tikintisi Sumqayıtda sənayenin inkişafına təkan verəcəkdir və belə də oldu.

Son illər ərzində Sumqayıtda onlarla zavod, fabrik açılmışdır. Onların hamısı dünya standartları səviyyəsindədir. Sumqayıt Texnoparkı bu gün dünya miqyasında seçilən bir texnoparkdır. Xarici qonaqlar, hətta inkişaf etmiş ölkələrdən olan qonaqlar bu texnoparkla tanış olduqda qeyd edirlər ki, doğrudan da çox müasir texnoparkdır. İndi orada 14 zavod fəaliyyət göstərir və 5 zavodun tikintisi davam edir.

Ondan sonra Sumqayıtda Gübrə zavodunun tikintisinə başlanılmışdır. Bu da ölkəmiz üçün çox vacib olan sahədir. Günəş panelləri zavodunun açılışında mən iştirak etmişəm. Keçən dəfə burada olanda Trikotaj fabrikinin açılışında iştirak etmişəm. Burada daha çox qadınlar üçün iş yerləri açılır və Sumqayıt böyük bir tekstil mərkəzinə çevriləcəkdir. Çünki burada tekstil fabriklərinin sayı getdikcə artacaqdır.

Bu gün isə Sumqayıt Kimya Sənaye Parkının təməl daşı qoyulur. Bu, ölkəmiz üçün çox əlamətdar hadisədir. Çünki bu yeni bir sənaye şəhəri olacaqdır. Kimya Sənaye Parkında onlarla zavod, fabrik tikiləcəkdir. Onların hamısı özəl sektor tərəfindən tikiləcəkdir. Dövlət sadəcə olaraq, bütün infrastruktur layihələrini icra edir, yer ayrılmışdır, dəmir yolu, elektriklə təchizat, bütün lazımi tədbirlər görülmüşdür ki, investorlar gəlib oraya vəsait qoysunlar. Artıq bu proses başlamışdır.

Sumqayıtda yeni, ekoloji cəhətdən təmiz Kimya Sənaye Parkının yaradılması müstəqilliyimizin üstünlüklərini bir daha göstərir. Çünki vaxtilə burada tikilmiş kimya zavodları ekoloji cəhətdən standartlara uyğun deyildi. Sovet dövründə, ümumiyyətlə, ekologiya barədə heç kim düşünmürdü. Sadəcə, nəyin bahasına olursa-olsun məhsulun istehsalı tələb edilirdi.

Bu gün isə müstəqil Azərbaycanda, sosial dövlət olan Azərbaycanda insan amili ön plandadır. Ona görə burada yaradılan, yaradılacaq bütün zavodlar dünya səviyyəsində ekoloji standartlara uyğun olmalıdır. Kimya Parkının yaradılması burada 10 minlərlə yeni iş yerlərinin açılmasına gətirib çıxaracaqdır. Çünki böyük şirkətlər böyük müəssisələr yaradacaqdır və ondan sonra orta və kiçik sahibkarlar o böyük zavodlarda istehsal olunan ilkin məhsullardan son məhsulu istehsal etmək üçün öz işlərini quracaqlar.

Beləliklə, gələcəkdə Sumqayıtda bütün bu zavod və fabriklərdə işləmək üçün başqa rayonlardan da işçi qüvvəsi gələcəkdir. Bu proses başlamışdır. Qonşu rayonlardan, ətraf yerlərdən indi işçi qüvvəsinin axını müşahidə olunur.

Yəni Sumqayıtı mən belə görürəm: gələcəkdə Cənubi Qafqazın ən böyük sənaye mərkəzlərindən biri, dünya miqyasında ən böyük sənaye mərkəzlərindən biri olmalıdır, eyni zamanda, ekoloji cəhətdən tam təmiz, insanlar üçün rahat, yaşamaq, işləmək üçün rahat, gözəl, abad bir şəhər olmalıdır. Sumqayıtın təbiətini, dənizə çıxışını nəzərə alaraq şəhər geniş miqyasda sənaye, turizm, mədəniyyət, istirahət mərkəzi olmalıdır. Bax, mən Sumqayıtı belə görürəm. Bu məqsədlərə çatmaq üçün

hesab edirəm ki, kifayət qədər işlər görülmüşdür və sumqayıtlılar bütün bu işlərdə fəal iştirak etmişlər. Bütün bu uğurlarla mən sizi təbrik edirəm. Əminəm ki, gələcəkdə bizim bütün planlarımız həyatda öz əksini tapacaqdır. Bir daha sizi təbrik edirəm.

**Mətanət İsmayılova** *(1 saylı Sumqayıt Şəhər Xəstəxanasının həkimi):* Möhtərəm cənab Prezident!

İcazə verin, Sizi bütün sumqayıtlılar adından ürəkdən salamlayım. Şəhərimizə xoş gəlmisiniz!

Bu gün Sumqayıtımızda müasir xəstəxananın istifadəyə verilməsi böyük bir hadisədir. Bu xəstəxana yüksək səviyyədə təmir olunub, müasir tibbi avadanlıqlarla təchiz edilib. Bu, dövlətimizin vətəndaşlara olan diqqətinin, qayğısının göstəricisidir, düşünülmüş siyasətin nəticəsidir. Bu siyasətin kökündə isə insan sağlamlığı dayanır və bütün bunlar bizim gələcəyimiz üçündür.

Biz izləyirik və görürük ki, Siz təkcə Sumqayıtda deyil, bütün bölgələrdə yeni xəstəxanalar açırsınız. Tovuzda, Ağcabədidə, Astarada, Cəlilabadda yeni səhiyyə müəssisələrini istifadəyə verdiniz. Bu müəssisələr də yüksək standartlara cavab verir, həm memarlıq, həm təmizlik, həm keyfiyyət, həm gözəllik baxımından. Son 10 ildə 500-dən artıq səhiyyə müəssisəsi istifadəyə verilib. Bütün bunlar hamısı Azərbaycanın gücünün, qüdrətinin göstəricisidir.

Möhtərəm cənab Prezident! Siz hər birimiz üçün vətənpərvərlik nümunəsisiniz. Hər zaman çalışırsınız ki, istifadə etdiyimiz ərzaq, sənaye məhsulları ölkəmizdə istehsal olunsun, övladlarımız ölkəmizdə mükəmməl təhsil alsınlar, vətəndaşlarımıza yüksək keyfiyyətli tibbi xidmət göstərilsin. Biz həkimlər hər zaman çalışacağıq ki, öz biliyimizi, peşəkarlığımızı daim artıraq və ciddi, peşəkar həkim ordusu formalaşdıraq. Mən bir gənc kardioloq kimi, Sizi əmin edirəm ki, öz üzərimdə hər zaman çalışacağam. Xəstəxanamızda yaradılan bu şəraitdən şəhər sakinləri yararlanacaqlar, hər dəfə

Sizin tövsiyə etdiyiniz kimi, ildə 1 dəfə gəlib burada müayinədən keçəcəklər. Yaradılan bu şəraitə görə çox sağ olun.

Möhtərəm cənab Prezident! Biz həmçinin sevimli Mehriban xanım Əliyevaya da dərin minnətdarlığımızı bildiririk. O öz çoxşaxəli fəaliyyəti ilə idman, səhiyyə, təhsil, mədəniyyət sahələrinə dəyərli töhfələr verir və hər zaman nümunəvi Azərbaycan xanımı obrazını təbliğ edir.

Siz həmçinin Sumqayıtımızı da gözəlləşdirirsiniz. Parklarımız, özünüz qeyd etdiyiniz kimi, heç də Bakıdan geri qalmır. Yaradılan bu şəraitə görə şəhər sakinlərimiz adından Sizə dərin minnətdarlığımı, səmimi təşəkkürümü bildirirəm.

**İlham Əliyev:** Sağ olun.

* * *

*Sonra prezident İlham Əliyev xəstəxanada yaradılan şəraitlə tanış oldu. Bildirildi ki, xəstəxana beşmərtəbəli əsas müalicə, üçmərtəbəli yoluxucu xəstəliklər korpuslarından və birmərtəbəli təsərrüfat binalarından ibarətdir. Buradakı şöbələrdə müxtəlif xəstəliklərin müayinəsi və müalicəsi mümkün olacaqdır.*

*Qeyd edildi ki, 225 çarpayılıq xəstəxanada terapiya, otolarinqologiya, kardiologiya, yoluxucu xəstəliklər, nevrologiya, urologiya, nefrologiya, hemodializ, anesteziologiya-reanimatologiya, poliklinika və təcili yardım stansiyası tibbin ən son nailiyyətləri olan avadanlıq və cihazlarla təmin edilib. Xroniki böyrək çatışmazlığından əziyyət çəkən xəstələrin burada müalicə alması üçün hemodializ şöbəsi də fəaliyyət göstərəcəkdir. Xəstəxana indiyədək şəhərin dövlət tibb müəssisələrində olmayan və şəhər sakinlərinin dərin tibbi müayinəsi zamanı kəskin ehtiyac duyulan maqnit-rezonans tomoqrafiya aparatı ilə təchiz edilib. Əsaslı təmirdən sonra xəstəxanada, həmçinin exokardioqrafiya kabineti, histoloji və virusoloji laboratoriyalar, şəhərin bütün stasionar tibb müəssisələrini təmin edə biləcək mərkəzləşmiş mətbəxin yaradılması nəzərdə tutulub.*

*Diqqətə çatdırıldı ki, xəstəxanada 550 tibb işçisi çalışacaqdır. Onların 100-ü həkim, 300-ü orta tibb işçisidir. Bu rəqəmlər özlüyündə Sumqayıt Şəhər Xəstəxanasının nə qədər geniş funksiyanı yerinə yetirəcəyini göstərir. Bütün bunlar həm də təsdiq edir ki, son illərdə səhiyyə sahəsində baş verən mühüm dəyişikliklər bu sektorun dünyanın ən müasir tibbi avadanlıqlar ilə təmin olunmasıdır.*

*Müasir Azərbaycanı ən qabaqcıl texnologiyaların tətbiq olunduğu məkana çevirmək məqsədini qarşıya qoyan prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində ölkəmizdə yenidən qurulan səhiyyə müəssisələri regionda ilk dəfə açıq ürək əməliyyatı və qara ciyərin köçürülməsi kimi mühüm nailiyyətlərə imza atmışdır. Bu illər ərzində regionlarda yüzlərlə tibb ocağının, müalicə-diaqnostika mərkəzlərinin inşası səhiyyə sisteminin inkişafından xəbər verir. Yeni tikilən tibb ocaqları, ölkəyə gətirilən müasir tibbi avadanlıqlar ilk növbədə, bir məqsədə – Azərbaycan əhalisinin sağlam olması kimi mühüm missiyanın yerinə yetirilməsinə xidmət edir.*

*Xəstəxanada yaradılan şəraitlə tanışlıq zamanı dövlətimizin başçısına məlumat verildi ki, Sumqayıt Şəhər Doğum Evinin və qadın məsləhətxanasının binaları da əsaslı təmir olunub.*

*Məlumat verildi ki, 1 saylı Şəhər Xəstəxanasında infrastruktur tamamilə yenilənib. Xidmətdə fasilələr yaranmaması üçün transformator stansiyası və generatorlar quraşdırılıb. Yenidənqurma zamanı yeni qazanxana, içməli və yanğına qarşı su anbarları, nasos stansiyası, avtomobil dayanacağı tikilib.*

*Prezident İlham Əliyev xəstəxanada xidmətin yüksək səviyyədə təşkili ilə bağlı tapşırıq və tövsiyələrini verdi.*

## Üzeyir Hacıbəyli adına «Kimyaçı» Mədəniyyət sarayının qarşısındakı meydanda aparılan yenidənqurma işləri ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 3-də Sumqayıta səfəri çərçivəsində Dövlət Neft Şirkətinin «Azərikimya»*

*İstehsalat* Birliyinin *tabeliyində* olan *Üzeyir Hacıbəyli adına «Kimyaçı» Mədəniyyət sarayının qarşısındakı* meydanda *aparılan yenidənqurma işləri ilə tanış olmuşdur.*

*Ölkəmizdə aparılan abadlıq*-quruculuq *işləri əhalinin* istira-*hətinin təşkilinə də töhfəsini verməkdədir. Həm insanların istirahətinin təşkilində, həm də şəhər və rayonlarımızın* simasının daha da *gözəlləşməsində yeni parkların salınması mühüm rol oynayır.*

*Dövlət Neft Şirkətinin* prezidenti *Rövnəq* Abdullayev *Azər*-baycan *Prezidentinə məlumat* verdi *ki, «Kimyaçı» Mədəniyyət sarayı* 1986-*cı ildə istifadəyə* verilib. *Həmin* vaxtdan *etibarən sarayın qarşısındakı* meydanda respublika *və şəhər əhəmiyyətli müxtəlif tədbirlər keçirilib.* Bu *ərazi* Sumqayıt *şəhərinin mərkəzində yerləşən ən geniş meydandır. Ümumi ərazisi* 5 hektar olan meydanda *geniş abadlıq*-quruculuq *və yaşıllaşdırma işləri aparılıb.* Meydanda kommunikasiya *xətləri və işıqlandırma* sistemi *tamamilə yenidən* qurulub. *Müasir fəvvarə* meydana *xüsusi yaraşıq verməklə yanaşı, həm də istirahət edənlərin könlünü oxşayır.* Burada *həm mərkəzə gələn* qonaqlar, *həm də Sumqayıt sakinlərinin istirahətinin mənalı təşkili üçün hər cür şərait yaradılıb.*

Sonra *prezident İlham Əliyev «Kimyaçı» Mədəniyyət sarayının* stendi *ilə tanış* oldu. Qeyd edildi ki, saray bundan sonra *Sumqayıt Mədəniyyət Mərkəzi adlanacaqdır. Üçmərtəbəli* inzibati *binanın* birinci *mərtəbəsində* 800 yerlik *böyük* kino-konsert salonu, ikinci *mərtəbədə müşavirə* və iclas *zalları vardır. Mədəniyyət Mərkəzində* teatr *tamaşaları*, konsert *proqramları*, yeni texnologiya *ilə təqdim* olunan *kinofilmlərin nümayişi və digər müxtəlif tədbirlərin keçirilməsi üçün yüksək şərait yaradılacaqdır.* Burada, *həmçinin* restoran, *sərgi* salonu *və müxtəlif dərnəklər fəaliyyət göstərəcəkdir. Mərkəzin ərazisində* 260 yerlik avtomobil *dayanacağının yaradılması* da *nəzərdə* tutulub.

*Dövlətimizin başçısı mərkəzin yenidən qurulması ilə bağlı tapşırıq və tövsiyələrini verdi.*

## «Sağlam qida» aqrar-sənaye kompleksinin açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 3-də Sumqayıtda «Sağlam qida» aqrar-sənaye kompleksinin açılışında iştirak etmişdir.*

*İqtisadi İnkişaf naziri Şahin Mustafayev məlumat verdi ki, bu iqtisadi qurum Sumqayıtın sənaye zonasında 7 hektar ərazidə istehsal və xidmət sahələrini əhatə edən 3 iri müəssisədən ibarət müasir aqrar-sənaye kompleksidir. Respublika əhəmiyyətli belə böyük bir aqrar-sənaye kompleksinin yaradılması dövlətin güzəştli kreditlərindən istifadə edilməklə həyata keçirilib. Bu cür mühüm iqtisadi obyektlərin istifadəyə verilməsi ilk növbədə, vətəndaşların keyfiyyətli ərzaq məhsulları ilə təmin edilməsi istiqamətində vacib addımlardandır. Belə komplekslərin yaradılması həm də özəl sektorun inkişafına ölkədə göstərilən qayğının əyani təsdiqidir.*

*Diqqətə çatdırıldı ki, kompleksin tərkibinə Çörək istehsalı zavodu, taxıl anbarı, un dəyirmanı kompleksi, həmçinin qida məhsullarının saxlanılması, daşınması və satışı üzrə logistik mərkəz daxildir.*

*Kompleksin Çörək istehsalı zavodunun foyesində ümummilli lider Heydər Əliyevin Sumqayıta səfərlərini əks etdirən fotolardan ibarət stend yaradılıb.*

*Dövlətimizin başçısı müəssisəni işə saldı.*

*Bildirildi ki, dəyəri 28,9 milyon manat olan Çörək zavodunun yaradılmasına İqtisadi İnkişaf Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 10 milyon manat güzəştli kredit ayrılıb. Ərzaq təhlükəsizliyinin və əhalinin keyfiyyətli çörək məhsulları ilə təmin edilməsi məqsədilə zavod Almaniyanın bu sahədə böyük təcrübəyə malik şirkətinin son texnologiyası əsasında qurulub.*

*Gündəlik istehsal gücü 150 ton olan Çörək zavodunda məhsul hazırlanması prosesi tam avtomatlaşdırılıb. İstehsalın hər bir*

mərhələsinə ayrı-ayrılıqda nəzarət sistemi tətbiq olunur ki, bu da sanitar-gigiyenik normalara əməl olunmaqla, çox yüksək keyfiyyət standartlarına cavab verən çörək məhsullarının əldə edilməsinə imkan verir. Yeni texnologiyanın tətbiqi məhsulun maya dəyərinin formalaşmasında xüsusi çəkisi olan enerji xərclərinin azalmasına imkan yaradır. Bu da istehlakçılara keyfiyyətcə yüksək və aşağı qiymətlərlə çörək məhsullarının təqdim edilməsinə şərait yaradır. Çörəkbişirmə xətlərində tətbiq edilən elektron müşahidə və keyfiyyətə nəzarət sistemi istehsalın müxtəlif mərhələlərində standartlara uyğun gəlməyən çörəyin müəyyən edilməsinə və xətdən dərhal çıxarılmasına imkan verir. Zavodda 4 çörəkbişirmə və 1 müxtəlif növ un məmulatlarının istehsalı xətləri, xüsusi növ çörəklərin bişirilməsi üçün 6 soba quraşdırılıb. Beləliklə, burada 45 çeşiddə 12 növ çörək məhsulları və un məmulatları istehsal olunacaqdır. Çörək məhsulları qablaşdırılaraq «Çörəkçi» brendi altında satışa çıxarılacaqdır. Məmulatların Sumqayıt, Bakı şəhərlərinə və respublikanın digər rayonlarına çatdırılması üçün 40 xüsusi nəqliyyat vasitəsi alınıb.

Prezident İlham Əliyevə dövlətin güzəştli kreditləri hesabına maliyyələşdirilmiş çörək istehsalı zavodları barədə də məlumat verdi. Bildirildi ki, bu məqsədlə Sahibkarlığa Kömək Milli Fondu tərəfindən ümumi dəyəri 84,6 milyon manat, gündəlik istehsal gücü 693 ton olan 25 Çörək zavodunun tikintisinə və ən müasir texnologiya və avadanlıqlarla təchiz edilməsinə 31,1 milyon manat güzəştli kredit verilib. Türkiyə, Almaniya, Çexiya və digər ölkələrin müasir texnologiya və avadanlıqlar əsasında qurulmuş, gündəlik istehsal gücü 610 ton olan 18 Çörək zavodu artıq istifadəyə verilib. Ən müasir texnologiya və avadanlıqların tətbiqinə əsaslanan belə zavodların fəaliyyətə başlaması istehlakçıları tələbata tam cavab verən yüksək keyfiyyətli çörək və çörək məhsulları ilə təmin etməyə imkan verir.

Sonra prezident İlham Əliyev aqrar-sənaye kompleksinin tərkibinə daxil olan taxıl anbarı və dəyirman kompleksini işə saldı. Məlumat verildi ki, buradakı taxıl anbarı və un dəyirmanı

Türkiyənin aparıcı şirkətinin texnologiyası əsasında qurulub. Dəyəri 10 milyon manat olan taxıl anbarı və dəyirman kompleksinin tikintisinə Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 6 milyon manat güzəştli kredit ayrılıb. Taxıl məhsullarının tədarükü və saxlanması üçün hər birinin tutumu 4 min ton olan 6 anbar inşa olunub. Anbarda quraşdırılmış təmizləmə və qurutma sistemləri tədarük olunacaq taxıl məhsullarının itkisiz və uzun müddət ərzində saxlanılmasına imkan verir. Kompleksin tərkibində taxıl anbarının olması xammal bazasının yaradılması baxımından əhəmiyyətli rola malikdir. Taxıl anbarı kompleksə daxil olan un dəyirmanı və Çörək zavodunun fasiləsiz fəaliyyətini təmin edir. Gündəlik istehsal gücü 250 ton olan dəyirman kompleksində ən son texnologiya sayılan quru təmizləmə sisteminin tətbiqi digər ənənəvi dəyirmanlardan fərqli olaraq daha geniş həcmdə və əla, birinci və ikinci növ keyfiyyətli un istehsalına tam şərait yaradır.

Dövlətimizin başçısına məlumat verildi ki, ölkə daxilində və ölkədən kənarda istehsal olunan məhsulların müştərilərin tələblərinə, istəklərinə uyğun olaraq, keyfiyyətini itirmədən, təhlükəsiz şəkildə uzun müddət saxlanması və istehlakçılara çatdırılması üçün burada logistika mərkəzi də yaradılıb. Dəyəri 8 milyon manat olan və qida məhsullarının saxlanılması, daşınması və satışı üzrə ən müasir texnologiyalara əsaslanan logistika mərkəzinin yaradılmasına da Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 5 milyon manat güzəştli kredit verilib. Bu mərkəzin tərkibinə tutumu 5 min ton olan soyuducu və 4 min tonluq quru anbarlar, beynəlxalq yükdaşımalarını həyata keçirən nəqliyyat vasitələri üçün dayanacaq meydançası daxildir. Soyuducu anbar İtaliyanın tanınmış şirkətinin avadanlığı ilə təchiz olunub. Logistika mərkəzində sifarişlərin qəbulu, məhsulların qeydiyyat və uçotunun aparılması, anbarlama, çeşidləmə, qablaşdırma, daşıma və digər xidmətlərin göstərilməsi həyata keçirilir. Mərkəzləşdirilmiş idarəetmə sisteminin tətbiqi müştərilərə qısa zamanda keyfiyyətli xidmətlərin göstərilməsinə imkan verir. Yük-daşımalarının həyata keçirilməsi üçün isə müxtəlif tonnajlı 75 nəqliyyat vasitəsi

*alınıb. Beləliklə, bu mərkəzin qurulması yerli istehsalçıların öz məhsullarının xarici bazarlara az məsrəflə və qısa müddətdə çıxarılmasını stimullaşdıracaqdır.*

*Diqqətə çatdırıldı ki, xammal bazasının təmin edilməsi məqsədilə kompleksin inkişaf planında müasir suvarma sistemlərinin tətbiq edilməsi respublikanın müxtəlif rayonlarında özəl taxılçılıq təsərrüfatlarının yaradılmasını nəzərdə tutur.*

*Qeyd edildi ki, kompleksdə inşa olunan inzibati və yardımçı binalarda əmək kollektivi üçün iş otaqları, tədris və iclas zalları, yeməkxana və digər zəruri şərait yaradılıb. Aqrar-sənaye kompleksində 600-dək yeni iş yeri yaradılıb.*

## Sumqayıt Kimya Sənaye Parkının təməlqoyma mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 3-də Sumqayıt Kimya Sənaye Parkının təməlqoyma mərasimində iştirak etmişdir.*

*Ölkəmizdə həyata keçirilən genişmiqyaslı sənayeləşmə strategiyasının əsas istiqamətlərindən biri sənaye mərkəzlərinin yaradılmasıdır. Sənaye parkları yüksək rəqabətqabiliyyətli iqtisadiyyatın sahələrinin daha sürətlə inkişaf etdirilməsinə təkan verəcəkdir. Bu baxımdan Sumqayıt şəhərindəki sənaye zonası ərazisində ümumi sahəsi 168 hektar olan, zəruri infrastruktura və idarəetmə qurumlarına malik, müasir texnologiyaların tətbiqi yolu ilə rəqabətqabiliyyətli məhsulların istehsalı və xidmətlərin göstərilməsi məqsədilə tikiləcək Sumqayıt Kimya Sənaye Parkı mühüm əhəmiyyət kəsb edir.*

*İqtisadi İnkişaf naziri Şahin Mustafayev dövlətimizin başçısına məlumat verdi ki, sənaye parkının əsas xüsusiyyətləri onun ən qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla yaradılması, sənaye zonalarının fəaliyyətini təmin edən müasir infrastrukturun formalaşdırılması, istehsalla elmin və təhsilin əlaqələrinin gücləndirilməsi, daha münbit investisiya mühitinin formalaşdırılması, qabaqcıl, müasir arxitekturaya və mühəndis həllərinə cavab verən bina və qurğuların tikilməsidir.*

*Bildirildi ki, Sumqayıt Kimya Sənaye Parkının ərazisi 2 hissəyə bölünməklə inzibati-sosial və sənaye zonalarından ibarət olacaqdır. Parkın inzibati-sosial zonasında 16 və 20 mərtəbəli 2 inzibati bina, Peşə Tədris Mərkəzi, 7 tədris emalatxanası, sərgi-konfrans, ikikorpuslu hotel-yataqxana kompleksləri, laboratoriya-tədqiqat mərkəzi, açıq və qapalı idman zalları, uşaq bağçası və bir sıra digər sosial obyektlər inşa ediləcəkdir. Sənaye zonasının 43 alt sənaye ərazisində orta hesabla 35–40 müəssisənin yerləşdirilməsi nəzərdə tutulur. Burada 7 minə qədər yeni daimi iş yerinin açılması gözlənilir. Sənaye zonası polimerlər, inşaat kimyası, avtomobil sənayesi kimyası, kənd təsərrüfatı kimyası, məişət kimyası və tibbi kimya alt sahələrinə bölünəcəkdir. Sumqayıt Kimya Sənaye Parkının investisiya cəlbediciliyinin artırılması məqsədi ilə parkın rezidentləri 7 il müddətinə mənfəət, torpaq, əmlak vergilərindən, eyni zamanda, parka gətirilən avadanlıq və texnologiyalar əlavə dəyər vergisindən azad olunub.*

*Diqqətə çatdırıldı ki, Sumqayıt Kimya Sənaye Parkında «bir pəncərə» sistemi tətbiq edilir. Burada artıq 2 rezident – «SOCAR–Polimer» və «Azərtexnolayn» Məhdud Məsuliyyətli cəmiyyətləri qeydiyyata alınıb.*

*Prezident İlham Əliyev Sumqayıt Kimya Sənaye Parkının təməlini qoydu.*

*Sonra dövlətimizin başçısı inşaatçılarla görüşdü.*

**İ l h a m Ə l i y e v:** Bu gün Sumqayıt şəhərinin tarixində çox əlamətdar bir gündür. Sumqayıt şəhərinin yeni sənaye inkişafı dövrü bu gün başlayır. Sumqayıt Kimya Sənaye Parkının təməl daşı qoyulmuşdur. Əminəm ki, qısa müddət ərzində bu ərazidə böyük sənaye şəhəri yaradılacaqdır.

Sumqayıt bu gün müasir sənaye şəhəridir. Burada artıq onlarla yeni müasir müəssisə fəaliyyət göstərir. Kimya Sənaye Parkının yaradılması Sumqayıtın inkişafına böyük təkan verəcəkdir. Burada minlərlə, bəlkə də 10 minlərlə yeni iş yeri açılacaq, onlarla yeni müəssisə yaradılacaqdır. Müəssisələrin hamısı yüksək standartlara uyğun olacaq, ən yüksək ekoloji standartlar burada tətbiq ediləcəkdir.

Təqribən 200 hektara yaxın bu ərazi ekoloji fəlakət ərazisi idi. Burada ekoloji normalara riayət edilmirdi. Demək olar ki, bu ərazinin təmizlənməsi böyük bir qəhrəmanlıq idi. Ancaq biz bunu təmizlədik. Ekoloji cəhətdən tam təmiz ərazidir. Burada Azərbaycanı və Sumqayıtı gələcəkdə sənaye mərkəzi kimi təsdiqləyən onlarla müəssisə yaradılacaqdır. Beləliklə, ölkəmizin qeyri-neft sektorunun inkişafı təmin ediləcəkdir.

Bu gün tarixi gündür. Çünki Azərbaycan öz sənaye potensialını inkişaf etdirir və sənayeləşmə siyasətimiz uğurla davam etdirilir. Qeyri-neft sənayesinin inkişafı prioritetdir. Bu ilin 9 ayının nəticələrinə görə qeyri-neft sektorumuz 10 faizdən çox artmışdır.

Kimya Sənaye Parkının yaradılması sənaye inkişafının yeni mərhələsi olacaqdır. Bu müəssisələr və Sumqayıt Kimya Sənaye Parkının yaradılması və inkişafı ölkəmizin sənaye potensialını gücləndirəcəkdir. Burada yeni iş yerləri, ən yüksək standartlara cavab verən müəssisələr yaradılacaq, müasir avadanlıqlar quraşdırılacaq, ixracyönümlü məhsullar istehsal olunacaqdır. Buraya qoyulacaq investisiyaların həcmi milyardlarla ölçülür. Burada həm dövlət investisiyaları olacaq, çünki Dövlət Neft Şirkəti artıq ilkin investisiya layihələrini icra edir. Daha da çox özəl sektor burada öz investisiyalarını qoyacaqdır. Biz bütün investorları – daxili və xarici investorları buraya dəvət edirik.

Bu gün, bu tarixi gündə mən bir daha investorlara müraciət etmək istəyirəm ki, Azərbaycanda çox gözəl investisiya iqlimi vardır. İnvestisiyalar dövlət tərəfindən qorunur. Azərbaycanda genişlənən daxili bazar vardır. Burada istehsal ediləcək məhsullar ixrac üçün də yararlı olacaqdır.

Burada xüsusi güzəştlər, xüsusi vergi qaydaları tətbiq ediləcəkdir. İnvestisiya qoyan şirkətlər ən gözəl şəraitlə təmin ediləcək və böyük həcmdə investisiya qoymaq istəyənlər üçün böyük güzəştlər olacaqdır.

Mən əminəm ki, bu layihənin çox gözəl gələcəyi olacaqdır. Çünki bu günə qədər bizim təşəbbüsümüzlə reallaşan bütün

layihələr uğurla icra edilibdir. Bir dənə də həyatda öz əksini tapmayan təşəbbüsümüz olmamışdır. Bütün təşəbbüslər nəticədə çox gözəl inkişafa gətirib çıxarır.

Bu gün, bir daha demək istəyirəm ki, tarixdə qalacaqdır. Sumqayıtın yeni sənaye inkişafı günüdür. Sumqayıtın böyük, müasir sənaye şəhəri olmasının başlanması günüdür. Əminəm ki, gələcəkdə biz burada yaradılacaq bütün müəssisələrin açılışlarında iştirak edəcəyik.

Hesab edirəm ki, gələcəkdə bu 200 hektara yaxın olan ərazi də bizə kifayət etməyəcəkdir. Çünki həm daxili, həm xarici investorlar buraya gələcəklər, burada işləyəcəklər, investisiyalar qoyacaqlar, görəcəklər ki, bu investisiyaların nə qədər gözəl səmərəsi vardır. Beləliklə, Sumqayıt bundan sonra daha da böyük sənaye şəhərinə çevriləcəkdir.

Mən bu tarixi gündə sizi, sumqayıtlıları, bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Çox şadam ki, bu təşəbbüs də reallaşır. Çox şadam ki, bu gün dediyim kimi, yeni sənaye inkişafı dövrü başlayır. Bir daha təbrik edirəm. Sizə uğurlar arzulayıram.

## Kimya Sənaye Parkı ərazisində «Azərtexnolayn» Məhdud Məsuliyyətli Cəmiyyətinin Polad boru zavodunun açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 3-də Sumqayıt Kimya Sənaye Parkı ərazisində «Azərtexnolayn» Məhdud Məsuliyyətli Cəmiyyətinin Polad boru zavodunun açılışında iştirak etmişdir.*

*Azərbaycanda son dövrlərdə neftdən əldə edilən gəlirlərin qeyri-neft sektorunun inkişafına yönəldilməsi istiqamətində çox mühüm və ardıcıl layihələr həyata keçirilib. Dövlətimizin başçısının müvafiq fərmanları ilə texnoparkların yaradılması, bu texnoparklarda müasir istehsal sahələrinin istifadəyə verilməsi ölkə iqtisadiyyatının gücləndirilməsinə, rəqabətə-davamlı və keyfiyyətli məhsulların istehsal edilməsinə geniş*

imkanlar açıb. Sumqayıt Kimya Sənaye Parkının ərazisində ilk sərmayəçi olan «Azərtexnolayn» Məhdud Məsuliyyətli Cəmiyyətinin Polad boru zavodu bu baxımdan mühüm əhəmiyyətə malikdir. Bu cür müasir istehsal müəssisələrinin istifadəyə verilməsi ölkə sənayesinin inkişafını daha da sürətləndirəcəkdir. Belə müəssisələr həm də rəqabətədavamlı məhsul istehsal etməklə, Azərbaycanda gedən iqtisadi inkişaf proseslərinə mühüm töhfə verir, bununla da son illərdə ölkəmizdə həyata keçirilən iqtisadi islahatların uğurlarına təminat yaratmış olur. Digər tərəfdən, bu cür müəssisələr ölkədə iqtisadi inkişaf strategiyasının mühüm komponentlərinin daha keyfiyyətlə və uğurla icrasına təminat verir.

Prezident İlham Əliyev ərazinin maketinə baxdı. Bildirildi ki, Polad boru zavodundan əlavə, yaxın zamanda burada mexaniki və hidrotexniki avadanlıq zavodları istifadəyə veriləcəkdir. Dövlətimizin başçısına Polad boru zavodunun iqtisadi-texniki göstəriciləri barədə məlumat verildi. Bildirildi ki, burada müxtəlif diametrli polad borular istehsal ediləcəkdir. Layihəyə uyğun olaraq zavodda Türkiyə, Almaniya, İtaliya və Çin texnologiyası əsasında ildə 100 min ton polad borular istehsal olunacaqdır. Burada hazırlanacaq polad borular xam neft, təbii qaz və su xətlərinin çəkilişində, neft emalı zavodlarında, sənaye boru xətti şəbəkələrinin yaradılmasında, polad konstruksiyaların yığılmasında istifadə olunacaqdır.

Prezident İlham Əliyevə mexaniki və hidrotexniki avadanlıq zavodlarının texniki göstəriciləri və burada istehsal olunacaq məhsullar barədə geniş məlumat verildi.

Dövlətimizin başçısı zavodu işə saldı.

Prezident İlham Əliyev istehsal prosesi ilə tanış oldu. İlkin mərhələdə xammal kimi alınmış 30 tonluq rulonlar tam avtomatik olaraq spiral qaynaq aparatına bağlanılır və rulonlar açılıb ütülənərək bükülməyə verilir. Qaynaq prosesi bitdikdən sonra boru xüsusi müayinədən keçir. Sonrakı mərhələdə boru hidrotest vasitəsilə yoxlanılır. Zavodda məhsulun keyfiyyətini tam yoxlamaq üçün rentgen müayinəsi aparatı da quraşdırılıb.

*Zavodda istehsal olunacaq* boruların *diametri 400–2000 millimetr, qalınlığı 6–25 millimetr, uzunluğu isə tələbata uyğun olaraq 6–16 metr arasında dəyişəcəkdir. Zavodda 2 spiral boru istehsal xətti quraşdırılıb. Burada ildə 75 min ton müxtəlif diametrli polad borular, 60 min ton müxtəlif diametrli və yüksək təzyiqə davamlı hidrotexniki avadanlıq və 12 min ton xüsusi təyinatlı müxtəlif diametrli polietilen boruların istehsalı nəzərdə tutulub. Ümumi sahəsi 27 min kvadratmetr olan müəssisədə ABŞ, Almaniya və Türkiyə istehsalı olan müasir avadanlıqlar quraşdırılıb. Zavodun məhsulları Azərbaycan təbii qazının və suyunun nəqlini yüksək səviyyədə həyata keçirməyə imkan verəcəkdir. Diqqətə çatdırıldı ki, zavodda 500 nəfər işlə təmin olunacaqdır. Burada istehsal edilən polad və polietilen borular əsasən daxili bazarda olan tələbatın ödənilməsinə yönəldiləcəkdir. Bu tələbat tam ödənildikdən sonra istehsal olunan boruların xaricə, o cümlədən Rusiyaya, Qazaxıstana, Gürcüstana, Türkmənistana və digər ölkələrə ixrac edilməsi planlaşdırılır.*

# İNDONEZİYANIN PALEMBANQ ŞƏHƏRİNDƏ KEÇİRİLƏN III İSLAM HƏMRƏYLİYİ OYUNLARINDA QALİB GƏLMİŞ İDMANÇILARIMIZ, ONLARIN MƏŞQÇİLƏRİ VƏ İDMAN MÜTƏXƏSSİSLƏRİ İLƏ GÖRÜŞ

*4 oktyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 4-də İndoneziyanın Palembanq şəhərində keçirilən III İslam Həmrəyliyi oyunlarında qalib gəlmiş idmançılarımız, onların məşqçiləri və idman mütəxəssisləri ilə görüşmüşdür.*

**İlham Əliyev**: Əziz idmançılar, əziz dostlar!

Mən sizin hamınızı səmimiyyətlə salamlayıram və əldə edilmiş uğurlar münasibətilə ürəkdən təbrik edirəm. Siz Azərbaycanı ləyaqətlə təmsil etmisiniz. İslam Həmrəyliyi oyunlarında bizim komandamız böyük nəticələr əldə etmişdir, 24 medal qazanmışdır, onlardan 6-sı qızıl medaldır. Bu çox gözəl göstəricidir, böyük qələbəmiz, böyük uğurumuzdur. Bu qələbə bir daha onu göstərir ki, Azərbaycan idman dövlətidir, idman sürətlə inkişaf edir və qələbələrimizin səbəbləri məhz dövlət siyasətinin güclü olmasındadır.

Dövlət siyasəti, idmana rəhbərlik edən qurumların birgə fəaliyyəti – Milli Olimpiya Komitəsi, Gənclər və İdman Nazirliyi, federasiyalar, klublar, idman cəmiyyətləri bir məqsədə qulluq edirlər ki, Azərbaycan özünü dünyada, idman aləmində ləyaqətlə təmsil etsin, Azərbaycanda idman inkişaf etsin və uğurlarımızın sayı artsın.

İslam Həmrəyliyi oyunları müsəlman aləmində çox əlamətdar bir hadisədir. Əlbəttə, bu, idman yarışıdır və böyük idman yarışıdır, eyni zamanda, islam həmrəyliyini gücləndirən bir amildir.

Azərbaycan gənc müstəqil ölkə olmasına baxmayaraq, islam həmrəyliyi üçün də öz səylərini göstərir, öz töhfəsini verir. Bilirsiniz ki, islam həmrəyliyini gücləndirmək üçün ölkəmizdə müxtəlif tədbirlər keçirilir. 2009-cu ildə Bakı şəhəri «İslam mədəniyyətinin paytaxtı» elan edilmişdir, 2018-ci ildə bu şərəfli missiya Naxçıvan şəhərinin payına düşür. Bu məsələləri mən İslam Həmrəyliyi oyunlarının keçirilməsi zamanı videomüraciətimdə də ifadə etmişəm. Beləliklə, bu oyunların hesab edirəm ki, nəinki idman sahəsində, bütövlükdə müsəlman aləminin birləşməsində müsbət rolu vardır.

Əlbəttə, bu, idman yarışıdır. Biz hər bir idman yarışına hazırlaşırıq və çalışırıq ki, ölkəmiz orada ləyaqətlə təmsil olunsun, 24 medalın qazanılması və idmançıların böyük uğurları bütün Azərbaycan xalqını sevindirir və bir də onu göstərir ki, bu qələbə təsadüfi xarakter daşımır. Çünki son illərdə Azərbaycan müxtəlif beynəlxalq yarışlarda ən yüksək pillələrə yüksələ bilmişdir. Keçən il keçirilmiş London Yay Olimpiya oyunlarında 10 medal qazanılmışdır ki, onlardan 2-si qızıl medaldır. Olimpiya oyunlarının tarixində biz ən yüksək pilləyə qalxa bilmişik, dünya miqyasında 30-cu yerə layiq görülmüşük, Avropa ölkələri arasında isə 15-ci yerdəyik. Bu, tarixi qələbədir.

Bu il Kazanda gənclərin universiadası keçirilmişdir. Orada da Azərbaycan yüksək nəticələr göstərmiş, 16 medal qazanmışdır. Onlardan 4-ü qızıl medaldır.

Bu dəfə İslam Həmrəyliyi oyunlarında da biz öz gücümüzü bir daha nümayiş etdirdik. Bir daha göstərdik ki, Azərbaycan idman dövlətidir, idmanın böyük uğurları vardır və əminəm ki, böyük gələcəyi olacaqdır.

Bir məsələni də qeyd etmək istəyirəm ki, bu oyunlarda Azərbaycan həm olimpiya, həm qeyri-olimpiya növləri ilə təmsil edilmişdir. Hesab edirəm ki, bu da İslam Həmrəyliyi oyunlarını fərqləndirən müsbət cəhətdir. Bildiyiniz kimi, Azərbaycanda olimpiya və qeyri-olimpiya növləri arasında heç vaxt ayrı-seçkilik, yaxud da ki, fərq qoyulmamışdır. İdmanın

bütün növləri bizim üçün eyni dərəcədə vacibdir və çalışırıq ki, Azərbaycanda qeyri-olimpiya növlərində təmsil olunan idmançılar dövlət tərəfindən qayğı ilə əhatə olunsun. Bildiyiniz kimi, ilk dəfə keçiriləcək Avropa oyunlarında da bizim təşəbbüsümüzlə qeyri-olimpiya növləri olacaqdır.

Hesab edirəm ki, beynəlxalq islam aləmində də bu bölgü aparılmamalıdır. Çünki idmançılar bərabər hüquqlara malikdirlər. Hər halda, Azərbaycanda biz bütün idmançılara eyni şəraiti yaratmağa çalışırıq və bundan sonra da çalışacağıq.

Bu qələbənin təməlində düşünülmüş dövlət siyasəti və təlim-məşq prosesinin düzgün şəkildə təşkil edilməsi dayanır. İdmançıların fəaliyyəti üçün yaradılmış şərait gündən-günə yaxşılaşır. Azərbaycanda hazırda 40 regional Olimpiya Mərkəzi fəaliyyət göstərir. Bu da bölgələrdə istedadlı gənclərin seçilməsində müsbət rolunu oynayır. Beləliklə, biz idmanın kütləviliyini təmin edirik. Bu birinci prioritet məsələdir. Çünki gənclərimiz, uşaqlarımız sağlam olmalıdırlar. Sağlam olmaq üçün, əlbəttə ki, hər bir insan idmanla məşğul olmalıdır.

Əlbəttə ki, hər bir ölkənin şöhrətini ucaldan onun idman nailiyyətləridir. Bu məsələyə də böyük diqqət göstərilir. İdmançılar bizi daim sevindirirlər və beynəlxalq yarışlarda, Avropa, dünya çempionatlarında da yaxşı nəticələr göstərirlər. Azərbaycanda mötəbər yarışların keçirilməsi artıq gözəl ənənəyə çevrilmişdir. Azərbaycanda mütəmadi qaydada dünya və Avropa çempionatları keçirilir. Şübhəsiz ki, 2015-ci ildə Azərbaycanda keçiriləcək I Avropa oyunları bizim üçün çox böyük etimaddır və böyük məsuliyyətdir. Azərbaycan müsəlman ölkəsidir, eyni zamanda, Avropanın idman aləmində təmsil olunur. İlk Avropa oyunlarının məhz Azərbaycanda keçirilməsi hesab edirəm ki, ölkəmizin böyük uğurudur, Avropa idman ailəsinin bizə olan böyük etimadının nəticəsidir.

Biz hazırlıq işlərini ən yüksək səviyyədə aparırıq. Əvvəlki çıxışlarımda qeyd etdiyim kimi, biz bu oyunları Olimpiya oyunları səviyyəsində keçirəcəyik və I Avropa oyunları tarixdə çox uğurlu oyunlar kimi qalacaqdır.

Bildiyiniz kimi, olimpiya hərəkatı Avropada yaranmışdır. Ondan sonra Avropada da bərpa edilmişdir, ancaq Avropa oyunları heç vaxt keçirilməmişdir. İlk təcrübəni artıq biz həyata keçirəcəyik və beləliklə, bu da tarixə verəcəyimiz bir töhfə olacaqdır.

2017-ci ildə növbəti İslam Həmrəyliyi oyunları da Azərbaycanda keçiriləcəkdir. Baxın, bu da çox rəmzi məna daşıyır, çünki cəmi 2 ildən sonra – 2015-ci ildə Avropa, 2017-ci ildə İslam Həmrəyliyi oyunları keçiriləcəkdir. Bu da ölkəmizin nəinki coğrafi yerləşməsini, daha çox siyasi və mədəni mahiyyətini göstərir.

Azərbaycan müsəlman ölkəsidir, islam aləminin ayrılmaz bir parçasıdır. Avropa qurumlarına üzv olmuş ölkədir və beləliklə, bu 2 qitə Azərbaycanda birləşir. Azərbaycan coğrafi cəhətdən də Asiya ilə Avropa arasında yerləşir, mədəni cəhətdən də belədir. Siyasi cəhətdən də biz həm müsəlman, həm Avropa qurumlarının üzvüyük. Azərbaycan nadir ölkələrdəndir ki, bu 2 aləmdə təmsil olunur və ləyaqətlə təmsil olunur. Bizim dövlətimiz də məhz bu əsaslar üzərində qurulubdur. Müstəqil Azərbaycan dövləti çox güclü milli- mənəvi dəyərlər, milli ənənələr üzərində qurulubdur. Müasir dövlətdir, bütün ölkələrlə əməkdaşlıq üçün açıqdır, dünyəvi və inkişafda olan dövlətdir.

Ona görə hesab edirəm ki, Avropa oyunlarının və İslam Həmrəyliyi oyunlarının Bakıda cəmi 2 il ərzində keçirilməsi böyük siyasi məna daşıyır. Bu gün ölkəmiz dünya miqyasında böyük hörmətə malikdir. Bizimlə hesablaşırlar, bizim rəyimiz, fikrimiz böyük əhəmiyyət daşıyır. Azərbaycan bu gün nəinki regional məsələlərdə, həm də dünya məsələlərində öz sözünü ən yüksək kürsüdən deyir və deyəcəkdir.

Bu gün Azərbaycan BMT Təhlükəsizlik Şurasının üzvüdür. 155 ölkə bizim namizədliyimizi dəstəkləmiş və bizə etimad göstərmişdir. Bu ay Azərbaycan dünyanın bir nömrəli qurumu olan BMT Təhlükəsizlik Şurasına sədrlik edir. Bu, böyük etimaddır, böyük uğurumuzdur, böyük nailiyyətimizdir. Əlbəttə ki, idmançıların uğurları Azərbaycan haqqında dünyada daha da

dolğun məlumatın əldə edilməsi üçün çox gözəl bir vasitədir. Çünki ölkələrin gücü, o cümlədən idmanın inkişafından keçir. Azərbaycanda idman sürətlə inkişaf edir, idmançılar bizi sevindirir və beləliklə, ölkəmizin ümumi inkişafına öz töhfələrini verirlər.

Əlbəttə, dövlət bundan sonra da idmançıların maddi və məişət problemlərinin həlli üçün öz dəstəyini əsirgəməyəcəkdir. Mən hər ilin sonunda idmançılarla görüşürəm. Amma əslində belə görüşlər ildə bir neçə dəfə keçirilir. Çünki qələbələr çoxdur və mən çalışıram ki, böyük qələbələrlə Vətənə qayıtmış idmançılarla görüşüm. Ancaq ənənəvi olaraq, artıq 1997-ci ildən bu yana ilin sonunda biz idmançılarla görüşürük, onları mükafatlandırırıq, onlara mənzillər veririk. Böyük mötəbər yarışlardan uğurla qayıdan idmançılara pul mükafatları verilir və bu dəfə də veriləcəkdir. Onu da qeyd etmək istəyirəm və əminəm ki, sizi və bütün idmançılarımızı qələbələrə aparan əsas amil mükafat, maddi məsələ deyil, Vətən sevgisidir, vətənpərvərlikdir, Vətənə olan bağlılıqdır.

Bu dəfə bizim Dövlət himnimiz İndoneziyada 6 dəfə səslənmişdir, 24 dəfə milli bayrağımız qaldırılmışdır. Əminəm ki, bütün Azərbaycan xalqı sizin kimi, bu qələbələrə sevinirdi. Çünki bu qələbə sizin qələbənizdir, dövlətimizin, xalqımızın qələbəsidir.

Sizi bir daha salamlayıram və bir daha təbrik edirəm, yeni uğurlar arzulayıram.

**Y a ş a r  B ə ş i r o v** (*Azərbaycan Milli Karate Federasiyasının prezidenti*): Cənab Prezident, hörmətli qonaqlar, hörmətli idmançılar!

Artıq İslam oyunları tarixə çevrilmişdir. Mən istərdim bir-iki kəlmə bu oyunlardan danışım.

Birincisi, mən karateni təmsil edirəm. Təbii ki, əsas sözü karatedən demək istərdim. Ümumiyyətlə, Azərbaycan komandası bu oyunlarda çox uğurla çıxış etdi, 24 medal qazandı. Bildiyiniz kimi, bu medalların 6-sı qızıldır. Ümumi hesabda 46 dövlət arasında biz 7-ci yerə çıxdıq.

Çox sevindirici haldır ki, 6 qızıldan 3-nü qazanan, yəni himnimizi 3 dəfə səsləndirən karateçilərimiz oldu. Bu qələbə bütün Azərbaycan xalqının qələbəsidir. Təbii ki, bizə göstərilən bu qayğının nəticəsidir ki, belə yüksək qələbəyə nail olduq.

Əgər tarixə nəzər salsaq, 1997-ci ildə Siz Milli Olimpiya Komitəsinin prezidenti seçiləndən sonra Azərbaycan idmanı sürətlə inkişaf etmişdir. O vaxt Sizinlə ilk görüşümüz oldu. Siz tövsiyə etdiniz ki, bizim Milli Karate Federasiyası Azərbaycanı Ümumdünya Karate Federasiyasında təmsil etməlidir. İndi bizim federasiya dünya miqyasında ən qabaqcıl federasiyalardan biridir. Bu gün biz Azərbaycanı layiqincə təmsil edirik. Bundan əvvəlki qələbələrimiz də, bu gün qeyd etdiyimiz qələbə də ildən-ilə artan qayğı ilə əlaqədardır. Sizin qayğınızı biz həmişə hiss etmişik. Siz 1999-cu ildə də bizi qəbul etdiniz. Bu çox səmimi bir görüş idi. Təbii ki, hər bir belə görüş bizi ruhlandırır. Bugünkü görüş də bizi yeni qələbələrə ruhlandırır və ona gətirib çıxarır ki, Azərbaycanda doğrudan da idmanın bütün növlərində güclü inkişaf gedir. Artıq bütün dünyada bilirlər ki, Azərbaycan idman dövlətidir.

Təbii ki, cənab Prezident, bu bir günün işi deyil. Ulu öndər Heydər Əliyevin başladığı bu işin davamçısı kimi, Siz yüksək səviyyədə Azərbaycanı təmsil edirsiniz. Təbii ki, bizim bütün qələbələrimiz Sizin adınızla, göstərdiyiniz qayğı ilə bağlıdır. Təbii ki, bu, Milli Olimpiya Komitəsinin, Gənclər və İdman Nazirliyinin uğurudur. Yəni əlbir işin nəticəsidir ki, biz belə gözəl qələbələr qazanırıq.

**Ayxan Mamayev** *(qızıl medalın sahibi):* Hörmətli cənab Prezident, hörmətli idman nümayəndələri!

Mən müsəlman ölkələrinin mötəbər idman yarışında – İslam Həmrəyliyi oyunlarında idmanın karate növü üzrə qızıl medala sahib olmuşam.

Bu gün Sizin qarşınızda çıxış etmək mənim üçün böyük məsuliyyət və şərəfdir. Sevincimin həddi-hüdudu yoxdur.

Biz idmançılar qazandığımız hər bir qələbəyə görə, cənab Prezident, Sizə minnətdarıq. Məhz Sizin bizə göstərdiyiniz

inam, etimad və qayğı nəticəsində biz bunlara nail oluruq. Bu yarışda hər bir idmançı kimi, mənim də qələbə qazanmağımın səbəbkarı ilk növbədə, Sizsiniz. Buna görə Sizə böyük minnətdarlığımızı bildiririk. Bu yarışda hər bir idmançımız böyük əzmkarlıq nümayiş etdirdi, 6 qızıl, 9 gümüş, 9 bürünc, ümumilikdə 24 medal qazandıq.

Mən öz adımdan və milli komandamızın adından Sizə böyük minnətdarlığımı bildirirəm.

**G ü n d ü z A b d u l l a y e v** (*Taekvondo üzrə milli komandanın baş məşqçisi*): Möhtərəm cənab Prezident!

Siz nüfuzlu beynəlxalq yarışlardan dərhal sonra bizi qəbul edirsiniz, bizə diqqətinizi göstərirsiniz. Buna görə də ilk növbədə, biz idmançılar, məşqçilər Sizə təşəkkürümüzü bildiririk.

Biz dünən III İslam Həmrəyliyi oyunlarından qayıtmışıq və bu gün artıq Sizin qəbulunuzdayıq. Biz idmançılar, məşqçilər bunun üçün böyük qürur hissi yaşayırıq.

İslam oyunlarında taekvondo üzrə Azərbaycanı təmsil etmək biz taekvondoçuların üzərinə düşmüşdü. Çox sevindirici haldır ki, Azərbaycanın medal xəzinəsinə 4 medal məhz taekvondodan gəldi. Bu da bizim məşqçilərimiz, idmançılarımız üçün çox böyük bir şərəfdir, çox böyük bir nəticədir.

Ölkəmizdə idmanın taekvondo növünə böyük maraq vardır. Hazırda Azərbaycanın bütün regionlarında taekvondonun kütləviliyinə nail olunmuşdur. Bu da ilk növbədə, Azərbaycanda məhz idmanın taekvondo növündə infrastrukturun inkişafından xəbər verir. Biz məşqçilər üçün bu oyunlarda qazandığımız nailiyyətlərdən böyük nailiyyət ola bilməz. Siz bu nailiyyətlərimizi bizi bu cür qəbul etməklə qiymətləndirirsiniz. Ümid edirəm ki, taekvondoçularımız gələcəkdə – 2015-ci ildə Avropa oyunlarında da çox yüksək səviyyədə çıxış edəcəklər.

**Ç i n g i z H ü s e y n z a d ə** (*Milli Olimpiya Komitəsinin vitse-prezidenti*): Möhtərəm cənab Prezident!

İslam oyunlarında daha bir əlamətdar hadisə baş verdi. Mən onu Sizə məruzə etmək istəyirəm. Sentyabrın 25-də «Bakı–2017»-nin təqdimat günü keçirildi. Bizim idmançıların hamısı

orada iştirak edirdilər. 250 qonağın toplandığı bu tədbirdə İslam Həmrəyliyi İdman Federasiyasının rəhbərliyi, yerli hökumət nümayəndələri, bu oyunlarda iştirak edən bütün Olimpiya komitələrinin rəhbərləri və bu oyunlara qonaq gəlmiş səfirlər iştirak edirdilər. Sizi əmin etmək istəyirəm ki, yüksək səviyyədə keçirilən bu tədbirdə Sizin müraciətiniz hamıda çox böyük ruh yüksəkliyi yaratdı. Mən deyərdim ki, bütün qonaqlar bu tədbirə və məhz Sizin müraciətinizə çox böyük diqqətlə yanaşdılar. Bu uğur Azərbaycanın növbəti uğurlarından biri oldu. Bu görüş, Sizin müraciətiniz bizim bütün idmançıları çox böyük qələbələrə ruhlandırdı. Ondan sonra bir sıra qızıl medallarımız və başqa medallarımız da artdı. Sizə bir daha təşəkkür edirəm.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun. Bir daha sizi ürəkdən təbrik etmək istəyirəm. Bir məsələyə də diqqətinizi çəkmək istəyirəm. Bugünkü görüşdə orta nəslin və gənc nəslin nümayəndələri toplaşıb. Bu da hesab edirəm ki, çox rəmzi məna daşıyır. Çünki ardıcıllıq davam etdirilir.

Bu gün ölkəmizi beynəlxalq yarışlarda təmsil edən idmançılar orta nəsildən öyrənib öz peşəkarlığını idman meydançalarında nümayiş etdirirlər. Sizin uğurlarınıza sevinən gənc nəsil, uşaqlar, yeniyetmələr də televizordan, mətbuatdan sizin çıxışlarınızı izləyirlər. Sizin qələbələriniz onlar üçün də həm böyük bir sevincdir, eyni zamanda, onları da sizin kimi, idmanla məşğul olmaq üçün idman meydançalarına, idman bölmələrinə aparan bir amildir. Bu ardıcıllıq Azərbaycanda vardır. Uşaq idmanı, yeniyetmə idmanı olmadan ölkənin idmanı inkişaf edə bilməz.

Mən çox şadam ki, Azərbaycanda uşaqlar, yeniyetmələr idman bölmələrinə gedirlər, idmanla məşğul olurlar. Bax, dediyim kimi, 40 regional Olimpiya Mərkəzində məşğul olanların arasında kifayət qədər uşaq vardır. Beləliklə, biz idmanın kütləviliyini və gənc nəslin sağlamlığını təmin edirik və gələcək uğurlarımızı şərtləndiririk. Bu ardıcıllıq davam etməlidir və artıq əminəm ki, davam edəcəkdir.

Bir məsələ də diqqəti çəkir ki, bu gün bizim bütün idmançılarımız müstəqillik dövründə boya-başa çatmış və idmançı olmuşlar. Azərbaycan tarixində Azərbaycan idmanı heç vaxt indiki qədər güclü olmamışdır. Əvvəlki dövrlərdə – indi orta nəslin nümayəndələri – məşqçilər, idman mütəxəssisləri bunu yaxşı xatırlayır – Sovet İttifaqı dövründə Azərbaycanda, əlbəttə ki, idman inkişaf edirdi, ancaq bizim uğurlarımız o qədər də böyük deyildi. Sovet yığma komandasına düşmək o qədər də asan məsələ deyildi. Ancaq bu gün, müstəqillik dövründə biz dünya miqyasında Yay Olimpiya oyunlarında 30-cu yerdəyik. Dünyada 200-dən yuxarı ölkə vardır. Keçən Olimpiya oyunlarında təqribən 200-ə yaxın ölkə təmsil olunmuşdu. Bu ölkələr arasında 30-cu yerə nail olmaq tarixi qələbədir.

Bu bir daha müstəqilliyin üstünlüklərini göstərir. Gənc nəsil, bizim idmançıların bir çoxu müstəqillik dövründə dünyaya gəlmişdir, bəzilərinin isə müstəqillik bərpa olunanda 3-4 yaşı var idi, o illəri xatırlamırlar. Onlar müstəqillik dövründə formalaşıblar. Müqayisə aparmaq üçün bunlarda bizim qədər təbii ki, imkan yoxdur. Amma biz – orta nəslin nümayəndələri yaxşı bilirik və görürük ki, müstəqilliyin nə qədər böyük üstünlükləri vardır. Azərbaycan xalqı azad xalqdır, dövlətimiz müstəqil dövlətdir. Əsrlər boyu Azərbaycan xalqı müstəqillik arzuları ilə yaşamışdır və bizim nəsil xoşbəxtdir ki, payımıza müstəqillik dövründə yaşamaq düşübdür.

Müstəqilliyi möhkəmləndirmək, ölkəmizi gücləndirmək üçün hər bir vətəndaş çalışmalıdır. Hər bir insan öz sahəsində müstəqilliyə töhfəsini verməlidir. Siyasətçilər, iş adamları, bütün vətəndaşlar, idmançılar – biz hamımız bir məqsədə qulluq edirik ki, ölkəmiz daha da güclənsin, daha da inkişaf etsin, insanlar daha da yaxşı yaşasınlar. Əlbəttə ki, Azərbaycanı dünyada daha da yaxından tanısınlar.

Ölkəni tanıtdırmaq üçün, məncə, idman kimi ikinci universal vasitə yoxdur. İdman və mədəniyyət. Ancaq idmanda uğurlar daha da özünü dolğun şəkildə büruzə verir. Çünki burada 1-ci, 2-ci yerlər, medallar vardır. Hesab edirəm ki, idman uğurları, o

cümlədən ölkəmizi dünyaya müasir, dinamik inkişaf edən ölkə kimi təqdim edir.

Əlbəttə, burada əsas rolu oynayan bizim idmançılarımızdır. Dövlət siyasəti, idmana rəhbərlik edən qurumlar, məşqçilər onların fəaliyyəti də çox vacibdir. Ancaq son sözü tatamidə, rinqdə, başqa meydançalarda idmançı deyir və bütün xalqı sevindirir.

Bu gün biz haqlı olaraq fəxr edə bilərik ki, gözəl idmançılarımız, güclü idmanımız vardır. İdmançılar davranışı, hərəkətləri, Vətənə olan bağlılığı ilə gənc nəslə, uşaqlara örnəkdir, nümunədir. Mən çox şadam ki, idmançılarımızın mütləq əksəriyyəti həyatda, məişətdə, cəmiyyətdə, gündəlik fəaliyyətdə vətənpərvər, təvazökar, mədəni insanlar kimi, öz işini davam etdirirlər. Hesab edirəm ki, bu bizi bəzi başqa ölkələrdən fərqləndirən cəhətlərdən biridir. İdmançı Azərbaycanda çox şərəfli addır. Cəmiyyətdə idmançılara çox böyük rəğbət, hörmət vardır, o cümlədən ona görə ki, idmançılar cəmiyyətdə də özlərini çox ləyaqətlə aparırlar. Mən əminəm ki, bu gün sizdən nümunə götürən uşaqlar, yeniyetmələr gələcəyin çempionları olacaq və Azərbaycanı uğurla təmsil edən gənc nəsil də 5–10 ildən sonra sizin qədər dəyərli idmançılara çevriləcəklər.

Bir daha sizi ürəkdən təbrik edirəm. Sizə cansağlığı, yeni uğurlar arzulayıram.

## NAZİRLƏR KABİNETİNİN 2013-cü İLİN 9 AYININ SOSİAL-İQTİSADİ İNKİŞAFININ YEKUNLARINA VƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR OLUNMUŞ İCLASINDA İŞTİRAK*

*6 oktyabr 2013-cü il*

*Oktyabrın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2013-cü ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir.*

*Dövlətimizin başçısı iclası giriş nitqi ilə açdı.*

### Azərbaycan prezidenti İlham Əliyevin giriş nitqi

Nazirlər Kabinetinin bugünkü toplantısında biz ilin 9 ayının sosial və iqtisadi yekunlarını müzakirə edəcəyik. İlin sonuna qədər görüləcək işlər haqqında danışacağıq.

Deyə bilərəm ki, 9 ay çox uğurlu keçdi, qarşımızda duran bütün vəzifələr icra edildi. Azərbaycan iqtisadiyyatı bu il uğurla inkişaf edir və bu dinamik inkişaf əminəm ki, gələcək illərdə də özünü göstərəcəkdir. Çünki bu günə qədər aparılan islahatlar və əldə edilmiş nəticələr deməyə əsas verir ki, bundan sonra da Azərbaycanın uğurlu inkişafı təmin ediləcəkdir.

Bütün makroiqtisadi göstəricilər yüksək səviyyədədir, iqtisadiyyatımız 9 ayda 5,4 faiz artmışdır.

---

* Назирляр Кабинетинин 2013-ъц илин 9 айынын сосиал-игтисади инкишафынын йекунларына вя гаршыда дуран вязифяляря щяср олунмуш иъласында İqtisadi İnkişaf naziri Şahin Mustafayev, Mərkəzi Bankın İdarə Heyətinin sədri Elman Rüstəmov və Дювлят Сосиал Мцдафия Фондунун сядри Səlim Müslümov çıxış etdilər.

Hesab edirəm ki, indiki zamanədə, xüsusilə dünyada hələ də davam edən böhran şəraitində bu, kifayət qədər yüksək göstəricidir və bizə imkan verir ki, biz öz investisiya proqramlarımızı da uğurla icra edək. Ən sevindirici məsələ ondan ibarətdir ki, qeyri-neft sektorumuz artır, yüksək templərlə artır və ilin əvvəlindən bu günə qədər bu yüksək templər qorunur. Qeyri-neft sektorumuz 9 ayda 10,4 faiz artmışdır və hesab edirəm ki, bu, dünya miqyasında ən yüksək göstəricidir. Eyni zamanda, Azərbaycanda aparılan islahatlar bu nəticəyə gətirib çıxarmışdır. Çünki iqtisadiyyatımızın neft-qaz amilindən asılılığı ildən-ilə daha da azalır və beləliklə, iqtisadiyyatımızın şaxələndirilməsi məsələləri də öz həllini tapır.

Bu göstərici ona dəlalət edir ki, ölkə iqtisadiyyatı artıq bundan sonra da öz uğurlu inkişafını təmin edəcəkdir. Çünki hazırda qoyulan investisiyalar, yaradılan yeni iş yerləri, inkişaf üçün hazır olan yeni istiqamətlər, sənaye istehsalının yeni istiqamətləri əminəm ki, gələcək illərdə də qeyri-neft sektorunun yüksək templərlə inkişafını təmin edəcəkdir. Beləliklə, Azərbaycan iqtisadiyyatı neft-qaz amilindən asılılığını gələcəkdə tamamilə aradan götürəcəkdir. Əlbəttə ki, qeyri-neft sektorunun inkişafı dövlət siyasətinin nəticəsidir. Çünki mən bu məsələlərlə bağlı fikirlərimi mütəmadi qaydada bildirirəm və qeyd edirəm ki, iqtisadi sahədə əsas prioritet məsələ qeyri-neft sektorunun inkişafıdır. Biz buna da nail ola bilmişik və 10,4 faiz artım bunun gözəl göstəricisidir.

Sənaye istehsalında da artım vardır. Kənd təsərrüfatı təxminən 5 faiz artmışdır və burada da gələcək artım üçün gözəl potensial vardır. İnflyasiya cəmi 2,3 faiz təşkil edir. Bu da çox gözəl göstəricidir. Əhalinin pul gəlirləri isə 7,6 faiz artmışdır. Son 10 il ərzində olduğu kimi, bu il də əhalinin pul gəlirləri inflyasiyanı bir neçə dəfə üstələyir və beləliklə, insanların rifah halının yaxşılaşdırılması üçün əlavə imkanlar yaranır.

Makroiqtisadi vəziyyət sabitdir və deyə bilərəm ki, bu parametrə görə Azərbaycan dünya miqyasında birinci onluqdadır. Bu yaxınlarda Davos Dünya İqtisadi Forumunun

hesablamalarına görə Azərbaycan iqtisadiyyatı dünya miqyasında rəqabətqabiliyyətliliyinə görə 39-cu yerdədir. Bu, tarixi nəticədir, böyük qələbədir və dünya miqyasında ilk 40 ölkənin sıralarına daxil olmaq islahatların, düşünülmüş siyasətin, bizim uğurlarımızın nəticəsidir. Əlbəttə ki, bu, Azərbaycanı dünyada sürətlə və dinamik inkişaf edən ölkə kimi təqdim edir və Azərbaycanın qeyri-neft sektoruna xarici investisiyaların cəlb edilməsində də bizə kömək edəcəkdir.

İnvestisiyaların cəlb edilməsi prosesi gedir. İnvestisiya iqliminə görə Azərbaycan postsovet məkanında və regionda çox cəlbedici ölkədir. Xarici investisiyaların cəlb edilməsi nəticəsində biz ötən əsrin 90-cı illərinin əvvəllərində çətin, ağır vəziyyətdən çıxa bilmişik. Bu gün isə xarici investorlar üçün daha da gözəl imkanlar vardır. Çünki ölkə inkişaf edir, infrastruktur yeniləşir, daxili bazarımız genişlənir və xarici bazarlara çıxışlarımız da yaradılır. Belə olan halda xaricdən investisiyaları cəlb etmək məsələləri gələcəkdə də prioritet olaraq qalacaqdır. Baxmayaraq ki, hazırda Azərbaycan artıq xarici investisiyalardan asılı deyil və investisiya portfelimizdə daha çox daxili investisiyalar öz yerini tapmışdır. Bu ilin 9 ayında ölkə iqtisadiyyatına 17,7 milyard dollar investisiya qoyulmuşdur ki, onlardan 10,5 milyardı daxili investisiyalardır, 7,2 milyard isə xarici investorların vəsaitidir. Bu da Azərbaycan kimi ölkə üçün çox yüksək göstəricidir və əgər biz bu templəri ilin sonuna qədər saxlaya bilsək, bu il ölkə iqtisadiyyatına təqribən 25 milyard dollara yaxın investisiya qoyuluşu gözlənilir, ancaq 1 il ərzində. Nəzərə alsaq ki, keçən il təqribən 20 milyard, ondan əvvəlki illərdə də 20 milyarda yaxın investisiya qoyulmuşdur, təsəvvür etmək çətin deyil ki, bu, ölkə iqtisadiyyatı üçün nə qədər böyük əhəmiyyət daşıyan məsələlərdir. İnvestisiyaların cəlb edilməsi Azərbaycanda uzun illər hökm sürən sabitliyin nəticəsidir. Xarici və daxili investorlar ancaq sabit olan ölkələrdə investisiyalar qoyurlar. Azərbaycana qoyulan sərmayə də artıq çoxşaxəli sərmayədir. Əgər əvvəlki illərdə – ötən əsrin 90-cı illərində daha çox neft-qaz sektoruna sərmayə qoyulurdusa, indi turizm, xidmət, yüksək texnologiyalar, sənaye parklarının

yaradılması məsələlərinə daha böyük diqqət göstərilir. Beləliklə, Azərbaycana xarici və daxili investisiyaların qoyulması əminəm ki, ölkə iqtisadiyyatına daha da böyük təkan verəcəkdir.

Bizim valyuta ehtiyatlarımız il ərzində artmışdır. Bu da hesab edirəm ki, çox yaxşı nəticədir. Çünki bizim xərclərimiz də çoxdur, büdcə xərcləri də ildən-ilə artır. Mənim tərəfimdən qarşıya vəzifə qoyulmuşdur ki, valyuta ehtiyatlarımız ildən-ilə artırılmalıdır və biz bu hədəfə çatmışıq. İl ərzində valyuta ehtiyatlarımız artmışdır və hazırda 49,4 milyard dollar təşkil edir. Bu da 9,4 milyon əhalisi olan ölkə üçün çox böyük göstəricidir. Adambaşına düşən valyuta ehtiyatlarına görə hesab edirəm ki, Azərbaycan dünya miqyasında ön sıralardadır və bu, düşünülmüş, ardıcıl siyasətin nəticəsidir. Biz, əlbəttə ki, ölkə qarşısında duran vacib məsələlərin həlli üçün vəsait ayırırıq. İldən-ilə artan dövlət investisiya proqramı, xaricdən gələn investisiyalar, infrastruktur layihələrinə ayrılan vəsait bu məqsədi güdür.

Ancaq biz öz vəsaitimizdən qənaətlə istifadə etməliyik və büdcəmizi elə tutmalıyıq ki, Azərbaycanda valyuta ehtiyatları daim artsın. Bu bizim üçün həm təhlükəsizlik, həm də iqtisadi və siyasi təhlükəsizlik məsələsidir, biz gələcək nəsillər haqqında da düşünməliyik və düşünürük. Gələcək nəsillər üçün elə güclü iqtisadiyyat qurub qoymalıyıq ki, Azərbaycanın gələcək inkişafı ilə bağlı heç bir problemi olmasın. Ona görə maliyyə sahəsində düşünülmüş, ölçülüb-biçilmiş addımlar və vəsaitdən qənaətlə istifadə etməyimiz strateji xarakter daşıyır. Bir daha demək istəyirəm ki, valyuta ehtiyatlarımızın artması Azərbaycanın həm dayanıqlı inkişafını təmin edir və eyni zamanda, xarici tərəfdaşlarla da münasibətlərimiz daha da yüksək səviyyəyə qalxır. Bu gün Azərbaycana istənilən həcmdə xarici maliyyə resurslarını cəlb etmək üçün heç bir problem yoxdur. Sadəcə olaraq, biz xarici dövlət borcunu artırmamaq üçün bu sahədə də çox konservativ siyasət aparırıq və bu gün Azərbaycan dünya miqyasında bu göstəriciyə görə də ən qabaqcıl yerlərdədir.

Bizdə xarici borc ümumi daxili məhsulun cəmi 7-8 faizini təşkil edir. Bəzi inkişaf etmiş ölkələrdə bu, 100 faizə yaxındır.

Harada bu, 70 faizdir, hesab olunur ki, o ölkədə maliyyə vəziyyəti yaxşıdır. Azərbaycanda isə 7-8 faizdir. Bu o deməkdir ki, biz bu gün və gələcək üçün elə güclü əsaslar yaradırıq ki, Azərbaycan heç vaxt – nə bu gün, nə 10 ildən, 20 ildən sonra borc problemi ilə rastlaşmasın. Borc problemi çox ciddi problemdir. Bu gün bəzi inkişaf etmiş ölkələrdə baş verən hadisələr məhz o əsassız borcun nəticəsidir.

Bizdə isə dövlət borcu cəmi 7-8 faizdir. Ümumiyyətlə, biz istənilən vaxt bu borcu tamamilə qaytara bilərik. Sadəcə olaraq, bəzi iqtisadi və maliyyə məsələləri hələ ki, bunu diktə etmir. Ancaq biz istənilən vaxt xarici dövlət borcumuzu da sıfıra endirə bilərik. Bax, budur bizim əsas iqtisadi parametrlərimiz ki, ölkə iqtisadiyyatının dayanıqlı inkişafını təmin edir. Əlbəttə ki, bütün bu iqtisadi və makroiqtisadi göstəricilər özlüyündə bir göstəricidir. Amma əsas məsələ ondadır ki, bu göstəricilər insanların gündəlik həyatına, ölkəmizin inkişafına, infrastruktur layihələrinin icrasına öz təsirini göstərir.

Əlbəttə ki, bizim güclü sosial siyasətimizin təməlində güclü iqtisadi siyasət dayanır. Biz bütün sosial proqramları icra edirik. Bu il maaşlar və pensiyalar artırılmışdır. Son 10 il ərzində maaşlar və pensiyalar dəfələrlə artırılıb. Bu il sovet vaxtından qalan əmanətlərin qaytarılması məsələləri də öz həllini tapmışdır. Azərbaycan dövləti sosial siyasət nümayiş etdirərək, bu əmanətlərin qaytarılmasına da nail oldu. Yəni sosial proqramların həlli daim diqqət mərkəzindədir.

Sosial infrastrukturun yaradılması da uğurla təmin edilir. Bu il 200-ə yaxın məktəb əsaslı təmir edilib, yaxud da yenidən tikilib. Bütün digər sosial obyektlər yeniləşir, müasirləşir. Azərbaycan sosial siyasətin aparılmasında da nümunə ola bilər. Bir daha demək istəyirəm ki, bu proqramın, bu siyasətin təməlində güclü iqtisadi amillər dayanır.

Biz regionların inkişafı ilə bağlı bütün hədəflərə nail ola bilmişik. Bu il 2-ci regional inkişaf proqramı başa çatır. Bu proqram artıqlaması ilə icra edilibdir. Təkcə bu ilin 9 ayında 90 minə yaxın yeni iş yeri açılmışdır. Bütövlükdə isə son 10 il ərzində

1 milyon 200 mindən çox yeni iş yeri açılmışdır ki, bu da işsizliyin azaldılmasına gətirib çıxarmışdır. Son məlumata görə Azərbaycanda işsizlik 5 faizdən aşağıdır. İşsizliklə bilavasitə bağlı olan yoxsulluq da aşağı düşür. İlin sonuna hələ 2 ay vaxt qalır, ancaq indidən demək olar ki, Azərbaycanda bu ilin yekunlarına görə yoxsulluq 6 faizdən az olacaqdır. Yəni biz son 10 il ərzində bu istiqamətdə də uğurlar əldə etmişik, yoxsulluğu ardıcıllıqla aşağı salmışıq. Əvvəlki illərdə qeyd etdiyim kimi, Azərbaycanda yoxsulluq kimi sosial problem olmamalıdır. Azərbaycanda insanlar daha da yaxşı yaşamalıdırlar. Bunu təmin etmək üçün sosial proqramlar, əlbəttə ki, icra edilir.

Biznes mühitinin yaxşılaşdırılması istiqamətində də çox ciddi addımlar atılır. Dövlət tərəfindən sahibkarlara böyük güzəştlərlə kreditlər ayrılır. Kənd təsərrüfatının inkişafı üçün çox böyük güzəştlərlə kreditlər ayrılır və infrastruktur layihələri icra edilir. İri fermer təsərrüfatlarının fəaliyyəti üçün dövlət öz üzərinə böyük vəzifələr götürmüşdür. Suvarma ilə bağlı məsələlər, meliorasiya məsələləri – bütün bunlar sahibkarlığa dəstək və təkan verən addımlardır. İqtisadi və sosial məsələlərin kompleks şəkildə həlli, əlbəttə ki, ölkə iqtisadiyyatının inkişafını şərtləndirir. Beləliklə, növbəti illərdə əminəm ki, biz bu müsbət dinamikanı qoruyub saxlaya biləcəyik.

Sosial məsələlərin arasında köçkünlərin problemləri xüsusi yer tutur. Biz artıq neçə ildir ki, hər il ən azı 20 min köçkünü evlərlə, mənzillərlə təmin edirik. Yeni gözəl qəsəbələr, şəhərciklər tikilir və bu proses davam etdirilir. Növbəti illərdə də bu proqramlar Dövlət Neft Fondunun vəsaiti hesabına davam etdiriləcəkdir.

Regional vəziyyətlə, regionda baş verən hadisələrlə bağlı Azərbaycanın çox ciddi mövqeyi, müstəqil yanaşması vardır. Biz daim müstəqil mövqe nümayiş etdiririk. Bizim mövqemiz beynəlxalq hüquqa, ədalətə söykənir. Bu yanaşma deyə bilərəm ki, dünyada da dostlarımızın sayını artırır.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı əfsuslar olsun ki, son aylar ərzində heç bir irəliləyiş yoxdur. Ancaq biz bu aylar və əvvəlki illər ərzində

Azərbaycanı böyük dərəcədə gücləndirə bilmişik. Bu gün Ermənistan ilə Azərbaycan arasındakı fərq dərinləşir, böyüyür. Azərbaycan dinamik inkişaf edən güclü dövlətdir, Ermənistan isə ildən-ilə zəifləyən və yoxsullaşan bir ölkədir. Son hadisələr bir daha onu göstərdi ki, Ermənistan öz hesabına yaşaya bilmir, asılı vəziyyətdədir. Artıq Ermənistanın yüksək vəzifəli şəxsləri də etiraf etməyə məcbur olmuşlar ki, Ermənistan öz təhlükəsizliyini özü təmin edə bilmir. Bu əslində iflasın etirafıdır. Bu əslində məğlubiyyətin etirafıdır. Çünki əgər bir ölkə 22 ildir müstəqil ölkə kimi özünü təqdim etməyə çalışır və eyni zamanda, etiraf edir ki, öz təhlükəsizliyini özü təmin edə bilmir, o ölkə müstəqil ölkə kimi yaşaya bilməz. Sadəcə olaraq, buna vaxt lazımdır və əminəm ki, regionda gedən proseslər, güclənən Azərbaycan, tamamilə dəyişən güclər nisbəti bizi məqsədimizə çatdıracaq, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcəkdir. Mənim şübhəm yoxdur ki, belə də olacaqdır. Sadəcə, biz siyasətimizi bundan sonra da davam etdirməliyik. Bizim siyasətimiz həm tarixi ədalətə söykənir, eyni zamanda, beynəlxalq hüquq normaları da bizim mövqemizi müdafiə edir.

İqtisadi sahədə biz Ermənistandan ən azı 10 dəfə güclüyük. Hərbi sahədə də üstünlüyü əldə edə bilmişik. Sadəcə olaraq, geosiyasi vəziyyət və bölgədə gedən proseslər hələ ki, bizi sülh danışıqlarına sövq edir. Biz ümid edirik ki, bu danışıqların nəticəsi olacaqdır və Ermənistan çox ciddi təhlil apararaq, real vəziyyəti dərk edərək, ona aid olmayan torpaqlardan çəkiləcək və beləliklə, qan tökülmədən Azərbaycanın ərazi bütövlüyü bərpa ediləcəkdir.

Ancaq biz onu da bilirik ki, dünyada beynəlxalq hüquq normaları bir çox hallarda kobudcasına pozulur, onlara məhəl qoyulmur, ikili standartlar mövcuddur. Bəzi hallarda BMT Təhlükəsizlik Şurasının qətnamələri saatlar içərisində icra edilir. Bizim məsələdə isə 20 ildən artıqdır ki, bu qətnamələr qəbul edilib, amma icra edilmir və heç kim də Ermənistanı məcbur etmir ki, o qətnamələr icra edilsin. Burada, əlbəttə ki, biz yenə də ikili standartlarla üzləşirik. Artıq bu, sirr deyildir. Bizim üçün çoxdan sirr deyildir. Əminəm ki, Azərbaycan xalqı da bu məsələləri yaxşı

dərk edir və anlayır ki, ikili standartlar, bəzi hallarda Azərbaycana qərəzli münasibət, Ermənistana əsassız xoş münasibət Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll edilməsində ən böyük əngəldir. Ancaq biz öz səylərimizi davam etdirəcəyik. Biz daha da güclü olmalıyıq. Həm diplomatiyada, siyasətdə, həm də iqtisadi, regional təşəbbüslərdə biz Ermənistanı bundan sonra da təcrid vəziyyətində saxlamalıyıq və saxlayacağıq. Ermənistanda depopulyasiya sürətlə baş alıb gedir. Hər il 80–90 min əhali azalır və belə getsə 5–10 ildən sonra 1 milyondan az əhali olacaqdır və demoqrafiya özü bir çox məsələləri həll edəcəkdir.

Bizdə isə demoqrafik vəziyyət çox müsbətdir. Əhali artır. Özü də əhalimizin əksəriyyəti gənclərdir, çox fəaldırlar. Beləliklə, münaqişənin həlli qaçılmazdır. Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcəkdir. Dağlıq Qarabağda, Şuşada, Xankəndidə, işğal edilmiş digər torpaqlarda Azərbaycan bayrağı qaldırılacaqdır.

Əvvəlki çıxışlarımda qeyd etdiyim kimi, azərbaycanlılar nəinki işğal edilmiş torpaqlarda, bütün tarixi torpaqlarında yaşamalıdırlar. Bu bizim suveren hüququmuzdur. Soydaşlarımız nəinki Dağlıq Qarabağdan, tarixi torpağımız olan İrəvandan, Zəngəzurdan, Göyçədən də zorla çıxarılıbdır, deportasiya edilibdir, ötən əsrin 40–50-ci illərində, ondan sonra 80-ci illərdə. Bu, böyük ədalətsizlikdir. Biz o torpaqlara da qayıdacağıq, mütləq qayıdacağıq. Gənc nəsil o arzularla, o fikirlərlə yaşamalıdır. Vaxt gələcək biz orada da yaşayacağıq. Ümumiyyətlə, xalqımıza məxsus olan bütün tarixi torpaqlarımızda azərbaycanlılar yaşayacaqlar, yaşamalıdırlar. Bunu etmək üçün biz indidən öz siyasətimizi aparırıq.

Ona görə regionda gedən proseslərdə güclənən Azərbaycan artıq beynəlxalq amilə çevrilibdir. Ümid edirəm ki, bu, Ermənistan rəhbərliyinə çox ciddi siqnal olacaqdır ki, münaqişənin tezliklə həlli, o cümlədən onların da xeyrinədir.

Xarici siyasətlə bağlı olan digər məsələlər uğurla həll edilir. İl ərzində mənim çoxsaylı təmaslarım, həmkarlarımla görüşlərim bir daha göstərir ki, Azərbaycanın dünyada dostlarının, bizimlə əməkdaşlıq etmək istəyən ölkələrin sayı

artır və Azərbaycan dünyada çox etibarlı tərəfdaş kimi tanınır. Keçən rübdə yüksək səviyyəli dövlət və hökumət nümayəndələrinin səfərləri bir daha Azərbaycanın xarici siyasətlə bağlı uğurlu addımlarının təzahürüdür. Keçən rübdə İtaliyanın Baş nazirinin Azərbaycana uğurlu səfəri olmuşdur. İtaliya Avropanın, dünyanın aparıcı ölkələrindən biridir. Bizi çox gözəl münasibətlər bağlayır. Tarixdə ilk dəfə İtaliyanın Baş naziri Azərbaycana səfər etmişdir. Səfərin nəticələri çox müsbət olmuşdur. Ondan bir neçə gün sonra Rusiyanın Prezidenti Azərbaycana səfər etmişdir. O səfər də çox uğurlu idi. Bu səfərin də Rusiya–Azərbaycan strateji əlaqələrinin inkişafı üçün çox böyük əhəmiyyəti var idi. Bütün məsələlərlə bağlı əldə edilmiş razılaşmalar gələcəkdə də Rusiya–Azərbaycan əlaqələrinin uğurla inkişaf etməsini təmin edəcəkdir. Əminəm ki, həm siyasi, həm iqtisadi sahədə bundan sonra da gözəl nəticələr olacaqdır. Ondan bir neçə gün sonra Azərbaycanda Türkdilli Dövlətlərin Zirvə görüşü keçirilmişdir. Türkiyə, Qazaxıstan, Qırğızıstan prezidentləri Azərbaycana gəlmişlər. Yəni bütün bu səfərlər təxminən 1 həftə –10 gün ərzində baş vermişdir. Bu əslində bir göstəricidir. Çünki həm Avropa ilə, həm qonşularımızla, həm türkdilli dövlətlərlə bizim çox sıx, qarşılıqlı hörmət və etimad əsasında qurulmuş münasibətlərimiz vardır. Bu münasibətlərin bundan sonra da inkişafı şübhə doğurmur.

Bir daha demək istəyirəm ki, Azərbaycanın bütün xarici tərəfdaşlarla münasibətləri qarşılıqlı hörmət, bir-birinin işinə qarışmamaq və qarşılıqlı maraqlar üzərində qurulub. Hesab edirəm ki, müstəqillik dövründə bu sahədə əldə edilmiş təcrübə başqa ölkələr üçün də nümunə ola bilər. Biz öz milli maraqlarımızı müdafiə edirik, necə lazımdır müdafiə edirik. Biz bütün ölkələrlə əməkdaşlığa açığıq. Bizim xarici siyasətlə bağlı yanaşmamız əməkdaşlıq üzərində qurulubdur. Biz heç bir ölkənin daxili işinə qarışmırıq. Görəndə ki, kimsə bizim daxili işimizə qarışmaq istəyir, əlbəttə ki, buna kəskin reaksiya verilir və biz buna da imkan vermirik. Son 10 ilin təcrübəsi göstərir ki,

belə səylər əbəsdir. Əgər əvvəllər kimsə hesab edirdi ki, Azərbaycana təzyiq etmək, hansısa məsələlərin həllində təsir etmək olar, hesab edirəm ki, indi ölkələrin, xarici, beynəlxalq qurumların əksəriyyəti dərk edir ki, bizimlə diktat dili ilə danışmaq mümkün deyildir. Adekvat reaksiya olacaqdır və ən əsas məsələ ondan ibarətdir ki, Azərbaycan özünü tam şəkildə təmin edən ölkədir. Heç kimdən asılı, heç kimin qarşısında gözükölgəli deyil, öz yolu ilə, müstəqillik, inkişaf yolu ilə gedir və bundan sonra da gedəcəkdir. Hər bir ölkə ilə münasibətləri biz bu əsaslar üzərində qururuq. Hesab edirəm ki, bu sahədə də qeyd etdiyim kimi, bizim təcrübəmiz bəzi ölkələr üçün çox maraqlı ola bilər.

9 ayda biz digər sahələrdə də uğurlu siyasətimizi aparmışıq. Enerji siyasətində çox önəmli hadisələr baş vermişdir. Bu il Trans–Adriatik qaz kəməri layihəsinə start verilmişdir. Bu layihənin icrası tarixi məsələ olacaqdır. Bu, tarixi layihə olacaqdır. Keçən il Türkiyə ilə Azərbaycan arasında TANAP layihəsinin imzalanması artıq bu imkanları yaratdı və bütün qapılar açılmışdır. Bu gün Azərbaycanın təbii resurslarının Avropa və dünya bazarlarına çıxarılması üçün yeni imkanlar yaranır. Trans–Adriatik boru kəməri hesab edirəm ki, tarixi layihə olacaqdır və Azərbaycana imkan verəcəkdir ki, onilliklər bundan sonra da öz təbii resurslarını əmniyyətli yollarla dünya və Avropa bazarlarına çıxarsın.

Bu yaxınlarda «Şahdəniz-2» layihəsinin fəaliyyəti ilə bağlı qaz kontraktları da imzalanmışdır. Bizim tərəfdaşlarımız, ixrac istiqamətlərimiz artıq müəyyən edilib. Enerji siyasətində də biz öz yolumuzdan dönməmişik, öz siyasətimizi aparmışıq. Elə bir vəziyyət yaratmışıq ki, bu layihələr Azərbaycan xalqına bundan sonra ən azı 100 il xidmət edəcəkdir. Bax, bizim gələcəyə baxışlarımız bundan ibarətdir. Biz 30 il, 50 il, 100 il bundan qabağa baxmalıyıq, Azərbaycanın inkişafını proqnozlaşdırmalıyıq, bölgədə gedən prosesləri düzgün təhlil etməli və düzgün qərarlar qəbul etməliyik və edirik.

Enerji siyasətimizlə bağlı məsələlər nəinki ölkəmiz və regionumuz üçün, dünya üçün əhəmiyyətli məsələlərdir. Azərbaycanın mövqeyindən, Azərbaycanda, Bakıda qəbul

edilmiş qərarlardan çox şey asılıdır. Bunu biz də bilirik, bu məsələlərlə bağlı bizimlə əməkdaşlıq edən qurumlar da bilir. Belə olan halda, əlbəttə ki, qarşılıqlı maraqlar və bir-birinin işinə qarışmamaq prinsipi daha da böyük üstünlük təşkil etməlidir.

Bu il sənayeləşmə ilə bağlı çox ciddi addımlar atılmışdır. Mən bu məsələlərlə bağlı əvvəllər də öz fikirlərimi bildirmişdim. Biz bütün işləri ardıcıllıqla görürdük ki, Azərbaycanda güclü qeyri-neft sənaye kompleksi yaradılsın. Bu il çox əlamətdar bir neçə layihə artıq reallaşmışdır. Beləliklə, Azərbaycanın uğurlu sənaye inkişafı da əminəm ki, bundan sonrakı illərdə özünü göstərəcəkdir. Yeni iş yerlərinin açılması və qeyri-neft ixracının artırılması məsələləri də öz həllini tapacaqdır. Bu yaxınlarda Taxtakörpü su anbarı və Vəlvələçay–Taxtakörpü, Taxtakörpü–Ceyranbatan su kanalları istifadəyə verilmişdir. Bu, böyük tarixi nailiyyətdir. Biz dağlar arasında süni göl yaratmışıq və müqayisə üçün demək istəyirəm – o göl Ceyranbatan gölündən təxminən 2 dəfə böyükdür. Suvarma, meliorasiya, kənd təsərrüfatının inkişafı, vətəndaşlarımızın içməli su ilə təminatı böyük dərəcədə yaxşılaşacaqdır. Bakıda Gəmiqayırma zavodu istifadəyə verilmişdir. Bu da tarixi nailiyyətdir, çünki bizdə gəmi təmiri zavodları olub, Gəmiqayırma zavodu heç vaxt olmayıb. Bu zavod ən müasir texnologiyalar əsasında qurulubdur. Bütün növ gəmiləri istehsal edəcək və beləliklə, xaricdən gəmilərin alınmasına ehtiyac azalacaqdır. Tamamilə aradan götürüləcək demirəm, çünki bizim ehtiyacımız zavodun istehsal gücündən daha da artıqdır. Ancaq əksər məsələlər Azərbaycanda həll olunacaqdır. Bir neçə gün bundan əvvəl Sumqayıtda Kimya Sənaye Parkının təməlini qoyduq. Bu da tarixi hadisədir. Ekoloji cəhətdən təmiz, yəni bütün çirklənmədən təmizlənmiş təxminən 200 hektar ərazidə yeni sənaye şəhərciyi yaradılacaqdır. Minlərlə iş yeri açılacaqdır. Yeni müəssisələr, təqribən 40-a yaxın böyük müəssisə yaradılacaqdır. 10 milyardlarla ölçülən investisiya qoyulacaqdır. Orada istehsal olunacaq məhsul da milyardlarla ölçüləcəkdir. Qeyri-neft sənayemizin və ölkə iqtisadiyyatının inkişafı üçün bunun çox böyük əhəmiyyəti vardır.

Sadəcə olaraq, mən bir neçə layihəni qeyd etdim. Bu layihələr kifayət qədər çoxdur. Ancaq bu layihələrin icrası onu göstərir ki, biz istədiyimizə nail ola bilmişik. Son 10 il ərzində sənayeləşmə ilə bağlı siyasət, bax, bu nəticələrə gətirib çıxarmışdır. Əminəm ki, ilin sonuna qədər və ondan sonrakı illərdə bütün bu müsbət meyillər güclənəcək, Azərbaycanın uğurlu inkişafı davam edəcəkdir.

## YEKUN NİTQİ

Bu gün bu toplantıda səslənən rəqəmlər bir daha onu göstərir ki, Azərbaycanın iqtisadi inkişafı çox uğurludur. Ölkəmizdə öz həllini tapan sosial məsələlər insanların rifah halının yaxşılaşmasına da xidmət göstərir. İqtisadi islahatların aparılması, əlbəttə ki, sosial vəziyyətin yaxşılaşmasına da xidmət edir. Bu belə də olmalıdır. Azərbaycanda iqtisadi və sosial məsələlərin bir paketdə həll olunması bizi fərqləndirən cəhətdir.

Siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Azərbaycan vətəndaşının rifah halını yaxşılaşdırmaq üçün güclü iqtisadi əsaslar olmalıdır və bu əsasları yaradırıq. Ölkə iqtisadiyyatını inkişaf etdiririk. Bütün təşəbbüslər – investisiyalarla bağlı olan təşəbbüslər, yeni sənaye komplekslərinin yaradılması ilə əlaqədar proqramlar bir məqsədi güdür ki, Azərbaycan vətəndaşı daha da yaxşı yaşasın.

Mən çox şadam ki, son illər ərzində bu istiqamətdə çox böyük işlər görülmüşdür. Elə etməliyik ki, bu müsbət dinamikanı bundan sonra da qoruya bilək. Mən hesab edirəm ki, biz buna nail olacağıq. Bu günə qədər görülmüş bütün işlər deməyə əsas verir ki, biz gələcəkdə də inkişafımıza uğurla davam edəcəyik.

Bu ilin sosial-iqtisadi inkişafı ilə bağlı məsələlərə gəldikdə, ilin sonuna cəmi 3 aydan az vaxt qalır. Əminəm ki, bütün proqramlar artıqlaması ilə icra ediləcəkdir. 2013-cü ili də biz uğurla başa vuracağıq. İlin sonuna qədər Dövlət İnvestisiya

Proqramı tam şəkildə icra edilməlidir. Əminəm ki, burada heç bir problem olmayacaqdır. Çünki investisiya portfelimiz kifayət qədər böyükdür. Giriş sözümdə dediyim kimi, 9 ayda 17,7 milyard dollar investisiya qoyulmuşdur. Bu proses davam etdirilir. Elə etməliyik ki, Dövlət İnvestisiya Proqramının icrasında heç bir yubanma olmasın.

Bu il maaşlar və pensiyalar, sosial ödəmələr artırılmışdır. Sovet dövründən qalan əmanətlər tam şəkildə qaytarılmışdır. Ancaq buna baxmayaraq, inflyasiya 2,3 faiz səviyyəsindədir. Bu, Azərbaycanda uğurla aparılan makroiqtisadi siyasətin təzahürüdür. Çalışmalıyıq ki, ilin sonuna qədər inflyasiyanı bu səviyyədə saxlayaq. Dünya miqyasında inflyasiyanın səviyyəsinə görə Azərbaycan qabaqcıl ölkələrin sırasındadır. Bu sahədə düşünülmüş siyasətin uğuru ona görə önəmlidir ki, Azərbaycanda çox böyük sosial və infrastruktur layihələri icra edilir.

İndi bəzi ölkələri bürümüş böhran iş yerlərinin ixtisarına gətirib çıxarır. İnfrastruktur layihələri, demək olar ki, dayandırılmışdır. İnvestisiyalar böyük dərəcədə azalmışdır. Belə olan halda inflyasiyanı məqbul səviyyədə saxlamaq, əlbəttə ki, daha da asandır. Amma Azərbaycanda sosial proqramlar həll edilir. Sosial infrastruktur layihələri icra edilir. Maaşlar, pensiyalar, sosial ödəmələr artırılır. Böyükhəcmli infrastruktura investisiya qoyulur. İnflyasiyanı biz cəmi 2,3 faiz səviyyəsində saxlayırıq. Bu doğrudan da böyük nailiyyətdir.

Növbəti illərdə də makro-iqtisadi sabitlik daim diqqət mərkəzində olmalıdır. Biz süni qiymət artımına yol verməməliyik. Hesab edirəm ki, Azərbaycanda artıq qiymətlərə və istehlak bazarına nəzarət daha da yaxşı səviyyədə təmin edilir. Bu, daimi proses olmalıdır. Burada nəzarət, əlbəttə ki, iqtisadi amillər, sahibkarlığın inkişafı və sahibkarların məsuliyyəti məsələləri çox böyük məna daşıyır. Makroiqtisadi sabitliyin qorunması gələcəkdə də imkan verəcəkdir ki, biz iqtisadi inkişafımıza uğurla davam edək.

Bu il 2-ci regional inkişaf proqramı başa çatır. Bu proqramların qəbul edilməsi bölgələrdə mövcud vəziyyətin yaxşılaşdırılmasında müstəsna rol oynamışdır. İş yerlərinin açılması, yeni sənaye müəssisələrinin yaradılması, bölgələrdə infrastruktur layihələrinin icrası, o cümlədən sosial infrastrukturun yaradılması bir neçə ciddi məsələnin həllinə gətirib çıxarmışdır. Bölgələrdə iş yerləri açıldı. Bölgələr canlandı. Bölgələrdən böyük şəhərlərə, xüsusilə Bakıya miqrasiya meyilləri bir qədər azaldı. Əlbəttə ki, ölkəmizin hərtərəfli inkişafı təmin edildi. Çünki Azərbaycan əhalisinin əksəriyyəti bölgələrdə yaşayır. Bölgələrdə normal şəraitin yaradılması bizim üçün daim prioritet məsələ olaraq qalır. İki Dövlət Proqramının icrası da hesab edirəm ki, bu sahədə atılmış ən ciddi addım olmuşdur.

Gələn il 3-cü Dövlət Proqramı qəbul edilməlidir. Bu proqram da dəqiq, konkret olmalıdır. Orada kəndbəkənd bütün məsələlər öz əksini tapmalıdır. Biz yaxşı bilirik ki, hansı bölgədə, hansı rayonda, hansı kənddə hansı problem vardır. Nəzərə alsaq ki, bizim maliyyə, iqtisadi gücümüz artacaqdır, o problemlərin həlli də mümkün olacaqdır. Siyasi iradə həmişə olduğu kimi, yerindədir. Biz növbəti 5 il ərzində bölgələrdə mövcud olan bütün sosial və iqtisadi məsələləri həll etməliyik. Əminəm ki, biz buna nail olacağıq.

İnfrastruktur layihələri, su layihələri indi uğurla icra edilir. Bir çox rayonlarda, şəhərlərdə içməli su, kanalizasiya layihələri artıq başa çatmışdır. Digər rayonlarda da bu layihələr icra edilir. Qazlaşdırma, elektrik xətlərinin, kənd yollarının çəkilişi, suvarma məsələlərinin həlli, demək olar ki, bölgələri canlandırdı. Bölgələrdə bu gün vəziyyət çox müsbətdir.

Bildiyiniz kimi, Bakıətrafı qəsəbələrin sosial-iqtisadi inkişafı Dövlət Proqramı da icra edilir. Proqram qısamüddətlidir, 2 ili əhatə edir. Bu ilin sonunda başa çatır. Deyə bilərəm ki, 2 il ərzində Bakı qəsəbələrində çox böyük işlər görülmüşdür. Görüləsi işlər hələ çoxdur. Biz gələn il bu proqramı yəqin ki, davam etdirəcəyik. Çünki məktəb tikintisi, içməli su xətlərinin çəkilişi hələ davam etməlidir.

Korrupsiya və rüşvətxorluğa qarşı mübarizə daha da ciddi olmalıdır. Bu sahədə deyə bilərəm ki, yaxşı nəticələrimiz vardır. Bu yaxınlarda Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsinin yeni binasının açılışı zamanı dediyim fikirləri bir daha qeyd etmək istəyirəm. Korrupsiya Azərbaycanda olmamalıdır. Bu sosial bəlanı biz aradan götürməliyik. Korrupsiya sosial ədalət prinsiplərini pozur, cəmiyyətin uğurlu inkişafını əngəlləyir. Cəmiyyətin səyləri, dövlət siyasəti sayəsində biz korrupsiyaya qarşı daha da ciddi mübarizə aparırıq və aparacağıq. Əminəm ki, növbəti illərdə Azərbaycan bu göstəriciyə görə də dünya miqyasında qabaqcıl yerlərdə olacaqdır.

Korrupsiyaya qarşı mübarizəni uğurla aparmaq üçün əsas şərt siyasi iradənin mövcudluğudur və siyasi iradə vardır. Bizim qəbul etdiyimiz qərarlar, qanunvericilikdə əldə edilmiş irəliləyiş, yeni qanunların qəbul edilməsi və elektron xidmətlərin inkişafı, sistem xarakterli tədbirlər artıq hesab edirəm ki, bu sahədə ciddi dönüşün yaranmasına gətirib çıxarmışdır. Korrupsiya indeksini təhlil edən beynəlxalq qurumlar da Azərbaycanda keçirilən sorğularda cəmiyyətdə bu məsələyə münasibəti öyrənərək yəqin etmişlər ki, korrupsiyaya qarşı mübarizə məsələlərində dövlətin siyasəti cəmiyyətdə dəstəklənir, təqdirlə qarşılanır. Bu əminəm ki, gələcəkdə də belə olacaqdır. Çünki bizim siyasi iradəmiz çox güclüdür. Cəmiyyətdə də korrupsiyaya qarşı mübarizədə çox güclü meyillər vardır. Elə etməliyik ki, Azərbaycan qeyd etdiyim kimi, bu sahədə də qabaqcıl ölkələrin sırasında olsun.

Son illərdə elektron xidmətlərin inkişafı bizə böyük dəstəkdir və biz Azərbaycanda ən mütərəqqi təcrübəni tətbiq edirik. İnkişaf etmiş ölkələrdə olan təcrübə təqdirəlayiqdir. Biz o təcrübəni Azərbaycanda tətbiq etməliyik. Biz bu sahədə öz təşəbbüslərimizi də irəli sürürük. «ASAN xidmət»in yaranması və qısa müddət ərzində cəmiyyətdə böyük rəğbət qazanması bizim siyasi iradəmizin təzahürüdür, eyni zamanda, Azərbaycanın bu sahədə innovasiyalara nə qədər hazır olduğunu

göstərir. Cəmi 9 ay ərzində 500 mindən artıq vətəndaş «ASAN xidmət»ə müraciət etmişdir. Növbəti illərdə hər bir bölgədə «ASAN xidmət» yaradılacaqdır. Hələ ki, biz səyyar xidmətlər göstəririk. Ancaq gələn ilin investisiya xərcləri arasında hər bir bölgədə ən azı 1 «ASAN xidmət» mərkəzi yaradılmalıdır ki, biz insanlara bölgələrdə də mütəmadi qaydada xidmət göstərək.

Cəza tədbirləri, əlbəttə ki, hər bir ölkədə olduğu kimi, öz rolunu oynayır və oynamalıdır. Ancaq hesab edirəm ki, bax, bu amillərin birləşməsi korrupsiyaya qarşı mübarizədə bizə kömək edəcəkdir. Çünki bu gün Azərbaycanın uğurlu inkişafı, Azərbaycanın dünyada dinamik, inkişafda olan, müasir ölkə kimi tanınması reallıqdır. Bu gün biz bir çox məsələlərdə nümunəyik. Korrupsiyaya qarşı mübarizədə də biz nümunə olmalıyıq, olacağıq.

Biz növbəti aylarda, ilin sonuna qədər elektroenergetika ilə bağlı əlavə tədbirləri görəcəyik. Çünki bu gün bizdə kifayət qədər enerji güclərimiz vardır. Ancaq bəzi rayonlarda – mən rayonlarda olarkən bu məsələlərlə maraqlanıram – ötürücü xətlər nasaz vəziyyətdədir. Bəzi hallarda onlar heç zəif küləyə də davam gətirmir. Külək əsən kimi, o xətlər yerə düşür, elektrik kəsilir. Ona görə müvafiq göstərişlər verilmişdir. Bu ilin sonuna qədər, xüsusilə də gələn il ən pis vəziyyətdə olan xətt təsərrüfatları yenilənməlidir. İndi işlər gedir. Bizdə kifayət qədər enerji gücü vardır. Ancaq enerji təsərrüfatı da yüksək səviyyədə olmalıdır. Əminəm ki, bu məsələ də öz həllini tezliklə tapacaqdır. Qeyd etməliyəm ki, son 10 il ərzində Azərbaycanda 14 elektrik stansiyası tikilmişdir. Burada biz həm ənənəvi enerji növlərindən istifadə edirik və eyni zamanda, Azərbaycanda alternativ enerji növləri də yaradılır.

Qazlaşdırma Azərbaycanda təqribən 90 faizə yaxınlaşır. Son illərdə bütün şəhərlər qazlaşdırılıbdır. Bu da hesab edirəm ki, tarixi nailiyyətdir. Çünki heç sovet dövründə bizdə bütün rayonlar, şəhərlər qazlaşdırılmamışdı. Elə rayonlar var idi ki, orada heç vaxt qaz olmamışdır. İndi elə şəhər yoxdur ki, orada qaz olmasın. Kəndlərin əksəriyyətində qazlaşdırma işləri təşkil

edilibdir. Ancaq hələ ki, qaz almayan kəndlər də vardır. Mən daim bu məsələlərə nəzarət edirəm. Əminəm ki, 1 il, maksimum 2 il ərzində əksər kəndlərimizə təbii qazın verilməsi təmin ediləcəkdir.

Neft hasilatı sabitləşib. Bu, müsbət haldır. Biz neft hasilatını bu səviyyədə saxlamalıyıq ki, uzun illər bundan sonra da bu hasilat bu səviyyədə olsun. Qaz hasilatı isə Azərbaycanda artır və artacaqdır. Çünki həm daxili resurslar hesabına yeni quyular qazılır, eyni zamanda, xarici tərəfdaşlar böyük investisiyalar qoyur. Qeyd etdiyim kimi, Azərbaycan qazı artıq Avropada öz rolunu oynayacaqdır. Avropanın enerji təhlükəsizliyi məsələləri, o cümlədən Azərbaycan qazı hesabına təmin ediləcəkdir. TANAP və TAP layihələrinin icrası nəticəsində Azərbaycan dünyada böyük qaz ölkəsi kimi özünü göstərəcəkdir.

Sənayeləşdirmə ilə bağlı məsələlər öz həllini tapır. Mən giriş sözümdə qeyd etdim ki, Kimya Sənaye Parkının təməli qoyuldu. Bu, tarixi hadisədir. Ancaq indi elə etməliyik ki, biz bu parkı qısa müddət ərzində tam şəkildə işə sala bilək. Kimya Sənaye Parkının rezidentləri o şirkətlər olmalıdır ki, onların fəaliyyəti ölkə iqtisadiyyatı üçün strateji əhəmiyyət daşıyır. Onların fəaliyyəti nəticəsində idxaldan asılılıq azalacaqdır və qoyacaqları investisiyalar böyük həcmlərlə ölçüləcəkdir. Beləliklə, biz qısa müddət ərzində, bax, indi bu birinci mərhələ üçün ayrılan sahəni təmin edəcək və orada onlarla yeni müəssisə yaranacaqdır. Bu sənaye parkının və ondan əvvəl yaradılmış Sumqayıt Texnoparkının fəaliyyəti nəticəsində biz çox böyük sənaye potensialına malik olacağıq. Hər sahədə olduğu kimi, biz bu sahədə də idxaldan asılılığımızı azaltmalıyıq və məhsullarımızla yeni bazarlara çıxmalıyıq. Əlbəttə ki, orada istehsal olunacaq məhsul istənilən ölkəyə ixrac edilə bilər.

Biz ilin sonuna qədər və ondan sonrakı dövrdə xarici investisiyalarımızı da artırmalıyıq. Bu gün Azərbaycan dünyada investor ölkə kimi tanınır və biz xarici maliyyə qurumlarına donor kimi vəsait ayırırıq. Eyni zamanda, böyük həcmdə investisiyaların qoyuluşu təmin edilir. İnvestisiya portfelimiz də, investisiyaların

coğrafiyası da genişlənir. Azərbaycan investisiyaları bu gün Türkiyə, Gürcüstan, Rusiya, Ukrayna, Fransa, Böyük Britaniya, Rumıniya, Yunanıstan və digər ölkələrə böyük həcmlərlə qoyulur. Onların içində, əlbəttə ki, ən böyük investisiya Türkiyəyə qoyulacaqdır. 17 milyard dollar Azərbaycan sərmayəsi Türkiyənin iqtisadiyyatına qoyulacaqdır və bu göstəriciyə görə Azərbaycan ən böyük investor olacaqdır. İnvestisiya portfelimiz elə bölünməlidir ki, biz özümüzü risklərdən maksimum dərəcədə qoruyaq. Eyni zamanda, investisiya qoyacağımız ölkələrlə də bizim ikitərəfli münasibətlər daha da yüksək pilləyə qalxmalıdır. Çünki bu gün dünyada iqtisadi və maliyyə böhranı davam edir, baxmayaraq ki, 5 il keçibdir. Hələ bilinmir bu böhran nə vaxt başa çatacaqdır.

Dünyada xarici investisiyalara çox böyük tələbat vardır. Bu sahədə Azərbaycan çox dəqiq, düşünülmüş və müdrik siyasət aparır. Əlbəttə, ilk növbədə, biz investisiyaları ölkə daxilində qoyuruq, qoyacağıq və növbəti ilin dövlət investisiya proqramı kifayət qədər geniş olacaqdır. Biz, bizə lazım olan sahələri inkişaf etdirmək üçün xarici investisiyalara da açığıq və bu investisiyalar da qoyulur. Özümüz xarici ölkələrə investisiya qoyuruq. Yəni bu proseslər bir-birini əvəzləmir, ziddiyyət təşkil etmir. Bu, iqtisadi siyasətin təzahürüdür. Azərbaycanda iqtisadi sahədə çox dəqiq, düşünülmüş siyasət aparılır.

Nəqliyyat sektorunda ilin sonuna qədər işlər davam etdiriləcəkdir. Bizim hazırda icra edilən 2 böyük nəqliyyat layihəmiz vardır. Bakı–Tbilisi–Qars dəmir yolu ki, tikintisi gedir. Ümid edirəm ki, yaxın zamanlarda başa çatacaqdır. Müəyyən səbəblərə görə bir qədər yubanmışdır. Ancaq indi artıq bütün işlər yolundadır, yaxın zamanlarda icra edilməlidir. İkinci böyük layihə Ələt Dəniz Ticarəti Limanıdır. Bu limanın da 2015-ci ildə istifadəyə verilməsi nəzərdə tutulur. Bu da Xəzər dənizində ən böyük ticarət limanı olacaqdır. Beləliklə, Azərbaycan bu bölgənin nəqliyyat mərkəzi kimi, öz imkanlarını genişləndirəcəkdir. Artıq Azərbaycan bölgənin, regionun logistika və nəqliyyat mərkəzidir. Son 10 il ərzində Azərbaycanda 7 aeroport tikilmiş və yenidən qurulmuşdur. Bakıda Heydər Əliyev Beynəlxalq Aeroportunun yeni

aerovağzal kompleksinin, yeni infrastrukturun, zolaqların tikintisi davam edir. Bu aeroport dünya miqyasında ən rahat və ən gözəl aeroportlardan biri olacaqdır. Dəmir yolları təmir olunur, avtomobil yolları çəkilir. Son 10 il ərzində 10 min kilometrə yaxın avtomobil yolları çəkilmişdir.

Ərzaq təhlükəsizliyi ilə bağlı məsələlər də daim diqqət mərkəzindədir. Burada artıq deyildi, kənd təsərrüfatı inkişaf edir, iri fermer təsərrüfatları yaradılır və orada məhsuldarlıq orta səviyyədən 2 dəfə çoxdur. Biz iri fermer təsərrüfatlarının inkişafı ilə növbəti illərdə də məşğul olacağıq. Bu il Taxtakörpü su anbarının və gələn il Şəmkirçay su anbarının istifadəyə verilməsi bizə əlavə 250 min hektar torpaqda suvarmanın yaxşılaşmasına və yenidən dövriyyəyə buraxılmasına imkan yaradacaqdır.

Əlbəttə, indidən yeni dövriyyəyə buraxılacaq suvarılan torpaqlarda hansı işlərin görülməsi ilə bağlı konkret təkliflər olmalıdır. Aydındır ki, fermerlər özləri müəyyən edirlər nəyi əkəcəklər. Ancaq biz dövlət subsidiyaları ilə, dövlət tərəfindən göstərilən güzəştlərlə, təşviq mexanizmləri ilə fermerləri lazım olan istiqamətlərə yönəldə bilərik ki, əsas məhsulları 100 faiz Azərbaycanda istehsal edək. Biz bu vəzifəyə, bu məqsədə yaxınlaşırıq. Bəzi pozisiyalar üzrə artıq 100 faiz, yaxud da ki, 100 faizə çox yaxınıq və harada ki, idxaldan asılılıq var, bu asılılıq tamamilə aradan götürülməlidir.

Son illər Azərbaycanda demoqrafik vəziyyət də çox müsbətdir. Bizdə demoqrafik vəziyyətin yaxşı olması ən böyük üstünlüklərdən, ən böyük nəticələrdən biridir. Bu müsbət dinamika davam etdikcə, Azərbaycan daha da güclənəcəkdir. Son 10 ildə Azərbaycan iqtisadiyyatı 3,4 dəfə artmışdır. Heç bir başqa ölkədə son 10 il ərzində buna oxşar nəticə müşahidə olunmamışdır. Bu bizim nailiyyətimizdir. Son 10 ildə, bu ili nəzərə almaq şərti ilə, 150 milyard dollar investisiya qoyulmuşdur. Ancaq sabit olan ölkələrə bu qədər investisiya qoyulur. Ancaq gələcəyi proqnozlaşdırıla biləcək ölkələrə bu qədər investisiya qoyulur.

Bizim valyuta ehtiyatlarımız son 10 il ərzində təqribən 30 dəfə artmışdır. Bu nəyi göstərir? Biz valyuta ehtiyatlarımızı artırırıq, qoruyuruq. Biz bu məsələlərə çox böyük həssaslıqla yanaşırıq. Bu sahə tam şəffaf olduğu üçün burada ictimai nəzarətin aparılmasına kifayət qədər imkanlar vardır. Çünki Dövlət Neft Fondunun gəlirləri, xərcləri dərc edilir, büdcəyə transfer olanda müzakirə olunur. Mərkəzi Bankın valyuta ehtiyatları da sirr deyil, açıq məlumatdır. Yəni biz bu sahədə tam şəffaflıq təmin etmişik və hesab edirəm ki, bu belə də olmalıdır. Çünki Azərbaycan vətəndaşları bilməlidirlər ki, ölkənin maliyyə vəziyyəti necədir və dövlət, hökumət öz resurslarını necə qoruyur. Mən deyə bilərəm ki, bu əmanət Azərbaycanda ən yüksək səviyyədə qorunur. Biz valyuta ehtiyatlarımızı növbəti illərdə də artıracağıq.

Son 10 ildə büdcə xərcləri təxminən 20 dəfə artmışdır. 20 dəfəyə yaxın artan büdcə imkan verdi ki, biz böyük işlərə nail olaq.

Son 10 il ərzində 1 milyon 200 mindən çox iş yeri açılmışdır ki, onlardan 910 mini daimi iş yeridir. Nəticə etibarilə işsizlik ilin sonuna qədər olan proqnoza görə 4,8 faizə düşəcəkdir. Yoxsulluq 10 ildə təxminən 10 dəfə azalmışdır və 6 faizdən azdır.

Azərbaycanda xarici dövlət borcu cəmi 7-8 faizdir. Son illərdə dəfələrlə pensiya, maaş artmışdır – pensiya təxminən 10 dəfə, maaş təxminən 6 dəfə, müdafiə xərcləri 20 dəfədən çox.

Son 10 il ərzində, daha da az bir vaxtda Azərbaycanda müdafiə sənayesi yaradılmışdır ki, bu sənaye heç vaxt Azərbaycanda olmamışdır. Son 7-8 il ərzində onlarla hərbi təyinatlı zavod yaradılmışdır. Hazırda Azərbaycanda 750 adda hərbi təyinatlı məhsul istehsal edilir. Artıq yerli istehsalın yaradılması bu sahədə də asılılığın xeyli aşağı salınması deməkdir. Bu gün Azərbaycan hətta silahları ixrac edə bilər və edir.

Son 10 il ərzində Azərbaycanda 2708 məktəb tikilib və təmir edilib, 500-ə yaxın tibb ocağı tikilib, ya təmir edilib, 35

Olimpiya İdman Kompleksi tikilib və indi onların ümumi sayı 40-a yaxındır.

Bu illər ərzində biz enerji siyasətimizdə tarixi nailiyyətlərə çatdıq. Bakı–Tbilisi–Ceyhan neft kəməri 2006-cı ildə, Bakı–Tbilisi–Ərzurum qaz kəməri 2007-ci ildə istismara verilmişdir. Bu kəmərlər olmasaydı, indi bizim iqtisadi və siyasi vəziyyətimiz tam başqa ola bilərdi. Bunlar böyük siyasi iradə tələb edən layihələrdir. Bu layihələr Azərbaycanın bu gününü, uğurlu gələcəyini təmin edən layihələrdir. Biz tarixdə ilk dəfə olaraq Xəzər dənizinin neft-qaz resurslarını dünya bazarlarına çıxara bildik. Bizim dünya bazarlarına bilavasitə çıxışımız yoxdur. Biz bu çıxışı əldə etmək üçün mütləq kəmərlər tikməli idik. Bu kəmərlər çox çətin geosiyasi vəziyyətdə, böyük zəhmət, cəsarət hesabına, ulu öndərin neft strategiyasının icrası nəticəsində çəkildi. Biz son 10 il ərzində bu strategiyanın təmin edilməsində böyük uğurlara imza atdıq.

Bu layihələr özlüyündə yeni layihələrin icrasına gətirib çıxarmışdır. Əgər Bakı–Tbilisi–Ceyhan neft kəməri 2006-cı ildə tikilib istifadəyə verilməsəydi, indi o enerji dəhlizi olmayacaqdı. Enerji dəhlizi olmasaydı, heç kim Azərbaycanın qaz yataqlarına vəsait, investisiya qoymazdı.

Bu 2 tarixi layihənin icrası nəticəsində biz yeni enerji dəhlizini yarada bildik. Biz yaratdıq onu, Azərbaycan yaratdı, tərəfdaşlarla, dost ölkələrlə birlikdə. Ancaq bu bizim təşəbbüsümüz idi. Əsas maliyyə yükü də, əlbəttə ki, Azərbaycanın üzərinə düşür.

Ondan sonrakı illərdə bu kəmərlərin səmərəli fəaliyyəti nəticəsində yeni layihələr üzə çıxdı və Azərbaycan keçən il TANAP layihəsinin icrasına dair Türkiyə ilə müqavilə bağlamışdır. Bu da tarixi layihədir. TANAP layihəsi tarixi əhəmiyyətə malik olan layihədir. O layihədən 1 il keçməmiş Trans–Adriatik boru kəməri layihəsi haqqında saziş bağlandı–TAP layihəsi. Bu bizi Avropaya böyük qazla çıxarmaq üçün tikiləcək bir layihədir. Bundan sonra «Şahdəniz-2» layihəsi ilə bağlı kontraktlar imzalandı. Azərbaycanda böyük qazma

qurğuları, platformalar tikilir ki, vaxtilə bizim belə imkanlarımız yox idi.

Bu özlüyündə Azərbaycana növbəti illərdə 10 milyardlarla dollar səviyyəsində xarici sərmayənin cəlb edilməsinə gətirib çıxaracaqdır. İndi bizim özəl sektorumuz bu sərmayələrə daha hazırlıqlıdır. Çünki XX əsrin 90-cı illərinin əvvəllərində daha çox kontraktlar xarici şirkətlərlə bağlanırdı. İndi bizim güclü texniki imkanlarımız, peşəkar şirkətlərimiz vardır. Kontraktların böyük əksəriyyəti Azərbaycan şirkətləri tərəfindən icra ediləcəkdir. Görün bizim sahibkarlar nə qədər fayda götürəcəklər, ölkə iqtisadiyyatına nə qədər sərmayə gələcəkdir. Yəni enerji sahəsində son 10 il ərzində görülən işlər tarixi işlərdir. Bunu heç kim inkar edə bilməz. Bu bizim böyük nailiyyətimizdir, böyük uğurumuzdur.

Bununla bərabər, digər sektorların inkişafı təmin edilmişdir. Biz bu illərdə kosmik sənayeyə malik olan ölkələrin klubuna daxil olduq. Bu gün Azərbaycanın öz peyki vardır. «Azərspace-1» peykimiz vardır ki, artıq Azərbaycan xalqına və dövlətinə xidmət göstərir. Bu da tarixi nailiyyətdir. Bu peykin adı «Azərspace-1»dir. Yəni o deməkdir ki, «Azərspace-2» də, «3» də olacaq və bu sənaye də Azərbaycanda inkişaf edəcəkdir.

Biz bu illərdə xarici siyasətlə bağlı ən böyük nailiyyətlərə çata bildik və 155 ölkənin dəstəyi ilə 2 il bundan əvvəl BMT Təhlükəsizlik Şurasına üzv seçildik. 2 il ərzində Təhlükəsizlik Şurasında özümüzü ləyaqətlə, cəsarətlə apardıq, hər bir məsələ ilə bağlı öz mövqemizi ifadə etdik. Hesab edirəm ki, bu gün BMT-də bizə olan dəstək daha da artıb, daha da çox ölkə Azərbaycanı etibarlı tərəfdaş və dost ölkə kimi tanıyır. Hazırda – oktyabr ayında biz BMT Təhlükəsizlik Şurasına sədrlik edirik. Azərbaycan, hansı ki, cəmi 20 il real müstəqillik dövründə yaşayır, bu illər ərzində dünyanın bir saylı qurumu olan BMT Təhlükəsizlik Şurasına üzv olub və indi orada sədrlik edir. Bu hər bir vətəndaşın qəlbini qürurla doldurur. Biz haqlı olaraq fəxr edirik ki, ölkəmiz belə böyük uğurlara imza atır.

Bu illərdə bizim şəhərlərimiz abadlaşıb, gözəlləşib. Bu illərdə Bakı artıq dünyanın ən gözəl şəhərlərindən biri kimi tanınır. Bakı doğrudan da dünyanın ən rahat, ən gözəl şəhərlərindən biridir. Paytaxtımız ölkəmizdə gedən bu quruculuğun, inkişafın, abadlaşmanın simasıdır və Azərbaycanın uğurlu inkişafını təcəssüm etdirir.

10 il ərzində görülən işlər haqqında danışmaq üçün bir neçə saat, bəlkə də bir neçə gün lazım olacaqdır. Mən sadəcə olaraq, əsas məqamları səsləndirdim. Bir neçə gündən sonra prezident seçkiləri keçiriləcəkdir. Əminəm ki, seçkilər ədalətli, şəffaf keçiriləcəkdir. Azərbaycan xalqının iradəsi seçkilərdə tam şəkildə öz əksini tapacaqdır.

Sağ olun.

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ**

Hörmətli Vladimir Vladimiroviç!

Ad gününüz münasibətilə Sizə ən səmimi təbriklərimi və xoş arzularımı yetirirəm.

Sizin rəhbərliyinizlə dost Rusiya dövlət və demokratiya təsisatlarının təkmilləşdirilməsi, iqtisadi, sosial və humanitar sahələrin dinamik inkişafı ilə bağlı genişmiqyaslı proqramların və layihələrin həyata keçirilməsində sanballı uğurlar qazanmışdır. Dünya arenasında ölkənizin mövqeyinin möhkəmlənməsi, beynəlxalq və regional məsələlərdə onun rolunun artması Sizin adınızla bağlıdır.

Azərbaycan–Rusiya dövlətlərarası münasibətlərin yüksək səviyyəsini məmnuniyyətlə qeyd edirəm. Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlərin möhkəmlənməsinə Sizin şəxsi töhfənizi yüksək qiymətləndirirəm. Bu gün ölkələrimiz arasında çoxəsrlik dostluq və mehriban qonşuluq əlaqələri, əməkdaşlıq və strateji tərəfdaşlıq hərtərəfli inkişaf edir və genişlənir.

Sizin bu yaxınlarda Azərbaycana səfərinizi, mehribanlıq şəraitində görüşlərimizi və söhbətlərimizi səmimiyyətlə xatırlayıram. Əminəm ki, qarşılıqlı anlaşma, mehriban qonşuluq və konstruktiv dialoq xalqlarımızın və ölkələrimizin firavanlığı, regionda sülhün, sabitliyin və təhlükəsizliyin təmin edilməsi naminə ölkələrimiz arasında sıx əməkdaşlığın daim ayrılmaz tərkib hissəsi olacaqdır.

Hörmətli Vladimir Vladimiroviç, bu əlamətdar gündə Sizə cansağlığı, firavanlıq və uğurlar diləmək istəyirəm.

*Dərin hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *4 oktyabr 2013-cü il*

## AZƏRBAYCANDA PREZİDENT SEÇKİLƏRİ ÜZRƏ MÜŞAHİDƏ MİSSİYASININ RƏHBƏRİ PİNO ARLAÇİNİN BAŞÇILIQ ETDİYİ AVROPA PARLAMENTİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*7 oktyabr 2013-cü il*

*Azərbaycan Respublikasının* Prezidenti *İlham Əliyev oktyabrın 7-də Azərbaycanda* prezident *seçkiləri üzrə müşahidə missiyasının rəhbəri* Pino *Arlaçinin başçılıq* etdiyi Avropa Parlamenti *nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə ölkəmizlə* Avropa Parlamenti *arasında əməkdaşlığın əhəmiyyəti* qeyd olundu, *Azərbaycanda keçiriləcək* prezident *seçkilərinə hazırlıq* prosesi *ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## FRANSA SENATININ ÜZVÜ, SENATIN MÜŞAHİDƏ MİSSİYASININ RƏHBƏRİ NATALİ QULENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*7 oktyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 7-də Fransa Senatının üzvü, Senatın müşahidə missiyasının rəhbəri Natali Qulenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Fransa arasında ikitərəfli əlaqələrin uğurlu inkişafından məmnunluq ifadə olundu, Fransa Senatının müşahidə missiyasının ölkəmizə səfərinin önəmi vurğulandı, prezident seçkilərinə hazırlıqla əlaqədar görülən işlər barədə fikir mübadiləsi aparıldı.*

## PREZİDENT SEÇKİLƏRİ GÜNÜ 6 SAYLI SEÇKİ MƏNTƏQƏSİNDƏ SƏSVERMƏDƏ İŞTİRAK

*9 oktyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva ailə üzvləri ilə birlikdə oktyabrın 9-da səhər saat 10-da seçki məntəqəsinə gəlmişlər.*

*Seçki prosesinin başladığı ilk dəqiqələrdən Bakı şəhərinin 29 saylı Səbail seçki dairəsinin 6 saylı məktəbdə yerləşən 6 saylı seçki məntəqəsində xüsusi canlanma müşahidə olunurdu.*

*Prezident İlham Əliyev səsvermə otağına daxil olub seçki bülletenini alaraq kabinəyə keçdi və sonra bülleteni qutuya saldı. Bu anı respublikamızın və xarici ölkələrin mətbuat orqanlarının, televiziya kanallarının nümayəndələri izlədilər.*

*Mehriban xanım Əliyeva və ailə üzvləri də səs verdilər.*

*Prezident İlham Əliyev beynəlxalq müşahidəçilərlə görüşdü.*

*Bu seçki məntəqəsində 724 seçici qeydiyyata alınıb.*

*Məntəqədə səsvermənin gedişini xarici müşahidəçilər, habelə qeyri-hökumət təşkilatlarının, müxtəlif siyasi partiyaların və prezidentliyə namizədlərin nümayəndələri izləyirdilər.*

*Azərbaycanın hər yerində olduğu kimi, 29 saylı Səbail seçki dairəsinin 6 saylı seçki məntəqəsində də seçicilər xalqımızın xoşbəxt gələcəyinə, dövlətçiliyimizin daha da möhkəmləndirilməsinə, iqtisadi dirçəlişə, dinamik inkişafa, sabitliyə və əmin-amanlığa səs verdilər.*

## PREZİDENT SEÇKİLƏRİNİN İLKİN NƏTİCƏLƏRİ İLƏ BAĞLI XALQA MÜRACİƏT

Əziz həmvətənlər!

Hörmətli xanımlar və cənablar!

Mənə böyük etimad göstərmiş, yenidən prezident vəzifəsinə seçmiş doğma xalqıma minnətdaram. Azərbaycan xalqını əmin etmək istəyirəm ki, bundan sonra da doğma xalqıma ləyaqətlə xidmət edəcəyəm, daim Azərbaycanın dövlət maraqlarını müdafiə edəcəyəm.

Azərbaycan xalqı bu seçkilərdə azad, şəffaf şəkildə öz iradəsini ortaya qoydu. Azərbaycanda keçirilən prezident seçkiləri demokratiyanın təntənəsidir. Azərbaycanda bütün azadlıqlar mövcuddur. Azərbaycan demokratik dövlət kimi, bundan sonra da uğurla inkişaf edəcəkdir.

Bu seçkilərin azad, şəffaf şəkildə keçirilməsi demokratiyaya doğru atılan növbəti ciddi addımdır. Azərbaycanda bütün azadlıqlar – söz azadlığı, mətbuat azadlığı, siyasi azadlıqlar, vicdan azadlığı təmin edilir. Azərbaycanda bütün xalqların, bütün dinlərin nümayəndələri bir ailə kimi sülh, mehribanlıq şəraitində yaşayırlar. Bu bizim böyük üstünlüyümüzdür, böyük dəyərimizdir. Təsadüfi deyildir ki, Azərbaycan bu gün dünyada milli və dini dözümlülük məsələlərində çox önəmli ölkəyə çevrilmişdir. Azərbaycan dünyada multikulturalizmin mərkəzlərindən biridir.

Eyni zamanda, ölkəmizdə bütün proseslər müsbət istiqamətdə getmişdir. Azərbaycan xalqı bu seçkilərdə son 10 il ərzində görülən işlərə öz yüksək qiymətini vermişdir. 10 il ərzində dövlətçiliyimizin əsasları möhkəmləndi. Bu gün Azərbaycan dövləti güclü, müstəqil siyasət aparan bir dövlətdir. Bizim güclü ideoloji əsaslarımız vardır. Azərbaycançılıq məfkurəsi bizim ideoloji dayağımızdır.

Azərbaycanda bütün istiqamətlərdə inkişaf, tərəqqi özünü göstərməkdədir. Biz beynəlxalq məsələlərin həllində bu gün dünya miqyasında çox önəmli ölkəyə çevrilmişik. Azərbaycan dünya birliyinin mütləq əksəriyyətinin dəstəyi ilə 2 il bundan əvvəl dünyanın ən ali orqanı olan BMT Təhlükəsizlik Şurasına üzv olmuşdur və hazırda bu təşkilata sədrlik edir.

Azərbaycanda iqtisadi sahədə çox böyük uğurlar əldə edilmişdir. Deyə bilərəm ki, son 10 il ərzində iqtisadi islahatlarla bağlı atılan addımlar və əldə edilmiş nəticələr dünya miqyasında ən ciddi nəticələrdir. Təsadüfi deyildir ki, bu nəticələr insanların gündəlik həyatında da öz əksini tapmaqdadır.

Son 10 il ərzində iqtisadiyyatımız 3,4 dəfə artmış, yoxsulluğun səviyyəsi isə təxminən 10 dəfə azalmışdır. Bu, ölkədə aparılan ciddi iqtisadi və sosial siyasətin nəticəsidir. Bu siyasətin nəticəsində Azərbaycan öz iqtisadi potensialını böyük dərəcədə möhkəmləndirə bilmişdir.

İqtisadi güc bizə imkan verir ki, öz maraqlarımızı beynəlxalq arenada da lazımi səviyyədə müdafiə edək. Azərbaycan bu gün nəinki regional, dünya problemlərinin həllində də öz rolunu oynayır və getdikcə bizim rolumuz daha da artacaqdır.

Azərbaycanda bütün istiqamətlər üzrə konkret proqramlar vardır. Böyük infrastruktur layihələri icra edilir, şəhərlərimiz abadlaşır, gözəlləşir, insanların yaşayış səviyyəsi yaxşılaşır. Dünyanın aparıcı iqtisadi qurumlarının reytinqlərinə görə, hətta dünyanı bürümüş iqtisadi və maliyyə böhranı zamanı Azərbaycan uğurla inkişaf edir. Bizim iqtisadiyyatımız son 10 il ərzində dünya miqyasında 40 ən rəqabətqabiliyyətli iqtisadiyyatların arasına daxil edilibdir. Bizim bütün təşəbbüslərimiz regional əməkdaşlığa hesablanıbdır. Azərbaycanda bütün sahələr üzrə inkişaf, tərəqqi vardır. Biz bu gün qürur hissi ilə deyə bilərik ki, Azərbaycan artıq kosmik dövlətə çevrilibdir.

Bütün bu nailiyyətlər Azərbaycan xalqının istedadı, zəhməti hesabına mümkün olmuşdur. Düşünülmüş siyasət, xalqla iqtidar arasındakı birlik və bütün təşəbbüslərimizin xalq tərəfindən

dəstəklənməsi, hesab edirəm ki, uğurlarımızın əsas şərtidir, əsas səbəbidir.

Azərbaycanda aparılan enerji siyasəti nəinki region üçün, dünya üçün çox böyük əhəmiyyətə malik olan bir məsələdir. Bu gün Azərbaycan müasir, müstəqil dövlət kimi, dünyada öz rolunu oynayır və bizim imkanlarımız getdikcə daha da genişlənəcəkdir.

Bu gün bölgədə gedən proseslərdə bizim təsir imkanlarımız kifayət qədər genişdir. Azərbaycanın razılığı olmadan bölgədə heç bir təşəbbüs – istər siyasi, istər iqtisadi – mümkün deyildir. O təşəbbüsün gələcəyi olmayacaqdır.

Bütün bunlar görülən işlərin nəticəsidir. Bütün bunlar müstəqil Azərbaycanın uğurlarıdır. Müstəqilliyimizin nə qədər böyük dəyər olduğunu Azərbaycan xalqı gündəlik həyatda görür. Biz azadıq, biz müstəqilik. Bizim taleyimiz öz əlimizdədir. Bu seçkilərdə mənə verilən səslər, hesab edirəm ki, müstəqilliyə, azadlığa, xoşbəxt gələcəyə verilən səslərdir.

Mən çox fəxr edirəm ki, son illər ərzində bütün təşəbbüslərim reallığa çevrilibdir. 10 il bundan əvvəl – 2003-cü ildə xalqa elan etmişdim və bəyan etmişdim ki, əgər mənə etimad göstərilərsə, mən Heydər Əliyev siyasətinə sadiq qalacağam. Son 10 il ərzində bu siyasətə sadiq qalaraq Azərbaycanın inkişafı, Azərbaycanın tərəqqisi üçün çox böyük işlər görülmüşdür. Müstəqilliyimiz dönməzdir, sarsılmazdır.

Bu illər ərzində müstəqil siyasətimiz istənilən sahədə özünü göstərmişdir. Biz öz milli maraqlarımızı lazımi səviyyədə müdafiə edə bilərik, müdafiə edirik, edəcəyik. Mənim üçün Azərbaycan xalqının, Azərbaycan dövlətinin maraqları ən birinci yerdədir. Bu maraqların müdafiə edilməsi üçün xalqla iqtidar arasındakı birlik əsas şərtdir. Mən bütün addımlarımda xalqın dəstəyini hiss edirdim, bu dəstəyə güvənirdim. Əgər bu dəstək olmasaydı, biz heç bir işi görə bilməzdik. Məhz xalqla iqtidar arasındakı birlik, vəhdət Azərbaycanı fərqləndirən amillərdən biridir.

Bu seçkilərdə böyük səs çoxluğu ilə mənə göstərilən etimad həm görülən işlərə verilən qiymətdir, həm də Azərbaycanın gələcək inkişafı ilə bağlı olan, xalq tərəfindən ifadə edilən niyyətdir, tələbdir.

Biz gələcəyə çox böyük ümidlərlə, böyük nikbinliklə baxırıq. 10 ilin təcrübəsi bu inamı daha da artırır. Çünki son 10 il ərzində biz istənilən sahədə çox böyük uğurlara imza atdıq. Bu gün Azərbaycan güclü, inkişafda olan, müstəqil siyasət aparan dövlət kimi, gələcəyə də çox böyük nikbinliklə baxır. Belə gələcəyə nikbinliklə baxmaq üçün kifayət qədər əsaslar vardır.

Növbəti illərlə bağlı bizim siyasətimiz açıqdır, aydındır. Mən dəfələrlə müxtəlif tədbirlərdə Azərbaycanın gələcəyi ilə bağlı öz fikirlərimi xalqla bölüşmüşəm. Görülən işlər haqqında xalqa daim hesabat verirəm. Bu gün də bildirmək istəyirəm ki, Azərbaycan bundan sonra da inamlı inkişaf yolu ilə gedəcəkdir. Azərbaycan beynəlxalq müstəvidə öz yerini möhkəmləndirəcəkdir və bütün beynəlxalq təşəbbüslər Azərbaycan xalqının maraqlarını müdafiə edəcəkdir.

Biz Azərbaycanda demokratiyanın inkişafı ilə bağlı bundan sonra da ardıcıl siyasət aparacağıq. Müasir dövlət quruculuğu prosesi bundan sonra da davam etdiriləcəkdir. Növbəti illərdə xoşagəlməz halların aradan qaldırılması üçün, xüsusilə korrupsiya və rüşvətxorluğa qarşı mübarizə daha da ciddi aparılacaqdır. Bu mübarizənin gözəl nəticələri vardır. Xalq tərəfindən bizim siyasətimiz, qətiyyətimiz, addımlarımız dəstəklənir. Sahibkarlığın inkişafı ilə bağlı siyasətimiz davam etdiriləcəkdir. Bütün istiqamətlər – yeni iş yerlərinin açılması, yoxsulluğun, işsizliyin azaldılması, idxalın əvəz olunması üzrə bizim konkret proqramlarımız vardır.

Sosial siyasətlə bağlı bu il və əvvəlki illərdə atılmış addımlar onu göstərir ki, bu məsələlərə nə qədər böyük əhəmiyyət verilir. Mən dəfələrlə bəyan etmişəm və bunu həyat və atılan addımlar da təsdiqləyir ki, Azərbaycan sosial dövlətdir. Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun

qayğıları, onun problemləri, onun təhlükəsizliyi, onun xoşbəxtliyi dayanır.

Növbəti illərdə biz bütün bu istiqamətlər – iqtisadi islahatlar, sosial siyasət, enerji siyasəti, xarici siyasət üzrə ancaq və ancaq irəliyə gedəcəyik. Biz daha da güclü Azərbaycan, daha da güclü dövlət quracağıq ki, bu dövlətdə hər bir vətəndaş özünü rahat hiss etsin, sülh, əmin-amanlıq şəraitində yaşasın. Son 10 il ərzində sabitliyin və ictimai asayişin qorunması, bax, bu reallıqları şərtləndirdi. Azərbaycanda insanlar təhlükəsizlik şəraitində yaşayır və bu bizi fərqləndirən cəhətlərdən biridir.

Bir sözlə, əziz həmvətənlər, əziz bacılar və qardaşlar! Gələcək inkişafımızla bağlı məndə və əminəm ki, sizdə heç bir şübhə yoxdur. Azərbaycan bundan sonra da inamlı inkişaf dövrünü yaşayacaqdır. Azərbaycan dövləti və mən prezident kimi, Azərbaycanın milli maraqlarını müdafiə edəcəyəm, xalqın rifahını təmin edəcəyəm.

Mən bir daha sizə son 10 il ərzində mənə göstərdiyiniz böyük dəstəyə görə minnətdarlığımı bildirmək istəyirəm. Bir daha sizi əmin etmək istəyirəm ki, var gücümlə doğma xalqımızın rifahı, dövlətimizin möhkəmləndirilməsi üçün çalışacağam. Biz birlikdə hələ böyük qələbələrə imza atacağıq.

Yaşasın müstəqil Azərbaycan Respublikası!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *10 oktyabr 2013-cü il*

## «AZƏRBAYCAN 10 İLDƏ. SOSİAL-İQTİSADİ İNKİŞAF: DÖVLƏT PROQRAMLARININ İCRASI» SƏRGİSİ İLƏ TANIŞLIQ

*Bakı Sərgi Mərkəzi*

*10 oktyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva oktyabrın 10-da Bakı Sərgi Mərkəzində «Azərbaycan 10 ildə. Sosial-iqtisadi inkişaf: dövlət proqramlarının icrası» sərgisi ilə tanış olmuşlar.*

*Son 10 ildə Azərbaycanda bütün sahələrdə böyük tərəqqi baş verib, respublikamız dünyanın ən sürətlə inkişaf edən ölkələrindən birinə çevrilib. Bu dövrdə elə bir sahə olmamışdır ki, orada islahatlar aparılmasın və inkişaf müşahidə edilməsin. 10 il ərzində Azərbaycanda ümumi daxili məhsul 3,4 dəfə, qeyri-neft sektoru isə 2,7 dəfə artıb. Ölkənin strateji valyuta ehtiyatları 30 dəfə artaraq 50 milyard dollara yaxınlaşıb. Həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində əhalinin rifah halı əhəmiyyətli dərəcədə yaxşılaşmış, gəlirləri 6,1 dəfə artmış, 1,2 milyon iş yeri açılmışdır. Bu dövrdə yoxsulluğun səviyyəsi 6 faizə, işsizliyin səviyyəsi isə 5,2 faizə qədər azalıb.*

*10 ildə ölkə iqtisadiyyatına 132 milyard dollar investisiya qoyulmuş, xarici ticarət dövriyyəsi 6,4 dəfə, qeyri-neft ixracı 4,5 dəfə artmışdır. Hazırda ümumi daxili məhsulda özəl bölmənin payı 83, məşğulluqda isə 73,9 faizdir. Bu müddətdə 19,4 min sahibkarlıq subyektinə 1,2 milyard manat məbləğində güzəştli dövlət kreditləri verilib. Bu kreditlər 113 min yeni iş yerinin açılmasına imkan yaratmışdır. 2003–2013-cü illərdə dövlət büdcəsinin gəlirləri 14,2 dəfə, vergi daxilolmaları 7,3 dəfə, dövlət büdcəsinin xərcləri 13,9 dəfə, əhalinin əmanətləri 24 dəfə, bank aktivləri isə 18 dəfə artıb.*

*Azərbaycanda bütün sahələrdə yaşanan inkişaf özünü ilk növbədə, əhalinin həyat şəraitinin yaxşılaşdırılmasında, onların sosial müdafiəsinin daha da gücləndirilməsində göstərmişdir. Bunu Bakı Sərgi Mərkəzində təşkil olunan «Azərbaycan 10 ildə. Sosial-iqtisadi inkişaf: dövlət proqramlarının icrası» sərgisi də təsdiqləyir.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva sərginin pavilyonları ilə tanış oldular.*

*Sərginin 3 pavilyonunda Azərbaycanın sənaye, energetika, informasiya-kommunikasiya texnologiyaları, kənd təsərrüfatı, sahibkarlıq, nəqliyyat, turizm, fövqəladə hallar, şəhərsalma, səhiyyə, elm və təhsil, gənclər və idman, ekologiya, su və kanalizasiya, mədəniyyət və digər sahələrdə qazandığı nailiyyətlər, regionların sosial-iqtisadi inkişafının əsas göstəriciləri nümayiş etdirilir.*

*Mərkəzi pavilyonda qurulan ekranda son 10 ildə ölkəmizdə əldə olunan uğurlar təqdim edilir. Burada makroiqtisadi göstəricilər, həyat səviyyəsi, insan inkişafı, regional layihələr, irimiqyaslı infrastruktur layihələri, sənayedə yeni sahələr, kənd təsərrüfatı, turizm, informasiya-kommunikasiya texnologiyaları, təhsil, səhiyyə, qaçqın və məcburi köçkünlərə dövlət dəstəyi, ekologiya, olimpiya hərəkatı, nüfuzlu beynəlxalq tədbirlərə ev sahibliyi, xarici siyasət sahəsindəki nailiyyətlər dinamik şəkildə qısa mesajlarla göstərilir.*

*«Makroiqtisadiyyat» bölməsində 10 ildə ölkənin maliyyə, vergi, gömrük, bank sektoru, qiymətli kağızlar bazarı, sosial müdafiə sahələrində qazanılan nailiyyətlərdən bəhs olunur. Bu bölmədə bir sıra nüfuzlu beynəlxalq təşkilatların və agentliklərin hesabatlarında Azərbaycanın mövqeyinə dair məlumatlar da yerləşdirilib.*

*Dünya Bankı və Beynəlxalq Maliyyə Korporasiyası tərəfindən hazırlanan və biznes mühitinin əlverişliliyi üzrə qiymətləndirməni özündə əks etdirən nüfuzlu «Doing Business–2009» hesabatında Azərbaycan dünyada ən islahatçı ölkə elan edilib. Azərbaycanın bu uğurunun göstəricisi olan mükafat da*

*bu salonda nümayiş etdirilir. Növbəti «Doing Business» hesabatlarında da Azərbaycan öz müsbət mövqeyini qoruyub saxlayıb.*

*«Sənaye» bölməsində ölkədə aparılan uğurlu sənayeləşmə siyasəti nəticəsində bu sahədə əldə olunan nailiyyətlər əks etdirilib. 10 ildə ölkəmizdə sənaye məhsulu istehsalı 2,8 dəfə artmışdır. Sənayenin maşınqayırma, metallurgiya, kimya, mebel, toxuculuq, qida və digər sahələrində dinamik artım baş vermişdir. Dünya iqtisadiyyatının böhranla üzləşdiyi dövrdə belə, Azərbaycan sənayesinin qeyri-neft sektorunda inkişafa nail olunmuşdur. Bundan başqa, «Sənaye» bölməsində sürətlə inkişaf edən müdafiə sənayesini xarakterizə edən diaqramlar, bu sahədə istehsal edilmiş yeni məhsullara dair fotoşəkillər də yerləşdirilib. Azərbaycanda sənayenin inkişaf istiqamətləri, eləcə də yaradılmaqda olan sənaye parkları barədə məlumatlar da bu bölmədə əks etdirilib. Sərginin bu bölməsində, həmçinin standartlaşdırma, metrologiya və patent sahələrində əldə olunan nailiyyətlərdən də bəhs edilir.*

*Sərginin «Energetika» bölməsində mühüm enerji marşrutları – Bakı–Tbilisi–Ceyhan neft, Bakı–Tbilisi–Ərzurum qaz əsas ixrac kəmərləri, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin, «Azərenerji» ASC-nin fəaliyyəti, ölkənin elektrik gücləri, elektrik və modul tipli stansiyalar, eləcə də digər mühəndis-texniki qurğular barədə geniş məlumatlar əks olunub. Bölmədəki stendlərdə Azərbaycanın karbohidrogen ehtiyatlarının xalqın maraqlarına uyğun istifadə olunmasının əsasının «Əsrin müqaviləsi»nin bağlanması ilə qoyulduğu bir daha vurğulanır. Məlum olur ki, son 10 ildə Azərbaycanın enerji təhlükəsizliyi tam təmin edilmiş və ölkəmizin Avropanın enerji təhlükəsizliyində rolu daha da artmışdır.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva sərginin «İnformasiya və kommunikasiya texnologiyaları» bölməsi ilə tanış oldular. Burada informasiya və rabitə xidmətlərinin həcminin ötən 10 ildə 7,4 dəfə artdığı, ən yeni mobil texnologiya – 4G xidmətinin istifadəyə verildiyi, MDB-də ilk dəfə olaraq bütün ölkə ərazisinin telefonlaşdırıldığı, mobil abu-*

*nəçilərin sayının 7 dəfə artdığı qeyd edilir, «Elektron hökumət»ə dair Dövlət Proqramı çərçivəsində görülən işlərdən bəhs olunur. Yaradılmaqda olan Yüksək Texnologiyalar Parkına, Azərbaycanın ilk telekommunikasiya peykinə, «İnformasiya-kommunikasiya texnologiyaları ili» çərçivəsində görülmüş işlərə, «Azərmarka»nın fəaliyyətinə, mövcud internet şəbəkələrinə və onlayn ödəniş sisteminə, eləcə də ölkəmizdə informasiya-kommunikasiya texnologiyaları məhsullarının istehsalçılarına və mobil operatorlara dair məlumatlar bölmədə nümayiş etdirilir.*

*«Nəqliyyat» bölməsindəki stendlərdə Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzinin, Milli Aviasiya Akademiyasının fəaliyyətindən bəhs olunur. 10 ildə respublika və yerli əhəmiyyətli yeni yollar çəkilmiş və ya əsaslı təmir olunmuş, 207 körpü və 17 tunel tikilmişdir. 10 ildə 4,9 kilometr uzunluğunda yeni metro xətti çəkilmiş, 3 yeni metro stansiyası istifadəyə verilmiş, regionlarda 5 beynəlxalq aeroport açılmışdır.*

*«Fövqəladə hallar, şəhərsalma və dövlət əmlakı» bölməsində nümayiş olunan müxtəlif fotoşəkillər və məlumatlarda ölkə daxilində və xaricdə baş vermiş təbii fəlakətlərin və texnogen qəzaların fəsadlarının aradan qaldırılması istiqamətində görülən işlər əks olunub. Sərginin bu bölməsində, həmçinin dövlət əmlakının idarə olunması və özəlləşdirilməsi, daşınmaz əmlaka dair hüquqların dövlət qeydiyyatı, daşınmaz əmlakın vahid dövlət kadastrı və ünvan reyestrinin aparılması barədə məlumatlar yerləşdirilib.*

*«Gənclər və idman bölməsi»ndə gənclərin idarəetmədə iştirakına, onların vətənpərvərlik və vətəndaşlıq tərbiyəsinə, intellektual inkişafına, idmandakı uğurlarımıza dair məlumatlar verilir. 10 ildə Azərbaycanın şəhər və rayonlarında çoxsaylı olimpiya idman kompleksləri istifadəyə verilib. Hazırda regionlarda 4 Olimpiya İdman Kompleksinin, Bakıda Su İdmanı Sarayının, Milli Gimnastika Arenasının, Respublika İdman Tibb Mərkəzinin və 65 min tamaşaçı tutumu olan Olimpiya stadionunun tikintisi davam etdirilir.*

*«Mədəniyyət və* turizm *bölməsində» Azərbaycanın* tarixi-*memarlıq abidələrinə, ölkəmizdə fəaliyyət göstərən* muzey *və* teatrlara, *paytaxt Bakıda və bölgələrdə fəaliyyət göstərən hotellərə, ölkəmizdə keçirilmiş beynəlxalq tədbirlərə* dair *məlumatlar əksini tapır.*

Sonra *dövlətimizin başçısı və xanımı* 2-ci *sərgi* salonunda *regionların* sosial-iqtisadi *inkişafına həsr* edilmiş pavilyonla *tanış* oldular. Burada *Naxçıvan* Muxtar Respublikası daxil olmaqla, *hər bir bölgə haqqında ümumi məlumatlar yerləşdiril-ib.* Pavilyonda 2003–2013-*cü illərdə dövlət* proqramları *çərçivəsində görülən işlər, həmçinin abadlıq*-quruculuq *tədbirləri, açılmış müəssisə və iş yerləri, istifadəyə verilmiş* sosial *obyektlər haqqında* geniş *məlumatlar əksini tapıb.* Bu *bölmədə Azərbaycan* Prezidentinin *bölgələrə səfərləri, hər* rayonun sosial-iqtisadi *inkişafının sürətləndirilməsinə* dair *sərəncamlar, eləcə də* 10 il *ərzində* iqtisadi *inkişaf,* investisiya *qoyuluşu,* infrastruktur, sahibkarlıq *mühiti, məşğulluq,* elm, *təhsil, səhiyyə, mədəniyyət,* sosial *təminat,* idman, *qaçqın və məcburi köçkünlərə qayğı sahəsində görülmüş işlər, həmçinin rayonların ümumi göstəriciləri, açılmış müəssisələr, həyata keçirilmiş* iri infrastruktur *layihələri haqqında məlumatlardan ibarət* kitablar *və videoçarxlar nümayiş* olunur.

*Sərgidə «Azərbaycan* Hava *Yolları–AZAL» Qapalı Səhmdar Cəmiyyəti ayrıca stendlə təmsil* olunur. Burada *«AZAL»ın istifadəsində* olan «Boeing» *təyyarələrinin* stendi *də nümayiş* etdirilir.

*Sərgi çərçivəsində «Heydər Əliyev* Fondu *Azərbaycanın* dinamik *inkişafına xidmət edən layihə və proqramları həyata keçirir» mövzusunda təqdimat, qapalı* zalda *isə* Fondun *layihəsi* olan *«Azərbaycan dünən və* bu *gün» filmi ayrı-ayrı* monitorlarda *nümayiş* etdirilir.

10 *ildə ölkəmizdə* 2708 *məktəb,* 500-*dən çox səhiyyə müəssisəsi tikilmiş və* ya *əsaslı təmir olunmuş, əlillər üçün* 14 *bər-pa-müalicə mərkəzi istifadəyə verilmiş, təhsil və səhiyyə* sa*həsində* bir *sıra dövlət proqramları qəbul edilmişdir. Heydər Əliyev*

*Fondunun «Yeniləşən Azərbaycana yeni məktəb» layihəsi çərçivəsində mühüm işlər görülmüş, Fondun dəstəyi ilə 312 məktəb tikilmiş və ya əsaslı təmir edilmişdir. Ölkədə bütün çadır düşərgələri ləğv olunmuş, qaçqın və məcburi köçkünlər üçün 77 müasir qəsəbə salınmış, 140 min məcburi köçkün mənzillə təmin edilmişdir.*

*«Sosial» bölmədə müxtəlif dövlət qurumları, o cümlədən İqtisadi İnkişaf Nazirliyi tərəfindən əhaliyə göstərilən elektron xidmətlərdən, «ASAN xidmət»in uğurlu fəaliyyətindən bəhs olunur. «ASAN xidmət» mərkəzləri tərəfindən 500 mindən çox vətəndaşa müxtəlif xidmətlərin göstərildiyi qeyd edilir.*

*Sərginin «Aqrar-sənaye kompleksi» bölməsində aqrar sahəyə dövlət dəstəyi tədbirləri, heyvandarlıq, quşçuluq, taxılçılıq, bağçılıq, üzümçülük sahələrində əldə edilmiş uğurlar barədə məlumat verilir. 10 ildə bitkiçilik məhsulları 3,1 dəfə, heyvandarlıq məhsulları 3,4 dəfə, ət istehsalı 1,6 dəfə, quş əti istehsalı 4,6 dəfə, yumurta istehsalı 1,8 dəfə, süd istehsalı 1,5 dəfə artmış, aqrar sektora dövlət dəstəyi davam etdirilmişdir. Bölmədə, həmçinin bir sıra məhsullar da nümayiş olunur.*

*Bu dövrdə yeni su və kanalizasiya xətləri çəkilib, su anbarları istifadəyə verilib, əhəmiyyətli meliorasiya tədbirləri həyata keçirilib. Oğuz–Qəbələ–Bakı su kəmərinin istifadəyə verilməsi Bakı şəhərinin suya tələbatını xeyli yaxşılaşdırıb.*

*Sərginin «Ekologiya» bölməsindəki stendlərdə qeyd edilir ki, 10 ildə xüsusi mühafizə olunan təbiət ərazilərinin sahəsi 478 min hektardan 893 min hektaradək artırılmış, 9 Milli park yaradılmışdır. Bu dövrdə 20 milyon ağac və kol əkilib, əhalinin ekoloji cəhətdən təmiz su ilə təminatının yaxşılaşdırılması üçün 222 yaşayış məntəqəsində modul tipli sutəmizləyici qurğular quraşdırılıb.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva açıq havada təşkil olunan sərgiyə də baxdılar.*

*Burada müxtəlif dövlət qurumları və şirkətlər tərəfindən bir sıra texnika və avadanlıqlar, eləcə də Azərbaycanda istehsal olunan məhsullar nümayiş etdirilir. Sərgidə Müdafiə Sənayesi*

*Nazirliyinin məhsulları böyük maraq doğurur. Müasir hərbi texnikaların istehsalı ilk növbədə, Azərbaycanda həyata keçirilən düşünülmüş iqtisadi siyasət nəticəsində mümkün olmuşdur. Son illərdə nazirliyin tabeliyinə verilmiş müəssisələr əsasında ölkədə ilk dəfə hərbi sənaye qurulub. Qısa müddətdə artıq hərbi təyinatlı məhsulların beynəlxalq silah sərgilərində nümayiş etdirilməsinə, Silahlı Qüvvələrin bir çox güclü silah sistemləri, texnika ilə təchiz edilməsinə nail olunmuşdur. Azərbaycan hərbi sənayesinin istehsalı olan «İstiqlal» snayper silahları hazırda dünyada bu tipli ən güclü silahlar sırasındadır. Ölkəmizin hərbi sənayesi, həmçinin «Orbiter» və «Aerostar» tipli pilotsuz kəşfiyyat təyyarələrini, 14,5 millimetrlik pulemyotla təchiz edilmiş «Matador» və «Marauder» zirehli nəqliyyat vasitələrini, 12,7 millimetrlik pulemyotla və tank əleyhinə raket kompleksi ilə təchiz olunmuş xüsusi təyinatlılar üçün «Gürzə» və «Əqrəb» tipli patrul maşınlarını, 60, 80 və 120 millimetrlik minaatanları, əl və tank pulemyotlarını, bir neçə növdə tapançaları, naviqasiya və müşahidə cihazlarını, rabitə vasitələrini, müxtəlif çaplı patronları və digər döyüş sursatlarını istehsal edir. Bundan başqa, ölkəmizdə piyadaların «BTR» döyüş və kəşfiyyat-gözətçi «BRDM» maşınlarının modernləşdirilməsi həyata keçirilir. Beləliklə, ötən 10 ildə ölkənin hərbi qüdrətinin artırılmasına imkan verən strateji sahə – müdafiə sənayesi təşəkkül tapmışdır. Azərbaycanın müdafiə sənayesi hazırda 750 adda hərbi təyinatlı məhsul istehsal edir. Bu bir daha sübut edir ki, Dağlıq Qarabağ münaqişəsini müharibə yolu ilə həll etmək üçün Azərbaycanın çox möhkəm hərbi potensialı vardır.*

*Açıq havada, həmçinin Fövqəladə Hallar Nazirliyinin suda və quruda xilasetmə, yanğınsöndürmə qabiliyyətinə malik helikopter, daşınan sutəmizləyici qurğu, radioloji maşın, mobil diaqnostik laboratoriya, müxtəlif yanğınsöndürmə texnikası, xilasedici qayıqlar və digər avadanlıqlar sərgilənir.*

*Sərgidə Gəncə və Naxçıvanda istehsal olunan yük və minik avtomobilləri, kənd təsərrüfatı texnikası da nümayiş etdirilir.*

*Burada «ASAN xidmət»in əhaliyə yerindəcə xidmət göstərməyə imkan verən və zəruri avadanlıqlarla təchiz olunan səyyar avtobus və avtomobilləri də vardır.*

*Sərginin bir hissəsində isə ölkəmizdə fəaliyyət göstərən müxtəlif tikinti şirkətləri və inşaat materialları istehsal edən müəssisələr öz məhsullarını nümayiş etdirirlər.*

*Bu sərgi bir daha sübut edir ki, Azərbaycanın hər bir bölgəsi son dövrlərdə tikinti meydançasını xatırladır və ölkədə həyata keçirilən mühüm layihələri yerli şirkətlər yerli məhsullarla reallaşdırırlar. Quruculuq siyasəti, sabitlik və inkişaf müasir Azərbaycanın simasıdır. Bütün bunlar ölkəmizin gücünü daha da möhkəmləndirir. Onillik inkişaf mərhələsi xalqımızın tarixində və taleyində mühüm nailiyyətlərlə müşayiət olundu. Bu illərdə hər bir azərbaycanlının ən ümdə arzuları reallaşdı. Beləliklə, dünyada söz və nüfuz sahibinə çevrilən Azərbaycan öz iqtisadi inkişaf tempi ilə indi dünyanın diqqət mərkəzindədir. Beynəlxalq miqyasda iqtisadi və siyasi güc mərkəzinə çevrilən Azərbaycanın iştirakı olmadan bu gün regionda irimiqyaslı layihələri həyata keçirmək sadəcə, mümkün deyildir.*

## MDB-nin MÜŞAHİDƏ MİSSİYASININ RƏHBƏRİ SERGEY LEBEDEVİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*10 oktyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 10-da MDB-nin müşahidə missiyasının rəhbəri, MDB İcraiyyə Komitəsinin sədri–icraçı katib Sergey Lebedevin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Sergey Lebedev rəhbərlik etdiyi müşahidə missiyasının adından dövlətimizin başçısını prezident seçkilərində böyük səs çoxluğu ilə əldə etdiyi inamlı qələbə münasibətilə ürəkdən təbrik etdi. Seçki günü yerli müşahidəçilər və seçicilərlə səsvermənin gedişi ilə bağlı yaxından maraqlandıqlarını vurğulayan Sergey Lebedev onların birmənalı olaraq sabitliyə və inkişafa səs verəcəkləri ilə bağlı fikirlərinin şahidi olduqlarını dedi. Səsvermənin nəticələrinə toxunan qonaq bildirdi ki, nəticələr Azərbaycan xalqının öz liderinə arxalandığını və görülən işlərin perspektivlərinə inandığını göstərdi. Sergey Lebedev prezident İlham Əliyevin həyata keçirdiyi kursun Azərbaycanın beynəlxalq aləmdə, o cümlədən MDB-də nüfuzunun daha da möhkəmləndirilməsi və eyni zamanda, Birlik ölkələri ilə səmimi qonşuluq, iqtisadi, humanitar əməkdaşlıq əlaqələrinin genişləndirilməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu bildirdi.*

*Dövlətimizin başçısı ölkəmizdə keçirilən prezident seçkilərində müşahidəçi kimi iştirak etdiklərinə görə MDB-nin müşahidə missiyasının rəhbəri, MDB İcraiyyə Komitəsinin sədri–icraçı katib Sergey Lebedevə və missiyanın üzvlərinə təşəkkürünü bildirdi.*

*Prezident İlham Əliyev seçkilərin şəffaf keçirilməsi üçün maksimum şəraitin yaradılması istiqamətində lazımi işlərin görüldüyünü və seçki prosesinin demokratik şəraitdə keçdiyini dedi.*

*Dövlətimizin başçısı Azərbaycan xalqının ölkədə həyata keçirilən siyasətin nəticələrinə səs verdiklərini vurğuladı və ölkəmizin inkişafı ilə bağlı uğurlu nəticələrə əsaslanan bu siyasətin bundan sonra da davam etdiriləcəyinə əminliyini ifadə etdi.*

## TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN ÖLKƏMİZDƏ KEÇİRİLƏN PREZİDENT SEÇKİLƏRİNDƏ MÜŞAHİDƏÇİ KİMİ İŞTİRAK EDƏN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*10 oktyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 10-da Türkiyə Böyük Millət Məclisinin ölkəmizdə keçirilən prezident seçkilərində müşahidəçi kimi iştirak edən nümayəndə heyətini qəbul etmişdir.*

*Türkiyə Böyük Millət Məclisinin deputatı Haluk İpək başçılıq etdiyi nümayəndə heyəti adından dövlətimizin başçısını prezident seçkilərində əldə etdiyi böyük qələbə münasibətilə təbrik etdi. O, prezident seçkiləri ilə bağlı ölkəmizin müxtəlif bölgələrində olduqlarını, seçicilərin, xüsusilə gənclərin yüksək fəallıq göstərdiklərini dedi. Haluk İpək müşahidə missiyasının tərkibində Ədalət və İnkişaf Partiyası ilə yanaşı, Cümhuriyyət Xalq və Milliyyətçi Hərəkat partiyalarını Türkiyə Böyük Millət Məclisində təmsil edən millət vəkillərinin olduğunu da dedi. 2003-cü il seçkilərində də iştirak etdiklərini xatırladan türkiyəli qonaq hər seçkidən sonra Azərbaycanda böyük inkişafın şahidi olduqlarını məmnunluq hissi ilə qeyd etdi. Seçkilərin ölkəsinin Prezidenti, Baş naziri və Türkiyə xalqı tərəfindən maraqla izlənildiyini deyən Haluk İpək bu seçkilərin Azərbaycana böyük uğurlar gətirməsini arzu etdi.*

*Dövlətimizin başçısı ölkələrimiz arasında mövcud olan tarixi dostluq-qardaşlıq münasibətlərinin bugünkü Türkiyə–Azərbaycan əlaqələrinin inkişafı üçün möhkəm təməl olduğunu vurğuladı. Türkiyə–Azərbaycan birliyinin bu gün beynəlxalq aləmdə mühüm amil olduğunu qeyd edən prezident İlham Əliyev ölkələrimiz arasında əlaqələrin uğurlu inkişafından məmnunluğunu ifadə etdi. Ölkəmizdə keçirilən prezident seçkilərinə*

toxunan dövlətimizin başçısı seçkilərin nəticələrini son illər Azərbaycanda görülən işlərə xalqın verdiyi qiymət və gələcək inkişafla bağlı arzularının ifadəsi kimi dəyərləndirdi. Dövlətimizin başçısı Azərbaycan–Türkiyə ikitərəfli münasibətlərinin bütün sahələrdə inkişafının bundan sonra da davam etdiriləcəyinə əminliyini bildirdi.

## PAKİSTAN SENATININ SƏDR MÜAVİNİ SABİR ƏLİ BƏLUCUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*10 oktyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 10-da Pakistan İslam Respublikası Senatının Sədr müavini Sabir Əli Bəlucun başçılıq* etdiyi *Pakistan Senatı və Milli Assambleyası üzvlərindən ibarət nümayəndə heyətini qəbul etmişdir.*

*Pakistan İslam Respublikası Senatının Sədr müavini Sabir Əli Bəluc başçılıq* etdiyi *nümayəndə heyəti adından dövlətimizin başçısını prezident seçkilərində əldə* etdiyi *inamlı qələbə münasibətilə təbrik* etdi. *Ölkəmizdə seçkilərin* azad, demokratik *və şəffaf şəraitdə keçirildiyinin şahidi olduqlarını deyən pakistanlı* qonaq *Azərbaycanda mövcud* olan sabitlik *və əmin-amanlığı yüksək qiymətləndirdi. Sabir Əli Bəluc ölkəsinin Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycanın ədalətli mövqeyini dəstəklədiyini bir daha vurğuladı.*

*Dövlətimizin başçısı Azərbaycan Respublikası ilə* Pakistan *İslam Respublikası arasında* dostluq *və qardaşlıq əlaqələrinin uğurlu inkişafından məmnunluğunu* bildirdi. *Pakistanın Azərbaycanın yaxın müttəfiqlərindən* biri olduğunu *vurğulayan dövlətimizin başçısı ölkələrimiz arasında* dostluq *və tərəfdaşlıq əlaqələrinin qarşıdakı illərdə də inkişaf edəcəyinə əminliyini ifadə* etdi. *Prezident İlham Əliyev ölkələrimizin bütün beynəlxalq təşkilatlarda* bir-birini *dəstəkləmələrinin önəmini qeyd etdi.*

## ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT

*10 oktyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva oktyabrın 10-da Fəxri xiyabana gələrək, ulu öndər Heydər Əliyevin xatirəsini anmış, məzarı önünə gül dəstələri qoymuşlar.*

*Həmçinin, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üstünə gül qoymuş, xatirəsini anmışlar.*

## QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Hörmətli həmvətənlər!

Sizi dünya müsəlmanlarının birlik, həmrəylik və qardaşlıq rəmzi olan müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edir, xalqımıza və Azərbaycanın hüdudlarından kənarda yaşayan bütün soydaşlarımıza ən səmimi arzu və diləklərimi yetirirəm.

Qurban bayramı bəşər sivilizasiyasının möhtəşəm səhifəsini təşkil edən islamın bir din kimi tamamlanmasını və mənəvi-əxlaqi qurtuluş yolu olaraq yer üzünə göndərilməsini özündə təcəssüm etdirir. Bu əlamətdar gündə müsəlmanlar qurban ayinlərini icra etməklə, xeyirxah amallar uğrunda hər cür fədakarlığa hazır olmanın və uca Yaradana yaxınlığın sevinc və fərəhini yaşayırlar.

Hər il ölkəmizdə dövlət səviyyəsində ümumxalq bayramı kimi qeyd olunan Qurban mərasimləri insanlar arasında bərabərlik və dözümlülük ovqatını daha da gücləndirir, cəmiyyətimizdə milli-mənəvi dəyərlərə bağlılığın, humanizm və qardaşlığın, xeyirxahlıq və mərhəmət duyğularının təntənəsinə çevrilir.

Əziz bacı və qardaşlarım!

Bu mübarək bayram günlərində xalqımızın və dövlətimizin əmin-amanlığı naminə etdiyiniz duaların, kəsdiyiniz qurbanların Tanrı dərgahında qəbul olunması diləyi ilə bir daha hər birinizə bayram təbriklərimi yetirir, ailələrinizə xoşbəxtlik, süfrələrinizə bol ruzi-bərəkət arzulayıram.

Qurban bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *12 oktyabr 2013-cü il*

## NEFTÇİLƏR PROSPEKTİNDƏ VƏ HÖKUMƏT EVİNİN QARŞISINDAKI ƏRAZİDƏ İSTİFADƏYƏ VERİLMİŞ İKİMƏRTƏBƏLİ YERALTI AVTOMOBİL DAYANACAĞINDA YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*14 oktyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 14-də Bakının Neftçilər prospektində və Hökumət evinin qarşısındakı ərazidə istifadəyə verilmiş ikimərtəbəli yeraltı avtomobil dayanacağında yaradılan şəraitlə tanış olmuşdur.*

*Dövlətimizin başçısının tapşırıqlarına uyğun olaraq Bakı şəhərinin infrastrukturunun təkmilləşdirilməsi və müasirləşdirilməsi istiqamətində məqsədyönlü tədbirlər ardıcıl olaraq davam etdirilir. Paytaxtın yol infrastrukturu tamamilə yenidən qurulur, müasir körpülər və yolötürücüləri, yeraltı və yerüstü piyada keçidləri inşa olunur, yeni parklar və xiyabanlar salınır, şəhərdə nəqliyyatın hərəkətinin intensivliyinin təmin olunması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir.*

*Dənizkənarı Milli Parkın yenidən qurulması və müasirləşdirilməsi paytaxt sakinlərinin və şəhərimizin qonaqlarının bu istirahət guşəsinə marağını artırmışdır. Burada keçirilən maraqlı tədbirləri izləmək və istirahət etmək üçün avtomobillərlə gələnlərin sayının artması bulvaryanı ərazilərdə tıxaclar və piyadalar üçün təhlükə yaradırdı. Dövlətimizin başçısı bütün bunların aradan qaldırılması üçün paytaxtın Neftçilər prospektində, Hökumət evinin qarşısındakı ərazidə ikimərtəbəli yeraltı avtomobil dayanacağının tikilməsi ilə bağlı göstəriş vermişdir. Hər mərtəbəsi 30 min kvadratmetr və ya 2 min avtomobil tutumuna malik olan yeraltı dayanacağın inşasına*

2012-ci ildə başlanılmışdır. Ötən dövr ərzində dövlətimizin başçısı mütəmadi olaraq burada həyata keçirilən inşaat prosesinin gedişi ilə maraqlanır, tikinti işlərinin ən yüksək standartlara uyğun şəkildə icra olunması ilə bağlı vaxtaşırı tapşırıqlarını verirdi. İnşaat işləri qısa vaxt ərzində ən müasir standartlara uyğun şəkildə başa çatdırılmışdır.

Prezident İlham Əliyev yeni yeraltı avtomobil dayanacağı ilə tanış oldu. Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov görülən işlər barədə dövlətimizin başçısına məlumat verdi. Bildirildi ki, yeraltı avtomobil dayanacağı ən müasir avadanlıq və sistemlərlə təchiz olunub. Burada dünyanın ən son texniki nailiyyətlərindən olan havalandırma, yanğın və təhlükəsizlik sistemləri müasir standartlara uyğun şəkildə tətbiq edilib. Təhlükəsizliyin təmin edilməsi məqsədilə hər mərtəbədə təhlükəsizlik kameraları və müşahidə monitorları quraşdırılıb. Dayanacaqda avtomobillər üçün iki giriş və 2 çıxış vardır. Piyadalar üçün isə 6 keçid inşa olunub. Keçidlərdə bütün iqlim şəraitində işləyən müasir eskalatorlar quraşdırılıb. Dayanacaqda bütün sistemlər avtomatik olaraq fəaliyyət göstərir. Dayanacağın giriş və çıxışlarında su tutumları, müasir tələblərə cavab verən drenaj sistemləri, yağıntının normadan artıq olması nəzərə alınaraq əlavə su nasosları quraşdırılıb. Burada işçilər üçün xüsusi otaqlar yaradılıb.

Dövlətimizin başçısı yeraltı avtomobil dayanacağında yaradılan şəraitdən razılığını bildirdi.

# BAKININ XƏTAİ RAYONUNDA 1 SAYLI ÇÖRƏK ZAVODUNUN İSTİFADƏYƏ VERİLMƏSİ MƏRASİMİ

*18 oktyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 18-də Bakının Xətai rayonu ərazisində «Gilan Holdinq» Məhdud Məsuliyyətli Cəmiyyətinin 1 saylı Çörək zavodunun açılışında iştirak etmişdir.*

*Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu sosial-iqtisadi inkişaf strategiyasının prezident İlham Əliyev tərəfindən inamla və böyük uğurla davam etdirilməsi nəticəsində ölkəmiz bütün sahələrdə sürətlə inkişaf etmişdir. İqtisadiyyatın neft sektoru ilə bərabər, qeyri-neft sahələrinin də davamlı inkişafına nail olunmuşdur. Prezident İlham Əliyevin ərzaq təhlükəsizliyinin təmin olunmasına yönəlmiş siyasəti nəticəsində hazırda ölkəmiz bir çox sahələrdə daxili tələbatın təmin edilməsi istiqamətində böyük uğurlar əldə etmişdir. Bu gün ət, süd məhsulları, bitki yağları, şəkər və digər əsas ərzaq məhsullarına olan tələbatın 95 faizini Azərbaycan özü ödəyir.*

*Azərbaycan prezidenti İlham Əliyev ölkənin taxıla olan tələbatını da tam yerli istehsal hesabına ödəmək vəzifəsini qarşıya qoymuşdur. Bu vəzifəyə uyğun olaraq taxılçılığın inkişaf etdirilməsi üçün böyük fermer təsərrüfatlarının yaradılması istiqamətində mühüm işlər görülür. Beynəlxalq mütəxəssislərin fikrincə, Azərbaycanda ərzaq təhlükəsizliyi göstəriciləri ötən 10 ildə xeyli yaxşılaşmışdır. Aqrar sektorun inkişafı, əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsi «Azərbaycan–2020: gələcəyə baxış» inkişaf konsepsiyasında da əsas istiqamətlərdən biri kimi nəzərdə tutulur.*

*Qeyri-neft sektorunun inkişaf etdirilməsinə xüsusi diqqət göstərən prezident İlham Əliyev ərzaq təhlükəsizliyinin təmin olunması istiqamətində sahibkarlıq subyektlərinin fəaliyyətinə*

*böyük önəm verir. Dövlətin iqtisadi siyasətinin başlıca istiqamətlərindən biri kimi, məhz özəl sektorun hərtərəfli dəstəklənməsi, onun daha da genişlənməsi üçün əlverişli mühitin yaradılması, bu sahədə müxtəlif yardım və təşviq mexanizmlərinin tətbiq edilməsi əsas götürülür. Dövlət tərəfindən ayrılan kreditlər və Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə görülən işlər də sahibkarlığın inkişafına çox böyük dəstəkdir.*

*Azərbaycanda həyata keçirilən iqtisadi siyasətin əsasında insan amili dayanır. Bu siyasətə uyğun olaraq, əhalinin keyfiyyətli və təhlükəsiz qida məhsulları ilə təminatına xüsusi önəm verilir. Heç şübhəsiz ki, bu istiqamətdə keyfiyyətli çörək və çörək məmulatları istehsalı ən əhəmiyyətli sahələrdəndir. Son illərdə ölkəmizdə digər sahələrdə olduğu kimi, çörəkbişirmə sənayesinin inkişafına xüsusi diqqət və qayğı göstərilir. Dövlətimizin başçısının tapşırığına uyğun olaraq, bu sahədə ən müasir texnologiya və avadanlıqlar tətbiq edilir. Müasir və qabaqcıl texnologiyaların tətbiqi çörəkbişirmə sənayesində maya dəyərinin aşağı düşməsinə, yüksək keyfiyyətin, çoxçeşidliliyin təmin olunmasına imkan yaradır. Bu məqsədlə Sahibkarlığa Kömək Milli Fondu tərəfindən ümumi dəyəri 108,2 milyon manat, gündəlik istehsal gücü 721 ton olan 25 çörək zavodunun tikintisinə, ən müasir texnologiya və avadanlıqlarla təchiz edilməsinə 38,1 milyon manat güzəştli kredit verilmişdir. Türkiyə, Almaniya, Çexiya və digər ölkələrin müasir texnologiya və avadanlıqları əsasında qurulmuş gündəlik istehsal gücü 638 tonadək olan 18 çörək zavodu artıq istifadəyə verilmişdir. Bu yaxınlarda Bakı və Sumqayıt şəhərlərində ən müasir texnologiyaların tətbiqinə əsaslanan belə iri çörək zavodlarının fəaliyyətə başlaması bu şəhərlərdə istehlakçıların 70–75 faizini yüksək keyfiyyətli, müxtəlif çeşiddə çörək və çörək məmulatları ilə təmin etməyə imkan yaratmışdır.*

*Yeni istifadəyə verilən 1 saylı Çörək zavodu ilə tanışlıq zamanı prezident İlham Əliyevin diqqətinə çatdırıldı ki, Xətai rayonunun Əhmədli qəsəbəsində yerləşən, ən müasir standartlar səviyyəsində qurulan müəssisənin ümumi sahəsi 3 hektara yaxındır. Ümumi dəyəri 48,7 milyon manat olan layihənin*

həyata keçirilməsinə İqtisadi İnkişaf Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 10 milyon manat güzəştli kredit ayrılıb. Zavodun tikintisinə 2012-ci ildə başlanılmışdır. İnşaat işləri yüksək səviyyədə başa çatdırılıb.

Prezident İlham Əliyev Çörək zavodunu işə saldı.

Respublika əhəmiyyətli belə böyük obyektlərin istifadəyə verilməsi ilk növbədə, vətəndaşların keyfiyyətli ərzaq məhsulları ilə təmin edilməsi istiqamətində atılan vacib addımlardandır. Bu zavodun yaradılması həm də ölkədə özəl sektorun inkişafına göstərilən qayğının əyani təsdiqidir. Ərzaq təhlükəsizliyinin və əhalinin keyfiyyətli çörək məhsulları ilə təmin edilməsi üçün zavod Almaniyanın ən son texnologiyası əsasında qurulub.

Bildirildi ki, müəssisədə 5 çörək istehsalı xətti, qablaşdırma xətləri, xammalın daşınması və avtomatik bölgüsü olan anbar sistemləri quraşdırılıb. Burada 50-dək çeşiddə çörək və çörək-bulka məmulatları istehsal olunur. Gələcəkdə məhsul növlərinin artırılması planlaşdırılır. Gündəlik məhsul buraxılışı gücü 168 ton olan Çörək zavodunda istehsal prosesi tam avtomatlaşdırılıb. Xüsusi nəqliyyat vasitələri ilə un zavoda gətirilərək burada quraşdırılan və hər birinin tutumu 40 ton olan 7 anbara boşaldılır. Un metal detektorlardan keçdikdən sonra çəki stansiyalarına ötürülür. Müəssisədə istehsal prosesi tam avtomatlaşdırılıb. Reseptlərə uyğun olaraq tərkiblər xəmir çənlərinə avtomatik tökülür və mikserlə yoğurulur. Zavoddakı bütün xəmir çənləri çiplərlə təchiz olunub. Bu da işin rahat aparılmasına kömək edir. İstehsalda çəkiyə avtomatik nəzarət qaydaları tətbiq olunur. Çörəyin növündən asılı olaraq acıtma müddəti, temperatur və rütubət avtomatik müəyyən olunur. Hər növ çörəyin göstəriciləri fərqlidir. Bişirmə prosesi yüksək keyfiyyətli Avropa standartlarına uyğun sobalarda həyata keçirilir. Çörəyin bişmə prosesini sobanın üzərində yerləşən xüsusi pəncərələrdən izləmək olur. Hər bir sobanın çıxışı videosayğacla təchiz olunub. Çörək bişdikdən sonra soyutma mərhələsinə keçir. Zavodda istehsal olunan çörəklər növündən asılı olaraq, burada quraşdırılan xüsusi soyutma xətti vasitəsilə 60–180 dəqiqə ərzində soyudularaq bütöv və ya

*doğranmış formada qablaşdırılır. Bu da məhsulun istifadə müddətini 48 saatadək artırır. Qablaşdırılan məhsullar qutulara yığılaraq satış anbarına ötürülür. İstifadə olunan qutular avtomatik yuyularaq qurudulur və yenidən istehsal xəttinə yönəldilir.*

*Diqqətə çatdırıldı ki, istehsal prosesində istifadə olunan su bir neçə mərhələdə süzgəcdən keçirilir. Su, un, duz, şəkər, maya və digər xammal zavodda quraşdırılan xüsusi laboratoriyada yoxlanılır və yalnız bundan sonra istehsala buraxılır. Həmçinin istehsalın hər bir mərhələsinə ayrı-ayrılıqda nəzarət sistemi tətbiq olunur. Bütün bunlar da sanitar-gigiyenik normalara əməl olunmaqla, yüksək keyfiyyət standartlarına cavab verən çörək və çörək-bulka məmulatlarının istehsalına şərait yaradır.Qeyd olundu ki, çörəkbişirmə xətlərində tətbiq edilən elektron müşahidə və keyfiyyətə nəzarət sistemi istehsalın müxtəlif mərhələlərində standartlara uyğun gəlməyən çörəyin müəyyən edilməsinə və xətdən dərhal çıxarılmasına imkan verir. İstehsal olunan bütün məhsullar qablaşdırıldıqdan sonra üzərində istehsal tarixi, istifadə müddəti və istehsal olunan partiya nömrəsi qeyd edilir. Buradakı müasir texnologiyanın tətbiqi enerji məsrəflərinin azalmasına və məhsulun maya dəyərinin aşağı olmasına səbəb olur.*

*Prezident İlham Əliyev «Gilan Holdinq»in müəssisələrində istehsal olunan məhsulların və 1 saylı Çörək zavodunda hazırlanan çörək və çörək-bulka məmulatlarının nümunələrinə baxdı. Qeyd olundu ki, müəssisənin məhsulları «Nömrə 1» brendi altında satışa çıxarılacaqdır. Zavodun müasir texnologiyalar əsasında yaradılması və istehsal prosesinin müvafiq normalara uyğun aparılması ərzaq təhlükəsizliyinin və əhalinin yüksək keyfiyyət standartlarına cavab verən çörək məhsulları ilə təmin edilməsinə şərait yaradır. Zavodda istehsal olunan məhsulların Bakı şəhəri və ətraf qəsəbələrdən olan istehlakçılara çatdırılması üçün hər biri 3 tonluq 30 xüsusi nəqliyyat vasitəsi alınıb. Burada inşa olunan inzibati bina, yeməkxana və digər yardımçı binalarda işçilər üçün hər cür şərait yaradılıb. Zavodda üçnövbəli iş rejimi tətbiq edilməklə, ümumilikdə 420-dək yeni iş yeri yaradılıb.*

## ƏHMƏDLİ YAŞAYIŞ MASSİVİNDƏKİ RAHİB MƏMMƏDOV KÜÇƏSİNDƏ YENİDƏN QURULAN PARKDA YARADILMIŞ ŞƏRAİTLƏ TANIŞLIQ

*18 oktyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 18-də Bakının Xətai rayonunun Əhmədli yaşayış massivindəki Rahib Məmmədov küçəsində yenidən qurulan parkda yaradılmış şəraitlə tanış olmuşdur.*

*Paytaxtın digər rayonları kimi, Xətai rayonunda da mühüm sosial infrastruktur layihələri həyata keçirilir. Rayonun inkişaf etdirilməsi istiqamətində atılan addımlar, həyata keçirilən uğurlu layihələr paytaxtın mənzərəsini daha da gözəlləşdirir. Təbii ki, vətəndaşlarımızın rifahını, onların rahatlığını hər zaman diqqət mərkəzində saxlayan dövlətimizin həyata keçirdiyi məqsədyönlü siyasəti nəticəsində hazırda paytaxtda park və xiyabanların salınmasına ciddi fikir verilir. Bu işlər zövqlə, yüksək peşəkarlıqla yerinə yetirilir.*

*Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, Bakının inkişafı ilə bağlı icra olunan layihələr şəhər həyatının ayrılmaz parçasına çevrilir. Şübhəsiz ki, paytaxtın gözəlliyinə yeni salınan və əsaslı təmir edilən parklar öz töhfəsini verir. Əhmədli yaşayış massivindəki Rahib Məmmədov küçəsində yenidən qurulan park da bu sahədə həyata keçirilən işlərin tərkib hissəsidir.*

*Xətai Rayon İcra Hakimiyyətinin başçısı Razim Məmmədov prezident İlham Əliyevə məlumat verdi ki, əhalinin sıx yaşadığı bu ərazidə sakinlərin istirahətinin təşkili məqsədi ilə geniş imkanlara malik istirahət zonası yaradılıb. Ərazisi 1,8 hektar olan istirahət mərkəzində müasir üslubda fəvvarələr kompleksi qurulub və diametri 20 metr olan musiqili fəvvarə yaradılıb. Müasir işıqlandırma sistemi ilə təchiz edilən fəvvarə müxtəlif rəng*

*çalarlarına malikdir. Burada quraşdırılan şəlalə parka xüsusi gözəllik verir. Parkda monitor da quraşdırılıb.*

*Parkda uşaqlar üçün əyləncə kompleksi yaradılıb. Buradakı ana və uşaq kafesi, əyləncə sahəsi, müxtəlif attraksionlar və sürüşkənlər balacaların istirahətinin maraqlı və yaddaqalan olmasına imkan verəcəkdir. 1000 kvadratmetrlik kompleks paytaxt parklarının içərisində ən böyük əyləncə mərkəzlərindən biridir. Bununla yanaşı, rayonun florasının zənginləşdirilməsi məqsədi ilə 7 min kvadratmetr ərazidə yaşıllıq salınıb. İstirahət məkanında dekorativ ağac və gül kolları əkilib və avtomatik suvarma sistemi qurulub. Park boyu bütün binalar müasir, zövqoxşayan forma və üslubda bərpa edilib, fasadları yenilənib.*

*Aparılan quruculuq və abadlıq işləri, yeni park və xiyabanların salınması sayəsində bu gün paytaxtımız yeni görkəm alır və dünyanın ən gözəl şəhərləri sırasında öz yerini daha da möhkəmləndirir. Bakının inkişafı ilə bağlı həyata keçirilən tədbirlər hər gün paytaxtın gözəlliyini daha da artırır. Doğma Bakımızın simasına xüsusi yaraşıq verən bu parklar ölkəmizdə aparılan geniş abadlıq-quruculuq işlərinin daha bir nümunəsidir.*

## YENİDƏN AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ SEÇİLMİŞ İLHAM ƏLİYEVİN ANDİÇMƏ MƏRASİMİ

*Milli Məclis*

*19 oktyabr 2013-cü il*

*Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilmiş İlham Əliyevin oktyabrın 19-da Milli Məclisdə andiçmə mərasimi keçirilmişdir.*

*Mərasimdə Azərbaycanın dövlət rəsmiləri, hökumət üzvləri, Milli Məclisin deputatları və Prezidentin ailə üzvləri iştirak etdilər.*

*2013-cü il oktyabrın 9-da Azərbaycanda keçirilən prezident seçkiləri ölkəmizin tarixinə mühüm hadisə kimi düşmüşdür. Ölkə vətəndaşlarının səsvermədəki fəallığı seçkiləri müşahidə edən xarici ekspertlərin diqqətindən yayınmadı. Müşahidəçilərin hamısı bu amili yüksək qiymətləndirərək son illərdə ölkəmizdə demokratik proseslərin uğurla getdiyini, prezident seçkilərinin azad və şəffaf keçirildiyini bildirdilər.*

*Azərbaycan vətəndaşları yenidən öz səslərini İlham Əliyevə verdilər. Seçicilərin böyük əksəriyyətinin səs çoxluğu ilə qalib gələn İlham Əliyev növbəti 5 il müddətinə prezident seçildi. Əslində Azərbaycan xalqı son 10 ildə qazanılan böyük nailiyyətlərə, sürətli inkişafa və qazanılan uğurların davam etdirilməsinə səs verdi. Çünki son 10 ildə Azərbaycan dövlətinin siyasi və iqtisadi müstəqilliyi daha da möhkəmləndi, ölkəmizin dünyadakı nüfuzu artdı. Dövlətimizin başçısının uğurlu fəaliyyət modeli bütün dünyanın qabaqcıl ölkələri tərəfindən qəbul olundu. Prezident İlham Əliyev görkəmli dövlət xadimi kimi, beynəlxalq miqyasda böyük nüfuz qazandı. Prezident İlham*

*Əliyevin rəhbərliyi ilə Azərbaycan regionun lider dövlətinə çevrildi. Həyata keçirilən qlobal və regional layihələr ölkəmizin dünyaya inteqrasiyasını sürətləndirdi. Güclü xalq, güclü dövlət, güclü lider vəhdəti son 10 ildə müstəqil Azərbaycanın devizinə çevrildi. Prezident İlham Əliyevin həyata keçirdiyi inkişaf konsepsiyasını hər bir azərbaycanlı öz həyatında hiss etməyə başladı. Çünki onun müəyyənləşdirdiyi dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanır.*

*Ümumxalq səsverməsi ilə Azərbaycan Respublikasının Prezidenti seçilmiş İlham Heydər oğlu Əliyevin andiçmə mərasimi açıq elan olundu.*

*Mərasim iştirakçıları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi hərarətlə və sürəkli alqışlarla qarşıladılar.*

*Silahlı Qüvvələrin əsgərləri Azərbaycan Respublikasının Dövlət bayrağını və Azərbaycan Respublikası Prezidentinin ştandartını (bayrağını) təntənəli marşın sədaları altında səhnəyə gətirdilər.*

*Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Sədri Fərhad Abdullayev və Konstitusiya Məhkəməsinin hakimləri səhnəyə dəvət olundular.*

**Fərhad Abdullayev** (*Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Sədri*): Hörmətli xanımlar və cənablar!

Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi 2013-cü il 19 oktyabr tarixli Qərarı ilə Azərbaycan Respublikası Prezidenti seçkilərinin yekunlarına dair Mərkəzi Seçki Komissiyasının nəticələrini təsdiq edərək, cənab İlham Heydər oğlu Əliyevi Azərbaycan Respublikasının Prezidenti elan etmişdir.

Azərbaycan Respublikasının Prezidenti seçilmiş cənab İlham Heydər oğlu Əliyev Azərbaycan Respublikası Konstitusiyasının 103-cü maddəsinə uyğun olaraq, Konstitusiya Məhkəməsi hakimlərinin iştirakı ilə and içməyə dəvət olunur.

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev əlini Azərbaycan Respublikasının Konstitusiyasının üzərinə qoyaraq and içdi:*

– Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirərkən Azərbaycan Respublikasının Konstitusiyasına əməl edəcəyimə, dövlətin müstəqilliyini və ərazi bütövlüyünü qoruyacağıma, xalqa ləyaqətlə xidmət edəcəyimə and içirəm!

*Azərbaycan Respublikasının Dövlət himni səsləndi.*

*Sonra Azərbaycan Respublikasının Prezidenti müqəddəs Qurani-Şərifə əl basaraq and içdi:*

– Əlimi Qurani-Şərifə basaraq and içirəm: Azərbaycan xalqının əsrlər boyu yaratdığı milli-mənəvi dəyərlərə və ənənələrə sadiq qalacağam, onları daim uca tutacağam.

*Prezident İlham Əliyev təzim edərək Azərbaycanın Dövlət bayrağını öpdü.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev andiçmə mərasimində geniş nitq söylədi.*

*Azərbaycan Respublikasının Dövlət bayrağı və Azərbaycan Respublikası Prezidentinin ştandartı (bayrağı) səhnədən aparıldı.*

*Bununla da andiçmə mərasimi başa çatdı.*

## ANDİÇMƏ MƏRASİMİNDƏ NİTQ

Hörmətli xanımlar və cənablar!

İlk növbədə, mənə yenidən böyük etimad göstərmiş, prezident vəzifəsinə seçmiş doğma Azərbaycan xalqına dərin minnətdarlığımı bildirirəm. Azərbaycan xalqını əmin etmək istəyirəm ki, mən bundan sonra da ölkəmizin hərtərəfli inkişafı, xalqımızın rifahı üçün əlimdən gələni əsirgəməyəcəyəm, doğma xalqımıza bundan sonra da sədaqətlə xidmət edəcəyəm.

Dünən Azərbaycanda Dövlət Müstəqilliyi Günü qeyd edildi. Hesab edirəm ki, prezident seçkiləri, seçkilərin nəticələri dövlət müstəqilliyinə xalq tərəfindən verilən növbəti qiymətdir. Prezident seçkiləri Azərbaycan xalqının iradəsini tam şəkildə əks etdirmişdir. Seçkilər şəffaf, ədalətli, azad şəkildə keçirilmişdir və seçkilərin nəticələri Azərbaycan xalqının iradəsini əks etdirir. Beləliklə, Azərbaycan xalqı son 10 il ərzində görülmüş işlərə öz yüksək qiymətini vermişdir.

10 il bundan əvvəl birinci dəfə prezident vəzifəsinə seçiləndə söz vermişdim ki, əgər xalq mənə etimad göstərərsə, mən ulu öndər Heydər Əliyev siyasətinə sadiq qalacağam. Şadam ki, 10 il ərzində qarşıda duran bütün vəzifələr uğurla icra edildi. Hesab edirəm ki, prezident seçkilərində Azərbaycan xalqının mütləq əksəriyyətinin öz səsini bu siyasətə verməsi bir daha onu göstərdi ki, son 10 ildə verilən bütün vədlər icra edildi. Azərbaycan xalqı görülmüş işlərə öz qiymətini, öz səsini verdi. Bu səsvermədə gələcəklə bağlı öz fikirlərini, arzularını ifadə etdi.

Əminəm, Azərbaycan xalqında qəti inam vardır ki, Azərbaycan bundan sonra da yalnız və yalnız inkişaf yolu ilə gedəcəkdir. Çünki son 10 ilin tarixi bunu deməyə əsas verir. 10 ildə Azərbaycanda sabitlik qorundu. Biz Müstəqillik Gününü qeyd edərkən bir daha müstəqilliyimizin ilk illərinə qayıdırıq və

görürük ki, sabitlik pozulduqda heç bir inkişafdan söhbət gedə bilməz.

Əfsuslar olsun ki, müstəqilliyimizin ilk illəri çox ağır keçmişdi, Azərbaycan böyük fəlakətlərlə üzləşmişdi. Demək olar ki, gənc müstəqil dövlət uçurum kənarında idi. Heydər Əliyev siyasəti, onun qətiyyəti, xalqın ona olan inamı bu ağır vəziyyətdən xalqımızı, dövlətimizi çıxara bilmişdir və ondan sonra Azərbaycan inkişaf yoluna qədəm qoymuşdur.

Ona görə sabitliyin qorunması son 10 il ərzində prioritet məsələ kimi daim gündəlikdə idi. Sabitliyin qorunmasında dövlət siyasəti, xalqla iqtidar arasındakı birlik, bax, bu sabitliyin təmin edilməsində əsas rol oynamışdır.

Biz Azərbaycanı bütün risklərdən, təhlükələrdən qoruya bildik. Son 10 il ərzində bölgədə və dünyada baş vermiş hadisələr bizim hamımızın yaxşı xatirindədir. Qanlı toqquşmalar, müharibələr, inqilablar, siyasi, iqtisadi, maliyyə böhranları – bütün bunlar bizim ətrafımızda baş verən hadisələr idi. Biz öz siyasətimizlə, qətiyyətimizlə Azərbaycan xalqını və Azərbaycan dövlətini bu bəlalardan qoruya, müdafiə edə bilmişik. Beləliklə, son 10 ildə də Azərbaycan xalqı sülh, əmin-amanlıq, təhlükəsizlik şəraitində yaşamışdır.

Təhlükəsizlik, sabitlik olmadan heç bir inkişafdan söhbət gedə bilməzdi. Ona görə son 10 il ərzində bütün istiqamətlər üzrə aparılan islahatlar, irəli sürülmüş təşəbbüslər ölkəmizi daha da gücləndirmişdir və beləliklə, Azərbaycanın inamlı inkişaf dinamikası saxlanılmışdır.

Bu 10 ildə Azərbaycanda ictimai-siyasi proseslər müsbət istiqamətdə getmişdir. Azərbaycan demokratiya yolu ilə uğurla addımlamışdır və seçkilərin nəticələri, seçki prosesinin yüksək səviyyədə keçməsi demokratiyanın təntənəsidir. Azərbaycanda bütün azadlıqlar təmin edilmişdir. Siyasi azadlıqlar, söz azadlığı, mətbuat azadlığı, sərbəst toplaşmaq azadlığı, vicdan azadlığı təmin edilmişdir. Azərbaycanda bütün demokratik proseslər müsbət istiqamətdə getmişdir. Son 10 il ərzində

iqtisadi uğurlarla bərabər, siyasi islahatların aparılması da ölkəmizin uğurlu inkişafını şərtləndirmişdir.

Azərbaycanda son 10 il ərzində dinlərarası, millətlərarası münasibətlər artıq dünya üçün bir örnək olmuşdur. Azərbaycanda keçirilən çoxsaylı beynəlxalq tədbirlər, forumlar, konfranslar Azərbaycanı dünyada tolerantlıq məkanı, dözümlülük, multikulturalizm mərkəzi kimi təqdim etmişdir. Bu bizim həyat tərzimizdir, bizim siyasətimizdir. Artıq Azərbaycanın bu sahədəki təcrübəsi öyrənilir. Bu gün Azərbaycan dünya miqyasında bu istiqamətdə aparılan siyasətlə seçilən, fərqlənən ölkələrdən biridir. Bir sözlə, demokratiya, insan hüquqları, hüquqi dövlət quruculuğu ilə bağlı bütün addımlar ölkəmizi daha da gücləndirmiş və dinamik inkişafa imkan vermişdir.

Son 10 il ərzində bizim beynəlxalq əlaqələrimiz xeyli dərəcədə güclənmişdir, genişləndirilmişdir. Azərbaycan son 10 il ərzində 39 ölkədə səfirlik açmışdır və hazırda səfirliklərin sayı 57-yə çatıbdır. 10 ildə 28 ölkə Azərbaycanda öz səfirliyini açmış və beləliklə, Azərbaycanda xarici ölkələrin səfirliklərinin sayı 53-ə çatıbdır. Beynəlxalq təşkilatlarla münasibətlərdə Azərbaycan öz prinsipial mövqeyini daim müdafiə edir və qoruyur. Biz 10 ildə bir neçə mötəbər beynəlxalq təşkilatın üzvü olmuşuq və bu təşkilatlarda öz maraqlarımızı müdafiə edirik.

Eyni zamanda, ikitərəfli formatda aparılan xarici siyasət uğurlu olmuşdur. Bizim dostlarımızın sayı artır. Azərbaycan ilə əməkdaşlıq etmək istəyənlərin sayı artır. Azərbaycan dünyada öz prinsipial mövqeyi ilə seçilir. Azərbaycan etibarlı tərəfdaş kimi tanınır. Bizim sözümüzün imzamız qədər qüvvəsi vardır. Nəzərə alsaq ki, bizə qarşı həm dünya erməniliyi, eyni zamanda, Azərbaycanın uğurlarını qəbul etmək istəməyən, bunu həzm edə bilməyən qüvvələr daim kampaniya aparır və bu inamı qazanmaq o qədər də asan məsələ deyildi.

Ancaq bizim siyasətimiz, addımlarımız, xoş niyyətimiz və xarici siyasətimizin əməkdaşlıq üzərində qurulması bizə böyük dostlar düşərgəsi qazandıra bilmişdir. Təsadüfi deyildir ki,

Azərbaycan BMT Təhlükəsizlik Şurasına 155 ölkənin dəstəyi ilə üzv seçilmişdir. Bu bizim böyük siyasi, diplomatik qələbəmizdir, müstəqil Azərbaycanın böyük uğurudur. Hazırda Azərbaycan BMT Təhlükəsizlik Şurasında sədrlik edir və son 2 il ərzində biz bu təşkilatda öz prinsipial mövqemizlə, ədalətli addımlarımızla və beynəlxalq hüquqa olan hörmətimizlə daha da böyük nüfuz qazana bilmişik.

Xarici siyasətlə bağlı təşəbbüslərimiz bizim iqtisadi imkanlarımızı da artırır. Çünki hazırda Azərbaycanın iqtisadi inkişafı, o cümlədən xaricə qoyulan investisiyaları ilə də bağlı olacaqdır. Belə olan halda, dünyada nə qədər çox dostlarımız olsa, bizim iqtisadi inkişafımız o qədər də uğurlu olacaqdır.

Xarici siyasətimizin prioriteti təbii ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsidir. Əfsuslar olsun ki, bu illər ərzində münaqişə həllini tapmamışdır. Bunun başlıca səbəbi Ermənistanın riyakar siyasətidir, qeyri-konstruktiv mövqeyidir və əfsuslar olsun ki, beynəlxalq birliyin, bu məsələ ilə bilavasitə məşğul olan tərəflərin biganəliyidir. Beynəlxalq hüquq normaları 20 ildən artıqdır ki, kobudcasına pozulur. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi icra edilmir, işğalçı ölkəyə təzyiq göstərilmir. Belə olan halda, əlbəttə, bizim birtərəfli qaydada aparılan diplomatik səylərimiz uğur gətirə bilməzdi.

Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır, Azərbaycanın ayrılmaz hissəsidir. Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Azərbaycanın mövqeyi birmənalıdır, ədalət, tarixi həqiqət üzərində qurulubdur. Bizim əzəli torpağımız olan Dağlıq Qarabağ bu gün siyasi və hüquqi cəhətdən də Azərbaycanın ayrılmaz hissəsidir. Ərazi bütövlüyü məsələlərində heç bir güzəştdən söhbət gedə bilməz. Heç vaxt Azərbaycan öz ərazisində ikinci qondarma erməni dövlətinin yaradılmasına imkan verməyəcək, icazə verməyəcəkdir. Bizim birmənalı mövqemiz bir daha demək istəyirəm ki, tarixi ədalətə və beynəlxalq hüquq normalarına söykənir. Son 10 il ərzində münaqişənin həlli üçün atılan

addımlar, beynəlxalq təşkilatlarda qəbul edilmiş qərarlar təbii ki, bizim mövqemizi daha da möhkəmləndirir. Son 10 il ərzində bir neçə mötəbər təşkilat Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı ədaləti əks etdirən qətnamələr qəbul etmişdir. Onların arasında İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti, Avropa Şurası, Qoşulmama Hərəkatı və digər təşkilatlar vardır. Hesab edirəm ki, bizim bu istiqamətdə səylərimiz davam etdiriləcəkdir. Çünki bir halda ki, bilavasitə bu qətnamələr münaqişənin həllinə gətirib çıxarmır, biz hüquqi bazamızı daha da möhkəmləndirməliyik. Artıq bu qətnamələr və sadaladığım bu təşkilatlarda cəmləşən ölkələr dünya birliyinin mütləq əksəriyyətini təşkil edir. Beləliklə, dünya birliyinin mütləq əksəriyyətinin mövqeyi birmənalıdır. Azərbaycanın ərazi bütövlüyü heç bir şübhə doğurmur və bu münaqişə yalnız ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Biz bundan sonra da siyasi və diplomatik səylərimizi artıracağıq, bundan sonra da Ermənistanı təcrid edilmiş vəziyyətdə saxlayacağıq. Öz siyasi və regional təşəbbüslərimizlə, iqtisadi təşəbbüslərlə daha da böyük təzyiq göstərməliyik. Bizim bu məsələ ilə bağlı diplomatiyamız bundan sonra da «hücum diplomatiyası» olacaqdır. Çünki haqq-ədalət, beynəlxalq hüquq bizim tərəfimizdədir. Mən heç şübhə etmirəm ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcəkdir. Bununla bərabər, Azərbaycan nə qədər güclü olarsa, bu məsələ bir o qədər də tez öz həllini tapar. Bu məqsədlə Azərbaycanda həm iqtisadi islahatlar, eyni zamanda, ordu quruculuğu son 10 il ərzində böyük templərlə aparılmışdır.

Hərbi büdcəmiz 20 dəfədən çox artmışdır. Azərbaycan Ordusu bu gün dünya miqyasında güclü ordular sırasındadır. Son 10 il ərzində alınmış silah-sursat, hərbi texnika Ermənistan ilə Azərbaycan arasındakı hərbi balansı artıq pozmuşdur. Bizim üstünlüyümüz dəfələrlə ölçülür. Azərbaycanda son 10 il ərzində əvvəlki illərdə olmamış hərbi sənaye kompleksi yaradılmışdır. Bu gün onlarla zavod fəaliyyət göstərir, 750 adda hərbi təyinatlı məhsul istehsal edilir. Beləliklə, biz həm yeni istehsalat sahələri

yaradırıq, həm də xarici silah bazarlarından asılılığımızı azaldırıq. Hesab edirəm ki, növbəti illərdə biz ordu quruculuğu istiqamətində daha da böyük addımlar atacağıq, ordumuzu daha da gücləndirəcəyik. Əminəm ki, bu amillər, diplomatik səylər və ümid edirəm ki, böyük dövlətlərin bu məsələyə münasibəti problemin həllinə gətirib çıxaracaqdır. Bir daha demək istəyirəm, məndə zərrə qədər şübhə yoxdur ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcəkdir. Məsələ ondadır ki, biz bunu tezliklə həll etmək istəyirik. Əlbəttə ki, bu məsələ beynəlxalq hüququn norma və prinsipləri üzərində öz həllini tapmalıdır.

Daha da güclü orduya malik olmaq üçün əlbəttə, Azərbaycanda bundan sonra da iqtisadi islahatlar davam etdiriləcək. İqtisadi inkişaf templərinə görə son 10 il ərzində Azərbaycan qədər inkişaf edən ikinci ölkə olmamışdır. Əminəm ki, son 10 il ərzində əldə edilmiş nailiyyətlərimiz beynəlxalq ekspertlər tərəfindən ciddi şəkildə təhlil ediləcəkdir. 10 ildə Azərbaycan iqtisadiyyatı 3,4 dəfə artmışdır. Əgər ilk illərdə bu artım daha çox neft amili sayəsində olmuşdusa, hazırda qeyri-neft sektorunun inkişafı bu artımı təmin edir və gələcəkdə də təmin edəcəkdir.

Son 10 il ərzində Azərbaycanda 1 milyon 200 min yeni iş yeri açılmışdır ki, onlardan 900 mini daimi iş yeridir. İşsizlik kimi ciddi problemin böyük hissəsi demək olar ki, həllini tapmışdır. İşsizliyin səviyyəsi təxminən 5 faiz civarındadır. Ancaq elə etməliyik ki, biz növbəti illərdə işsizliyi tamamilə aradan götürək. 2 regional beşillik proqram icra edilmişdir. Bölgələr abadlaşdı, canlandı. Bölgələrdə infrastruktur yaradıldı və regional proqramların icrası nəticəsində bölgələrlə paytaxt arasında fərq azaldı.

Son 10 il ərzində ölkə iqtisadiyyatına 150 milyard dollar sərmayə qoyulmuşdur və bu sərmayənin təxminən yarısı xarici sərmayədir. Bu bir tərəfdən, onu göstərir ki, Azərbaycan xarici investorlar üçün cəlbedici ölkə olaraq qalır. Eyni zamanda, yerli investisiyalar da artır. Əlbəttə ki, yerli investisiyaların strukturunda daxili sərmayə üstünlük təşkil edir. Ancaq yerli özəl sektor da bu

işlərə fəal qoşulubdur. Azərbaycanda gözəl investisiya iqlimi vardır. Azərbaycanda çox uğurlu iqtisadi inkişaf müşahidə olunur.

Son 10 il ərzində yoxsulluqla bağlı tədbirlərimiz gözəl nəticələrə gətirib çıxarmışdır. 10 il ərzində Azərbaycanda yoxsulluq təxminən 10 dəfə – 49 faizdən 5,5 faizədək azalmışdır. Bu, əlbəttə ki, iqtisadi islahatların uğurlu olmasından xəbər verir. Azərbaycan sosial dövlət kimi, öz sözünü demişdir. Çünki köklü iqtisadi islahatlar bir çox hallarda sosial problemlərlə müşahidə olunur. Ölkə iqtisadiyyatı arta, ancaq vətəndaşların sosial durumu pisləşə bilər. Biz Azərbaycanda bunun tam əksini görürük. Azərbaycanda güclü və ciddi iqtisadi islahatlar düşünülmüş sosial siyasətlə tamamlanır. Sosial məsələlərin həlli üçün böyük vəsait ayrılır. Son 10 il ərzində orta maaş 5,6 dəfə, orta pensiya 9,2 dəfə artmışdır. Sosial infrastrukturun yaradılması üçün böyük vəsait səfərbər edilmişdir. Son 10 il ərzində Azərbaycanda 2700 məktəb, 500-ə yaxın xəstəxana, 35 olimpiya mərkəzi tikilmişdir, tarixi abidələrimiz bərpa edilmişdir. Bir sözlə, sosial siyasət bundan sonrakı illərdə də prioritet olaraq qalacaq, iqtisadi sahədə uğurlar əminəm ki, bundan sonra da davam edəcəkdir. Bizim xarici dövlət borcumuz çox aşağı səviyyədədir – təxminən ümumi daxili məhsulun 7-8 faizini təşkil edir. Dünya miqyasında bu, ən yaxşı göstəricilərdən biridir.

Azərbaycan investisiya qoyuluşu üçün çox gözəl ölkəyə çevrilibdir və növbəti illərdə investisiya qoyuluşu davam edəcəkdir. Biz son 10 il ərzində valyuta ehtiyatlarımızı bir neçə dəfə artıra bilmişik. Baxmayaraq ki, biz eyni zamanda, böyük infrastruktur layihələrinə Dövlət Neft Fondundan vəsait götürürük, hazırda Azərbaycanın valyuta ehtiyatları 50 milyard dollara yaxındır. Bu onu göstərir ki, iqtisadi və sosial siyasət bir-birini tamamlayır. Bizim iqtisadi siyasətimiz güclü zəmin üzərində qurulub. Biz xarici borcdan asılı deyilik. Baxmayaraq ki, bəlkə bu gün Azərbaycana borc vermək üçün təşkilatlar növbəyə düzülürlər, buna ehtiyac yoxdur. Biz hər şeyi düşünülmüş şəkildə edirik, iqtisadi siyasətimizi elə aparırıq ki, bu siyasət dayanıqlı inkişafa xidmət göstərsin. İldən-ilə artan valyuta ehtiyatlarımız, açılan yeni

iş yerləri, sosial müdafiə məsələlərinin həlli bizim müstəqilliyimizin nə qədər güclü olmasını göstərir.

Biz öz gücümüzə arxalanırıq, Azərbaycan xalqının istedadına, zəhmətinə güvənirik. Ona görə də Azərbaycan dünya miqyasında hətta böhranlı illərdə uğurla inkişaf etmişdir. Bəziləri xüsusilə əvvəlki illərdə bizim uğurlarımızı neft amili ilə bağlamaq istəyirdilər. Amma hazırda həyat və bizim nəticələr göstərir ki, əgər neft amilinin əvvəllər rolu olubsa, indi bu rol o qədər də böyük deyildir.

Əsas uğurlarımızın səbəbi düşünülmüş siyasətdədir. Burada müstəqil xarici siyasət öz rolunu oynayır. Cəsarətli siyasətimiz uğurlarımızı şərtləndirə bilib. Bütün beynəlxalq aparıcı qurumlar iqtisadi inkişafla bağlı Azərbaycanı nümunəvi ölkə kimi qiymətləndirir və öz reytinqlərində yüksək yerlərə layiq görürlər. Dünyanın aparıcı iqtisadi qurumu olan Davos Dünya İqtisadi Forumu rəqabətqabiliyyətliliyinə görə Azərbaycanı 39-cu yerə layiq görüb. Bu, Azərbaycanda iqtisadi sahədə aparılan ciddi islahatların nəticəsidir. Bu islahatlar davam etdiriləcəkdir. Azərbaycan dünya iqtisadiyyatının bir parçasıdır, eyni zamanda, biz öz daxili bazarımızı qoruyuruq və qoruyacağıq. Biz daxili istehsalçılara daha da əlverişli şərait yaradırıq və yaradacağıq.

Son 10 il ərzində sahibkarlığın inkişafı ilə bağlı böyük addımlar atılmışdır. 10 ildə 1 milyard manat dəyərində güzəştli kreditlər verilmişdir. Bu kreditlər iqtisadiyyatın real sektoruna yönəldilmişdir və iş yerlərinin açılması, yerli istehsalın artırılması, idxaldan asılılığın azaldılması məqsədləri güdülürdü. Belə olan halda sahibkarlığın inkişafının, orta təbəqənin yaradılmasının, yoxsulluğun azaldılmasının – bütün bu məsələlərin təməlində bizim düşünülmüş iqtisadi siyasətimiz və siyasi xəttimiz dayanır.

Sənayeləşmə ilə bağlı məsələlər öz həllini tapmışdır. Beləliklə, ölkə iqtisadiyyatının şaxələndirilməsi istiqamətində hesab edirəm ki, 10 il ərzində çox böyük addımlar atılmışdır və bu siyasət davam etdiriləcəkdir. Son 10 il ərzində Azərbaycan bizim üçün yeni olan sahələrə investisiya qoymağa başlamışdır.

Azərbaycan kosmik dövlətlərin sırasına daxil edilmişdir. Bəlkə 10 il bundan əvvəl bu barədə danışmağa belə, heç kimin fikri yox idi. Ancaq bu gün bu reallıq onu göstərir ki, siyasi iradə, peşəkar kadrlar və düzgün iqtisadi siyasət olan yerdə istənilən məsələ öz həllini tapa bilər.

Bu gün bizim peykimiz – «Azərspace-1» Azərbaycanı kosmik dövlət kimi dünyada tanıtdırır. Kosmik sənayenin inkişafı sürətlə gedəcək. Dövlət, əlbəttə, öz sözünü deyir və deyəcəkdir. Burada dövlət vəsaiti əsas rol oynayır.

Enerji siyasətimizdə son 10 ildə tarixi hadisələr baş vermişdir. Ulu öndər Heydər Əliyevin neft strategiyası bu gün tam şəkildə reallaşıbdır. Bu strategiyanın davamı üçün yeni təşəbbüslər irəli sürülübdür. Bakı–Tbilisi–Ceyhan neft kəməri və Bakı–Tbilisi–Ərzurum qaz kəməri 2006–2007-ci illərdə istifadəyə verilmişdir. Beləliklə, ilk dəfə olaraq Xəzər dənizinin neft-qaz ehtiyatları dünya bazarları ilə birləşmişdir. Dəhliz yaradılmışdır ki, bu dəhlizdən indi biz və qonşularımız istifadə edirik. O dəhliz ki, onun üzərində strateji əhəmiyyətə malik olan Bakı–Tbilisi–Qars dəmir yolu layihəsi icra edilir. Bu layihənin də təşəbbüskarı Azərbaycan olmuşdur. Əsas maliyyə yükünü də Azərbaycan öz üzərinə götürmüşdür. Ona görə, enerji siyasətimizlə bağlı olan təşəbbüslər və reallaşan layihələr çoxdan regional çərçivələrdən çıxıb və bu gün Azərbaycan qlobal enerji bazarında çox etibarlı, ciddi ölkə kimi tanınır. Bizim qərarlarımız, Bakıda verilən qərarlar enerji təhlükəsizliyi məsələlərində həlledici rol oynayır. Biz bunu bilirik. Bu reallığı öz siyasətimizlə, cəsarətli addımlarımızla və müstəqil siyasətlə biz yaratmışıq. 2 neft və qaz kəmərinin tikintisi, demək olar ki, bölgədə yeni enerji xəritəsini yarada bilmişdir. Bu gün enerji xəritəsinin yaradılması, o xəritəyə düzəlişlərin edilməsi məsələləri də Azərbaycanda həll olunur.

Son illər ərzində Azərbaycanda yeni qaz yataqları kəşf edilib. Bu yataqların kəşfi artıq Azərbaycanı dünya miqyasında böyük qaz ölkəsi kimi təqdim edir. Bizim təsdiq edilmiş qaz ehtiyatlarımız təxminən 3 trilyon kubmetrə bərabərdir.

Azərbaycan bu sahədə bundan sonra ən azı 100 il ciddi oyunçu kimi öz rolunu oynayacaq, ölkəmizin siyasi və iqtisadi maraqlarını təmin edəcəkdir.

Keçən il və bu il neft-qaz strategiyamızın reallaşması üçün də 2 önəmli hadisə baş vermişdir. Keçən il TANAP layihəsinə, bu il isə Trans–Adriatik boru kəməri layihəsinə start verildi. Bunlar dünya miqyaslı, strateji əhəmiyyətə malik olan layihələrdir. Bu layihələrin təşəbbüskarı Azərbaycandır. Bu layihələrin icrası üçün Azərbaycan həlledici sözə malikdir. Bizim təşəbbüslərimiz və ardıcıl siyasət, müstəqil siyasət, bax, bu reallıqları yaradır. Bu reallıqlar Azərbaycan dövlətinə və xalqına onilliklər bundan sonra da xidmət edəcək, bizim iqtisadi müstəqilliyimizi təmin edəcəkdir. İqtisadi müstəqillik olmadan siyasi müstəqillikdən söhbət belə, gedə bilməz. Biz ətrafda baş verən hadisələrə baxırıq, izləyirik, dünyada baş verən hadisələrə biganə qalmırıq. Görürük, o ölkələrdə ki, iqtisadi müstəqillik yoxdur, o ölkələr şantaj obyektinə çevrilir, o ölkələrə təzyiqlər göstərilir və o təzyiqlər nəticə verir. O ölkələr, demək olar ki, xahiş edən ölkələr sırasındadır. Azərbaycan heç kimdən heç nə xahiş etməmişdir, etmir və etməyəcəkdir. Biz müstəqil siyasət aparırıq. Müstəqil siyasətin təməlində iqtisadi müstəqillik durur. İqtisadi müstəqilliyin yaradılması mənim üçün prezident kimi, ən vacib məsələlərdən biri idi. Çünki mən 10 il bundan əvvəl çox yaxşı başa düşürdüm ki, əgər biz buna nail olmasaq, Azərbaycan gələcəkdə böyük problemlərlə üzləşə bilər. Dünyada ikili standartlar təcrübəsi artıq heç kimə sirr deyildir. Bu barədə daha danışmağa da dəyməz. Çünki bu bir aksiomadır.

Təsəvvür edin, əgər iqtisadi müstəqilliyimiz olmasaydı, bizə hansı qərarları qəbul etdirərdilər. İqtisadi müstəqillik, güclü ordu potensialı, cəsarətli, birmənalı siyasət, milli maraqlarımızın qorunması – bu amillər bizi problemlərdən qoruya bildi. Azərbaycanın gələcəkdə uğurlu inkişafı üçün bütün bu amillər daha da güclənməlidir. Biz bunu edəcəyik. Növbəti 5 ildə mən prezident kimi, bunu təmin edəcəyəm. Əlbəttə, bu gün

neft strategiyasının icrası nəticəsində beynəlxalq, regional əməkdaşlıq da yeni bir formada özünü göstərməkdədir. Regional və beynəlxalq əməkdaşlıqda Azərbaycan, bir daha demək istəyirəm ki, bundan sonra da etibarlı tərəfdaş kimi öz rolunu oynayacaqdır. Bir daha qeyd etmək istəyirəm ki, bizim xarici siyasətimizlə bağlı bütün təşəbbüslər əməkdaşlıq, dostluq üzərində qurulubdur. Bir-birinin işinə qarışmamaq, bir-birinə hörmət etmək – bu həm beynəlxalq hüquq normalarına uyğundur, eyni zamanda, normal insani davranışa da uyğun olan siyasətdir.

Son 10 il ərzində sənayenin inkişafı ilə bağlı önəmli hadisələr baş vermişdir. Artıq ağır sənayenin inkişafı ilə bağlı böyük layihələr icra edilmişdir. Növbəti illərdə əminəm ki, bu istiqamət prioritet olacaqdır. Çünki Azərbaycanın uğurlu inkişafı demoqrafik göstəricilərdə də özünü büruzə verir. Bunu mən böyük sevinc hissi ilə qeyd etmək istəyirəm ki, Azərbaycanda son 10 il ərzində əhali artmışdır. 10 il əvvəl əhalimiz 8,3 milyon idi. Hazırda 9,4 milyondur, 10 ildə əhali 1 milyon 100 min artmışdır. Demoqrafiya özlüyündə gələcəkdə böyük rol oynayacaqdır. Demoqrafik inkişaf güclü iqtisadiyyatla tamamlanmalıdır. Çünki demoqrafik inkişaf o halda müsbət amildir ki, iqtisadiyyat buna imkan verir. Biz bəzi ölkələrin problemlərini bilirik. Bəzi ölkələrdə demoqrafik tənəzzül müşahidə olunur və o ölkələr xüsusi proqramlar tətbiq edirlər. Bəzi ölkələrdə isə demoqrafik inkişaf o qədər sürətlidir ki, ölkə iqtisadiyyatı buna dözmür. Ona görə bizim iqtisadiyyatımız və xüsusilə növbəti illərdə kənd təsərrüfatı və ağır sənaye ilə bağlı olan təşəbbüslərimiz, o cümlədən demoqrafik amil də hesablanmalıdır. Bizim iqtisadi imkanlarımız əhalinin artımını daim üstələməlidir.

Son 10 il ərzində Azərbaycanda böyük enerji potensialı yaradılıb, 14 elektrik stansiyası yaradılıb ki, əgər o stansiyalar tikilməsəydi, hazırda Azərbaycanda bu qədər müəssisə fəaliyyət göstərə bilməzdi. Deyə bilərəm ki, bizim ümumi generasiya gücümüz hazırda 6 min meqavat səviyyəsindədir. Onun

təxminən 45 faizi son 10 il ərzində yaradılmışdır. Bu gün Azərbaycan xarici bazarlara elektrik enerjisini ixrac edir. 10 il bundan əvvəl idxal edirdi. Bu gün biz təbii qazı ixrac edirik. 10 il bundan əvvəl idxal edirdik və demək olar ki, böyük problemlər yaranmışdı. Yəni bu 10 il ərzində energetika sektorunda bütövlükdə böyük nailiyyətlər əldə edilmişdir və əminəm ki, növbəti illərdə bu müsbət meyillər davam edəcək, çünki bizim konkret proqramlarımız, planlarımız vardır.

İqtisadiyyatın hər bir sahəsinin inkişafı ilə bağlı olan bu proqramlar əminəm ki, icra ediləcəkdir. Mən növbəti 5 il ərzində ölkə qarşısında duran vəzifələrlə bağlı dəfələrlə ictimaiyyətə öz fikirlərimi çatdırmışam. Bir daha qeyd etmək istəyirəm ki, növbəti 5 il ərzində biz ölkəmizin uğurlu inkişaf tempini saxlamalıyıq, artırmalıyıq.

Əsas prioritet məsələ, əlbəttə ki, ərazi bütövlüyümüzün bərpasıdır. Bu ən başlıca vəzifədir, bizim üçün ən ağrılı problemdir. Biz hamımız çalışmalıyıq ki, növbəti illərdə bu məsələni beynəlxalq hüququn ədalətli norma və prinsipləri üzərində həll edək.

İqtisadi güc bizim tərəfimizdədir. Haqq-ədalət, tarixi həqiqət bizim mövqemizi müdafiə edir. Bu gün Azərbaycan büdcəsi Ermənistan büdcəsindən 10 dəfə böyükdür, hərbi xərclər 10 dəfə çoxdur, əhali isə 5 dəfə artıqdır. Biz növbəti 5 il ərzində bu münaqişənin həlli üçün öz ardıcıl siyasətimizi davam etdirəcəyik. İlk növbədə, dövlət siyasəti aparılacaqdır. İctimai qurumlar da bu işlərdə çox böyük fəallıq göstərir. Xocalı soyqırımını soyqırımı kimi dünyada tanıtdırmaq üçün artıq gözəl imkanlar vardır. Bir neçə ölkə Xocalı soyqırımını soyqırımı kimi tanıyıb. Bu proses davam etməlidir.

Ermənistanı bütün regional layihələrdən təcrid etməliyik, etmişik və edəcəyik. Maksimum çalışmalıyıq ki, Ermənistan iqtisadiyyatı bundan da ağır vəziyyətə düşsün, orada depopulyasiya bundan da yüksək templərlə davam etsin. Beləliklə, biz münaqişənin həlli üçün bütün əsas şərtləri təmin etməliyik. Son illərin təcrübəsi onu göstərir ki, biz düzgün yoldayıq və Ermənistan

məcbur olub açıq şəkildə etiraf edir ki, öz təhlükəsizliyini özü təmin edə bilmir. Əslində etiraf edir ki, Azərbaycandan, güclü Azərbaycan dövlətindən qorxur, Azərbaycan qarşısında acizdir. Ermənilər tərəfindən son 20 il ərzində yaradılan mif ki, erməni ordusu güclü ordudur, erməni iqtisadiyyatı güclü iqtisadiyyatdır, bu mif tamamilə dağıdılıb, bu mifdən əsər-əlamət qalmayıb. Bu gün güclü Azərbaycan dövləti Ermənistan rəhbərliyinə də ciddi mesaj göndərir: «öz xalqınızın gələcəyini, Ermənistanın müstəqil ölkə kimi yaşamasını düşünürsünüzsə, düzgün addım atın. Sizə aid olmayan torpaqlardan çıxın və biz ədaləti bərpa etməliyik». Münaqişənin həlli bir daha demək istəyirəm ki, prioritet məsələdir. Bu məsələ tam şəkildə öz həllini tapmalıdır. Hər hansı bir yarımçıq variant müvəqqəti variant kimi yalnız qəbul edilə bilər. Münaqişənin tam şəkildə həll edilməsi, əminəm ki, olacaqdır və ilk növbədə, əlbəttə, erməni işğalçı qüvvələri işğal edilmiş torpaqlardan çıxarılmalıdır. Ondan sonrakı mərhələlərdə azərbaycanlılar Dağlıq Qarabağa qayıtmalıdırlar. Şuşada, Xankəndidə Azərbaycan bayrağı qaldırılmalıdır və əminəm ki, belə də olacaqdır. Mən qeyd etmək istəyirəm ki, strateji hədəf kimi, azərbaycanlılar bütün tarixi torpaqlarımıza qayıtmalıdırlar. Mən əminəm ki, biz buna nail olacağıq. Əlbəttə ki, bu strateji hədəf vaxt aparacaqdır. Ancaq bizim cəmiyyətimiz, gənc nəsil, bütün vətənpərvər insanlar bu amalla yaşamalıdır ki, biz tarixi ədaləti bərpa edək.

Digər prioritetlər haqqında bir neçə kəlmə demək istərdim. Xarici siyasətimiz davam etdiriləcəkdir. Azərbaycan bundan sonra da prinsipial mövqe nümayiş etdirəcək və üzv olduğumuz təşkilatlarda, beynəlxalq təşkilatlarda öz mövqemizi müdafiə edəcəyik. Əməkdaşlıq etdiyimiz təşkilatlarla münasibətləri bundan sonra da ancaq bərabərhüquqlu, bir-birinin işinə qarışmamaq və qarşılıqlı hörmət əsasında quracağıq. Çalışacağıq ki, dünyada dostlarımızın sayı çoxalsın və bu məqsədlərə nail olmaq üçün iqtisadi amillərdən də istifadə etməliyik. Bu gün dünyada xarici investorlar üçün şərait yaradılır, onlar dəvət edilirlər və bir çox ölkələr öz iqtisadi

vəziyyətlərini xarici investisiyalar hesabına yaxşılaşdırmaq istəyirlər. Bizim isə iqtisadi siyasətimiz, əksinə, xarici bazarlara investisiya qoymaqdan ibarətdir. Çünki biz gələcəkdə daxili investisiyaları o qədər də artıra bilməyəcəyik. İqtisadi qanunlar da buna imkan verməyəcəkdir. Ona görə iqtisadi amildən istifadə edib dünyada daha çox dost qazanmaq xarici siyasətlə bağlı prioritet məsələlərdən biridir.

İqtisadi sahədə şaxələndirmə siyasəti aparılır, aparılacaqdır. Çalışmalıyıq ki, növbəti 10 il ərzində qeyri-neft iqtisadiyyatımız 2 dəfə artsın. Bu hədəf artıq 1 il bundan əvvəl qarşıya qoyulmuşdur. Hesab edirəm ki, buna nail olmaq üçün kifayət qədər imkanlar vardır. Bu ilin göstəriciləri bunu deməyə əsas verir. Bu il qeyri-neft sektorumuz 10 faizdən çox artmışdır. Əgər biz hər il qeyri-neft sektorumuzu 10 faizdən çox artıra bilsək, o hədəfə çatacağıq.

Əlbəttə ki, bu faizlər, bu rəqəmlər mütləq hədəf deyildir. Əsas məsələ ondan ibarətdir ki, biz bu hədəflərə çatsaq Azərbaycan iqtisadiyyatı daha da güclənəcək və dayanıqlılığını daha da möhkəmləndirəcək, neft amilindən asılılığını daha da azaldacaq və iş yerlərinin açılmasına daha da yaxşı imkanlar yaradılacaqdır.

Sosial siyasətlə bağlı bizim mövqemiz hesab edirəm ki, məlumdur. Son 10 ilin təcrübəsi deməyə əsas verir ki, cəmiyyətdə bu məsələ ilə bağlı heç bir şübhə yoxdur, olmayacaqdır. Yoxsulluğun azaldılması, yoxsulluq şəraitində yaşayanların yaşayış səviyyəsinin yaxşılaşdırılması və digər sosial proqramlar icra ediləcək, sosial infrastrukturun yaradılması davam etdirilməlidir. Hələ ki, buna böyük ehtiyac vardır.

Sənayeləşmə ilə bağlı bizim siyasətimiz əminəm ki, növbəti illərdə daha da böyük nəticələrə gətirib çıxaracaqdır. Ağır sənayenin inkişafı üçün gözəl imkanlar vardır. Artıq texnoparklar, sənaye zonaları yaradılır. Dövlət, əlbəttə ki, burada aparıcı rolunu ilkin mərhələdə oynamalıdır, oynayacaqdır. Özəl sektor da bu işlərə qoşulur. Azərbaycanda istehsal oluna biləcək bütün məhsullar Azərbaycanda istehsal olunmalıdır.

Ərzaq təhlükəsizliyi tam şəkildə təmin edilməlidir. Biz son 10 il ərzində bu istiqamətdə böyük nailiyyətlərə imza atdıq. Bu gün bir çox əsas qida məhsulları Azərbaycanda istehsal olunur. Biz növbəti 5 il ərzində elə etməliyik ki, əsas ərzaq məhsulları 100 faiz Azərbaycanda istehsal olunsun. Bunu etmək üçün imkan da, konkret təkliflər də vardır və vəsait də nəzərdə tutulacaqdır.

Kənd təsərrüfatı ilə bağlı tədbirlər bundan sonra da aparılacaqdır. Böyük suvarma layihələri icra edilir və beləliklə, fermerlər üçün daha da gözəl şərait yaradılacaqdır.

İnformasiya-kommunikasiya texnologiyaları istiqamətində siyasətimiz davam etdiriləcəkdir. Bu texnologiyalar həm ölkə iqtisadiyyatını inkişaf etdirir, eyni zamanda, məmur–vətəndaş münasibətlərini normal səviyyədə tənzimləyir və tənzimləməlidir. Bu məsələlərə də xüsusi diqqət göstərilməlidir. Məmur–vətəndaş münasibətləri sağlam zəmində qurulmalıdır. Məmurlar özlərini təvazökar aparmalıdırlar, insanlara qayğı göstərməlidirlər. Unutmamalıdırlar ki, onlar tutduğu vəzifələrdə xalqa xidmət etmək üçün işləyirlər və əlbəttə ki, xalqın bütün problemləri, bütün qayğıları öz həllini tapmalıdır.

Növbəti illərdə korrupsiya və rüşvətxorluğa qarşı daha da ciddi mübarizə aparılacaqdır. Bu mübarizənin gözəl nəticələri vardır və bu istiqamətdə dövlət siyasəti birmənalıdır. Çox güclü siyasi iradə var ki, bu xoşagəlməz hallar Azərbaycandan götürülsün. Burada həm inzibati tədbirlər, cəza tədbirləri və həm də sistem xarakterli islahatlar əminəm ki, növbəti 5 il ərzində bu sahədə daha da böyük nailiyyətlərə gətirib çıxaracaqdır. Böyük ümidlərim, əlbəttə ki, elektron xidmətlərədir. «Elektron hökumət» layihəsi icra edilir, elektron xidmətlərin sayı artmalıdır. «ASAN xidmət»in qısa müddət ərzində böyük rəğbət qazanması bu əminliyi daha da artırır. Korrupsiya və rüşvətxorluğa qarşı mübarizə ümumxalq işi olmalıdır. Dövlət öz siyasətini aparacaqdır, ancaq eyni zamanda, ictimaiyyət də bu işlərə fəal qoşulmalıdır, vətəndaşlar biganə qalmamalıdırlar və

bütün xoşagəlməz hallar haqqında məlumatlar vaxtında dövlət orqanlarına çatdırılmalıdır.

Enerji siyasətimizlə bağlı bizim növbəti illərdə çox böyük planlarımız vardır. Mən qeyd etdim ki, «Əsrin kontraktı»nın imzalanmasından sonra son 19 il ərzində Heydər Əliyev neft strategiyası icra edilir. Son 10 il ərzində bu daha çox qaz amilində özünü göstəribdir. Növbəti 5 il ərzində biz strateji layihələri icra etməliyik. Bu layihələr dünya miqyaslı layihələrdir. Ancaq mən əvvəlki çıxışlarda qeyd etdiyim kimi, Azərbaycan burada aparıcı rol oynayır. Onların arasında TANAP layihəsi və Trans–Adriatik boru kəməri layihəsi xüsusi yer tutur. Bu layihələr böyük maliyyə vəsaiti tələb edir. Eyni zamanda, bu layihələrin icrası çox geniş beynəlxalq əməkdaşlıq tələb edir. Hazırda bu layihələrdə iştirak edən bütün ölkələrlə Azərbaycanın çox gözəl münasibətləri vardır, işgüzar, bir-birinə hörmət əsasında münasibətlər qurulubdur. Bu 2 layihəni biz növbəti 5 il ərzində icra etməliyik. Bu o qədər də asan məsələ deyildir. Ancaq bu günə qədər atılmış addımlar, cəsarətli və düşünülmüş siyasətimiz, əminəm ki, bu layihələrin icrasında da bizə kömək göstərəcəkdir. Bu layihələrin icrası Azərbaycanı bundan sonra onilliklər ərzində çox önəmli beynəlxalq oyunçuya çevirəcəkdir.

Hazırda bizimlə hesablaşırlar. Bizim sözümüz böyük məna daşıyır. Bakıda qəbul edilmiş qərarlar bir çox hallarda enerji siyasətinin istiqamətlərini müəyyən edir. Biz bu 2 layihəni icra etsək – əminəm ki, biz buna nail olacağıq – onda bizim çəkimiz daha da artacaqdır. Çəkimiz artdıqca, əlbəttə ki, imkanlarımız da genişlənəcək və bundan sonra heç kimin ağlına gəlməyəcək ki, hansısa məsələdə Azərbaycanı kənara qoyub öz problemlərini həll etmək mümkün olsun. Heç kimin ağlına bundan sonra gəlməyəcək ki, Azərbaycanı hansısa layihədən təcrid etmək mümkün olacaqdır. Bu gün Azərbaycanın birmənalı siyasəti – cəsarətli siyasət, xalqın iradəsinə əsaslanmış siyasət, milli maraqlar üzərində qurulmuş siyasət

bizə imkan verir ki, ölkəmizin gələcəyi ilə bağlı sözümüzü böyük nikbinliklə deyək.

Gələcəyə nikbinliklə baxmaq üçün kifayət qədər amil vardır. Son 10 ilin təcrübəsi onu göstərir ki, «xalq», «millət» anlayışları ön planda olanda, istənilən problem öz həllini tapa bilər. Bizim siyasətimiz milli maraqlar üzərində qurulub. Bizim siyasətimiz müstəqilliyin möhkəmlənməsinə istiqamətləndirilib. Bu gün Azərbaycan müstəqil dövlət kimi dünya miqyasında özünə layiq yerini tuta bilibdir. Azərbaycan daha da güclü ölkə olmalıdır. Biz qüdrətli Azərbaycan dövləti qururuq və əminəm ki, quracağıq. Bütün hədəflərə çatmaq üçün bizim müstəqil siyasətimiz davam etməlidir. Xalq bu siyasəti dəstəkləyir. Xalq bu siyasətə öz səsini vermişdir. Xalqın inamı və mənə 10 ildən sonra yenidən böyük etimad göstərməsi, əlbəttə ki, məni həm ruhlandırır, həm məsuliyyətimi artırır, həm də yeni təşəbbüslərin irəli sürülməsi üçün mənə bir siqnal verir.

Son illərin təcrübəsi müstəqilliyimizin üstünlüklərini açıq-aydın göstərir. Ancaq müstəqil Azərbaycan bu uğurlara nail ola bilmişdir. Ancaq taleyimiz öz əlimizdə olan zaman biz bu nailiyyətlərə çata bilmişik. Müstəqilliyin üstünlükləri bundan ibarətdir. Azərbaycan xalqı öz taleyinin sahibidir və Azərbaycan heç vaxt tarixdə bu qədər güclü olmamışdır. Heç vaxt müstəqilliyimiz bu qədər möhkəm olmamışdır. Biz hamımız bundan sonra da çalışmalıyıq və çalışacağıq ki, ölkəmizi inkişaf etdirək, müstəqilliyimizi əbədi, dönməz edək.

Eşq olsun Azərbaycan xalqına!

Yaşasın Azərbaycan!

## ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT

*Fəxri xiyaban*

*19 oktyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 19-da andiçmə mərasimindən sonra ailə üzvləri ilə birlikdə Fəxri xiyabana gələrək müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət edərək xatirəsini ehtiramla yad etdi.*

*Dövlətimizin başçısı ulu öndərin məzarı önünə əklil qoydu, onun ruhu qarşısında baş əydi.*

*Sonra prezident İlham Əliyev və ailə üzvləri görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın, dövlət xadimi Əziz Əliyev və professor Tamerlan Əliyevin məzarlarını ziyarət edib xatirələrini andılar.*

## ŞƏHİDLƏR XİYABANINI ZİYARƏT

*19 oktyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 19-da ailə üzvləri ilə birlikdə xalqımızın müqəddəs and yeri olan Şəhidlər xiyabanını ziyarət etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycanın azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının əziz xatirəsini ehtiramla yad etdi, «Əbədi məşəl» abidəsinin önünə əklil qoydu.*

## DÖVLƏT BAYRAĞI MEYDANINI ZİYARƏT

*19 oktyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ailə üzvləri oktyabrın 19-da Dövlət Bayrağı Meydanında olmuşlar.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə raport verdi.*

*Dövlətimizin başçısı əsgərləri salamladı.*

*Azərbaycan Respublikasının Dövlət himni səsləndi.*

*Azərbaycan Respublikası Prezidentinin, Silahlı Qüvvələrin Ali Baş Komandanının şərəfinə yaylım atəşi açıldı.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlətimizin başçısının qarşısından keçdi.*

*Prezident İlham Əliyev hakimiyyəti illərində xalqımızın mənəvi dəyərlərinə, dövlət rəmzlərinə böyük önəm verib. Dövlət Bayrağı Meydanının yaradılması və Dövlət Bayrağı Gününün təsis olunması bunun bariz təsdiqidir.*

*Dövlət Bayrağı Meydanı 2010-cu il sentyabrın 1-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin iştirakı ilə təntənəli surətdə açılmışdır. Bakıdakı bayraq dirəyi hündürlüyünə görə 2010-cu il mayın 29-da Ginnesin rekordlar kitabına daxil edilmişdir. 20 min kvadratmetr ərazisi olan meydanda ucaldılan bayraq dirəyinin hündürlüyü 162 metr, bayrağın eni 35, uzunluğu 70 metrdir.*

*Bu gün paytaxtla yanaşı, regionlarda da müasir bayraq meydanlarının tikilməsi xalqımızın milli qürur mənbəyi – Dövlət bayrağımıza olan dərin sevgidən qaynaqlanır. Bu həm də Azərbaycan prezidenti, Ali Baş Komandan İlham Əliyevin dövlət atributlarına olan məhəbbətini bir daha nümayiş etdirir.*

## ATƏT-in MİNSK QRUPUNUN AMERİKALI HƏMSƏDRİ CEYMS UORLİK İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*21 oktyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 21-də ATƏT-in Minsk qrupunun amerikalı həmsədri Ceyms Uorliki qəbul etmişdir.*

*Görüşdə Azərbaycan Respublikası ilə ABŞ arasında ikitərəfli münasibətlərin perspektivləri, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## NƏRİMANOV RAYONU ƏRAZİSİNDƏ YENİ SALINMIŞ «DƏDƏ QORQUD» PARKINDA GÖRÜLƏN İŞLƏRLƏ TANIŞLIQ

*22 oktyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva oktyabrın 22-də Bakının Nərimanov rayonu ərazisində yeni salınan Dədə Qorqud parkında həyata keçirilən işlərlə tanış olmuşlar.*

*Parkda görülən işlərlə bağlı dövlətimizin başçısına məlumat verildi. Bildirildi ki, parkda paytaxt sakinlərinin istirahəti üçün bütün lazımi şəraitin yaradılması istiqamətində işlər ardıcıl olaraq həyata keçirilir. İnşaat işləri ilə yanaşı, parkda yeni yaşıllıq zolaqları salınır, abadlıq və quruculuq işləri görülür. Parkda Azərbaycan mədəniyyətinin nadir nümunələrindən olan Dədə Qorqud dastanına ucaldılan abidə kompleksi üzərində tamamlama işləri də həyata keçirilir.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva parkın ərazisini gəzdilər, inşaat işlərinin gedişi ilə maraqlandılar.*

*Dövlətimizin başçısı görüləcək işlərlə bağlı müvafiq tapşırıqlarını verdi.*

## «STATOYL» ŞİRKƏTİNİN PREZİDENTİ HELGE LUND İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*23 oktyabr2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 23-də «Statoyl» şirkətinin prezidenti Helge Lundu qəbul etmişdir.*

*«Statoyl» şirkətinin prezidenti Helge Lund oktyabrın 9-da keçirilən prezident seçkilərində qazandığı qələbə münasibətilə dövlətimizin başçısını təbrik etdi.*

*Görüşdə «Statoyl» şirkəti ilə Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti arasında uzunmüddətli səmərəli əməkdaşlığın həyata keçirildiyi vurğulandı və bu əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## AVSTRİYA RESPUBLİKASININ FEDERAL PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HAYNTZ FİŞERƏ

Hörmətli cənab Federal Prezident!

Avstriya Respublikasının milli bayramı münasibətilə Sizi və xalqınızı Azərbaycan xalqı adından və şəxsən öz adımdan ürəkdən təbrik edirəm.

Bu gün Azərbaycan–Avstriya əlaqələri hərtərəfli şəkildə genişlənməkdədir. Ümidvaram ki, daim möhkəmlənən dövlətlərarası münasibətlərimiz iqtisadi və humanitar sahələrdə səmərəli əməkdaşlığımızın inkişafına bundan sonra da töhfələr verəcəkdir.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Avstriya xalqına daim sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 oktyabr 2013-cü il*

**TÜRKMƏNİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB QURBANQULU BERDIMƏHƏMMƏDOVA**

Hörmətli Qurbanqulu Məlikquliyeviç!

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı Azərbaycan xalqı adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Türkmənistan arasında tarixən təşəkkül tapmış dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq daim inkişaf edəcək və möhkəmlənəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Türkmənistan xalqına əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 oktyabr 2013-cü il*

**TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ABDULLAH GÜLƏ**

Hörmətli cənab Prezident!

Əziz Qardaşım!

Qardaş Türkiyənin milli bayramı – Respublika Gününün 90-cı ildönümü münasibətilə Sizi və xalqınızı Azərbaycan xalqı adından və şəxsən öz adımdan ürəkdən təbrik edirəm. Biz bu tarixi günün qürurunu Türkiyə xalqı ilə bölüşür, sevincinizə qoşuluruq.

Xalqlarımızı birləşdirən möhkəm dostluq və qardaşlıq hissləri ortaq mənəvi dəyərlərimizdən və tarixi köklərimizdən güc alır. Sarsılmaz birliyimiz və həmrəyliyimiz bu gün dövlətlərarası münasibətlərimizin təməl daşıdır.

İnanıram ki, Azərbaycan ilə Türkiyə arasındakı dostluq və tərəfdaşlıq münasibətləri qardaş xalqlarımızın rifahına, ölkələrimizin çiçəklənməsinə daim böyük töhfələr verəcəkdir.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Türkiyə xalqına daim sülh və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 oktyabr 2013-cü il*

**TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA**

Hörmətli cənab Baş nazir!

Əziz Qardaşım!

Qardaş Türkiyənin milli bayramı – Respublika Gününün 90-cı ildönümü münasibətilə Sizə və Sizin simanızda bütün Türkiyə xalqına Azərbaycan xalqı adından və şəxsən öz adımdan ən səmimi təbriklərimizi yetirirəm.

Bu gün Türkiyə özünün iqtisadi yüksəlişi və beynəlxalq aləmdə mövqelərinin möhkəmlənməsi ilə dünyada böyük nüfuz qazanmışdır. Biz Türkiyənin uğurlarına sevinir və bundan qürur hissi duyuruq.

Ortaq milli-mənəvi dəyərləri bölüşən xalqlarımızın iradəsindən qaynaqlanan Azərbaycan–Türkiyə dostluğu, qardaşlığı və tərəfdaşlığı dövlətlərarası münasibətlərimizin əsasını təşkil edir. Əminəm ki, tarixin bütün sınaqlarından çıxmış birliyimiz gələcək nəsillərə ən böyük ərməğan olacaqdır.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Türkiyə xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 oktyabr 2013-cü il*

# BELARUS RESPUBLİKASINA SƏFƏR

*25 oktyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 25-də MDB Dövlət Başçıları Şurasının iclasında iştirak etmək üçün Belarus Respublikasının paytaxtı Minsk şəhərinə yola düşmüşdür.*

*Dövlətimizin başçısını Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.*

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 25-də MDB Dövlət Başçıları Şurasının iclasında iştirak etmək üçün Belarus Respublikasının paytaxtı Minsk şəhərinə gəlmişdir.*

*MDB-nin üzvü olan ölkələrin dövlət bayraqlarının dalğalandığı Minsk Milli Aeroportunda Azərbaycan prezidenti İlham Əliyevin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan Prezidentini MDB İcraiyyə Komitəsinin sədri-icra katibi Sergey Lebedev, Belarusun yüksək vəzifəli dövlət və hökumət nümayəndələri qarşıladılar.*

## QEYDLƏR

**1. Heydər Əliyev,** H e y d ə r  Ə l i r z a  o ğ l u (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), 2 dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda, SSRİ Nazirlər Soveti Sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Azərbaycan Respublikası Ali Sovetinin Sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın o zamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H. Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanı Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 5, 8, 49, 51, 57, 58, 60, 67, 68, 74, 77, 84, 87, 89, 90, 106, 114, 116, 123, 128, 144, 147, 149, 150, 151, 164, 168, 173, 174, 241, 247, 248, 325, 346, 353, 355.

**2. Bakı Dövlət Universiteti** (BDU) – Bakı Universiteti, Bakı Darülfünunu – müsəlman Şərqində ilk Avropa tipli ali məktəb və elmi-tədqiqat müəssisəsi. Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən təsis olunmuşdur (1919). 1922–94-cü illərdə Azərbaycan Dövlət Universiteti adı ilə fəaliyyət göstərmiş, 1994-cü ildə ilkin adı qaytarılmışdır. Universitetin yaradılmasında F.Xoyskinin, M.Ə.Rəsulzadənin, N.Yusifbəylinin böyük xidmətləri olmuşdur. Universitetin ilk rektoru V.İ.Razumovski idi.

BDU-nun 16 fakültəsi, 121 kafedrası, 80 elmi-tədqiqat və tədris laboratoriyası, 2 institutu, elmi kitabxanası, 6 muzeyi, 4 elmi-tədqiqat mərkəzi, nəşriyyatı və mətbəəsi var. Universitetin əyani və qiyabi şöbələrində bakalavr pilləsində 55 ixtisas, magistr pilləsində 153 ixtisas üzrə 22500-ə yaxın, o cümlədən 12

ölkədən 400-dən artıq tələbə təhsil alır (2010/2011). Universitetdə 1300-dən artıq professor-müəllim, o cümlədən AMEA-nın 8 akademiki, 15 müxbir üzvü, 250-dək elmlər doktoru, professor, 800-dək elmlər namizədi, dosent fəaliyyət göstərir. – 12, 19, 174, 175.

**3. Dünya İqtisadi Forumu,** D a v o s İ q t i s a d i F o r u m u – İsveçrənin kurort şəhəri Davosda hər il Dünya İqtisadi Forumu keçirilir. 1995-ci il yanvarın 26–30-da Azərbaycan prezidenti Heydər Əliyev başda olmaqla, Azərbaycan nümayəndə heyəti ilk dəfə bu Forumda iştirak etmişdir. – 12, 13, 54, 191, 345.

**4. Azərbaycan Tibb Universiteti** – respublikada tibb mütəxəssisləri hazırlayan ali məktəb. 1919-cu ildə Bakı Universitetinin nəzdində Tibb fakültəsi, 1930-cu ildə isə həmin fakültənin əsasında müstəqil Tibb İnstitutu yaradılmışdır. Universitetin 7 fakültəsi, 75 kafedrası var, 8 minə yaxın tələbə təhsil alır. – 14, 17, 105–118.

**5. Dövlət Neft Fondu** – 1999-cu ildə yaradılmışdır. Əsas fəaliyyəti neft və qaz ehtiyatlarına dair sazişlərin həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının əldə etdiyi gəlirlərin toplanmasını, səmərəli idarə edilməsini, gələcək nəsillər üçün saxlanılmasını təmin edən xüsusi məqsədli dövlət qurumudur. – 14, 48, 50, 52, 212, 221, 285, 299, 344.

**6. Azərbaycan Diplomatik Akademiyası** (ADA Universiteti), A z ə r b a y c a n R e s p u b l i k a s ı X a r i c i İ ş l ə r N a z i r l i y i n i n D i p l o m a t i k A k a d e m i y a s ı – beynəlxalq münasibətlər və diplomatiya, biznes administrasiyası, energetikanın idarə edilməsi və ətraf mühit və s. Sahələr üzrə mütəxəssis hazırlayır. 2006-cı ildə təsis edilmişdir. ADA-nın fəaliyyəti bakalavr, magistr, xarici siyasət proqramı, doktorantlara dəstək proqramı – doktoranturada təhsil alan gənc

alimlərə elmi işləri üçün qrantlar ayırır. Dərslər ingilis dilində aparılır. ADA-da dünyanın 16 aparıcı institutundan cəlb edilmiş professor-müəllim heyəti çalışır. – 19.

**7. Tacikistan,** T a c i k i s t a n  R e s p u b l i k a s ı – Orta Asiyanın cənub-şərqində dövlət. Sahəsi 142 min km$^2$, əhalisi 8,5 milyon nəfərdir. İnzibati ərazisi Bədaxşən Muxtar Vilayətinə, 2 vilayətə və 45 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Düşənbə şəhəridir. – 23.

**8. Emoməli Rəhmon,** E m o m ə l i  Ş ə r i f  o ğ l u (d.1952) – Tacikistanın siyasi və dövlət xadimi.1992-ci ildə Tacikistan Ali Sovetinin Sədri olmuşdur. 1994-cü ilin noyabrından Tacikistan Respublikasının Prezidentidir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 23.

**9. Dağıstan,** D a ğ ı s t a n  R e s p u b l i k a s ı – Rusiya Federasiyasında respublika. Sahəsi 50,3 min km$^2$, əhalisi 3 milyon nəfərdir. Paytaxtı Mahaçqala şəhəridir. Dağıstan ərazisi bizim eradan əvvəl I minilliyin axırlarına qədər Qafqaz Albaniyasının tərkibində olmuşdur. 1813-cü ildə Gülüstan müqaviləsinə əsasən çar Rusiyasına birləşdirilmişdir. – 26.

**10. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna 2 sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun 3 – Rusiya, ABŞ və fransalı həmsədrləri var. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 27.

**11. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Sahəsi 9,5 milyon km$^2$, əhalisi 325,8 milyon nəfərdir. İnzibati cəhətdən 50 ştat və Kolumbiya federal paytaxt dairəsinə bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr Palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 27.

**12. Barak Obama** (d.1961) – ABŞ-ın 44-cü prezidenti (2008–2016). 2004–2008-ci illərdə Demokratlar Partiyasından ABŞ Senatının üzvü olmuşdur. 2009-cu ildə Nobel Sülh mükafatına layiq görülmüşdür. – 27.

**13. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Sahəsi 4,4 min km$^2$-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildə muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq Dağlıq Qarabağı işğal etdilər. BMT-nin 822, 853, 874, 884 saylı qətnamələrinə görə, erməni işğalçıları Azərbaycan torpaqlarını qeyd-şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan torpaqları hələ də erməni tapdağı altındadır. – 27, 51, 146, 148, 150, 151, 153, 154, 157, 161, 236, 286, 287, 318, 341, 342.

**14. Bakı–Tbilisi–Qars**– Azərbaycan, Gürcüstan və Türkiyəni dəmir yolu ilə birləşdirən nəqliyyat dəhlizi. Yolun tikintisinə 2007-ci ildə başlanılmışdır. 30 oktyabr 2017-ci ildə istifadəyə verilmişdir. Yolun uzunluğu 826 km-dir. – 37, 190, 247, 297, 346.

**15. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni nümayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası və digər qurumlar fəaliyyət göstərir. – 49, 50, 70, 71, 106, 112, 117, 144, 147, 152, 166,167, 241, 316.

**16. Ağdam** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1154 $km^2$, əhalisi 199,5 min nəfərdir. 1993-cü ildə Ağdam şəhəri və əksər kəndləri erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 49–50, 51, 52, 53, 56, 153.

**17. Xankəndi** – Azərbaycan Respublikasında şəhər. Dağlıq Qarabağ Muxtar Vilayətinin mərkəzi. 1991-ci ildən erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 51, 155, 350.

**18. Şuşa** – Azərbaycan Respublikasında şəhər. Sahəsi 289 $km^2$, əhalisi 32,8 min nəfərdir. Elmi ədəbiyyatda Şuşanın əsasının 1750-ci illərin əvvəllərində Qarabağ xanı Pənahəli xan Cavanşir tərəfindən qoyulması göstərilsə də, tədqiqatlar Şuşanın qədim yaşayış məntəqəsi olduğunu qeyd edirlər. Qarabağ xanlığının mərkəzi olan Şuşa bir müddət Pənahəli xanın adı ilə Pənahabad adlanmışdır.

Şuşa 1813-cü il Gülüstan müqaviləsinə əsasən Qarabağ xanlığı tərkibində Rusiyaya birləşdirildi. 1920-ci ilin martında erməni daşnaklarının Qarabağda törətdikləri qırğın nəticəsində

Şuşanın bir hissəsi tamamilə yandırıldı və minlərlə günahsız insan qətlə yetirildi. Lakin iyun ayının əvvəlində müsavatçılar və türk generalı Nuru Paşa Şuşanı erməni qəsbkarlarından xilas etdi. 1923-cü il Azərbaycan MİK-nin dekretinə əsasən Dağlıq Qarabağ Muxtar Vilayəti təşkil olunduqda Şuşa muxtar vilayətin tərkibinə daxil edildi.1992-ci ildə erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 51, 153, 155, 350.

**19. Leyla Əliyeva,** L e y l a İ l h a m q ı z ı (d.1986) – «Baku» jurnalının baş redaktoru, Heydər Əliyev Fondunun vitse-prezidenti, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın böyük qızı. 2006–2008-ci illərdə Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunun magistraturasında oxumuş və bu institutda oxuyan azərbaycanlı tələbələrin nümayəndəsi kimi fəaliyyət göstərmişdir. Moskvada Heydər Əliyev Fondunun filialına başçılıq edir. Azərbaycan Respublikasının «Tərəqqi» medalı ilə təltif edilmişdir. – 54.

**20. Mehriban Əliyeva,** M e h r i b a n A r i f q ı z ı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–92-ci illərdə akademik M.Krasnovun rəhbərliyi altında Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün 3 dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə

aşılamaq məqsədilə yaranmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə Mehriban Əliyeva YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005–2017-ci illərdə Milli Məclisin deputatı olmuşdur. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli-mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. 2015-ci ildə Bakıda keçirilən ilk Avropa oyunlarının Təşkilat Komitəsinin sədri olmuş, oyunların yüksək səviyyədə keçirilməsində müstəsna xidmətlərinə görə «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 54, 71, 105, 106, 112, 114, 117, 126, 127, 128, 132, 133, 134, 144, 145, 146, 147, 161, 162, 163, 165, 167, 171, 172, 173, 175, 176, 177, 178, 238, 240, 242, 244, 245, 246, 249, 250, 258, 306, 312, 313, 314, 317.

**21. Türkiyə Cümhuriyyəti** – Qərbi Asiyada və Avropanın cənub-şərqində dövlət. Sahəsi 783,5 min km$^2$, əhalisi 80,8 milyon nəfərdir. İnzibati cəhətdən 81 ilə (vilayətə) bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı Türkiyə Böyük Millət Məclisidir. Paytaxtı Ankara şəhəridir. – 54, 214, 288, 289, 322–323, 330.

**22. Böyük Britaniya,** Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı – Qərbi Avropada dövlət. Böyük Britaniya adası, İrlandiya adasının şimal-şərq

hissəsi, Anqlsi, Uayt, Normand, Orkney, Hebrid, Şetlend adaları və bir sıra kiçik adalardan ibarətdir. Sahəsi 244,1 min km$^2$, əhalisi 65,6 milyon nəfərdir. İnzibati cəhətdən qraflıqlara və qraflıq hüququnda olan şəhərlərə bölünür. Böyük Britaniya parlamentli monarxiyadır. Paytaxtı London şəhəridir. – 71, 147, 182, 207.

**23. Xocalı soyqırımı** – 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı qüvvələri və Xankəndidə yerləşən Rusiyanın 366-cı alayının əsgər və zabitləri Xocalıya hər tərəfdən hücum etmiş, şəhəri tamamilə yandırmışlar, 613 azərbaycanlı öldürülmüş, yüzlərlə şəhər sakini yaralanmış, itkin düşmüşdür. – 54, 151, 152, 157, 349.

**24. Naftalan** – Azərbaycan Respublikasında şəhər (1967-ci ildən). Naftalanın salındığı tarix məlum deyildir. «Naftalan» sözünün etimologiyası bu ərazidə çıxan neftlə əlaqədardır. Ehtimala görə hələ qədimdən təbii şəkildə çıxan neftin müalicəvi əhəmiyyətini bilən adamlar onu tuluqlara doldurub müxtəlif yerlərə aparmış və satmışlar. Naftalan neftindən müalicəvi məqsədilə istifadə olunmasına dair ilk yazılı məlumat XII əsrə aiddir. Dünyada yeganə müalicə nefti Naftalanda çıxarılır.

Naftalan balneoloji kurort kimi, 1935-ci ildən fəaliyyət göstərir. Kurortda sümük-əzələ, periferik damar xəstəlikləri, dəri xəstəlikləri, ginekoloji xəstəliklər müalicə olunur. – 57, 66.

**25. Tomas Bax** (d.1953) – alman və beynəlxalq olimpiya hərəkatının nümayəndələrindən biri. 2013-cü ildən Beynəlxalq Olimpiya Komitəsinin prezidentidir. – 95.

**26. İran,** İ r a n İ s l a m R e s p u b l i k a s ı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon km$^2$, əhalisi 78,4 milyon nəfərdir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hö-

kuməti Baş nazir təşkil, prezident isə təsdiq edir. Paytaxtı Tehran şəhəridir. – 96, 150.

**27. Həsən Ruhani** (d.1948) – hüquqşünas. 2013-cü ildən İran İslam Respublikasının Prezidentidir. – 96.

**28. Honduras,** Honduras Respublikası – Mərkəzi Amerikada dövlət. Sahəsi 112,1 $km^2$, əhalisi 8,5 milyon nəfərdir. İnzibati ərazisi 18 departamentə bölünür. Dövlətin başçısı prezident, qanunverici orqanı Milli Konqresdir. Paytaxtı Tequsiqalpa şəhəridir. – 102.

**29. Porfirio Lobo Sosa** (d.1947) – Honduras siyasətçisi 2010–2014-cü illərdə Honduras Respublikasının Prezidenti olmuşdur. – 102.

**30. Əhliman Əmiraslanov,** Əhliman Tapdıq oğlu (d.1947) – cərrah-onkoloq, tibb elmləri doktoru, professor. AMEA-nın akademik-katibi. Əməkdar elm xadimi. SSRİ Dövlət mükafatı laureatı, Rusiya Federasiyası Təbiət Elmləri Akademiyasının üzvü seçilmişdir. 1992-ci ilə kimi SSRİ TEA-nın ÜOEMD-də işləyib. 1992–2015-ci illərdə Azərbaycan Tibb Universitetinin rektoru olmuşdur. Azərbaycan Respublikası Milli Məclisinin üzvüdür. Azərbaycan Respublikasının «Şərəf» və «Şöhrət» ordenləri ilə təltif edilmişdir. – 105, 112–114.

**31. Adilə Namazova,** Adilə Əvəz qızı (d.1926) – pediatr-kardioloq. Tibb elmləri doktoru, professor, SSRİ Tibb Elmlər Akademiyasının müxbir üzvü, Əməkdar elm xadimi, AMEA-nın həqiqi üzvü, Rusiya Federasiyası Tibb Akademiyasının həqiqi üzvü, Azərbaycan Respublikası Dövlət mükafatı laureatı. SSRİ Ali Sovetinin deputatı olmuşdur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 114–116.

**32. Arif Məlikov,** A r i f  C a h a n g i r  o ğ l u (d.1933) – bəstəkar. Azərbaycan Respublikası və SSRİ Xalq artisti. 1961-ci ildə yazdığı «Məhəbbət əfsanəsi» baleti ona xüsusi şöhrət qazandırmışdır. Bu balet dünya ölkələrinin bir çox teatrlarında tamaşaya qoyulmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» və «Heydər Əliyev» ordenləri ilə təltif edilmişdir. – 122–124.

**33. Rusiya,** R u s i y a  F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Sahəsi 17,125 milyon $km^2$, əhalisi 146,5 milyon nəfərdir. Rusiya Federasiyasına 22 respublika, 9 diyar, 46 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 4 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 125, 136, 288, 303.

**34. Vladimir Putin** (d.1952) – Rusiya Federasiyasının Prezidenti. 2000–2008-ci illərdə Rusiya Federasiyasının Prezidenti olmuşdur. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbəri, 1998–99-cu illərdə FTX-nın direktoru, 1999-cu ilin avqustundan 2000-ci illədək Rusiya hökumətinin başçısı, 2008-ci ilin mayında Rusiya Federasiyasının Baş naziri təyin edilmişdir. 2018-ci ilin mart ayında yenidən Rusiya Federasiyasının Prezidenti seçilmişdir. – 125, 303.

**35. Kirsan İlyumjinov** (d.1962) – Rusiyanın dövlət xadimi, Kalmıkiyanın birinci (1993–2005) prezidenti. 2005–2010-cu illərdə Kalmıkiya Respublikasının başçısı olmuşdur. 1995-ci ildən Beynəlxalq Şahmat Federasiyasının prezidentidir. – 136.

**36. Fransa,** F r a n s a  R e s p u b l i k a s ı – Qərbi Avropada dövlət. Sahəsi 674,6 min $km^2$, əhalisi 67 milyon nəfərdir. İnzibati cəhətdən 101 departamentə bölünür. Qanunverici orqanı 2 palatadan (Milli Məclis və Senat) ibarət parlamentdir. İcra hakimiyyəti

prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 137, 305.

**37. Malta,** M a l t a   R e s p u b l i k a s ı – Cənubi Avropada, Malta arxipelaqında dövlət. Sahəsi 316 $km^2$, əhalisi 430 min nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı Nümayəndələr Palatasıdır. Paytaxtı Valletta şəhəridir. – 143.

**38. Quba soyqırımı** – 1918-ci ildə ermənilər tərəfindən törədilən soyqırımı. 2007-ci ildə Quba şəhər stadionunun təmiri üçün qazma işləri aparılarkən kütləvi qəbiristanlıq aşkar edilmişdir. Qəbiristanlıqda insan başları və bədənləri ayrı-ayrı basdırılmışdır. Sümüklərin antropoloji tədqiqatı onların müsəlmanlara aid olduğunu təsdiqləmişdir. Bu məzarlıq Qudyalçayın sağ sahilində 2 quyuda aşkarlanmışdır. Ermənilər bu qətliamın izini itirmək üçün belə etmişlər. – 144–161.

**39. Qafqaz İslam Ordusu** (QİO) – Azərbaycanın istiqlalı elan olunduqdan (1918,28 may) sonra Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti hərbi yardım üçün rəsmi olaraq Osmanlı dövlətinə müraciət etdi. 1918-ci ildə Batumda 2 dövlət arasında bağlanan müqavilənin (Batum müqaviləsi – 1918) şərtlərinə uyğun olaraq, Mürsəl paşanın komandanlığı altında Beşinci Qafqaz firqəsi Azərbaycana göndərildi. Bu firqəyə rəhbərlik Nuru paşaya həvalə edildi. QİO türk və Azərbaycan hərbi qüvvələri Gəncə ermənilərini tərksilah edib, Qaraməryəm, Kürdəmir, Şamaxı, Binəqədi döyüşlərində bolşevik-daşnak qüvvələrinə ağır zərbələr endirərək, bütün cəbhə boyu onları geri çəkilməyə məcbur etdilər. Bu əməliyyat Azərbaycan dövlətinin paytaxtı Bakının azad edilməsi ilə nəticələndi. Qafqaz İslam Ordusunun ən uğurlu əməliyyatlarından biri Qarabağı erməni-daşnak quldurlarından, Cümhuriyyətin şimalını isə biçeraxovçu rus müdafiəçilərindən azad etməsi idi. Birinci dünya müharibəsində (1914–1918) Osmanlı dövlətinin məğlub olması nəticəsində (Mudros barışığı, 1918) QİO ləğv olundu və türk hərbi hissələri geri çağırıldı. – 147, 153.

**40. İkinci dünya müharibəsi** (1939–1945) – Almaniya, İtaliya və Yaponiya tərəfindən başlanmış böyük müharibə. İkinci dünya müharibəsi 1939-cu il sentyabrın 1-də Almaniyanın Polşaya girməsi ilə başlandı. Sentyabrın 3-də Böyük Britaniya və Fransa Almaniyaya müharibə elan etdi. 1940-cı ilin ortalarından alman qoşunları Danimarka, Norveç, Belçika, Niderland, Lüksemburq, sonra isə Fransanı işğal etdi.

1941-ci il iyunun 22-də Almaniya SSRİ-yə qarşı müharibəyə başladı. 1942–43-cü illərdə sovet ordusunun Stalinqrad və Kursk vuruşmalarında qələbəsi Almaniyanı qəti surətdə sarsıtdı.

1945-ci il mayın 2-də sovet ordusu Berlini aldı. Mayın 8-də Karlsxorstda (Berlin yaxınlığında) Almaniyanın danışıqsız təslim olması haqqında akt imzalandı.

Yaponiyanın təslim olması haqqında sənəd isə sentyabrın 2-də imzalandı. Bununla da İkinci dünya müharibəsi qurtardı. İkinci dünya müharibəsində 62 ölkə iştirak etmişdir. Müharibədə iştirak edən ölkələrin silahlı qüvvələrinə 110 milyon adam çağırılmışdı. Müharibədə 62 milyon adam həlak olmuş, minlərlə şəhər, qəsəbə və kənd dağılmışdı. – 150, 236.

**41. 1990-cı ilin 20 yanvarı –** 1990-cı ilin yanvarında Azərbaycanda faciə baş verdi. Yanvarın 19-dan 20-nə keçən gecə fövqəladə vəziyyət elan edilmədən sovet ordusunun xüsusi təyinatlı cəza dəstələri, dəniz donanmasının və daxili qoşunların bölmələri Bakı şəhərinə yeridildi. Sovet ordusunun bu kütləvi zorakılıq aktı nəticəsində 131 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, yüzlərlə adam qanunsuz həbs edilmiş və itkin düşmüş, dövlət əmlakına, ictimai və şəxsi əmlaka, şəhər təsərrüfatına və vətəndaşlara böyük maddi ziyan dəymişdi. 1990-cı ilin qanlı yanvarı Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan mübarizə tariximizdə Vətənin şəhid övladlarının qanı ilə yazılmış şərəfli səhifə oldu. – 151.

**42. Abel Məhərrəmov,** Abel Məmmədəli oğlu (d.1950) – kimyaçı. Azərbaycan Milli Elmlər Akademiyasının akademiki. 2010–2015-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin üzvü olmuşdur. 1999-cu ildən Bakı Dövlət Universitetinin rektorudur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 174.

**43. Füzuli** (1959-cu ilədək Qaryagin rayonu) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1386 km$^2$, əhalisi 125,4 min nəfərdir. 1993-cü ildən erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 153.

**44. Azərbaycan Dövlət İqtisad Universiteti** – respublikada iqtisadçı mütəxəssis hazırlayan ali tədris müəssisəsi. 12 fakültəsi, 41 kafedrası, 21 ixtisaslaşdırılmış tədris laboratoriyası, 4 oxu zalı və kitabxanası, eyni zamanda, elektron resursları və virtual kitabxanası var. Universitetdə 800 nəfərdən çox professor-müəllim, o cümlədən AMEA-nın 10 həqiqi və müxbir üzvü, 100-dən artıq elmlər doktoru və professor çalışır. 22 ixtisas üzrə 18 mindən çox bakalavr və 47 ixtisas üzrə magistr təhsil alır. Əcnəbi tələbələr üçün hazırlıq şöbələri var. – 175–176.

**45. Şəmsəddin Hacıyev,** Şəmsəddin Hümmət oğlu (d.1950) – iqtisadçı, Azərbaycan Respublikası Milli Məclisinin deputatı. Milli Məclisin Elm və Təhsil Komitəsinin sabiq sədri, iqtisad elmləri doktoru, professor. Azərbaycan Dövlət İqtisad Universitetinin sabiq rektoru (2004–2014), Dövlət İqtisad Universitetinin Beynəlxalq iqtisadi münasibətlər kafedrasının müdiri. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 175.

**46. Səudiyyə Ərəbistanı,** Səudiyyə Ərəbistan-nı Krallığı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 2,15 milyon km$^2$, əhalisi 31,5 milyon nəfərdir. İnzibati cəhətdən 4 əyalətə bölünür.

Səudiyyə Ərəbistanı mütləq teokratik monarxiyadır. Dövlət başçısı kraldır. Ölkədə bütün hakimiyyət krala məxsusdur. İcra orqanı Nazirlər Şurasıdır, Şuranı kral təyin edir və ona başçılıq edir. Hökumətin nəzdində Məşvərət Şurası var. Müsəlmanların 2 müqəddəs şəhəri Məkkə və Mədinə Səudiyyə Ərəbistanındadır. Paytaxtı ər-Riyad şəhəridir. – 179.

**47. Abdullah ibn Əbdüləziz,** A l S ə u d (1924–2015) – 2005–2015-ci illərdə Səudiyyə Ərəbistanı kralı. 1962-ci ildən Səudiyyə Ərəbistanı Milli Qvardiyasının komandiri olan birinci əmir Abdullah ibn Səudun oğlu. 1982-ci ildən Baş nazirin müavini, 1996-cı ildən 2005-ci ilə qədər Baş nazir olmuşdur. – 179.

**48. Almaniya,** A l m a n i y a F e d e r a t i v R e s p u b - l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 357 min km$^2$, əhalisi 82,2 milyon nəfərdir. AFR tərkibində 16 ərazisi olan federasiyadır. Dövlət başçısı prezident, hökumət başçısı isə federal kanslerdir. Ali qanunverici hakimiyyət orqanı parlamentdən – Bundestaq və Bundesratdan ibarətdir. Paytaxtı Berlin şəhəridir. – 182, 196, 214, 225, 330.

**49. Angela Merkel** (d.1954) – Almaniya siyasətçisi, Xristian-Demokrat İttifaqı Partiyasının lideri, 2005-ci ildən Almaniyanın Federal Kansleridir. – 196.

**50. Azərbaycan Milli Kitabxanası** (M.F.Axundov adına) – Azərbaycan Respublikasında ən böyük kitabxana; respublikada çap olunan əsərlərin böyük kitabsaxlayıcısı, kitabxanaşünaslıq və biblioqrafiya üzrə elmi-metodik mərkəz. 1923-cü ildə Bakıda yaradılmışdır. Kitabxana fondunda 4528752 nüsxə ədəbiyyat saxlanılır. 26 şöbə, 47 bölmə fəaliyyət göstərir. Kitabxananın nadir kitablar bölməsində tarixi və elmi əhəmiyyətə malik 3500-dən çox qiymətli əsər, o cümlədən Sankt-Peterburqda nəşr olunmuş ilk Azərbaycan çap kitabı (1720), Azərbaycan

ədəbiyyatının Nizami, Xaqani, Nəsimi, Füzuli, Saib Təbrizi, Abbasqulu ağa Bakıxanov, görkəmli şərqşünas Mirzə Kazım bəy və başqa klassiklərin əsərlərinin nadir nüsxələri saxlanılır. Milli Kitabxana Azərbaycan haqqında yazılmış əsərləri və Azərbaycan müəlliflərinin xarici ölkələrdə nəşr olunmuş əsərlərini, dünya əhəmiyyətli digər nəşrləri toplayıb mühafizə edən milli mədəniyyət mərkəzidir. – 197.

**51. Pakistan,** P a k i s t a n İ s l a m R e s p u b l i k a s ı – Cənubi Asiyada dövlət. Sahəsi 881 min $km^2$, əhalisi 201 milyon nəfərdir. İnzibati cəhətdən 4 əyalətə və federal paytaxt ərazisinə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı İslamabad şəhəridir. – 206.

**52. Naxçıvan Muxtar Respublikası** (1920–23-cü illərdə Naxçıvan Sovet Sosialist Respublikası, 1923–24-cü illərdə Naxçıvan Muxtar Diyarı, 1924–90-cı illərdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı ildən Naxçıvan Muxtar Respublikası) – Azərbaycan Respublikasının tərkibində muxtar dövlət.

Muxtar respublika ərazisinin sahəsi 5,5 min $km^2$, əhalisi 440 min nəfərdir. Hazırda 7 inzibati rayonu (Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Şərur, Kəngərli), 4 şəhəri (Naxçıvan, Ordubad, Culfa, Şərur), 9 qəsəbəsi, 160 kəndi vardır. – 238, 316.

**53. İndoneziya,** İ n d o n e z i y a R e s p u b l i k a s ı – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 1,9 milyon $km^2$, əhalisi 261,1 milyon nəfərdir. İnzibati ərazisi 32 əyalətə və əyalət statusu olan 2 xüsusi inzibati əraziyə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlament – Xalq Nümayəndələri Şurasıdır. Paytaxtı Cakarta şəhəridir. – 270–279.

**54. Çingiz Hüseynzadə,** Ç i n g i z M u x t a r o ğ l u (d.1951) – şərqşünas. Azərbaycan Atletika Federasiyasının prezidenti. 1997-ci ildən Azərbaycan Milli Olimpiya Komitə-

sinin vitse-prezidenti. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 277.

**55. Azərbaycan Milli Aviasiya Akademiyası** (AMAA) – respublikada aviasiya mütəxəssisləri hazırlayan ali təhsil və elmi-tədqiqat müəssisəsi. 1994-cü ildə Bakıda yaradılmışdır. AMAA-nın 5 fakültəsi var. Akademiyada 23 ixtisas üzrə 2500 tələbə təhsil alır. Dünyanın bir çox ali təhsil ocaqları və elmi-tədqiqat müəssisələri ilə əməkdaşlıq edir. – 315.

**56. Sergey Lebedev** (d.1948) – Rusiyanın dövlət xadimi, RF Xarici Kəşfiyyat Xidmətinin direktoru (2000–2007), ordu generalı. 2007-ci ildən MDB-nin icraçı katibidir. – 320–321.

**57. Qurban bayramı** – müsəlman dünyasında ən əziz bayramlardan biri. Qurban bayramı zilhiccə ayının 10-cu günü başlayır. Müsəlmanlar bu bayramı islamın əsas şərtlərindən biri – həcc mərasimlərinin yerinə yetirilməsi və böyük Allahın bəndələrinin günahlarının bağışlanması günü kimi qeyd edirlər. – 326.

## Şəxsi adlar göstəricisi

**Abdullayev Fərhad** – 336
**Abdullayev Gündüz** – 276
**Abdullayev Rövnəq** – 180, 260
**Abela Corc** – 143
**Abutalıbov Hacıbala** – 120, 126
**Al Səud Abdullah** – 179
**Al Səud Salman** – 180
**Arlaçi Pino** – 304
**Aslanov Natiq** – 57
**Babayev Şahin** – 64
**Bax Tomas** – 95
**Balabekova Qulisa** – 197
**Bəluc Sabir** – 324
**Bəşirov Yaşar** – 274–275
**Corc Yeo** – 192
**De Zulueta Tana** – 198
**Əhmədzadə Əhməd** – 212
**Əkbərov Rövşən** – 83
**Ələkbərov Anar** – 145
**Ələkbərov Füzuli** – 238
**Əliyev Heydər** – 5, 8, 49, 51, 57, 58, 60, 67, 68, 74, 77, 84, 87, 89, 90, 106, 114, 116, 123, 128, 144, 147, 149, 150, 151, 164, 168, 175, 173, 174, 241, 247, 248, 325, 346, 353, 355
**Əliyeva Leyla** – 54
**Əliyeva Mehriban** – 54, 71, 105, 106, 112, 114, 117, 126, 127, 128, 132, 133, 134, 144, 145, 146, 147, 161, 162, 163, 165, 167, 171, 172,

173, 175, 176, 177, 178, 238, 240, 242, 244, 245, 246, 249, 250, 258, 306, 312, 313, 314, 317
**Əliyeva Zərifə xanım** – 325, 355
**Əmiraslanov Əhliman** – 105, 112–114
**Əmirov Məmməd** – 76
**Əsgərov Cahangir** – 40, 249
**Əsgərova Sona** – 18–19
**Əzizov Eldar** – 251
**Hacıyev Şəmsəddin** – 175
**Həsənov Əli** – 48
**Həsənli Fərhad** – 17
**Hüseyn Məmnun** – 206
**Hüseynov Qorxmaz** – 79, 133
**Hüseynzadə Çingiz** – 277
**Hüseynova Səfurə** – 50, 51, 54, 55, 56
**İbrahimova İlhamə** – 77
**İlyumjinov Kirsan** – 136
**İpək Haluk** – 322–323
**İslamova Kübra** – 242
**İsmayılova Mətanət** – 257–258
**İsgəndərov İlyas** – 242
**Kərimov Şahin** – 39
**Keniatta Uhuru** – 199
**Kulişov Vladimir** – 30–31
**Qaralov Zakir** – 227, 233–234
**Qasımlı Məhərrəm** – 88–90
**Qauk Yoaxim** – 225
**Qocayev Hatəm** – 62, 63
**Qorbaçov Mixail** – 151
**Quliyev Əli** – 39–40
**Qulen Natali** – 305
**Lebedov Sergey** – 320–321
**Li Yi Şyan** – 192–194

**Mamayev Ayxan** – 275–276
**Mariani Tierri** – 137
**Merkel Angela** – 196
**Məhərrəmov Abel** – 174
**Məlikov Arif** – 122–124
**Məmmədov Hidayət** – 79
**Məmmədov Razim** – 333
**Məmmədova Xatın** – 117
**Məmmədyarov Şəhriyar** – 136
**Muradov Qorxmaz** – 160
**Mustafayev Şahin** – 264
**Namazova Adilə** – 114–116
**Nieto Enrike** – 119
**Obama Barak** – 27
**Pak Kın He** – 224
**Platini Mişel** – 195
**Putin Vladimir** – 125, 303
**Rəhmon Emoməli** – 23
**Risbi** *(lord)* – 207
**Ruhani Həsən** – 96
**Rüstəmov İsfəndiyar** – 86
**Rzayev Baba** – 201
**Sarkisyan Serj** – 53
**Sergeyev Aleksey** – 34
**Seyfullayeva Gülay** – 14–15, 17
**Seyidova Nüşabə** – 77
**Səfərov Ramil** – 152
**Səmədova Zemfira** – 132
**Səmidzadə Mirhadı** – 12
**Si Cinpin** – 223
**Simanduyev Boris** – 158–159, 168–169
**Slutski Leonid** – 33
**Sosa Porfirio** – 102
**Şirəliyev Oqtay** – 21, 252
**Şirinov İsa** – 155–158

**Talıbov Mirabutalıb** – 240–241
**Uorlik Ceyms** – 27
**Vuazen Mişel** – 137

## Coğrafi adlar göstəricisi

**Abşeron** *(rayon)* – 215, 231
**Ağcabədi** – 76, 116, 218, 257
**Ağdam** – 49, 50, 51, 52, 53, 56, 153
**Ağstafa** – 71
**Almaniya** – 182, 196, 214, 225, 330
**Amerika Birləşmiş Ştatları** – 27
**Araz çayı** – 219
**Asiya** – 248, 273
**Astara** – 14, 116, 257
**Avropa** – 152, 188, 248, 272, 273, 314, 331
**Beyləqan** – 218
**Bərdə** – 47–56
**Bilgəh** – 235–243
**Biləsuvar** – 14, 228
**Böyük Britaniya** – 71, 147, 182, 207
**Cavad** – 146
**Cəlilabad** – 14, 76, 116, 257
**Cənub-Şərqi Asiya** – 194
**Cənubi Qafqaz** – 154, 190
**Çexiya** – 182, 214
**Çin** – 223
**Dağıstan** – 26
**Dağlıq Qarabağ** – 27, 51, 146, 148, 150, 151, 153, 154, 157, 161, 236, 286, 287, 318, 341, 342
**Digah** – 160

**Əski-İqriq** – 176
**Finlandiya** – 182
**Fransa** – 137, 305
**Füzuli** – 153
**Gədəbəy** – 71, 85–94, 228
**Gəncə** – 37, 71, 146, 188, 241, 246, 249, 318
**Göyçay** – 146
**Göyçə** – 155, 287
**Göygöl** – 228
**Honduras** – 102
**Xaçmaz** – 215
**Xankəndi** – 51, 155, 350
**Xantı-Mansiysk** – 136
**Xəzər dənizi** – 156, 187, 190, 192, 194, 300
**Xızı** – 215
**Xocalı** – 54, 151, 152, 157, 349
**İndoneziya** – 270–279
**İran** – 96, 150
**İrəvan xanlığı** – 148, 155
**İtaliya** – 288
**Kazan** – 271
**Keniya** – 199
**Koreya Respublikası** – 182, 224
**Kür çayı** – 219
**Qazax** – 71
**Qazaxıstan** – 288
**Qəbələ** – 37, 246, 249
**Qırmızı Qəsəbə** – 158–159, 162, 168–169, 171–172
**Quba** – 144–178, 215, 217
**Qudyalçay** – 146, 163, 171
**Qusar** – 148, 160–161, 215, 217, 228
**Quzanlı** – 53
**Qırğızıstan** – 288

**Lənkəran** – 14, 21, 37, 116, 146, 148, 246, 249
**Malta** – 143
**Masallı** – 14
**Meksika** – 119
**Mingəçevir** – 188
**Mirzəməmmədkənd** – 162
**Naxçıvan** – 37, 146, 148, 241, 246, 249, 318
**Naxçıvan Muxtar Respublikası** – 238, 316
**Naftalan** – 57–66
**Novqorod** – 125
**Pakistan** – 206, 324
**Palembanq** – 270
**Rusiya** – 30, 125, 136, 288, 303
**Sabunçu** – 103–104
**Salyan** – 146
**Samux** – 228
**Samur çayı** – 219
**Səudiyyə Ərəbistanı** – 179, 180
**Siyəzən** – 215
**Sumqayıt** – 231, 251–269
**Sinqapur** – 182, 192
**Şabran** – 211–222
**Şahdağ** – 156
**Şamaxı** – 146
**Şəmkir** – 67–84
**Şərqi Anadolu** – 150
**Şuşa** – 51, 153, 155, 350
**Tacikistan** – 23
**Timiryazev** – 162
**Tovuz** – 71, 257
**Türkiyə** – 54, 214, 288, 289, 322–323, 330
**Yardımlı** – 14

**Yevlax** – 36–46, 76, 116, 246, 249
**Zaqatala** – 37, 228, 246, 249
**Zəngəzur** – 146, 148, 155, 287
**Zərdab** – 228

# MÜNDƏRİCAT

CƏNUB BÖLGƏSİNİN GƏNCLƏRİ İLƏ GÖRÜŞ

*5 sentyabr 2013-cü il*..........................................................................5

TACİKİSTAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB EMOMƏLİ RƏHMONA

*6 sentyabr 2013-cü il*..........................................................................*23*

NƏSİMİ RAYONUNDAKI 19 VƏ 240 SAYLI TAM ORTA
MƏKTƏBLƏRİN ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMA
İŞLƏRİNDƏN SONRAKI VƏZİYYƏTİ İLƏ TANIŞLIQ

*6 sentyabr 2013-cü il*..........................................................................*24*

DAĞISTAN RESPUBLİKASININ PREZİDENTİ
CƏNAB RAMAZAN ƏBDÜLƏTİPOVA

*9 sentyabr 2013-cü il*..........................................................................*26*

ATƏT-in MİNSK QRUPUNUN YENİ TƏYİN OLUNMUŞ
AMERİKALI HƏMSƏDRİ CEYMS UORLİK İLƏ GÖRÜŞ

*9 sentyabr 2013-cü il*..........................................................................*27*

MDB SƏRHƏD QOŞUNLARI KOMANDANLAR ŞURASININ
70-ci İCLASININ NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*9 sentyabr 2013-cü il*..........................................................................*28*

PREZİDENT SEÇKİLƏRİNİN MÜŞAHİDƏSİ ÜZRƏ MDB-dən
OLAN MÜŞAHİDƏ MİSSİYASININ BAŞÇISI LEONİD
SLUTSKİ İLƏ GÖRÜŞ

*9 sentyabr 2013-cü il*..........................................................................*33*

YEVLAX RAYONUNA SƏFƏR

*10 sentyabr 2013-cü il*......................................................................*35*

YEVLAX AEROPORTUNUN AÇILIŞINDA ŞƏHƏR İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*10 sentyabr 2013-cü il*......................................................................*36*

BƏRDƏ RAYONUNA SƏFƏR

*10 sentyabr 2013-cü il*......................................................................*47*

NAFTALAN ŞƏHƏRİNƏ SƏFƏR

*10 sentyabr 2013-cü il*......................................................................*57*

NAFTALANA İÇMƏLİ SUYUN VERİLMƏSİ MƏRASİMİNDƏ ŞƏHƏR İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*10 sentyabr 2013-cü il* ......................................................................*59*

ŞƏMKİR RAYONUNA SƏFƏR

*10 sentyabr 2013-cü il*......................................................................*67*

ŞƏMKİRƏ İÇMƏLİ SUYUN VERİLMƏSİ MƏRASİMİNDƏ RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*10 sentyabr 2013-cü il*......................................................................*73*

GƏDƏBƏY RAYONUNA SƏFƏR

*10 sentyabr 2013-cü il*......................................................................*85*

GƏDƏBƏY AŞIQ MUSİQİSİ MƏKTƏBİNİN AÇILIŞINDA RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*10 sentyabr 2013-cü il*......................................................................*86*

BEYNƏLXALQ OLİMPİYA KOMİTƏSİNİN PREZİDENTİ CƏNAB TOMAS BAXA

*11 sentyabr 2013-cü il.........................................................................95*

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HƏSƏN RUHANİYƏ

*11 sentyabr 2013-cü il.........................................................................96*

PREZİDENT SEÇKİLƏRİNİN MÜŞAHİDƏSİ ÜZRƏ AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ XÜSUSİ KOMİTƏSİNİN SEÇKİQABAĞI MİSSİYASININ ÜZVLƏRİ İLƏ GÖRÜŞ

*11 sentyabr 2013-cü il.........................................................................97*

YASAMAL RAYONUNDAKI 53 VƏ 21 SAYLI TAM ORTA ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNİN ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMADAN SONRAKI VƏZİYYƏTİ İLƏ TANIŞLIQ

*11 sentyabr 2013-cü il.........................................................................98*

«QARA DƏNİZ – XƏZƏR DİALOQU» ÖLKƏLƏRİNİN KƏŞFİYYAT XİDMƏTLƏRİ RƏHBƏRLƏRİNİN MÜŞAVİRƏSİNİN X İCLASININ İŞTİRAKÇILARINA

*12 sentyabr 2013-cü il.......................................................................100*

HONDURAS RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB PORFİRİO LOBO SOSAYA

*12 sentyabr 2013-cü il.......................................................................102*

SABUNÇU RAYONUNDAKI 252 VƏ 80 SAYLI TAM ORTA MƏKTƏBLƏRİN ƏSASLI TƏMİR VƏ YENİDƏN-QURMADAN SONRAKI VƏZİYYƏTİ İLƏ TANIŞLIQ

*12 sentyabr 2013-cü il.......................................................................103*

AZƏRBAYCAN TİBB UNİVERSİTETİNİN TƏDRİS-CƏRRAHİYYƏ KLİNİKASININ AÇILIŞI MƏRASİMİ

*12 sentyabr 2013-cü il ..................................................................................105*

MEKSİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ENRİKE PENYA NİETOYA

*13 sentyabr 2013-cü il ..................................................................................119*

XƏTAİ RAYONUNDAKI 249 VƏ 138 SAYLI TAM ORTA MƏKTƏB BİNALARININ ƏSASLI TƏMİR VƏ YENİDƏN-QURMADAN SONRAKI VƏZİYYƏTİ İLƏ TANIŞLIQ

*13 sentyabr 2013-cü il ..................................................................................120*

XALQ ARTİSTİ ARİF MƏLİKOVA «HEYDƏR ƏLİYEV» ORDENİNİN TƏQDİM EDİLMƏSİ MƏRASİMİ

*13 sentyabr 2013-cü il ..................................................................................122*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ

*14 sentyabr 2013-cü il ..................................................................................125*

BAKININ XƏZƏR RAYONUNDAKI 234, 125 VƏ 121 SAYLI TAM ORTA MƏKTƏBLƏRİN BİNALARININ ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMADAN SONRAKI VƏZİYYƏTİ İLƏ TANIŞLIQ

*14 sentyabr 2013-cü il ..................................................................................126*

YASAMAL RAYONUNDAKI 158 SAYLI TAM ORTA MƏKTƏBİN ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMADAN SONRA AÇILIŞI MƏRASİMİ

*16 sentyabr 2013-cü il ..................................................................................128*

«AZƏRSU» AÇIQ SƏHMDAR CƏMİYYƏTİNİN MƏRKƏZİ LABORATORİYASININ YENİ İNZİBATİ BİNASININ AÇILIŞINDA İŞTİRAK VƏ «+ 110 QƏRB» SU ANBARI

ƏRAZİSİNDƏ SALINACAQ PARKIN LAYİHƏSİ İLƏ
TANIŞLIQ

*16 sentyabr 2013-cü il* ........................................................................ *133*

BEYNƏLXALQ ŞAHMAT FEDERASİYASININ PREZİDENTİ
KİRSAN İLYUMJİNOV İLƏ GÖRÜŞ

*16 sentyabr 2013-cü il* ........................................................................ *136*

PREZİDENT SEÇKİLƏRİNİN MÜŞAHİDƏSİ ÜZRƏ ATƏT-in
FƏALİYYƏTDƏ OLAN SƏDRİ TƏRƏFİNDƏN TƏYİN
EDİLMİŞ XÜSUSİ ƏLAQƏLƏNDİRİCİSİNİ VƏ FRANSA
MİLLİ ASSAMBLEYASININ FRANSA–AZƏRBAYCAN
DOSTLUQ QRUPUNUN RƏHBƏRİ İLƏ GÖRÜŞ

*16 sentyabr 2013-cü il* ........................................................................ *137*

VƏTƏNDAŞLARA XİDMƏT VƏ SOSİAL İNNOVASİYALAR
ÜZRƏ DÖVLƏT AGENTLİYİNİN 3 SAYLI BAKI «ASAN
XİDMƏT» MƏRKƏZİNİN AÇILIŞI
MƏRASİMİ

*17 sentyabr 2013-cü il* ........................................................................ *138*

MALTA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB CORC ABELAYA

*18 sentyabr 2013-cü il* ........................................................................ *143*

QUBA RAYONUNA SƏFƏR

*18 sentyabr 2013-cü il* ........................................................................ *144*

İKİ MÜQƏDDƏS OCAĞIN XADİMİ, SƏUDİYYƏ
ƏRƏBİSTANININ KRALI ƏLAHƏZRƏT ABDULLAH BİN
ƏBDÜLƏZİZ AL SƏUDA

*19 sentyabr 2013-cü il* ........................................................................ *179*

SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ VƏLİƏHDİ, BAŞ NAZİRİN MÜAVİNİ, MÜDAFİƏ NAZİRİ ƏLAHƏZRƏT SALMAN BİN ƏBDÜLƏZİZ AL SƏUDA

*19 sentyabr 2013-cü il*..........................................................................*180*

QARADAĞ RAYONUNDA MÜASİR STANDARTLARA CAVAB VERƏN GƏMİQAYIRMA ZAVODUNUN AÇILIŞI MƏRASİMİ

*20 sentyabr 2013-cü il*..........................................................................*181*

UEFA-nın PREZİDENTİ MİŞEL PLATİNİ İLƏ GÖRÜŞ

*21 sentyabr 2013-cü il*..........................................................................*195*

ALMANİYA FEDERATİV RESPUBLİKASININ FEDERAL KANSLERİ XANIM ANGELA MERKELƏ

*23 sentyabr 2013-cü il*..........................................................................*196*

AVROPA MİLLİ KİTABXANALARI KONFRANSININ PREZİDENTİ BRUNO RASİNE VƏ AVRASİYA KİTABXANALAR ASSAMBLEYASININ VİTSE-PREZİDENTİ QULİSA BALABEKOVA İLƏ GÖRÜŞ

*23 sentyabr 2013-cü il*..........................................................................*197*

ATƏT-in DEMOKRATİK TƏSİSATLAR VƏ İNSAN HAQLARI BÜROSUNUN SEÇKİLƏRİ MÜŞAHİDƏ MİSSİYASININ RƏHBƏRİ XANIM TANA DE ZULUETA İLƏ GÖRÜŞ

*24 sentyabr 2013-cü il*..........................................................................*198*

KENİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB UHURU KENİATTAYA

*25 sentyabr 2013-cü il*..........................................................................*199*

BAKININ NİZAMİ RAYONUNDA İSTİFADƏYƏ VERİLMİŞ 204 SAYLI ELEKTRİK YARIMSTANSİYASININ AÇILIŞINDA İŞTİRAK

*25 sentyabr 2013-cü il ........................................................................200*

PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏMNUN HÜSEYNƏ

*26 sentyabr 2013-cü il ........................................................................206*

BÖYÜK BRİTANİYA BAŞ NAZİRİNİN TİCARƏT ÜZRƏ ELÇİSİ, LORDLAR PALATASININ ÜZVÜ LORD RİSBİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*26 sentyabr 2013-cü il ........................................................................207*

BAKI–2017 IV İSLAM HƏMRƏYLİYİ OYUNLARININ TƏŞKİLAT KOMİTƏSİ TƏRƏFİNDƏN «İSLAMİADA»ya HƏSR OLUNMUŞ «AZƏRBAYCAN GÜNÜ» MƏRASİMİNƏ VİDEOMÜRACİƏT

*26 sentyabr 2013-cü il ........................................................................208*

ŞABRAN RAYONU ƏRAZİSİNDƏ İNŞA OLUNAN TAXTAKÖRPÜ SU ANBARI, TAXTAKÖRPÜ SU-ELEKTRİK STANSİYASI VƏ TAXTAKÖRPÜ–CEYRANBATAN SU KANALININ AÇILIŞI MƏRASİMİ

*28 sentyabr 2013-cü il ........................................................................211*

ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB Sİ CİNPİNƏ

*27 sentyabr 2013-cü il ........................................................................223*

KOREYA RESPUBLİKASININ PREZİDENTİ XANIM PAK KIN HEYƏ

*30 sentyabr 2013-cü il ........................................................................224*

ALMANİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB YOAXİM QAUKA

*30 sentyabr 2013-cü il ........................................................................225*

AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORU
YANINDA KORRUPSİYAYA QARŞI MÜBARİZƏ
İDARƏSİNİN YENİ İNZİBATİ BİNASININ AÇILIŞI
MƏRASİMİ

*30 sentyabr 2013-cü il ........................................................................226*

BAKININ BİLGƏH QƏSƏBƏSİNDƏ MÜHARİBƏ VƏ ƏMƏK
ƏLİLLƏRİ ÜÇÜN PANSİONATDA TİKİLMİŞ YENİ
KORPUSUN AÇILIŞI MƏRASİMİ

*1 oktyabr 2013-cü il...........................................................................235*

«AZƏRBAYCAN HAVA YOLLARI» QSC-nin
HAVA HƏRƏKƏTİNİN İDARƏEDİLMƏSİ BAŞ
MƏRKƏZİNİN YENİ BİNASININ AÇILIŞI MƏRASİMİ

*2 oktyabr 2013-cü il...........................................................................244*

SUMQAYIT ŞƏHƏRİNƏ SƏFƏR

*3 oktyabr 2013-cü il...........................................................................251*

İNDONEZİYANIN PALEMBANQ ŞƏHƏRİNDƏ KEÇİRİLƏN
III İSLAM HƏMRƏYLİYİ OYUNLARINDA QALİB GƏLMİŞ
İDMANÇILARIMIZ, ONLARIN MƏŞQÇİLƏRİ VƏ İDMAN
MÜTƏXƏSSİSLƏRİ İLƏ GÖRÜŞ

*4 oktyabr 2013-cü il...........................................................................270*

NAZİRLƏR KABİNETİNİN 2013-cü İLİN 9 AYININ SOSİAL-
İQTİSADİ İNKİŞAFININ YEKUNLARINA VƏ QARŞIDA
DURAN VƏZİFƏLƏRƏ HƏSR OLUNMUŞ İCLASINDA
İŞTİRAK

*6 oktyabr 2013-cü il...........................................................................280*

YEKUN NİTQİ

*6 oktyabr 2013-cü il............................................................................291*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ

*4 oktyabr 2013-cü il............................................................................303*

AZƏRBAYCANDA PREZİDENT SEÇKİLƏRİ ÜZRƏ
MÜŞAHİDƏ MİSSİYASININ RƏHBƏRİ PİNO ARLAÇİNİN
BAŞÇILIQ ETDİYİ AVROPA PARLAMENTİ NÜMAYƏNDƏ
HEYƏTİ İLƏ GÖRÜŞ

*7 oktyabr 2013-cü il ...........................................................................304*

FRANSA SENATININ ÜZVÜ, SENATIN MÜŞAHİDƏ
MİSSİYASININ RƏHBƏRİ NATALİ QULENİN BAŞÇILIQ
ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*7 oktyabr 2013-cü il............................................................................305*

PREZİDENT SEÇKİLƏRİ GÜNÜ 6 SAYLI SEÇKİ
MƏNTƏQƏSİNDƏ SƏSVERMƏDƏ İŞTİRAK

*9 oktyabr 2013-cü il ...........................................................................306*

PREZİDENT SEÇKİLƏRİNİN İLKİN NƏTİCƏLƏRİ İLƏ
BAĞLI XALQA MÜRACİƏT

*10 oktyabr 2013-cü il..........................................................................307*

«AZƏRBAYCAN 10 İLDƏ. SOSİAL-İQTİSADİ İNKİŞAF:
DÖVLƏT PROQRAMLARININ İCRASI» SƏRGİSİ İLƏ
TANIŞLIQ

*10 oktyabr 2013-cü il..........................................................................312*

MDB-nin MÜŞAHİDƏ MİSSİYASININ RƏHBƏRİ SERGEY
LEBEDEVİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ
İLƏ GÖRÜŞ

*10 oktyabr 2013-cü il..........................................................................320*

TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN ÖLKƏMİZDƏ KEÇİRİLƏN PREZİDENT SEÇKİLƏRİNDƏ MÜŞAHİDƏÇİ KİMİ İŞTİRAK EDƏN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*10 oktyabr 2013-cü il*..........................................................................322

PAKİSTAN SENATININ SƏDR MÜAVİNİ SABİR ƏLİ BƏLUCUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*10 oktyabr 2013-cü il*..........................................................................324

ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT

*10 oktyabr 2013-cü il*..........................................................................325

QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

*12 oktyabr 2013-cü il*..........................................................................326

NEFTÇİLƏR PROSPEKTİNDƏ VƏ HÖKUMƏT EVİNİN QARŞISINDAKI ƏRAZİDƏ İSTİFADƏYƏ VERİLMİŞ İKİMƏRTƏBƏLİ YERALTI AVTOMOBİL DAYANACAĞINDA YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*14 oktyabr 2013-cü il*..........................................................................327

BAKININ XƏTAİ RAYONUNDA 1 SAYLI ÇÖRƏK ZAVODUNUN İSTİFADƏYƏ VERİLMƏSİ MƏRASİMİ

*18 oktyabr 2013-cü il*..........................................................................329

ƏHMƏDLİ YAŞAYIŞ MASSİVİNDƏKİ RAHİB MƏMMƏDOV KÜÇƏSİNDƏ YENİDƏN QURULAN PARKDA YARADILMIŞ ŞƏRAİTLƏ TANIŞLIQ

*18 oktyabr 2013-cü il*..........................................................................333

YENİDƏN AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ SEÇİLMİŞ İLHAM ƏLİYEVİN ANDİÇMƏ MƏRASİMİ

*19 oktyabr 2013-cü il*..........................................................................*335*

ANDİÇMƏ MƏRASİMİNDƏ NİTQ.........................................................*338*

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN
MƏZARINI ZİYARƏT

*19 oktyabr 2013-cü il*..........................................................................*355*
ŞƏHİDLƏR XİYABANINI ZİYARƏT

*19 oktyabr 2013-cü il*..........................................................................*356*

DÖVLƏT BAYRAĞI MEYDANINI ZİYARƏT

*19 oktyabr 2013-cü il*..........................................................................*357*

ATƏT-in MİNSK QRUPUNUN AMERİKALI HƏMSƏDRİ
CEYMS UORLİK İLƏ GÖRÜŞ

*21 oktyabr 2013-cü il*..........................................................................*358*

NƏRİMANOV RAYONU ƏRAZİSİNDƏ YENİ
SALINMIŞ «DƏDƏ QORQUD» PARKINDA GÖRÜLƏN
İŞLƏRLƏ TANIŞLIQ

*22 oktyabr 2013-cü il*..........................................................................*359*

«STATOYL» ŞİRKƏTİNİN PREZİDENTİ HELGE LUND
İLƏ GÖRÜŞ

*23 oktyabr2013-cü il*...........................................................................*360*

AVSTRİYA RESPUBLİKASININ FEDERAL PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB HAYNTZ FİŞERƏ

*23 oktyabr 2013-cü il*..........................................................................*361*

TÜRKMƏNİSTAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB
QURBANQULU BERDIMƏHƏMMƏDOVA

*24 oktyabr 2013-cü il*..........................................................................*362*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB ABDULLAH GÜLƏ

*25 oktyabr 2013-cü il.........................................................................363*

TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ
ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA

*25 oktyabr 2013-cü il.........................................................................364*

BELARUS RESPUBLİKASINA SƏFƏR

*25 oktyabr 2013-cü il.........................................................................365*

QEYDLƏR..............................................................................................*366*

Şəxsi adlar göstəricisi ..........................................................................*384*

Coğrafi adlar göstəricisi........................................................................*387*

**Texniki redaktor** *Zoya Nəcəfova*
**Yığım üzrə operator** *İlhamə Kərimova*
**Kompüter tərtibatı** *Məhəbbət Orucov*

Cildin hazırlanmasında AZƏRTAC-ın materiallarından
istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84×108 1/32. Ofset kağızı 1.
Şərti çap vərəqi 25,0. Uçot nəşr vərəqi 25,5. Tirajı 5000.
Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı.
Bakı – Mehdi Hüseyn küç. 61, dalan 2, ev 3.

«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.